Şirməmməd Hüseynov

MÜSTƏQİLLİYİN



ÇƏTİN YOLU...

reallıqlar, düşüncələr

T3(2A)
H98



ŞİRMƏMMƏD HÜSEYNOV

MÜSTƏQİLLİYİN ÇƏTİN YOLU...

Reallıqlar, düşüncələr

252226

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Bakı - «Elm» - 2009

Redaktoru: **Ülkər Hüseynova**

Hüseynov Ş. Müstəqilliyin çətin yolu... **Reallıqlar, düşüncələr** (əlavələrlə, ikinci nəşri). Bakı: «Elm», 2009. – 540 s.

ISBN 5-8066-1711-4

Kitaba müəllifin 1988-1993-cü illərdə, həmçinin 2007-2009-cu illərdə yazılmış və respublika mətbuatında dərc olunmuş yazılarının bir qismi daxil edilmişdir. Son illərə qədər qadağan edilmiş və açıqlanmamış tarixi sənədlərə, görkəmli ictimai-siyasi və mədəniyyət xadimlərinin, jurnalist və publisistlərin əsrin əvvəllərində mətbuat səhifələrində dərc olunmuş əsərlərinə istinadən müasir həyatımız və hadisələrlə səsləşən, onların tarixi əlaqəsi və köklərini anlamağa yardım edən bu yazıların geniş oxucu kütləsi üçün faydalı olacağı şübhəsizdir.

Kitabda keçdiyimiz məşəqqətli illərin bir sıra mühüm hadisələrinə siyasi şərhçi münasibəti də maraq doğurmaya bilməz.

H $\frac{4502000000}{655(07)-2009}$

© «Elm» nəşriyyatı, 2009

ÖZ GÖZÜ İLƏ GÖRÜB ÖZ AĞLI İLƏ DÜŞÜNMƏK

Jurnalistlərimizin ağsaqqalı Şlrməmməd Hüseynov Azərbaycanda sovet rejimi qurulana qədərki dövrü mətbuatı böyuk səbr və həssaslıqla izləmiş, iynə ilə gor qaza-qaza M. Ə. Rəsulzadə, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Ömər Faiq Nemanzadə, Üzeyir bəy Hacıbəyli və b. bu kimi böyük qələm sahiblərinin bu gün bizim üçün lazım olan fikir və mülahizələrini üzə çıxarmış, bu kitabı ilə oxucuya təqdim etmişdir.

Kitabda toplanan yazılar içərisində elələri var ki, bunlar bugünkü oxucular və tədqiqatçılar üçün tamamilə yenidir. Məsələn, «Azərbaycan» qəzetinin 1918-ci il 3 oktyabr tarixli Bakıda çıxan ilk beşinci nömrəsi, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə dair bir sıra sənədlər, «Şəki inqilabdan əvvəlki mətbuat səhifələrində» başlığı altında verilmiş yazılar və s. Bu yazıların hamısı onları üzə çıxarıb oxuculara təqdim edən müəllifin toxunulan məsələlər barədə ümumiləşdirici məqalələri ilə müşayiət olunur. Biz bu yazıları oxuduqca tarixin necə də təkrar olunduğunu və ən mühümü də başımıza gətirilən müsibətlərin bu qaynaqdan tuşlandığının şahidi oluruq.

O zaman «Nicat» cəmiyyətinin sədri olan Məhəmməd Əmin Rəsulzadənin «Tərəqqi» qəzetində (26 noyabr, 1908) nəşr etdirdiyi «Fitnə və provakasiya» məqaləsində Qafqaz qartalı Şeyx Şamilin milli azadlıq hərəkatından bəhs edən «Qəzavat» pyesinin tamaşasının gizli bir əl tərəfindən yasaq edilməsindən söhbət açılır. Bu gizli ad o zaman Bakıda yaşayan Dağıstan əhlini qızışdırıbmış ki, guya Azərvaycan türkləri «Qəzavat» pyesini oynamaqla Şeyx Şamili və onun millətini lağa qoymuş, təhqir etmişlər. Bunu eşidən «Nicat» cəmiyyətinin üzvləri Dağıstan nümayəndələrini tamaşanın məşqinə baxmağa dəvət etmiş, onlar gəlmiş, tamaşadan razı qaldıqlarını bildirmiş və üzr istəmişlər. Buna baxmayaraq, yenə da tamaşanın göstərilməsi qadağan edilmişdir. Məqaləsində bu əhvalatı təfsilatı ilə nəql edən M.Ə.Rəsulzadə yazır: Görünür, onlar fürsət axtarırmışlar ki,

ləzgi qardaşlarla Bakı camaatı arasında ixtişaş salsınlar». Yerində deyilmiş bu fikir necə də bu günlə səsləşir. Ssenari bir, məqsəd bir, provakasiya üsulları isə başqa... Bu məqalənin bu gün təkrar çap olunması həm bizim üçün, həm də respublikamızda yaşayan qeyri-millətlər üçün çox vacibdir.

Təəssüf olsun ki, əsrimizin əvvəllərində bizim böyük qələm sahiblərinin görüb yazdıqlarından biz əsrin sonunda nəticə çıxara bilməmiş, eyni tora yenidən düşmüşük. Çunki böyüklərimizin vaxtilə yazıb miras qoyduqlarını bizə vaxtında çatdırmamış, tarixi yaddaşımızı unutdurmuşlar. Bu mənada bir daha bu yazıların, bu gün kitab halında çap olunması bizdən daha çox gələcək nəsillər üçün vacibdir. Biz heç... Qoy balalarımız, nəvə-nəticələrimiz atalarımızın bizə verdiyi dərsdən nəticə çıxartsınlar.

Rus imperiyasının yardımı ilə erməni millətçilərinin Azərbaycanda törətdiyi müsibətləri göstərən bu yazılar elə bil bu gün bizim qarşımızda ayna tutur. Ermənilərin bugünkü iddialarının əsas məqsədini açıqlamaq üçün haqlı olaraq müəllif tarixə üz tutur: «Əkinçi», «İrşad», «Açıq söz», «Hümmət», «Tərəqqi» kimi qəzetlərdə çap olunan yazılarla bizi erməni fitnəsinin tarixi köklərini anlamağa və bunları təhlildən keçirməyə çağırır. Müəllif demək istəyir ki, bütün bunlar əsası çox qədimdən qurulmuş «Böyük Ermənistan» xülyasının ardıcıl davamıdır və burada o, Ömər Faiq Nemanzadənin ürək yanğısı ilə yazdığı «Nə etməliyik?» məqaləsini bizə təqdim edir və yazır: «5 əsrdən çoxdur ki, 25 yaşına çatmış hər bir erməni hər il «millət vergisi» verməyə məcbur edilir. Tam bir əsrdir ki, erməni millətçilərinin Daşnaksutyun partiyası dünya ermənilərini «Böyük Ermənistan» uğrunda səlib yürüşünə səsləyir».

Kitabda müxtəlif qəzet müxbirlərinin Ş.Hüseynovla müsahibələri də verilmişdir. Bu musahibələr, günümüzün mühüm hadisələrinin əsl siyasi icmalçı kimi doğru və düzgün təhlilidir. Bu təhlillərin bir çoxu son dərəcədə bədii və obrazlıdır. Məni bir şair kimi də ovsunlayan müəllifin bəzən ictimai hadisələri təbiət hadisələri ilə qiyaslandıra bilməsidir. Məsələn, müəllif belə hesab edir ki, Yer üzündəki bütün təbii fırtınalar (vulkan puskürməsi, zəlzələ və s.) Günəş enerjisinin qeyri-bərabər bölünməsi nəticəsində baş verdiyi kimi, ictimai böhranlar da maddi nemətlərin qeyri-bərabər bölünməsi, milli ədalətsizlik zəminində meydana gəlir. Demək həm təbiət və həm də cəmiyyətdəki fırtınaların əsas səbəbi ədalətsizlikmiş. Bu, son dərəcə orijinal və maraqlı bir baxışdır. Millət üçün siyasi mədəniyyətin vacibliyini sübut etməyə çalışan müəllif dünyamızın bugünkü mənzərəsindən çox maraqlı bir müqayisə gətirir: «Nə üçün Şərqi Avropanın sosialist ölkələrində avtoritar rejimdən demokratik quruluşa keçid çox sürətlə, əsasən ağrısız və tələfatsız keçir, keçmiş Sovet İttifaqı isə hələ də çalxalanır? Ona görə ki, Rusiyada və sonralar Sovet İttifaqında siyasi mədəniyyət aşağı səviyyədə olub».

Bu, hadisələrə son dərəcədə düzgün və ibrətamiz münasibətdir. Çünki tam siyasi azadlığı əldə etmək üçün siyasi mədəniyyətin vacib şərt olduğunu birdəfəlik dərk etməliyik.

Kitabda gedən məqalələrin bir qismi din və millət məsələlərinə həsr olunmuşdur. Bu məqalələrdə M.Ə.Rəsulzadə dini mənsubiyyətlə milli mənsubiyyət məsələsini bir-birindən ayırır və islam dininin milli mənsubiyyəti inkar etmədiyini irəli sürür.

Bu cəhətdən «Açıq söz»də dərc olunmuş «İslam dini və ana dili» məqaləsi bu məsələlərə elmi yanaşmanın ən gözəl nümunəsidir. Məqalədə göstərilir ki, milli mənsubiyyətin əsas amili o millətin doğma dilidir və islam dininə mənsub olan bütün millətlərin ana dili qorunub saxlanmalıdır. Əks təqdirdə o millət məhv ola bilər. Bu məsələdə o, daha irəli gedərək göstərir ki, «Dilək öz dilində diləmək, istədiklərini öz dilində istəmək... ağzından çıxan sözlərin nə mənada sözlər olduğunun özünü də bilmək bizcə daha məqul görünüyor».

«Açıq söz» «İslama mənsub olan hər millət bəzi duaları öz ana dilində desə bu, dini birliyimizə ziyan gətirə bilər» - deyənlərə cavab olaraq yazır ki, «Duaların mənalarını anlamaqla xalqda islamın ruhunu, fikrini anlamaq daha da irəlilər... Bu gün islam aləmində olan zahiri birlik o zaman ruhi və mənəvi birliyə mübəddəl olar».

Göründüyü kimi, böyük ustad toxunduğu hər məsələnin mahiyyətinə enir, onun bəzəyini deyil, özəyini görür və problemlərə müasirlik baxımından yanaşır. Yalnız bu məqalə onun yaratdığı bayrağın üç rəngli olmasının mahiyyətini açır: islamlaşmaq (dinimiz) türkləşmək (millətimiz) və müasirləşmək. Bu isə millətin gələcəyinə, taleyinə mütəfəkkirənə yanaşmağın nəticəsi idi. Buna görə də onun hələ 1917-ci ildə irəli sürdüyu bu uzaqgörənlik bu gün üçün də, sabah üçün də məqbuldur.

Mən bu kitabda toplanan məqalələrin böyük əksəriyyətini vaxtilə müxtəlif qəzet səhifələrində oxumuşam. İndi toplu halda oxuyanda toxunulan məsələlərlə və bu məsələlərə müəllif münasibəti ilə tanış olduqca, bütun bu yazıların içindən keçən vahid bir xətt görürəm. Bu xətt bunları yazan muəllifin vahid prinsipi, fikri və əqidəsidir. Bu prinsip, bu baxış və bu əqidə məqalədən məqaləyə dərinləşir və 50 ilə yaxın bir müddətdə tanıdığım əqidə qardaşım Şirməmməd Hüseynovun vətəndaş obrazını tamamlayır. Şirməmmədi yaxından tanıyanlar çox yaxşı bilir ki, onu ömrü boyu tutduğu yoldan və tapındığı əqidədən qoparmaq, heç olmasa bir balaca laxlatmaq belə mümkün deyil. O, inandığına inanır, nifrət etdiyinə sona qədər nifrət edir, sevdiyini isə tərəddüdsüz sevir. Bir sözlə, qələmindən çıxan bütün yazılarının arxasından onun sınmaz, dönməz, əyilməz şəxsiyyəti boylanır. Bu isə qələm əhli üçün çox vacib şərtdir. O, ətrafımızda cərəyan edən irili-xırdalı bütün hadisələrə yalnız öz gözləri ilə baxır, öz ağlı ilə də qiymətləndirir. Onun öz yaxınlarına, qohum-qardaşına, dostlarına və hətta övladlarına olan münasibəti də eyni güzəştsiz prinsip və eyni baxış əsasında qurulmuşdur.

Ömrü boyu vətəninə, millətinə, doğma ana dilinə səcdə qılan, onların taleyini öz şəxsi taleyi bilən və bu əqidəsi yolunda qələmi ilə çarpışan əsl vətəndaş jurnalistin, tarix aliminin qələmindən çıxan bu kitabın hər bir azərbaycanlının masaüstü kitabı olacağına inanıram.

Bəxtiyar VAHABZADƏ,
Xalq şairi, akademik

AZƏRBAYCAN MƏTBUATINDA NOVRUZ

Milli bayramlar tarixi həqiqət, tarixi yaddaşla bağlıdır. Əsl bayram yalnız adi sevinc, ötəri təntənə deyil. Onun kökləri çox dərindədir. Xalq o hadisəni, o günü hafizəsində saxlayır, nəsildən-nəslə verir ki, onun varlığı, taleyi, cəsarət və rəşadəti, qeyrəti və namusu, birliyi və xeyirxahlığı, bir sözlə, gələcəyi həmin hadisə və günlə bağlı olsun. Xoş günlər xalqa öz qara günlərinin də səbəblərini və mahiyyətini anlamasına kömək edir, nəinki öz qüvvələrini tam dolğunluğu ilə dərk etməsinə, həm də irəliləyişinə mane olan cəhətlərin tarixi köklərini görməsinə yardım göstərir. Milli bayramı, deməli tarix yaddaşı olmayan xalqa - bəsit xalq deyirlər.

Başqa deyimlə inqilabdan əvvəlki qəzetlərdən birinin yazdığı kimi «bayramını saxlaya bilən milləti dünyada yaşamağa hazırlanmış bir millət sayırlar». Bunları fikirləşdikcə, Novruz bayramının böyüklüyü, əzəməti, onu min illər boyu (icazə versələr də, verməsələr də) hər cür şəraitdə qeyd etmiş və indi də qeyd edən xalqımızın yaddaş qeyrətinə əhsən deməmək olmur.

Novruz rəsmiyyətdən ziyadə səmimi və mənəvi simalı, bütün xüsusiyyətləri ilə milli ruhlu, ümumxalq xarakterli dünyəvi bayramdır. Nə yaxşı ki, Novruz bayramı var! - deyirəm. Amma Novruz bizə yox, görün nə qədər biz bu əziz günə, bu bayrama borcluyuq. Onun əmələgəlmə tarixi, mənası, ictimai-sosial, fəlsəfi, əxlaqi cəhətləri, mədəniyyət və məişətimizin inkişafı sahəsindəki rolu nə qədər böyükdür. Hansı bir ayrıca sanballı əsərin, kütləvi kitabçanın adını çəkə bilərik. Ümid edək ki, yaşadığımız demokratiya və aşkarlıq dövrü çox tarixi həqiqətlər və hadisələr kimi Novruz mövzusunu da gündəliyə gətirəcəkdir. Mən isə bir mətbuat tarixçisi kimi, «Əkinçi» qəzetindən bu yana inqilabdan əvvəlki, bəzi mətbuat orqanlarının bayram günləri nöm-

rələrini vərəqləməyə başlamışam. İlk təəssüratımı oxucularla bölüşmək istəyirəm.

Əvvəla, deyim ki, martın 21–22-si (köhnə təqvimlə martın 8-9-u) adətən Azərbaycanda da iş günü olmadığına görə milli qəzetlərin növbəti nömrələri həmin günlər bir qayda olaraq çıxmayıb. Bayram xəbərləri və onunla əlaqədar yazılar isə əvvəl və yaxud bayramdan sonrakı nömrələrdə verilib. Bu barədə qəzetlərdə elanlar da var. Məsələn, həftəlik «Təkamül» qəzeti 1907-ci il martın 12-si nömrəsində «İdarədən» sərlövhəli yazısında oxuculara müraciətində bildirirdi ki, «Novruz bayramı münasibətilə nömrəmiz təxirə düşmüşdür». «Açıq söz» qəzetinin 1917-ci il 8 mart tarixli nömrəsində oxuyuruq: «Bu gün martın 8-ində il təhvil olmağı üçün həm bayram, həm də bayram axşamı, 9-u bayram, 10-u cümə günü. Qəzet 12-də çıxacaq».

Ümumiyyətlə, Novruz bayramı günü əvvəllər Azərbaycanda milli bayram günü kimi heç vaxt iş günü olmayıb. İnqilabın ilk illərində də bu ənənəyə əməl edilirdi. Lakin sonralar... məlumdur. Əsl xalq bayramı olan Novruz ümumxalq ictimai-mədəni səhnəsindən sıxışdırıldı. Lakin xalq onu heç bir müstəbid və bürokratın əli çatmayan, ünü yetməyən müqəddəs məbədində - qəlbində, milli varlığının ilkin özəyini - ailəsində qoruyub saxlamışdır. İndi əsas məsələ Novruzun ilkin tarixi, ümumxalq bayramı hüququnu özünə qaytarmaqdan ibarətdir. Bu, Azərbaycan xalqının inqilabi yenidənqurma və aşkarlıqla oyanmış milli mənlik şüurunun, bugünə və gələcəyə nikbin baxışının, yeniləşmə və müasirləşmə hissinin daha da artması və təkmilləşməsi baxımından da faydalı olardı. Respublika rəhbərliyinin, geniş ictimaiyyətin yeni təfəkkür tərzi və əməli fəaliyyəti əsas verir deyək və ümid edək ki, yeni seçiləcək respublika Xalq Deputatları qurultayında xalqın ürəyindən olan bu məsələ qaldırılacaq və öz müsbət həllini tapacaqdır.

İkinci, diqqəti cəlb edən cəhət budur ki, Novruz bayramını azərbaycanlılarla birlikdə burada yaşayan və işləyən digər millət

və xalqların nümayəndələri də birgə qeyd edirdilər. Daha dəqiq desək, azərbaycanlılar öz sevinclərini onlarla bölüşürdülər. Birgə iməciliklər keçirilir, təmizlik işləri görülür, tamaşalar verilirdi. «Bir fincan çay» mərasimi xeyriyyə cəmiyyətlərinin fəaliyyətində əsas yer tuturdu. Bu mərasimlərdə ehtiyacı olanlar üçün ianə toplanırdı. Məsələn, 1917-ci il martın 12-sində «İsmailiyyə»də keçirilən belə mərasimdə 7500 manat pul toplanmışdı. «Yığılan pulu inqilabda, hürriyyət yolunda ölən fədailərin ailələrinə vermək qət edilmişdi». Yeri gəlmişkən «Açıq söz» qəzetində «İsmailiyyə»də keçirilən «Bakıda mövcud millətlərin nümayəndələrindən mürəkkəb» bu yığıncaq-mərasim haqqında «Novruzu hürriyyət» sərlövhəli çox geniş və maraqlı hesabat dərc olunmuşdur. Məlum olur ki, şəhər qlavası və digər rəsmi şəxslərin, ictimai-siyasi dairələrin, çoxmilli xeyriyyə cəmiyyətləri nümayəndələrinin iştirak etdikləri Novruz bayramı məclisi böyük təntənə və dostluq hissləri ilə müşayiət olunmuşdur. Qeyd edilmişdir ki, «Novruz hər il adla təzə idisə, bu gün mənaca da təzədir adamlar hürriyyət və azadlığın həqiqi bir rəmzi (simvolu) olan bahar bayramını həqiqi surətdə səmimi qəlblə icra edirlər...» və s.

Millətlərarası münasibətlərin, həm də səmimi insani münasibətlərin möhkəmlənməsi baxımından bu cür tədbirlərin xeyri, faydası misilsizdir. Bu, necə deyərlər, «yuxarıdan» deyil, (yuxarıların inqilabdan əvvəlki milli siyasəti bizə məlumdur) «aşağıdan» təbii olaraq yaranmış ənənə idi. Onu bərpa və davam etdirməyə bu gün də çox böyük ehtiyac var.

Nəhayət, Novruz bayramının yaranma tarixinə, bu barədəki düşüncələrə, fikir və mülahizələrə həsr edilmiş yazıları qeyd etmək istəyirəm. Məlumdur ki, 1917-ci ilin fevralında Rusiyada 300 ildən çox hökm sürmüş və «xalqlar həbsxanası» yaratmış Romanovlar sülaləsi taxtdan salınmışdı, Burjua-demokratik inqilabı qələbə çalmışdır. Martın əvvəllərindən bütün Rusiyada olduğu kimi, Azərbaycanda da bayram əhvalı vardı. Yerli qə-

zetlərdən birinin yazdığı kimi «həqiqi bayram və həqiqi şənlik, şadmanlıq günləri idi». Bu əhval qəzetlərin Novruz bayramına həsr edilmiş yazılarında da öz bariz əksini tapırdı. Nümunə üçün «Açıq söz» qəzetinin 1917-ci il martın 15-də «Bahari hürriyyət» sərlövhəsi ilə dərc etdiyi baş məqaləsini olduğu kimi oxuculara təqdim edirəm. Yeri gəlmişkən deyim ki, inqilabdan əvvəlki mətbuatda Novruz bayramına həsr edilmiş az-çox əhəmiyyətli yazıları yığıb külliyyat şəklində buraxmaq da pis olmaz. Onda bu bayramın mahiyyəti, onun haqqındakı əsassız söz-söhbət də birdəfəlik kəsilərdi.

BAHARİ-HÜRRİYYƏT

Baharın birinci ayı olan mart Şərq millətlərinin adətən bayram ayıdır. Bu ayda təbiət təzələnir. Təbii həyata yaxın olan Şərq aləmi də bu təzəlikdən bir zövq alır, təzələnir. Çöllər, çəmənlər çiçəklənir, gül-çiçək içində yaşayan insanlar da təzələnir, ruhlanırlar.

Əski iranilər mart ayında Hürmüzün Əhrimənə qələbə çaldığını bayram edirdilər. Günəş Hürmüzün əlaməti idi. Bahar onun səltənəti idi. Qış Əhrimənin vətəni, dondurduğu soyuq onun libası idi. İşıqlı Hürmüz didarını göstərincə Novruz olurdu. Novruz demək ziruh[1], zinmu[2] və zivücud[3] nə varsa hamısının azadlığı demək idi.

Arianlılarca bu azadlıq ayı olan mart, dastanlarda iranilərin müqabili kimi görülən turanlılarca da qurtuluş ayı idi. Təzə kəşf olunmaya başlayan moğul əsatiri mənidar bir əfsanə nəql edir.

---

[1] Ziruh - ruhu olan canlı - yəni insan
[2] Zinmu - bitkilər aləmi
[3] Zivücud - heyvanlar aləmi

Bu əfsanəyə görə türklər bir zaman keçilməz bir dağ arxasında «Kənəqunda» məhsur olmuş, dünya üzünə çıxmaq imkanı bulmamışlardı. Abadlıqdan uzaq düşən bu yolazmışlara bir «alakeyik» (keçi) tapılmış süd vermişdi. Bu ürək yıxdırıcı əsarətdən illər, əsrlər keçmiş, türklər (moğullar) geniş dünyaya çıxmaq üçün yol tapmamışlardı. Halbuki, gündən-günə ürüyür, artır, «hasar»ı yarıb çıxmaq onlardan ötrü bir ehtiyac halını alırdı. Nakah haradansa gözlərinə bir qurd (pürtəcnə) göründü. Bu qəribə heyvanı qovdular, ardından düşdülər. Heyvan özünü dağdakı dəliklərdən birisinə vurub o biri tərəfə keçdi. Bu, dəlik hasar içində qalmış türkləri maraqlandırdı. Tədqiqə başladılar. Dağları yıxmaqdan aciz olduqlarını gördülər. Tamam məyus olduqları bir sırada, bir dəmirçi tapılıb dağın qurd keçdiyi yerinin «filiz» (metal)dən olduğunu anladı. Haman odun və ot-uvar yığıb odladılar, dağı əritdilər. Açıq dünyaya keçdilər. Əsarətdən qurtuldular. Bu «qurtuluş» əsatircə martın 9-da (yeni təqvimlə martın 22-də - *Ş. H.*) vaqe olmuşdur. Şayani-etinadır ki, nicat və azad olmaq mənasına gələn türkcə «qurtulmaq» və «qurtuluş» sözləri haman «qurt» və «olmaq» sözlərindən tərkib edilir. «Qurtulmaq» etimal «qurt olmaq» - deməkdir ki, qurt kimi yol bulub mühasirədən çıxmağa dəlalət edir.

Şərqin iki böyük milləti Novruz ilə qurtuluşunu mart ayında bulmuşdur.

Yalnız Şərqmidir? Bu gün qaliba martda və ya apreldə saxlanan xristian eydi-fəsxi (pasxası) xristianlıqdan əvvəlki Qərb aləminə biganə deyildir. Bahar bu tərəflərdə Şərqdən bir az gec düşdüyü üçün Qərbin «Novruz»u günbatanın «qurtuluş»u da biltəbi bir az sonra gəlmişdir. Xristianlıq aləmi pasxa bayramında həzrət İsanın təzədən dirildiyinə etiqad edir. Ondan əvvəlki bütpərəst Avropa isə təbiətin dirildiyini bayram saxlarmış!!!

İnsan mövcudiyyətini ancaq təbiətlə mübarizədə hiss edər və

bu mübarizədəki müvəffəqiyyəti nisbətində də özünü bəxtiyar əddedər[1].

Zaman keçdi, bəşəriyyət təbiətlə elədiyi mubarizə nəticəsində hasil elədikləri qənimətləri bölüşmək üstündə bir-biri ilə boğuşmağa başladı. Yek digəri ilə boğuşmaqda olan insanların münasibətini tənzim etmək üçün hökumətlər quruldu. Hökumətlər qurulunca insanlardan ən qüvvətliləri o birilərinə faiq[2] gəlməyə başladılar. Və təbiətdəki qüvvətli ünsürlər kimi insan övladını qorxuya salıb, özlərinə tabe qıldılar. Hökumətdə istibdad vücudə gəldi. Bu istibdad bir növ «Əhriməni», bir növ «mühasirə» idi. Bəşəriyyət bir gün gələcək böyüyəcək, əqli şey kəsəcək, bu «Əhriməni»i də basacaq, bu «hasar»dan da qurtulacaqdır. Siyasətdə də Novruz olacaq, hökumət usuli-idarələrinin də baharı gələcəkdir.

Bu «bahar»ı dünyanın böyük müslühləri tevsiyə etdilər, şairlər, ədiblər məsləhət gördülər, hökumət əhri-mənlərinə yalvardılar. Rəhmət, şəfqət və rəiyyətpərvərlik yaxşı olduğunu anlamaq istəmədilər. Camaatlar yalvardılar, yaxardılar. Fəqət olmadı, yalvar-yaxarla müstəbidlər, şirin kəlam olduqları iqtidarı əllərindən vermək istəmədilər. Millətlər ağladılar, nalə etdilər, ah və fəqanə gəldilər. Fəqət onlardan bu əhvalatdan mütəəssür olmayıb bilaəks ondan bir növ zövq aldılar. Nəhayət, bəşəriyyət təngə gəldi. Dua ilə donuzun bağçadan çıxmayacağını anladı. Bu dəfə meydana gələn Fransa inqilabı mütəfəkkir və mühərrirləri yalvarmaq deyil, tələb etməyə başladılar. Millət öz hüququnu almalıdır dedilər. Sədilərin nəsihətini dinləməyən müstəbidlər Russoların üsyanından mütəəssir olmaq, Monteskye fəlsəfəsinə qarşı baş əymək məcburiyyətində idilər.

Fransa inqilabı başladı. Dünyanın ən muqtədir müstəbidi

---

[1] Əddedər - sayar
[2] Faiq - qalib

sayılan Lyüdoviq taxtdan salındı. Avropa sənələrcə qaynadı, çalxalandı. Çaylar qana boyandı, dənizlər xunin oldu. Torpaqlar vətəndaş qanı ilə suvarıldı. Nəhayət, cümhuriyyət paydar oldu.

Nə təsadüfdür ki, Fransa cümhuriyyətinin istiqrarı da marta təsadüf eləmiş, siyasi bahar təbii bahara rast gəlmişdir.

Fransa inqilabından sonra Avropa hökumətlərindən əksərində inqilablar çıxmış, hökumətlər qismən cümhuriyyətlə əvəz olunub, qismən də məşrutiyyətli hökmdara razı olmuşlardı...

Bu surə də məzkur inqilabların hankı ayda baş tutduqlarını araşdırmaq mümgün olmasa da, inqilablardan bir neçəsinin haman mart ayında olduğu xəyala gəlir. Məsələ, Amerika inqilabı və amerikalıların ingilis səltənətindən qurtarması martda vaqe olmuş, Soltan Həmid martın 31-də həlhələ edilmiş, İran inqilabı martda zühur eləmiş, sair bir çox inqilablar dəxi mart və ya apreldə, yəni bahar aylarında başlamış və ya qurtarmışdır.

Bu kərə vaqe olan Böyük Rusiya inqilabı dəxi bahara təsadüf eləmiş və martın 12-si bütün Rusiyada mütali surətdə bayram saxlanılmışdır:

Hürriyyət bayramı!

Martın 12-sindəki Bakıdakı o böyük məşhər inamı, xəlqdəki o tərif və tövsifəgəlməz ruh genişliyini, sevinc payandazlığını, hər növ xüsusiliyindən məra olaraq sözün bütün mənası ilə xəlqin birər qardaş və vətəndaş kəsildiyini, yüz minlərlə varan izdihamın cəmiyyəti-sərməsti-duqi hürriyyət olduqlarını görüb və bilaixtiyar böyük Namiqin:

Nə əfsunkar imişsən, ah, ey didarı-hürriyyət,
Əsiri eşqin olduq, gərçi qurtulduq əsarətdən!

Martın 12-dəki məzaq Rusiya xalqının qazandığı hürriyyətə nə qədər layiq olduğunu və hürriyyət əsasına binalanmış üsul idarənin nə dərəcədə müvafiq bir üsul-idarə olduğunu göstərdi.

Yüz əlli minə qədər müxtəlif cins, dil və sinfə mənsub olan xalq Birca meydanına toplanmış və bu xalq bütün günü şəhər küçələrində dolaşmışdır. Bu qədər izdiham içində sabiq polis idarəsi zamanında bir teatr qabağında yığışa» cüzi xalq arasında görülməsi təbii olan qovğalar belə yürüyərmiş. Orada əli qırmanclı, ağzı söyüşlü, üzü zəhrimarlı nizam saxlayanlar olmadığı halda nümuneyi qövm misal bir nizam və qaidə bərpa olmuşdu. Bu gün nə «von otsyuda», nə «idi çort qlojubi», nə «daloy von solyonni», nə də «provalivay von şalapay» sözləri eşidilir, nə də qamçılarla tüfənk dibləri xalqın boynu ardında işləyirdi. Bu gün eşidilən sözlər - vətəndaş, qardaş, yoldaş sözləri olub, hər kəs özünü ağa hesab eləmiş və sairləri ilə bərabər olduğunu dərk edərək qardaşca, yoldaşca yola getmiş, odur heç bir ixtilaf, heç bir nizamsızlığa məhəl qalmamışdı. Çünki hər kəs əsiri-eşqi hürriyyət olub, hər kəs qəlbi bir nöqtə üçün döyünmüş, hər kəs gözü bir hədəfə baxmışdır. Başqa dövrlərdə olmazdı.

Hürriyyət Günəşi doğmuş, azadlıq baharı gəlmiş, hər kəs martın saf və canbəxş havası altında şollar suyunun[1] göylərə qalxan saf və bərraq şəlaləsi kimi ciladar olan hürriyyət havasını tənəffüz etmiş, hürriyyətlə yaşamış və hürriyyətlə də bağırmışdı ki,

Yaşasın bahari-hürriyyət!

«Açıq söz» qəzeti, 15 mart 1917
«Müxbir» jurnalı, №3, 1989

[1] Şollar suyu Bakıya 1917-ci ilin ilk aylarında gəlmiş və bu münasibətlə fevralın sonu və martın əvvəllərində Bakıda çox böyük şənliklər düzəldilmişdi. - *Ş. H.*

MÜSTƏQİL AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI OLMASAYDI...

Azərbaycan tarixinin lazımınca öyrənilməmiş, daha doğrusu, birtərəfli və qərəzli tədqiq olunmuş dövrlərindən biri 1918-1920-ci illərdir. Halbuki təxminən 105 il müstəqillik hüququndan məhrum edilmiş xalqımız məhz bu illərdə istiqlaliyyət qazanmış, öz müstəqil milli dövlətini - Azərbaycan Demokratik Respublikasını yaratmışdı. 1919-cu il mayın 28-də Azərbaycan Demokratik Respublikasının birinci ildönümü münasibətilə «Azərbaycan vətəndaşlarına hökumətin müraciəti»ndə deyilirdi: «Bir sənə bundan əqdəm məbuslarımızın (vəkillərimizin) rəyi və ərzusu mucibincə, Azərbaycan xalqı müstəqil yaşayış tərıqinə qədəm qoydu. 1919-cu sənəsi, mayın 28-i Azərbaycan Cümhuriyyətinin milli bayramıdır. Oylə bir bayram ki, onun xatiri ÜmumAzərbaycan vətəndaşları üçün daima möhtərəm və müqəddəs sayılacaqdır. Çünki öz dövlətimizin milli bayrağı altında keçmiş olduğunuz bir sənəlik azad və zəhmətli həyatınız, Azərbaycanın böylə tarixi bir gün olduğunu sizə sözdən artıq izah edir. Siz çarizmin ən ağır tarixini keçirmişsiniz. O, sizin ən gözəl həyatınızı, mədəniyyət və müqəddəs əməllərinizi ayaqları altında tapdamış və məhv etmək istəmişdir. Biz hər bir hüquqdan və mədəni tərəqqiyyatdan və ən ibtidai siyasətdən belə məhrum olmuşduq. Bizim gözəl arzularımız qəti surətdə əzilir və ayaqlar altına atılırdı...

Qan dəryasında qutəvər olan (yəni salınan) Azərbaycan türk milləti öz müqəddəratını öhdəsinə alaraq öz başına buraxılmışdır.

O, mətanətiqəlb və əzmi-qəti ilə istiqbalı düşünərək yaşayır. Və bilaxirə müstəqil və azad yaşamaq yolu arayıb ona rəvan oldu. Oylə bir yol ki, onun ümumcahanın əzilmiş və döyülmüş millətləri tutmuşdur. Bu yoldan isə həmə (heç) vaxt geri dönmək, qayıtmaq yoxdur, ola da bilməz. Bu bir sənə ərz müddə-

tində biz yorulmadan işlədik. Və bu işləməyimiz ilə dövlətimizi möhkəmləndirərək cəmiyyətimizin aşağı sinfinə milli dövlət təşkili hissini düşündürdük və göstərdik ki, cəmiyyət və millət məbuslarının getdikləri yol doğru və xalqın azad fikir və məsləkidir. Bu, az vaxt zərfində Azərbaycan türkləri özlərinin müstəqil və azad yaşamağa layiq olduqlarını gözəl surətdə göstərib və dövlət təşkilinə istedad və qabiliyyət yetirdiklərini isbat etdilər...

Azərbaycan vətəndaşları! Təhlükə və təhdid hələ rəf olmamışdır. Bizim üzərimizə qara buludlar gəlməkdədir. Bizim daxildəki hərəkatımız, nizam və asayışımız təmin edilərsə, istiqlaliyyətimizi təhdid edən qüvvələrə yol verməz və rahət və azad yaşamağa malik olarız.

Azərbaycan vətəndaşları!

Mayın 28-i böyük və ümumi bir bayram hesab edilməlidir. Bu gün də bilafərq millət hər kəs özünü müsavi hüquqla Azərbaycan vətəndaşı hiss etməlidir. Bu gün ümumcahan millətlərinin ədalət üzrə olan hüquq və ixtiyaratının təmin edilən günlərindən bir gündür».

Bir həqiqətdir ki, müstəqil Azərbaycan Demokratik Respublikası olmasaydı, indiki müstəqil Azərbaycan da yaranmazdı. Biz bu tarixi həqiqətə əsaslanmaqla tariximizin 1918-1920-ci illər kimi çox mürəkkəb, ziddiyyətli və möhtəşəm dövrünü elmi cəhətdən tədqiq etməli, müasir və gələcək nəslə çatdırmalıyıq. Bunun üçün isə vacib şərtlərdən biri bu dövrdə təkcə inqilab beşiyi Bakıda deyil, digər şəhər və qəzalarda cərəyan edən hadisələri də diqqətlə öyrənmək vacibdir. Həmin illərin dövrü mətbuatında bu haqda çox qiymətli materiallar mövcuddur. Məsələn, onlardan birini - Şəki ilə bağlı olan bir yazını Azərbaycan ipəkçilərinin tribunası olan «İpəkçi» qəzetinin oxucularına təqdim etmək istəyirəm. «Şəkidən» adlı bu yazı Üzeyir və Ceyhun Hacıbəyov qardaşlarının redaktorluğu ilə çıxan «Azərbaycan» qəzetinin 1919-cu il mayın 30-u tarixli 191-ci nömrəsində dərc olunmuşdur.

ŞƏKİDƏN

Mart ayının 24-də Azaq Əfəndi Mustafazadə Şəki bələdiyyə idarəsinin rəisliyini qəbul edərək işləri təhvil aldı. Azaq Əfəndi cənablarının millətinə edən xidmətini, ələlxüsus keçən il anarxiya zamanı göstərdiyi fəaliyyəti söyləməyi öhdəmə almıram. Çünki bu haqda böyuk məqalələr ilə qəzetlər sütunu doldurmaq lazım gələcəyinə əminəm.

Fəqət bunu ərz etmək istəyirəm ki, cənab Azaq Əfəndi bələdiyyə idarəsinin işlərini öz əlinə toplayandan sonra şəhərimizdə hər bir» xüsusda böyük təbəddülat görünməkdədir. Cənab Azaq Əfəndi keçmişdə füqəralar dərdinə qalmaqda, onların ağır hallarını düşünməkdə şəhərimizdə bəlli olduğundan, indi də iş başına keçərək onların keçirdyi bu ağır güzaranını yaxşılaşdırmaq təşəbbüsündədir. İşləri şüuru edərkən ən əvvəl füqəraların bilafərq millət hesabını cəmləşdirmişdir. İndi eşitdiyimizə görə şəhəri uç hissə edərək üç yerdə təndirxanələr açıbdır. Hər birində gündəlik 40 pud əkmək (çörək) hazırlanıb adambaşına bir girvənkə olaraq bazar qiymətindən 60 qəpik fərqli buraxılacaqdır. Şəhərimizin nainsaf möhtəkirləri qidalatı gətirən kəndçilərdən alıb istədiyi qiymətə satırdılar. Azaq Əfəndi möhtərəm qəza naçalniki Əyyubbəy Rəfibəyov cənablarının məmavinəti ilə möhtəkirləri dustaq etdirib və kəndçilərdən satılmaq üçun almağı qadağan etdirdi. Bunlara binaən bu gün buğda şəhərimizdə 120 manatdan 80 manata və 70 manata qədər düşüb və yenə düşəcəyinə ümid vardır.

Füqəra cəmiyyətin aptek əczalarını fövqəladə bahalıqdan ala bilməyib nə qədri əbəs yerə məhv olduğu aşkardır. Nainsaf aptek sahibləri əczaların qiymətlərini gun-gündən artırmaqda davam etməkdədirlər. Şəhərimizin bu ana qədər əczaxanəsi olmamağından dolayıdır ki, bunların qabağını almaq mümkün deyildir. İndi bələdiyyə rəisi bunu nəzərə alaraq yavuq bir zamanda şəhər əczaxanəsi açmaq istəyir. Şəhərimizi görənlər küçələrin nə qədər dar və natəmiz olduğunu bilirlər. Bu gun bu natəmizlik qabağını almaq üçün Azaq Əfəndi iki taçka kirayə eləmiş və ya-

252228
M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

vuq bir zamanda şəhərə məxsus bir neçə araba almaq fikrindədir.

Azaq Əfəndinin gördüyu işlərə ziyadə təşəkkürlər edəriz və belə şəxslərin xidmətini millət yaddan çıxartmaz zəndindəyiz.

Şəki əhalisi Azaq Əfəndinin böyük bir fəaliyyətini Kiş çayı qabağına çəkiləcək bənddə gözləyir. Hökumətimiz bu bəndin çırpı ilə daşdan yapılması uçün 211 min manat pul buraxmışdır. Belə bənd çar hökuməti zamanında neçə dəfələr qayrılmış, hətta hürriyyətdən bir neçə ay müqəddəm cəmaatımızdan Azaq Əfəndinin təşəbbüsü ilə bir qədər pul toplanıb sement alınmış ki, həmişəlik bir hasar qayrılsın və əhali rahat yaşasın. Qarışıqlıq zamanı sement az olmaq münasibətilə işlənməyib qalmışdı. İndi Azaq Əfəndi mövcud olan sement ilə bəndi qayrıtmaq fikrindədir. Buna görə hökumətdən pək ziyadə istərham (xahiş) edəriz ki, lazım olan müavinəti bu barədə Azaq Əfəndiyə versin. Tain ki, şəhərimizin gözəl binalarının, ipək zavodlarının, bağlarının, bazarının böyük hissəsini və cəmaətin vardatını, Kiş çayının bəlasından xilas etmək mümkün olsun. Azaq Əfəndinin belə bir ağır zamanda öhdəsinə götürduyü məsuliyyətli vəzifəni asanlıqla ifa edəcəyinə əminiz.

E. İ. Sultanzadə

«Şəki fəhləsi», 23 avqust 1989

NÜMUNEYİ-İMTİSAL BİR GÜN

Xalqın mənəvi qüvvət və qüdrəti, yaşamaq və yaratmaq əzmi, birlik və vəhdəti, cəsarət və inamı birinci növbədə bərkdə, imtahan günlərində, ölüm və ya olum meydanlarında aşkara çıxır. Tək-tək insanlar kimi, bəzən xalqlar da imtahan verməli olurlar, tarix qarşısında, əcdadların ruhu, qoyub getdikləri torpaq və gələcək nəsil qarşısında. Ən böyük qəhrəmanlıq tarixi imtahandan, Vətən uğrunda vuruşlardan müzəffər çıxmaqdır. Bu da bir həqiqətdir ki, Vətən uğrunda vuruşlar şəhidsiz, günahsız qurbanlarsız başa gəlmir. Yaxşı deyiblər ki, məhv olmağa hazır olmayan bir xalq azad ola bilməz. Digər tərəfdən, öz şəhidlərini, günahsız qurbanlarını anmayan, onların ruhu, əməlləri və məzarları qarşısında baş əyməyən, diz çökməyən xalqı da xalq deyil, əhali adlandırırlar. Azərbaycan xalqı XX əsrin 90 ilində dəfələrlə öz varlığını, ərazi bütövlüyünü qorumaq üçün vuruşmalı olmuşdur. Şəhidlərimiz və günahsız qurbanlarımız həddindən artıq çoxdur. Təəssüf ki, biz onların ruhu qarşısında çox borcluyuq.

«Azərbaycan» qəzetinin 1919-cu il aprelin 2-si nömrəsində, bununla əlaqədar, «Nümuneyi-imtisal bir gün» sərlövhəli məqalə dərc olunmuşdur. Məncə, bu yazı ilə tanışlıq maraqsız olmaz. Həmin yazını oxuculara təqdlm edirəm...

* * *

...Müsəlman əmələ konfransı «On minlərlə şəhid düşən bigünah mart qurbanlarını xatırlamaq üçün martın 31-ini vətəni bir matəm olmaq üzrə elan və o gün ümumi tətil ilə keçirməyə qərar vermişdir.

Müsəlman əmələsinin bu qərarına Bakıın bütün məhəllələri kəza tabe olub, matəmi-tətil komitəsi cənbində, məhlə məscidlərindən ibarət bir şəhər şöbəsi təşkil etdilər.

Bu günə məxsus qəzetlər nəşr olundu. Azərbaycan qəzetləri ilə müsavat vasiteyi-nəşri-əfkarları olan qəzetlər matəm nömrələri çıxardılar.

Matəm səhər saat 8-dən axşam saat 6-ya qədər təyin olunmuşdu. Türk demokratiyası bu gün bütün həyatı durduracaq xatiri sayılan bir qüvvət olduğunu, özünün nə kimi qüvvə olduğunu bildirməklə bərabər martda tökülən nahaq və məsum qanların «əhəmiyyətsiz» bir şey olmadığını bütün cahana qarşı elan edəcəkdir...

Matəm günü gəldi. Səhər saat 6-dan bütün əmələ rayonları

«xəbərdar» borusunu çalaraq mədənlər dayandı. Şəhərdə bir dənə olsa da açıq dükan yox, fayton, araba tapılmazdı, gəmilər matəm əlaməti olaraq bayraqlarını yarıya endirmiş, şəhərdə və mədənlərdə böyük bir sükut...

Məclislərdə pəs məzar məclisləri. Saat 2 radələrində Təzəpir məscidinin həyəti cəmi ğəfir ilə dolmuş, yasin, fatihə, nitqlər, matəm tətil komitəsinin bəyani-təziəti!.. Xəşiyyətavər bir hal!.. Bilafərq millət və məzhəb şəhərlə mədənlərin bütün sakinəsi matəm halında...

Tətil tarixi ilə aşna olanlar söyləyirlər ki, Bakı bu vaxta qədər belə bir tətil görməmiş!..

Aşura günü belə bu dərəcədə keçməmişdir. Hər tətildə az olsun, çox olsun işə şətil qatanlar daima görülmüşdür.

Fəqət bu dəfə bilaixtilaf hər kəs vaqe olan dəvətəl-ləbbeyk demiş işindən əl çəkmişdir...

Aşura yalnız müsəlmanlara məxsus ikən bu gün Azərbaycanın vətəni bir matəmi olduğundan bütün azərbaycanlılar matəm saxlamışlardı.

Bu günə mən matəm günü deyil, birlik günü deyəcəyəm.

Türk demokratiyası bu gün kəndi idarəsinin nə dərəcədə nafiz və kəndi təşkilatının nə qədər müəssər olduğunu təcrübə edirdi. Təcrübə əliyyülələ dərəcədə müvəffəqiyyətli çıxdı. Rus fəhlələrindən bir çoxu rayonlarında daha iki gün əvvəl müsəlman yoldaşlarına gələrək onlarla bərabər tətil edəcəklərini bildirmişlərdi.

Tətil yalnız əzəməti, istisnalığı ilə deyil, intizamlı asayışpərvərliyi ilə də təmayiz edirdi.

Tətil texnikasını bilənlər belə bir tətil keçirmək nadirətən mümkün olur deyirlərdi.

Bütün gün kimsəyə təərrüz edilməmiş, cüzi də olsa bir hadisə çıxmamışdır!..

Tətil ideal bir şəkildə icra edilmişdir. Tətilin idrak və intizam üzərinə icra edildiyi... parlaq vaqiələrlə isbat edilmişdir.

Bugünkü tətil türk demokratiyasının, müsəlman cəmaətinin nə dərəcə təşkilat və intizam qabiliyyətinə malik olduğunu aşkar etmişdir. Bu qabiliyyəti tərbiyə edən, onu doğru və salim bir yola salan həqiqi millət mənfəəti ilə çalışan siyasi firqələrimiz fəaliyyət və təşəbbuslərini artırar və hərəkətlərində ciddi olurlarsa, o zaman Azərbaycan paytaxtında, fəqiri-kasibə naminə işləyibdə hərəkətlərində Azərbaycan ruh və məqsədi ilə uyuşa bilməyin təşkilat əhəmiyyət və mənasını qayib edər.

1919 sənəsi mart matəmində xəlqimizdə görülən təşkilat istedadını hüsn istifadə etmək, heç şübhəsiz ki, 1918 sənəsi mart şühədasının ruhi-məzlumini razı salacaq ən böyük mükafat, ən gözəl ehsandır. Qoy 1919-cu il martın 31-i bizə birlik və ittihad üzün, bir nümuneyi timsal təşkil eləsin.

«Azərbaycan» qəzeti, 2 aprel 1919, № 148
«Azərbaycan» qəzeti, 2 mart 1990

MÜSƏLMAN HƏYATI

Nuxa
(müxbirimizdən)

Hacı Məmmədsadıq Əliyevin vəfatı

Son zamanlar tariximizin bu vaxtadək öyrənilməmiş səhifələri yavaş-yavaş açılır, unudulmuş şəxsiyyətlərimiz üzə çıxarılır, yada salınır. Bu, vacib və faydalı işdir. Biz, əlbəttə, yalnız ictimai-siyasi və ədəbi-bədii fəaliyyətlə məşğul olan şəxsləri öyrənməklə kifayətlənə bilmərik. İstedadlı, bacarıqlı, işgüzar adamlarımızı da, onların təcrübəsini də öyrənməliyik. Məsələn, Azərbaycan torpağının yetişdirdiyi məşhur işgüzar Hacı Zeynalabdin Tağıyevin həyat yolu, fəaliyyəti, iqtisadiyyatı təşkil və idarə

etmək bacarığı məktəb deyilmi? Belə adamlarımız təkcə Bakıda deyil, Azərbaycanın digər şəhərlərində də olmuşdur. Göstərək ki, onların da bir çoxu Tağıyevin yolu ilə gedərək, xalqın maarifləmməsi, işgüzarlıq sənətinə yiyələnməsi sahəsinə xeyli əmək sərf etmiş, vəsait xərcləmişlər. Bunlardan biri də şəkili iş adamı məşhur tacir Hacı Məmmədsadıq Əliyev olmuşdur. 1917-ci il avqustun 12-də Bakıda rus dilində nəşr olunan «Kaspi» qəzetində onun vəfatı ilə əlaqədar bir məqalə-nekroloq dərc edilmişdir. Onu oxuculara təqdim edirəm. Ümid etmək olar ki, bu kiçik yazı Hacı Məmmədsadıq Əliyevin və Əliyevlər ailəsinin işgüzarlıq, xeyriyyəçilik fəaliyyətini dərin və hərtərəfli öyrənmək üçün bir başlanğıc olacaqdır.

* * *

Əliyev qardaşları ticarətxanasının başçısı Hacı Məmmədsadıq Əliyev uzun sürən ağır xəstəlikdən sonra avqustun 6-da Nuxa şəhərində vəfat etmişdir.

Mərhum 18 yaşında ikən atasını itirmiş, azyaşlı qardaşları ilə himayəsiz qalmış, çox keçmədən nadir istedadı sayəsində cüzi vəsaitlə yalnız vətənində deyil, həm də onun hüdudlarından uzaqlarda ön cərgələrə çıxmağa başlamışdır.

Öz işlərini bacarıqla və əsaslı qurmaqla bərabər, Moskva və Nijni Novqorod şəhərlərinin iri fabrikçiləri və tacirləri arasında çox böyük etimad qazanmışdı. Alış-verişə təzə başlayan hər hansı gənc tacirə geniş yardım və etimad göstərilməsi üçün onun bircə kəlməsi kifayət idi.

Onlarca, bəlkə də yüzlərcə tacir öz firavanlığına görə ona borcludur.

Çox-çoxlarından fərqli olaraq mərhum bizdə nadirdən də nadir təsadüf edilən amerikalı təbiətinə malik idi. Bu cəsarətli və ürəkli adam məqsədə çatmaq yolunda heç bir maneədən çəkinmirdi.

Rusiyanın iri mərkəzlərində, eləcə də Yunanıstanda və Türkiyədə qollu-budaqlı şöbələr şəbəkəsi yaratması, habelə on milyonlarla dövriyyəsi olan ən müxtəlif ticarət müəssisələri açması ona iri miqyaslı tacir şöhrəti qazandırmışdı.

İşin mürəkkəbliyinə və ona şəxsən özünün rəhbərlik etməsinə baxmayaraq mərhum vaxt tapıb xeyriyyəçiliklə də məşğul olurdu.

Mərhum, təbiətən həssas və xeyirxah bir adam kimi, müsəlmanların maarifləndirilməsinin ən qızğın tərəfdarlarından biri idi. Rus-tatar məktəblərinin, habelə - onca ay əvvəl 100.000 manat xərc çəkib təntənəli şəraitdə özülünü qoydurduğu kişi gimnaziyasının açılışına görə doğma şəhəri ona borcludur, hayanlıq edib neçə-neçə qohum-əqrabasını və həmyerlisini ərsəyə çatdırmasını hələ demirik.

Şəhərimiz Hacı Məmmədsadığın şəxsində böyük bir taciri və xeyriyyəçini itirmişdir, buna görə də gəlin mərhumu soyuq qəbrə qoyarkən diləyək ki, məzarı nur ilə dolsun.

*«**Kaspi**», № 180, 12 avqust 1917-ci il.*
Rusçadan tərcümə C.Xəlilovundur

*«**Şəki fəhləsi**» 8 mart 1990*

MÜSTƏQİLLİYİN YOLU...

- Şirməmməd müəllim, 10 il əvvəl auditoriyada qulağımıza az qala pıçıldadıqlarınızı indi hamı açıq danışır. Bəzi ifadələriniz hələ də yadımdadır: «Bayraq əskidir, amma hər əski bayraq deyil». «Büronun qərarı ilə xalqı küçəyə çıxarıb oynatmaq olar, xalqın ağzı nədir ki, oynamasın». Bu sözləri o vaxt deyirdiniz ki, yalan ayaq tutmuşdu, necə deyərlər, başımızı pambıqla kəsirdilər. Amma siz çox yaxşı bilirdiniz ki, bu sözləri deməklə həyatınızı təhlükəyə qoyursunuz, çünki auditoriyada deyilən sözlər təkcə auditoriyada qala bilməzdi.

- Həyatın hər üzünü görmüşəm. Dağdan odun da gətirib satmışam, 10 kilometrlərlə məsafə qət edib taxıl zəmilərindən sünbül də yığmışam. İlk dəfə təzə ayaqqabını isə 25 yaşımda geymişəm. 30-cu il Şəki üsyanının şahidiyəm. Onda uşaq idim. Lakin evimizin qabağındakı dağda adamların necə güllələnməsini gözlərimlə görmüşəm. Digər tərəfdən, mən vəzifəlilərin və onların uşaqlarının firavan həyatını uzun illər müşahidə etmişəm. Ədalət hissi, həqiqət hissi insanın qanına ictimai ədalətsizliklərlə daxil olur. Kim ictimai ədalət uğrunda mübarizə aparmırsa, deməli, yel dəyirmanları ilə mübarizə aparır.

Yer üzündəki bütün təbii fırtınalar Günəş enerjisinin qeyri-bərabər bölünməsi nəticəsində baş verir. Planetimizdə ictimai böhranlar, maddi nemətlərin qeyri-bərabər, insafsızcasına bölünməsi, ictimai-siyasi, milli ədalətsizlik zəminində meydana gəlir və buradan da ictimai inqilablar, sarsıntılar, böhranlar yaranır. Bu həqiqəti dərk etmək lazımdır.

Ailədə, orta məktəbdə, ali məktəbdə adamın tərbiyəçisinin şəxsiyyəti əsasdır, bundan çox şey asılıdır. Məsələn, mən nəfsimə hakim olmağı anamdan öyrənmişəm, düzlüyü, həqiqəti, sevməyi, yalan danışmamağı, vətənə və elə məhəbbəti inqilabdan əvvəl təhsil almış müəllim - ziyalılarımızdan əxz eləmişəm. Ali məktəbdə də bu sahədə bəxtim gətirib. Məmməd Arif, Abdulla

Qarayev, Məmmədhüseyn Təhmasib, Məmməd Cəfər, Zümrüd Axundova müəllimlərim olub. Bütövlükdə mən bu fikirdəyəm ki, böyük vətənpərvər, alim və müəllim Firudin bəy Köçərli vaxtilə yaxşı demişdir ki, bir milləti məhv etmək üçün ikicə şərt kifayətdir: belə ki, əgər müəllimi savadsız olsa, onu ruhən məhv edər, həkimi kəmsavad olsa, cismən.

- Azərbaycan ziyalılarının siyasi mədəniyyətinin indiki səviyyəsi Sizi razı salırmı?

- Əvvəla, ziyalını xalqın düşünən beyni adlandırırlar. İndi, elmi-texniki tərəqqi dövründə «elektron beyinlər» - kompyuterlər dövründə bu, daha böyük məna kəsb edir. Biz adətən, mədəniyyət dedikdə, ədəbiyyat və incəsənəti, maddi və mənəvi mədəniyyəti və s. nəzərdə tuturuq. Uzun illər belə olub. Bu, təbiidir. Çünki əsrlər boyu öz müstəqil milli dövləti, öz milli dəst-xətti olmayan, mütləqiyyət və avtoritar rejimlərin işçi qüvvəsinə çevrilən bir xalqın siyasi təfəkkürü, siyasi mədəniyyəti necə yarana bilərdi? Axı, Rusiyada siyasi cəmiyyətlər, siyasi partiyalar yalnız keçən əsrin sonu, bizim əsrin əvvəllərində gizli şəkildə meydana gəlib. Nə üçün Şərqi Avropanın sosialist ölkələrində avtoritar rejimdən demokratik quruluşa keçid çox sürətli, əsasən ağrısız və tələfatsız keçir. Sovet İttifaqı isə hələ də çalxalanır, bulanır! Ona görə ki, Rusiyada və sonralar Sovet İttifaqında siyasi mədəniyyət aşağı səviyyədə olub. Halbuki siyasi azadlıq siyasi mədəniyyətin ən yüksək zirvəsidir. Siyasi mədəniyyət olan ölkədə şəxsiyyət ön planda, avtoritar rejim olan ölkədə isə dövlət və partiya ön plana keçir. Qərbin təxminən 200-250 ildə keçdiyi demokratiya məktəbini biz qısa bir müddətə keçmək istəyirik. Vaxtilə biz fəxr edirdik ki, feodalizmdən sosializmə keçmişik. Hətta Orta Asiyanın feodal-patriarxal sistemindən sosializmə keçdiyini şüar eləmişdik. Formasiyaları atlanmaq siyasi avantüradır. Təbii və normal inkişafı heç bir şey əvəz edə bilməz. Ümumiyyətlə, zorakılıq insanın görmədiyi, nəzərə almadığı fəlakətlərə səbəb olur. Təbiət və cəmiyyət zorakılığı heç kəsə ba-

ğışlamır. Xalq yaxşı deyib: «Zülm ilə abad olanın axırı bərbad olar». Biz bunların şahidləriyik. Elə başa çatmaqda olan əsrin siyasi xəritəsinə baxmaq kifayətdir. Əvvəllər dünyaya meydan oxuyan imperiyalar dağıldı, indi inzibati-amirlik sistemləri artıq dağılmaq üzrədir. Əgər əsrin əvvəllərində dünyada yalnız 30 müstəqil və yarımmüstəqil dövlət vardısa, indi təkcə BMT-nin 159 üzvü vardır. Siyasi mədəniyyət XX əsrin ən böyük nailiyyətidir.

Hazırda bütün ölkə kimi, respublikamız da qaynayır. Xalq öz yolunu, öz gələcək taleyini müəyyən etməyə çalışır. Bu, zamanın hökmüdür, dövrün tələbidir. Biz öz yolumuzu müəyyənləşdirmək üçün haradan gəldiyimizi və harada olduğumuzu müəyyənləşdirməliyik. Tarixə maraq da buradan doğur. Burada yaxşı meyllə yanaşı, narahatlıq doğuran iki cəhət də var. Birincisi, keçmişi ideallaşdırmaq, qeyd-şəksiz hər şeyi qəbul etmək və bu günlə əlaqələndirməyə çalışmaq. Milli təkəbbür, milli lovğalıq kimi millətə ziyan vuran ikinci bir amil yoxdur. Təvazökarlıq, sadəlik, təmkinlilik hər bir şəxs kimi millətə də xas olmalıdır. İkincisi, bütövlükdə tarixdən ya üz döndərmək, ya onu cansız faktlar yığınına çevirməkdir. Nəsillər arasında ideya, siyasi, mənəvi, mədəni bağları nəinki tapmaq, müəyyənləşdirmək, hər cəhd ilə möhkəmlətmək lazımdır. Faktla, sənədlə, həqiqətlə, elm və məntiqlə. Bu sahədə biz çox böyük və qiymətli xəzinə sahibiyik. Elə «Əkinçi»dən başlamış 20-ci illərə kimi nəşr olunmuş anadilli mətbuatımızı - xalqımızın bu kollektiv yaddaşını yenidən çap edib oxucularımıza, xüsusilə gənclərə versək, bilirsinizmi nə qədər qazanmış olarıq? Şahidlik edə bilərəm ki, indiki problemlərin çox böyük bir qismi tarixi xarakter daşıyır. Mətbuat səhifələri fikir xəzinəsidir, düşüncə xəzinəsidir, əməli təkliflər, planlar, xalqımızın bədxahlarına, düşmənlərinə qarşı mübarizə meydanıdır. İstəyirəm ki, Sədinin məşhur bir kəlamını xatırlayam: «Mübahisəsiz elm, bazarsız ticarət, siyasətsiz dövlət mümkün deyil». Əgər biz müstəqil təfəkkürə nail olmaq istəyiriksə, respublikamızda elmi-siyasi diskussiyalara geniş meydan açılmalıdır. Siyasi mədəniyyətin formalaşmasına və siyasi xadimlərin yetişməsinə diskussiyalar əməli kömək edə bilər.

Mitinq mədəniyyəti ilə siyasi mədəniyyəti qarışdırmaq olmaz. Mitinqlər siyasi mədəniyyətin formalaşması üçün şərtlərdən yalnız biridir. Mitinqlərdə diskussiyalar olmur. Mitinqlər, adətən, ən çox avtoritarizmi sevir. Əsl siyasi mədəniyyət bəşəriyyətin ən böyük başlarının işləyib hazırladığı demokratiya yolu, gizli müstəqim seçki yoludur. Buna əsl xalq demokratiyası yolu deyirlər. Mən istərdim ki, bizim ziyalılar yüz illərin sınağından çıxmış, özünü doğrultmuş, xalqlara yüksək həyat şəraiti, əmin-amanlıq, yaşamaq perspektivi vermiş demokratiya yolunu seçsinlər. Axı, cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti də bu zəmində, bu prinsiplər üzərində qurulmuşdu.

Onu da deyim ki, indi öyrənilməsi, təbliğ ediləsi şeylər çoxdur. Suverenlik və müstəqillik yolu daşlı-kəsəkli yoldur. Siyasi mədəniyyətin yüksəldilməsi üçün ümumrespublika miqyasında düşünüb-daşınıb əməli üsullar aramalıyıq. Mövcud siyasi dərslər informasiya saatları, təbliğat və təşviqat məntəqələri, siyasi maarif kabinələri ehkamçılıq, formalizm, bürokratizm xəstəliyi ilə iflic olub. Bu müəssisələrin adı və maaş alan işçiləri qalıb. Xalqın mitinqlərə can atmasının səbəblərindən biri elə budur, haqq söz eşitmək, yeni söz eşitmək, hadisələrə, faktlara yeni münasibət, yəni köhnə stereotiplərdən çıxmağa meyl artır. Uzun illər təbliğ etdiyimiz ideyalar da qiymətdən düşüb. Haqlı deyirlər ki, biz inflyasiya xəstəliyinə tutulmuşuq. Hakimiyyət orqanlarına, ideyaya inamsızlıq hökm sürür. İnamsızlıq isə çox dəhşətli xəstəlikdir. İngilislər deyib: «İnamı itirmək, hər şeyi itirməkdir». Yaxşı haldır ki, hakim ideyaya inamı itirsək də torpağa, vətənə inamımız artıb. Bu inamdan iqtisadiyyatımızın, elmimizin, mədəniyyətimizin, həyatımızın bütün sahələrinin sürətlə inkişafı naminə maksimum istifadə etmək gərəkdir. XXI əsrə indiki səviyyə ilə daxil olmaq məhv olmaq kimi bir şeydir. Bunu başa

düşmək lazımdır. Dünyada ölkələr və xalqlar arasında yarış gedir. Deyirlər ki, tarix bəzən xalqın üzünə çevrilib dik baxır, onun qarşısına taleyi ilə əlaqədar problemlər qoyur, imtahana çəkir, sonra müstəqil bir xalq kimi yaşayıb-yaşamaması barədə hökm çıxarır. İmtahandan çıxmayan xalqlıq keyfiyyətini itirib əhaliyə çevrilir, yəni başqaları üçün işçi qüvvəsi olur. Bax, bizi belə «perspektiv» də gözləyir.

- Respublikamızda ziyalı cəmiyyətləri yaratmaq təşəbbüsləri var. Buna Sizin münasibətiniz?

- Son vaxtlar cəmiyyətlər yaratmaq dəb olub. Son məlumatlara görə, hazırda ölkəmizdə təxminən 60 minə yaxın müxtəlif cəmiyyətlər, qruplar, partiyalar assosiasiyalar yaranıb. Əlbəttə, bu, uzun illərin qadağalarının, aclığının nəticəsidir, Onların hamısı uzun müddət yaşaya bilməyəcək. Elə bizim respublikada da cəmiyyətlərin sayı 30-dan artıqdır. Rusiya, Ukrayna böyükdür. Əlbəttə, burada qrupların, cəmiyyətlərin sayının çoxluğu da təbiidir. Amma bizdə əsas diqqəti xalqın taleyi ilə bağlı problemlərin həllinə verməliyik. Bu problemlərin həllinə kömək edəcək hər bir təşəbbüsü alqışlamaq lazımdır. Ölkəmizdə tərif və tənqid planı artıqlaması ilə dolub, iş planı qalır. Hərçənd ki, başımıza bəla açan elə «plan»dır. İndi hər sahədə işin səviyyəsi adamların hazırlıq səviyyəsi ilə ölçülür. İkinci Dünya müharibəsində məğlub olmuş yaponlar, almanlar yeni iqtisadi, elmi-texniki sıçrayışları üçün addımı ibtidai və orta məktəblərdən başladılar. Necə deyərlər, mayanı ilk növbədə xalq təhsilinə qoydular. Nəticəsi göz qarşısındadır. «Çay gəlməmiş çırmanmaq, yay gəlməmiş qızınmaq» xəstəliyindən qurtarmaq lazımdır. Dünyanın inkişaf etmiş ölkələrinin səviyyəsinə çıxmaq yolu xalq maarifindən, işgüzarlıqdan, siyasi mədəniyyətdən keçir. Amma bizdə necədir? Ziyalılarımızın böyük qismini təşkil edən müəllimlər ağır vəziyyətdə yaşayır, məktəblər elmi-texniki dövrün tələblərinə qətiyyən cavab vermir. Axı, gələcək ziyalılar məktəblərdə yetkinləşirlər. İndi dünya bazarında ən qiymətli məhsul el-

mi-texniki kəşflərdir. Belə məhsulun alıcıları da çoxdur. Mən bunu ona görə deyirəm ki, müstəqillikdən söhbət gedən kimi, hamı təbii sərvətlərdən danışır. Halbuki təbii sərvətlər tükənmək üzrədir və əvvəl-axır da tükənəcək. Lakin tükənməyən bir şey varsa, o da insan beynidir. Elmi axtarışlar, elmi kəşflər insan kamalının intəhasızlığıdır. Alimlər belə hesab edirlər ki, dahi adamlar belə öz beyin imkanlarının vur-tut 5-6 faizindən istifadə edirlər. Bax, ehtiyat mənbəyi də buradadır. Günəş enerjisi və insan beyni bəşəriyyətin gələcək taleyini həll edəcək. Bu günlərdə Birləşmiş Ərəb Əmirliklərindən verilən bir xəbər diqqətimi cəlb etdi. Neft ilə zəngin olan, bu sahədə 100-150 illik ehtiyata malik olan (100 milyard barel) bu ölkənin rəhbərliyi ziyalıların tövsiyəsi ilə hər il milli gəlirdən gələcək nəsillər üçün müəyyən pay ayırmaq barədə qərar qəbul etmişdir. Yalnız milli şüuru, uzaqgörənliyi, milli məsuliyyət və qayğısı, qeyrət və namusu olan ziyalılar bu qədər geniş və əhatəli düşünə bilər. İbrət və qibtə edilməli hadisədir.

- Şirməmməd müəllim, Pribaltika ziyalılarının öz xalqları üçün gördükləri işi təəssüf ki, bizim ziyalılarımız eyni səmərə ilə xalqımız üçün gorə bilmirlər. Bunu son iki ilin hadisələri də bir daha sübut etdi.

- Dünya gör-götür dünyasıdır. Öyrənmək həmişə lazımdır, özü də hər sahədə, hər ixtisas üzrə. Siyasi mədəniyyəti, siyasi mübarizə vasitələrini bura daxil etmək lazımdır. Müqayisə həmişə şərtidir. Nəzərə almaq lazımdır ki, Pribaltika Avropadadır, biz Asiyada. Onlar 22 il müstəqil olub, 50 il bundan əvvəl müstəqilliyini itiriblər. Biz isə 23 ay müstəqil olub, 70 il bundan əvvəl müstəqilliyimizi itirmişik. Düzdür, formal olaraq müttəfiq respublika olmuşuq. Mən «formal» sözünü nahaq yerə dırnağa almıram. Bu yaxınlarda partiya arxivində Stalinin 1920-ci il noyabrın 8-də Bakıda Az.K.(b)P MK-nın plenumundakı çıxışı ilə tanış oldum. Məni heyrət götürdü. Stalin plenumda nə desə yaxşıdır: «Azərbaycanın müstəqilliyini nümayiş etdirmək bizim

üçün sərfəlidir. Lakin kommunistlərin kommunistlərdən asılı olmaması, həqiqi müstəqilliyi mümkün olan şey deyil». Bax, Qorbaçov bizə deyəndə ki, biz bir gün də olsun həqiqi federasiyada yaşamamışıq, məncə, məhz bunu nəzərdə tutur. Odur ki, bizim müstəqillik yolumuz Pribaltika respublikalarına nisbətən daha çətin olacaq. Daha doğrusu, bizdən daha böyük səy, təmkin, ciddi nəzəri və əməli axtarışlar, siyasi birlik, yekdillik, yüz dəfə ölçüb-biçmək tələb olunacaq. Bizə dövrümüzün Rəsulzadələri lazımdır. Yəni millətin istiqlal gəmisinin kapitanları, sükançıları lazımdır. Həqiqi siyasi xadimlər yetişdirmədən istiqlaliyyət qazanmaq çətindir. Pribaltikada belə siyasi xadimlər var. Əlbəttə, yalnız xalqın bütün təbəqələrinin birliyi zəminində iş görmək olar. Böyük dövlət və siyasət adamlarını təkcə vəzifə, stol arxasında yox, açıq siyasi mübahisə və müzakirə salonlarında, parlament mübarizə meydanlarında yetişdirmək, tanımaq olar. Demək, indiki şəraitdə həqiqi suverenlik və istiqlaliyyət yolu yalnız parlament demokratiyası yolundan keçir. 1920-ci ilin aprelində Azərbaycanı bəşəri inkişafın təbii məcrasından qoparıb ayıranlar onu mənəvi və əxlaqi zəmindən, sərbəst düşüncə tərzindən də çıxartdılar və ayırdılar. Ehkamçılıq, ələbaxımlıq, itaətkarlıq, nəhayət, qorxu əsl ziyalılığı məhv etdi. Ətraf mühit, ekologiya nə qədər korlanmışsa, insanın daxili dünyası; mənəviyyatı, bir az kobud desəm, xarabazarlığa çevrilmişdir. Bizim milli varlığımız üçün ən böyük təhlükə də budur. Son hadisələr, xalqın oyanması, yaxınlaşan fəlakəti dərk etməsi. Bu yolda ən çətin fədakarlığa belə sinə gərmək qətiyyəti, məncə, bu təbii həyəcan təbilinin çağırışı ilə bağlıdır. Bu təbili çalanlar zövq-səfadan məst olmuş yuxarılar deyil, xalqın, millətin yaşamaq və var olmaq instinktinin, milli psixologiyasının daşıyıcıları - aşağılardır. Təbiətdə sel yuxarıdan aşağıya axırsa, cəmiyyətdə əksinədir. Aşağıdan el gücü, sel gücü olur; inkişafın qabağını kəsmiş yuxarıların üfunətini silib-süpürüb aparır. Yuxarıdan inqilab heç vaxt tərəqqi və inkişafın yolunu geniş açmağı qarşısına məqsəd qoymamış və qoya bilməz. O özünün yaratdığı ictimai xəstəlikləri özü sağalda bilməz. Burada xalq təbabəti, xalqın kəsərli müalicə üsulu lazımdır.

- İndi bizdə yenidənqurma və aşkarlıqla yanaşı, cəmiyyətin sağlamlaşdırılmasından da gedir. Bu sahədə ziyalıların rolu?

- Xalqın mənəvi sağlamlığı, maddi rifahı, hər şeydən əvvəl ziyalılardan asılıdır. Mənəvi sağlamlığın dərmanı və təminatçısı isə həqiqətdir, sosial ədalətdir, daimi tərəqqiyə, ümumbəşəri qayəyə əsaslanan məqsəddir və idealdır. Həqiqət və ədalətin bərqərar olması ictimai və siyasi sistemin xarakteri ilə müəyyənləşir. Yalana, zora və qorxuya, inamsızlıq və imansızlığa, əlçatmaz xəyala əsaslanan rejimi müdafiə edənlərə, ona haqq qazandıranlara necə ziyalı demək olar? Axı, ziyalılığın əsas meyarı savad və diplomdan artıq vicdandır, ictimai vicdan, milli vicdandır. Ağa qara, qaraya ağ deməklə ziyalılıq bir yerə sığışan deyil. Xalqın, geniş kütlənin ziyalılardan gileyinin, narazılığının kökü də, məncə, bundadır. Bizim hər birimiz bunu dərk etməli, bu xəstəlik və bəladan mümkün qədər tez yaxamızı qurtarmağa çalışmalıyıq. Özü də indiki dövrdə - yenidənqurmanın özünün yaratdığı yeni durğunluq dövründə, başqa sözlə desək, yağışdan çıxıb yağmura düşdüyümüz dövrdə...

«Azərbaycan» qəz. 24 mart 1990

DƏRD HƏMİN DƏRDDİR...

(həyasız böhtanlar və tarixi həqiqət)

Tarixi ədəbiyyatda, bir sıra ədəbi-bədii əsərlərdə mətbuatda XIX əsrin sonu və XX əsrin əvvəllərində, xüsusilə Birinci Dünya müharibəsi dövründə türklərin ermənilərə qarşı genosid siyasətindən ağız dolusu danışılır. Son vaxtlar erməni millətçiləri, onlarla vahid cəbhədə birləşən hər cür qaragüruhçular bu barədə daha mütəşəkkil şəkildə, daha geniş miqyaslı kampaniya aparırlar. Biz azərbaycanlıları da bu «işə» qatmaq, ümumiyyətlə, türk xalqlarının tarixini, davranış və mənəviyyatını, bütövlükdə keçmiş və gələcəyini ləkələmək üçün hər cür vasitələrdən istifadə olunur. Hətta bu işə bir sıra xarici dövlətlərin rəsmi dairələri də cəlb edilib.

Məsələn, 1989-cu ilin iyul və noyabr aylarında ABŞ senatının xarici işlər üzrə komissiyası Dağlıq Qarabağ problemi deyilən uydurma məsələyə dair qətnamələr qəbul etmişdir. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1989-cu ilin iyulunda və SSRİ Xarici İşlər Nazirliyinin 1989-cu il noyabrın 19-da ABŞ hökumətinə bununla əlaqədar verdikləri cavab və bəyanatlar oxucularımızın xatirindədir. SSRİ Ali Sovetinin Beynəlxalq İşlər üzrə Komitəsi 1989-cu il noyabrın 20-də keçirilən iclasında qeyd etmişdir ki, «bu qətnamə Sovet İttifaqının daxili işlərinə «soyuq müharibə» ruhunda yolverilməz müdaxilə deməkdir».

Qeyd edək ki, hər iki qətnamənin müəllifləri «zavallı» ermənilərin «müsibətləri» haqqında, daşnak ekstremist millətçilərinin uydurmalarına istinad edərək guya indi «bütövlükdə ermənilərlə Azərbaycan Sovet Respublikası arasında» münaqişədən dəm vurur və məsələni SSRİ Ali Sovetinin beynəlxalq işlər üzrə komitəsinin adı çəkilən bəyanatında deyildiyi kimi, «beynəlmiləlləşdirməyə» cəhd edirlər.

Biz bu irticaçı, şovinist və millətçi təbliğata laqeyd baxa bilmərik və baxmamalıyıq. Tarixi sənədlər və faktlar isə göstərir ki, bu işin əsas təşkilatçısı olan erməni millətçilərinin, «Daşnaksütyun»un və ona havadarlıq edənlərin Zaqafqaziyada və Kiçik Asiyada həqiqi məqsədləri lap əvvəldən tamamilə başqa olmuş və başqadır. Bu riyakar məqsədləri, planları vaxtilə Azərbaycanın uzaqgörən siyasi xadimləri əvvəlcədən görmüş, xəbərdarlıq etmiş, bu barədə öz kəsərli sözlərini demişlər.

Məsələn, «Əkinçi» qəzetinə nəzər salaq. 1876-1877-ci illərdə Balkanlarda rus-türk müharibəsindən öz məqsədləri üçün istifadə etməyə çalışan, çarizmə və Qərbin müstəmləkəçi dövlətlərinə «xidmət» göstərən erməni tacir və zadəganları, onlara havadarlıq edənlər «Şərq məsələsi» deyilən məsələyə bir «erməni məsələsi» də calamağa çalışırdılar. Əvvəllər türk sultanlarına can-başla qulluq edən və «milləti sadiq» ləqəbini daşıyan ermənilər, bu müharibədən sonra nəinki osmanlı imperiyasına, hətta bütövlükdə türk-müsəlman xalqlarına qarşı qatı düşmənçilik hissi təbliğ etməyə başladılar.

«Əkinçi» qəzeti bu meyli ifşa edərək yazırdı: «Tiflis şəhərində müsəlmanlara ermənilərdən varid olan əziyyətləri mülahizə elə, fikrin bu olsun qardaşlar arasında sülh verəsən, nəinki bu qism mətləbi qərəz ilə qəzetə yazasan ki, qardaşlar arasına ədavət düşsün» (№22, 1876).

«Verin bizə bizim yerləri» - deyib haray salan millətçi «Mışak» qəzetinin redaktoruna müraciətlə «Əkinçi» yazırdı: «Ey cənab Arsruni... neçə yüz ildir ki, biz ermənilər ilə qonşuluq edirik, indi cənabınıza eyib deyilmi ki, bizim aramızda ədavət salırsınız... Hər halda əqrəbin sancması qisasdan ötrü deyil». (№ 4, 1877).

1890-cı ildə «Daşnaksütyun» («İttifaq») partiyası yaradıldı. Bu qatı millətçi partiya iki xalq arasındakı münasibəti daha da kəskinləşdirməyə, ədavəti gücləndirməyə başladı. Əvvəlcə Türkiyə içərisində böyük bir Ermənistan yaratmaq proqramını qarşısına qoyan bu partiya 1904-cü ildə Qafqaz Ermənistanını da proqramına daxil etdi. Türkiyədən istədiyi vilayətlər bunlar idi: Kars, Van, Ərzurum, Harput, Diyarbəkir, Bitlis, Saviş, Adana və Kilkiya.

Erməni «Haçaq» partiyası da eyni xəyallarla yaşayırdı.

1896-cı ildə Anadolu bölgəsində silahlı çıxışlar etdilər. Sultan Əbdülhəmidin qoşunları ermənilərin üzərinə hücuma keçdi. Ermənilərin xeyli hissəsi qaçaraq Qafqaza sığındı. O dövrdə Qafqazdakı əyalətlərin ancaq 5-də ermənilər çoxluq təşkil edirdilər. Yerevanda çoxluğu azərbaycanlılar təşkil edirdi.

1905-ci ildə ermənilər Yerevan, Naxçıvan, Ordubad, Qarabağ, Şuşa, Gəncə, Bakı və Şirvanda silahsız azərbaycanlılara hücum etdilər. Məqsədləri azərbaycanlıları fiziki cəhətdən məhv edərək bu yerlərdə çoxluq təşkil etməkdən ibarət idi.

Gürcü sosialistlərindən Qaribi bu barədə «Qızıl kitab» əsərində belə yazıb: «Erməni istilaçılarının, bilaxassə «Daşnaksütyun» firqəsinin doğuşuna qədər Qafqaz adlı ölkədə sülh və dostluq hökm sürürdü. Bu ölkədə, sonradan türklərlə ermənilər arasında baş verən qanlı qırğınların kölgəsini belə xatırlayan yoxdu. Ermənilər, türklər və gürcülər yüz illərcə bir arada yaşadılar və bu müddət içərisində qanlı bir olay şəklində milliyyət ədavəti görülməmişdir,.. Daşnaklar gəldilər və müstəqil Ermənistan üçün sırf ermənilərlə məskun bir ərazi yaratmaq istədilər. Pədərşahi Qafqaz kəndlərinə milli ədavət və nifrət hissləri doldu. Ermənilərin silah oynatmalarına türklər də eyni surətlə qarşılıq verdilər». (Qaribi, Krasnaya kniqa, səh. 49, Tiflis, 1921).

Bir az da irəli gedək.

Birinci rus inqilabı dövründə - 1906-cı ildə azərbaycanlıları daşnak bandalarının hücum və basqınından qorumaq üçün təşkil olunmuş «Difai» («Dəf etmək») qrupunun «Var olma və ya olmama» sərlövhəsilə dərc etdiyi vərəqədə oxuyuruq: «Mütəşəkkil əskəri bir qüvvəyə malik, eyni zamanda yeni silahlarla, hətta toplarla mücahiz «Daşnak» firqəsi bir tərəfdən silah gücü ilə bütün ermənilərı, digər tərəfdən də Qafqaz hökumətini özünə tabe edib ən ümdə məqsədi təqib edir, o da Qafqaz daxilində bulunan bütün müsəlmanları qırıb bitirdikdən sonra onların yerini işğal etməkdir. Ermənilərin bu məqsədlərinə nail olduqdan sonra fikirləri Qafqazda erməni xalqı üçün milli müstəqil bir idarə yaratmaqdır. Firqəmizin başlıca məqsədi ayrı-ayrı Qafqaz xalqları arasında səmimi qardaşlıq və birlik yaratmaqdır. Hərgah «Daşnak» firqəsi namus və səmimiyyətlə öz hərəkət və fəaliyyətlərinin həqiqi proqramını aşkar söylərsə və əgər bu proqram ayrı-ayrı Qafqaz millətlərinin hürriyyət və istiqlallarına təcavüz edəcəkləri maddələri havi edərsə, o zaman biz öz birlik əlimizi həmişə ona uzatmağa hazırıq. Bilaxəs, o qabaqda olduğu kimi, müsəlmanların üstünə xayin və qəddarcasına hücumlarda davam edərsə, bizdən layiqli cavabını alar və Qafqaz bitməz-tükənməz qanlı bir səhnə halına düşər.

«Daşnak» firqəsi əmin olsun ki, heç bir vaxt biz öz millətimizin xarabazarlığı və külü üzərində erməni millətinin səadət və xoşgüzaranlıq qurmasına yol verməmərik».

Məlumdur ki, 1914-1917-ci illərdə Rusiya qoşunları Sarıqamış, Ərzurum və Trabzon cəbhələrində Türkiyə sərhəddini keçmiş və xeyli ərazi tutmuşdular. Rus qoşunları ilə yanaşı, daşnakların təşkil etdikləri hərbi dəstələr də bu əməliyyatlarda iştirak edirdilər. Lakin onların məqsədi tamam bambaşqa idi. Daşnak hərbi hissələri çar qoşunları ilə birlikdə Qafqaz cəbhəsində təkcə türk ordusu ilə vuruşmurdular. Daşnaklar birinci növbədə dinc əhaliyə divan tuturdular. Minlərlə günahsız türk - qoca, qadın, uşaq hərbi əsirlərə qatılaraq əsir-ölüm düşərgələrinə gətirilirdi.

Bəlkə bir az da irəli gedək?..

1918-ci il martın 30-31-i və aprelin 1-də gecəli-gündüzlü qırğında 10.000-dən artıq azərbaycanlı öldürüldü. Azərbaycanlılara məxsus olan dükanlar, mağazalar qarət edildi, evlərə atəş açıldı. Türk qadınları saç-saça bağlanaraq, çılpaq gəzdirildikdən sonra caniyana şəkildə təcavüzlər, öldürülmələr və daha başqa cinayətlərə... məruz qaldılar.

Təcavüzlər bununla da bitmədi. Erməni və ağqvardiyaçı birlikləri və könüllülər birləşərək Şamaxı, Salyan, Kürdəmir, Quba və Lənkəranа eyni şəkildə hücum etdilər.

Azərbaycan xalqının böyük oğlu Pişəvəri bu barədə belə yazmışdır:

«Mən 1918-ci ilin mart ayında daşnakların vəhşiliklərini, saysız günahsız adamların, xüsusilə bitərəf iraklıların öldürülüb

karvansaralarda meyitlərinin yandırılmasını öz gözümlə görmüşəm. Bu çox faciəli və nifrətləndirici bir hərəkət olmuşdur». (Mir Cəfər Pişəvəri, Seçilmiş əsərləri, 1965, s. 398).

Bir qədər yuxarıda əsir-ölüm düşərgələri barədə danışdıq. Belə ölüm düşərgələrindən biri də Nargin adasında idi. Tariximiz haqqında kitablarda bu barədə demək olar ki, indiyədək heç nə deyilməyib. Halbuki türklərə qarşı erməni - çar genosidini ifşa etmək üçün bolşevik «Hümmət» qəzetinin 1917-1918-ci il nömrələrində xeyli material vardır.

Bu məqalələrin, fikirlərin heç biri öz aktuallığını, dəyərini bizim günlərdə də itirməmişdir. Dərd həmin dərddir...

Məhz buna görə də onların bir qismini görkəmli simamızın yubileyi günlərində «Azərbaycan gəncləri»nin oxucularına təqdim etməyi özümə borc bildim.

«Azərbaycan gəncləri» qəz. 14 aprel 1990

GÖZ YAŞI TÖKDÜRƏN CƏZİRƏ

Kaş mən bu cəzirəyə getməyəydim. Kaş bir dəri, bir sümük bədənləri, sifətsiz gözləri, ah-zar edən insanları görməyəydim. Kaş «əfəndim su!..», «əfəndim yemək!», «əfəndim paltar!» sözlərini eşitməyəydim. Kaş çılpaq, dodaqları soyuqdan titrəyən, üzləri bozarmış atasız-anasız balaca balalarla söyləşməyəydim. Kaş xəstəxanada başları kərpic üstə can verən igidlərə rast gəlməyəydim!

Min iki yüz insan balası hazır ölüm növbəsində durubdur. Altı min də bu növbəyə hazırlaşır. Tifmi, vəbamı və ya bir qeyri-sirayətedici mərəzmi bunları cəzirəyə qurban edəcəkdir?

Yox, yox!

Aclıq! Susuzluq və soyuq!

Müsəlmanlar: əfəndim su!.. - deyib gözlərinizə baxdıqda guya demək istəyirlər: Siz insanmısınız? İnsaniyyətə dair qanunlarınız varmı? Siz millət balasısınızmı? Zavallı millət balalarına cavabınız nədir?

Sizə baxan, sizi mühakiməyə çağıran bu gözlərdə siz bu sözləri oxuyursunuz? Oxuyub da ürəyiniz sıxılır, gözləriniz ixtiyarsız yaşarır.

Mən ağladım... mən... gündə mərəzlər arasında gün keçirən, gündə dürlü-dürlü xəstələrin ah-nalələsini eşidən, onların axır dəqiqələrinə öyrənmiş, tab gətirə bilməyib ixtiyarsız ağladım...

Ağlamamaq mümkündürmü? Vaxtında ata-ananın göz işığı və sonra uşaqlar pərəstdarı və daha sonra vətən qəhrəmanı bir insan indi ilanlar məskəni olan susuz bir cəzirədə can verirkən, quru, partlamış dilini çıxarıb deyir: «əfəndim, su!», «əfəndim, yemək!». İndi mən də qulaqları eşidənlərə, vicdanları oyanmışlara üzümü tutub da o zavallı cəzirə əsirlərinin sözlərini təkrar edirəm: «Əfəndim, su!», «əfəndim, yemək!», «paltar!». Bu göz yaşı tökdürən cəzirə sizi gözləyir, sizə ümid bağlayır. Əmin olunuz siz də mən gördüyümü görsə idiniz və bir şey əlinizdən gəlməməyini düşünsəydiniz, siz də mənim kimi deyərdiniz: kaş bu cəzirəyə getməyəydim!

N. Nərimanov,
«Hümmət» qəzeti, № 21, 28 noyabr 1917-ci il

NARGİN CƏZİRƏSİ

Yoldaşımız doktor Nərimanov əsirlər işlərinə dair təşkil olunmuş komitədə əsirlərin hallarına dair mükəmməl məlumat verib öz təəssüratını söylədi. Komissiya üzvləri bütün təklifləri qəbul edib Tiflisə teleqram göndərdilər.

Yoldaşımız N. Nərimanovun təsvirincə:

1. Bu cəzirəyə daha əsir göndərməmək gərəkdir;

2. Qocaları və müharibədə iştirak etməyən əhalini və uşaqları vətənlərinə göndərmək və yainki uşaqları cəmiyyəti xeyriyyəyə vermək;

3. Tezliklə xəstələri cəzirədən şəhərə köcürmək;

4. Yemək-içməklərini artırıb alt və üst paltarlar fikrində olmaq.

Bu təkliflərdən bir neçəsinə əməl olunmaqdadır:

Üç yüzə kimi naxoş əsirlər hazır şəhərdə 16-cı lazaretdə yatırlar. Cəzirədə qalan əsirlərin halları əvvəlkinə nisbətən indi yaxşıdır.

«Hümmət» qəzeti, № 22, 5 dekabr 1917-ci il
«Azərbaycan gəncləri» qəz. 14 aprel 1990

BİR AZ DA UTANMAQ LAZIM

Bir neçə yalançı pəhləvanlar indi araya düşüb cürbəcür sözlər danışmağa görə biz özümüzə borc bilib bunu yazırız: əsirlərin halı həm cəmiyyəti-xeyriyyə, həm qeyri-müsəlman təşkilatlarına və həm də Tiflisdə oturan müsəlman vəkillərinə çoxdan məlum idi. Fəqət bu vaxtadək bir iş də görə bilməmişlər və ya görmək istəməmişlər. İndi bu işləri açan və bu yolda qorxmayıb açıq-açığına əsirlərin hallarını camaata bildirən kim oldu?

Hansı firqə oldu?

Ancaq bolşeviklər və ancaq bunlar həm icra komitetində və həm Dumada bu məsələni açıb sözlərinin üstə davam etdilər və edirlər.

«Hümmət» qəzeti, № 22, 5 dekabr 1917-ci il

NARGİN CƏZİRƏSİ BARƏSİNDƏ YOLDAŞIMIZ N.NƏRİMANOVUN DUMADA DEDİYİ SÖZLƏR:

«Cəzirənin halı hər tərəfdən fənadır. Buradakı evlər adamlar üçün tikilməyibdir. Bu evlər qaranlıq, üfunətli, soyuq daxmalardan ibarətdir. Bunların soyuqluğuna səbəb nəinki yandırılmamaqdır. Xeyr! Burada heç vaxt peç yandırmazlar. Çünki odun yoxdur, bu daxmaların soyuqluğuna səbəb taxtaların aralarında olan deşiklər və damların üstəki şişəsiz pəncərələridir...».

«Mən sağlamlar üçün bişən şorbanı gördüm: itini sevən kişi bunu itinə verməz... Su da burada çox vaxt tapılmır... Burada insanlar susuzluqdan can verirlər...

Bu zavallı əsirlərin hallarını daha aşkar nəzərə gətirmək üçün burada bir neçə sifralar söyləmək istərdim:

Hazır hər gün 40-45 adam ölməkdədir.

Aylar	adamdan	adam	ölübdür
keçən mayda	660	1	
iyunda	400	18	
iyulda	1700	20	
avqustda	1000	39	
sentyabrda	1000	64	
oktyabrda	2700	267	
noyabrda	2300	617	

Nə isə bu cəzirə bir məzardır. Bu məzarın kənarında hazır min adam növbədə durubdur və 7 min sağlam adam da bu növbəyə hazırlaşır. Gərəkdir daş ürəkli olasan da bu vicdansızlığa davam edəsən: Acıqlı, hirsli halında insan insan barəsində bu dərəcə vicdansızlığa meydan versə bəlkə də təbii ola. Fəqət mürür ilə hər saat, hər gün, həftələr, aylar, illərlə bu hərəkətdə bulunmaq insanlıq hərəkəti deyildir. İnsan balası ilə bu tövr rəftar nəinki azad Rusiyada gərəkdir görünməsin, hətta vəhşilər arasında görünməyibdir...».

«Hümmət» qəzeti, № 23, 11 dekabr 1917-ci il.
«Azərbaycan gəncləri» 14 aprel 1990

DƏRD HƏMİN DƏRDDİR

Oxucularımız bu sərlövhəyə qəzetimizin səhifələrində bir neçə gün əvvəl rast gəlmişdilər. Bakı Dövlət Universitetinin professoru Şirməmməd Hüseynov xalqımızın görkəmli oğlu Nəriman Nərimanovun qiymətli irsindən nümunələri məhz «Dərd həmin dərddir...» sərlövhəli giriş məqaləsi ilə təqdim etmişdi.

Aldığımız rəylər, telefon zəngləri sübut edir ki, başlanmış xeyirxah işi davam etdirmək lazımdır. Çünki, yenidənqurma və aşkarlıq tarix elmini siyasətbazlıq, ehkamçılıq alətinə çevirmək, siyasət qurbanı etmək kimi uzun sürən ağır xəstəlikdən qurtarmaq üçün geniş meydan açmışdır. Bu, Azərbaycan tarixinə, xüsusilə də onun ən mürəkkəb və ziddiyyətli 1918-1920-ci illər dövrünə aiddir. Göstərək ki, bu illər tariximizin ən az öyrənilmiş və ən çox təhrif edilmiş dövrüdür. Burada obyektiv və subyektiv cəhətlər, səbəblər çoxdur. Bunlardan biri də bizcə tədqiqatlarda həmin illərə aid anadilli sənəd və materiallardan, mətbuatdan lazımınca istifadə edilməməsidir. Təkcə belə bir faktı göstərək ki, «Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərnn mubarizəsi» adlı 1918-1920-ci illərə dair sənədlər və materiallar məcmuəsinə rus dilində çıxan qəzetlərdən 283, ana dilindəki qəzetlərdən isə cəmi 69 yazı daxil edilmişdir. Bunlar da çox vaxt ala-yarımçıq, ixtisar və təhrif olunmuş şəkildə. Halbuki hadisələrə və faktlara verilən qiymət, obyektivlik, xalqın həyatı və milli mənafeyinin gözlənilməsi və qorunması baxımından onlar daha qiymətli və ibrətamizdnr.

Bunu nəzərə alaraq əsrimizin ilk iki onilliyində, xüsusilə 1918-1920-ci illərdə çıxmış mətbuat orqanlarından görkəmli qələm sahiblərinin bu vaxtadək Azərbaycan oxucusunun çox böyük əksəriyyətinə məlum olmayan, amma bu gün də yeni düşüncə və təfəkkür tərzinin formalaşmasına kömək edə biləcək yazılarını müntəzəm olaraq «Azərbaycan gəncləri»nin oxucularına təqdim etməyi qərara aldıq. Beləliklə, «Dərd həmin dərddir»... sərlövhədən rubrikaya çevrildi.

NƏ BÖYÜK BAYRAM!

Azərbaycan türkləri bu gün ilk dəfə olaraq böyük bir bayram saxlayırlar:

İstiqlal bayramı!

Bundan bir sənə əvvəl Zaqafqaziyanın müqəddəratını həll uçün Tiflisə toplanmış olan musəlman vəkilləri tarixin oylə bir anına təsaduf eləmişlərdi ki, yüz sənəlikdir əsarətə yalnız yüksək bir amal nəticəsi deyil, eyni zamanda zəruri bir ehtiyac kimi xatimə vermək məcburiyyətində qalmışlardı.

Əvət, Zaqafqaziya millətləri bilməcburiyyə elani-istiqlal etmişlərdi.

Bilməcburiyyə elani-istiqlal!

İstiqlalımıza duşmən olanlar bu iki «məcburiyyət» və «istiqlal» sözlərinin bir araya toplanmasını «ictimai ziddin» qəbilindən ədd etməklə, Zaqafqaziya cümhuriyyətlərinin qeyri-təbii olduqlarını isbat etmək istətərlər.

Fəqət, bu mülahizə zahirdə doğru görünsə də batində oylə deyildir.

Bir növzadın məsəmmeyi-madərdən xilas olub da, dünyaya gəlməsi heç şübhəsiz, bir vaqieyi-istiqlaldır. Qadının vəzi-həmlinə digər təbirlə bizdə «azad olmaq» deyirlər. Halbuki, bu «azadlıq» eyni zamanda bir zərurəti - təbiiyyə, bir məcburiyyətdir.

Oylə bir məcburiyyət ki, həyati-aləm ona bağlıdır!

Zaqafqaziya «seymi»nin elan istiqlalə məxsus olan günündə «kadet» firqəsi nümayəndəsi «seym» övzalarının o gün vəzifələrinin ağırlığından duyduqları hissiyyata tərcüman olaraq, hər kəsi özü kimi təsəvvür edərək: «Baxınız sanki «seym» bir möhtəzirin başı üstündə durmuşdur» - dediyinə müqabilətən mən: «Əf edərsiniz, bu iztirab və əndişə bir möhtərizin deyil, bir ləhvisənin (oyuncağın - *Ş. H.*) başı üstündə görülən iztirabdır».

Zaqafqaziya ləhvisəsinin «azad»lığı çox müşkülatla olmuşdu. Çünki birdən üç növzad (övlad - *Ş. H.*) doğmuşdu:

Gürcüstan, Azərbaycan və Ermənistan!

Hər növzad kimi istiqlal dəxi can kimi sevildiyi halda canan kimi cəfakardır. Bir növzad paydar olub kəndi (öz - *Ş. H.*) başına dolanar bir adam oluncaya qədər ata və anasına nə əndişələr, nə qəmlər, nə qüssələr verməz!

İştə, eyni iztirabları, eyni qüssə və dərdləri fəqət bununla tovəm olan sevinc və etinaları biz keçən sənə istiqlalında keçirmədikmi?

Mart hadisatı ilməsinin bir nəticəsi olaraq davam edən Bakı əsarəti, Şamaxının bu dəfə yer altındakı məvadi - yerkəniyyədən deyil, insanların fitrətindəki şərarətdən mütəzəlzil olub da, xak ilə yeksan olması; Osmanlı türk qardaşlarımızın son ümidsizlik dəmində yetişib də bizi düşmənlərdən xilasi; Bakının istirdadi, sonra ingilislərlə bərabər Biçeraxov və sairlərinin gəlişi ilə hasil olan iztirab və əndişə, parlamanın mütəntən (təntənəli - *Ş.H.*) surətdə açılması, Azərbaycan ordusunun vürüdi, Qarabağ, Naxçıvan, Lənkəran məsələləri, Dağıstan faciəsi, nəhayət, bugünkü şənliklər - iştə bir sənəlik həyati-istiqlalın xöf ilə ümid arasındakı iztirab və etminan dəqiqələri!

Hər nasılsa növzadımız bir yaşına çatdı! Bu bir ilin ərzində azərbaycanlıların maddətən verdikləri qurbanlara müqabil qazandıqları yalnız xaricin bizi müstəqil bir millət kimi tanımağa doğru və göstərdiyi bəzi təmailat deyil, ən böyük şeyi fikri-hüriyyət və istiqlalın artıq milli bir fikir olduğu keyfiyyətdir.

Bundan iki sənə əvvəl biz türkçülər Azərbaycan şüarını böyük güldəstənin zəngin bir gülü kimi təsəvvür etdikdə, yalnız rus kadetləri ilə sosialistlərindən deyil və kadetlərimizlə sosialistlərimizdən dəxi müqabilə görürdülər.

Bir sənə sonra bütün firqələr bunu bir zərurət kimi qəbul edərək Azərbaycan istiqlalının elanında iştirak etdilər. Bu gün isə hər kəs onu bir Muhibə kimi qarşılayıb bir amal və bir ideal kimi alqışlayır!

Bu alqışlar yalnız siyasi firqələrin nümayəndələrindən deyil, ağac tüfəngləri ilə «iləri, iləri!» - deyə soqaqları dolaşan gənclərlə «Azərbaycan əsgərlərini» yaşar gözləri və «Allah bədnəzərdən saxlasın» duası ilə ötürən cəmaətdən nəşeyi-istiqlalı dərk etmiş

xalqdan gəlir.

Bundan altı ay əvvəl Azərbaycan məclisi-məbusanın açıldığı gün: «Bir kərə yüksələn bayraq bir daha enməz!» - demişdim.

O zaman içində bulunduğumuz zaman o qədər müşkül və o qədər pərxöf idi ki, yüksəltdiyimiz bayrağı pək də yüksəkliyə qaldırmayır, onu yalnız parlaman binasına münhəsir etdiribdə «Müdara» (gözəl rəftar etmə - *Ş. H.*) göstərmək məcburiyyətində qalırdıq.

Bu məcburiyyətdən müntəsir olan bəzi bədbinlər «Hanıya bir kərə yüksələn bayraq, bir daha endirilməz!» deyirsiniz? - deyirdilər!

İştə qoy bugünkü gün, milli bayraqlara boyanmış Azərbaycan paytaxtı, o kimi bədbinlərin qəlbini təsfiyə etsin!

Bir sənəlik həyat həqiqətən də göstərdi ki, bir kərə açılmış Ləvai-hürriyyət bir daha bükülməz!

Doğrudur ki, bu gün yüksəltdiyimiz istiqlal bayrağını endirməyə, açdığımız Ləvai-hürriyyəti bükməyə çalışan düşmənlər var. Bu düşmənlər bu gün hər tərəfdən bizə pusqurmaqda, bizi təhdid etməkdədirlər.

Fəqət, bir tərəfdən millətimizin gündən-günə artan əzmi-milliyyəsinə, istiqlal və hürriyyəti yolunda sabit qalacağına, digər tərəfdən də, nə desələr, desinlər, dünya üzərində təsirsiz qalmayacaq, milliyyət fikr müəzzəminin bilaxirə elani-zəfər edəcəyinə inanmaqla, bu tarixi-Milliyyəmizdə misli naməlum böyük bayramla yekdigərimizi təbrik edəlim də, inanalım ki, bir yaşında növzad istiqlal təhlükəli qranlarını keçir.

Bir kərə yüksələn Ləvai-istiqlal, bir daha enməz!

M. Ə. Rəsulzadə

«Azərbaycan» qəzeti, № 190, 28 may 1919-cu il.

«Azərbaycan gəncləri» qəz. 28 aprel 1990

İSTİQLAL BÜTÜN XALQIN ƏSƏRİDİR!

XX əsrdə Azərbaycan xalqının yaradıcı təfəkkür və düşüncə tərzinin ən böyük nailiyyəti, M.Ə.Rəsulzadənin də qeyd etdiyi kimi, «fikri-hürriyyət və istiqlalın artıq bir fikir olduğu keyfiyyətdir». Başqa cür desək, öz müstəqil milli dövlətini bərpa etmək fikri və onu əməli surətdə həyata keçirmək əzmi və qətiyyətidir. Bu baxımdan cəmi 23 ay ömür sürmüş Azərbaycan Xalq Cümhuriyyəti tarixinin hər bir anı, bu tarixi yaradanların fikir, düşüncə və xatirələri, tarixi sənəd və faktlar heç bir qiymət vahidi ilə ölçülə bilməyəcək xəzinədir. Məlum səbəblər üzündən ölkəmizdə yeddi kilid arxasında, xüsusi seyflərdə saxlanılan, xaricdən isə gətirilməsi, öyrənilməsi çox müşkül və xətalı olan bu xəzinədən uzun zaman məhrum olmuşduq. İndi bu vəziyyətdən xilas olmaq üçün az-çox imkan və şərait yaranmışdır. Əlbəttə, bütün bu tarixi ədəbiyyata və sənədlərə elmi-tarixilik baxımdan həqiqət meyarı ilə yanaşmağı da unutmaq olmaz.

Bu gün vətənindən uzaq düşmüş, lakin varlığında, ruhunda, qanında onu yaşatmış vətənpərvər hüquqşünas-alim, gəncəli Hüseyn Baykaranın «Azərbaycan İstiqlal Mücadiləsi tarixi» kitabından «Azərbaycan istiqlalının elanı» fəsli (səh. 256-261) ilə oxucuları tanış etmək istəyirəm (bəzi ifadə və cümlələri ixtisar etməklə). 1975-ci ildə İstanbulda «Gənclik basım evi»ndə («Gənclik» mətbəəsində) çap edilmiş 331 səhifəlik bu monoqrafik tədqiqat əsərinə müəllif belə bir həsrətmə yazmışdır: «Bu əsərimi adları bilinən və bilinməyən, bir qismi arkadaşlarım olan Azərbaycan istiqlal mücadiləsinin əziz şəhidlərinə bağışlayıram...!».

Mən isə öz tərəfimdən və icazə versəniz, Sizin adınızdan deyərəm: «Vətəndən uzaqlarda vətən həsrəti ilə yaşayan və dünyadan köçən qeyrətli eloğlu, bizə istiqlal mücadiləsi tarixinə dair gözəl əsər qoyub gedən Hüseyn Baykara, sənin də ruhun şad olsun, Allah sənə də min rəhmət etsin, qəbrin nurla dolsun!

AZƏRBAYCAN İSTİQLALININ ELANI

30, 31 mart və 1 aprel tarixində (söhbət 1918-ci ildən gedir - *Ş. H.)* Bakıda azəri türklərinə qarşı... başlayan qırğın, 10.000-dən artıq müsəlman və türk xalqının və faciəli şəkildə öldürülməsi ilə nəticələnmiş və qırğın bununla da qalmayıb. Şamaxı, Kürdəmir, Salyan, Quba, Lənkəran şəhər və ətraflarına qədər yayılmışdı. Artıq silahlı quldurların hədəfi Gəncə idi. Onlar bu dəfə Qarabağ ermənilərı ilə sövdələşərək qüvvətlərini birləşdirəcək və Gəncəyə hücum edəcəkdilər. Gəncə Azərbaycanın ikinci paytaxtıdır. Bu şəhərin alınması, Azərbaycan istiqlalı davasının ölməsi demək olacaq idi. Azərbaycanlılar yenidən əsarət altına düşəcəkdilər. Tiflisdə qurulan Zaqafqaziya Seym məclisinin üzvlərinin üçdə biri ermənilərin əlində olduğundan, Seym məclisi bu təcavüzün qarşısını ala bilmədi. Sonra Seymin əlində müntəzəm bir əsgəri qüvvə yox idi. Azərbaycanlılar üçün tək çıxış yolu Osmanlı ordusundan yardım istəmək idi. Ona görə də belə bir addım atmalı oldular.

Bu vəsilə ilə «Müsavat» partiyasının liderlərindən Nəsib bəy Yusifbəyli Azərbaycan Milli Şurasına (parlamentə) oxuduğu bir raportda belə deyirdi: «Yalnız Azərbaycanı deyil, bütün Zaqafqaziyanı istila edən böyük dəhşətli anarxiyanı biz öz qüvvəmizlə sakitləşdirə bilmərik, Şərq tərəfdən... bizim əsrlik düşmənimizlə birləşərək hücum etməsi vəziyyəti daha da ağırlaşdıraraq türk millətinə çox böyük müsibət və fəlakət gətirir. Vəziyyət belə ikən, bizə xarici bir qüvvətin müdaxiləsini istəməkdən başqa çarə qalmayır. İstiqlalımızın qızğın tərəfdarı olmaqla bərabər mən, bu məsələ haqqında birinci olaraq məsləhətləşmək məcburiyyətindəyəm. Fəlakətin üzünə cəsarətlə baxaraq biz sevinməliyik ki, xoş bir tale əsəri olaraq müdaxilə edəcək xarici qüvvə, bizimlə dost və qardaş olan Türkiyədir. Bəlkə bu, bizim qonşularımızın çox xoşuna gəlməyəcəkdir. Lakin başqa çarəmiz də yoxdur.

Müdhiş anarxiya qarşısında, onlar da bizim kimi gücsüzdür-

lər... Kimin xatirinə isə xəstə yatağında yata bilmərik. Bizim heyətin Batuma gedərək, Şərqi Zaqafqaziya türkləri adından Osmanlı dövlətindən yardım istənilməsinin zamanı gəlmişdir.

...Bununla birlikdə Azərbaycanın istiqlal üsuli-idarəsini də heç bir vaxt unutmamalıyıq...» (Mirzə Bala, Azərbaycan Milli hərəkatı. Səh. 132-133).

Azərbaycanın faciəli vəziyyətinin xəbəri Türkiyəyə də gəlib çatmış və yayılmışdı. Türkiyənin Batum konfransında sülh heyəti rəisi Xəlil bəy 1918-ci il mayın 26-da Zaqafqaziya Sülh heyəti rəisinə göndərdiyi bir memorandumda deyirdi ki, «... Zati alilərinə məlum olduğu üzrə Qafqazın vəziyyəti çox kritik və qarışıqdır və çözümlənməyə möhtacdır. Bakı və ətrafında yüz minlərcə türk və müsəlmanlar özlərinə inqilabçı deyən vicdansız hayduqların qanlı pəncəsində inləyir. Bu zavallıları təhdid edən düzəlməsi imkansız fəlakət gündən-günə artmaqdadır. Saysız mütəşəkkil quldur dəstələrinin təcavüzünə məruz qalan Qafqazın başqa bölgələrindəki türk və müsəlman xalqın vəziyyəti heç cür ümidverici deyildir.

Rəis həzrətləri, qəbul edərsiniz ki, bu adı daşımağa layiq olan heç bir hökumət, qonşu olduğu bir ərazidə belə cinayətlərin cəzasız olaraq qalmasına dözə bilməz və yenə qəbul edərsiniz ki, Qafqazı məhv edən bu anarxiya münasibətilə Dövləti-Aliyeyi-Osmaniyyənin vəziyyəti çox nazikdir. Çünki bu anarxiya Dövləti-Aliyeyi-Osmaniyyənin əhalisi ilə eyni irq və dinə mənsub bir əhalinin asayişinə dəxi əlaqəsi vardır. Digər tərəfdən ümumi hərbin gərəyi olaraq Dövləti-Aliyə öz Ordusunu digər cəbhələrə Qafqaz yolu ilə göndərmək məcburiyyəti qarşısındadır. Bu da, indiki müəyyən olmayan vəziyyətə gecikmədən son qoymağı tələb edir».

Bu memorandum mayın 11-də verilmişdi. Cavab alınmayan təkliflərə də 3 gün içərisində cavab verilməsini tələb edirdi. Bu memorandum verildiyi gün Zaqafqaziya Seymi buraxıldığını elan etmişdi.

Bununla birlikdə yuxarıda adı çəkilən «Müsavat» partiyası liderlərindən Nəsib bəy Yusifbəylinin nitqi və Xəlil bəyin memorandumu çox mühüm tarixi bir sənəd kimi qiymətini saxlamaqdadır.

Azərbaycan Milli Şurasında aşağıdakı partiyalar vardı: Çoxluğu təşkil edən «Müsavat» partiyası, Tərəfsiz Demokrat qrupu, «Əhrar» («Azadlıq tərəfdarları» - *Ş. H.*), «İttihad» («Birlik» - *Ş. H.*), eser və sosial-demokrat partiyaları. Bu partiyalardan eserlər və sosial-demokratlar əvvəllər - Azərbaycan Rusiyasız yaşaya bilməz siyasətini güdürdülərsə, tarixi hadisələr onların haqlı olmadıqlarını üzə çıxarmışdı. «Əhrar» və «İttihad» - islamçılar hər zaman Azərbaycanın Türkiyəyə ilhaq siyasətini güdmüşdülər. Tarix bunlara da haqq verəcək istiqamətdə hərəkət etməmişdir. «Müsavat» partiyası ilə Tərəfsiz Demokrat qrup, əvvəlcə «Milli ərazi və mədəni muxtariyyət» tərəfdarı olmuşlarsa da, rus inqilabının gedişi və yuxarıda qısaca izah edilən Qafqaz hadisələri, onları özlərinin əvvəlcədən «uzaq məqsəd» olaraq planlaşdırdıqları Azərbaycan istiqlalı yoluna tezliklə sürükləmişdir. Azərbaycan istiqlal mücadiləsi tarixində «Azərbaycan istiqlalı» nə bir təsadüf və nə də real mövcud olan siyasi hadisə olmuşdur. Azərbaycan xalqının ruhundan doğan bu istiqlal hadisəsi, tarixin axışı içində məntiqi seyrini bulmuş və Azərbaycan siyasi tarixinin qədərini əllərində tutanlar, tam zamanında, çox qüdrətli bir sıra dövlət adamlarının olduğunu göstərərək, istiqlal hərəkatının yerində və zamanında qiymətləndirilməsini bilmişdilər.

İstiqlal elanında yuxarıda adları çəkilən bütün partiyalar birləşmişdilər. Sosialist Əkbərağa Şeyxülislamzadə yazırdı: «Biz Azərbaycanın müstəqilliyi əleyhində idik...». Qonşularımız gürcü və ermənilər istiqlal elan edincə «Sosialistlər Azərbaycan istiqlalı, əleyhdarlığını buraxıb, birinci planda istiqlaliyyətçi oldular...» («Mücahid» aprel - may 1962).

Bir müşahidəçi və Azərbaycan Milli Şurası (parlament) üzvü Azərbaycan istiqlalının elan edilməsi mərasimini belə xatırlayır: «Axşam, əskidən rus imperatoru vəkili olaraq Qafqazı idarə edən canişinin sarayında Seymin müsəlman qrupuna ayrılan mavi salonda Azərbaycan Milli Şurası üzvləri d-r Həsənbəy

Ağa oğlunun sədrliyində toplandıq. Həsənbəy məclisi açdı və sözə başlayaraq dedi ki, indi anlaşma bütün üzvlər arasında tamamdır. Rəy vermək hər üzvün vəzifəsidir. Bitərəf qalmaq istəyənlər lütfən məclisi tərk etsinlər. Heç kim yerindən qalxmadı. Həsənbəy Azərbaycanın azad və müstəqil bir dövlət olmasını səsə qoyur. Katib Mustafa Mahmudi adları oxuyur, hər üzv «razıyam» cavabını verir. Hər kəsin üzü sevincli və nəşəli görünürdü.

Rəis Həsən bəy qalxaraq bütün üzvlərə xitabən: «Bu saata - yəni 8-i 10 dəqiqə keçəndə, Azərbaycan istiqlaliyyəti Milli Azərbaycan Şurası tərəfindən qəbul edilmişdir. Yeni hökumətimizi təbrik edirəm» - dedi. Üzvlər çoxunun gözləri yaşlı olaraq birbirinin əllərini sıxırdılar. Çar canişini sarayının önündə yığışıb gözləyən azərbaycanlılar, erməni və gürcülər «Yaşasın müstəqil Azərbaycan» - deyə bağıraraq saraydan çıxan Azərbaycan vəkillərini alqışlayırdılar.

Həmin müşahidəçi göstərir ki, bu qərara gəlmək üçün Azərbaycan millət vəkilləri iki gün aramsız, çox uzun çəkən toplantılar, müzakirə və münaqişələr etməli oldular.

Azərbaycan Milli Şurası tərəfindən 1918-ci-il mayın 28-də Tiflisdə bütün dünyaya elan edilən Azərbaycan istiqlalı haqqındakı «Milli akt» belədir:

«Ümumi seçki ilə intixab olunan Azərbaycan Milli Şurası bütün insanlara elan edir ki

I - Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi cənub-şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi bütün hüquqa malik müstəqil bir dövlətdir.

II - Müstəqil Azərbaycan dövlətinin idarə şəkli Xalq Cümhuriyyəti olaraq qərara alınmışdır.

III - Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə» və xüsusilə qonşu olduğu millət və dövlətlərlə yaxşı münasibətlər qurmağa əzmlidir.

IV - Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif və cins ayrılığı gözləmədən öz torpağında yaşayan bütün adamların Vətəni və siyasi vətəndaşlıq haqqını tanıyır.

V - Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərə sərbəstcə inkişaf etmək üçün geniş meydan verir.

VI - Qurucu məclis toplanana qədər, Azərbaycan idarəsinin başında ümumi seçki ilə qurulan Milli Şura və Milli Şura qarşısında məsul müvəqqəti hökumət durur».

Bu mərasimdən sonra ilk Azərbaycan hökuməti qurulmuşdur.

Fətəli xan Xoylunun qurduğu ilk Azərbaycan Milli Müstəqil hökuməti bir koalisiya kabinəsindən ibarət olmuşdur. Bu kabinədəki 8 nazirdən 6-sı «Müsavata və Tərəfsiz Demokrat qrupa, biri «Hümmət»ə və biri də «Blok»a mənsub olmuşdur. Demək, Azərbaycan istiqlalı elan edildikdən sonra qurulan ilk koalisiya kabinəsində 4 partiya iştirak etmişdir. Bunlar: «Müsavat», Tərəfsiz Demokrat qrupu, «Blok» - yəni sosialistlər və həm də «Hümmət» Kommunist Partiyası.

Azərbaycan istiqlalının elanında və təşkil edilən ilk hökumət kabinəsində «Hümmət» partiyasının («Kommunist Partiyasının) iştirakı qiymətli və tarixi bir hadisədir. «Blok» qrupu da sosialist idi. Sosialist Əkbərağa Şeyxülislamzadənin dediyinə görə istiqlal elanından iki gün əvvəl təşkil olunmuş müşavirə və müzakirələrin istiqlal elanı məsələsində tam bir anlaşma ilə nəticələnməsi Azərbaycanın siyasi nöqteyi-nəzərindən çox, olduqca çox məna daşıyır. Bu o deməkdir ki, Azərbaycan istiqlalının elan edilməsi üzərində ən sağ ucda bulunan «Əhrar» və «İddihad» partiyasından, ən sol ucda bulunan Kommunist Partiyası arasında tam bir anlaşma olmuşdur. Yəni Azərbaycan Kommunist Partiyası da Azərbaycanın rus şovinist nasional kommunistlərinə müstəmləkə olmağını deyil, dövlətlər arasında müstəqil bir dövlət olmasını istəmişdir. Sonradan Stalinin Azərbaycan Kommunist Partiyasının ilk qurucularının sonuncusuna qədər millətçi, «müsavatçı» kimi ittiham edərək güllələtdirməsinin mənası aydındır. Bu kommunistlər rus Qızıl Ordusu Azərbaycanı işğal edərkən də Azərbaycanın azad və müstəqil bir dövlət olacağını sanmışdılar. Çünki Leninin elan edilib yayılan bütün

bəyanatlarında hər millətə «azad və müstəqil» bir istiqlal, yurd vəd edilirdi. Lenin deyirdi ki, əgər istəyirsiniz, Rusiyadan ayrılın!

«Müsavat» partiyasının Azərbaycan istiqlalının elanındakı roluna gəlincə, bu partiyanın bu yolda göstərdiyi xidmətlər inkar edilə bilməz. Ancaq bu partiya liderləri və mənsublarının Azərbaycan istiqlalının elan edilməsində göstərilən bütün səy və zəhmətlərin özlərinə aid olduğunu iddiaya qalxışmaları, demək olar ki, bütün Azərbaycan ziyalılarını incitmiş və hətta didərgin etmişdir. Bu məsələ üzərində çox durmağımız mövzumuzu elmilikdən çıxara bilər. Onun üçün bu məsələdən keçirik... Qarşıda istiqlal elanı məsələsinin kimdən gəldiyi üzərində dayanacağıq. «İstiqlal» bütün Azərbaycan xalqının əsəri olmuşdur.

Azərbaycanın istiqlal elan etməsi hadisəsini Azərbaycan Nazirlər məclisi rəisi (baş vəkil) Fətəli xan Xoylu Paris, Roma, Berlin, Vyana, Vaşinqton, Buxarest, Madrid, Haaqa, Stokholm, Afina, Kiyev, Kopenhagen, Tehran və İstanbul hökumətlərinə bir memorandumla bildirmişdi. Memorandum qısaca belədir:

«Bu ayın 28-də toplanan Azərbaycan Milli Şurası Zaqafqaziyanın cənubi-şərqində yerləşən Azərbaycanın istiqlalını elan və Azərbaycan Cümhuriyyətini təşkil etmişdir. Vəziyyətdən rəsmi hökumətimzin xəbərdar olmasını xüsusi olaraq rica edirəm və üstün hörmətlərini sunmaqla, kəsbi-şərəf eylərəm. Hökumətin indilik «müvəqqəti mərkəzi» Gəncədir.

30 may 1918

Azərbaycan Cümhuriyyəti
Nazirlər Məclisi Rəisi:
Fətəli xan Xoylu»

«Azərbaycan gəncləri» qəz. 24 may 1990

XALQIN RUHUNDAN DOĞAN HADİSƏ

Azərbaycan Demokratik Respublikasının elan edilməsinin 72 ili tamam olur. Azərbaycan KP MK bürosunun bu günlərdə qəbul etdiyi qərarda da deyildiyi kimi, bu respublika «Azərbaycan xalqının tarixinin ayrılmaz hissəsini təşkil edir».

Azərbaycanın istiqlalı və dövlət müstəqilliyinin bərpası fikri bu respublikanın yaradılması işinə başçılıq edənlərin özlərinin də etiraf etdikləri kimi, «tarixin axışı içində Azərbaycan xalqının öz ruhundan doğan bir ümummilli hərəkat, hadisə idi... «İstiqlal» bütün Azərbaycan xalqının əsəri olmuşdur» (Hüseyn Baykara, «Azərbaycan istiqlal mücadiləsi tarixi», İstanbul, 1975). «İstiqlal bir qaç xəyalpərəstin fantaziyası deyil, millətin ruhunda ən dərin guşələrindən təzahür edən ehtiyacdır» (H. Baykara).

Məlumdur ki, uzun müddət Azərbaycanın milli dövlət quruluşunun dirçəldilməsi uğrunda mübarizə aparanları, çox çətin, ziddiyyətli və mürəkkəb şəraitdə bu müqəddəs arzu və istəyi əməli olaraq həyata keçirənləri «millət xainləri», bu barədə düşünənləri və ya düşünmək təşəbbusunda olanları isə «millətçi» ləqəbi ilə damğalamış, təqib və məhkum etmişlər. Lakin ululalarımız yaxşı deyiblər ki, sən saydığını say, gör fələk nə sayır. Ankaranın Əsri qəbiristanlığında Azərbaycan istiqlal mücadiləsinin bayraqdarı M.Ə.Rəsulzadənin məzarının sinə daşı üzərində iri hərflərlə yazılmış bu sözləri oxumuşam: «Bir kərə yüksələn bayraq bir daha enməz».

1919-cu il mayın 28-də Azərbaycanın istiqlal bayramının birinci ildönümü münasibətilə «Azərbaycan» qəzetində dərc olunmuş «Nə böyük bayram!» sərlövhəli məqaləsini M.Ə.Rəsulzadə məhz bu sözlərlə bitirmişdi.

Çox böyük maraq doğuran məsələlərdən biri Azərbaycan istiqlalı haqqındakı bəyanatdakı «müstəqil Azərbaycan dövlətinin şəkli idarəsi Xalq Cümhuriyyəti olaraq təqrir edilir» maddə-

sidir. Yəni parlamentli, çoxpartiyalı respublika dövlət formasının seçilməsidir. Axı, nəinki Rusiyada, o zaman bütün Şərqdə belə bir hakimiyyət forması yox idi. Mütləqiyyət, avtoritar rejimlərin əhatəsində yaşayan, siyasi mədəniyyət meydanında ilk addımlar atan, uzun əsrlər boyu öz dövlət müstəqilliyini itirmiş bir xalqın, hətta Qərbdə belə barmaqla sayıla biləcək parlamentli respublika dövlət formasını seçməsini nə ilə izah etmək olar? Aydınlaşdırılması və «tədqiqi vacib olan problemdir.

H. Baykara bununla əlaqədar yazır: «Azərbaycan siyasi tarixinin qədərini-taleyini əllərində tutanlar tam zamanında çox hazırlıqlı dövlət xadimləri olduqlarını göstərərək, istiqlal hərəkatının yerində və zamanında qiymətləndirilməsini bilmişdilər».

1917-1920-ci illərin mürəkkəb, fəlakətli, qanlı-qadalı, ölümdirim vuruşmalarında xalqa başçılıq edib onu nəinki fiziki cəhətdən məhv edilmək təhlükəsindən qurtarmağa nail olmuş, həmçinin Azərbaycan milli dövlət quruluşunun dirçəldilməsinə nail olmuş şəxslərin, başqa deyimlə, bu tarixi möcüzəni yaradanların hər birini xalqa, indiki və gələcək nəsillərə tanıtmaq vacibdir. Bu, bizim vətəndaşlıq borcumuzdur.

Həmin xadimlər sırasında M.Ə.Rəsulzadənin xüsusi yeri vardır. Görkəmli siyasət və dövlət xadiminin, publisist və jurnalistin keşməkeşli, mürəkkəb və bəzən ziddiyyətli həyat yolu çox geniş və dərindən öyrənilməyə layiqdir. Məlumdur ki, onun dünyagörüşü XX əsr azadlıq hərəkatı tarixində əlamətdar olan birinci rus inqilabı dövründə və sonrakı illərdə Qərbin və Şərqin mütərəqqi ideyaları zəminində formalaşmağa başlamışdı.

M.Ə.Rəsulzadənin Xalq Cümhuriyyəti yaratmaq ideyası və fikrinə hələ 1917-ci il fevral burjua-demokratik inqilabının qələbəsindən, yəni mütləqiyyət rejiminin süqutundan sonrakı ilk həftələrdə gəldiyini söyləmək olar. Bunu onun çox böyük elmi-nəzəri və siyasi yetkinliklə yazılmış və redaktoru olduğu «Açıq söz» qəzetində dərc edilən məqalələri aydın göstərir. Həmin məqalələrdən ayrı-ayrı parçaları oxuculara təqdim edirəm. Ümid edirəm ki, 1918-ci ilin sentyabrında Azərbaycan Demokratik Respublikasının paytaxtı Bakının azad edilməsi və bununla əlaqədar olan hadisələr barədə 1918-ci ilin iyunundan Gəncədə Azərbaycan və rus dillərində nəşrə başlayan «Azərbaycan» qəzetindən götürdüyümüz yazılar da oxucular üçün maraqlı olacaqdır.

* * *

Bütün Rusiya millətləri qəlblərinin ən dərin guşəsində bəslədikləri arzularına, aruzeyi-ümumilərinə çatdılar. Yalnız öz məmləkətində deyil, dünyanın hər tərəfində hürriyyət və səltənəti-milliyyənin düşməni-biimanı olan Rusiya heykəli-istibdadı - bu qanlı «jandarm» yıxıldı!

«Açıq söz», 7 mart 1917-ci il

* * *

Muvəffəqiyyət üçün bir şey lazımdır. O da sükunət, məmaniət, hissiyyat və təsadüfata tabe olmayıb əql və tədbirlə hərəkət etməkdir.

«Açıq söz», 1 mart 1917-ci il.

* * *

Birləşmək, üzviyyət peyda etmək, bir-birimizlə anlaşmaq, təşkilat vücudə gətirmək lazımdır. Artıq toplaşmaq, danışmaq, birləşmək imkanı var. Bu xüsusda hürriyyət elan olunmuşdur. Yetişər ki, bizdə də təəssüb, fədakarlıq olsun. Bunun üçün hər şeydən əvvəl ürəfamız aralarında az-çox aşnalıq və həmməsləklik hiss olunan heyətlərimiz birləşməli, uzaq proqramlardakı ixtilafdan sərf-nəzər eləyib və hər tərəfdə milli məclislər vücudə gətirməlidirlər.

«Açıq söz», 16 mart 1917-ci il.

* * *

Demokratiya nöqteyi-nəzərindən Rusiyada yaşayan və ça-

rizmin təcavüzkar siyasətinə məruz qalan sinif, silk və millətlər üçün CÜMHURİYYƏTDƏN daha münasib bir üsuli-idarə təsəvvür olunmaz. Fəqət cümhuriyyətdən cümhuriyyətə də fərq var. Cümhuriyyət elə əsaslar üzərinə qurula bilər ki, yenə cümhuriyyəti-əənamın məhkum millətlərin hüququnu tamamilə təmin etməyib xəlqin mümtaz kimi mənafeyinə uydurulsun... ola da bilər ki, ümumi, müsavi, gizli və doğru surətdə icra olunan seçkilərin iqtiza edildiyi hürriyyətlərə bina olunub ümumeyi-xəlqin mənafeyini gözləsin, qanun nəzərində xas əvam görməyib, xalq cümhuriyyəti şəklini alsın.

Məhkum sinif və millət gözü ilə baxdıqda işıqlı istibdad qarasından, məşrutiyyət işıqlı istibdaddan, cümhuriyyət məşrutiyyətdən cümhuriyyəti-ənamda, cümhuriyyəti xas daha faydalı və daha müvafiq məramdır.

Var olsun Xalq Cümhuriyyəti!

«Açıq söz», 17 mart 1917-ci il.

* * *

Cəmaət istiqlala, o qədər munis olmuş, hürriyyət və istiqlal fikri o qədər xəlqin qanına sinmiş, ruhuna işləmişdir ki, indi artıq istiqlal fikri bir firqənin, bir kütlənin arzusu deyil, bütün cəmaət Vətəni istiqlalsız və dövləti hürriyyətsiz təsəvvür edəməyir. Binaən-əleyh demokratiya biltəbii qapısında şübhəli adamlar durmasına heç vəchlə razı olamaz və birtən vahid kimi hürriyyət və istiqlalının müdafiəsinə hazırdır.

M.Ə.Rəsulzadə

«Azərbaycan» qəzeti, 28 may 1919-cu il

İş çox - çalışan yox. Yük ağır - yük daşıyan yox. Vəzifə mühüm və məsuliyyətli - vəzifəsini bilmək istəyən az!

Rusiya hürriyyət almışdır. Bəli, bu yaxınlarda almışdır. Amma bu hürriyyət on illərdən bəri günclərdə, bucaqlarda, qaranlıq yuvalarda, həbsxanalar küncündə, zindanlar zulməti içində, buzlu Sibiriya tundralarında qaranlıq kazarmalarda,

vəhşi tayqalarda çalışan alicənab xadimlərin min dürlü zəhmət və məşəqqəti, hər növ həmiyyət və qeyrəti sayəsində alınmışdır!

İndi bunca əzab və zəhmətlərin ağacı meyvə gətirmişdir:

Hürriyyət meyvəsi!

Xəlil İbrahim

«Açıq söz», *22 mart 1917-ci il.*

Bizi vəhşi bilənlər və bizdən yalnız qan içicilik gözləyənlər ilə və bizim vücudumuzu aləmi-mədəniyyət üçün təhlükəli ədd edənlər ilə bir balaca təmas lazım imiş ki, bu fikrin və bu nəzərin sırf yalan və yanlış olduğu meydana çıxsın. İngilislər bizim içimizə girirkən özlərini vəhşi heyvan qarşısına çıxmış bir ovçu vəziyyətində saxlamaq ehtiyatına heç bir lüzum olmadığını bir-iki gündən sonra kamali-təəccüblə anladılar və həqqimizdə bəsləməkdə olduqları nəzər və təsəvvüratın - bilməməzlik və ya düşmənlər təbliği nəticəsi olaraq xəta və yanlış olduğunu da dərk etdilər. Əminəm ki, bunu da dərk etdilər ki, istibdad altında tərəqqi və təalidən cəbra məhrum və cəhalətə məhkum edilmiş olan bu millət azad olduqdan sonra çox çəkməz ki, aləmi-mədəniyyət bazarlarında öz milliyyətləri təqazası ilə əmələ gəlmiş mədəni mətalarını nizari-bəşəriyyətə təqdim ilə mədəniyyəti qoca olan millətləri də heyran qoyarlar...

Adamlar var ki, bizim istiqlalımızı istəmirdilər, halbuki bizə düşmən deyil idilər və bu istəməmələkləri də düşmənçilik üzündən deyil idi. Fəqət onlar qorxurdular, qorxurdular ki, biz hökumət etməyə, məmləkət dolandırmağa, dövlət saxlamağa qabil olmayıb da müxtəlif millətli təbəəmizin can və malını mühafizə edə bilməyən məmləkətdə asayiş bərpa edə bilməyək, nizam və qaidə qoya bilməyək, siyasətdə bacarıqsızlıq göstərib xalqın istirahətini pozaq...

«Azərbaycan» *qəzeti, 28 may 1919-cu il*

Üzeyir Hacıbəyov

«Bakı» qəz. 28 may 1990

MİLLİ CÜMHURİYYƏTİMİZİN İKİNCİ PAYTAXTI

Sentyabrın 15-i XX əsr Azərbaycan tarixinin ən əlamətdar günlərindən biridir. 1918-ci il sentyabrın 15-də cəmi 3 ay yarımlıq ömrü olan Azərbaycan Xalq Cümhuriyyətinin yenicə təşkil olunmağa başlayan silahlı qüvvələrinin qardaş turk silahlı qüvvələri ilə birgə əməliyyatı nəticəsində Bakı daşnak törtökünlüləri və onların daxili və xarici havadarlarının zülmündən azad edilmişdir.

Nəinki Qafqazın, həmçinin Yaxın Şərqin qüdrətli sənaye, inqilab və mədəniyyət mərkəzlərindən olan Bakını Azərbaycandan ayırmaq üçün keçən əsrdən başlayaraq çox təşəbbüslər edilmişdi. Vaxtilə Stalin bəyan etmişdi ki, guya Bakı Azərbaycanın yetirməsi, təbii məhsulu deyil, onu yuxarıdan gəlmələr, xaricilər «qurub yaratmışlar». 1918-ci ilin yazında Azərbaycan istiqlalının ən qəddar düşməni Şaumyan çox böyük təşviş və həyəcanla Leninə xəbər verirdi ki, «müsavatçılar Bakını müstəqil Azərbaycanın paytaxtı etmək istəyirlər». Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı Müstəqil Azərbaycanın paytaxtı kimi tanındı, yeni milli görkəm aldı. Lakin bu səadət uzun sürmədi.

Azərbaycan Xalq Cümhuriyyəti devrilməndən sonra, 20-30-cu illərdə və hətta sonralar beynəlmiləlçilik şüarı ilə şəhərin həqiqi sahiblərini onun idarə edilməsi işindən uzaqlaşdırmaq, azərbaycanlıları öz paytaxtlarında etnik qrupa çevirib abad olmayan ətraflara sıxışdırmaq meyli və təşəbbüsləri gücləndi. Şəhərin milli simasını tədriclə məhv etmək üçün nələrə əl atılmadı? Fəqət M.Ə. Rəsulzadənin də yazdığı kimi, «hürriyyət şəminə aşiq olan pərvanəni heç bir zülm və istibdad şöləsi vəsli-didara yetişmədən saxlayamaz».

Məlumdur ki, hər bir ölkənin, xalqın umumi tarixi inkişafının səviyyəsi, keçmişi, bu günü və sabahı hər şeydən əvvəl onun paytaxtı ilə müəyyən edilir. 72 ildir ki, Bakı Azərbaycanın rəsmi paytaxtıdır. Mənca, biz hər il sentyabrın 15-ni «paytaxt günü»,

onu düşmənlərdən azad edib, xalqına qaytaran qəhrəmanların xatirəsini yad etmək günü, doğma Bakımızı əsrimizə layiq şəhərə çevirmək uğrunda əməli fəaliyyət günü kimi qeyd etməliyik. İndi isə bu mühüm tarixi hadisə ilə əlaqədar nəşri Azərbaycanın müvəqqəti paytaxtı Gəncədən yenicə azad edilmiş Bakıya köçürülmüş «Azərbaycan» qəzetinin daimi paytaxtda nəşrə başlamış ilk nömrəsindən bəzi sənəd və yazıları oxuculara təqdim edirəm.

BAKI

BAKININ AZAD EDİLMƏSİ MÜNASİBƏTİLƏ M. Ə. RƏSULZADƏNİN İSTANBULDAN GÖNDƏRDİYİ TƏBRİK TELEQRAMI

Bakının süqutu münasibətilə Azərbaycan hökumət rəisi Fətəli xan cənabları naminə aşağıdakı teleqram gəlmişdir:

Paytaxtımızın istirdadından (geri qaytarılmasından - Ş.H.) dolayı təhti-idareyi alilərində bulunan hökumətimizi səmimi təbrik ilə Bakının yeni türk ellərini istixlas üçün sarsılmaz bir qalayimətin olması ümidi ilə bütün arkadaşlarımla öpüşürsünüz.

Azərbaycan heyəti müraxxəsəsi naminə
Rəsulzadə Məhəmməd Əmin
«Azərbaycan» *qəzeti, № 5, 3 oktyabr 1918*

QAFQAZ İSLAM ORDUSU KOMANDANI SƏDAQƏTLİ NURU PAŞA HƏZRƏTLƏRİNƏ

Təhti komandanızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı Bakının düşməndən xilas edildiyi münasibətilə millətin Zati-aliliyi-həmiyyət pərvəranələrizə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğumuzu ərz etməklə iftixar edirəm, Əfəndim!

Heyəti vükəla rəisi Fətəli xan

ŞƏRQ ORDULARI QRUPU KOMANDANI XƏLİL PAŞA HƏZRƏTLƏRİNƏ

Bakının, Azərbaycanın istiqbalını, səadətini iqtisadən və siyasətən təmin edəcək və türk aləminin ikinci bir İstanbulu olmağa layiq bir mərkəzin türkün cəngavər, namuslu övladlarının qəhrəmanane hücumları sayəsində düşmənlərindən xilası münasibətilə Zati-aliyi-həmiyyət pərvəranglərini ən səmimanə bir surətdə təbrik edirəm.

Heyəti vükəla rəisi ***Fətəli xan***
«Azərbaycan» *qəz. 14 sentyabr 1990*

TARİXİMİZİN İFTİXAR SƏHİFƏLƏRİ
1884 - 31 YANVAR - 1991

7 il bundan əvvəl 1984-cu il yanvarın 31-də üç nəfər Bakının Novxanı kəndinə getdik. Kəndə bitişik qəbiristanlığa yollandıq. Uzun axtarışdan sonra dəmir çərçivəyə alınmış bir köhnə məzarın önündə dayandıq. Axund Hacı Molla Ələkbər burada dəfn olunmuşdur. Bizi buraya ziyarətə gətirən nə idi? Vicdanımız, vətəndaşlıq və tarixi yaddaş hissimiz, vəzifəmiz. Axı, həmin gün Ələkbər kişinin oğlu - əslində bütün Azərbaycanın namuslu və qeyrətli, mütəfəkkir və cəfakeş balası, Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 100 illiyi tamam olurdu. Neçə-neçə yubileyi qeyd edən respublika bu barədə susurdu, daha doğrusu susdurulmuşdu. Bunun səbəblərini, tarixi köklərini aydınlaşdırmaq başqa mövzudur...

Məhəmməd Əmin Rəsulzadənin atasının və atamızın məzarı önündə baş əydik. Dua verdik. Rəhmət oxuduq. Xeyli susduq. Hərə öz qəlbində - ürəyində özü ilə danışdı. Sakitcə geri döndük. Üstumüzdən böyük bir yük götürüldü. Axşam bir yerdə kiçik bir mərasim də düzəltdik. Yalnız özümüz. Aradan 4 il keçdi. Azərbaycan və ittifaq jurnalistləri qrupu ilə mənə də Türkiyəyə getmək nəsib oldu. Ankaraya çatan kimi ilk arzum birinci növbədə M. Ə.Rəsulzadənin məzarını ziyarət etmək idi. Yaxşı ki, qələm və əqidə dostum H. Hacıyev də sən demə, bu arzu ilə yaşayırmış. Bir neçə saatdan sonra Türkiyədə azərbaycanlıları təmsil edən ağsaqqallar - Əhməd Qaraca və Məhəmməd Köngərli ilə birlikdə Ankaranın Əsri qəbiristanlığına yollandıq. Bu dəfə 4 nəfər idik. Qardaş Türkiyə torpağında uyuyan bu məzar önündə nə hisslər keçirdiyimizi, nələr düşündüyümüzü bir özümüz bilirik, bir də Allah bilir. Məzardan ayrılarkən onun üstündən bir ovuc torpaq götürdüm. Ələkbər kişinin məzarı üzərinə səpmək üçün. Qoy, ata və bala qovuşsunlar. O torpaqdan saxlamışam. Allah qismət elsə, lazım olacaq.

M. Ə. Rəsulzadə haqqında son illərdə xeyli məqalələr yazılmışdır, ayrı-ayrı əsərləri çap edilmiş və ediləcəkdir. Mən onun

1903-1909-cu illərdə Azərbaycan mətbuatında dərc olunmuş əsərlərini çapa hazırlayıram. Belə hesab edirəm ki, bu onun 1903-1954-cü illəri əhatə edəcək əsərlərinin təxminən 15 cildliyinin ilk cildi olacaq. İndi isə «Dalğa»nın imkanlarını nəzərə alaraq, onun fikir və düşüncələrini az-çox aydınlaşdıran nümunələri oxuculara təqdim edirəm. Qoy, M. Ə. Rəsulzadənin anadan olduğu günü onun öz sözləri ilə qeyd edək!

* * *

Cəmaət istiqlala o qədər munis olmuş, hürriyyət və istiqlal fikri o qədər xalqın qanına sinmiş, ruhuna işləmişdir ki, indi artıq istaqlal fikri bir firqənin, bir kütlənin arzusu deyil, bütün cəmaət vətəni istiqlalsız və dövləti hürriyyətsiz təsəvvür edəmiyor. Ona görə demokratiya biltəbii qapısında şübhəli adamlar durmasına heç vəchlə razı olamaz və birtən bahid kimi hürriyyət və istiqlalının müdafiəsinə hazırdır.

«Azərbaycan», № 191, 1919, 31 may.

* * *

Rəsulzadəni tanıyanlar onu böyük inqilabçı, Şərqin mütəfəkkir və ağıllı, hətta bənzəri olmayan bir şəxsiyyət kimi tərif ediblər. Məlumatı çox, istidlalda qüdrətli, hövşələli və hər məsələdən intiqad edəndə insaflı olub, demək olar ki, tamam ömründə bir dəfə də yalan danışmamışdır. Həmişə sabitqədəm olmuş və heç vaxt acıqlanmaz idi, heç vaxt mübaliğə etməz idi. Xalq məfkurələrini aydınlaşdırmaqda, yəni ruznaməçilik yaratmaqda və başqa xidmətləri, o cümlədən məşrutə inqilabında etdiyi yardımları yaddan çıxan bir şey deyildir.

Tehran, **«Keyhani-həvayi»** qəzeti, № 883, 13 iyun 1990-cı il

* * *

Hər yana baxırsan lənglik, hər tərəfə dönürsən bütün durğunluqdur ki, var. Ürəklə bağıran, qəlbdən nalə edən az tapılır.

Zatən qəlbən bağıranların bağırtıları da azdır, çünki işə məşğul olduqda bağırmağa vaxt qalmıyor.

«Tərəqqi», № 56, 1908, 19 sentyabr.

* * *

İnsanlar arasında zəhmət bölgüsü və birlikdə zəhmət çəkmək nə dərəcə vüsətli isə, o dərəcədə tərəqqi və mədəniyyətləri vüsətlidir!..

«Tərəqqi», № 58, 1908, 22 sentyabr.

* * *

Madam ki, Krılovun hekayəsində olduğu timsah kimi hərəmiz bir yana çəkəcəyik, o halda dövri-çərxeyi mədəniyyətimiz haman yerində qalacaq, hərəkətə gəlməyəcəkdir.

«Tərəqqi», № 78, 1908, 17 oktyabr.

* * *

Təbrizlilərə lazımdır ki, qüvveyi-hərbiyyeyi-nariyyəyə dara olduqları kimi, bu dolma-dolaşıq siyasət və diplomatiya məsələlərinə aşina olub, onlara etilaf verə bilən qüvveyi-mənəviyyəyə də dara olsunlar ki, vətəni iki tərəfli mühafizə qılsınlar: həmi daxili düşmənlərdən, həmi də xarici tənələrdən.

«Tərəqqi», № 80, 1908, 20 oktyabr.

* * *

Hər bir ehsasi-qəlbiyyə, əqliyyə və ruhiyyəsi yatmış, korlaşmış olan cəsədi-islam dövrümüzün qulaq yırtan, ürək qalxızan, gözlər, açan təbəddülati-siyasiyyə və ictimaiyyəsinin gurultulu, parıltısı təhtində olaraq hərəkətə gəliyor.

Əsəri-həyat göstəriyor, istiyor ki, bu aləm də təəyyüş eləsin, ayıq olsun, yuxusundan ayılsın... Artıq köhnə qayda üzrə qalmaq çətindir...

«Tərəqqi», № 119, 1908, 5 dekabr.

* * *

Həmişə zillətdə qalmaqdansa, birdəfəlik ölmək yaxşıdır.
«Tərəqqi», № 124, 1908, 11 dekabr.

* * *

Siyasətcə istibdada, ibadətcə istibdada, məişətcə istibdada və yenə də istibdada qəhr olan bir məmləkətdə, həyati-ictimaiyyənin azad və nəfis bir surətdə olduğunu arzu etmək qaranlıq bir otaqda aynabəndlik etməyə bənzər.
«Tərəqqi», № 135, 1909, 19 iyun.

* * *

Bakı şəhər duması... bizim qlasnılar ancaq bunu bilirlər ki, bacardıqca öz ciblərini dolduran işləri, layihələri icra etdirsinlər və şəhər idarəsini öylə hala qoysunlar ki, bilamümaniət keyfləri istədiyi kimi hökmranlıq eləyib, öz qövm və əqvamlarının keyf və sədaqətlərini təmin eləsinlər!..
«Tərəqqi», № 136, 1908, 26 dekabr.

* * *

Din məsələsi vicdani bir məsələdir. Hər kəs dinini satarsa vicdanını satmış kimidir...

Bu qədər təmtəraq və dəstgah ilə dailik binası quran Avropa misyonerləri hərdən bir xəyallanırlar ki, müsəlmanlardan da döndərsinlər, amma dişləri batmıyor.

Zira islam deyə inandıqları əqidələrində müsəlmanlar o dərəcə möhkəmdirlər ki, bir dəfə inandıqlarından əslən vaz keçməzlər.

Müsəlmanı döndərmək olmaz!
«Tərəqqi», № 148, 1909, 5 iyul.

* * *

İnqilab iki böyük qüvvətin ruhu ilə ruhlanır. Biri məmləkəti qanuni bir ölkə edib əsil məşrutiyyət yoluna salmaq. Digəri isə xaricin təhti-nüfuzundan çıxıb istiqlali-mülkü-milləti bilmərrə təmin etmək.
«Tərəqqi», № 170, 1909, 30 iyul.

* * *

«Şeytan əli ilə yapılan erməni-müsəlman müqatiləsi, necə ki, gözləmək olardı, bizə bir böyük səfalət, tükənməz fəlakət, yaddan çıxarılmayan rəzalət və həlakət yetirməkdədir. Budur, Qarabağ dağılmış, Zəngəzur talan olunmuş, yüzlərcə kəndlər yəğmayə getmiş... bu mənzərə görüləcəyi şərhə gələsi, qələmlə vəsf ediləsi iş deyil...

Hökumət isə, öz işinə məşğul olub burasına heç diqqət belə etmiyor. Nə üçün də eləsin?!.

Hər bir aclara, yalavaclara o kömək etməli olsa, bəs, bu hərbi məhkəmələri, cəza dəstələrini kim tərtib etsin? Və bir də hökumətə «asiləri» sakit etmək məsələsi» hər bir şeydən əvvəl, hər bir şeydən müqəddəm gərəkdir, hökumət xarici məmləkətlərdən pul borc edib qarabağlılaramı xərc eləsin - anlamamışdı. Bir zamanda ki, əsl «məmləkət düşmənləri» sağ-salamat dura - hökumət gəlib belə cüziyyata baş qatacaqmı??

Budur «şeytan» işinin nəticəsi! Budur «millətçilərin» səmərəsi, budur müxtəlif maskalar altında gizlənən zalimanə qəti-rəhmanə işləri!

Ey vətəndaşlar, ey sevgili qardaşlar, ey vətən məhəbbəti ilə ürəyi dolu olan qafqazlılar! Bu bəlalar, bu fəlakətlər yalnız bir müsəlmanların, yalnız bir ermənilərin bədbəxtliyi deyil. Bu bəla, bu bədxahlıq cümlə Qafqazın, külli qafqazlıların bədbəxtliyidir.
«Təkamül», № 1, 1906, 16 dekabr.

* * *

İndi qoy bizim ərizəçilərimiz bilsinlər ki, yalvarmaq, yaxarmaq, kağızları qaralayıb divanxanaları gəzmək ilə bizim dərdimizə çarə olmaz. Bizim dərdimizə tənha bir çarə varsa, o da əleyhidar olmaq, inqilaba təvəssül etməkdədir.

«Təkamül», № 8, 1907, 11 fevral.

* * *

Bizim Rusiya hökuməti boş vədlər verməyə qocaqdır. Həqiqətdə isə haman tas, haman hamamdır.

«Təkamül», № 8, 1907, 11 fevral.

* * *

İnqilab sözünü bizim sinəmizdə saxlayan, onu mühafizə edən səmimiyyətdir ki, ona nə güllə, nə xəncər, nə top, nə tüfəng - heç bir şey batamaz.

«Təkamül», № 9, 1907, 17 fevral.

* * *

Oyləri gərək cəmaət işinin başında olsunlar ki, həqiqətən onlar haman işi aparmağa, layiqincə yerinə yetirməyə müsaid olub, öz əfkar və hissiyyatlarını deməyə, yoldaşlarına bəyan etməyə müqtədir olmaqla bərabər, cəmaətin aşağı sinfinin tərəfdarı, füqərayi-cəmaətin himayəçisi olsunlar.

«Təkamül», № 12, 1909, 12 mart.

«Dalğa» qəz. 29 yanvar 1991-ci il

BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ...

(Sabah M.Ə Rəsulzadənin anadan olan günüdür)

– Şirməmməd müəllim, əsrin əvvəllərində, Azərbaycan demokratik hərəkatı və dövri mətbuatında sözün müsbət və geniş mənasında böyük səs-küy yaratmış bir şəxs sonralar nə üçün unutqanlıq mərəzinə düçar oldu?

Ş. Hüseynov: - Mən məsələni belə görmür və qənaətimi sözün birbaşa mənasında ifadə etmək istəyirəm. Məsələn, Həsən bəy Zərdabini yada salaq. XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan demokratik hərəkatı və ictimai-siyasi fikrinin ən böyük xadimi, M.Ə.Rəsulzadənin sözləri ilə desək, Azərbaycanın «ilk mücahidi - milliyyəsi» olan Həsən bəy ana dilində ilk dövri mətbuat orqanı «Əkinçn»ni yaratmaq və yaşatmaq və bələliklə zülmət səltənətində bir çıraq yandırmaq üçün nələrə qatlaşmamışdı?! Onun yolu ilə gedən Məhəmmədağa Şahtaxtlı yaşının ahıl çağında Naxçıvanda öz ata-baba mülkünü satıb, qəzetsiz, - deməli, ictimai sözsüz və gözsüz qalmış həmvətənləri üçün ümid çırağı - əsrin anadilli ilk qəzetini - «Şərqi-rus»u nəşr etmək üçun imperiyanun paytaxtı Peterburqda və Tiflisdə neçəneçə qapını açmalı, türk və müsəlman xalqlarına «qoy gedib sürülərini otarsınlar» - deyənlərlə mübarizə və mübahisələrə girişməli olmuşdu! Bu və digər qəzetlər və jurnallar olmasaydı, bizdə ictimai-siyasi fikir, milli-siyasi cərəyanlar, qrup və partiyalar, demək, siz deyən şəxsiyyətlər necə yarana bilərdi? Əlbəttə, bu keyfiyyətlər o zamankı oxumuşların, iş adamlarının, çinovniklərin, din nümayəndələrinin hamısında olmamışdır. «Millət necə tarac olur-olsun, nə işim var», «Ta mən tox olum, özgələr ilə nədi karım?!» fəlsəfəsi ilə yaşayanlar az deyildi. «Əkinçi»nin 1-ci nömrəsində Həsən bəy onlara müraciətlə xahiş edirdi ki, heç olmazsa, «xalqa bu qəzeti oxumağa mane olmasınlar». M. Şahtaxtlı isə «Şərqi-rus»un birinci nömrəsi çıxan kimi onu Bakıdan

atəşə tutan öz həmvətənlərinə müraciətlə yazırdı ki, «Biz qəzet təsis etmişik məddahlıq üçün yox, doğru söz üçün. Bizə kağız yazanlardan soruşuruz: iş yalandır, ya doğrudur? Əgər doğru isə nə üçün həqiqəti gizlədəlim?».

- Məhəmməd Əmin Rəsulzadə mədəniyyətimiz haqda nə düşünürdü, nə yazırdı, mədəniyyətimizi necə görür və görmək istəyirdi?

Ş.Hüseynov: - Bu suala tam cavabı M. Ə. Rəsulzadənin qələmindən çıxanları, nitq və çıxışlarını, bir sözlə, ədəbi irsini tam tədqiq edib öyrəndikdən sonra vermək olardı. Mənim təxmini hesablarıma görə təkcə 1903-1920-ci illərdə Azərbaycan mətbuatı səhifələrində M.Ə.Rəsulzadənin mindən artıq yazısı dərc olunub. Təkcə redaktoru olduğu «Təkamül» qəzetinin 14 nömrəsində onun müxtəlif imzalarla 40-a yaxın yazısı dərc olunmuşdur. Bu yazılar dövrün salnaməsidir - obyektiv, milli, sistemli salnaməsi! Məlumdur ki, M.Ə.Rəsulzadə cavan olmasına baxmayaraq, uzun müddət «Nicat» mədəni-maarif cəmiyyətinin sədri olmuşdur. «Nicat»ın məqsədi azərbaycanlıları maarifləndirmək, ehtiyacı olan tələbələrə maddi yardım göstərmək, Azərbaycan dili və ədəbiyyatının, teatr sənətinin inkişafına kömək etmək, kitabxana-qiraətxanalar, məktəblər, savadsızlığın ləğvi uçün axşam kursları açmaq, ictimai-siyasi və elmi mövzularda mühazirə və məruzələr təşkil etmək və s. ibarət idi.

M.Ə.Rəsulzadəni bir ictimai-siyasi xadim kimi düşündürən ən mühüm məsələ xalqın siyasi mədəniyyətini yüksəltmək məsələsi idi. O, «Cavanlarımıza» müraciətində yazırdı: «millətimiz bir cəhl içində yaşayıb, ömrünü qəflət və xəbərsizlikdə keçirməkdədir. Ətrafını tutan heç bir hərəkətləri sənələr ilə istibdadın və hökuməti-mütləqiyyənin çəkdiyi zəncirlərdən keyimiş bədəni hiss etməyib havayı-havayı sözlər ilə, cəfəngiyat və mövhumat hekayə və vəzləri ilə dolmuş qulaqları küll Rusiyanı çuğlayan hürriyyət və inqilab sədalarını eşitmiyor. Alimnüma mollaların göz heyrətləndirən şəbədələri və sərmayədarların hər bir şeyi əsildə olmadığı bir rəngdə göstərmələrindən hürriyyət, insaniyyət və haqqaniyyət yolunda tökülən qanları onu (özünü) əhatə

edən rəzalət və zəlalәti görmiyor. Və daha doğrusu əvarizi-siyasiyyə ilə məyub olan gözləri əhvəl adamlar kimi hər şeyi başqa bir rəngdə, başqa bir ədəddə görür».

M.Ə.Rəsulzadə yazırdı ki, çar hökuməti bilərəkdən xalqı Avropa mədəniyyətindən kənarda saxlayır. «Özgələr cəmaətin təlim və tərbiyəsi üçün milyonlarca xərc eylərlər, bunlar isə təlim və tərbiyəyə dair nə ki müəssisə və idarələr var, qənaət edib, hamısını bağlarlar. Onun əvəzində isə şpionlara, jandarmlara iki o qədər xərc eylərlər. Cəmaəti piyan edib onunla gücünü, hissini, insaniyyətini aldıqları kimi, özünü əsir və dəstkir etmək üçün də əlində olan var-yoxunu alarlar».

Rəsulzadə yazırdı ki, «bizdə bir hissi qanuniyyət olduğu hər vaxt nəzərdə tutulub, cəmaətimiz bu yolda tərbiyə olsun gərək». Çünki «yüz il bundan irəli bizim ata-babalarımız bu qədər cinayətlərə heç bir halda məzhər olmamışlar».

Xalqın maddi, mənəvi, mədəni varlığı onun ana dili ilə bağlıdır. «Nə üçün ana dili bu qədər bir qeydsizliyə məzhər olmuşdur?», «nə üçün nə maarif idarəsi tərəfindən bir himayə, nə müəllimlər tərəfindən bir həmiyyəti-kəmalə, nə cəmaət tərəfindən bir qeydkeşlik görən ana dilinin rəsmi varlığı həqiqi yoxluq dərəcəsinə gəlmişdi? Demək olar ki, hənuz indi də bu haldadır». M.Ə.Rəsulzadənin «Yerli məktəblər» sərlövhəli məqaləsində məsələnin qoyuluşu belə idi. Onun tələbi bu idi ki, ana dili də «məcburi dərslərdən olub, rus dili dərəcəsində olmalıdır».

- Xalqımız tarixən böyük ictimai-siyasi şəxsiyyətyətlər, liderlər yetirib. Bu, inkaredilməz faktdır. Bəs həmin xalqın onları qorumaq, qiymətləndirmək məsələsindəki mövqeyinə necə baxırsınız? Sualım bir qədər qeyri-ciddi səslənsə də, xahiş edirəm deyin: bu tənasübdə kim kimə borcludur: Xalq şəxsiyyətə, yoxsa əksinə?

Ş.Hüseynov: - Azərbaycan xalqının dahi şair və yazıçıları, mədəniyyət və maarif xadimləri çoxdur. Öz müstəqil milli dövləti olmayan bir xalqın böyük milli dövlət xadimləri yetirməsi isə çətin məsələdir. Lakin deyim ki, türk xalqlarının tarixi keçmişini yaşadan və şöhrətləndirən görkəmli sərkərdə və dövlət adamları ilə biz də fəxr edə bilərik və etməliyik. Azərbaycan

Xalq Cümhuriyyətinin görkəmli xadimlərindən Nəsib bəy Yusifbəyli 1918-ci ilin oktyabrında «Azərbaycan gəncləri»nə müraciətində yazırdı ki, «Siz də dünyaca məşhur türklərin - Tomris və Atillanın, Çingiz və Teymurun, Sultan Süleyman və Fatehin, Cavuzların nəslindənsiz. Bütün bunları «bizi türklüyümüz və islamlığımız üçün məhv etmək fikrində olanların gözünə soxar və söylərəm ki, dünyada yaşamaq haqqı, istiqlaliyyət haqqı bizdədir. Çunki insaf bizdə, alicənablıq bizdə, mərhəmət bizdə, cəsarət bizdədir. Oylə isə nə üçün biz məhv olalım da...», «nə üçün şansız, şərəfsiz, tarixsiz, mazisiz millətlərin istiqlaliyyətə həqləri olsun da... şanlı, şərəfli, mazili, istiqlallı türk millətinin istiqlala haqqı olmasın?!».

Bax, biz bu barədə, bu cür tarixi səpkidə nə danışmışıq, nə də yazmışıq. Özümüzü ümumtürk tarixindən təcrid etməyə çalışmışıq. Halbuki milli müstəqil dövlətimizin - Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları M.Ə.Rəsulzadə, F.Xanxoylu, Ə.Topçubaşov, N.Yusifbəyli və başqaları bu ənənəyə, bu tarixi vərəsəlik hissinə sadiq olmuşlar. Lakin təəssüf ki, cümhuriyyət çox yaşamadı, daha doğrusu, onu yaşamağa qoymadılar. Ümumtürk tarixi ilə Azərbaycan tarixi da saxtalaşdırılmağa, köklə bağlı siyasi şəxsiyyətlərin adları tarixdən silinməyə başlandı. M.Ə.Rəsulzadə demişkən, «hər bir müqəddəs və pak şeylərini qara pula, bir əl verişinə, bir molodesə satan vücudlar» peyda oldular. Onların bizi hara gətirib çıxardıqları isə göz qabağındadır. O ki qaldı - kimin kimə borcluluğu məsələsinə, dünyadan köçənlərdən haqq tələb etmək dirilərin əfəlliyindən xəbər verər. Dirilər: bugünkü nəsil bütün əcdadların ruhu qarşısında cavabdehdirlər, onların qoyub getdikləri torpaq və vətən qarşısında öz tarixi borcunu yerinə yetirmək üçün hökmlüdürlər. Bu həqiqəti əgər hamımız bütün məsuliyyətilə dərk etsək, milli varlığımızı qoruyar, öz övladlarımızın və gələcək nəsillərimizin taleyinə arxayın ola bilərik.

- Növbəti sualım siyasi icmalçı Şirməmməd Hüseynovun ünvanınadır. Vaxtilə (çarizm dövründə) xalq leksikonunda «erməni - müsəlman davası» kimi formalaşan milli münaqişəyə indi (sovetizm dövründə) nə ad vermək olardı?

Ş.Huseynov: - «Erməni-müsəlman davası» təkçə xalq leksikonunda deyil, sovetləşmədən əvvəlki mətbuatda işlədilmişdir. Bu davanı kim başlamışsa, onun günahkarı kim olmuşsa, onun adı əvvəlcə çəkilmişdir. «Müsəlman - erməni davası» ifadəsi yoxdur. Çünki musəlmanlar, o cümdədən azərbaycanlılar heç vaxt milli münaqişənin təşkilatçıları, başlayanları olmamışlar. Bu, indi də belədir.

«Böyük Ermənistan» xülyası ilə meydana çıxan bir təhlükəli cəhətə diqqətimizi artırmalıyıq: 300 iddir ki, yəni Qərbin Osmanlı imperiyasının torpaqlarını tutmaq üçün islam aləminə qarşı səlib yürüşünə qoşulub ondan istifadə etmək istəyən erməni kilsəsi də öz məqsəd və xəyallarının həyata keçirilməsinə dini don geyindirməyə, ona «xristian - müsəlman davası» xarakteri verməyə çalışır, Bu təşəbbüslər indi də edilir. Yanvar faciəsi günlərində rusları Bakını tərk etməyə vadar edənlər də bu çirkin məqsədi güdürdülər. Burada həddindən artıq ayıq-sayıq olmaq gərəkdir.

- Yuxarıda Məhəmməd Əmin Rəsulzadə haqqında uzun illər susduğumuzdan danışdıq. Bu məsələdə siz özünüzü də günahkar hesab etmirsiz ki? Mən sizin tələbələrinizdənəm və o vaxtlar (70-ci illərdə) dünyanın hər yerindən, milli varlıq və mübarizəmizin mətbu tarixindən qaynar, qeyrətli söhbətlər edən Şirməmməd Hüseynov da Məhəmməd Əmin Rəsulzadə haqda susurdu...

Ş.Hüseynov: - Son 70 ildə əsrin ilk iki onilliyində yetişmiş ictimai-siyasi xadimlərin, şəxsiyyətlərin - M.Ə.Rəsulzadə, Ə.Ağayev, Ə.Hüseynzadə, Ə.Topçubaşov, F.X.Xoylu, N.Yusifbəyov, C.Hacıbəyli və başqalarının Azərbaycan «tarixi»ndən bu və ya başqa şəkildə çıxarılmaları üçün göstərilən səylər (!) həqiqəti gizlətməyin bir forması idi. Məlumdur ki, «tarixçilərimizin» bu cəhdlərinə, qadağalarına baxmayaraq, onların yazılarını dövrün mətbuat orqanları qoruyub saxlamışdır. Mən 30 il müddətində bu görkəmli şəxsiyyətlərin mətbu irsi ilə tanış olmaq imkanından istifadə etmişəm. Həmişə də bu əqidə və fikirdə olmuşam ki, bu süni və zorakı sükut və susqular uzun müddət sürə bil-

məz. Onu deyim ki, təkcə xalqımızın ən böyük siyasi xadimi M.Ə.Rəsulzadənin 200-ə yaxın məqaləsini müxtəlif mətbuat orqanlarından köçürüb yığmışdım və indi də bu işi davam etdirirəm. Oxucular yaxın vaxtlarda onlarla tanış olacaqlar. Uzun müddət susmağımın xəcalət və ağrısından çıxmaq istəyirəm.

- «Bir kərə yüksələn bayraq bir daha enməz!» fikrinə münasibətiniz?..

Ş.Hüseynov: - Bu şüar Azərbaycan mücahidlərinin neçə-neçə nəslinin canında, qanında, tarixi yaddaşında həkk olunmuş azadlıq, müstəqillik, həqiqi suverenlik arzu və ideyalarının rəmzidir. Onun yüksəltdiyi bayraq vaxtilə zorla endirilmiş xalq ruhunun, xalq varlığının timsalıdır. Bu şüar Ankaranın Əsri qəbiristanlığında uyuyan bu fikir və əməl bahadırının sinə daşının üstündə də həkk olunmuşdur. Bu şüarsız və üç rəngli bayraqsız M.Ə.Rəsulzadə yoxdur. «Cəmaət istiqlala o qədər munis olmuş, hüriyyət və istiqlal fikri o qədər canına sinmiş, ruhuna işləmişdir ki, indi artıq istiqlal fikri bir firqənin, bir kütlənin arzusu deyil, bütün cəmaət vətəni istiqlalsız və dövləti hüriyyətsiz təsəvvür edəmiyor». Vətən istiqlalsız, dövlət hürriyyətsiz olmaz. Azərbaycanın sərhədlərini heç kəs keçə bilməz və ancaq «meyitlərimiz üstündən keçə bilərlər». M.Ə.Rəsulzadənin xalqına vəsiyyəti budur. Yeri gəlmişkən sabah - yanvarın 31-i M.Ə.Rəsulzadənin anadan olduğu gündür. 107 il bundan qabaq dünyaya göz açan və sonra xalqının gözünü açan bu mütəfəkkir, namuslu və qeyrətli vətən oğluna min rəhmət deyək.

«Azərbaycan» qəz. 30 yanvar 1991

Torpaq xalqın namusu, qeyrətidir. Kim başqasının torpağına göz dikirsə, müxtəlif hiylə və bəhanələrlə ona sahib olmaq iştəhasına düşürsə çox böyük cinayət və xətaya yol verir. Tarixi təcrübə bu həqiqəti dəfələrlə sübut etsə də, yenə də bu təhlükəli əməldən əl çəkməyənlər var və yəqin ki, gələcəkdə də olacaqdır. Uzağa getməyək: neçə əsrlərdir ki, erməni kilsəsi əvvəl «Ermənistan», sonra «böyük Ermənistan» yaratmaq işinə başçılıq edir, bu xülyanı həyata keçirmək üçün maddi və mənəvi hazırlıq işləri görür. Beş əsrdən çoxdur ki, 25 yaşına çatmış hər bir erməni hər il «millət vergisi» verməyə məcbur edilir. Tam bir əsrdir ki, erməni millətçilərinin Daşnaksutyun partiyası dünya ermənilərini «böyük Ermənistan» uğrunda səlib yürüşünə səsləyir. XX əsr tarixinə bələd olanlar keçən müddət ərzində ermənilərin Qafqaz, Türkiyə və İran torpaqlarında nə oyunlardan çıxdıqlarını yəqin ki, xatırlayırlar. Erməni millətçilərinin uzdəniraq «planlarında» Azərbaycana xüsusi yer ayrılır. Azərbaycanı parçalamaq, onun ata-baba torpaqlarını tutmaq, əhalisini məhv etmək üçün təkcə bizim əsrimizdə dörd iri cəhd edilmişdir. Axırıncısı üç il bundan qabaq Dağlıq Qarabağda və Ermənistanda baş vermiş və davam etməkdə olan faciədir. Sual oluna bilər ki, nə üçün məhz Azərbaycan bu cür hədəfə çevrilmişdir? Soruşula bilər ki, bəs, biz bu təcavüzə son qoymaq üçün nə etməliyik? Gəlin, görək əsrin əvvəllərində Azərbaycan torpaqlarını tutmağa, əhalisini qırmağa cəhd edən qəddar, hiyləgər, məkrli, təcavüzkar erməni millətçilərinin hücumunu dəf etmək üçün «nə etməliyik?» sualına əli qələm tutan qeyrətli kişilərimiz necə cavab vermişlər. Oxuyun, görün, fikirləşin. Bəlkə ayılaq, düşməni tanıyaq, tədbir görək.

NƏ ETMƏLİYİK?

Bir xeyli zamandır ki, ermənilərin Naxçıvan, İrəvan və Qarabağ mahallarında qurduqları duzəx və tələlər, polis və qoşun əlilə gördükləri işlər öylə bilirdik məhəlli xırda vəqələr ilə qurtarıb keçəcəkdir. Öylə güman ediyorduq ki, erməni-müsəlman toqquşması yalnız hökumət müftinlərinin və onlara allanan avam cəmaətin çıxartdıqları müvəqqəti bir faciədir. Öylə sanırdıq ki, iki qədim qonşu arasına buraxılan bu dəhşətli və xanimansız od siyasi inqilaba Qafqazda bir sədd çəkmək üçün yalnız hökuməti-müstəbidə qulluqçuları tərəfindən meydana çıxarılan gəlib-keçici bir mərəz və bəladır. Məgər nə qədər aldanmışıq! Məgər nə mərtəbədə qafil və bəsirətsiz olmuşuq! Məgər nə dərəcədə bifəhm və safdil olmuşuq ki, ermənilərin İrəvan və Qarabağ səmtlərində hər cür hazırlaşmaqlarını görə-görə, hər cürə fitnə və fəsadlarını hiss edə-edə hər növxainanə hərəkətlərini qana-qana özümüzü lazımı yolda müdafiə etməyi yadımıza belə gətirmədik.

Bəli, yadımıza belə gətirmədik ki, ermənilər çox-çox əvvəl, gecə-gündüz, kişi-arvad hazırladıqları qanlı faciələri bizim oğuluşağımızın başında oynayacaqlar, hazırladıqları hədsiz-hesabsız bombaların hamısını bizim başımızda partladacaqlar.

Güman etməzdik ki, rus generalları - bizim sədaqət və itaətimizin əvəzində ermənilər ilə bir olub bizi bu dərəcə dəni vasitələr ilə qıracaqlar.

Bu inanmaqlığımız, bu sadədilliyimiz səbəbilə idi ki, böyükümüz, kiçiyimiz, yazıçımız, müxbirimiz... bir sözlə, cümləmiz qonşu ermənilər ilə yenə qədimsayaq üzrə, sülhanə rəftar edib rahat və arxayın olmağı vəz və bəyan ediyorduq. Və bu surətlə millətimizin gözünü qafilanə bağlayıb böyük bir təhlükə və uçuruma sarı hazırlayırıq ki, o təhlükənin əvvəlinci zərbəsini Qarabağ vüquatı çox açıq meydana çıxartdı. İndi lazımdır ki, bunlardan ibrət alıb gələcəkdə aldanmamağa çalışaq.

İndi lazımdır ki, ermənilərin niyyət və tədbirlərini kəmal ilə bilib, ona görə özümüzü mühafizə eləyək.

Burasını heç vaxt yaddan çıxartmayaq ki, ermənilər hər nə cür olsa özləri üçün mütləq bir «Ermənistan» vücudə gətirmək niyyət qəbisindədirlər. Və bu niyyətlərini hüsula gətirmək üçün də mütləq bizi İrəvan, Qarabağ və Kars səmtlərindən çıxartmaq məcburiyyətindədirlər. Bilməliyik ki, ermənilər bu niyyətlərinə çatmaq üçün hər cür fədakarlığı gözə almışlardır: Müsəlmanları həyəcana gətirib və üstlərinə hücum etdirəcəkdirlər; özləri bilə-bilə qırılacaqlardır, sonra durub Yevropaya öz məzlumiyyətlərini ağlayacaqlardır. Yavaş-yavaş öz qəsdlərinə planlar, yollar hazırlayacaqlardır. Öz gücləri ilə bacara bilmədiklərini, bu uğurda cəm etdikləri milyon-milyon pulların, rüşvətlərin zoru ilə rus məmurlarına gördürəcəklərdir. Kars, Naxçıvan, İrəvan və Qarabağ səmtlərində həmişə öz niyyətlərinin hüsuluna çalışacaqlardır. Heç bir an bizi zəif və zəlil etməkdən geri durmayacaqlardır. Gah fürsəti qənimət bilib beşikdəki uşaqlarımızı da doğrayacaqlardır, gah işlərinin məsləhəti üçün alcaqcasına yalvarıb barışacaqlardır. Amma bilməli ki, bu barışıq gələcəkdə ki, xainanə rəftarlarına pərdə çəkmək üçün qurulan tülkü duzağıdır. İndiyə qədər havaxt ki, ermənilər müsəlmanları sülhə dəvətə can və dil ilə gəliblər, həmişə deyirdim ki, bir neçə gün sonra davaya hazır olmalı və həqiqətdə də sülhü mütəaqib həmişə davayı gözləmişik. Burasını yaxşı bilməliyik ki, ermənilər ilə nə cür hüsn rəftar və hətta qardaşlıq belə etsən onlar öz siyasi qəsdlərindən əsla əl çəkməyəcəklərdir. Həmişə çalışacaqlardır ki, bizi bir fənd və hiylə ilə yuxladıb, inandırıb, altdan öz işlərini, tədarüklərini görsünlər.

Ermənilər, Ermənistan dağlarında özlərinə məxsus əsgəri yol qayırmağı çoxdan fikr ediyordular. Lakin rusların qorxusundan böylə bir işə bir bəhanə və dəstəvuz tapa bilmirdilər. Amma indi erməni-müsəlman davası və yolların kəsilməsi onların əllərində gözəl bəhanə oldu. Rus məmurlarının əqilləri də ki, şükür Allaha bir toyuq qədər yox...

Bəli, ermənilər indi ruslar ilə bir olub bizi İrəvan, Qarabağ səmtlərində zəiflətdikdən sonra gələcəkdəki, fürsətə intizar edib Rusiyanın inqilab və zəfini gözləyəcəklər. Və birinci fürsətdə

Rusiyadan qabaqca «avtonomiya» istəyib, yavaş-yavaş özlərinə «Ermənistan» hazırlayacaqlar.

Ermənilərin osmanlıdan çoxdan əlləri çıxdı. Ümidləri qaldı Qafqaza və İrana. İran da həmd olsun gec oyanıb vətənin namusunu mühafizə edəcəkdir. Tək qalır ermənilər üçün Qafqaz. Budur ki, burada gecə-gündüz min hiylə və fənd ilə çalışacaqlar ki, müsəlmanları öz ticari davaları ilə, rus tüfəngləri ilə zəiflədib zamanın fürsətini gözləsinlər.

İşin həqiqəti ap-aşkar belədir, ermənilər bizimlə məhz siyasi niyyətləri üçün davaya məcburdurlar. Yoxsa bizimlə həmişəliyə heç vaxt düşmən deyildirlər. Hakəza müsəlmanlar da ermənilər ilə heç vaxt düşmən deyildirlər ki, bu neçə qanlı davalara nihayət verilməsin. Nədən ötrü Şəki, Şamaxı, Zaqatala, Batum, Axalsix... dəki müsəlman və ermənilər bir-birləri ilə qardaşca yola gediyorlar? Ondan ötrü ki, oradakı ermənilərin siyasi qəsdləri yox, orada müsəlmanları davaya məcbur etmiyorlar.

Halbuki, İrəvan və Qarabağda iş belə deyildir. Buralarda həmişə düşmənçilik, həmişə qətl və qarət ermənilərin ən birinci planıdır.

İndi burasını qəti surətdə biləndən sonra bizə lazımdır ki, düşmənin qabağına düşmən kimi çıxaq. Öz hüququmuzu mühafizə etmək üçün lazımdır. Bəlkə fərzdir ki, «daşnaksutyun» kimi qüvvətli milli bir cəmiyyət təşkil edib xain qonşularımıza öz hədələrini tanıdaq. Hər yerdə müntəzəm və gözətçi cəmiyyətimiz olmalıdır, Bunun üçün şəkili, şamaxılı, bakılı, qarabağlı, dağıstanlı, (bilməm haralı deməyib cümləmiz bir vücud kimi müttəhid iş görməliyiz.

Ey bu gün biqəm və bihiss yatan üzvlərimiz! Siz zənn edirmisiniz ki, ermənilər sabah qüvvətli bir Ermənistan təşkil etdikdən sonra sizləri yerinizdə rahat qoyacaqlar. Xəyal edirmisiniz ki, birəhm bir millətə fürsət verdikdən sonra rahat və arxayın oturacaqsınız! Xeyr, xeyr, yatacaq zamanı deyildir. Bu gün ermənilərin niyyətləri və bizim safdilliyimiz məlum olduqdan sonra bilicilərimizə, başçılarımıza fərzdir ki, bir saat rahat olmayıb gələcək üçün çalışalar. Bizə bu halda hər bir partiyadan artıq, qüvvətli bir milli partiya lazımdır. Qoy içimizdə sosialist də, federalist də, kommunist də olsun. Amma bu gün hamısından artıq hüquqi-milləti müdafiə edən qüvvətli milli bir partiya lazımdır.

Mən elə bilirəm ki, sosial demokratlıq məzlumluq haqqını mühafizəyə çalışmaqdır. Bu halda ermənilərin siyasi niyyətlərinə, məhz milli istiqlallarına qurban olan bunca məzlum müsəlmanların köməyinə çatmaq, zalımların əllərindən xilas etmək ən birinci insaniyyətpərəstlikdir, ən gözəl demokratlıqdır. Bu saətdə bizə əcələ lazım olan milli bir cəmiyyətdir. Digər cəmiyyətlərimiz də əlbəttə öz qaidələrində əmələ gəlib davam edər. Qəlbi zəiflik, yalançı insanlıq, bixəbəranə sosial demokratlıq vaxtı deyil. Ən əvvəl bu gün odlar içində yanan, zərurətlə can verən yaxın qardaşlarımızın ah və fəryadlarına çatmalıyıq. Bu gün insanlıq və sosializmin əmr etdiyi vəzifə budur. Yoxsa yumşaq kürsülərin üstündə oturub, insanlıqdan dəm vurmaq, yalnız iki şəhi mənfəətdən ötrü ittihad edib sosial demokrat olmaq, mənfəətpərəstlikdən özgə heç bir zad deyildir.

Xülasə, keçmiş və indiki vüquatdan ibrət alıb, mətin qəlbli, durbin nəzərli, salim fikirli zilqurba - hamisi olmalıyıq. Hər şeydən əvvəl öz milli mənfəətimizi nəzərə alıb əcələ bir cəmiyyəti - ittihad təşkil etməliyik.

Bir cəvan (Ömər Faiq Nemanzadə).
«İrşad», № 183, 4 avqust 1906

«Dalğa» qəz. 24 fevral 1991

İSLAM DİNİ VƏ ANA DİLİ

Azərbaycan xalqının on yüz illikdən artıq bir dövr tarixi İslam dini, İslam mədəniyyəti ilə üzvi surətdə bağlı olmuşdur. Lakin son 70 ildə bizi ümumtürk tarixi kimi, İslam mədəniyyəti dəyərlərindən də təcrid etməyə çalışmışlar. Əvəzində «elmi ateizm» deyilən qondarma «fəni» tədris olunurdu. İslamiyyə və İslam tarixindən xəbərsiz alimnümalar «yeni insan tərbiyəsi» pərdəsi altında xalqın zəngin mənəvi dünyasını dağıtmağa, inamını qırmağa, əxlaqını pozmağa, vicdanını və dəyanətini sarsıtmağa «səy» göstərirdilər. Mövhumat və xürafatla, gerilik və cəhalətlə şəriəti və İslamı eyniləşdirmək cəhdləri, İslamı elm, tərəqqi və təkamülün düşməni kimi qələmə vermək cəhdləri baş alıb gedirdi. Lakin indi zaman dəyişir, çox məsələlər kimi dinə və İslam dəyərlərinə münasibət də əsaslı surətdə dəyişməkdədir. Lakin problemlərin çoxu qalır. Yenə də əsl elmi ilahiyyat əvəzinə yenidən mövhumat və xürafatı canlandırmaq istəyənlər peyda olmağa başlamışlar. Bunun da obyektiv və subyektiv səbəbləri vardır. Ən birinci isə, sözün geniş mənasında savadlı, hazırlıqlı din xadimlərinin azlığı, çatışmamasıdır. Yəqin ki, yenicə təşkil olunmuş İslam İnstitutu bu ehtiyacı ödəməkdə mühüm rol oynayacaqdır. Digər bir mühüm məsələ dini ədəbiyyatdır, nəşriyyatdır. Burada vacib olan cəhət bu ədəbiyyatın ana dilinə tərcüməsi, ümumiyyətlə, İslam dini və ana dili problemidir. Çünki İslam aləmində zahiri birlik yox, şüurlu ruhi və mənəvi birlik gərəkdir. Bu problem əsrimizin əvvəllərində, xüsusilə rus inqilabları dövründə də ön plana keçmişdir. Bu baxımdan İslam tarixinin və İslami dəyərlərin gözəl bilicisi M.Ə.Rəsulzadənin redaktor olduğu «Açıq söz» qəzetində dərc olunmuş yazıları maraq doğurur. Onlardan birini «Dalğa»nın oxucularına təqdim edirəm.

* * *

Keçəndə Petroqrad ali məktəblərində oxuyan şimallı türk tələbələri tərəfindən «Şura» mühərriri-möhtərəmi Rzaəddin Fəxrəddin Əfəndi həzrətlərinə dualarla namazların ana dilində ifasına icazə olub-olmadığı haqqında bir sualnamə göndərdikləri xəbər verilmişdi. Son posta ilə alınan şimallı arkadaşlarımızın bu məktubunu, eynilə Rzaəddin Fəxrəddin Əfəndi həzrətlərinin bu Məktubu haqqındakı mütaliələrini nəşr eləmişlərdir. Milliyyət əsri və intibahi-milli dövrü keçirməkdə olduğumuz böylə bir zamanda böylə əsas bir məsələnin mütaliəsindəki əhəmiyyətə nəzərən məzkur məktub ilə Əfəndi mumi ileyhin fikrimaxsuslarını «Açıq söz»ə nəql ediyoruz. Petroqradda oxuyan tələbələrin məktubu budur:

«Möhtərəm mühərrir Əfəndi! «Şura» səhifələrində aşağıdakı suallarımıza yer vermənizi rica ediyoruz:

1) Quran ilə həqiqətə görə və islam alimlərinin nəzərincə ibadət namazlar (gündəlik namazlar, bayram, cümə, təravih namazları və nafilə namazları) müxtəlif dua və istiğfarlar, bayram və nikah xütbələri və qeyriləri mütləq ərəb dilində oxunmaq müvafiqmi, ayə şəriət bunların başqa dillərdə icrasına qarşı gəlmiyormu, rüsxət vermiyormu? Xülasəsi bu ki, islam rəsmi dil olaraq ərəbcənimi qəbul ediyor, yainki, islam nəzərində dillərin hamısı bir dərəcədəmidir?

2) İslam dinini qəbul edən millətlərdə bu vaxta qədər din ibadət dili olmaq üzrə ərəb dilindən başqa bir dilin qəbul edildiyi varmı?

Bu məsələləri dini alimlərimizin müzakirələrinə ərz ediyor və Rzaəddin həzrətin özünün də bu xüsusda fikirlərini bəyan etməsini rica ediyoruz.

Bu məsələlərin açılmasını biz aşağıdakı nöqteyi-nəzərlərdən əhəmiyyətli görüyoruz:

1) Dilləkləri öz dilincə diləmək; istədiklərini öz dilincə istəmək; qulluq göstərildikdə öz dilincə danışıb nə söyləndiyini bi-

lərək qulluq göstərmək, ağzından çıxan sözlərin nə mənada sözlər olduğunun özünü də bilmək bizcə daha məqul görünüyor.

2) Əgər də din olaraq milli dili qəbul olunsa Quran ilə əhadisin və dürlü duaların mənalarını anlamaqla bərabər xalqda islamın ruhunu, fikrini anlamaq daha da ilərilər və hər yerdə Quran bir Quran ibadətdə oxunan surələr, bir surələr, dua və xütbələrin də bir dua və xütbə olması ilə bu gün islam aləmində olan zahiri birlik, o zaman ruhi və mənəvi bir birliyə mübəddəl olar.

İndiki halda bütün dünyada milliyyət və qovmiyyət fikri üstə çıxmışdır. Bu surətlə biz tatarlarda da milliyyət hissi, tatarlıq və yainki türk-tatarlıq duyğusu oyanıb, yol alıb geniş bir meydan tutaraq gediyor. Bu günkü gündə bütün nəsli-cədid (cavanlarımız) bu fikirlə tərbiyələnib gediyor.

3) Dilimizə, millətimizə ögey nəzər ilə baxmayıb tamam hüquq versə, o zaman islamı milli din - deyə qəbul edə biləriz. Yoxsa o millətin ayrı fərdlərinin dini olur və milli məsələlərimizi biz islam ilə bağlamamağa məcbur oluruz.

4) Məktəblərimizdə ana dili xaricə qovulub oxu oxutmaq üçün rus dili təxsis olunmuş, sudlarda, məhəlli idarələrdə tatar dili tamam haqlı bir dil kimi qəbul olunmuyor, Milli nöqteyinəzərdən baxanda bizim dilimiz üçün az olsa da, Allah ilə olan münasibətimizi öz dilimizdə icra etmək mümkün olmaz və yainki tatar dili buna layiq deyil, - deyilərsə bu, dilimizlə millətimizə bir təhqiri-mütəzəmmin oluyor.

5) Din ibadət dili olaraq milli dil qəbul olunsa ibtidai məktəblərimizdə ərəb dili oxutmağa ehtiyac qalmaz idi. Bu onlar üçün məlumdur ki, böyük bir yüngüllük təşkil edərdi və balaların maddi və mənəvi gələcəkləri üçün daha əhəmiyyətli şeylər oxutmağa vaxt qalar idi. (Məlum ki, bu sözlər ibtidai məktəblərimiz haqqındadır. Orta və yuxarı dini mədrəsələrimizdə ərəb dili haman sabiqki qərar üzrə qalmalıdır).

Bu nöqtələrdən baxıldıqda əgər islam bu məsələdə qəti bir məmaniətdə bulunmazsa, bu fikrin açıq surətdə meydana qo-

yulmasını müvafiq görüyoruz.

Bu məsələni indiki halda qaldırmamıza başqa səbəblər də var. Hazırda yazıçılarımızın əksərində və cavanlarda ədəbi dilimizə rusca sözlər girməsinə qarşı mübarizə ilə bərabər ərəb dilindən daxil olan sözləri də çıxarmağa, onların yerinə öz sözlərimizi tapıb düzəltmək və ya başqa türk dillərindən lüğətlər almaq meyli var. İmlaçılarımızın çoxusunda da ərəbcədən gəlmiş hərflərdən «za», «ta», «zad», «sad» hərflərini tatar imlasından, tatar sözlərindən qovmaya dəxi bir meyl vardır.

Əgər islam ərəb dilini rəsmi din dili etsə, o vaxtda ərəb dili başqa islamı qəbul edən millətlərin balaları kimi tatar balaları üçün də öyrədilməsi labüdanə bir dil olur. Onun təsiri sözləri və başqa xüsusiyyətlərinin təsiri ilə mübarizə etməkdə əməli nöqteyi-nəzərdən görüldükdən məhəlsiz və qaidəsiz görülə bilər.

Həyatla bağlı olan bu məsələləri özümüzün bu günkü və gələcəkdəki işlərimiz üçün əhəmiyyətli gördüyümüzdən sualları-mız cavabsız qalmaz - deyə ümid ediyoruz.

Alimcan Şərəf, Kərim Səid, İlyas Alkin, Salch Rəhmanqulov, Hafiz Maqsudov, Məhfuz Maqsudova, Məryəm Benikiyeva, Zülfiyyə Umidova, Abdullah Abz.

Rzaəddin Əfəndinin bu xüsusdakı mülahizəsini yarınkı sayımızda dərc edəcəyiz.

* * *

Dünkü sayımızda Petroqradda oxuyan ali məktəblər tələbələrinin «Şura» məcmuəsinə göndərdikləri məktubları dərc olunub. Bu xüsusda Rzaəddin Fəxrəddin həzrətlərinin fikri-məxsusunun nəğli isə bu günə buraxılmışdı. Rzaəddin Əfəndi yazıyor ki:

1) İslam dinində rəsmi deyilən bir dil yoxdur. Ərəb dili ərəblərdən başqa müsəlmanlar üçün rəsmi dil deyil, bəlkə islam dininə mənsub olmaqla bərabər hər kişinin və hər qövmin öz ana dili rəsmi dil sayılır. Namaz qılmaq istisna edilməklə hər dürlü

əməl və ibadət ana dilində yapıla bilər. Hər kəsin öz ana dili ilə gətirdiyi imanı məqbuldur. Hər kəsin öz ana dili ilə qıldığı əqdləri (nikah, xəl, alış-veriş kimi işlər) iqrarları mötəbərdir. Hər kəsin öz ana dilində etdiyi tövbəsi, istiğfarı, allah-təalaya olan dua və münacatı, təzərrö və ilticaları, andları mötəbərdir. Bu işlərin heç birinin də (namaz müstəsna) ərəb dili ilə olması haqqında təklif yox. Namazdan başqa bütün ibadətləri ana dilində yapan kişi yenə yapsın. Rəsulüllah həzrətləri dil dəyişməsi haqqında heç bir dəvətdə bulunmadı. Səhabələr *dil* təbdilini təklif etmədilər.

2) Dil işi ilə səvab-günah yazılması, yaki şəri bir hökm olması üçün adam öz dilinin nə söylədiyini bilməsi şərtdir. Bu xüsusda hər bir sözün ayrı-ayrı mənasını bilmək lazım deyil. Bəlkə söylədiyi cümləsinin məzmununu, nəyə dair olduğunu anlamaq kafidir. Buna görə «la-ilahə-illəllah. Mühəmmədün Rəsulüllah» -söyləyən kişi əgər bu kəlamların iman gətirən sözlər olduğunu bilsə, şununla müsəlman əld ediliyor. Yoxsa günboyu oxuyub yürüsə də islam qəbul edicilərdən sayılmayır. Nikah siğəsi nə olduğunu bildikdən, son hər bir sözünün nədən ibarət olduğunu bilmədiyi halda bir qadın bir ərə zovcət «nəfsi-mənin» desə əqd oluyor, fəqət şu sözü ərəbcə dua deyə aldadıb söylətsələr əqd olmayır.

Başqa dillərdəki söyləmələr, başqa səhifələr və surətlərdə də hökm budur, bunun üçün namazda oxunan Quran ayələrindən ən azdan fatihə surəsinin və məsur duaların ixtisar təriqi ilə də olsa məzmunlarını bilmək lazımdır. Fatihə surəsini «Allah-təalaya həmdü səna», həm də Allah-təalanın böyük sifətlərini zikr etmək ibadəti ona xas etməyi iqrar etmək, Allah-təaladan hidayət və doğru yola getməyi istəməkdən ibarət deyib bilməyən kişinin namazı namaz olur - deyəməm. Bu səbəbə görə Qurani-kərimi, hədisləri ana dilinə tərcümə etmək deyil, yalnız mümkün, bəlkə iqtidarı olan kişilərə bu lazım bir vəzifədir.

3) Quran allah-təala tərəfindən vəhy edilmiş və Rəsulüllah tərəfindən ümmətə təbliğ olunmuş mənalar və ləfələrin ikisindən ibarət olduğu üçün tərcümələri oxumaq Quran oxumaq olmayır.

4) Ləfzi və mənası ilə mühafizə edilmiş Qurani-kərimdən başqa Allah-təala kitabı dünya üzündə yox, dünyada olan kitab əhlilərinin heç biri öz kitablarının ləfzləri göydən gəldiyini və bu gündə şu ləfzləri salamat (salim) olduqlarını dəva etmiyorlar. Bu hal yalnız müsəlmanlara və Qurani-kərimə məxsusdur. Bunun üçün müsəlmanlar Qurani-kərimin ləfzlərini saxlamaqla mükəlləfdirlər. Namazda Quran oxunmasının lazım olduğunun bir hikməti - Quranın ləfzələ bərabər mühafizə edilməsinə vasilə olmaq üçündür.

5) Namazda Quran və məsur duaların öz ləfzləri ilə bərabər oxunması ərəb lisanının müsəlmanlar üçün rəsmi dil almasından deyil, bəlkə Quranı və Rəsulüllahın öyrətdiyi bir rəvişi saxlamaq, həm də bütün yer üzündə olan müsəlmanlar arasında münasibət peyda etmək üçündür. İslam dinində olan dil ibadəti yüz pay olsa, namazdakı dil ibadəti buna baxdıqda bir pay da yox. Bunun üçün buna ağırlanmaq və bu işi ana dilinin zənginləşməsinə mane görmək məhəlsizdir. Namazdan başqa olan ibadətlərin həpsində dilədiyi öz dilinlə istə, öz dilinlə qulluq et, bu işlərdə mane olmadığını yuxarıda göstərdik.

İstər azan kəlmələri oxunduqda öz ana dillərində tərcümələrini bağırsalar, iqamət vaxtında ibtidai tərcüməsi oxunub sonra iqamət etsələr xütbələri bir az ərəb dilində oxuduqdan sonra öz dilimizdə oxusalar şəriət tərəfindən buna mane olmasın gərəkdir. Əvvəlki alimlərimiz nikah xütbələrini ərəbcə oxuduqdan son əvvəl «Xaliqi-layəzal və məbudi-bizəval» - deyə türkcə xütbələr oxuyurlar.

İbadət məsələsi, dil məsələsi bizdə yüngüldür. Namazda oxunmaqda olan Fatihə və iki-üç sureyi-məsur duaların özlərini əzbərlətmək və tərcümələrini nasıl bir balaya olursa-olsun başqa dərslər arasında iki həftədə bildirmək mümkündür. Deyilən fikirləri müəllimlərlə mütəəllimlərdən eşitdiyim var. Bu sözdə bir az mübaliğə olsun, namaz qılacaq qədər surələri və duaları tərcümələr ilə bərabər əzbərləmək iki həftədə deyil, bəlkə dörd həftəyə sürsün, bütün ömrə nisbətlə bu dörd həftə pək çox vaxt

olmasın gərək. Özünün nicatı və səadətinə səbəb - deyə etiqad etdiyi bir din yolunda şu qədər min bir məşəqqəti iltizam etməkdən heç kimsə geri durmasa gərək. Milliyyət hissi və türklük ruhu ilə tərbiyələnib gələn yaşlarımız şu işi öz yollarına və öz dillərinə tuli-hüquq verilməsinə mane - deyə tanımaqdan yuxarı olsalar gərək. Allah ilə qul arasında münasibət yürütməyi arzu edənlər üçün bu işin azacıq karsızlığı olmaması yaşlarımızda, qartlarımızda məlum olsa gərəkdir.

Ədəbi dildən ərəbcə sözləri çıxarmaq istəyənlər, namazdan, dua və iqamətdən başqa yerlərdə öz ana dillərində sözlər bulsalar, ərəb kəlmələrini çıxarsınlar. Buna islam dini qarşı deyildir. Amma gərək müqəddəratında söz bulunmadığı bu gündə işə yarayan sözləri sürüb çıxarmaq qolacağın qissəsi təkrarlamaq olur. «Za», «ta», «sad» nizayi (mübahisə) osmanlı türklərində yetmiş il davam edib bir nəticəsiz qalmışdır. Bizdə nə kimi nəticələr verəcəyini allah-təala bilir.

«Açıq söz» *qəzeti, № 413, 414; 27 və 28 fevral, 1917.*
«Dalğa» qəz. 30 aprel, 1991

MÜSTƏQİLLİK ÇƏTİN YOLDUR

«Ülfət» respublikamızda həmkarlar ittifaqlarının hələlik yeganə qəzetidir. Məncə, onu çox ciddi imtahan, çətin və vacib problemlər, mübahisə və müzakirələr, bir sözlə, keşməkeşli sınaq günləri, illəri gözləyir. Ölkəni çox dərin iqtisadi-siyasi, ictimai-mənəvi və millətlərarası böhran bürümüşdür. Bununla əlaqədar siyasi partiyaların və ictimai təşkilatların, müxtəlif platformalı formal və qeyri-formal qrup və birliklərin, o cümlədən ən kütləvi ictimai təşkilat olan həmkarlar ittifaqlarının da rolu, mövqeyi, siyasi partiyalar, hakimiyyət və təsərrüfat orqanları ilə münasibətləri də müəyyənləşməlidir.

Qarşıda həmkarlar ittifaqlarının bütün fəaliyyətini zəhmətkeş kütlənin həyatı mənafeyini müdafiə etmək işinə yönəltmək, qəyyumçuluq və yuxarı baxmaqçılıq xəstəliyindən qurtarmaq, dərin kök salmış bürokratiya və şüarçılıqdan qəti imtina etmək, nəhayət, müasir beynəlxalq tələblər səviyyəsinə yüksəltmək vəzifələri durur. Əlbəttə, bu nəhəng yenidənqurma prosesində təqlidçilik, başqalarını, o cümlədən Qərbi kor-koranə təqlid etmək də yaramaz. Çünki Rusiyada, o cümlədən Azərbaycanda həmkarlar təşkilatları Qərbdən fərqli olaraq başqa bir tarixi zəmində və şəraitdə təşəkkül tapıb formalaşmışdır. Məsələn, Qərbi Avropa və ABŞ-da həmkarlar İttifaqları siyasi partiyalardan əvvəl yaranmışdır. Odur ki, siyasi partiyalar, o cümlədən sosial-demokrat və sosialist partiyaları, hətta bəzi burjua və xırda burjua partiyaları ən kütləvi ictimai təşkilatlar olan həmkarlar ittifaqları ilə əlaqə yaratmağa, onları öz təsirləri altına almağa səy göstərmişlər və göstərirlər. Rusiyada bu proses əksinə cərəyan etmişdir. Əvvəlcə siyasi partiyalar yaranmış, sonra onların içərisindən, onların bilavasitə təsiri və rəhbərliyi ilə həmkarlar ittifaqı təşkilatları yaranmış və formalaşmışdır.

Bu tarixi təcrübə və ənənə xüsusilə Rusiya Sosial-Demokrat Fəhlə Partiyasına, sonralar Sov.İKP-yə aid olmuşdur. Bizim ölkəmizdə hakim kommunist partiyası və həmkarlar ittifaqları arasındakı qarşılıqlı münasibətdə bu, necə deyərlər, «böyük-kiçiklik», «ata-oğulluq» prinsipi uzun müddət gözlənilmiş və yenə də müəyyən tərzdə saxlanmaqdadır. Bu tarixi ənənəni birdən-

birə aradan qaldırmaq çətindir, həmkarlar ittifaqlarının müstəqilliyini təmin etmək uzunmüddətli vəzifədir.

Qeyd edim ki, Azərbaycan həmkarlar ittifaqları da məhz belə bir vəziyyətdədir. Lakin əsrin əvvəllərində başqa düşüncə tərzləri, Avropa tipli həmkarlar təşkilatları yaratmaq meylləri də güclü olmuşdur. Məsələn, M.Ə.Rəsulzadənin bilavasitə iştirakı ilə çıxan «Təkamül» qəzetinin 1906-cı ilin sonu və 1907-ci ilin əvvəllərində nəşr olunan nömrələrində «Həmkarlar İttifaqı barəsində» sərlövhəli seriya məqalələr (6 məqalədir) dərc olunmuşdur. Məqalələrin müəllifi Məhəmməd Əmin Rəsulzadənin əmisi oğlu Məhəmməd Əli Rəsulzadədir. Maraqlı və diqqəti cəlb edən cəhət odur ki, müəllif Qərbi Avropada, birinci növbədə İngiltərədə, həmçinin ABŞ-da, həmkarlar ittifaqlarının yaranma tarixini, fəaliyyət, təşkilat prinsiplərini geniş şərh edir, onu siyasi partiya və cərəyanlardan ayıran cəhətləri qabarıq şəkildə göstərməyə çalışırdı.

Həmkarlar İttifaqı təşkilatlarının zəhmətkeşlərin iqtisadi vəziyyətini, sosial-mədəni, mənzil şəraitini yaxşılaşdırmaq, ən vacib hüquqlarını müdafiə etməkdə kooperativ cəmiyyətlərinin roluna dair M.Ə.Rəsulzadənin 1908-ci ilin sentyabr-oktyabr aylarının «Tərəqqi» qəzetinin 7 nömrəsində dərc olunmuş «Kooperativ cəmiyyətləri» seriya məqalələri də diqqəti cəlb edir.

Qeyd edim ki, Azərbaycanda ilk rəsmi, həmkarlar ittifaqı orqanı olan «Qudok» qəzetində də bu kütləvi fəhlə və zəhmətkeş kütlələrinin ictimai təşkilatlarının quruluş və fəaliyyət prinsiplərinə dair müxtəlif istiqamətli yazılara rast gəlmək olur. Aparıcı ideya, prinsip həmkarlar ittifaqı təşkilatlarının partiya ilə birgə (əslində tabeçilikdə), onun rəhbərliyi altında fəaliyyət göstərməsi məsələsi idi. «Qudok» birinci nömrəsinin baş məqaləsində yazırdı: «həmkarlar ittifaqları fəhlə partiya təşkilatları bətnindən çıxmış, geniş vüsəti, mübarizə enerjisini, ruh yüksəkliyini onlardan əxz etmişlər». Həmkarlar ittifaqlarını partiya təşkilatlarının bir növ filiallarına çevirmək təşəbbüslərinə hələ o vaxtlarda da müqavimət göstərənlər, etiraz edənlər vardı. Tarix indi onların dünyagörüşünə haqq qazandırır...

«Ülfət» qəz. 8 may 1991

ŞEYX ŞAMİLƏ HÖRMƏT VƏ MƏHƏBBƏT

Dünyanın gərdişi, əsrlərin və nəsillərin təcrübəsi öyrədir ki, tarixin və taleyin hökmü ilə qonşu olan xalqlar arasında münasibətləri nizamda saxlamaq, faydalı əməkdaşlıq məcrasına yönəltmək, dostluğa çevirmək üçün çox böyük zəhmət, səy və səbr tələb olunur. Milli münasibətlərin sabitliyi keşiyində durmaq, onu hər cür pozucu meyllərdən qorumaq sahəsində keçmişin zəngin ənənələrini yada salmaq da mühüm rol oynaya bilər.

Bu sahədə xalqımızın kollektiv yaddaşı olan mətbuat səhifələrində ibrətamiz yazılar çoxdur. Qeyd edim ki, əsrin əvvəllərində, bütün Rusiyanı bürümüş azadlıq hərəkatını zəiflətmək üçün hakim dairələr və onların yerli nökərləri milli münaqişələr, toqquşma və qırğınlar törədir, əsrlər boyu sülh və əməkdaşlıq şəraitində yaşamış xalqları bir-birinə düşmən etməyə çalışırdılar. Çar hakimiyyət orqanları və yerli millətçilər, erməni-müsəlman qırğını azmış kimi, dağıstanlılarla da azərbaycanlıların arasını vurmağa cəhd göstərirdilər. Azərbaycanın uzaqgörən siyasi xadimləri, jurnalist və publisistləri, mədəniyyət xadimləri həmin fitnələri konkret faktlar və dəlillərlə ifşa edirdilər. Bununla yanaşı, tarixi faktları, birgə mübarizə və həmrəylik dövrünü yada salır, dostluq və qarşılıqlı hörmət və məhəbbətin gücünü nümayiş etdirirdilər.

Bu baxımdan «Füyuzat» jurnalında Şeyx Şamilə həsr edilmiş yazılar diqqəti cəlb edir. Jurnalın 1907-ci ildə çıxan 9-cu nömrəsində Şeyx Şamilin iri portreti, geniş tərcümeyi-halı, işğal və istilaya qarşı uzunmüddətli vuruşları haqqında ətraflı məlumat verilirdi. 1908-ci ilin noyabrında isə «Tərəqqi» qəzetində M.Ə.Rəsulzadənin «Fitnə və provokasiya» sərlövhəli məqaləsi dərc olunmuşdur. Məncə, milli hissləri qızışdıranları, hər cür fitnələrə əl atanları ifşa etmək baxımından bu məqalə də ibrətamizdir.

FİTNƏ VƏ PROVOKASİYA

«Nicat» maarif cəmiyyətinin drama heyəti tərəfindən üzümüzə gələn cümə gecəsi məşhur artist Ərəblinskinin şərəfinə benefis olaraq «Qəzavat» dramasının oynanılması elan olundu.

«Qəzavat» bir nəfər tərəqqipərvər rus aktyoru tərəfindən yazılıb məşhur dramaturq Əbdürrəhimbəy Haqverdiyev tərəfindən türkcəyə tərcümə edilmişdir. Bu əsər Dağıstanın öz istiqlal və hürriyyəti uğrunda etdiyi mücahidatı, Şeyx Şamil əfəndi həzrətlərinin zəmani-fədakarisini təsvir edir!.. Bu pyes dağıstanlıların şücaət və fədakarlıqlarını meydani-ənzarə qoyur... Burasını da deməliyik ki, bu əsərdə Şeyx Şamil həzrətlərinin özü səhnəyə qoyulmur. Ancaq o zati-ali-miqdarın bir tərzi-ədibanə ilə adı çəkilməyə bəslik olunur.

Belə bir dramanı məlum işdir ki, müsəlman səhnəsi dörd gözlə gözlər və dörd əli ilə qucaqlar. Bu tövr gözəl bir əsəri mən etdirmək (qadağan etdirmək) üçün heç bir müsəlman qiyam edəcəyini, bilxüsus, ləzgi qardaşların etirazını kimsə güman etməz, biləks bunun ləzgilər tərəfindən artıq bir hüsnü-təvəccöh və qəbula məzhər olacağına ümud edilirdi!..

Lakin görünür ki, müftinlər belə təsəvvür etmirlərmiş, görünür ki, onlar fürsət axtarırmışlar ki, ləzgi qardaşlarla Bakı camaatı arasına bir iğtişaş salsınlar. Onlar istəyirlərmiş ki, öz şəxsi qərəzləri üçün «Nicat» adı ilə sui-istifadədə bulunsunlar!..

İki gün irəli «Nicat» da həmin bu dramanın hazırlığı gedirkən bir dəstə ləzgi «Niçat»a gəlir. Bunlarla bərabər ləzgi qardaşların hörmətli və sahib-nüfuz şəxsləri də olurlar. Ləzgi mollası əfəndi həzrətləri dəxi hazırda olurlar...

- Eşitdik ki, «Nicat» Şeyx Şamil həzrətlərinin oyununu çıxardır, onu teatroya qoyur!.: Belə şey qardaşlıqda yaxşı deyil, - deyirlər.

- Əfəndilər, görünür ki, siz müştəbeh olmusunuz!.. Şeyx Şamal həzrətləri sizə nə dərəcədə yaxınsa, bizə də o dərəcədə yaxındır. Şeyx Şamil əfəndinin fədakarlığı sizdən ötrü nə əndazədə

əziz və girami isə, bizdən ötrü də o dərəcədə əziz və giramidir!..

Nəuzu-billah, Şeyx həzrətlərini təkdir edəcək (pisləyəcək) şeyi gərək siz özünüz xəyalınıza belə gətirməyəydiniz ki, «Nicat» teatroya qoysun!.. Madam ki, belə xəbər buraxmışlar, yaxşı olub ki, özünüz gəlmisiniz. Buyrunuz, drama hazırlanır, qulaq asın, onda bilərsiniz ki, sizi iğfal etmişlər (aldatmışlar)!..

Ləzgi qardaşların nümayəndələri repetisiya otağına daxil olub, oyuna axıra kimi tamaşa etdilər və mütəəssir yerlərində ağlayıb, böyük bir razılıq ibraz etdilər.

Bir nəfər ləzgi nümayəndəsi ləzgi əfəndisi cənablarından üç dəfə təkrarla xəbər aldığı: «Burada Şeyx Şamil həzrətlərinə toxunan bir şey yoxdurmu?!.» - sualına hər dəfə qəti və bilatərəddüd - «yoxdur, yoxdur!» - cavabını aldıqda, bir haləti-məsruranə ilə yerindən durub «Nicat»çılara xitabən:

- Qardaşlar, indi ki, siz bizim şücaətimizi, fədakarlığımızı mühəssənati-milliyyəmizi üzə çıxarıb, aləmə göstərməklə bizə xidmət edirsiniz, var olunuz, qardaşlar!.. İndi deyiniz biz sizə nə bağışlayaq?!.

Məzkurun belə sadə, sadiqanə, səmimanə söylədiyi sözlər insanda artıq bir hissi-bəradəri (qardaşlıq hissi) oyadır. Artıq məhəbbət artdığı kimi, bu qism sadədilləri, saf ürəkləri öz şəxsi mənfəətlərindən ötrü əl dəyməmiş bir zəmin hesab edən iğvakarlara (yoldan çıxaranlara), müftinlərə insanın qeyzi, acığı tutub nifrətini artırırdı ki, bu biviedanlar necə qıyırlar ki, belə bir səmimiyyət və sadəliyə məzhər olan ürəyi öz şəxsi mənfəətlərinə yetişmək üçün ləkələyib, iştibaha (şübhəyə) salırlar!..

Xülasə, qara qüvvələrin pərvərdə etdikləri fitnə keçmədi!.. Ləzgi qardaşlar artıq dərəcədə razı qalıb getdilər. Vədə verdilər ki, bütün ləzgilərə xəbər edəcəklər ki, cümə günü «Qəzavat»ın tamaşasına gəlsinlər!

Ümid edirik ki, cümə günü ləzgi qardaşlar Tağıyev teatrosuna gəlib oradan artıq razı olarlar.

Belə bir provokasiyanın hardan gəldiyi «Nicat» cəmiyyətini qara-qara fikirlər və sui-zənnlərə salırdı. «Kim belə şeyə müstə-

iddir? Kimdir ki, bu tövr dolablar qurur?» fikri «Nicat»ın bütün üzvlərini alarkən cəmiyyət adına cənab Mustafa bəy Əlibəyov tərəfindən bir kağız gəldi ki, bu kağız işin mahiyyətinə bir dərəcəyədək işıq salır və işi açmaq üçün sərkələfi göstərir.

Görünür ki, müvəffəqiyyətsizliklə qurtaran bu fitnənin hazırlandığından xəbərdar imiş ki, cənab Əlibəyov həmin təsvir etdiyimiz əhvalat günü bu ixtarnaməsini yollamışdır. Rusca yazılmış olan bu kağızın eynilə tərcüməsi iştə bu:

«Maarif cəmiyyəti «Nicat»a

Mühüm bir səbəb və başqa bir çox illətlərə görə sizə məsləhət görürəm ki, «Şamil» oyununu təxir edəsiniz. Naxoş olduğumdan mən özüm gələ bilmədim.

Mustafa bəy Əlibəyov».

Biz cənab Əlibəyovdan xahiş və tələb edirik ki, işarə etdiyi «mühüm bir səbəb və başqa bir çox illətlər» barəsində lazimeyi-bəyanat və izahatı bilatəxir versin ki, fitnənin hardan gəldiyini bilək, yoxsa məcbur oluruq ki, Əlibəyov cənablarının özlərinin dəxi bu qaranlıq işdə şərik olduğunu güman edək!

«Nicat» sədri *M. Ə. Rəsulzadə*
«Tərəqqi» qəzeti, 26 noyabr 1908
«Kommunist» qəz. 8 may 1991

YETMİŞ ÜÇ İL SONRA

Bəşəriyyət tarixinin hər dövründə yeni müstəqil bir milli dövlətin əmələ gəlməsi nəinki o dövləti yaradan xalq üçün, həmçinin ümumbəşəri tərəqqi və təkamül baxımından da mühüm hadisə sayılmış və sayılmaqdadır. Bu ümumi meyarla yanaşılsa, başa çatmaqda olan ikinci minilliyin son yüz ili xüsusilə əlamətdardır. Yaşadığımız əsrdə dünyanın siyasi xəritəsinə 130-dan artıq müstəqil dövlətin adı düşmüşdür. Fəxrlə söyləyə bilərik ki, əsrin tarixini yazanlar 1918-ci il mayın 28-də elan edilmiş müstəqil Azərbaycan Demokratik Respublikasının varlığı faktını da yaradılmış milli dövlətlərin siyahısına daxil edirlər.

1918-ci il mayın 28-də müstəqil milli dövlətimizin bərpa edilməsi, dirçəlişi, həm də ən demokratik, ümumbəşəri dəyərlər və beynəlxalq hüquqi normalar zəminində respublika dövlət forması şəklində bərqərar olması və fəaliyyət göstərməsi bu dövləti yaradan xalqın, onun uzunəsrlik mübarizəsinə başçılıq edən ictimai-siyasi xadimlərin uzaqgörənliyini, dövrün tələbləri səviyyəsində duran böyük istedad sahibləri olduqlarını nümayiş etdirir. Bu nəslin nümayəndələri cismən aramızda yoxdur. Lakin onlar həqiqi suverenlik yolu ilə irəliləmək əzmində olan müstəqil Azərbaycan Respublikasının vətəndaşları ilə bir sırada addımlayırlar. Son illərin ab-havası, xalqın iradəsi və respublika Prezidentinin fərmanı ilə mayın 28-nin ümumxalq bayramı kimi dövlət sə-viyyəsində qeyd edilməsi dediklərimizə sübutdur.

Azərbaycan Demokratik Respublikasının elan olunduğu gün ilk dəfə milli bayram kimi 1919-cu il mayın 28-də qeyd edilmişdir. İkinci belə şənlik 73 il sonraya, bu il mayın 28-ə təsadüf edir.

İlk şənliklər necə keçirilib? Müstəqil Azərbaycan dövlətinə respublika daxilindəki müxtəlif siyasi partiya, qrup və cərəyanların, təşkilatların, milli azlıqların, qonşu dövlətlərin münasibəti necə olub? Bu və digər suallara o dövrün rəsmi sənədlərində, mətbuat orqanlarında az-çox cavab tapmaq mümkündür. 1918-

1920-ci illərdə Azərbaycan və rus dillərində nəşr olunan «Azərbaycan» qəzeti bu baxımdan zəngin mənbədir. Qeyd edim ki, 1919-cu il mayın 28-də hər iki qəzet 12 səhifə həcmində çıxmışdır. Bu nömrələrdə diqqəti cəlb edən «Azərbaycanın müstəqilliyinə dair anket» sərlövhəsi altında verilən rəylərdir. Həmin rəyləri oxuculara təqdim edirik.

AZƏRBAYCANIN İSTİQLALİYYƏTİ HAQQINDA ANKET

Nəsib bəy Yusifbəyov
(Nazirlər Şurasının sədri)

- Azərbaycanın müstəqilliyi baş vermiş bir faktdır. Mən sülh konfransının son sözünü tam soyuqqanlılıqla gözləyirəm. Ağlım kəsmir ki, dünyanın ən mədəni xalqlarının nümayəndələri Azərbaycan türklərinin arzu və istəklərinə biganə qalsınlar. Əks təqdirdə, məndə bu xalqların mədəni xalqlar olmasına şübhə oyanardı və Azərbaycan türkləri gələcəkdə öz müqəddəratlarını təyin etmək kimi müqəddəs bir hüququ həyata keçirməyə çalışarkən, böyük mədəni xalqları fanatizmə və dini ədavətə görə məzəmmət etməkdə haqlı olardılar.

Həsən bəy Ağayev
(Parlamentin sədri)

- Türk xalqı azadlığı qanı ilə satın almışdır və onu heç vaxt əldən verməyəcəkdir. Azadlıq meyvəsini dadmış olan xalq bir daha zülmətli keçmişə qayıtmaz. Azad Azərbaycan - ziyalıdan tutmuş fəhlə və kəndliyə qədər bütün türk xalqının varlığına hopmuş bir idealdır.

Mən Azərbaycanın gələcəyini belə təsəvvür edirəm: Azərbaycan möhkəm birləşmiş Zaqafqaziyanın azad bir hissəsidir. Zaqafqaziyanın o biri respublikaları ilə qarşılıqlı münasibətlərin

formasını qabaqcadan müəyyən etmədən deyə bilərəm ki, Azərbaycan o respublikalarla tam birlik şəraitində işləyəcəkdir. Biz özümüzdə firavanlıq yaratmağa çalışarkən başa düşürük ki, bu firavanlıq qonşularımızın firavanlığı ilə qırılmaz tellərlə bağlıdır. Biz konfederasiyanı qarşılıqlı münasibətlərin ən məqsədəuyğun forması hesab edirik.

Azərbaycan, bir halda ki, bu onun öz arzusundan asılıdır, özgə qəyyumluğu olmadan keçinə bilər. Müstəqil həyatımızın bir ili bunu göstərmişdir və həyatımıza bələd olan hər kəs bizim müstəqil yaşamaq hüququmuzu təsdiq etməlidir.

Azərbaycanın azlıq təşkil edən millətlərə münasibətindən danışmağa ehtiyac yoxdur. Biz Azərbaycanın bütün vətəndaşlarını azad və tamhüquqlu vətəndaşlar kimi təsəvvür edirik. Bizdə ögey-doğmalıq yoxdur. Yalnız onu istəyirik ki, Azərbaycanın türk olmayan vətəndaşları yabançı təsirlərdən silkinib çıxsınlar və bizim müstəqilliyimizə nəzakətlə yanaşsınlar. Bunlar gəlişigözəl sözlər deyildir. Biz bunu azlıq təşkil edən millətlər barəsində yeritdiyimiz siyasətlə tamamilə sübuta yetirmişik.

Rusiyaya əvvəlki kimi yenə də səmimi dostluq duyğuları bəsləyirik. Rus xalqına qarşı heç bir düşmənçiliyimiz yoxdur. Mən ürəkdən arzulayıram ki, Rusiya onu boğan dəhşətdən daha tez xilas olsun. Bu bizə onunla ən mehriban qarşılıqlı münasibətlər yaratmaq imkanı verər.

Axund Ağa Ağəlizadə
(Azərbaycanın şeyxülislamı)

İnsanlar azad yaşamaq üçün xəlq olunublar. Üzərində yaşadığımız torpaq fərq qoyulmadan insanlara və millətlərə bəxş edilib. Onlar azad və müstəqil yaşamaq imkanlarına və bəşər hüquqlarına malik olmalıdırlar.

Cəmi peyğəmbərlərin kəlamları və öyüdləri belədir: «Ey insanlar, yalnız bir olan Allaha iman gətirin və yalnız ona tabe olun!». Bu sözlərdən anlaşılır ki, insanın iradəsini və müqəddəratını idarə etməyə Allahdan savayı heç kimin ixtiyarı yoxdur

və bəşər hüquqları baxımından bütün insanlar bərabərdirlər.

Mədəniyyətin bütün qanunlarını ehtiva edən Qurani-kərim, başlıca olaraq, bütün dünyanın demokratiyasına xitab edir və özünün bu xitabı ilə o, məhz demokratiyanın hüququnu əsaslandırır, prinsipiallıqla qoruyur və təmin edir. «Qurani-şərif»in «La ikrəhə fiddin» (dində məcburiyyət yoxdur) deyən mübarək ayəsi vicdan azadlığını ucadan bəyan edib hamıya çatdırır və müdafiə edir.

Azadlığı yalnız müstəqil yaşamaq yolu ilə qorumaq və müdafiə etmək olar. Öz əqidəni və fikrini şövqlə söyləmək və öz bəşəri iradəni ifadə etmək yalnız müstəqil ölkədə mümkündür. Asılı olmayan tədris ocaqlarında - orta və ali məktəblərdə - ölkənin camaatının faydalana biləcəyi bütün biliklərə yiyələnmiş şüurlu adamlar yetişər. Allah-təalanın buyruqlarını yalnız ölkənin istiqlaliyyəti şəraitində müvəffəqiyyətlə intişar etdirmək olar.

İstiqlal hər bir tayfaya və hər bir şəxsiyyətə lazımdır. İstiqlaliyyətin tərəfdarı və müdafiəçisi eyni zamanda, ədalətin də tərəfdarı və müdafiəçisidir, ədalət isə insanın bütün əxlaqi keyfiyyətlərinin özülüdür. İstiqlaliyyətin düşməni müstəbiddir; müstəbidin keyfiyyətləri və psixologiyası adamları əsarət altına almaq və onlara zülm etməkdir. Peyğəmbər-əleyhissalamın bir kəlamında deyilir: «Ədalət bu dünyanın qurucusudur».

İctimai asayiş və xalqın səadəti mədəniyyət və tərəqqi ilə əldə edilir; mədəniyyət və tərəqqi isə hər bir xalqın azad və müstəqil yaşaması deməkdir. İstiqlaliyyətin müdafiəsi və istiqlaliyyət uğrunda mübarizə həyatın ali nemətidir, səadətin ən yüksək pilləsidir, çünki başqalarının xeyri və səadəti üçün işləyən adam həm də özü üçün işləmiş olur.

Şəxsiyyətin və xalqın azad yaşamasına mane olmaq quşu qəfəsə salıb azadlıqdan məhrum etməyə bərabərdir; quş çırpınır, xilas olmaq istəyir, azadlığa can atır. Xalq da öz bəşər hüquqlarını dərk edəndən sonra o quş kimi aramsız olaraq daim azadlıq və istiqlaliyyət axtarır və nəticə etibarilə ya bunlara nail olur, ya da ölüb gedir. Buna görə də insanı həyatın təbii axarının əksinə

olaraq əsarətə məhkum etmək cəhdləri heç bir nəticə vermir və qabaqcadan uğursuzluğa məhkumdur, belə cəhdlər müstəbidliyin və Allah buyruqlarına müqavimətin ən yüksək dərəcəsidir.

İstiqlaliyyətin nemətlərindən bəhrələnməyən bir xalq hətta uşaqların da əlindən qurtula bilməyən qanadsız quşa tay tutulmalıdır, qanadlarını itirmiş quş isə başqa quşların qanadları ilə uça bilməz. Elə buna görə də bəşər hüquqları olmayan bir xalq qanadsız quşu xatırladacaq, zülmətdə dolaşacaq, başqalarının köməyi ilə nicat və azadlıq yolunu tapa bilməyəcəkdir.

İstiqlaliyyət qazanmış Azərbaycan xalqı cəhalət və zülmdən xilas ola bilər, öz mədəni və dini tələbatını ödəyə bilər, bununla da təbii və yaradıcılıq qanunlarına uyğun olaraq, mənalı həyata çatar. Belə bir həyat isə həqiqətlər silsiləsindən ibarət olan İslamın mahiyyətinin dünya mədəniyyət və sivilizasiya meydanında təzahür etməsinə səbəb olar. Yuxarıda şərh edilən tezislərə və xalqın zülmdən xilas olmaq istəyinə əsaslanaraq Azərbaycan öz istiqlaliyyətini elan etmişdir; istiqlaliyyətin müdafiəsi və ondan istifadə müasir ruhlu maarifin dövrün tələbinə uyğun tərbiyə əsasında mümkündür.

M. Ə. RƏSULZADƏ

(Müsavat Partiyası Mərkəzi Komitəsinin sədri)

- Azərbaycan müsəlman aləmində ilk respublika və türk aləmində ilk dövlətdir.

Mənim ilk baxışda qəribə görünən bəyanatımın ikinci hissəsi, ola bilsin, sizi təəccübləndirir.

Lakin əslində elə də var. Türkmənşəli bütün digər dövlətlər başlıca olaraq dini təməl üzərində qərar tutduqları halda Azərbaycan Respublikası müasir milli-mədəni müstəqillik təməlinə, türk milli-demokratik dövlət qurumu zəminə əsaslanır və bu baxımdan bizim respublikamız ilk türk dövlətidir.

Mən Azərbaycanın həyat qabiliyyətinə inanıram. Öz təbiətinə və potensial sərvətlərinə görə bənzərsiz olan bu diyar yerin

təkində fəvvarələr və alovlar saxladığı kimi, öz vətəndaşlarının qəlblərinin ən dərin guşələrində də elə bir yaradıcılıq ruhu yaşadır ki, bu yaradıcılıq ruhu türk xalqının azad inkişafı şəraitində, mənim dərin əqidəmə görə, dünyaya orijinal bir mədəniyyət nümunəsi bəxş edəcəkdir.

Bakı neftinin ən mədəni ölkələr üçün ən yaxşı hərəkətverici qüvvə şaçağı fikri yüz il bundan əvvəl cəsarətli görünə bildiyi kimi, mədəniyyətimizin gələcəyi haqqında mənim indicə dediyim sözlər də qəribə görünə bilər.

Lakin müstəqil həyatın bir ili ərzində türk xalqının milli mənlik şüurunun xeyli yüksəlməsi ciddi əsas verir belə hesab edim ki, gümanım məni aldatmayacaqdır.

Doktor QARA BƏY QARABƏYOV
(İttihad Partiyası
Mərkəzi Komitəsinin sədri)

Röyadırmı bu, yoxsa gerçək?

İnanmaq çətin olsa da inanmaq istərdim ki, bütün bunlar həqiqətdir, inanmaq istəyirəm ki, bu gün yalnız Azərbaycanın istiqlaliyyəti günü deyil, həm də əsrlər boyu xalqı əzən dəhşət və iztirablardan istisnasız olaraq hamının xilas edildiyi gündür, bu gün elə bir gündür ki, biz gələcəyə inam və ümidlə baxa bilirik və inanırıq ki, keçmişimiz yalnız qarışıq bir yuxu imiş və artıq heç bir vaxt geri qayıtmayacaqdır, indi bizim öz həyatımızı ürəyimizcə qurmaq haqqında fikirləşməyə hüququmuz və imkanımız vardır. Bu müstəqilliyin elan edilməsindən bir il keçmişdir, lakin bu dövrdə biz macal tapmışıqmı ki, müstəqilliyin nə demək olduğunu və onu həyata keçirmək üçün nə etmək lazım gəldiyini düşünüb-daşına bilək?

Hadisələr bizdən güclü idi, ülvi ideallar uğrunda mübarizədə səriştəsi olmayan gənc xalqımızı hadisələr idarə edirdi, çünki cismən mövcud olmaq məsələsi hər şeyin üstünə tutqun bir pərdə çəkirdi. İndi isə düşünmək olar və düşünmək lazımdır ki, bu müstəqillik bizə çox baha başa gəlmişdir və biz onu qətiyyən əl-

dən verməməliyik. Bu sözlər xalqın su yerinə axan qanı, ağır güzəranı, arvad-uşaqlarımızın, ana-bacılarımızın fəryadları, müqəddəs məscidlərimizin, «İsmailiyyə»mizin, şəhər və obalarımızın, xarabalıqları ilə qəlbimizə həkk edilmişdir! Biz müstəqilliyimizi artıq əldən verə bilmərik! Bəs onu kim müdafiə etməlidir, bizmi - özünü xalqın cövhəri sanan beş-on adammı, yoxsa döşünü qabağa verib bu azadlığı mübarizə ilə qazanmış xalq kütləsi? Əlbəttə, kütlə! İndi ki, belədir, deməli, biz bu avam kütləyə arxamızı yox, üzümüzü çevirməliyik, onun qarşısında geniş bir yol - müstəqillik və özünüidarə yolu açmalıyıq, müqəddəratını və ölkəni bütünlüklə onun ixtiyarına verməliyik. Çar üsul-idarəsi artıq yoxdur, hansı cəhətiləsə onu yada salan heç bir başqa üsul-idarə də olmamalıdır. O şeyi ki, Vilhelmlərin və Nikolayların bütün qüdrətli orduları qoruyub saxlaya bilmədilər, onu yalnız qeyd-şərtsiz həyata keçirilən xalq hakimiyyəti qoruyub saxlaya bilər, dünyanın heç bir fatehi, eləcə də indiki fatehlər qoruyub saxlaya bilməzlər, əgər onlar Şərqin qəflət yuxusundan hələ tam ayılmamış kütlələrini yenidən əsarət altına almaq istəsələr, özlərinin müvəqqəti qüdrətini ölümə məhkum etmiş olarlar. Özünü dərk etmiş xalq sayca nə qədər az olsa da, onu heç kim məğlub edə bilməz, lakin üç milyon şüursuz müsəlmanın ömrü köləlikdə çürüyər, böyük rus xalqı isə öz səadətini indi bolşevizmin dağıtdığı kimi dağıla bilər.

Bu gün biz bu məsələ üzərində düşünüb daşınmalı və heç bir tərəddüd göstərmədən dərhal onun həllinə girişməliyik.

SOSİAL-DEMOKRATLAR
Partiya Komitəsinin sədri
c. İtkin demişdir:

- Biz xalqların öz müqəddəratını təyin etmək hüququnu inqilabın ən mühüm nailiyyətlərindən biri sayırıq.

Millətin yalnız yuxarı təbəqələrini təmsil edən Müsəlman Milli Şurası tərəfindən 1918-ci il mayın 28-də bilavasitə xarici qüvvənin təzyiqi altında elan olunmuş İstiqlaliyyət aktı öz mü-

qəddəratını təyin etmək aktı hesab oluna bilməz; buna görə də 28 May Azərbaycan xalq kütlələrinin bayramı deyildir.

Azərbaycanla Zaqafqaziyanın və Rusiyanın digər hissələri arasında qarşılıqlı münasibətlər məsələsinin istiqlaliyyət məsələsi kimi həlli yalnız Azərbaycan əhalisinin fəhlə və kəndlilərdən ibarət əksəriyyətinin öz iradəsini fəhlə və kəndli deputatları qurultayında ifadə etməsi yolu ilə mümkündür.

Zaqafqaziyanın ayrı-ayrı respublikalara bölünməsi şübhəsiz, milliyyətindən asılı olmayaraq Zaqafqaziyanın zəhmətkeş kütlələrinin xeyrinə deyildir.

Həqiqətən müstəqil və azad yaşamaq üçün zəmini olmayan bütün Zaqafqaziya respublikaları, o cümlədən də Azərbaycan felən bir daha Avropa imperialistlərindən asılı vəziyyətə düşür.

Biz milliyyətə fərq qoymadan Azərbaycanın bütün fəhlə və kəndlilərinin mənafeyi naminə belə bir mövqedə dururuq ki, Azərbaycan daxili özünüidarəsi olan, lakin Zaqafqaziyanın və Rusiyanın digər hissələri ilə federasiya prinsipləri əsasında əlaqə saxlayan muxtar vilayət kimi müəyyənləşməlidir.

«HÜMMƏT»

«Hümmət» partiyasının nöqteyi-nəzərini onun sədri, parlamentin üzvü c. Pepinov bu sözlərlə ifadə etmişdir:

- «Hümmət» partiyası 28 May bayramında iştirak edəcəkdir, çünki keçmiş milli şuranın sosialist fraksiyası Azərbaycan Respublikasının istiqlaliyyətinin elan olunmasında iştirak etmişdir.

Həmin gün «Hümmət» partiyası da Azərbaycan demokratiyasının istiqlaliyyətini həqiqətən müdafiə etmək mövqeyində dayanaraq bayramda iştirak edəcəkdir və partiyanın məsul nəticələri bizim mövqeyimizi, başqa partiyalardan fərqli olaraq bu istiqlaliyyəti necə anladığımızı mitinqlərdə və yığıncaqlarda izah edəcəklər.

Çarizmin ağır zülmündən qurtulduqdan sonra Azərbaycan demokratiyası heç bir zaman xarici imperialistlərin dözülməz boyunduruğu altına girməyəcəkdir. Odur ki, biz bu istiqlaliyyəti

yalnız xaricdən gələn əksinqilabçı qüvvələrdən deyil, həm də Avropa imperialistlərinin həmlələrindən qorumalıyıq.

SOSİALİST İNQİLABÇILAR
(Eserlər)

Eserlərin nöqteyi-nəzərini bizə komitənin indiki sədri L.P.Umanski şərh etmişdir:

- Biz baş vermiş bir fakt kimi Azərbaycanın istiqlaliyyəti ilə hesablaşırıq. Xalqların öz müqəddəratını təyin etməsi məsələsini Rusiyada ilk dəfə bizim partiyamız irəli sürmüşdür. Buna görə də aydındır ki, partiyamız millətlərin öz müqəddəratını təyin etməsini alqışlayır.

Biz konkret olaraq Zaqafqaziya respublikaları barəsində belə hesab edirik ki, xalqların federasiyası Zaqafqaziyada fəhlə-kəndli hakimiyyəti uğrunda mübarizəni təmin etməyin rəhnidir.

Biz Qafqazı federativ fəhlə-kəndli Rusiyası ilə azad federativ ittifaqda təsəvvür edirik.

SOL SOSİALİSTLƏR

Rusiya Kommunist Partiyası, İran Kommunist Partiyası «Ədalət», Azərbaycan Beynəlmiləlçilər Partiyası - hamısı eyni mövqedə dayanır.

Biz Azərbaycanın istiqlaliyyətini alqışlayırıq və burada Azərbaycan Sovet hakimiyyətinin təntənəsinə əminik.

ASLAN BƏY SƏFİKÜRDSKİ
(Əmək və ədliyyə naziri, sosialist blokunun lideri).

- Bütün xalqlara, o cümlədən də yaşamağa və özünü idarə etməyə qadir olan Azərbaycana istiqlaliyyət verilməlidir. Bu demokratik baxışı böyük rus inqilabı elan etmişdir. Lakin hər halda mən bu fikirdəyəm ki, öz istiqlaliyyətini elan edəndən sonra

Azərbaycanı gələcəkdə yaradılacaq rus hökuməti ilə yaxından dostluq etməlidir, çünki elə indi Azərbaycan Rusiya ilə sıx iqtisadi və mədəni əlaqələr birləşdirir. Siyasi əlaqəsizlik hər iki xalqa ziyan vurar. Lakin burada Qafqaz dövlətləri arasında dostluğu qabaqcadan yoluna qoymaq lazımdır. Gürcüstan, Azərbaycan və Ermənistanın bir-birindən ayrılıqda müstəqil yaşaması ağlabatan iş deyildir. Gömrükxana sədləri, ictimai əhəmiyyətə malik idarələr olmamalıdır, poçt, teleqraf və i. a. şərikli olmalıdır...

HƏMKARLAR İTTİFAQLARI ŞURASI

İttifaqlar şurası rəyasət heyətinin nöqteyi-nəzərini c. Rebrux bu sözlərlə ifadə edir:

- Həmkarlar ittifaqları şurası milli sinfi təşkilatdır, həmkarlar təşkilatıdır. Lakin elə məqamlar olur ki, həmkarlar orqanının siyasi həyatda iştirak etməsi lazım gəlir. Bunlar mübarizə məqamlarıdır.

Biz deyirik ki, öz müqəddəratını təyin etmiş millət irticanın hücumuna məruz qaldıqda biz onunlayıq - proletariat öz müqəddəratını təyinetmə ideyasını burjuaziya ilə birlikdə müdafiə edir. Lakin elə ki, təhlükə sovuşdu, proletariat öz sinfi mövqelərinə qayıdır və əzəli düşməni olan burjuaziya ilə mübarizəni davam etdirir.

Y. Y. JURKOVSKİ
(Polyak Milli Şurasının sədri)

- Polyak Milli Şurasının sədri əməkdaşımızla söhbətində göstərmişdir ki, polyak xalqı böyük inqilabi şüarlar bayrağını daim uca tutmuşdur. Azadlıqsevər Polşanın bir çox oğulları çar mütləqiyyətinə qarşı mübarizədə həlak olmuşlar. Bütün dövrlərdə və zəmanələrdə polyaklar üsyan edən xalqların sıralarına qoşulmuş, onların zülmkarlarının əleyhinə olmuşlar. Millətlərin azadlığı ideyalarının humanist prinsipləri ilə tərbiyələnmiş bir xalq Azərbaycan demokratiyasını onun təntənəli bayramı - gənc respublikanın istiqlaliyyətinin ildönümü münasibətilə təbrik etməyə bilməz. Bakı polyak milli şurasının nümayəndəsi kimi mən gənc dövlətə böyük tərəqqi, mədəni və iqtisadi həyatda inkişaf diləyirəm, eyni zamanda arzulayıram ki, Azərbaycan xalqında ülvi vətəndaşlıq ideyaları güclü olsun, çünki vətəndaşların əqli və mənəvi səviyyəsinin yüksəldilməsi dövlətin inkişafı üçün zəruri şərtdir.

V. N. KUJİM
(Bakı ukraynalılar cəmiyyətinin sədri)

Mən Azərbaycanın istiqlaliyyəti faktına öz münasibətimi bir cümlə ilə ifadə edə bilərəm:

- Mən ukraynalıyam, yəni Azərbaycan kimi azadlığa can atan bir millətin nümayəndəsiyəm - bütün mətləb bundadır.

Azərbaycan və Ukrayna kimi kiçik dövlətlər on illər boyu azadlığa can atmışlar, həmişə də öz yolları üstündə beynəlxalq imperializmin düyünlənmiş amansız yumruğu ilə rastlaşmışlar.

Xalq əriyir, mədəniyyəti quruyurdu, zülmkar ağalara da elə bu lazımdı. Hər şey necə vardısa, o cürə də qalırdı.

Deyim ki, dünya müharibəsi və onun ardınca gələn inqilab dan yeri ağarmazdan qabaq çıxan şimşək timsalındaydı, bu şimşəkdən sonra günəş doğmalıydı - kiçik xalqlara həyat bəxş edən və onların azad inkişaf yoluna gur işıq salan günəş. Elə bir günəş ki, imperializm qaranlıqlarını yarmalı, gözü doymayan imperializmi yandırıb yaxmalı idi. Zülmət hələ əriməsə də, imperializm ölüm ayağında ola-ola kiçik xalqları hələ məngənədə sıxsa da, mən inanıram, ürəkdən inanıram ki, çox keçməz, vəziyyət yaxşılaşar.

Heç kimdən asılı olmayan müstəqil Azərbaycan azərbaycanlılar üçün nə qədər əzizdirsə, müstəqil Ukrayna da mənim üçün o qədər əzizdir, məgər mən əsl ukraynalını heç vaxt heç bir yerdə tərk etməyən bu ideyadan, bu fikirdən imtina edə bilərəmmi?..

POLKOVNİK BARBERİS
(İtaliya nümayəndəliyindən)

İtaliya nümayəndəliyini təmsil edən polkovnik Barberis əməkdaşımızın: - İtaliya nümayəndəliyi Azərbaycanın istiqlaliyyəti məsələsinə necə baxır? - sualına belə cavab vermişdir: - «İtaliya bu istiqlaliyyətə səmimi rəğbət hissi ilə yanaşır. Biz indicə qurtardığımız müharibədə yeganə bir məqsədlə - italyanları Avstriya əsarətindən xilas etmək məqsədi ilə çoxlu qurbanlar vermişik. Biz müsəlmanlara çox böyük rəğbət bəsləyirik və nə etiqadına, nə də azadlığına qəsd etmədən bütün müsəlman aləmini Avropa mədəniyyətinə qovuşmuş görmək istərdik. Bizim siyasətimiz taleyin rastlaşdırdığı xalqlar arasında mədəni fəaliyyət göstərməkdir».

B. MALAÇÇİXAN
(Azərbaycanda Dağlılar Respublikasının diplomatik nümayəndəsi vəzifəsini icra edən)

Dağlılar Respublikasının nümayəndəsi Bahadur bəy Malaççixan əməkdaşımızla söhbətində demişdir:

- Güman edirəm ki, xalqların milli özgünlüyü və azad inkişafı üçün yeganə nicat onların istiqlaliyyətidir. Zaqafqaziya xalqları Zaqafqaziya konfransına toplaşaraq qarşılıqlı münasibətlərində dostcasına həmrəylik yarada bilər, Qafqazın həyatını normal məcraya salardılar.

Qafqaz və Zaqafqaziya xalqları indi nə kimi zərbələrə məruz qalsalar da, dövlət istiqlaliyyəti ideyası yaşayacaqdır, bu ideya Dağlılar Respublikasında da zəfər çalacaqdır, çünki onun bütün fəal, qabaqcıl ziyalı qüvvələri dağlıların birliyi ideyaları ilə alışıb yanır, öz arzu və istəklərinin həyata keçəcəyinə inanırlar...

Azərbaycanın istiqlaliyyətinin ildönümünün təntənə ilə bayram edildiyi gün dağlı xalqlar qan və dil qardaşlarına özlərinin dərin sevinc və məmnunluq hisslərini izhar etməyə bilməzlər. Dağlı xalqların iqtisadi və mədəni tərəqqisi Azərbaycan dövlət

qurumunun bütün formalarının inkişafı ilə sıx bağlıdır. Azərbaycan demokratiyasının parlaq bayram günü olan 28 May günündə biz ona alovlu təbriklərimizi və ən xoş arzularımızı yetiririk.

«DAŞNAKSUTYUN» PARTİYASI

Redaksiyanın tapşırığı ilə biz müsahibə üçün «Daşnaksutyun» partiyası parlament fraksiyasının nümayəndəsinə də müraciət etdik. O, təklikdə öz rəyini söyləmək istəməyib məsələni fraksiyanın plenumunda qaldırdı. Beləliklə, aşağıdakı verilən rəy tək bir adamın deyil, bütün fraksiyanın rəyidir:

«Zaqafqaziya respublikalarının, o cümlədən Azərbaycanın istiqlaliyyətinin elan edilməsi bir il əvvəl, Rusiya qüvvələri Zaqafqaziyadan kortəbii şəkildə çıxıb getdikdən və Türkiyə qoşunları gəldikdən sonra yaranmış siyasi şəraitdə labüd hadisə idi. Bu kiçik respublikalarda yaşayan xalqların mənafeləri elə qaynayıb qarışmışdır ki, həyat özü Zaqafqaziya respublikalarının müqəddəratını həll edənlərdən qəti şəkildə tələb edir: Zaqafqaziya xalqlarının yaxınlaşması, əməkdaşlıq etməsi və qarşılıqlı kömək göstərməsi, Zaqafqaziya xalqlarının azad yaşayışına müxtəlif əngəllər törədən hər cür sərhəd maneələrinin məhv edilməsi üçün bir-biri ilə dil tapsınlar. Müstəqil Zaqafqaziya respublikalarının dövlət qurumunun əsaslarını möhkəmlətmək üçün, hər şeydən əvvəl, azlıq təşkil edən millətlərin həyatına, əmlakına və tam azadlığına gerçək təminat verilməlidir. Biz partiyamızın proqramının əsas prinsiplərini rəhbər tutaraq, Azərbaycanın zəhmətkeş xalqının öz müqəddəratını təyin etməsini, öz dövlət qurumunun əsaslarını möhkəmlətməyə, dinc yaradıcılığa və qonşu xalqlarla əməkdaşlığa çalışmasını təsdiqləmək və alqışlamaya bilmərik».

İKİ TARİX

(Gürcüstan diplomatik nümayəndəsi ilə söhbət)

Birincisi 26 may 1918-ci il, ikincisi - 28 may 1918-ci il.

İki qonşu xalq birlikdə çox bəlalar çəkdikdən sonra arzu və ümidləri ilə bir-birinə yaxınlaşmışdır. Bu mənəvi qardaşlıq hər iki xalqın əhəmiyyətli tarixi addımlar atmasına - dövlət istiqlaliyyəti elan etməsinə eyni dərəcədə təkan vermişdir. Gürcüstanın fərəhli istiqlaliyyət bayramında ürək dolusu sevinclə iştirak edən Azərbaycan özünün eyni dərəcədə əhəmiyyətli və parlaq bayramı - Azərbaycan türklərinin istiqlaliyyətinin ildönümü ərəfəsindədir. Azərbaycanın bu tarixi günündə ondan cəmi iki gün böyük olan qonşusu deyir: bu bayramda mən də səninləyəm.

Gənc Gürcüstan Respublikasının rəğbətinin bu ifadəsi onun Azərbaycandakı diplomatik nümayəndəsi Nikolay İotamoviç Kartsivadzenin sözlərində də aydın duyulur. O deyir:

- 28 May günü təkcə Azərbaycan türkləri üçün təntənəli bayram günü olaraq qalmır. Onu azərbaycanlılarla birlikdə gürcülər də bayram edəcəklər, çünki hər bir şüurlu gürcü başa düşür ki, Azərbaycanın müstəqilliyi və səadəti müstəqil Gürcüstanın azad yaşaması üçün zəruri şərtdir. Mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsindən, eyni zamanda müsəlman aləmində ilk respublikanın təməlinin qoyulmasından bir il keçir. Bu tarixi hadisənin əhəmiyyəti Azərbaycanın hüdudlarından çox-çox kənara çıxır. Müstəqil həyatının bir ili ərzində Azərbaycanın müstəqil bir dövlət kimi yaşamaq qabiliyyətini də, hüququnu da sübuta yetirdiyini iqrar etmək üçün bu gənc respublikanın dostu olmağa ehtiyac yoxdur, elə-belə qərəzsiz adam olmaq da kifayətdir. Azərbaycan demokratiyasının saflığı və əməksevərliyi, ziyalıların vətən qarşısında öz borcunu dərk etməsi və diyarın tükənməz təbii sərvətləri gənc dövlətin tərəqqi yolunda iti addımlarla irəliləyəcəyinə, azad xalqların azad ailəsində layiqli yer tutacağına zəmanətdir.

«Kommunist» qəz. 23 may 1991

DÖVLƏT QURULUŞUMUZUN MİLLİ DİRÇƏLİŞ GÜNÜNDƏ DÜŞÜNCƏLƏR

- Müstəqil dövlət, milli istiqlal, həqiqi suverenlik - özünü dərk etmək səviyyəsinə yüksəliş hər bir xalqın milli idealı olmuş və olmaqdadır. Bu təbii və tarixi prosesin, gərdişin yolu çətindir, məşəqqətlidir, daşlı-kəsəklidir. Lakin, həm də şərəflidir, fəxarətlidir. Bu ümumi milli bayram günündə adını hörmətlə çəkdiyimiz, milli ideal və varlıq bayrağımızı ucaldanlardan birincisi sayılan M. Ə. Rəsulzadənin hələ 1906-cı ildə - 22 yaşında yazdıqlarını xatırlayaq: **«Milli istiqlaliyyət bir yoldur ki, cəmi miləli - Qərbiyyə (Qərb millətləri) getmişlər və yerdə qalan millətlər də gedəcəklər. Bu bir keçiddir ki, tarix hamısını buradan sürüb keçirəcəkdir. Bu, bir dəhşətin yoludur ki, xahinə xahi (istəsən də istəməsən də) hər kəs buradan keçməyə məcburdur. Bu, bir keçiddir ki, istibdad dağlarından axan bulanıq zülm sellərindən tərkib tapmış dəhşətli bir nəhr içində ittifaq düşmüşdür».**

Bu gün yenidən üç rəngli istiqlal bayrağını ucaldanlar, həqiqi suverenlik yolu ilə addımlamaq istəyənlər, hər şeydən əvvəl və birinci növbədə adları bilinən və bilinməyən Azərbaycan istiqlal mücadiləsinin əziz şəhidlərini, bayraqdarlarını yad etməli, onların əməlləri, ölməz ruhları qarşısında baş əyməlidir.

Azərbaycan istiqlal mücadiləsi tarixini isə XX əsrlə məhdudlaşdıranlar yanılırlar. 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti türk xalqları tarixinə 114-cü müstəqil dövlət kimi daxil olmuşdur. Məlumdur ki, türk xalqları qədim və yeni tarixin heç bir dövründə dünya meydanında müstəqil dövlətsiz olmamışlar. Bu isə digər türk xalqları kimi Azərbaycan xalqının da milli müstəqillik idealının yaşamasını şərtləndirən amillərdən biri olmuşdur. Ümumi türk milli şüurunun, həmrəylik və birlik ruhunun bərpa edilməyə, dirçəldilməyə başladığı bir vaxtda bu tarixi həqiqət və zəruriyyəti qeyd etmək vacibdir.

Azərbaycan milli istiqlal ideyası zəngin Azərbaycan ədəbiy-

yatı və mədəniyyətinin varlığında yaşamışdır və yaşayır. Bu ideal son zamanlarda bir sıra nadan və cahillərin hücumlarına məruz qalan A.Bakıxanovun, M.F.Axundovun, M.Şəfinin əsərlərində, «ilk milli-mücahidimiz (M. Ə. Rəsulzadə) H.Zərdabinin «Əkinçi»sində, onlardan sonra gələn Azərbaycan ziyalılarının böyük bir nəslinin yaradıcılığında, əməl və fəaliyyətində qüvvətlənmiş, geniş vüsət almış, xalqın mənəvi varlığının ayrılmaz hissəsinə çevrilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı gün ilk dəfə 1919-cu il mayın 28-də milli dövlət bayramı kimi qeyd olunmuşdur. 73 ildən sonra - ikinci dəfədir ki, bu tarixi hadisəni, bu tarixi günü bayram edirik. Xalq məsəli var, deyirlər: niyyətin hara, mənzilin ora. Qoy, tale bizi bu mənzilə tez yetirsin!

«Kommunist» qəz. 23 may 1991

ŞƏKİ İNQİLABDAN ƏVVƏLKİ MƏTBUAT SƏHİFƏLƏRİNDƏ

Son illər öz milli dəyərimizə qayıtmaq yolunda faydalı addımlar atılmağa başlanmışdır. Azərbaycan Jurnalistikası gününün qeyd edilməsi də bu qəbildəndir. 1875-ci il iyulun 22-dən başlayan milli jurnalistika tariximiz indi yenidən tədqiq edilib işlənməlidir. Həm də bu tarix hamının tanıdığı ayrı-ayrı mətbuat orqanları və şəxsiyyətlərlə məhdudlaşmamalıdır. Jurnalistikamızın coğrafiyası çox geniş olub. Qəzetlərdə dərc olunmuş oxucu məktubları bunu sübut edir. «Şərqi-rus», «Həyat», «İrşad», «Tərəqqi» və digər qəzetlərdə məsələn, Şəkidən nə qədər savadlı, məzmunlu, ümummilli problemlərə toxunan yazılara rast gəlmək olur. Onları toplamaq, ümumiləşdirmək, oxuculara çatdırmaq məncə faydalı olar.

Şəkinin tarixini statistik rəqəmlərlə, məlum şəxslər və hadisələrlə məhdudlaşdırmaq birtərəfli olardı. Geniş, çoxcəhətli, dolğun iqtisadi, ictimai, siyasi, mədəni-maarif həyatı ilə yaşayan qədim Şəkinin əsl tarixi öz tədqiqatçısını gözləyir. İndi isə sona çatmaqda olan XX əsrin ilk illərində ana dilində nəşr olunan «Şərqi rus» qəzetində Şəkidən yazılmış bir məktubu oxuculara təqdim edirəm. Məktub müəllifi Hacıbala bəy Nağıbəyov (1876-1922) Şəkinin tanınmış ziyalılarından idi. Məktubdan görünür ki, o, Bakıda nəşr olunan «Kaspi» və Tiflisdə ana dilində çıxan «Şərqi-rus» qəzetlərini alır və diqqətlə oxuyurdu. H. Z.Tağıyevin qəzeti sayılan «Kaspi» ilə Məhəmməd Ağa Şaxtaxtlının naşiri və redaktoru olduğu «Şərqi-rus» arasında ilk nömrələrdən ruhani məktəbləri barədə ciddi polemika başlamışdı. Bu mübahisə və tənqiddə «Kaspi»nin aparıcı jurnalisti Əhməd bəy Ağayev əsas rol oynayırdı. Prinsipial məsələdə «Şərqi-rus» düzgün mövqe tuturdu. Qəzet yazırdı: «Biz qə-

zet təsis etmişik məddahlıq üçün yox, doğru söz üçün. Bizə kağız yazanlardan soruşuruq iş yalandır, ya doğru? Əgər doğru isə nə üçün həqiqəti gizlədəlim?».

Belə bir ciddi milli xarakterli məsələdə H.Nağıbəyovun həqiqət tərəfində durması, onu açıq müdafiəyə qalxması ibrətamiz fakt, Şəki ziyalılarının yetkinliyinin əlaməti idi. İbrət almalı, öyrənməli hadisədir.

NUXADAN

Şəki (Nuxa) şəhərinin dörd tərəfi qəbiristandır. Bunların içində iki xariciyyə qəbiristanları var ki, biri erməni, ikincisi pravoslavnı millətlərdir. Bu zikr olunan qəbiristanlarda əlli ildən vəfat etmiş ölünün qəbrini tapmaq mümkündür. Ondan ötrü ki, əvvəla bu xariciyyə qəbiristanlarının çar (çahar) ətrafı ya xəndək ilə, ya barı ilə bərkdir. Saniyən (ikinci), dəxi meyit sahibi nəgünə fəqir olsa-olsun, qəbirin üstündə labüddür bir nişan gərəkdir qoyula. Amma müsəlman qəbiristanlarına gedilsə bir illik ölünün qəbrini tapmaq mümkün olmaz. Səbəbi budur ki, ərz olunur. Əvvəla, biz müsəlman qəbiristanlarının cümləsinin dörd ətrafı açıqdır. Buna görə heyvanlar haman yerlərdə bilmanəə gəzməkdə və qəbirləri xarab etməkdədirlər. Qəbiristanlarda heyvanların törətdikləri... o qədər çoxdur ki, mərhum dəfn edilməndən bir ay sonra görürsən ki, qəbir yer ilə bərabər olubdur. Bəs belə olan surətdə məlumdur ki, bir illik ölünun qəbrini tapmaq betəriq (heç cür) mümkün deyil bizim qəbiristanlığımızda.

İndi bir azacıq da müsəlman məktəblərimizdən söyləyəlim. Məsum səbilər məktəb deyilən bir qaranlıq hücrədə oturubdular. Mollanın əlində həmişə üç arşın uzunluğunda bir dənə çubuq var. Ondan ötrü ki, hərgah cocuqlar səslərini bir az alcaqdan çıxarsalar və yaxud bir kəlmənin üstündə bir az təvəqqüf etsələr (kəkələsələr) haman ağac onların başına dəyəsidir. Görünür ki, dünyada biz müsəlman millətindən bədbəxt millət heç yoxdur. Bu bizim qəbiristanlarımız və bu da bizim məktəblərimiz.

Bunların böylə olmağına səbəb kimdir? Əlbəttə, cənab əfəndilər, axundlar və indiki halda millətpərvər olan darülfünun məktəblərində (universitet) oxuyub qurtarmış müsəlmanlardır. Hərgah bu cənablar xahiş etsələr bizim məktəblərimizi, qəbiristanlarımızı bir qərar üzə qoyarlar. Hər bir millət məktəblərini artırmağa, elmin qabağa getməyinə, kəlisaların (kilsələrin) və qəbiristanların gözəlliyinə və təmizliyinə həsr əfkar ediyor, amma biz müsəlmanlar adam öldürməyə, bir-birimizin ayağını basmağa, qeybət etməyə və qeyri-qeyri yaramayan əməlləri tutub özümüzü dünyada rüsvay etməyə səy edirik. Millətimizin cəhalət halında olmağına «Şərqi-rus» qəzetəsinin bədxahlarının hərəkətləri gözəl bir dəlildir. Biz bir fikir edəlim. Böylə böyük bir rus padışahlığında 20 milyona qədər müsəlmanların iki dənə qəzetəsi var. Onları da millətpərvər olan müsəlmanlarımız bizə çox görürlər. Haman qəzetələrə kömək edəcəkləri məqamda pislikdən başqa heç bir şey etmiyorlar. Necə ki, cənab Əhməd bəy Ağayev əlinə qələmi alanda fikrinə «Şərqi-rus»dan başqa bir şey düşmiyor. Cənab Əhməd Ağa! Hərgah sizin cənab Məhəmməd ağa ilə xüsusi ədavətiniz var isə özü ilə ədavət edə bilərsiniz, nəinki həmişə qəzetlərin sütunlarını «Şərqi-rus»un barəsində yazasınız. Siz necə müsəlmansınız? Sizə lazımdır ki, şad olub şükür edəsiniz ki, bizim də türk dilində qəzetəmiz var. Və bu qəzetə ilə nəinki elmi olan müsəlmanlar və dükançılar, hətta fəhlələr də oxuyub bilirlər ki, dünyada nə var, yəni bu qəzetlər ilə müsəlmanlar cəhl zülmətindən maarif işığına çıxarlar. Bundan sonra sizdən ötrü eyb deyil ki, siz həmişə «Şərqi-rus»un bədxahı olursunuz! Xeyir! Siz qəzetənin bədxahı olmiyorsunuz. 20 milyon müsəlmanların bədxahı oluyorsunuz Əhməd bəy! Gümanımız budur ki, inşaallah bundan sonra siz biz müsəlmanların qəlblərini zədələndirməyib «Şərqi-rus» nam (adlı) qəzetəmizin bədxahı olmayasınız.

Hacıbala bəy Nağıbəyov

«Şərqi-rus» qəzeti, №41, 6 iyul 1903

«Şəki fəhləsi» qəz. 26 iyul 1991

«QƏZET GƏRƏK XALQIN AYNASI OLSUN»

- Azərbaycan dilində ilk milli qəzet olan «Əkinçi»nin birinci nömrəsi 116 il bundan əvvəl, 1875-ci il iyulun 22-də Bakıda çapdan çıxmışdır. Şübhəsiz ki, bu faktın özü xalqımızın ictimai-siyasi və mənəvi həyatında əlamətdar hadisə olmuşdur. Axı milli qəzetin yaradılması hər bir xalqın milli varlığının ən böyuk göstəricisi, tərəqqi və təkamülünün vacib şərtidir. Həsən bəy Zərdabinin xidməti məhz bundan ibarətdir ki, o, çox çətin olan bu yolda ilk əməli addım atmışdır.

H.Zərdabi Azərbaycan xalqının görkəmli oğullarından biri, həqiqi vətənpərvər, dərin təhsil görmüş adam idi, təkcə Azərbaycanın deyil, həm də xarici ölkələrin tarixinə və mədəniyyətinə mükəmməl bələd idi. Fəal maarifçilik işi aparan, milli-mənəvi sərvətin zənginliklərini, azadlıq və tərəqqi ideyalarını geniş kütlələrə çatdırmağa çalışan H.Zərdabi dərk edirdi ki, bu mühüm vəzifənin öhdəsindən kəndlinin də, ziyalının da başa düşəcəyi dövri nəşr daha yaxşı gələ bilər. O, məqalələrinin birində bu barədə belə yazırdı: «Hər bir vilayətin qəzeti gərək ol vilayətin aynası olsun... yaxşı-yamanlığını aşkar eləsin», xalqın «hər bir dərdi və xahişi ol qəzetdə çap olunsun ki, ol qəzetə baxan xalqı aynada görən kimi görsün».

Həsən bəy Zərdabi «Əkinçi» qəzetini yaradarkən bu prinsipi əsas götürmüşdü. Qeyd etmək lazımdır ki, qəzetin oxucuya doğru yolu heç də qısa və asan olmamışdır. «Əkinçi»nin ilk nömrəsini dörd il ərzində neçə-neçə qapıları döyəndən, yeni nəşrin əleyhdarlarına qarşı inadla mübarizə aparandan sonra buraxmaq mümkün olmuşdu. Qəzet ayda iki dəfə çıxır və böyük rəğbətlə qarşılanırdı. Bəlkə də çox adam bilmir ki, redaksiyanın bütün kollektivi... cəmi bir nəfərdən - Həsən bəyin özündən ibarət idi. O, həm məqalələrin əksəriyyətinin müəllifi, həm redaktor, həm korrektor, həm də mətbəə fəhləsi idi. Üstəlik, qəzetin bütün xərcini öz maaşından ödəyirdi. Bu barədə heç düşünmüsünüzmü ki, Moskva Universitetinin məzunu, tanınmış bəy

ailəsinin övladı olan 30 yaşlı bu cavan oğlanı o zaman belə bir fədakarlığa sövq edən nə idi?

Bu sualın cavabını H. Zərdabinin öz məqalələrində tapmaq olar. O, ürək ağrısı ilə yazırdı: «Hər kəsi çağırıram gəlmir, göstərirəm görmür, deyirəm qanmır. Axır gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri əlac yoxdur». Həsən bəy bu əlacı qəzet buraxılmaqda gördü.

Zərdabi elmin, təhsilin, elmi-texniki tərəqqinin Azərbaycan xalqının müqəddəratı üçün əhəmiyyətini başa düşərək, «Əkinçi»nin səhifələrində bu problemlərin işıqlandırılmasına xüsusi diqqət yetirirdi. O, Azərbaycan ziyalılarının gənc nəslinə müraciət edərək yazırdı: «Ey elm təhsil edən cavanlarımız! Doğrudur, bizim vətən qardaşlarımız ilə üns tutmaq çətindir... Doğrudur, qeyri millətlər sizin kamalınızı görüb sizə artıq rütbə verəcəklər, amma insaf deyil ki, beş gün ömrün ləzzətindən ötrü milləti, qardaşlarınızı atıb, onları kor və sərgərdan qoyasınız... Öz qardaşlarınızı əməli-xeyrə vadar edin, qoy şüəralar sizi həcv etsin, mollalar lənət oxusun... Siz millət üçün zəhmət çəkirsiniz və bişəkk gələcəkdə millətin gözü açılanda sizi şəhid hesab edib, sizə rəhmət oxuyacaq».

H. Zərdabi qəzetin mühüm vəzifələrindən birini də oğlan və qızları öz Vətəninin həqiqi vətəndaşları, öz xalqını sədaqətlə sevən alovlu vətənpərvər kimi yetişdirməkdə görürdü. Qəzet gənc oxuculara dəfələrlə xatırladırdı ki, əcdadlarımız sizə gözəl, bərəkətli, zəngin bir dövlət - Vətən torpağı qoyub, «Yer və göydə olan şeyləri sizin ixtiyarınıza verib», lakin bu misilsiz xəzinədən indi başqaları istifadə edirlər. Bu vəziyyətdən çıxmaq, öz yurdunun əsl sahibi olmaq üçün yalnız elmin nailiyyətlərinə əsaslanmaq, kütlələri maarifləndirmək lazımdır.

Həsən bəy Zərdabi Azərbaycan xalqının başına gələn bir çox bəlaların səbəblərini maarifin, elmin yoxluğunda, təhsilin məhdudluğunda görürdü. O, «Əkinçi»də dərc olunmuş məqalələrinin birində yazırdı ki, bəlalarımızdan və çətinliklərimizdən danışarkən ümumi savadsızlığın heç adını çəkmirik, halbuki bu başlıca səbəbdir.

Bizim mətbuat dilimiz-üslubumuz «Əkinçi» ilə yaranmışdır. İndi həmin qəzetin nömrələrini oxuyarkən H. Zərdabinin və onun məsləkdaşlarının dilinə heyran olmaya bilmirsən: onlar xalqın geniş təbəqələrinin başa düşə bildiyi sadə, aydın, təmiz ana dilində yazıb-yaradırdılar. Açığını deyim ki, indiki qələm əhlinin bir çoxu Həsən bəyin ana dilinə qayğıkeş münasibətindən, onun saflığını və zənginliyini qorumaq uğrunda əzmlə və ardıcıl mübarizə aparmasından çox şey öyrənə bilər.

Bir daha qeyd etmək istəyirəm ki, «Əkinçi» qəzetinin ənənələrini təkcə qələm ustaları deyil, hamımız yenidən öyrənməliyik. O, əsl xalq demokratik mətbuatının nümunəsi kimi bu gün də, heç şübhəsiz, sabah da yeni biliklər və yeni təcrübə mənbəyi olaraq qalacaqdır.

«Həyat» qəz. 20 iyul 1991

«ƏKİNÇİ»DƏN ÖYRƏNƏK

Bu il birinci dəfədir ki, respublika Prezidentinin fərmanı ilə ilk dövri mətbuat orqanımız olan «Əkinçi» qəzetinin işıq üzü gördüyü gün - iyulun 22-si respublikamızda Azərbaycan jurnalistikası günü kimi qeyd edilir. Milli dəyərlərə, ənənələrə qayıtmaq, onları sağlam və müasir tələblər zəminində davam və inkişaf etdirmək yolunda daha bir addım atılmışdır. Köklə qayıtmaq müstəqil yol seçmək deməkdir. Bu isə öz növbəsində çox böyük məsuliyyət, uzaqgörənlik, düşünüb-daşınmaq tələb edir. Bu gün adicə, keçici bir tədbir günü olmasın gərək. Respublikanın jurnalist ordusu, hər bir redaksiya kollektivi, hər bir qələm sahibi jurnalistikamızın «Əkinçi» ilə başlayan tarixi keçmişinə, qüdrətli jurnalist və publisistlərimizin yaradıcılığına, bir sözlə, keçdiyimiz yola varislik hissi ilə nəzər salmalı, bu günün və gələcəyin yolunu, vəzifələrini müəyyənləşdirməlidir. Əlbəttə, tarixə nəzər salmaq ondan kül deyil, od götürməyi bacarmaq deməkdir. Azərbaycan jurnalistikası isə bu baxımdan çox zəngindir. Elə «Əkinçi»nin 1-ci nömrəsinin H.Zərdabi tərəfindən yazılmış baş məqaləsi ilə tanışlıq, məncə, ümumi, ilkin təsəvvür yarada bilər.

DAXİLİYYƏ

«Əkinçi» qəzetinin bina olmağının səbəblərindən o qəzeti çap etmək barəsində göndərdiyimiz elamnamədə danışdıq. Əlbəttə, o səbəblərdən savay buna qeyri səbəblər da çoxdur. Amma onları bura da ismən adlamaq məqdur (mümkün) deyil. Ona görə o səbəblərdən danışmağı lazım bilməyib xahiş edirik bu «Əkinçi» qəzetinin əvvəlinci nömrəsində o qəzetin məzmunundan goftügu edək. «Əkinçi» qəzetində bu aşağıda adlanan fəsillər olacaqdır. Əvvəlinci fəsil daxiliyyə olacaqdır, yəni qəzetin münşisinin (redaktorunun) öz tərəfindən yazılan şeylər olacaqdır. İkinci fəsildə əkin və ziraət xəbərləri olacaqdır, yəni bizim ya qeyri-vilayətlərdə olan əkinlərdən, onları əkib becərməkdən, onları əkib becərən vaxtda işlənən əsbablardan (alətlərdən), əkin yerin şüxm (şum) etməkdən, əkin yerini qüvvətli etməkdən ötrü o yerə qeyri şeylər qarışdırmaqdan, xülasə, əkindən və əkini biçib, götürüb, qurudub, döyüb saxlamaqdan danışıq olacaqdır. Həmçinin bu ikinci fəsildə maldarlıqdan və mallardan əmələ gələn şeylərdən danışıq olacaqdır, yəni bizim və ya qeyri-vilayətlərdə nə qism mallar saxlamaqdan və ya nə tövr saxlamaqdan və onlardan əmələ gələn şeyləri nə tövr yaxşıraq əmələ gətirməkdən danışıq olacaqdır. Üçüncü fəsildə elm xəbərləri olacaqdır, yəni elm ya imtahan yolu ilə aşkar olan, məsələn, insanın bədəninə və malına nəfi olan xəbərlərdən danışıq olacaqdır. Dördüncü fəsildə tazə xəbərlər olacaqdır və bu tazə xəbərlər bir neçə qism olacaqdır. Əvvəla, ticarət xəbərləri olacaqdır, yəni bizim vilayətimizdə və ya qeyri-vilayətlərdə bir şey, məsələn, buğda filan şəhərdə ya filan kənddə nə qiymətə 63 nə tövr satılmaqdan xəbər veriləcəkdir. Saniyən (ikinci), bizim Rusiya

dövlətinin və qeyri-dövlətlərin politika xəbərlərindən danışıq olacaqdır, yəni padşahların və onların vüzəranlarının aralarında olan danışıqlardan və dövlətlər arasında olan cənglərdən (müharibələrdən) xəbər veriləcəkdir. Salisən (üçüncü), Rusiya dövləti tərəfindən öz tabelərinə sadir olan hökmlərdən xəbər verəcəkdir. Rablən (dördüncü), bizim kənd sudlarında, ya miravoy sudda və ya okrujnoy sudda qət olan işlərin ümdəsinin qətnaməsi olacaqdır. Xamisən (beşinci), yuxarıda zikr olan xəbərlərdən savayı, hər bir vilayətdə aşkar olan məşhur naxoşluq, ya yanqu, ya oğurluq və ya qeyri-qism xəbərlərdən danışıq olacaqdır.

Bu məzmunda qəzeti müsəlmanlar üçün vacib bilib onun zəhmətini və zərərini qəbul edib, başlayırıq və müsəlmanların anlıyan və pişrov (qabaqcıl) kəslərindən iltimas edirik ki, xalqa bu qəzeti oxumağa mane olmasınlar, bəlkə səy etsinlər ki, onu oxuyan çox olsun. Bu təvəqqei anlıyan kəslərdən elədiyimizə səbəb odur ki, bizə məlumdur bizim müsəlmanlar həmişə öz anlıyan kəslərini əziz tutub, onların sözlərinə əməl ediblər. Əlbəttə, anlıyan və pişrov kəslərə lazımdır ki, xalqın bu etibarına xəyanət etməyib onun gözləri açılmağa səy və guşeş etsinlər. Dünya bir şeydir ki, həmişə dövran edir və insan bu tövr dünyanın gərdişinə görə gərək habelə öz rəftarını da dəyişdirsin, necə ki, məsəldir deyərlər zəmanə dəyişilməyi, əlbəttə, hər anlıyan kəsə məlumdur və bu tövr zəmanənin dəyişilməyi bizim ilə deyil, həmçinin biz qadir deyilik ki, zəmanəni dəyişilməkdən saxlayaq. Ol kəslər ki, həmişə bizə etibar edib bizim sözlərimizə əməl ediblər, zəmanə dəyişildiyinə görə gün-gündən tərəqqi edib irəli gedirlər. Onların belə irəli getməyinə mane olmaq, yəni onları keçən zəmanənin qaydası üzrə saxlamaq məsləhət deyil, ona görə ki, yolu onlar bizsiz də gedəcəkdirlər. Pəs bizim anlıyan və pişrov kəslərə eyni məsləhətdir, bu yolu onlar ilə bir yerdə getsinlər, ta ki, onların tez tərəqqi etməyinə səbəb olsunlar və buna görə gələcəkdə həmçinin onlara pişrov olsunlar.

«Əkinçi», № 1, 22 iyul 1875.

«Aydınlıq» qəz. 22 iyul 1991

ŞƏKİ İNQİLABDAN ƏVVƏLKİ MƏTBUAT SƏHİFƏLƏRİNDƏ

«Şəki fəhləsi»nin 20 iyul 1991-ci il tarixli nömrəsində H.Nağıbəyovun «Şərqi-rus» qəzetinin 1903-cü il 6 iyul tarixli 46-cı nömrəsində həmin qəzetin mövqeyini çox böyük qeyrət və cəsarətlə müdafiə edən məktubunu oxuculara təqdim etmişdik. İndi bu qəbildən olan başqa bir tarixi sənədi - Axund Molla Fərəc Pişnamazzadənin başçılığı ilə Şəkinin tanınmış nüfuz sahiblərinin imzası ilə «Tərəqqi» qəzetində dərc olunmuş bir teleqram mətni ilə «Şəki fəhləsi»nin oxucularını tanış etmək istəyirəm. Söhbətin nədən getdiyini qısaca xatırladım.

Çar Rusiyasında ikinci növ vətəndaşlar sayılan müsəlmanlara, o cümlədən azərbaycanlılara qəzet nəşr etmək həmişə cəhənnəm əzabına bərabər olub. 1828-1917-ci illər arasında ana dilində 4-5 il ömür sürmüş qəzet adı çəkmək çətindir. Milli mətbuatımızın ən zəngin dövrü sayılan birinci rus inqilabı dövründə də vəziyyət dəyişməmişdi. Məsələn, Tiflisdə nəşr olunan «Şərqi-rus»un nəşri cəmi 22 ay sürdü (mart 1903 - yanvar 1905), XX əsrdə Azərbaycan torpağında ilk açıq qəzet olan «həyat»ın 1905-1906-cı illərdə cəmi 325 nömrəsini buraxmaq mümkün oldu. Onu əvəz edən «İrşad» 2 il 6 ay çıxa bildi. 1908-ci ilin iyununda bağlandı. Aradan qısa bir müddət keçməmiş 1908-ci il iyulun 3-də Əhməd bəy Ağayevin redaktorluğu ilə «Tərəqqi» adlı, iri formatda, gündəlik qəzet çıxdı. Lakin avqustun sonu və sentyabrın əvvəllərində onun da başının üstünü duman aldı. Millətin ana dilində gündəlik qəzetsiz qalması təhlükəsi yarandı. Bax belə bir şəraitdə Şəkinin nüfuzlu ziyalı və iş adamları, millət təəssübkeşləri Bəşir bəy Aşurbəyova kollektiv teleqramla müraciət etmişdilər. Məktubla deyil, məhz teleqramla, çünki vəziyyət çətin və böhranlı idi. Vaxtilə M. Ə. Rəsulzadənin də yazdığı kimi, Azərbaycanda çıxan ilk Avropa tipli gündəlik siyasi «Tərəqqi» qəzeti bağlana bilərdi. Şəkinin elpərəst, mətbuatın rolunu və qiymətini bilən uzaqgörən adamlarının bu addımı şəhərimizin tarixinə düşməlidir. Həmin teleqramı və «Tərəqqi»nin

necə xilas edildiyinə dair onun redaktoru Əhməd bəy Ağayevin məqaləsini birlikdə dərc etmək məncə faydalı olar. Hər iki yazı qəzetin mətnindən ilk dəfədir ki, çap edilir.

NUXADAN TELEQRAM

Bəşir bəy Aşurbəyov cənablarına Nuxadan böylə bir teleqraf gəlmiş:

Biz zildə (aşağıda) imza edənlər, siz cənabın «Tərəqqi» qəzetəsindən istefa etməyinizə əla dərəcədə təəssüf edib vəzifeyi-müqəddəsəmizdən iddia edirir, təvəqqe və rica edirik ki, bu qədər əhalinin yeganə vasiteyi-tərəqqi və hidayəti olan «Tərəqqi»ni öz-özünü aparanadək müavinət və təqviyyətdən qüvvətləndirməkdən çəkinməyəsiniz.

Axund Pişnamazzadə, Şirəli bəy Aşurbəyov, Hüseyn Tahirzadə, Abdulla bəy Əfəndiyev, Məqsud bəy Lütvəlibəyov, Bəradərani Əliyev (Məmmədsadıq Əliyev qardaşları), İsmayıl İsmayılov, Hüseynbəyov, Fərəc Quliyev, Yunis Hacıyev, Mehdiqulu Zülfüqarov, Səməd Məlikov, Əhmədov, Hüseynov, Hidayət bəy Xanabadski, Hacıyev, Şeyxzadə, Manafov.

«Tərəqqi», № 53, 16 sentyabr 1908

Q e y d: Teleqram Şəkidən sentyabrın lap əvvəllərində vurulmuşdur.

«Həyat» qəz. 31 avqust 1991

TƏRƏQQİYUNLARA BƏŞARƏT

Bir neçə gündən bəri qəzetimizdə «İrşad-proqreso şirkəti tərəfindən «Tərəqqi» qəzetəsinin bağlanacağı xüsusunda verilən elan ümum tərəqqipərəstləri qəm və yasa düçar etmişdir. Məzkur şirkətin nə növ vücuda gəlməsi cümlə qareinimizə (oxucularımıza) məlumdur! Bu barədə təfsilat verməyi artıq biliriz.

Lakin bədbəxtanə müsəlman hər işində olduğu kimi bu işdə də əvvəlcə səy və təlaş edib axırda yavaş-yavaş soyuyub iş bərhəm (qarmaqarışıq) oldu.

147 paydan ikinci hissəsini iddia edən fəqət 40 nəfər oldu! Qalanlarına nə qədər elan, əcz (axırıncı söz) və ilhah (təkid, israr) oldu isə bir səmərə bəxş etmədi!

Meydanda Bəşir bəy Aşurbəyov, Qara bəy Qarabəyov və Bəhram bəy Axundov kimi üç-dörd ərbabi-ictihaddan (çalışan, səy edən) başqa bir kəs qalmadı! Bunlar isə tamam 10 ay müddətində ağır və böyük bir təşəbbüsün hər növ maddi və mənəvi zəhmət və məşəqqətinə qatlaşıb işi aparıyor idilər! Lakin axıradamar heç bir tərəfdən himmət və kömək görmüyüb və var qüvvəmizi sərf etdikdən sonra qəzetəyi bağlamaqdan başqa bir çarə qalmadı. Labüdd və naçar şirkətin ümum üzvlərinə elan verilib. Bu yolda bir tədbir və çarə aramaq üçün üzvlər iclasi-ümumiyyəyə dəvət olundular!!

İclasda çox göftugu (söhbət) və müzakirədən sonra qəzetəyi bağlamaqdan başqa bir yol görünmüyor idi.

Lakin şirkətin üzvü və banisi və öz xeyrat və hüsnatı ilə məşhur cənab Murtuza Muxtarov Qafqaz müsəlmanları arasında rəhbəri-tərəqqi və təməddün olan qəzetimizin məhv olmasına razı olmayıb qəzetəyi öz xərci ilə daimi surətdə aparmağa hazır olduğunu ihlasa bildirdi.

İclas cənab Muxtarovun bu təklifini kəmali məsərrə (şadlıq) ilə qəbul edib cənaban (cənablar) Bəşir bəy Aşurbəyovu və Qarabəyovu bu barədə Murtuza Muxtarov ilə danışıb qəzetənin müşar ileyhə (adı çəkilənə) təhvil verilmək surətini təmin etmək üçün vəkil etdi.

İştə bu cənablar Murtuza Muxtarov ilə görüşüb işi tamam edib bu gündən qəzetəmiz cənab Muxtarovun imza və adı ilə nəşr olunmağa şüru etdi.

Əvət! Yas və ələmə qərq olmuş tərəqqiyunlara bəşarət olunsun! Murtuza Muxtarov kimi bir zatın qəzetəmizin başında olması qəzetəmizin ələddəvami-baqi olmasını təmin edər!

Daha bundan sonra demək olar «Tərəqqi» var və olacaqdır!!

Çünki qəzetənin ən böyük təhlükəsi maddi tərəfidir. Və Murtuza Muxtarov kimi tərəqqipərvər bir səbat və dövlət sahibi bir qəzetənin başında olduqda haman qəzetənin hər bir təhlükədən məsun (toxunulmaz) olması behihidir (yaxşıdır).

Bundan əlavə cənab Muxtarovun tələb və xahişinə görə qəzetəmiz bu düşənbə günündən sonra yövmiyyə (gündəlik) olacaq, yəni cümə günlərindən başqa hər gün çıxacaq.

Qəzetimiz sabiqdə xidmət etdiyi məsləkdə davam edəcək, yəni sərlövhəsində təsbit olunmuş «Ədalət», «Hürriyyət», «Müsavat», mənilərinə qulluq edəcək, bu barədə naşirimiz ilə heyəti-idarənin arasında ittihada olduğundan qəzetimizin sabiqdəki heyəti-təhririyyəsi də bərqərardır.

İştə tərəqqiyunların yası məsərrətə (şadlığa) mübəddəl (çevrilmiş) olsun. Məhv deyil, «Tərəqqi»miz tazə bir qüvvə ilə, daha zorlu, daha rövnəqli bir həyat tapdı!!

Yaşasın «Tərəqqi»yunlar!!

Əhməd bəy Ağayev
«Tərəqqi», № 46. 7 sentyabr 1908

«Bərəkət» qəz. 2 sentyabr 1991

ŞƏXSİYYƏT VƏ MİLLİ DƏYƏRLƏR: TARİX NƏ DEYİR?

Hər bir insan və xalq üçün özünü tanımamaqdan böyük təhlükə yoxdur. Özünü tanımayan millət tarixi inkişaf yolunu və səmtini düzgün müəyyənləşdirə bilməz. Digər tərəfdən təhlükəsiz yol seçmək üçün tarix elminə yiyələnmək vacibdir. Yaxşı deyiblər ki, biz keçmişimizi ona görə sorğu-suala çəkir, öyrənirik ki, bu günümüzü bizə izah etsin, tanıtsın və gələcək yolu müəyyənləşdirməyə yardım etsin.

Bilmək lazımdır ki, şəxsiyyətsiz xalq, tarix yoxdur. Xalqın qədər və taleyində şəxsiyyətlərin rolu əvəzsizdir. Millət, xalq şəxsiyyətləri ilə tanınar. Xalqın başını uca edən, onu yaşadan, tərəqqi və təkamülünü istiqamətləndirən, mühafizə və müdafiəsini təşkil edən şəxsiyyətlər xalqın ən böyük dövlətidir.

Tarixi şəxsiyyətləri öranməklə hər bir xalqa xas olan ümdə keyfiyyətləri ortaya çıxarmaq olar. Məsələn, tarix ədəbiyyatında türklərin tarixi şəxsiyyətlərinə xas olan üç mühüm cəhət aydın göstərilir: dövlət quruculuğu istedadı və qabiliyyəti, qəhrəmanlıq və fədakarlıq, insaf və mərhəmətlilik. Təsadüfi deyil ki, məhz bu keyfiyyətlərinə görə türklər heç vaxt müstəqil dövlətsiz və tarixi şəxsiyyətsiz olmamışlar. İnsanlıq tarixinə 128 müstəqil türk dövlətinin adı yazılmışdır. Bu dövlətlərdən səkkizini azəri türkləri yaratmışlar. Bizim axırıncı dövlətimiz 1918-1920-ci illərdəki Azərbaycan Xalq Cümhuriyyətidir. O, 114-cü türk dövləti idi.

Türk dövlətlərinin, dövlət və hökumət başçılarının tarixini və şəxsiyyətlərini öyrənmək baxımından məşhur türk yazarı və alimi Mustafa Yazıçının «Tarixdə 128 türk dövləti ilə 318 dövlət - 356 hökumət başqanlarının özəllikləri» əsəri xüsusi maraq doğurur (Ankara, 1990). 336 səhifəlik bu kitabda ən əvvəl diqqətimi cəlb edən «İthaf» (həsretmə) oldu. Doqquz bənddən ibarət bu ithaf çox şey deyir, türk xalqının milli dəyərlərini açıq büruzə verir. Bu «İthaf»ı və ona mənim yazdığım «Nəzirə»ni oxuculara təqdim edirəm.

İTHAF

Əcdadını, tarixini və türk böyüklərini sevənlər üçün hazırladığım bu əsərimi:

1. Bir gün belə bayraqsız və dövlətsiz qalmamış və iftixar etdiyimiz Atalarımızı yetişdirmiş olan türk millətinə;
2. Gəlmiş-keçmiş türk dövlət və hökumət başqanları ilə böyük komandanlarımıza;
3. Dövlət işlərinə yararlı adam seçməyi bilənlərə;
4. Dövlət mexanizmini adil bir şəkildə işlədənlərə;
5. Quruluşu dünya tarixinin başlanğıc günlərinə qədər gerilərdə qalan, böyük millətimizin zəfərləri və əvəzsiz sevinc dolu tarixinə layiq, qürur və öyünmə qaynağımız, milli hakimiyyətimizin təminatı, Vətən və millət şərəfinin qoruyucusu Şanlı Ordumuza;
6. Ordumuzun bugünkü duruma yetişməsində payları çox böyük olan, varlıqları ilə iftixar etdiyimiz qulluqda və istefada olan zabitlərimizə;
7. Ədalətin bütün yurdda hakim olmasını saxlayanlara;
8. Böyük türk millətinin birlik və bərabərliyini qoruyanlara;
9. Məşrü-nizamın və dövləti-əbəd müddətin daim yanında olanlara, ərməğan edirəm.

Yazacağım kitaba ithaf əvəzinə
nəzirə

1. Əcdadını, tarixini, öz türk böyüklərini tanımayanlara
2. Bir gün belə bayraqsız və dövlətsiz qalmamış və iftixar etdiyimiz atalarımızı yetişdirmiş olan türk millətinə **yad olan mənqurtlara**;
3. Dövlət və hökumət başına satqınları və nadanları gətirənlərə;
4. Dövlət işlərinə yararlı adamları deyil, öz əfəl qohum-əqrəba, dost və yerlilərini qoyanlara;
5. Millətin şərəf, namus və varlığını qoruyacaq inzibati orqanları rüşvətxorlar, namussuz və vicdansızlar hesabına dolduranlara;
6. Milli ordumuzu korlayıb xalqı silahsız və mühafizəsiz qoyanlara;
7. Bütün yurdda ədalətsizliyi hökmfərma olmasına rəvac verənlərə;
8. Böyük türk millətinin, onun ayrılmaz tərkib hissəsi olan Azərbaycan xalqının milli birliyini pozanlara;
9. Azərbaycanın təbii və mənəvi sərvətlərini hərraca qoyanlara;
10. Yalançı millət pəhləvanlarına, xalqın milli hissi ilə oynayanlara;
11. Azərbaycanı əbədi əsarət və müstəmləkəçilik zülmündə saxlamaq istəyən inzibati-amirlik sisteminə - «Lənət və min lənət!»

«Bərəkət» qəz. 4 sentyabr 1991

SAĞ ƏLİNİZ BAŞIMIZA!

Üç Pribaltika Respublikası - Litva, Latviya və Estoniya istiqlala - tam müstəqilliyə qovuşur. Gözümüzün önündə çox böyük tarixi hadisə baş verir. Dünyanın siyasi xəritəsinə üç yeni dövlətin adı yazılır. Bu, çox böyük tarixi hadisədir. Nəzərə alaq ki, planetimizdə üç mindən çox xalq, millət, tayfa yaşayır. Müstəqil dövlətlərin sayı isə 200-ə yaxındır. Onlardan 184-ü Birləşmiş Millətlər Təşkilatının üzvüdür. Tarixin və taleyin hökmü ilə istiqlaliyyətə qovuşmaq böyük xoşbəxtlik, böyük səadətdir!

İstiqlaliyyətin yolu çətindir, çox çətindir, daşlı-kəsəklidir, qanlı-qadalıdır. Bunu dərk etmək lazımdır.

İstiqlaliyyətə və həqiqi müstəqilliyə can atan xalqın və millətin qətiyyəti, birliyi və rəşadəti, iqtisadi və mədəni inkişaf səviyyəsinin yüksəkliyi, coğrafi mövqeyi, yaşadığı mühitin və şəraitin əlverişli olması, yaranmış imkanlardan istifadə etmək bacarığı

gərəkdir. İstiqlaliyyət çox böyük tarixi maneələri aradan qaldırmaqla mümkün olur.

Yaşadığımız XX əsrə nəzər salaq. Bu əsrin əvvəllərində dünyada yalnız otuza yaxın müstəqil dövlət var idi. Səksən ilə yaxın bir müddətdə 130-dan artıq müstəqil dövlət əmələ gəlmişdir.

Nəyin bahasına? Yaşadığımız əsrdə iki dünya müharibəsi olmuşdur. Regional müharibələrin sayı yüzə çatır. Yüz milyonlarla adam döyüş meydanlarında öldürülmüş, şəhid olmuşdur. İmperiyaları saxlamaq istəyənlərlə onları dağıtmaq uğrunda çarpışanlar nə qədər qurbanlar vermişlər. Lakin imperiyaları xilas etmək mümkün olmadı. Bu imperiyaların xarabalıqları üzərində yeni müstəqil dövlətlər yarandı və yaranmaqdadır. İndi biz dünyanın axırıncı imperiyasının süqutu dövrünü yaşayırıq. Litva, Latviya və Estoniya bu imperiyadan qopan ilk müstəqil ölkələrdir.

Atalar yaxşı deyiblər ki, zülm ilə abad olanın axırı bərbad olar. Təcrübə göstərir: o xalq, o millət tam istiqlaliyyət və müstəqilliyə nail ola bilər ki, bu tarixi imtahana əvvəlcədən və ciddi hazırlaşan, milli şüuru, bütün varlığı, maddi və mənəvi qüvvələri bu istiqamətə yönəldilsin, milli birlik və milli qeyrət hər şeydən üstün tutulsun, xalqı daxildən parçalayan, qüvvələrini zəiflədən, diqqətini başqa səmtə yönəldən əngəlləri aradan qaldıra bilsin, istiqlaliyyət üçün lazım olan obyektiv və subyektiv amilləri birləşdirməyə qadir olsun.

Pribaltika respublikalarının istiqlal bayramı hamımızın bayramıdır. İndi bu respublikaları dünyanın otuzdan çox ölkəsi, o cümlədən Amerika Birləşmiş Ştatları, Fransa, İngiltərə, Almaniya, Yaponiya və başqaları rəsmi surətdə tanımışlar. Yəqin ki, böyük ağrılar bahasına olsa da Moskva da bu respublikaları tanıyacaq.

Necə deyərlər zülmət buzu sındırılmış, istiqlal nəhri hərəkətə gəlmişdir. Uğur olsun istiqlala qovuşanlara! Sağ əlləri bu arzuda, bu qətiyyətdə olanların başına!

«Bərəkət» qəz. 4 sentyabr 1991

«KAVKAZSKİ K ALENDAR»DA YAZILMIŞDIR

XIX əsrin əvvəllərində çar ordusu Qafqazı, o cümlədən Şimali Azərbaycanı işğal etdikdən sonra öz hakimiyyətini möhkəmlətmək üçün hərbi-inzibati orqanlarla yanaşı, əhalini itaətdə saxlamaqdan ötrü ictimai-siyasi və mənəvi-psixoloji vasitələrdən də istifadə edirdi. Rusiyanın Qafqaza işğalına hər cür «yardım» göstərən erməni tacir və ruhani başçıları bu sahədə daha çox canfəşanlıq göstərirdilər. Hərbi orqanlar əhaliyə müraciətlə xüsusi vərəqələr, bülletenlər və müraciətlər çap edirdilər. 1828-ci ildən Tiflisdə rəsmi nəşr kimi «Tiflisski vedomosti» adlı qəzet çıxırdı. 1831-1833-cü illərdə həmin qəzet «Tatar əxbarı» adı ilə Azərbaycan dilində də çıxmışdır. Təəssüf ki, bu vaxtadək həmin qəzetin nəşr olunmuş 11 nömrəsindən heç biri tapılmamışdır.

Həmin illərin nəşrləri içərisində «Kavkazski kalendar» (Qafqaz təqvimi) xüsusilə diqqəti cəlb edir. Həcmcə iri, ayrıca kitab halında hər il buraxılan bu təqvimlərdə tariximizi öyrənmək üçün çox zəngin material vardır. Bu, Şəki tarixinə də aiddir. Nümunə üçün Qafqaz təqviminin 1846 və 1847-ci il nömrələrinə nəzər salaq. Əvvəlcə, ümumiyyətlə, Qafqaza aid xəbərlərdən nümunələr:

Rus çarı I Pyotr 1723-cü ildə erməni patriarxına ermənilərı Bakı və Dərbəndə köçürməyə dair qramota vermişdi (1846, s. 122).

1735-ci ildə Tiflis, Erivan və Gəncə Nadir şaha təslim edilmişdi (s. 122).

1826-cı il noyabrın 21-dən Moskva və Tiflis arasında «ekstra-poçta» (təcili poçt) əlaqəsi təsis edilmişdi (s. 131).

1828-ci il fevralın 10-da Türkmənçayda Rusiya ilə İran arasında sülh traktatı (razılaşması) bağlanmışdı. Bu razılaşmaya görə Erivan və Naxçıvan xanlıqları həmişəlik Rusiyaya birləşdirilmişdir (s. 132).

1828-ci il aprelin 14-də Rusiya Türkiyəyə müharibə elan et-

mişdir (s. 132).

1837-ci il oktyabrın 7-də Rusiya imperatoru I Nikolay Tiflisə təşrif gətirmişdi (s. 135).

Qafqaz tayfaları içərisində sayca ən çox olanı müsəlmanlar - tatar türkləridir (söhbət azərbaycanlılardan gedirdi - Ş. H.). Onların sayı 675 mindir, gürcülər və imeretlər 490 min, ermənilərin sayı isə 200 minə yaxındır.

Müsəlmanlar digərlərə nisbətən varlıdırlar və çox cəhətdən firavan yaşayırlar. Onlar əvvəllər buralarda hakim idilər, odur ki, xristianlara nisbətən əziyyət və zülmü o qədər də eyinlərinə almırlar (s. 139).

Yerli sakinlərdən heç kəs, hətta gecələr belə evlərinin qapılarını bağlamır. Bu barədə düşünmürlər, qarovul söhbəti yoxdur (s. 171).

1831-ci ildə Nuxada ilk qəza məktəbi yaradılmışdır. Belə bir məktəb Şuşada 1830-da, Bakıda 1832-də, Gəncədə 1833-də, Naxçıvanda 1837-də, Şamaxıda 1838-ci ildə təşkil olunmuşdu (s. 147).

1846-cı ildə Şəki qəza məktəbində beş müəllim, 51 şagird vardı. Müəllimlərin sayı yuxarıda adları çəkilən bütün qəza məktəblərində (Şamaxıdan başqa, orada 6 müəllim çalışırdı) eyni idi (s. 147).

1846-cı ildə Şəki qəza məktəbinin kitabxanasında 360 nüsxə dərs kitabı vardı. Bu miqdar Şuşada 301, Gəncədə 113, Naxçıvanda 152, Şamaxıda 249, Bakıda 746 nüsxə idi (s. 146).

«Şəki fəhləsi», 5 sentyabr 1991

FEDERASİYA ÖLDÜ, SONRA?

SSRİ xalq deputatlarının növbədənkənar V qurultayı öz işinə və mən deyərdim ki, fəaliyyətinə xitam verdi. Qurultayın gedişini nəinki biz, həmçinin dünyanın hər yerində diqqətlə izləyirdilər. Axı neçə yüz illər boyu zülm ilə abad və axırı bərbad olmuş imperiyanın taleyi, deməli, Rusiya xalqlarının taleyi həll olunurdu. Kim kimə qalib gələcək? Demokratlar qatı şovinist imperiya tərəfdarlarına, yoxsa mühafizəkar qüvvələrin birləşmiş cəbhəsi demokratlara?

Hamletin məşhur monoloqunda deyildiyi kimi, «ölüm, ya olum» məsələsi həll olunurdu. Dünən Mərkəzi televiziya ilə xəbərlər verilişində Moskvanın meri Qavriil Popov çıxış etdi. Qurultayın işini yekunlaşdıraraq bildirdi ki, demokrat qüvvələr böyük tarixi qələbə qazandılar. Əks təqdirdə ölkəni hərc-mərclik, vətəndaş müharibəsi gözləyirdi.

Hələlik başımızın üstünü alan təhlükə müəyyən qədər sovuşmuşdur. Qurultayın əsas sənədlərində xalq demokratik inqilabının qələbəsi möhkəmləndirildi, köhnə hakimiyyət - inzibati amirlik sistemi ləğv edildi.

Deməli, sentyabrın 5-dən sonra SSRİ adlanan bir ittifaq dövləti mövcud deyil. Qeyd edək ki, avqustun 20-də imzalanmağı nəzərdə tutulan sənədin - Novo-Oqaryovoda razılaşdırılmış İttifaq müqaviləsinin qısa bir müddətdə iflasa uğraması təsadüfi deyil. Avqustun 19-21 arasında baş vermiş dövlət çevrilişi cəhdi bütün demokratik qüvvələri ayağa qaldırdı. Bu müqaviləyə qol çəkməyə razılıq verənlərin, daha doğrusu, indi məlum olduğu kimi, məcbur edilənlərin bir qismi federasiyanın dayaqları sayılan ordunun, dövlət təhlükəsizliyinin və partiya rəhbərliyinin siyasət meydanında məğlub olduğunu görüb bir neçə günün içərisində mövqelərini dəyişdi. Federasiya əvəzinə konfederasiya problemi ortaya atıldı. Respublikaların, demək olar ki, hamısı öz müstəqilliyini elan etdi. Mərkəzi dövlət sistemi, hakimiyyət sistemi qısa bir müddətdə dağıldı.

Əlbəttə, hələ indi də ölkədə inzibati amirlik sistemini dir-

çəltmək istəyən qüvvələr var. Milli partokratiya öz cildini, formasını dəyişib özünü demokrat kimi qələmə vermək istəyir. Respublikalar üçün ən böyük təhlükə budur. Nə qədər ki, partokratiya siyasət meydanını tərk etməyib, iqtisadiyyatın əsas sahələrini öz təsiri altında və ya əlində saxlayır, bazar iqtisadiyyatına keçmək, hüquqi dövlət yaratmaq, həqiqi demokratiyanın qələbəsinə nail olmaq mümkün deyil.

Yadıma Stalinin - bu dəhşətli imperiyanın əsas memarının 1920-ci il noyabrın əvvəllərində Bakıda bolşeviklərin yığıncağında dediyi aşağıdakı sözlər düşür: «Azərbaycanın suverenliyini elan etmək bizim üçün sərfəlidir. Lakin bir məsələni yadda saxlamaq lazımdır ki, kommunistlərin kommunistlərdən asılılığı prinsipi qalır». Görürsünüzmü, formal suverenlik, istiqlaliyyət partiya xətti ilə onun tamamilə ləğv edilməsi deməkdir.

Dünyanın axırıncı, imperiyasının mövcudiyyətinə son qoyulmaq üzrədir. Lakin ittifaq deyilən dövlətə daxil olan müstəqil respublikaların tam müstəqillik, həqiqi istiqlal, bərabərlik zəminində iqtisadi əməkdaşlığa, mədəni əlaqələrinə ehtiyac vardır. Bunu heç kəs inkar edə bilməz. Federasiya öldü, konfederasiya olacaqmı? Söhbət bundadır.

Sentyabrın 5-i sözün həqiqi mənasında tarixi gündür. Düzdür, biz bunun tam mahiyyətini, əhəmiyyətini hələlik birdən-birə dərk etmirik. Çox yaxşı sənədlər, fərmanlar və qərarlar eşitmişik. Odur ki, inamımız itib. Arzumuz budur ki, bu dəfə deyilənlər, elan edilənlər çıxarılan qərarlar həqiqət olsun. Bir də ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcısı M.Ə.Rəsulzadə vaxtilə yaxşı deyib ki, azadlıq və istiqlaliyyəti heç bir millətə, heç bir xalqa vermirlər, bağışlamırlar. Xalq onu özü əldə etməlidir. Qanı ilə, canı ilə, ağlı ilə, qətiyyəti ilə. Çünki müstəqilliyin yolu, istiqlaliyyətin yolu tufanlardan, vuruşlardan keçir.

«Bərəkət» qəz. 7 sentyabr 1991

YENİ AVAZLA KÖHNƏ BAYATILAR KİMƏ GƏRƏKDİR?

Dünyanın gözü qarşısında ağlasığmaz, lakin qanunauyğun böyük tarixi hadisələr baş verir. Uzun illər dünyanı sarsıtmağa çalışan, «şər imperiyası» süqut edir. Bəşəriyyətin başının üstünü almış nüvə təhlükəsi yavaş-yavaş sovuşur. Hürriyyət və istiqlal fikri qanına və canına sinmiş xalqlar qəddini düzəltmək, xülyaya və zorakılığa söykənən fəlakətli kommunizm eksperimentindən bəşəriyyətin əksəriyyətinin getdiyi təbii sivilizasiyalı yola qədəm qoymağa can atır. İlk uğurlu addımlar atılmışdır. Şərqi Avropa ölkələrinin ardınca Pribaltika respublikaları istiqlala qovuşurlar. Bəs yerdə qalan respublikaların, xalqların taleyi necə olacaq? Bizi nə gözləyir?

Son günlər mərkəzdən eşidilən əsas şüarlar içərisində diqqətimi cəlb edən «İttifaq öldü, yaşasın ittifaq!» şüarıdır. Məlumdur ki, Avropada yaranan bu şüar «Kral öldü, yaşasın kral!» kəlamının yeni variantda təkrarıdır. Bəs yerlərdən verilən tələblər necədir? Əlbəttə, birinci növbədə respublikaların tam istiqlaliyyət və suverenliyi şüarıdır. Lakin buna necə nail olmaq məsələsi qarşıda durur.

Mərkəzi mətbuat orqanlarında ittifaqın gələcək taleyi ilə əlaqədar müxtəlif təkliflər, düşüncələr mövcuddur. Məsələn, sentyabrın 7-də «İzvestiya» qəzetində bununla əlaqədar tanınmış siyasi icmalçıların şərhləri verilmişdir. Bu şərhlərin başlıqları belədir: «Faciəli kommunizm eksperimenti», «Dövlət dağıldı, amma ölkə qalıb, o, necə yaşamalıdır?», «Dünyada yeni mövqe»... Bu yazıları oxuyarkən məndə narahatlıq doğuran S. Kondraşovun belə bir mülahizəsi oldu ki, guya üç Pribaltika respublikası istisna olmaqla keçmiş ittifaqa daxil olan respublikaların heç birinin «tarixən müstəqil dövlətçilik təcrübəsi yoxdur. Ona görə də həmin respublikalar öz milli ənənələri, demokratiya və bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq özlərinin dövlət tərkibində dövlət konsepsiyalarını işləyib hazırlamalıdırlar. Belə çıxır ki, bədnam «xalqlar həbsxanası» ittifaqına

daxil olan digər respublikalar «müstəqil dövlətçilik təcrübəsinə» malik olana qədər ittifaqda qalmağa məcburdurlar.

İndi gəlin tarixə nəzər salaq. Məlumdur ki, Estoniya 1721-ci ildə, Litva və Latviya 1795-ci ildə Rusiya imperiyasının tərkibinə daxil ediliblər. Bu vəziyyət 1918-ci ilə qədər davam edib. Çar mütləqiyyəti devrildikdən, bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra, 1918-1919-cu illərdə Latviya, Litva və Estoniya öz dövlət müstəqilliklərini bərpa ediblər, yaradıblar.

Hitler Almaniyası ilə sövdələşmə əsasında Pribaltika 1940-cı ildə sovet qoşunları tərəfindən işğal edildi. 1940-cı ilin avqustun 3-də Litva, avqustun 5-də Latviya, avqustun 6-da Estoniya SSRİ-nin tərkibinə daxil edildilər.

İndi görək, həmin dövrlərdə Azərbaycanın tarixi necə olub. Bildiyimiz kimi, Azərbaycan, daha doğrusu, Şimali Azərbaycan 1828-ci ildə zorla Rusiya imperiyasının tərkibinə salındı. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Bundan əvvəllər isə azərbaycanlıların yeddi müstəqil dövləti olub. Məhz tarixən müstəqil dövlət quruculuğu təcrübəsi olduğuna görə Azərbaycan xalqı öz müstəqillik və suveren dövlətini yaratmışdı. 23 ay ömür sürən, müvəffəqiyyətlə fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində XI ordu tərəfindən devrildi. Azərbaycan işğal olundu. Bu da tarixi həqiqətdir.

İndi S. Kondraşovdan və onun tərəfdarlarından soruşmaq lazımdır ki, hansı əsasla onlar bizi tarixən müstəqil dövlətçilik təcrübəsi olmayan xalqlar sırasına daxil edirlər? Bunun səbəblərı çoxdur. Əsas səbəb budur ki, mərkəzdə, hakimiyyət başında duranlar, mərkəzin siyasətini formalaşdırmaqda iştirak edənlər yenə də imperiya təfəkküründən, düşüncəsindən əl çəkmək istəmirlər. Nəyin bahasına olursa-olsun böyük dövlət statusunu, imperiya statusunu saxlamağa can atırlar. «İttifaq öldü, yaşasın ittifaq» şüarının mahiyyəti budur. Bu təfəkkür sahibləri keçmiş ittifaqa daxil olan xalqların tarixini, mədəniyyətini, inam və inancını, adət və ənənələrini bilmirlər. Necə ki, rus diplomatiyası Şərqi, xüsusilə İslam aləmini dərk etmək qabiliyyətində olmayıb. Bunu rus alimlərinin özləri də etiraf edirlər.

Mərkəzdə mövcud olan imperiya təfəkküründün kökləri çox dərindir. Yüz yetmiş ildən artıqdır ki, Rusiya ictimaiyyəti və beynəlxalq ictimaiyyət qarşısında bizi az qala vəhşi, kölə xalq kimi qələmə verməyə çalışmışlar. 1906-cı ildə Rusiyanın ilk parlamentinin - I Dövlət Dumasının tribunasından Gəncə millət vəkili İsmayıl xan Ziyadxanov deyirdi: «Zaqafqaziya torpaqları yüz il bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir. Bu yüz il içində biz müsəlmanlar həmişə əsir müamiləsi görmüş və bu sifətlə hər təqibata məruz qalaraq hər cür haqq və hüquqdan faydalanmaz kölə vəziyyətinə endirilmişik». Bu nitqin söyləndiyi 1906-cı ildə Rusiyanın Dövlət şurası öz adət və ənənələrindən, dil və inamlarından dönmədiklərinə görə müsəlmanların imperiyanın ikinci növ vətəndaşları hesab etmək haqqında qərar çıxarmışdı.

70 ildir bizə təlqin etməyə çalışırlar ki, biz müstəqil yaşamağa, nəinki hazır deyilik, hətta buna qabil də deyilik. Bu təfəkkür tərzi bizim manqurtlarımız arasında da mövcuddur. Azərbaycan Xalq Cümhuriyyətini, onun dövlət qurumunu bərpa edənlər bu sahədə də bizə çox zəngin irs qoyub getmişlər. Məhəmməd Əmin Rəsulzadə 1919-cu ildə cümhuriyyətin bir illiyi münasibətilə söylədiyi nitqində demişdir: «Cəmaət istiqlala o qədər munis olmuş, hürriyyət və istiqlal fikri o qədər xalqın qanına sinmiş, ruhuna işləmişdir ki, indi artıq istiqlal fikri bir firqənin, bir kütlənin arzusu deyil, bütün cəmaət Vətəni istiqlalsız və dövləti hürriyyətsiz təsəvvür etməyir».

Bu həqiqəti mərkəzin özünü demokrat adlandıran siyasətçiləri nə qədər tez başa düşsələr, bir o qədər yaxşı olar. İndi köhnə bayatıları yeni avazla oxumaq vaxtı deyil.

«Bərəkət» qəz. 18 sentyabr 1991-ci il

SAĞLAM BİRLİKDƏN QÜVVƏT DOĞAR

Azərbaycan dost və düşmənini yaxşı tanımalıdır

Azərbaycanın taleyi təkcə biz şimallıları deyil, cənublu qardaşlarımızı, xaricdə yaşayan soydaşlarımızı da artıq dərəcədə məşğul edir. Son vaxtlar Azərbaycan mühacirəti hiss ediləcək dərəcədə oyanmış, hərəkətə gəlmişdir. Vətəndə baş verən hadisələri onlar da diqqətlə izləyirlər. İmkan daxilində hər biri vətənlə öz həmrəyliyini, vətənə məhəbbətini müxtəlif formalara və şəkillərdə izhar etməyə can atır. Bu da təbiidir. Vətən məhəbbəti, vətəndaşlıq hissi, Vətənin taleyi üçün daim həyəcan və narahatlıq keçirmək ilahi hissdir, müqəddəs borcdur.

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi haqqında avqust bəyanatı, mən deyərdim ki, bizdən daha çox xaricdəki soydaşlarımızı həyəcana və riqqətə gətirmişdir. Çox təəssüf ki, bizim kütləvi informasiya vasitələri bu ruhu, bu həyəcanı, bu təəssübkeşliyi respublikamızın sakinlərinə geniş və dolğun şəkildə göstərə bilmirlər. Halbuki buna böyük ehtiyac var. Burada obyektiv və subyektiv səbəblər mövcuddur. Biz dövlət müstəqilliyimizin bərpası haqqında bəyanat versək də, bu hələlik bəyanat olaraq qalır.

Azərbaycanın Xarici İşlər Nazirliyi, «Azərinform» və respublika qəzetləri xaricin Azərbaycan haqqındakı fikir və mülahizələrini haradan əxz etsinlər? Əlbəttə, gileylənmək asandır. Lakin bir şeyi nəzərə almaq lazımdır ki, hələlik respublikamızın Xarici İşlər Nazirliyinin adı, darısqal binası və bir də ki, 15-20 nəfər işçisi vardır. Vəssalam. Axı, müstəqil ölkənin, dövlətin, xaricdə səfirlikləri, nümayəndəlikləri olmalıdır. Müstəqil ölkədən kütləvi informasiya vasitələrinin xaricdə müxbirləri olmalıdır. Bunlar isə yoxdur. Ümidimiz erməni informasiya mafiyasının güclü təsiri altında olan mərkəzə, az-çox xaricdən gəlib-çıxan mətbuat orqanlarına, xarici radioverilişlərinə və səslərinədir. Bu materialları da yığıb cəmləşdirən, ümumiləşdirən və

mətbuat orqanlarına təqdim edən xüsusi bir idarə, xüsusi bir yer ya yoxdur, ya da ki, işi görünmür.

Xarici mətbuat səhifələrində soydaşlarımızın ibrətamiz, xeyirli, bizi düşündürəcək yazılarına, təklif və mülahizələrinə rast gəlmək olur. Biz öz qınımıza çəkilə bilmərik. Onları diqqətlə oxumalı, öyrənməli, nəzərə almalıyıq. Məsələn, bir nümunə. Türkiyədə nəşr olunan «Zaman» qəzetində Azərbaycan istiqlalına dair xüsusi nömrə buraxılmışdır. Yazıların başlıqlarına diqqət edin: «Müstəqil Azərbaycan cümhuriyyəti», «Azərbaycan üçün şükür namazı», «Türk dünyasının gülləri açır», «Yeni bir dünyaya doğru», «Azərbaycan və türk ellərinə dost məktubu», «15 azəri cocuğu İstanbula gəldi», «Azərbaycan dost və düşmənini yaxşı tanımalıdır» və s. Mən diqqətinizi bu sonuncu yazıya cəlb etmək istəyirəm.

Süleyman Unalın qələmə aldığı bu yazıda mühacirətdə olan iki ağsaqqalımızdan - qarabağlı Həsən İsmaillidən və xızılı Nuru İsmaillidən söhbət gedir. 49 il bundan əvvəl vətəndən ayrı düşmüş bu iki ziyalı ağsaqqal məlum olur ki, hər gün, hər saat öz vətənlərinin gələcək taleyi ilə nəfəs alır, yaşayır. Onlar 1949-cu ildə Azərbaycan istiqlalının atası Məhəmməd Əmin Rəsulzadə ilə görüşmüşlər. İndi də xalqımızın bu böyük siyasət və dövlət adamının nəsihətini yadda saxlayırlar. M.Ə.Rəsulzadə Həsənə və Nuruya demişdi: «Sağlam birlikdən qüvvət doğar. Bunu həmişə yadda saxlayın».

Bu gün hər yerdə Azərbaycan xalqının birliyindən söhbət açanlar «sağlam birlik» kəlamına diqqət yetirməlidirlər. Bizi xilas edə biləcək yeganə yol, çarə məhz Məhəmməd Əminin dediyi «sağlam birlik» ola bilər.

Qəzetdə Azərbaycanın həqiqi müstəqilliyi uğrunda mübarizə aparanlara 79 yaşlı Həsən İsmaillinin və 68 yaşlı Nuru İsmaillinin məsləhəti, tövsiyəsi dərc edilmişdir. Mən istəyirəm ki, bunlarla bütün oxucular tanış olsunlar. Tövsiyələr belədir:

«1. Çox diqqətli hərəkət edərək düşmənə bir daha fürsət verməməli, görülən işləri Məhəmməd Əmin Rəsulzadənin qurduğu müstəqil Azərbaycan hərəkatının əsaslarına uyğun olaraq elan

etməli.

2. Düşməni və dostu tanımalı, görülən işlər və mitinqlər məqsədəuyğun keçirilməli, hərəkətlərin müstəqil Azərbaycan hökuməti proqramının demokratik prinsipləri əsasında olmasına çalışmalı.

3. Keçmiş Azərbaycan hərəkatı 1920 sənəsində böyük dövlətlər: Amerika, Almaniya, Fransa dövlətləri tərəfindən tanınmışdır. Bu, dünyaya elan edilməlidir.

4. Başda Türkiyə olmaq üzrə qardaş İslam ölkələrinin ilk növbədə Azərbaycan hökumətini tanımasına nail olmağa çalışmaq gərəkdir.

5. Bir daha xəta işlətməmək üçün hüquqçulardan, professorlardan bir komissiya təşkil edərək beləcə yeni hərəkatın keyfiyyətini və proqramını tərəfdarlara və müxaliflərə geniş şəkildə izah etməli.

6. Qonşu dövlətlərlə yaxşı münasibətlər saxlanılacağı və birbirinin daxili işlərinə qarışmamaq prinsiplərinə əməl ediləcəyi onlara anladılmalıdır.

7. Rusiya, xüsusən Azərbaycan hələ kommunist təsirindən qurtarmamışdır. Çox çevik və mədəni bir şəkildə izah edilərək kommunizmin artıq çökdüyü və heç bir faydasının olmadığı bəllidir. İndi dünya hürriyyət və demokratiya əsasları üzərində qurulmaqdadır. Ona görə Azərbaycan da bu əsaslar üzərində qurulmalıdır».

Məncə ağıllı, ölçülüb-biçilmiş, düşünülmüş təkliflərdir. Müzakirə edilə bilər. Hansı məsələdəsə düzəlişlər olunar. Əlbəttə, mən bunu oxuculara təqdim etməkdə o fikirdə deyiləm ki, hər şeyi olduğu kimi, qəbul etmək lazımdır. Lakin ağıllı ağsaqqal məsləhətidir. Onlara min təşəkkür etməliyik. Bizim hamımız xaricdə dünyanın gərdişini izləyən, nəticə çıxarmağı bacaran, Vətən məhəbbəti hissi ilə yaşayan el oğullarımızın səsinə və nəsihətinə qulaq asmağa borcluyuq. O ki, qaldı Azərbaycan öz dost və düşmənini necə tanımalıdır, bu barədə gələn şərhlərimizdə.

«Bərəkət» qəz. 17 sentyabr 1991

MİLLİ MÜQƏDDƏSİMİZ

...Hər il sentyabrın 18-də əqidə və məsləkdaşlarım Bəxtiyar Vahabzadə, Nurəddin Rzayev, Mahmud İsmayılov və Süleyman Əlyarovla Ü.Hacıbəyovun məzarını ziyarət edirik.

Üzeyir bəy öz kökü, idealları, ruhu, mənəviyyatı, fədakarlığı və bənzərsiz istedadı ilə xalqına təmənnasız xidmət göstərən, Azərbaycanı yer üzünə tanıdan, ilahi sənəti ilə ölməzlik qazanan tarixi şəxsiyyətdir.

Hər dəfə onun məzarını ziyarət edərkən, düşünürəm ki, niyə Üzeyir bəyi xalqımızın milli müqəddəsi elan etməyək, onun məzarını ümummilli ziyarətgaha çevirməyək? Axı, hər xalqın vahid allahı və peyğəmbəri olduğu kimi, öz milli müqəddəsləri də var.

...Müqəddəslərimizin, ulularımızın ömür yolu torpaq və vətən hissi aşılamaqda iman və inam tərbiyəsində çox vacib və lazımdır. Bəs kimləri müqəddəs sayaq, onları neçə seçək? Bəlkə bunun üçün vicdanı və əxlaqı, milli ruhu və təmiz mənəviyyatı olanlardan münsiflər heyəti yaradaq, ümumxalq rəy sorğusu keçirək? Əlbəttə, nəzərdə tutduğumuz münsiflər heyəti keçmişdə fəxri adlar və mükafatlar paylayan komitə və komissiyalara bənzəməməlidir.

Ürəyimdən keçir ki, nə ola XX əsr Azərbaycan müqəddəsləri siyahısına birinci növbədə Həsən bəy Zərdabinin, Üzeyir bəy Hacıbəyovun və Məhəmməd Əmin Rəsulzadənin adları yazılsın. Nə üçün? Nə əsasla? Əlbəttə, bunu geniş şərh etməyə kiçicik yazıda imkan yoxdur.

Bu bir həqiqətdir ki, nə qədər Azərbaycan xalqı, Azərbaycan torpağı, Azərbaycan ruhu mövcuddursa, onlar sağdırlar. Hər şeydən əvvəl, biz məhz müqəddəslərin və onlarla həmfikir olanların əzm, qətiyyət, rəşadət və imana sədaqətləri sayəsində mövcuduq. Məhz Vətəni ilahicəsinə sevən böyük ağıl və ietedad sahibləri müqəddəs elan oluna bilər. Məncə müqəddəslərə şəhərin ən görkəmli yerində ayrıca sərdabə tikilməlidir.

...Üzeyir bəy sənəti ilahi sənətdir, allah vergisidir, tarixin və taleyin bizə böyük töhfəsidir. Müqəddəslik onun həm sənətində, həm də heç vaxt unudulmayan çöhrəsindədir.

Bu əziz gündə ona rəhmət oxuyur, «Məzarın nurla dolsun, ey müqəddəsimiz!» - deyirik!

«Mədəniyyət» qəz. 19 sentyabr 1991

AMERİKAYA, YOXSA TÜRKİYƏYƏ ÇATMAQ

Srağa gün Mərkəzi televiziyanın tanınmış diktoru və aparıcısı A. Tixomirov «Zaman» xəbərlər proqramını açdı və necə deyərlər, giriş nitqi irad elədi. Ölkənin düşdüyü böhranı və iflic vəziyyətini qısaca təsvir etdikdən sonra dedi ki, əgər biz əvvəllər Amerika Birləşmiş Ştatlarına çatmaq və onu ötmək şüarını irəli sürmüşdüksə və bu şüardan bir şey çıxmamışdısa, indi vəziyyət dəyişmişdir, məcburuq ki, bu dəfə Türkiyəyə çatmaq və onu ötmək şüarı ilə çıxış edək.

Tixomirov bu fikri deyərkən mən onun çöhrəsində bir kinayə, alçalmaq hissi duydum. Amma insafən RSFSR Ali Sovetinin deputatı, tanınmış aparıcı tez özünü düzəltdi, ciddiləşdi və dedi ki, biz həqiqətən yaşayış səviyyəsinə görə Türkiyəyə çatmalı və onu ötməliyik.

Vaxtilə böyük Azərbaycan mütəfəkkiri Əhməd bəy Ağayev yazırdı ki, tarix bir hökmü-ilahidir, müqəddəratdır. Doğrudan da belədir. Kim deyə bilərdi ki, dünyanın ən qüdrətli iki ölkəsindən biri olan mərhum Sovetlər birliyi bu günə düşəcək?! Bəyənmədiyi, həmişə ünvanına tənqid və bəzən təhqir dediyi Türkiyə indi onun üçün nümunə olacaq, onun ardınca getmək xülyasına düşəcək. Fikirləşirsən, eşitdiklərinə, gördüklərinə inanmaq istəmirsən.

Dünyanın altıda birinə, Türkiyə ərazisindən 28 dəfə böyük əraziyə sahib olan, təbii sərvətləri, elmi potensialı işlək adamları olan bir ölkə nə üçün bu vəziyyətə düşsün?! O ki, qaldı Türkiyəyə, doğrudan da son on ildə bu qonşu ölkənin iqtisadi, elmi-texniki tərəqqisi, iqtisadi inkişafın «türk möcüzəsi» inkaredilməzdir. Hazırda Türkiyə Cümhuriyyəti özünün altmış milyona yaxın əhalisini bütün kənd təsərrüfatı məhsulları ilə təmin edən dünyanın yeddi ölkəsindən biridir. İqtisadçılarımız mərkəzdə belə bir fikir irəli sürürlər ki, bizim üçün ən yaxşı iqtisadi model türk modelidir. Bu, Azərbaycan üçün də nümunə ola bilər və olmalıdır.

Gözü millətçilik və irqçilik hissi ilə örtülmüş, xalqımızın və millətimizin ən qəddar düşməni Zori Balayan «Ocaq» əsərində həyasızcasına yazır ki, türklər yalnız dağıtmağa, öldürməyə, çapmağa qadirdirlər. Onların qurmaq istədadı guya yoxdur. Təsəvvür edirəm ki, Z.Balayan A.Tixomirovun bütün ölkə qarşısında «Zaman» xəbərlər proqramı vasitəsilə dediklərini necə qarşılamışdır!

Bəşəriyyətin öz obyektiv inkişaf qanunları var. Tarix bu qanunlarla yaranır. Zor gücünə ölkəni təbii inkişaf məcrasından çıxarmaq asandır. Lakin onu bu məcraya qaytarmaq, dünya sivilizasiya ölkələri sırasına daxil etmək nə qədər çətin imiş...

«Bərəkət» qəz. 21 sentyabr 1991

NİYƏ «MÜBARİZƏSİZ» VƏ «DÜŞMƏNSİZ» KEÇİNMƏK OLMUR

Bir əsrə yaxındır ki, Rusiya xalqlarının leksikonuna radikal inqilabçılar tərəfindən «mübarizə» sözü daxil edilmişdir. Partiya yaratmaq, mütləqiyyəti devirmək, varlıları məhv etmək, dünyanı azadlığa çıxarmaq, yer üzərində «cənnət» qurmaq və s. Nələr, nələr uğrunda mübarizə. Hər yanda mübarizə, hər şeydən mübarizə. Görəsən nə qədər mübarizə olar? Bu mübarizələr bizi hara gətirib çıxarıb?

Mübarizə düşmən tələb edir, rəqib tələb edir. Mənə elə gəlirdi ki, son illərin hadisələri bizi bu xəstəlikdən qurtara biləcək. Lakin, görünür, nə qədər ki, mübarizə aparmaq stereotipi, ideologiyası canımıza, qanımıza hopmuşdur, mübarizə hələ çox davam edəcək.

Bu günlərdə SSRİ müdafiə naziri aviasiya marşalı Y. İ. Şaposnikovun Mərkəzi televiziyada jurnalistlərlə görüşünə baxdım. Müdafiə nazirimiz hərbi formada deyil, mülki geyimdə ekrana çıxmışdı. Çox suallar verildi, cavablar alındı. Mənim diq-

qətimi «İzvestiya» qəzeti müxbirinin nazirə verdiyi sual cəlb etdi. O, nazirdən soruşdu ki, indi bizim düşmənimiz varmı? Varsa hansı səmtdədir?

Nazir bir an duruxdu, fikirləşdi, sonra üzünü müxbirə çevirib soruşdu: - Siz necə düşünürsünüz? Hansı səmtdədir?

Müxbir cavab verdi ki, cənubdadır.

Coğrafiyanı az-çox bilsəm də xəritəni qabağıma qoydum. Başladım cənub qonşularımızı gözdən keçirməyə. İran, Türkiyə, Əfqanıstan... Öz-özümə düşündüm, görünür, Rusiyada düşmənsiz keçinə bilmirlər. Düşmən olmasa da onu göydən belə olsa axtarıb tapmaq lazım imiş.

Tarix də göstərir ki, hansı xalq, hansı ölkə imperiya ambisiyası ilə, şovinizm ideologiyası ilə yaşayırsa düşmənsiz keçinə bilmir. Ona xalqı sakitləşdirmək, zorla işlətmək, qazandığını əlindən almaq üçün düşmən obrazı lazımdır. Çünki düşməni olan xalq hər cür əzab və əziyyətə dözür, təki düşmənə qalib kəlsin.

Çox xatalı təfəkkür tərzidir. Düşmən obrazı yarada-yarada ölkənin iqtisadiyyatını hərbi sənaye kompleksinə qurban vermişik. Ölkənin ən savadlı, ən qabiliyyətli elmi-texniki qüvvələri hərbi sənaye kompleksinə işə cəlb edilmişdir. Onların isə sayı nə az-nə çox, on üç milyon nəfərdir.

Görəsən biz mübarizəsiz və düşmənsiz keçinə biləcəyikmi?

«Bərəkət» qəz. 21 sentyabr 1991

AYILMAQ, İŞ GÖRMƏK VAXTI DEYİLMİ?

Respublikamız, xalqımız çox həyəcanlı, narahat günlər keçirir. Torpağımız və varlığımız təhlükə altındadır. Belə bir böhranlı, ölüm-dirim çarpışması çağında vətənin və xalqın bütün mənəvi və maddi imkanlarını vahid bir cəbhədə birləşdirmək tarixi zərurətə çevrilir.

Hər bir şəxs kimi xalq da bərkə düşəndə əcdadlarını, ata-babalarını yada salır, onlarla sanki məsləhətləşir, bəzən də keçmişə etinasızlığın acı nəticələrini araşdırır.

Kamil xalq bu cür hərəkət edir. Böyük Vətən müharibəsini yada salaq. Rus tarixinin bütün görkəmli sərkərdələri və dövlət adamları «ayağa qaldırılmışdı». Çünki millətin kim olduğunu, nəyə qadir olduğunu nümayiş və dərk etdirmək üçün bu, çox vacib və lazım idi. Yaxşı deyiblər ki, öz tarixi keçmişi ilə vərəsəlik əlaqəsi yarada bilməyən, deməli, arxasında mənəvi boşluq olan xadqın başı dumanlı, qüvvələri pərakəndə, gələcəyi qaranlıq olar. Mən indi başa düşürəm ki, nə üçün bizi əsir-yesir edənlər keçmişin qapılarını üzümüzə bərk-bərk bağlamışdılar, əsl mənəvi sərvətlərimizdən, qeyrət və rəşadət mənbəyimizdən faydalanmaqdan məhrum etmişdilər.

İndi azərbaycanlı öz doğma Qarabağına, Xankəndinə getməyə çətinlik çəkir, silahlı müqavimətə rast gəlir. Bir sözlə, bizi ermənilər yaşayan torpaqlarımıza buraxmaq istəmirlər. Bu vəziyyət, yenidirmi, yoxsa belə və buna oxşar hadisələr çox olub? Ata-babalarımız bunları görüblərmi, bizə xəbərdarlıq ediblərmi? Mən bu barədə çox düşünmüşəm.

Bu yaxınlarda «Tərəqqi» qəzetinin 1909-cu il iyun nömrələrini vərəqləyirdim. Xalqımızın böyük və qeyrətli oğlu Məhəmməd Əmin Rəsulzadənin Təbrizdən göndərdiyi «Qəribə bir boykot» adlı məktuba rast gəldim. Diqqətlə oxudum. Gördüm ki, «ermənilərin vəhşi millətçiliyini, rəzil fanatizmini ifşa etmək baxımından çox ibrətamiz yazıdır. Həm də bu hadisə vətənimizin cənubunda - Təbrizdə baş verdiyi üçün təəccüb və marağım da-

ha da artdı. Düşünürəm: görəsən, indidəmi ermənilər təkcə Azərbaycanda deyil, İranda və Təbrizdə də bu cür meydan oxuyurlar? Qısa ixtisar və cüzi lüğəti tərcümələrlə məktubu oxuculara təqdim edirəm.

QƏRİBƏ BİR BOYKOT

...İran qəribə bir təzad və dərəbəylik ölkəsi olduğundan, qanun-qaidəsi yox, zülm və ədaləti bəyənilməz bir dövlət olduğundan, nədən isə ermənilər İranda kəmali-istirahət və azadlıqla yaşamışlar.

İran istibdadından bunlar zərrəcə bir zərər görməmiş, kəmali-rəfahətlə dolanmışlar.

İran xanlarının, ərbablarının sahibi-zülm və qəddarlıqlarının hər nə qədər kobudluqları, vəhşilik və yırtıcılıqları varsa, hamısı həmin müsəlman əhalisinin başında oynadılmış, ermənilər isə bu bəlalardan daima toxunulmaz qalmış, müsəlmanlara nisbətən artıq bir imtiyaz ilə dolanmışlar.

İştə bu imtiyaz sayəsində olaraq rəfahət və səadətlərini hazırlayıb, hər yerdə cəmiyyətlərini mədəni etməyə çalışmışlar.

Böylə ki, bu gün Təbrizdə hər kəs erməni cəmiyyətini görər... Bu gün baxıram ki, erməni dilində elanmalər nəşr olunur. Birini alıram, oxutdururam. Tərcümə edirlər ki, erməni bağında erməni şagirdlərin cəmiyyətləri nəfinə ümumi gəzinti olacaqdır.

Maraqlanıram, gedirəm İran ermənilərinin mədəniyyətlərinə tamaşa edim...

Bir-iki nəfər iranlı cavanlarına, əhli-maarifinə təklif edirəm ki, bu gün erməni bağında seyri-ümumi vardır, gedəlim seyr edəlim.

Onlar mənə deyirlər ki, məzurdurlar (üzürlüdürlər), gedə bilməzlər. Zira müsəlmanları bu bağa qoymazlar.

Mən inanmıram. Zira, necə olur belə bir fikir olsun. Ermənilərin İran müsəlmanlarından nifrət etməyə heç haqq və ixtiyarları yoxdur.

Necə olur belə bir fikir olsun ki, ermənilər daima İranda məhəbbətlə yaşayaraq gəlmiş, bunları burada kimsə incitməmiş, tam İran xanların, ərbabların, qism-qism zalımların zülm və qəddarlıqlarına, qədr və cəbrlərinə məzhər olub qaldıqları bir vaxtda, ermənilərə kimsə bir təcavüz etməyib, bunlar məsud yaşamış, öz güzəranlarında olmuşlar. Həyati-ümumiyyətləri fikrində olub, nisbətən bütün hürriyyətləri ilə mənfəətbərdar olub, iqtisadi cəhətdən dəxi xoş rüzgarlıqda olmuş, dolanmışlar.

Necə böylə bir şey olur ki, haman bu ermənilər, bugünkü gündə müsəlmanlar ilə əl-ələ, yan-yana olaraq hürriyyət uğrunda, vətən üstündə can verir, fəda olurlar... Necə olur ki, mehriban İranda belədə bir mehribansızlıqlarda bulunsunlar. Böylə bir şey olamaz. Yəqin bu, bir münaqişədir, şəxsən təhqiq etmək lazımdır.

Gedirəm, bilet alıb bağa daxil oluram. Kimsə bir söz demir. Tanış ermənilərə rast gəlirəm. Zarafatyana deyirəm, təəccüb edirəm ki, məni daxil olmağa qoydular. Xəcalət çəkərək, məhbubanə gülümsəyirlər...

Bir neçə vaxtdan sonra rəfiqim «Russkoye slovo» müxbiri və o cənabın möhtərəm xanımı ilə bərabər erməni bağının qabağından keçirik. Atəşimizi yatırmaq üzrə bağa daxil oluruq ki, bir qədər mədən suyu içək. Gedirik balkonda bufet qabağında oturub su istəyirik. Su verirlər. Rəfiqim nədən ötrü isə durub bufetə gedir. Mən ilə hörmətli xanım qalırıq. Söhbət edir, ermənilərin hümmətli, mədəniyyətli bir millət olub, hər yerdə məhəbbət və həmiyyət ilə dolanmaqlarına, bərbad İran içində böylə abad bir bucaq rahlayıb rahatca dolanmalarına dair fikir mübadiləsi edirik.

Bu vaxt bir nəfər cavan erməni mənim yanıma gəlib, iki dəqiqəliyə xahiş edirlər ki, bir mühüm söz deyəcəkdir.

Durub bunun ardınca gedirəm. Məni bir tərəfə cəmaətdən kənar bir ağacın dibinə çəkib guya utana-utana bəyanı-fikr və üzr istəməyə başlayıb rusca deyir:

«Mən artıq dərəcə bir heyf edirəm ki, komisyonda rusca da-

nışa bilən fəqət mən olduğumdan böylə bir təklif icra etmək mənim öhdəmə düşüb. Məcburən sizə bəyan etməliyəm ki, müsəlmanların bu bağa gəlməyə ixtiyarları yoxdur. Təvəqqe edirəm ki, məni əfv buyurasınız».

Müsəlmanı bağdan çıxartmaq üçün həmin türkcə danışmaq bilən ermənilər rusca danışmağı biləni axtarmağa nə ehtiyac var idi, bilmirəm. Bəlkə belə vaxtlarda rusca danışmaq dəxi vəhşiyanə məramnamələrin bir fəsli-mühümmüdür?

- Bu vəhşilik, bədəvilikdir, - deyə etiraz edib belə bir cəmiyyətə də, bağa da tüpürürəm..

Mən əhvalı yoldaşlarıma hala edincə, onlar da düpürüb etirazgarcasına bir surətdə bağı tərk etdik. Və əslində erməni məktəbinin müəllimi olan yuxarıda deyilən məmur əfəndiyə dəxi bir neçə acı danlaqda bulunub bağdan çıxdıq. Amma insanların bu dərəcə vəhşi millətçiliyə, rəzil fanatizmə, əclaf köləliyə, duz-çörəyə alcaqcasına haram qatdıqlarına heyf etdik.

İnsanın hamıdan çox əziz bəslədiyi bir övladı tərəfindən təhqir və təkdir olunan qədim bir məmləkətə həm nifrəti, həm də heyfi gəlirdi.

Biçarə İran!

Millətçilik! İnsan - insanlar əvəzində utanır, xəcalət çəkir!

Belə bir qayda xüsusunda bundan artıq tənqiddə bulub, belə bir rəftardan nə kimi şeylər törənə biləcəyini ədavət saxlayan mədəni oxucuların, ələlxüsus, internasional ermənilərin nəzərdiqqətlərinə həvalə edirəm. Özüm isə belə bir təəccüblü boykotçuluğu qəribə bir vəhşilik hesab etməkdən başqa bir şey bilmirəm!!!

Millətçiliyin bu dərəcəsinə çıxmaq, haman o milləti bərbad etməkdir!

M. Əmin

«Tərəqqi», 29 iyun 1909. Təbriz

«Bərəkət» qəz. 24 sentyabr 1991

BƏDBƏXTLİYƏ NİYƏ ORTAQ OLMALIYIQ?

İstirahət günü axşam Mərkəzi televiziyanın beynəlxalq panoram verilişinin aparıcısı, məşhur siyasi icmalçı Tomas Kolesniçenko çıxışının bir yerində Şərqi Avropanın keçmiş sosializm ölkələrinin və sonra da müttəfiq respublikalarımızı nəzərdə tutaraq «qardaş ölkələr» ifadəsini işlətdi. Sonra üzr istəyirmiş kimi, bu ifadəni «bədbəxtliyə ortaq qardaşlar, ölkələr» kimi dəqiqləşdirdi. Bunu şüurlumu etdi, yoxsa fəhmləmi dedi, bilmirəm. Amma tarixi həqiqəti düzgün ifadə etdiyinə şübhə yoxdur. Biz doğrudan da bədbəxtliyə ortaq olmuşuq. İndi fikirləşirsən ki, nə üçün xoşbəxtliyə yox, elə gərək bədbəxtliyə ortaq olaydıq?

Vaxtilə xalqımızın uzaqgörən kişiləri bu təhlükəni görmüşdülər. İndi məlum olur ki, nə üçün Cavad xan Gəncəni təslim etməmək üçün hər şeyi, hətta, canını qurban verməyə hazır idi. Sonralar böyük ağsaqqalımız Həsən bəy Zərdabi bu əziyyəti nəzərdə tutaraq yazırdı: «Satınalma qulu azad etməyi savab edəedə biz... özümüz qul odmuşuq».

Bu həqiqəti Rusiyanın həqiqi vətənpərvərləri də vaxtında görürdülər, öz sözlərini deyirdilər. Böyük şair Alekrandr Blok Rusiyada iki inqilabın dəhşətlərini nəzərdə tutur və yazırdı: «Rusiyanı allah ona görə yaratmışdır ki, dünya xalqları, ölkələri necə yaşamaq lazım gəlmədiyini baxıb görsünlər». Bundan artıq nə deyəsən? Ürək ağrısıyla dediyi bu sözlərlə A.Blok Avropa libası geyinib, həqiqətdə yarımfeodal hərbi Şərq despotizmini, təkcə rusları deyil, həmçinin əsarət altına alınmış xalqları da bədbəxtliyə düçar edən imperiyanı ifşa etmirdimi?

Görəsən Azərbaycan torpağında təhkimçilik və köləlik rejimi yaradılmasını, onun «xalqlar həbsxanasına» daxil edilməsini az qala böyük səadət, xilas və xoşbəxtlik sayanların bu kəlamlardan xəbəri varmı?

Yeri gəlmişkən RSFSR prezidenti B.Yeltsin də bu günlərdə belə bir maraqlı fikir söyləmişdir ki, kommunizm eksperimenti

gərək Rusiya kimi böyük bir ölkədə deyil, kiçik bir ölkədə sınaqdan çıxarılaydı. Onda faciənin dairəsi də, nəticələri də bütün bəşəriyyət üçün bu qədər əhatəli, bu qədər ağır olmazdı.

Təəssüf ediləsi budur ki, bu acı həqiqətləri bizim respublikada başa düşməyənlər və ya düşmək istəməyənlər hələ də çoxdur. İnzibati-amirlik sistemindən, kəndlə kolxoz-sovxoz təhkimçilik üsuli-idarəsindən bərk-bərk yapışanları nəzərdə tuturam.

Oxuculara xatırladım ki, xalqımızın əsr yarımdan artıq bir müddətdə düşdüyü əsirlik vəziyyətinə ürəyi yananlarımız az olmayıb. Mən məşhur hüquqşünas, görkəmli ictimai-siyasi xadim Əlimərdan bəy Topçubaşovun 1919-cu il yanvarın 6-da Rusiyanın siyasi xadimi S. D. Sazonovla söhbətində dediyi aşağıdakı sözləri nəzərə çatdırmaq istəyirəm. Əlimərdan bəy demişdi: «Allahın bizdən anadangəlmə istedad və əməyə məhəbbət hissini əsirgəmədiyi bir vaxtda bizi geridə qalmış bir bədbəxt xalqa döndərən rusların məşum səhvi də bunda idi».

Bizi doğrudan da geridə qalmış bədbəxt xalqa çevirmək üçün çox cəhdlər edilib və indi də edilir.

Lakin indi bu dəhşətli vəziyyətə son qoymaq və xalqlar həbsxanasından can qurtara bilmək üçün tarixi şans yaranmışdır.

Vaxtilə müstəmləkəçilərə qulluq göstərən adamlar içərisində belə bir əhval-ruhiyyə gəzirdi ki, guya Azərbaycan xalqı hələ müstəqil dövlət yaratmaq, özünüidarə etmək səviyyəsinə, dərəcəsinə çatmamışdır. Üzeyir bəy Hacıbəyov bələlərinə 73 il bundan əvvəl aşağıdakı tərzdə cavab vermişdir: «Adamlar vardır ki, bizim istiqlalımızı istəmirdilər. Halbuki bizə düşmən deyil idilər. Və bu istəməməzlikləri də düşmənçilik üzündən deyil idi. Fəqət onlar qorxurdular, qorxurdular ki, biz hökumət etməyə, məmləkət dolandırmağa, dövlət saxlamağa qabil olmayıb da müxtəlif millətli təbəəmizin can və malını mühafizə edə bilməyərək, məmləkətdə asayiş bərpa edə bilməyək, nizam və qayda qoya bilməyək, siyasətdə bacarıqsızlıq göstərək».

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, onun fəaliyyəti bu inamsızlıq hissini aradan qaldırdı. Ü. Hacıbəyovun

da göstərdiyi kimi, Azərbaycan dövləti çörək ilə bərabər əminlik və asayiş də iadə (bərpa - *Ş. H.)* etməklə əhalini həm aclıq, həm də qətl və qarət bəlalarından xilas etdi.

Çox keşməkeşli dövrdə yaşayırıq. Gözümüzün önündə ikinci minilliyin ən möhtəşəm tarixi hadisələri baş verir. Xalqlar həbsxanasının bünövrəsi sarsılmış, darvazaları açılmaq üzrədir. Bizi dünyadan uzun müddət təcrid edən, bəşəri sivilizasiyadan ayıran sədlər, dəmir pərdə və tikanlı məftillər götürülməkdə, sökülməkdədir, haqqı və ədaləti görmək vərdişini itirmiş gözlərə işıq gəlir, düşünmək qabiliyyətini itirmiş beyinlər oyanır. Tarixin bağlı qapıları açılır. Qan yaddaşımızı bərpa etmək üçün real imkan yaranmışdır. Xülasə, deyəsən kökümüzə, özümüzə qayıtmaq, dirçəlmək, millətlərin birləşmiş dəstəsinə qoşulmaq imkanı artmışdır.

Adətən belə bir əsrarəngiz zamanda itib-batmamaq üçün mizan-tərəzi qurulur, götür-qoy edilir. Millətin qazandığı - itirdiyi, dostu-düşməni, maddi-mənəvi imkanları hesablanır. Gediləcək yol müəyyənləşdirilir. Bu yol həqiqi istiqlaliyyət, tam müstəqillik yoludur. Bu yol geniş demokratiya yolu, azadlıq yoludur.

Allah bizdən istedad və əməyə məhəbbət hissini, əsirgəməmişdir. İstedad deyəndə birinci növbədə öz müstəqil dövlətini yaratmaq, öz torpağında məhəbbət hissi ilə işləmək vərdişi nəzərdə tutulur. Bu azadlığı, bu torpağı qorumaq müqəddəs işdir. Gəlin bədbəxt xalq adını üzərimizdən götürək. Heç kəslə bədbəxtlik qardaşı, bədbəxtliyə ortaq olmayaq.

«Bərəkət» qəz. 1 oktyabr 1991

TORPAQ KƏNDLİNİN, BƏS MƏHSULU?..

Tarixi təcrübə göstərir ki, dünyada heç bir ölkə torpaq məsələsini demokratik yolla həll etmədən sivilizasiyalı inkişaf və tərəqqi yoluna qədəm qoya bilməz. Torpaq məsələsinin həlli sahəsində beynəlxalq miqyasda qazanılmış zəngin təcrübə bu həqiqəti təsdiq edir. Təəssüf ki, Rusiya neçə əsrlərdir ki, bu təcrübədən faydalanmaq əvəzinə torpaq məsələsini əsaslı və demokratik şəkildə həll etmək işinə girişə bilməmişdir. Keçən əsrdə II Aleksandrın, əsrin əvvəllərində Stolıpinin torpaq islahatları yarımçıq qalmış, ölkə yenidən kənddə təhkimçilik, köləlik sisteminə qayıtmışdı.

Bu proses Oktyabrdan sonrakı dövrdə də eyni xarakter aldı. Oktyabr çevrilişindən sonra bolşeviklər «Bütün torpaq kəndlilərə!» şüarını irəli sürdülər. Lakin əvvəllər avam kəndlilər düşünmədilər və soruşmadılar ki, bəs məhsul kimin olacaq? Məhz bu əsas məsələ həll edilmədi. Beləliklə, Rusiyada kənd təsərrüfatı böhran vəziyyətindən yenə də çıxa bilmədi.

Ölkədə kənd təsərrüfatının inkişafı, əhalinin ərzaq məhsulları ilə təmin edilməsi üçün lazım olan hər cür təbii şərait var. 214,9 milyon hektar əkin sahəsi mövcuddur. Dənli bitkilərin əkin sahələri 126 milyon hektara çatır. Bunlardan təxminən 19 milyon hektarı suvarılan torpaqlardır. Bəs nə üçün belə bir zəngin torpaq ehtiyatı olan ölkə hər il xaricdən 40 milyon tona yaxın taxıl almağa məcbur olur? Mən hələ başqa məhsulları demirəm. Bunun əsas səbəbi odur ki, kəndli torpaqdan uzaqlaşdırılıb. Torpaq sahibsiz qalıb. Son vaxtlara qədər hətta kolxozçulara pasport belə vermirdilər. Deməli, onlar vətəndaş sayılmırdılar. Təhkimçilik və köləlik buna deyirlər.

Respublikamızın Ali Sovetinin qarşıdakı sessiyasının gündəliyinə tövsiyə edilən məsələlər sırasında «Torpaq məcəlləsi və kəndli təsərrüfatı haqqında» qanun layihəsi də vardır. Əgər bu məcəllə və qanunu hazırlayanlar kənddə torpaq məsələsini demokratik şəkildə həll etmək, yəni torpağı kəndliyə pulsuz-parasız vermək, kəndlini istehsal etdiyi məhsulun sahibi etmək məsələsi haqqında fikirləşməsələr xənd əvvəllərdə olduğu kimi yenə acınacaqlı vəziyyətdə qalacaq.

Məlumdur ki, Azərbaycanı Rusiya istila etməmişdən əvvəl, yəni xanlıqlar dövründə burada torpaq rejimini Quranla və onun hökmlərinə uyğun olan şəriətlə müəyyən edirdilər. Bu rejim Məhəmməd peyğəmbərin məşhur «Torpaq, ancaq onu dirildəcək kimsələrə məxsusdur» hədisinə əsaslanırdı. Başqa sözlə, «torpaq onu əkənindir» deyilirdi.

Azərbaycan kəndlisi Rusiyada olduğu kimi kölə deyildi və alınıb-satılmazdı. İstədiyi vaxt işlədiyi torpağı buraxıb gedə bilərdi. Lakin Rusiya işğalından sonra bu qayda müəyyən müddət qaldısa da keçən əsrin qırxıncı illərində Azərbaycan kəndlisi də təhkimçilik boyunduruğuna salındı. Sonralar yaranan kolxoz-sovxoz quruluşu bu təhkimçiliyin yeni formasıdır. Yəni kəndli torpağın əsl sahibi deyil, orada pul ilə işləyən muzdlu fəhlədir.

Dünyanın inkişaf etmiş ölkələrinin heç birində kənddə belə bir ədalətsiz sistem yoxdur. On yeddi milyonluq əhalisi olan Avstraliyada cəmi 170 min fermer təsərrüfatı - fərdi, xüsusi, fermer təsərrüfatı vardır. Onlar nəinki ölkə əhalisini bütün kənd təsərrüfatı məhsulları ilə təchiz edir, həmçinin dünya bazarına 5 milyard dollarlıq kənd təsərrüfatı məhsulu çıxarırlar. Elə qonşumuz Türkiyənin kənd təsərrüfatı sahəsindəki böyük nailiyyətləri də deyilənləri sübut edir.

Bir şeyi də yadda saxlamaq lazımdır ki, özünü kənd təsərrüfatı məhsulları ilə, ərzaqla təmin etməyi bacarmayan ölkədə demokratiya quruluşunun qələbəsi mümkün olan şey deyil. Acılıqla demokratiya tutmur. Həqiqi demokratiya xalqın ehtiyaclarının, sosial qayğılarının ödəndiyi məmləkətdə mümkündür.

Kəndli həm torpağın, həm də onun - məhsulunun sahibi olmalıdır!

«Bərəkət» qəz. 5 oktyabr 1991

GEDİRDİLƏR VƏ YENƏ GEDİRLƏR

Bu günlərdə qəribə bir statistik məlumata rast gəldim. Son doxsan ildə Rusiyadan 13 milyon adam çıxıb gedib. Vətəni tərk etmək çox müşkül məsələdir. Bu qərara gəlmək üçün aylarla deyil, illərlə düşünmək lazımdır. Vətəni, ata-baba ocağını, valideynləri, bəzən hətta oğul və uşaqları qoyub getmək, Vətəndən didərgin düşmək ağırdır. Hələ mən əcdadlarının məzarlarını, milli irsi qoyub qaçmağın nə demək olduğundan danışmıram.

On üç milyon nəfər vətəni tərk edib. Bu rəqəmin arxasında Rusiyanın çox dəhşətli və faciəli mənzərəsi durur. Həm də yalnız yaşadığımız XX əsrdə deyil, hələ XIX əsrdə neçə-neçə duşünən başlar, namuslu, qeyrətli adamlar Rusiyadan didərgin salınmışdı. Gertseni, Bakunini yada salmaq kifayətdir.

Mühacirət dalğası indi də Rusiyanı götürüb. Yenidənqurma adlandırılan son altı ildə bir milyona yaxın adam ölkədən gedib. Hələ növbədə neçə-neçə milyonlar durur.

Görəsən adamları bu cür qaçmağa məcbur edən nədir, kimlərdir? Qaçanlar, mühacirətə gedənlər hara yollanırlar? Əlbəttə, birinci növbədə inkişaf etmiş kapitalist ölkələrinə, həyat şəraiti yaxşı olan, azadlıq və demokratiyanın mümkün qədər bərqərar olduğu, qanunla idarə edilən ölkələrə. Fikirləşirsən ki, görəsən bu bəla nə vaxt qurtaracaq? Ona nə vaxt çarə tapılacaq?

Mühacirətdən Azərbaycan da neçə müddət əziyyət çəkmişdir. İmperiya qoşunları Zaqafqaziyanı, o cümlədən Azərbaycanı işğal etdikdən sonra on minlərlə həmvətənlimiz öz ata yurdunu tərk etməyə məcbur olmuşdu. Keçən əsrin qırxıncı illərində hətta Türkiyədən qaçqınları qaytarmaq üçün Qafqaz canişini nəzdində xüsusi komissiya yaradılmışdı.

Rusiya kimi Azərbaycandan da mühacirətə gedənlər sırasında birinci növbədə ziyalılar dururdu. Məlum olduğu kimi, keçən əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycanın görkəmli jurnalistləri və naşirləri, maarifçi xadimləri Ünsizadə qar-

daşları Türkiyəyə mühacirət etmişdilər. Əsrin əvvəllərində mütəfəkkir yazıçı və jurnalistlərimiz Ə. Ağayev, Ə. Hüseynzadə, sonralar Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, C. Hacıbəyov və başqaları da vətəni tərk etməyə məcbur olmuşdular.

Muhacirət dalğası otuzuncu illərdə xüsusilə dəhşətli xarakter aldı. Cənubi azərbaycanlıları Sovet Azərbaycanından çıxardılar. Son otuz ildə isə Azərbaycandan nə qədər ailə Rusiyaya köçməyə məcbur olub. Hər il müxtəlif yollarla dörd-beş min işsiz cavanı Rusiyada iş axtarmağa göndərirdilər. Süni surətdə işsizlik yaradıb cavanları Rusiyaya qovmaq adət halını almışdı.

Əgər bütün bu məsələlər diqqətlə nəzərdən keçirilsə, çox faciəli mənzərə alınar. Düşünən başların yaradıcı, şəxsiyyətlərin, cavan iş qüvvəsinin doğma diyarı tərk etməyə məcbur olması ölkə üçün çox böyük itkidir. Lakin bunu saya salan varmı?

Bu yaxınlarda xarici informasiya agentlikləri xəbər verdilər ki, Amerika televiziya tamaşaçıları Moskvadan əsrarəngiz və heyrətə salıcı bir filmə baxmışlar. Sən demə, Moskvada xüsusi gizli bir fizioloji tədqiqat mərkəzi var. Orada vəfat etmiş dahi adamların beyinləri saxlanılır. Amerikalılara Lenin, Stalin, Kirov, Kalinin, Qorki, Mayakovski, Saxarov və başqalarının beyinləri nümayiş etdirilmişdir. Onlar şüşə qablarda xüsusi məhlul içərisində saxlanılır. Bu laboratoriya altmış ildir fəaliyyət göstərir. Görəsən ölmüş dahilərin beyinləri nəyə və kimə lazımdır? Sən demə, bunların üzərində alimlər tədqiqat aparır, dahiliyin sirlərini öyrənmək istəyirlər. Verilişin aparıcısı A. Borovik Amerika tamaşaçılarına bildirmişdir ki, hələlik bu mərkəzdəki tədqiqatlardan müsbət bir nəticə alınmamışdır.

Çox təəccüblü məsələdir. Dünyada məşhur olan alim və yazıçıları diri-diri ölkədən getməyə məcbur edənlər ölülərin beyinləri üzərində tədqiqat aparır, dahiliyin sirrini öyrənmək istəyirlər. Dirini öldürüb, ölüyə xidmət edən məmləkətdə.

74 ildir ki, Rusiya müxtəlif iqtisadi siyasi görüşlərin sınaq meydanına çevrilmişdir, Ölkədə neçə-neçə işgüzar sinfi fiziki cəhətdən məhv edib əvəzinə yeni siniflər yaratmaq istəmişlər.

Amma əslində çox dəhşətli bir inzibati-amirlik sistemi yaranıb. Alimlər göstərirlər ki, ölkəni indiki çıxılmaz vəziyyətə salmış bu bürokratik sistem 18 milyon nəfərdən ibarətdir. Onlar hər şeydən əvvəl özləri ilə məşğuldurlar. Xalq üçün məhsul istehsal etmək əvəzinə, qərarlar və sənədlər istehsal edirlər. Bunların sayı isə nə az, nə çox, hər il 860 milyarda çatır. Bu bürokratlara qulluq edən təkcə xüsusi minik maşınlarının sayı 700 mindən çoxdur. 700 min maşının da bir o qədər bığıburma sürücüsü var. Bürokratik sistem sovet adamlarına hər il 40 milyarda başa gəlir.

Ölkədə işləyənlərin sayı getdikcə azalır. Yeyib-dağıdanların sayı isə durmadan çoxalır. Çünki vaxtilə birinci dövlət dumasında millət vəkili İ. Ziyadxanovun dediyi kimi, «bizim ölkəmizdə dövlət idarəsinin idealı: rüşvət almaq və xalqa əziyyət verməkdir». İndi məlum olur kn, camaat ölkədən niyə qaçır. Mən hələ qaçmağın səbəblərinin yalnız cüzi bir cəhətini nəzərə çatdırdım.

İşləməyib firavan yaşamaq, oxumayıb diplom almaq, səriştəsiz rəhbər olmaq həvəskarları bir ölkədə nə qədər olarmış? Biz hara gedirik? Dayanmaq, düşünmək vaxtı deyilmi? Alimlər hesablayırlar ki, əgər ölkə bazar iqtisadiyyatına keçə bilməsə, inzibati-amirlik sisteminə son qoyulmasa, yaxın beş-on ildə Rusiyanı ən azı 20-30 milyon adam tərk etməyə məcbur olacaq. Qeyrətlə işləyib, halallıqla insan kimi yaşamaq istəyənlər, millətin düşünən başları, bacarıqlı əlləri ölkəni kütləvi surətdə tərk etməyə başlasa, nəticəsinin nə olacağını heç kəs deyə bilməz.

Bunu bizim respublikada da əməlli-başlı götür-qoy etməli, belə bir mühüm problem üzərində düşünməliyik. Biz o qədər çox deyilik ki, qapılarımızı mühacirət üçün açaq.

«Bərəkət» qəz. 8 oktyabr 1991

SİYAHIDA YERLƏR DƏYİŞİR; ALLAH SONRASINDAN SAXLASIN?!

«Arqumenti i faktı» qəzetinin son nömrəsində 1990-cı ildə İttifaqın ümumi göstəricilərində respublikaların payına həsr olunmuş iki cədvəl verilmişdir. Bu cədvəllərdə çox maraqlı ibrətamiz rəqəmlər gətirilir. Məqsədim bunları təhlil etmək deyil. Diqqətimi cəlb edən müttəfiq respublikaların bu vaxta qədər mövcud olan siyahısında yerlərin dəyişdirilməsi faktıdır. Məlumdur ki, hələlik mövcud ittifaq konstitusiyasında respublikaların sabit sıralanma siyahısı vardır. Burada əhali, ərazi və digər mühüm amillər nəzərə alınıb. «Arqumenti i faktı»da respublikaların sırası indi dini mənsubiyyətə görə tərtib olunmuşdur. Belə ki, doqquz xristian respublikası, yəni: Rusiya, Ukrayna, Belorus, Estoniya, Latviya, Litva, Moldova, Gürcüstan və Ermənistan əvvəlcə, sonra isə 6 müsəlman respublikası verilib. Buraya Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan.

Respublikaların yerlərini bu cür dəyişənlərin nə məqsəd güddükləri geniş mənada mənə məlum deyil. Amma belə bir meylin mövcud olduğunu artıq söyləmək olar. Həm də bu meyl getdikcə güclənməkdədir. Bu çox təhlükəli oyundur. Rusiyada hakim marksist-leninçi ideologiyanın iflasa uğradığı göz qarşısındadır. İdeyasız dolanmaq məlumdur ki, çətindir. İflasa uğramış ideoloji boşluğu nə ilə doldurmaq lazım gəlir. Görünür, imperiya ambisiyasından əl çəkmək istəyənlər bu dəfə dini ideologiya ətrafında birləşmək niyyətindədirlər.

Xristian respublikalarından sonra müsəlman respublikalarının sadalanması, özü də hələ çarizm dövründə mövcud olmuş bədnam bir nəzəriyyəni yenidən diriltmək təşəbbüsüdür. Məlumdur ki, 1906-cı ildə çar senatı Rusiyada məskun olan müsəlmanları ikinci növ vətəndaşlar hesab etmək barədə xüsusi qərar çıxarmışdı. Bu qərar onunla əsaslandırılırdı ki, müsəlmanlar əsl Rusiya vətəndaşları sayıla bilməz. Çünki, öz dinlərindən, dillərindən, inam və inanclarından, əlifbalarından, mədəniyyətlərindən, adət və ənənələrindən əl çəkmirlər, ruslaşmaq istəmirlər. Bu bədnam nəzəriyyə tərəfdarlarının aqibəti məlum-

dur. Senatın qərarından keçən 85 il müddətində bütün cəhdlərə, təqibə, təhqirə, hətta təcavüzə məruz qalmalarına baxmayaraq, müsəlman xalqları az-çox öz mənliklərini mümkün qədər mühafizə edib saxlaya bilmişlər. İndi isə öz azadlıq və istiqlaliyyətlərini, insani hüquqlarını tələb etmək əzmindədirlər.

Rusiya əhalisinin dörddə birini müsəlman xalqları təşkil edir. Elə «Arqumenti i fakti» qəzetinin özünün də verdiyi cədvəldən məlum olur ki, keçmiş İttifaq əhalisinin 19,8 faizini müsəlman respublikalarında yaşayan əhali təşkil edir. Əgər Rusiya Federasiyasında yaşayan müsəlmanları da əlavə etsək bu təxminən 25-28 faizə çatır. Qeyd edək ki, bu üzdəniraq nəzəriyyəni ortaya atanlar sırasında özlərini milli məsələ üzrə mütəxəssis hesab edən erməni ekstremist millətçiləri və onlarla həmrəy olan staravoytovalar vardır.

Statistikadan görünən digər bir cəhət budur ki, bütün müsəlman respublikaları xristian respublikalarına nisbətən ümumi milli məhsul, sənaye və kənd təsərrüfatı istehsalı, iqtisadi inkişaf və yaşayış səviyyəsinə görə ən aşağı pillədə dururlar. Bu o demək deyil ki, bu respublikalarda işləyən yoxdur. Əksinə, kölə işini görənlər onlardır. Bir nəfər xristianın əyilib pambıq yığdığını görən olubmu?

Diqqəti cəlb edən digər məsələ son zamanlar özünü göstərən: «Rusiyanı soyub aparırlar» - şüarıdır. Soruşula bilər ki, Rusiyanı kim soyub aparır. Yoxsa, su qiymətinə aparılan pambığın, neftin, qazın əvəzinə İttifaq büdcəsindən müsəlman respublikalarına verilən ianə nəzərdə tutulur. Bəs soyulub, aparılan yeraltı və yerüstü sərvətlər niyə yada salınmır!

Maraqlıdır ki, RSFSR prezidentinin köməkçisi Gennadi Burbilis oktyabrın 10-da (1991) televiziyada müxbirlərlə müsahibəsində açıqca bildirdi ki, Rusiya keçmiş İttifaqın həqiqi varisidir. Deməli, bütün respublikaların, bütün SSRİ xalqlarının əməyi ilə, qan-təri ilə yaradılmış bütün dövlətə, varidata Rusiya əl qoyur.

Respublikaların sırası dəyişdirilir. Hələlik bu dəhşətli siyasətin ilk simptomları görünür. Ayıq olmaq lazımdır, sayıq olmaq lazımdır. İmperiyanı xristian bayrağı altında bərpa etmək istəyənlərə qəti və ciddi müqavimət göstərilməlidir.

«Bərəkət» *qəz. 12 oktyabr 1991*

ÖZÜNÜNKÜ VƏ ÖZGƏ

Mərkəzi qəzetlərdə son zamanlar ara-sıra «özününkülər və özgələr» ifadələrinə rast gəlmək olur. Özününkülər dedikdə rusları nəzərdə tuturlar. Bildiyiniz kimi RSFSR-dən xaricdə, yəni digər müttəfiq respublikalarda, təxminən 25 milyona yaxın rus yaşayır. Bunların bu respublikalara necə köçmələri, məskunlaşmaları geniş mövzudur, xüsusi tədqiqat tələb edir. Bildiyiniz kimi, heç kəs bu insanların hüququnun məhdudlaşdırılması, respublikaları tərk etməsi və s. haqqında söhbət açmağa haqlı deyil. Əlbəttə, bir şərtlə ki, onlar yaşadığı respublikaların digər vətəndaşları kimi qayda-qanunlara tabe olsunlar, ərazisində yaşadığı xalqların dilinə, mədəniyyətinə, adət və ənənəsinə hörmətlə yanaşsınlar və əksinə. Rusların və digər vətəndaşlar kimi qanuni hüquqları bütövlükdə gözlənilməlidir. Demokratiya prinsipini əsas götürmüş beynəlxalq hüquq normalarına riayət edən hər bir respublika bu cür hərəkət etməyə borcludur. Lakin diqqəti cəlb edən başqa cəhətdir. Yəni söhbət Rusiyanın digər respublikalarda yaşayan rusları haqlı-haqsız himayə etməsi və bu respublikaların daxili işlərinə qarışması cəhdindən gedir. Bu günlərdə «Pravda» qəzetində Pavel Boqomolovun (4 oktyabr, 1991) «Özlərininkini atmırlar...» sərlövhəli yazısı dərc olunmuşdur. Müəllif Amerika Birləşmiş Ştatları hakim dairələrinin, Amerika hökumətinin belə bir siyasətindən həsəd hissi ilə danışır və yazır ki, amerikalılar dünyanın harasında olurlarsa olsunlar, öz hökumətlərinin müdafiə qətiyyətinə əmin ola bilərlər. İstənilən vaxt Amerika hətta silah gücünə onların mənafeyini müdafiə etməyə hazırdır. Bildiyiniz kimi belə bir bəhanə ilə ABŞ Panamaya, Qrenlandiyaya, Cənubi Vyetnama soxulmuşdu. Bu da böyük dövlətçilik təfəkküründən yeni növ təzahürüdür.

Soruşula bilər, bəs RSFSR hökuməti onun ərazisində yaşayan digər millətlərin, o cümlədən digər müttəfiq respublikaların vətəndaşlarının hüquqlarını tam şəkildə qorumağa hökmlü deyilmi? Bizə belə gəlir ki, bu məsələ qarşılıqlı olmalıdır. Beynəlxalq hüquq normaları əsasında tənzim edilməlidir. İnsan hüquqları sərhəd tanımır. Məsələ bu cür qoyulsa heç kəs ona etiraz etməz. Amma hədə-qorxu gəlmək imperiya ambisiyası ilə danışmaq, fayda verən şey deyil.

«Bərəkət» qəz. 12 oktyabr 1991

İMPERİYA DAĞILIR, RUHU QALIR

Prezident Qorbaçov təbii əcəli ilə artıq tarixə qo-vuşmaqda olan Sovetlər birliyini - keçmiş İttifaqı nəyin bahasına olursa-olsun yenidən dirçəltməyi qarşısına məqsəd qoymuşdur. Avqustdakı dövlət çevrilişi cəhdi puça çıxdıqdan sonra əsas dayaqlarından və həmkarlarından ayrı düşməsinə baxmayaraq, Qorbaçov yaranmış real şəraiti deyəsən yaddan çıxarır, əvvəllərdə olduğu kimi, arabir ölkəni və ətrafındakıları «istefa» vermək həddi ilə qorxudur, suveren respublikaların siyasi və iqtisadi ittifaqsız, mərkəzsiz yaşaya bilməyəcəkləri fikrini dönə-dönə təkrar edir.

Maraqlıdır ki, əvvəllər həqiqi suverenlik və tam müstəqillik mövqelərində duran RSFSR rəhbərliyi də bu məsələdə son günlər qətiyyət göstərmir. İndi müxtəlif variantlarda iqtisadi-siyasi doktrinalar meydana çıxır: suveren dövlətlərin İttifaqı, iqtisadi İttifaq və siyasi müstəqillik, yaxud siyasi İttifaq və iqtisadi müstəqillik və sair bu qəbildəndir. Bu günlər RSFSR-in ədliyyə naziri Fyodorov təkid edir ki, siyasi İttifaq olmadan iqtisadi müqavilə utopiyadır. Başqa birisi iddia edir ki, siyasi İttifaq ilə iqtisadi müqavilə eyni vaxtda imzalanmalıdır. Bir sözlə, ayının min oyunu var, o da bir armudun başındadır: Belə ki, köhnə kommunist imperiyası ölmüşdür, yaşasın yeni demokratik imperiya. Mənə, məsələnin mahiyyəti bundadır.

Bu ümumi siyasi fonda müxtəlif cərəyanlar da özünü göstərməkdədir. Məsələn, bu günlərdə mərkəzi televiziya ilə tanınmış kinorejissor Stanislav Qovoruxinin çəkdiyi «Belə yaşamaq olmaz» filmi nümayiş etdirildi. Filmi müəllif özü şərh edirdi. Filmdə son yetmiş dörd ilin faciələrini əks etdirən ibrətamiz səhnələr çoxdur. Bu yaxşıdır. Lakin narahatlıq doğuran Qovoruxinin islam dünyasına qarşı nifrətlə dolu mülahizələridir. Məsələn, o deyir ki, islam ölkələrinə, islam dünyasına qarşı nifrətlə dolu mülahizələridir. Yəni Qazaxıstan torpağında yerləşdirilmiş atom nüvə silahına qazaxların nəzarət etməsi, əl qoyması guya

faciə ilə nəticələnə bilər. Bu cür əsassız, islam aləminə bioloji nifrət hissi ilə dolu çıxışları dinlədikcə adam öz-özünə düşünür ki, görəsən, harda və kimlər tərəfindən yazılıb atom nüvə silahına yalnız xristian dünyası sahib ola bilər. Dünya əhalisinin beşdə birindən çoxunu təşkil edən müsəlman dünyası bu silahdan məhrum olmalıdır. Mən atom nüvə silahının yayılması tərəfdarı deyiləm. Amma xristian dünyası atom nüvə silahından xilas olmazsa, yəni bu sahədə tam tərksilaha getməzsə, məsələ dəyişə bilər. Məlumdur ki, atom silahına malik olan ölkələr son vaxtlar birinci növbədə islam dünyasının başı üzərində qılınc oynadırlar. Buna isə dözmək çətindir.

«İslam fundamentalizmi», «müsəlman respublikalarında əhalinin sürətlə artması», «Rusiyanı gözləyən demoqrafik fəlakət» və sair barədəki üzdəniraq sayaqlamalar kimə və nəyə lazımdır. Qovoruxinin 1990-cı ilin yanvarında Bakıda rus tanklarının əzdiyi, bədənlərini dəlik-deşik etdiyi şəhidləri erməni qurbanları kimi qələmə vermədi, nümayiş etdirilməsi ləyaqətsizlik və açıq-aşkar düşmənçilik toxumu səpmək deyilmi?

Son vaxtlar respublikaları nəinki dini mənsubiyyətə, həmçinin «böyük-kiçiyə» bölmək təşəbbüsü də narahatlıq doğurur. Məsələn, «Pravda» qəzetinin 12 oktyabr (1991) tarixli nömrəsində belə bir yazı verilmişdir: «Yeni İttifaqda kim kimi yedirdəcək». Müəllif yazır ki, Rusiyanın kiçik və geridə qalmış respublikalarla İttifaqa girməsi nə dərəcədə faydalı ola bilər? Bu respublikalar Rusiyanın ayaqlarına bağlanacaq, ona ağır yük olmayacaqmı? Görürsünüzmü, neçə əsrlər soyub talanmış, əsir-yesir edilmiş müsəlman respublikalarını indi oyundan kənarda qoymaq cəhdləri də var. Mənə belə gəlir ki, bu bilərəkdən edilir ki, həmin respublikalar qeydsiz-şərtsiz, «könüllü surətdə» yeni İttifaqa daxil olsunlar.

İmperiya dağılır, ancaq ruhu qalır. Əsas xilas yolu isə hər iki bəladan birdəfəlik xilas olmaqdadır. Başqa yol yoxdur.

«Bərəkət» qəz. 15 oktyabr 1991

TÜRKİYƏYƏ ÇATMAQ ASANDIRMI?

Oxucularımız xatırlayırlar ki, Xruşşov dövründə Amerika Birləşmiş Ştatlarına çatmaq və onu etmək şüarı dəbdə idi. İndi bu şüar Türkiyəyə çatmaq və onu ötməklə əvəz edilir. Əlbəttə, rəsmi dairələrdə yox.

Mərkəzi mətbuat orqanlarında Türkiyə iqtisadi möcüzəsi ilə əlaqədar yazıların sayı da çoxalmışdır. Bu, fərəhləndiricidir. Məsələn, bu günlərdə «İzvestiya» və «Pravda» qəzetlərində bizim ölkəmizdə geniş inşaat işi ilə məşğul olan «Enka» inşaat kompaniyasının fəaliyyəti ilə əlaqədar yazılar verilmişdir. «İzvestiya» öz yazısına «Almaniya pul verir, Türkiyə tikir, yaşayanlar isə sovet zabitləri olacaq». «Pravda» isə «Göy yerə enər, amma biz... kecikmərik» sərlövhəsi vermişdir.

Söhbət nədən gedir. Təsəvvür edin ki, Belorusiyanın Borisov şəhərində məktəb, uşaq bağçası, idman qurğuları, mağazaları, ATS-i və digər mədəni-sosial obyektləri, 750 mənzilli on iki beşmərtəbəli binası olacaq şəhərcik inşa edilməlidir. Sizcə bunu neçə ilə, neçə aya tikmək olar? Türkiyənin «Enka» inşaat kampaniyası bu şəhərciyi beş ay yarıma, yaxud 165 günə tikməyi öhdəsinə götürmüşdür. Müxbirlər yazırlar ki, 1991-ci ilin iyulun 17-də özülü qoyulmuş şəhərcik, bu il dekabrın 31-nə kimi əla keyfiyyətlə təhvil veriləcək. Möcüzədir, ya yox? Yazırlar ki, dünya inşaat təcrübəsində bu cür sürətli tikinti hələ görünməmişdir. Tikintinin ümumi dəyəri 120 milyon alman markasıdır. İndi soruşa bilərlər, kimlər bunu tikir? Neçə işləyirlər? Yazırlar ki, şəhərcik türk arxitektorlarının layihəsi əsasında tikilir. Bu layihə beynəlxalq müsabiqədə bəyənilib. Qeyd edim ki, Fransa, İtaliya, Almaniya, Avstriya, həmçinin sovet arxitektor və inşaatçılarının da iştirak etdikləri müsabiqədə türklərin layihəsi birinci yer tutmuş və bəyənilmişdir.

Türk fəhlələri hər gün səhər saat 7-dən axşam saat 7-dək, əlbəttə, müəyyən tələffüslə işləyirlər. Bu birinci növbədir. İkinci növbə axşam saat 7-dən səhər saat 7-dək işləyir. Yalnız ayda bir gün istirahət edirlər. Zəhmət haqqları ayda 750 dollardır. (bizim indiki kursla ayda 28 min manat eləyir). Bu zəhmət haqqı onların Türkiyədəki bankda açdıqları hesaba köçürülür. Fəhlələrin yeməyi, məişət və tibb xərclərini kampaniya öz öhdəsinə götürüb.

Hər bir cəmiyyəti, ictimai-siyasi quruluşu bir-birindən ayıran əsas fərq əmək məhsuldarlığının səviyyəsidir. Bu isə şəxsi mənafe, mənfəət və vicdan amili ilə bağlıdır. Boş şüarlarla adamları işlətmək olmaz, 74 il müddətində «Yaşasın zərbəçi sosialist əməyi» şüarını təbliğ edən «İzvestiya» indi isə yazısını aşağıdakı şüarla tamamlayır: «Zərbəçi kapitalist əməyi uçün «Enkaya» sağ ol deyək! Mənim buna əlavə etməyə sözüm yoxdur.

«Bərəkət» qəz. 15 oktyabr 1991

KİM KİMİ SOYUR?

Xalq məsəlidir deyərlər: qaçan da ya Allah deyir, qovan da. İndi mərkəzlə respublikalar arasındakı münasibət bunu xatırladır. Mərkəz tərəfdarları gileylənirlər ki, suverenlik xəstəliyi baş alıb gedir, mərkəzi sayan yoxdur, guya mərkəzsiz ölkə uçuruma yuvarlana bilər. Respublikalardakı demokratların fikri isə başqadır. Onlara görə ölkəni indiki çıxılmaz böhran vəziyyətinə salan, xalqın əl-qolunu bağlayan elə mərkəzdir ki, var.

Respublikalarda geniş yayılmış digər bir mülahizə də belədir ki, bizi hərtərəfli soyurlar. Bu da doğrudur. Bu barədə ən çox danışan RSFSR-dir.

Yeni iqtisadi birlik konsepsiyasının müəllifi K.Yavlinski deyir ki, respublikalar bir-birini soymurlar. Onların hamısını 70 ildir ki, mövcud siyasi sistem soymuş və dilənçi vəziyyətinə salmışdır. Düz sözə nə deyəsən? Amma bir məsəl var ki, bu boyda ölkənin varidatını hərraca qoyan inzibati amirlik sistemi yenə də qalır. Düzdür, cildini dəyişib. Bir sıra əvvəlki üsullardan əl

çəkib. Amma yenə qalır. Bu sistemin bizə necə baha başa gəldiyindən yazmışdıq, hərbi sənaye kompleksini də buraya əlavə etmək lazımdır. Hələ mən bizi xaricdən soyanları demirəm. Təkcə Kubaya hər il ən azı 5 milyard manat məbləğində təmənnasız yardım edilirdi. Son otuz ildə bu rəqəm 150 milyardı ötüb keçmişdir. Əfqanıstanın işğalı da bizə hələ bundan baha başa gəlib və yenə gəlməkdədir. Bura Anqola, Efiopiya, Vyetnam, Kamboça, Nikaraqua və digər sosializmə rəğbət göstərən və ya bu yolla getmək istəyən ölkələri də əlavə etsək, onda astronomik rəqəm əmələ gələ bilər.

Dövlət orqanlarından başqa Sov.İKP də öz növbəsində xalqın malını talan edənlərdən idi. Xarici ölkələrin kom.nunist və fəhlə partiyalarının böyük bir qismi sovet adamlarının hesabına fəaliyyət göstərirdilər. Bu günlərdə Romadan verilən bir xəbərdə deyilir ki, İtaliya Kommunist Partiyasının illik gəliri 5 milyard lirə idisə, o ildə 20 milyard xərcləyirmiş. Bəs qalanını haradan alırdılar? Səfir Zaqladin etiraf edir ki, Sov.İKP-dən.

Qeyd edək ki, İttifaq budcəsindən külli miqdarda vəsait qoparan respublikalar da vardı. Məsələn, haqq-hesab çəkən olsa, məlum olur ki, Ermənistan 70 ildə İttifaq büdcəsinə nə verib və oradan nə qədər qoparıb. Uzağa getmək lazım deyil. 60-cı illərin əvvəllərində o vaxt SSRİ Ali Soveti Rəyasət heyətinin sədri olan Mikoyan Xruşşovu Ermənistana qonaq aparmışdı. Sevanın ətrafında yeyib-içəndən sonra partiya və hökumət başçısına bildirmişdi ki, bəs Sevanın səviyyəsi aşağı duşür. Biz yediyimiz balıqdan məhrum ola bilərik. Ona görə də Sevanı xilas etmək lazımdır. Balıq Xruşşova və ölkəyə çox baha başa gəldi. Qərar çıxdı ki, Arpaçaydan - Sevana yeraltı kanal çəkilsin, onun suyu Sevana axıdılsın. Göstərim ki, kanalın uzunluğu 46 kilometr, dərinliyi isə 300 metrdən bəzi sahələrdə 600 metrdən artığa çatır. Heç bir iqtisadi fayda verməyən bu tikinti on və hətta yüz milyardlara başa gəlmişdir. Son illər İttifaq mətbuatı belə yazırdı ki, bu boyda xərci havaya sovurmağa nə ehtiyac var idi? Son peşmançılıq isə fayda verməz.

Sovetlər birliyi, sosialist ölkəsi adlanan məmləkətdə xalq gecə-gündüz işləyir, qan-tər tökür, varidat yaradır, lakin yuxarılarda bunu, sözün əsl mənasında, hərraca qoyurdular. Bu vəziyyət müəyyən mənada indi də davam edir. Mərkəzdə çömçə tutanların ilk sırasında erməni mafiyası durur. Konkret bir misal. 1990-cı ildə Ermənistanda adambaşına düşən istehlak orta İttifaq səviyyəsinin 93 faizi miqdarında olmuşdur. Azərbaycanda bu rəqəm 57, Özbəkistanda 59, Tacikistanda 48 faizdir. Nəyə görə hamıdan çox işləyən, hamıdan çox məhsul istehsal edən müsəlman respublikalarında istehlak bu qədər azdır? Yalnız xammal və ilkin məhsul istehsal edən respublikaların aqibəti belə olur. Pambıq əkən biz, ondan faydalananlar isə başqaları. Üzüm yetişdirən biz, ondan son məhsul istehsal edib satanlar başqaları. Yun istehsal edən biz, yun parça toxuyan ermənilər.

Məhz bütün bunlara görədir ki, «İzvestiya» qəzetinin erməni lobbisinə başçılıq edən Q.Melikyants «İslam və Orta Asiya» sərlövhəli məqaləsində yazır ki, «heç bir riyakarlıq etmədən etiraf edək ki, Orta Asiya regionu bütün respublikalara lazımdır».

Müəllif belə bir iddia irəli sürur ki, son 130 ildə Özbəkistan və Orta Asiyanın digər respublikalarında çoxmillətlilik yaranıb, yəni burada müsəlman əhalisi ilə qeyri-müsəlman əhalisinin nisbəti əsaslı surətdə dəyişdirilib. Ona görə də bu regionu əldən buraxmaq olmaz. Görünür, ermənilər Orta Asiyada istədikləri kimi varlanmaq imkanına malikdirlər. Və buna görə də xristianları burada birləşməyə çağırırlar.

Mərkəz bizi yeni iqtisadi birliyə çəkir. Əgər bu əvvəlki soyğunçuluq xarakterində olacaqsa bura daxil olmaq xalq və tarix qarşısında cinayətdir. Yox əgər bu həqiqətən suveren dövlətlərin açıq-aşkar qarşılıqlı mənafeyə əsaslanan iqtisadi əməkdaşlığı odacaqsa, buna söz ola bilməz. Məncə məsələnin qoyuluşu belə olmalıdır.

«Bərəkət» qəz. 19 oktyabr 1991

AÇILIB-BAĞLANAN PƏNCƏRƏLƏR, QAPILAR

Hər bir evin qapısı, pəncərəsi olmalıdır. Bunu hamı bilir. Nə üçün olmalıdır? Məncə bunun da izaha ehtiyacı yoxdur. Bəs ölkənin, məmləkətin necə, xarici dünyaya açılan qapı və pəncərəsi olmalıdır, ya yox? Bax, bu prinsipial məsələdir. Məlumdur ki, I Pyotr Rusiyada bunu hamıdan əvvəl başa düşmüşdü ki, elmi-texniki tərəqqi və yeni mədəniyyətin beşiyi olan Avropa ilə əlaqə saxlamadan, ora pəncərə açmadan imperiyanı saxlamaq və genişləndirmək mümkün olan iş deyil. Bildiyiniz kimi I Pyotr doğrudan da Avropaya pəncərə açdı və indiki Sankt-Peterburq şəhərinin özülünü qoydular. Sonralar da Rusiyada dünyanın müxtəlif səmtlərinə pəncərə və qapı açmaq həvəskarları çoxaldı. Lakin onların əksəriyyəti Koroğlu yox, kor kişinin oğlu oldular.

Açılmış qanı və pəncərələri bərk-bərk bağlamaqla da tarixə düşənlər oldu. Stalinizm hər şeydən əvvəl, bununla məşhurdur. Xalqlar həbsxanasının qapılarını bərk-bərk bağlamaqla, hətta, efirə buraxılan radio dalğalarını, yəni kənar səsləri vurmaqla belə tarixə düşdü.

İslam Şərqinə, Hind okeanına pəncərə açmaq həvəskarları İkinci Dünya müharibəsindən sonra daha da gücləndilər. Koreya müharibəsi, Əfqanıstan faciəsi başlandı. Lakin səksəninci illərdə Şərqin divarlarını söçməklə məşğul olanlar birdən gördülər ki, Şərqi Avropadakı qapı və pəncərələr yavaş-yavaş açılır, laxlayır. Bu əhvalat mənə rəhmətlik M.Ə.Rəsulzadənin 84 il bundan əvvəl yazdığı «Skvoznyak» sərlövhəli satirik yazısını xatırlatdı. İstəyirəm oxucular onunla tanış olsunlar.

SKVOZNYAK

«Rusiya tarixini oxuyanlara məlumdur ki, məşhur Pyotri-Kəbir Peterburqun binasını qoymaq istədikdə «Neva çayının kənarında kol-kosluq və bataqlıq yerdə durub dedi ki, «mən buradan Qərbə pəncərə açacağam». Sözünə əməl eləyən və dediyinə sabitqədəm olan imperator dediyini elədi, onun əhəmiyyəti - siyasiyyə və ticariyyəsi münasibətilə bəzi Avropa nizamını rusiyalılara göstərib öyrətdi...

Pyotri-Kəbirin bu «pəncərə» açması bizim hakimlərin riyasət və pul keyfəmayəşa başlarında olub pəncərədə şöhrət gördükləri üçün və cəmaət tərəfindən özlərində bir «etibar» qazanmaq üçün Qərbdə işləyə bilməyib Şərqə pəncərə açmaq istədilər...

İstədilər də pəncərəni açmağa. Şərqin dadarını yıxmağa başladılar...

Pəncərəni açdılar... Lakin bu pəncərəni açmaqda böyük səhvə düçar olub, böyük bədbəxtliyə giriftar olduqlarını gördülər. Qərbdə bir pəncərə varkən Şərqdə də bir pəncərə açıldı. Pəncərə açıldı, nə açıldı... Hürriyyət «skvoznyak»ı bu başdan vurub o tərəfdən çıxdı. Tufan eləyib bu vaxta kimi yığışan «nizan və qayda»ları vurub dağıtdı. Cəmaəti də Avropadan götürdüyü «azarlara» mübtəla edib böyuk-böyük iddialara saldı.

Bürokratlar səhvlərini anladılar. Pəncərəni açmalarına peşman olub küləyin qabağına sədlər qurmağa başladılar...».

M. Ə. Rəsulzadə
«Yoldaş» qəzeti, 1 sentyabr 1907-ci il

Deyirlər tarix təkrar olunmur. Amma mən deyərdim ki, bəzən eynən təkrar olunmasa da hadisələr başqa mahiyyətdə, başqa rəngdə təkrar olunur. Xəstəlik haman xəstəlikdir. Skvoznyak da Şərqdən Qərbə, Qərbdən Şərqə doğrudur rəhmətlik M.Ə.Rəsulzadənin dediyi kimi.

«Bərəkət» qəz. 19 oktyabr 1991

SAHİBLİK YOX, MAYA YALAN, MƏHSUL ZAY

Osmanlı imperiyasının ilk xəlifəsi Yavuz Soltan Səlim (1467-1520) ona təqdim edilən dünya xəritəsini diqqətlə nəzərdən keçirərək demişdi: «Yazıq dünya, bir padşaha yetəcək qədər böyük deyilmiş...»

Təxminən 500 il bundan əvvəl, söylənmiş bu sözlərin çoğrafi və siyasi mənasıyla işim yoxdur. Amma gələcək iqtisadi bazar əlaqələri baxımından yanaşsaq doğrudan da dünya bir o qədər böyük deyilmiş. Artıq nəinki ölkələrdən və qitələrdən, həmçinin kosmik və planetlərarası iqtisadi, elmi-texniki və mədəni əlaqələrdən söhbət gedir. Əlbəttə, bu gələcəyin işidir. O ki, qaldı bizə, hələ bir ölkə, bir respublika daxilində iqtisadi bazarı sahmana sala bilmirik.

İndi düşdüyümüz vəziyyət və həqiqət budur ki, ölkə daxilində istehsal etdiyimiz malların böyük əksəriyyəti Nuh Nəbidən qalma avadanlıqla istehsal olunur, əməlli-başlı işləyən az tapılır, məhsul da zay buraxılır. Dünya standartları səviyyəsində mal istehsal etmədiyimizə görə də beynəlxalq bazara çıxa bilmirik. Qapalı dar çərçivədə öz qıtımızda yanırıq. Yalnız xammal satan ölkə isə təbiidir ki, bəşəri inkişafın magistral yolundan kənarda qalmalı, deməli, müasir tələblər səviyyəsində işləmək, insan kimi yaşamaq imkanlarından məhrum olmalıdır.

Belə bir fakta diqqəti cəlb edim ki, indi Sovetlər birliyində hər il irili-xırdalı 25 milyon adda məhsul istehsal olunur. Daha doğrusu, olunurdu. Bunlardan nə qədəri dünya standartı səviyyəsinə uyğun olsa yaxşıdır? Cəmi 3-4 faiz. Bu göstərici Yaponiyada 70 faizdən artıqdır. Bu ölkənin təkcə ABŞ ilə qarşılıqlı ticarətinin illik həcmi 140 milyard dollara çatır. Bizim bütün dünya ilə ticarətimizin həm də əsasən xammal ticarətimizin ümumi həcmi bunun yarısı qədər də yoxdur.

Əlbəttə, burada araşdırılası, tədqiq ediləsi, neçə əsrlik obyektiv və subyektiv səbəblər vardır. İqtisadçılar göstərirlər ki, Rusiya bir dövlət kimi uzun müddət öz daxili məhsuldar qüvvələrini inkişaf etdirməyin qayğısına qalmayıb, buna görə də əmək məhsuldarlığı çox ləng artıb. Qərbdə olduğu kimi, insanın təbiətindən doğan azad əmək fəaliyyətinə geniş imkan verilməyib. Ölkə təhkimçilik üsulu, zorla işlətmək hesabına dolanıb. Qoqolun məşhur «Müfəttiş» əsərində təsvir etdiyi nadanlar və rüşvətxorlar ölkəni idarə edirdilər. 1917-ci ilin oktyabrından sonra bu təhkimçilik üsulu daha şiddətli şəkildə bərpa olundu.

Rusiyada idarəetməyin, hökm sürməyin, dolanmağın meyarı zorakılıq, aldatmaq və yalan olmuşdur. Məşhur rus tarixçisi və yazıçısı Karamzin yazmışdır: «Əziz dost, de görüm nə üçün, neçə əsrlərdir ki, insan xoşbəxtliyə, rifaha yalanla nail olur?».

Neçə əsrlərdir ki, Rusiya torpağında nəzəriyyədə xəyal və fantaziya, iqtisadiyyatda, siyasətdə və məişətdə yalan, ayaq tutub yeriyir. Potyomkin kəndindən tutmuş, bu yaxınlarda dövlət çevrilişi etmək təşəbbüsündə olanların ölkə prezidentinin guya öz vəzifəsini icra etməyə qabil olmadığı kimi ağ yalanlar buna bariz nümunədir. Hələ mən sosializm və kommunizm cənnəti haqqındakı yalanları demirəm.

Məlumdur ki, mayası haram olan məhsul zay olar. Yalan sahibsizlikdən doğur. Hər şeyin sahibi olmalıdır. Torpağın da, istehsalatın da, ev-eşiyin də, yolun da, ticarətin də.

Yadıma akademik Arbatovla olan bir görüş düşür. SSRİ Elmlər Akademiyasının ABŞ və Kanada İnstitutunun direktoru Yaponiyadan yenicə qayıtmışdı və bu səfər barədə təəssüratını bölüşürdü. O, bu ölkənin müharibədən sonra qazandığı və dünyanı heyrətə salan «iqtisadi möcüzə»sindən faktlar gətirdi, fikirlər söylədi. Diqqətimi belə bir fakt cəlb etdi. Arbatov dedi ki, o, yapon firmalarının birinin prezidenti ilə görüşündə şirkətə yeni kadrların qəbulu qaydası ilə maraqlanıb və öyrənmək istəyib ki, kadrları hansı keyfiyyətlərinə görə seçirlər? Cavab əvəzinə bizim bu barədəki təcrübəmizi soruşublar. Arbatov cavab verib ki, kadr seçərkən birinci növbədə peşə ixtisasını, hazırlıq səviyyəsini nəzərə alırıq. Yapon biznesmeni isə bunun cavabında bildirdi ki, onlarda əsas meyar işə qəbul ediləcək adamın yalan danışmaması və mülayim rəftarıdır. Çünki əgər adam yalan danışmırsa, öz ləyaqətini saxlayırsa, deməli, layiq olmadığı işə, vəzifəyə can atmağa səy göstərməz.

İbrətamiz faktdır. Doğrudur, atalar deyiblər ki, yalan ayaq tutar, yeriməz. Lakin nə edəsən ki, bizdə hələlik yalan ayaq da tutur, yeriyir də, dövlət səviyyəsinə qaldırılır da. Məhz yalan bizi bu günə salıbdır.

«Bərəkət» *qəz. 22 oktyabr 1991*

HANSI QORXULUDUR: İSLAM, YA KOMMUNİZM...

Məşhur iqtisadçı alim, politoloq və siyasi şərhçi, iqtisad elmləri doktoru Otto Latsisin bu günlərdə «İzvestiya» qəzetində dərc olunmuş məqaləsində belə bir cümləyə rast gəldim: «Onu da yaddan çıxarmayaq ki, kommunizm fundamentalizmi idealları hələ milyonların nəzərində öz cazibə qüvvəsini saxlamaqdadır. Oxucular da təsdiq edə bilərlər ki, istər mövcud siyasi ədəbiyyatda, istərsə də kütləvi informasiya vasitələrində «kommunizm fundamentalizmi» ifadəsinə hər deyəndə rast gəlmək olmur. Amma indi ən çox modda olan qorxunc və dəhşətli ideya və siyasi cərəyan kimi qələmə verilən «islam fundamentalizmi»dir.

Biz hər cür ehkamçılığın, fanatizmin, ideya-siyasi, milli varlıq və şəraiti nəzərə almayan fundamentalizmin əleyhinəyik. Fanatizmin tarixən xalqların və bəşəriyyətin başına nə bəlalar açdığı məlumdur. Səlib yürüşlərindən tutmuş, faşizm qurbanlarını heç vaxt yaddan çıxarmaq olmaz. Kambocada kommunist Pol Pot hökuməti ölkənin 7 milyon əhalisindən 2 milyonunu bir neçə ilin ərzində sinfi mübarizə bayrağı altında qırmışdı. Bizim ölkəmizdə 70 ildə qırılanların sayı 40 milyondan artıq olub.

İndi soruşula bilər, son vaxtlar modda olan «islam fundamentalizmi» bəşəriyyət üçün təhlükəlidir, yoxsa «kommunizm fundamentalizmi?». «İslam fundamentalizmi» barədə canfəşanlıq edənlərin ilk sıralarında məhz «kommunizm fundamentalizmi» tərəfdarları dururlar. Belyayevlər, nyukinlər, melikyanslar az qala İslam dünyasına qarşı Səlib yürüşünə çağırırlar. Nə üçün? Ona görə ki, əvvəla, yəhudi və erməni lobbisinin mənafeyi bunu tələb edir. İkincisi, İslam aləmi xammal mənbəyi və ucuz işçi qüvvəsi kimi Qərbə lazımdır.

Əlbəttə, İslam aləmində birlik yoxdur. Hələ köhnə hakim feodal qüvvələri burada meydan oxuyur. Qərb isə onları öz təsirlərində saxlamaq üçün heç şeydən çəkinmir. Bu bəlaların «İslam fundamentalizmi» ilə əlaqəsi yoxdur.

Min ildən artıqdır ki, bəşəriyyəti İslam təhlükəsi ilə qorxudurlar. Lakin İslam yaşayır, milyardların şüurunda, adət və ənənəsində. Çünki İslam dini hər şeydən əvvəl vicdan məsələsidir. Vicdan olmayan yerdə həyat, bərəkət, dirrik də olmaz.

Lakin kommunizm kabusunun cəmi bir əsr yarımlıq tarixi var. Real varlıqla hesablaşmayan bu fundamentalizm indi tarix meydanından sıxışdırılmaq üzrədir.

Qoy heç kəs bəşəriyyəti «İslam fundamentalizmi» ilə qorxutmasın. Qorxu başqa yerdəndir.

«Bərəkət» qəz. 22 oktyabr 1991

BORCDAN ÇOX DANIŞILIR, ALACAQDAN YOX. NİYƏ?

Mərkəzdə əsas iqtisadi sükanları əllərinə keçirənlərlə vahid və bölünməz İttifaq tərəfdarları son vaxtlar xeyli fəallaşmışlar. Yeniləşən İttifaq, suveren dövlətlərin İttifaqı ideyaları kimi iqtisadi birlik ideyası da indi ön plana çəkilməkdədir. Əl-aman edirlər ki, heç bir respublika iqtisadi birlik olmadan, hazırlanmış iqtisadi birlik müqaviləsinə qol çəkmədən yaşaya bilməz. SSRİ maliyyə nazirinin müavini V. Rodyuşkin deyir:

- Ölkəni iqtisadi bataqlıqdan çıxarmaq üçün respublikalar müqaviləyə qol çəkməlidir. Axı iqtisadi əlaqələr pozulsa, respublikanız necə keçinəcək?

Digər diqqət veriləsi cəhət odur ki, köhnə İttifaq tərəfdarları suveren respublikalara qarşı siyasi fitnə-fasadla yanaşı açıq və üstüörtülü iqtisadi təzyiq də göstərirlər.

İndi xarici borclar məsələsi də meydana çıxıb. Məlumdur ki, keçmiş SSRİ-nin xarici ölkələrə 65-70 milyard dollarlıq borcu vardır. Deyim ki, borclu olduğumuz ölkələr sırasında birinci yerdə AFR, sonra Fransa, ABŞ, Türkiyə və başqaları durur. Deyirlər ki, bu borcu bütün respublikalar verməlidir. Həm də borcu bir təşkilat - SSRİ xarici iqtisadi fəaliyyət bankı və ya

onun hüquqi varisi ödəməlidir.

Bu günlərdə Moskvada «yeddilər» adlanan ölkələrin nümayəndələri ilə on iki respublikanın nümayəndə heyətləri arasında bu məsələ barəsində danışıqlar olmuşdur. Məsələnin mahiyyəti belədir: «Borcları qaytarın dost olaq».

Bununla əlaqədar məni digər bir məsələ maraqlandırır. Niyə müəyyənləşdirilmir ki, bu borclar nə vaxt alınıb? İkincisi, bu borclardan daha çox faydalanan hansı respublikalardır.

Digər bir mühüm məsələ keçmiş SSRİ-nin alacağı borclardır. Məlumdur ki, bir qayda olaraq ölkənin alacağı da olur. Son məlumata görə bu rəqəm verəcəyimiz borcdan çoxdur, yəni təxminən 90 milyard dollara yaxındır. Əgər belə isə həmin borcları alıb niyə borcumuzu qaytarmayaq? Və yerdə qalan 20 milyard dolların kimə çatacağı məsələsini müzakirə etməyək? Yaxşı tanıdığımız və lənətüllah deyəcəyimiz Arkadi Volski «Arqumenti i fakti» qəzeti səhifələrində bildirir ki, SSRİ-yə borclu olan ölkələrin bir qismi bu borcu qaytarmaq istəyir. Lakin onu qəbul edən yoxdur. Soruşula bilər, nə üçün mərkəzdə borcları respublikaların boynuna qoyan tapılır, amma xaricdən alınacaq borcları qəbul edən tapılmır? Özü də az rəqəm göstərilmir. Volski yazır ki, ən azı 45 milyard dolları qısa müddətdə almaq olar. Bizim parlamentdə də borclar məsələsini bəhanə edib bizi mərkəzin iqtisadi müqaviləsinə qol çəkməyə təşviq edənlər gərək bu məsələdən də danışsınlar?

Göstərim ki, indi SSRİ-də elmi-sənaye İttifaqına başçılıq edən, erməni mafiyası orbitində qulluq çırpışdıran A. Volski borclar və alacaq məsələsini elə-belə ortaya atmır. Onun bu barədəki oyunbazlığının məğzi belədir: «Gərək bütün respublikalar ümumi iqtisadi məqsədlər naminə öz suverenliklərini könüllü surətdə məhdudlaşdırsınlar».

Qorbaçovun yeniləşmiş İttifaq komandasının fəal meydan pəhləvanlarından olan Arkadi Volski Qağlıq Qarabağda çıxardığı oyunları indi İttifaq miqyasında təkrar etmək fikrinə düşüb. Ayıq olmaq lazımdır.

«Bərəkət» qəz. 2 noyabr 1991

BU İŞLƏRİN AXIRI NECƏ OLACAQ?

Bu sual indi çoxlarının ruhuna, qəlbinə hakim kəsilmiş, rahatlıq və dincliyini əlindən almışdır. Vətənin, xalqın, torpağın başının üstünü qara bulud almış, gedəcəyimiz səmti elə bil itirmişik. Gələcəyin yolu görünməz olmuşdur. Doğru və düzgün söz deyən, vəziyyəti bütün təfərrüatı ilə açıq və aydın şərh edən, konkret yol göstərən yoxdur. Siyasət meydanı oyunlarından baş çıxara bilməyən geniş kütlə isə az qalır başını itirsin. Havadan fəlakət, dəhşətli fəlakət qoxusu gəlir. Bunu xalq fəhm ilə hiss edir. Buna görə də «bu işlərin axırı necə olacaq?» - sualı indi ön plana çıxmışdır. Qeyd edim ki, görüşlərdə, xüsusilə bu günlərdə olduğum Şəki, Qəbələ və Oğuz rayonlarında bu sualı mənə təkrar-təkrar verirdilər. Buralarda diqqətimi bir başqa sual da cəlb etdi: «Nə etməliyik?» - sualı.

Məncə hər iki sual bir-birini tamamlayır. Biz gərək əvvəlcə milli məqsəd və amalımızı, idealımızı dəqiq müəyyən edək, sonra «nə etməliyik?» problemi ilə məşğul olaq. Doğrudur, Ali Sovet suverenlik, milli istiqlal, nələr və nələr haqqında çoxlu qanun və fərmanlar verir. Deyə bilərlər ki, sizə daha nə lazımdır, daha nə istəyirsiniz? Mən də öz həmsöhbətlərimə bilərəkdən bu cür sualla müraciət edirdim. Lakin bilirsiniz onlar mənə nə deyirdilər. Deyirdilər ki, rayonda, kənddə hər şey, demək olar ki, əvvəlki kimi qalıb, əsaslı dəyişiklik yoxdur. Əksinə, vəziyyət bir az da pisləşib, hərc-mərclik, özbaşınalıq baş alıb gedir. Dağıthadağıtdır. Köhnə partokratiya dövründə qaz vurub qazan dolduranlar, indi vali təyin olunurlar. Partokratiya və parazitokratiyanın yenə kefi kökəlib, səsi ucalıb, meydan oxumağa başlayıb. Onları millət və onun taleyi az düşündürür. Zəhmət adamlarının vəziyyəti deyiləcək, təsvir ediləcək deyil.

Yenə yadıma tariximizin indiki kimi ağır illəri, günləri, faciəli 1917-1918-ci illər düşür. Milli varlığımızın ciddi təhlükəyə alındığı dövr. Eyni sualları o zaman da bu tərzdə verirdilər. Bu işlərin axırı necə olacaq? Nə etməliyik?

Məlumdur ki, 74 il bundan qabaq, yəni 1917-ci ilin iyulunda

mütləqiyyət tərəfdarları yenicə yaranmış demokratik Müvəqqəti hökuməti yıxmaq üçün dövlət çevrilişi etməyə təşəbbüs göstərmişdilər. Lakin məğlub olmuşdular. O zaman, Azərbaycan xalqı qarşısında da ümid qığılcımı görünməyə başlamışdı. Uzaqgörənlərimiz, başbilənlərimiz bu məsələni geniş müzakirə edirdilər, həm də açıq-saçıq. Məsələn, Nəriman Nərimanov «Hümmət» qəzetində yazırdı: Bizim məsləkimiz bütün insanları birləşdirməkdir. Biz diyoruz: «Hamı millətlər üçün məqsəd (ideal) birdir... Müsavi yaşayış, ciddi tərəqqi, ruhun təzələnməsi və ucalması ancaq cümhuriyyət üsuli-idarəsinə bağlıdır», «hər bir millət öz yolu ilə getməlidir». M. Ə. Rəsulzadə bununla əlaqədar olaraq «Açıq söz» qəzetində qələm həmkarı N. Nərimanova çox mədəni şəkildə bildirirdi ki, doğrudan da, hər bir millət öz yolu ilə getməlidir. Çünki bu, təbiidir. Lakin «cümhuriyyətin məqsədi deyil, ancaq vasitə olduğunu unutmaq olmaz». M. Ə. Rəsulzadə qeyd edirdi ki, əsas məqsəd, ideal sosial ədalətin bərqərar olduğu bir cəmiyyət qurmaqdır.

Məncə Azərbaycanın gələcək yolunu müəyyənləşdirənlər xalqa bu həqiqəti çox geniş şəkildə aydınlaşdırmalıdırlar. Bütövlükdə istiqlaliyyət, müstəqillik, 1918-1920-ci illərdəki Azərbaycan Xalq Cumhuriyyətinin bərpası məsələsini geniş kütlə konkret şəkildə özü üçün aydınlaşdıra bilmir. Azərbaycanda sosial ədalət necə bərpa olunacaq, necə həyata keçiriləcək, hansı formada işlənib hazırlanacaq? Bu elə-belə suallar deyil. Məlumdur ki, əgər təbiətdə tufan və fırtınalar günəş enerjisinin atmosferdə qeyri-bərabər bölünməsi nəticəsində meydana gəlirsə, ictimai-siyasi inqilab və fırtınalar sosial ədalətin pozulması, milli gəlirin və milli məhsulun qeyri-bərabər bölünməsi sayəsində, nəticəsində meydana çıxır.

Bir sözlə, xalqı maraqlandıran «bu işlərin axırı necə olacaq?», «nə etməliyik?», «hara gedirik?» suallarına dəqiq və aydın cavab verilməlidir. Xalq ümumi sözdən yorulub, uzun illərin yalanı, onun mənəviyyatını korlayıb, daxili dünyasını, mənəvi aləmini kor qoyub. Bu aləmə işıq saçmadan, bu aləmə nüfuz etmədən xalqı gələcəyə səsləmək məncə mümkün deyil.

«Bərəkət» qəz. 2 noyabr 1991

ƏCƏB BƏRABƏRLİK, ƏCƏB İTTİFAQ İMİŞ

Yetmiş ildir ki, bizi inandırmağa çalışmış və biz də müəyyən mənada inanmışdıq ki, Sovetlər birliyi bərabər xalqların qardaşlıq İttifaqıdır, bu nəhəng ölkədə nə varsa, hamısı bu İttifaqa daxil olan xalqların zəhməti, əməyi ilə yaradılır. Yaradılan da ortaqlı maldır. İndi məlum olur ki, bunların hamısı boş söz, ağ yalan imiş. İttifaq dağılmaq üzrədir, deyəsən qapaqap başlayıb.

Keçən yetmiş ildə ən çox maya qoyulan hərbi sənaye kompleksi, silah istehsalı olmuşdur. İndi bəs görəsən bu sahədə vəziyyət necədir? Mən bütün məsuliyyətiylə deyə bilərəm ki, bizim üçün çox faciəvi vəziyyət yaranıb. SSRİ müdafiə naziri, aviasiya marşalı Yevgeni Şaposnikov bu günlərdə respublikamızda olmuşdur. Prezidentimizlə danışıqlar aparmışdır. Söhbətin tam məzmunu və mahiyyəti bizə məlum deyil. Ancaq verilən xəbərlər narahatlıq doğurur. Müdafiə naziri demişdir ki, «respublikalardakı silahlı qüvvələr yalnız mənə tabedir...» «respublikanın özünümüdafiə qüvvələrinə uzaqbaşı yüngül silahlar - yəni tapança və avtomat verilməsini müzakirə etmək olar, ağır silahlardan danışmağa dəyməz».

İndi düşünürük ki, axı Sovet Ordusunu saxlamağa, silahlandırmağa külli miqdarda vəsait sərf edənlərdən biri də bizik. Hər il ordu sıralarına ən azı 50-60 min döyüşçü yola salırıq. Ən müasir silah istehsal edən respublikalar sırasında biz də varıq. Bəs bu silahdan, bu cəbbəxanadan bizə yalnız tapança və ya avtomatmı düşür?

Azərbaycan dörd ildir ki, müasir silahla təchiz edilmiş erməni quldurlarının açıq təcavüzünə məruz qalır. Son ildə bu təcavüzün meydanı, sahəsi daha da genişləndirilmişdir. Bəs bunun qarşısında bizi qorumalı olan Ordu hissələri nə edir? Ermənistanla sərhəd rayonlarından və Dağlıq Qarabağdan alınan xəbərlər göstərir ki, bütövlükdə Sovet Ordusu və SSRİ Daxili İşlər Nazirliyinin birlikləri ya qarışmamaq və yaxud da erməni

tərəfini müdafiə etməklə məşğuldur. Göstərim ki, mətbuat səhifələrində tez-tez verilən xəbərlərdən də görünür ki, bəzi hərbi hissələr öz silahlarını müxtəlif bəhanələr ilə erməni quldurlarına verməkdən də çəkinmirlər. Adını da qoyurlar ki, bizə hücum etdilər, silahlarımızı əlimizdən aldılar. Bu silahlar içərisində onlarca tank, BTR, raket qurğuları və s. vardır. Hələ mən onu demirəm ki, Rusiya bazarlarında müasir silahlar satılır. Məsələn, bu günlərdə Tallindən verilən bir xəbərdə deyilirdi ki, buradakı hərbi hissədən 44 zenit raket kompleksi oğurlanmışdır və yəqin ki, xəlvəti bazarda satılmışdır. Bu raketləri hər bir adam çiyinlərinə qoyub vertolyot və təyyarələri vura bilər. Həm də işarə edilir ki, bu silahı ən çox alan cənublulardır. Şübhə yoxdur ki, silah alanlar ermənilərdir.

İndi belə bir sual ortaya çıxır ki, əgər Rusiya bazarlarında müasir silahları külli miqdarda pulla almaq mümkündürsə bəs necə olur ki, müdafiə naziri bizə tapança və avtomat təklif edir, yoxsa oğurlanıb satılan silahlardan nazirin xəbəri yoxdur? Gərək sadəlövh və korafəyim olasan ki, buna inanasan və yaxud da yaranmış vəziyyəti başa düşməyəsən.

Şapoşnikov Bakıda müxbirlərlə görüşündə dedi ki, Azərbaycana və Bakıya ilk dəfədir ki, gəlir. Çox yaxşı. Lakin biz istərdik ki, SSRİ Silahlı Qüvvələrinə və deməli, ölkənin müdafiə məsələlərinə cavabdeh olan yüksək rütbəli hərbi xadim ona verilən informasiyaların doğru və düzgün olduğunu özü yoxlasın. Məsələn, vaxtilə nazirin mərkəzi televiziyanın müxbirləri ilə söhbətində dediyi bir fikir çox ciddi narahatlıq doğurdu. Zaqafqaziyaya gizli silahlar haradan gətirilir sualına nazir çox ciddi şəkildə cavab verirdi ki, İrandan. Mənca belə bir iddianın heç bir real əsası yoxdur. Buna əlavə olaraq göstərim ki, nazirin Zaqafqaziyaya səfəri günlərində mərkəzi mətbuat orqanlarından biri belə bir yalan və uydurma yaydı ki, guya Türkiyədən Azərbaycana 200 min sovet və İsrail avtomatı, çoxlu təyyarəvuran «stinker» raketləri və digər silah gətirilmişdir. Türkiyənin rəsmi dairələri bu xəbərin başdan-ayağa qədər uydurma, yalan və fitnəkar xarakter daşıdığını rəsmən bildirdilər. Amma nə olsun ki, öz abır-həyasını itirmiş rəzillərin göz qamaşdıran yalan fişəngi artıq atılmışdı. Mənca, bundan məqsəd nazirin Yerevan səfəri ilə əlaqədar onda qeyri-obyektiv təsəvvür yaratmaqdan, onun Sovet Ordusundan alınmış və oğurlanmış silahların geri qaytarılması məsələsini qoymaması üçün xüsusi atmosfer yaratmaqdan ibarət idi.

SSRİ prezidenti Qorbaçovun da qeyri-qanuni hərbi birləşmələrin tərksilah edilməsinə dair fərmanı məhz erməni lobbisinin təzyiqi ilə yerinə yetirilməmiş, kağız üzərində qalmışdı. Doğrudur, əvvəllər xüsusi canfəşanlıq eləyən biz olduq, camaatdan quş tüfənglərini də yığdıq. O vaxt bizim rəhbərlərimiz aydınlarımızın, bilənlərimizin, xəbərdarlıq edənlərimizin sözlərini qulaqardına vurdular. Əvvəllərdə olduğu kimi, yenə də Qorbaçova və onun dəstəsinə ümid bağladılar. İndi isə iş-işdən keçib, nə qədər çabalayırıqsa bir şey hasil olmur. Dağlıq Qarabağda kəndlər boşaldılır, qan tökülür, əli-boş camaat başını itirmişdir. Bu tərəfdən də nazir Şapoşnikov bizə tapança və avtomat vəd edir. Hələ bunun üçün də gərək danışıqlar aparıla. Dar düşüncəliliyin, fanatik inamın faciəli nəticəsi həmişə belə olur.

Təəssüf ediləcək budur ki, hələ yenə də bu vəziyyətdən baş çıxarmayan, yaxınlaşan fəlakətin həcmini dərk etməyənlər az deyil. Bu birinci növbədə xalq və tarix qarşısında məsuliyyət daşıyan parlament kürsüsündə oturan, rayonlarda ağalıq edən, keçmiş partokratiyaya aiddir.

«Bərəkət» qəz. 4 noyabr 1991

ÖLKƏ İRƏLİLƏYİR, AMMA HARA?

Tarixdə elə anlar - illər olur ki, bütöv bir millətin, xalqın əksəriyyətinin ağlını oğurlayırlar. Belə ki, görürsən ki, bir qrup, bir partiya qatı sosial-şovinist ideyası, fantastik vədlər, yalan və zorakılıqla əhalinin əvvəlcə ciddi ehtiyac içində olan, çıxılmaz vəziyyətə düşmüş təbəqələrini, siniflərini yoldan çıxarırlar. Sonra vaxtilə işlənib hazırlanmış siyasi-mənəvi-psixoloji və iqtisadi üsulları işə salırlar; çatışmamazlığı - nöqsana, nöqsanı - narazılığa, narazılığı - etiraza, etirazı - nifrətə, nifrəti - inamsızlığa, inamsızlığı isə açıq vuruşa çevirirlər, hakimiyyət başına gəlirlər. Bu sistemin, üsulun təşkilatçıları, nəzəriyyəçiləri də vardır. Özü də neçə əsrlərdir ki, bu üsul mövcuddur. Elə bizim əsrdə də bu hadisə Avropanın neçə ölkəsinin başına gəlmişdir. Məsələn, hitlerçilər almanların ağlını tamam on il, Mussolini tərəfdarları italyanların ağlını düz iyirmi il müddətinə oğurlamışdılar. Onların təkcə öz xalqlarının deyil, bəşəriyyətin başına nə faciələr gətirdiklərini söyləməyə ehtiyac yoxdur. Bu hər kəsə məlumdur. Məşhur iqtisadçı alim N. Şmelyov qeyd edir ki, rusların da başına belə bir faciə gəlmişdir. Ruslarin son üç nəslinin ağlını oğurlamışlar. Və ona görə də Rusiyanı müəyyən mənada dəlixanaya oxşatmaq olar. Düzünü deyim ki, mən bu sözləri oxuyanda həm dəhşətə gəldim, həm də uzun müddət fikirləşməli oldum. Dedim bəlkə Şmelyov və onun yazısını dərc edən «İzvestiya» qəzetinin mənim əlimdə olan nömrəsi yeganə nömrədir. Yoxladım, gördüm yox. Çünki mən Leninin Rusiya haqqında dediklərini yaxşı bilirəm. O, Rusiyanı «xalqlar həbsxanası» adlandırmışdı. Yenidənqurma dövründə bu ifadəni «bədbəxtlər ölkəsi» əvəz etdi. İndi də «dəlixana». Açığını deyim ki, Şmelyovdan qabaq da elə bizim ağsaqqallar ara söhbətində neçə vaxtdı deyərdilər ki, «bu ölkə deyil, dəlixanadır».

Şmelyov öz müddəalarını, ittihamlarını nəyə əsaslanıb söyləyir. O göstərir ki, dünyanın heç bir ölkəsi Rusiya qədər, Sovetlər birliyi qədər böyük əraziyə, zəngin təbii sərvətlərə, işlək və

itaətkar xalqa malik deyil. Bəs belə olduğu halda bu ölkə niyə indiki dilənçi vəziyyətinə düşüb. İqtisadçı əsaslandırır ki, yalnız ağlını itirmiş, daha dəqiq desək ağlı oğurlanmış xalq, ölkə bu vəziyyətə düşə bilər. Doğrudan da, son statistik məlumatlara diqqət verdikdə adamı dəhşət götürür. Bu günlərdə - «Arqumenti i faktı» qəzetində verilmiş statistik məlumata diqqət edək. Orada yazılır ki, Sovetlər birliyində orta aylıq zəhmət haqqı keçən il 240 manat olub. Bu, 7,5 Amerika dolları edir. Deməli, 12 ay müddətində sovet zəhmətkeşinin orta maaşı cəmi 90 dollar edir. Bəs bu Amerikada necədir? Amerika vətəndaşı hər ay orta hesabla 1.758 dollar alır. Statistik məlumatda qeyd olunur ki, Birləşmiş Millətlər Təşkilatı Asiya və Afrikanın zəif inkişaf etmiş ölkələrində minimum əmək haqqının və yaşayış xərclərinin ildə min dollar səviyyəsində olduğunu təəssüflə qeyd edir. Hörmətli oxucular, indi sizə məlum olurmu ki, niyə bütün Avropada, Amerika sovet adamlarına ianə yığır, mərhəmət və şəfqət hissi onlarda baş qaldırıb.

Bizi muxtəlif bəhanələrlə yenidən dəlixanada qalmağa təşviq edənlər qoy bir daha fikirləşsinlər, real vəziyyəti təhlil etməyi, başa düşməyi bacarsınlar. Axı, biz nəinki indiki və həm də gələcək nəsillər qarşısında məsuliyyət daşıyırıq. Bunu da başa düşmək vacibdir. Yoxsa sonra gec olar.

«Bərəkət» *qəz. 4 noyabr 1991*

«İPƏKÇİ»Nİ MARAQLI VƏ OXUNAQLI EDƏN NƏDİR?

Respublikamızda 50-dən yuxarı çoxtirajlı qəzet çıxır. Elə mənim işlədiyim universitetdə «Bakı universiteti» və «Jurnalist» tədris qəzetləri nəşr olunur. Mən bütün məsuliyyətimlə deyərdim ki, onlardan heç biri «İpəkçi» qəzeti qədər (Azərbaycan Respublikası Elmlər Akademiyasında buraxılan «Elm» qəzeti müstəsna olmaqla) böyük nüfuza malik deyildir.

«İpəkçi»ni oxunaqlı və maraqlı edən nədir? Məncə, hər şeydən əvvəl məzmun zənginliyi, operativlik, geniş oxucu auditoriyasına uyğun mövzu seçmək bacarığı, cəsarət və prinsipiallıq, jurnalist məharəti və bacarığı. Elə təsəvvur yarana bilər ki, guya «İpəkçi» qəzetinin redaksiyasında böyük bir kollektiv fəallyyət göstərir. Xeyr. Redaksiyanın ştatı bir nəfərdən - redaktor Salis Məmmədovdan ibarətdir. Amma... Bax, məsələnin mahiyyəti da bu «amma»dadır: təşkilatçılıq qabiliyyəti, geniş dünyagörüşü, gözəl rəftarı, şəxsi mədənlyyəti, jurnalist istedadı olan bu bir nəfərin - redaktorun ətrafına necə deyərlər, bütöv bir ordu yığılmışdır. Deməli, redaksiyada kollektiv də var, əsl qəzet də. Buraya onu da əlavə edək ki, «İpəkçi» qonorarsız işləyir, müəlliflərə yazı haqqı verilmir.

Çoxtirajlı «İpəkçi»nin 2000-ci nömrəsi mübarək! Arzum budur ki, öz dəst-xətti, hadisələrə öz münasibəti olan, əsl müstəqillik nümunəsi göstərən «İpəkçi» gələcəkdə gündəlik nufuzlu şəhər və zona qəzetinə çevrilsin, qədim Şəkinin vaxtilə Asiya və Avropadan keçən ipək yolunun yenidən açılmasına yardımçı olsun!

«Bərəkət» qəz. 9 noyabr 1991

KİMİNƏ MATƏM, KİMİNƏ BAYRAM

Adətən xalq öz tarixinin çox muhüm hadisələrini, birinci növbədə zülm və zulmətdən, əzab və əziyyətdən çıxmaq gününü bayram edir. Bayramlar elə belə təkcə şənlik uçün deyildir. Əzablı-əziyyətli günləri yada salmaq, xalqın varlığı uğrunda mübarizə aparanları xatırlamaq üçündür.

Çox təəssüf ki, bu ənənə uzun müddət pozulmuşdu. Artıq xalqlara öz milli bayramlarını da qeyd etməyə imkan verilmişdir. Bəs oktyabr adlanan Ümumittifaq bayramının taleyi necə olmuşdur? Bu suala birbaşa cavab vermək çətindir. Məsələn, Rusiyada, inqilabın beşiyi Sankt-Peterburqda bu il inqilabın ildönümunü matəm mərasimləri ilə qeyd etmişlər, 74 ildə həlak olanları, günahsız qurbanları yada salmışlar. Rusiyanın başqa şəhərlərində də bu cür matəm mərasimləri keçirilmişdir. Lakin Oktyabrı bayram edənlər də az olmamışdır. Məsələn, moskvalılar hər iki mərasimin şahidi olmuşlar. Bu da təbiidir. Hələ Oktyabr fanatiklərinin böyuk bir qismi yaşamaqda, fəaliyyət göstərməkdədir. Onlar «bəlkə də qaytardılar» əhvalı ilə yaşayırlar.

Bir şey həqiqətdir ki, dünyanın ilk sosialist ölkəsi böyük dövlət adını və statusunu saxlasa da gözümüzün önündə öz nüfuzunu və mövqelərinn yavaş-yavaş itirməkdədir. Bir ölkə ki, öz vətəndaşlarının ən adi maddi - mənəvi ehtiyaclarını edəyə bilmir, onların təhlükəsizliyini qorumağı bacarmır, iqtisadi fəlakət və hərcmərclik bataqlığına yuvarlanmaq ərəfəsindədir, onu necə böyük dövlət adlandırmaq, hesab etmək olar. Doğrudur ki, ölkənin ərazisi böyükdur, əhalisi 300 milyona yaxınlaşıb. Təbii sərvətləri dağıdılsa da hələlik kifayət qədərdir, silah da ki, istənilən qədər istehsal olunub və olunur. Ancaq ölkəni sivilizasiyalı tərzdə, insancasına, insaf və ədalətlə idarə edəcək iqtisadi, ictimai-siyasi sistem, quruluş çatışmır.

Bəs bu vəziyyətdan çıxış yolu nədədir? Alimlərin, mutəxəs-

sislərin, politoloqların fikri belədir ki, bir partiyanın, bir ideologiyanın, bir mulkiyyət formasının diktaturasına son qoyulmayınca vəziyyəti düzəltmək mümkun deyil. Deməli, birinci növbədə mülkiyyət və hakimiyyət forması dəyişdirilməlidir. «Zərbəçi» sösialist əməyi könüllü sərbəst bazar iqtisadiyyatına əsaslanan əməklə əvəz edilməlidir. Bu vaxta kimi əzələ ilə görülən işlər indi beyinlə görülməlidir.

Çıxış yolunu yalnız inqilabda görənlər də səhv edirlər. Bir ölkədə nə qədər inqilab etmək olar? Təkcə əsrin birinci on iki ili ərzində Rusiyada üç inqilab olmuşdur: 1905, 1907, 1917-ci ilin fevral və oktyabr inqilabları. Əgər buraya sənayeləşmə, kollektivləşmə və mədəni inqilabları da əlavə etsək - görün nə qədər inqilab olur. Son altı ildə də iki inqilabdan söhbət gedir - yenidənqurma inqilabı, avqust inqilabı. Məncə elə ölkənin evini yıxan da, bu görünür ki, xüsusi məqsəd vardır. Böyük knyaz ilk çıxışlarında bəyan etmişdir ki, Rusiyanın əvvəlki sərhədlərini qorumaq lazımdır. Deməli, əcdadlarından qalan imperiyanı saxlamaq vacibdir.

Mütləqiyyətlə yanaşı rus imperiyasının ideya əsasını təşkil edən pravoslav dininə, kilsəsinə xüsusi ümid bəslənilir. Dindən rus şovinizmi və imperiya ruhunu diriltmək üçün geniş istifadə edilir.

Yadda saxlanılacaq bir faktı da oxucuların nəzərinə çatdırmaq istəyirəm. Bu günlər Rusiyada imperiya yaradılmasının 270 illiyini də qeyd etdilər. Bu da təsadüfi deyil.

Əgər Rusiyada Oktyabr inqilabının 74 illiyi matəm və bayram kimi qeyd edildisə, bu, özü çox şey deyir.

Zülmə düşməyi, xalqlar həbsxanasında qalmağı bayram etmək bizim üçün nə qədər mənəvi və əxlaqi cəhətdən doğru olardı. Çox yaxşı ki, respublikamızın Ali Soveti bu tarixi həqiqəti nəzərə alaraq noyabrın 7-8-ni adi iş günü hesab etmək barədə qərar qəbul etdi.

Sovetlər birliyi, yəni köhnə mütləqiyyət imperiyasının yeni

variantı süqut etməkdədir. Bu tarixi prosesin qarşısı alınmazdır. Belə bir şəraitdə qarşıda duran ən mühüm və müqəddəs vəzifə həqiqi suverenlik və müstəqillik uğrunda inamla çalışmaqdır, bu yolla irəliləməkdir. Tarix hər deyəndə bu cür səxavətli olmur. Belə imkan hər deyəndə ələ düşmür. Müxtəlif bəhanələr və yollarla bizi yenidən mərkəzə bağlamaq, boynumuza imperiya halqası keçirmək tərəfdarlarının hiylələrini başa düşmək, görmək və qəti dəf etmək lazımdır. Bu yolda hər cür çətinliyə sinə gərməyə, dözməyə dəyər.

«Bərəkət» qəz. 9 noyabr 1991

TORA SALIRLAR, YA DÜŞÜRÜK

Qorbaçova və Moskva erməni mafiyasına arxayın olub «böyük Ermənistan» planının növbəti strateji hissəsini Dağlıq Qarabağda həyata keçirməyə girişən erməni millətçiləri qəti müqavimətə rast gəldiklərindən öz taktikalarını tez-tez dəyişirlər. Azərbaycana qarşı hərbi təzyiqlə yanaşı, ümumi təbliğat kampaniyası da genişlənir. Bu kampaniyaya həm də beynəlxalq xarakter verməyə çalışırlar. Elə bu günlərdə ABŞ konqresinin insan hüquqları komissiyasında Dağlıq Qarabağa həsr olunmuş iclas da bunu bir daha təsdiq etdi. Komissiyanın ermənipərəst üzvlərinin və Ermənistan nümayəndələrinin riyakar dəlillərinə, cidd-cəhdlərinə baxmayaraq, millətçilər istədiklərinə nail ola bilməmişlər.

Bu barədə respublika ictimaiyyətinə geniş məlumat verildiyindən ətraflı danışmağa ehtiyac duymuram, lakin arxayınlaşmağa da əsas yoxdur. Beynəlxalq miqyasda fitnə-fəsad davam edir. Xəbər verirlər ki, Ter-Petrosyan Vaşinqtona yola düşmüşdür. Ermənistan prezidenti orada Corc Buşla danışıqlar aparacaqdır, Erməni rəhbərliyi görür ki, Moskvanin və ölkə prezidentinin sözünə məhəl qoyan azdır. (Əlbəttə, burada müsəlman respublikalarını istisna etmək lazımdır). Odur ki, ümidini dünyada yeganə böyük dövlət statusunu saxlamış Birləşmiş Ştatlara, o cümlədən erməni gəlinin qayınatası Buşa bağlayır.

Digər tərəfdən qarşıdan prezident seçkiləri gəlir. İcmalçılar qeyd edirlər ki, əgər əvvəllər Birləşmiş Ştatlarda İtaliya və yəhudi mafiyası güclü idisə, indi birinci yerə erməni mafiyası çıxmışdır. Onun siyasi meydanda nüfuzu durmadan artır.

Ter-Petrosyan Vaşinqtonda növbəti planlar işləyib hazırlarkən geniş erməni təbliğatçıları da Avropada geniş fəaliyyətdədirlər. Bu cəhətdən Yelena Əlixanyan-Bonnerin üzdəniraq fəaliyyəti daha çox gözə çarpır. İnsan hüquqları carçısı Andrey Saxarovun bayrağını əlində tutan Yelena Bonner Azərbaycana meydan oxuyur, onu beynəlxalq miqyasda biabır və təcrid etməyə cəhd göstərir.

«İzvestiya» qəzeti bu günlərdə xəbər verir ki, Bonner Osloda olarkən Avropa şurasının baş katibi Katrin Lalyumerlə görüşmüş və onun başçılıq edəcəyi beynəlxalq nümayəndə heyətini Zaqafqaziyanın bir sıra rayonlarına səfərə çıxmağa təhrik etmişdir. Yazırlar ki, bu nümayəndə heyətinə Avropa şurasının üzvləri ilə yanaşı, Rusiya parlamentinin insan hüquqları komissiyasının və Andrey Saxarovun xatirəsinə həsr olunmuş birinci beynəlxalq konqresin təşkilat komitəsinin üzvləri də daxil olacaqlar. İndi soruşula bilər: Moskvada yaşayan Yelena Əlixanyan-Bonneri kim vəkil edib ki, ətrafına bir dəstə yığıb Zaqafqaziya rayonlarına səfərə çıxsın və burda müfəttişlik eləsin. Bu cür tədbirlərin arxasında əslində çox şeylər gizlənir. Bunu başa düşmək üçün diplomat, siyasətçi olmaq lazım deyil. Bu əhvalatı kimdən soruşsan, kimə desən cavab verəcək ki, Bonner-Dağlıq Qarabağ hadisələrinə beynəlxalq səciyyə vermək istəyir.

Yelena sakit oturmaq bilmir. Fikri-zikri fitnə-fəsad qazanını qaynadıb milli hissləri qızışdırmaqdır. Bu işdə «İzvestiya»nın Yerevan müxbiri Sergey Bablumyan, avantürist Nuykin, erməni pulu ilə dünyanı gəzən Staravoytova onun köməkçiləridir.

Hörmətli oxucular, bütün bunlar heç də təsadüfi deyil. Allah bəlası qonşularımız əsrlərdən bəridir ki, türk xalqlarına qarşı qatı düşmənçilik siyasəti yeridir. Erməni kilsəsi neçə yüz illərdir ki, tarixin və taleyin hökmü ilə dünyanın müxtəlif ölkələrinə səpələnmiş ermənilərı bir dini və mülki mərkəz ətrafında birləşdirmək üçün ağlagəlməz səylər göstərir. Təxminən beş əsrdən artıqdır ki, ermənilərin yaşadıqları hər bir yerdə onların dini və mülki təşkilatları mövcuddur. 25 yaşına çatmış və işləyən hər bir erməni millət vergisi verməyə məcburdur. Erməni dini və mülki mərkəzləri külli miqdarda vəsait yığmışlar. Onlar bunun köməyi ilə kadrlar hazırlayır, onları lazımi yerlərdə yerləşdirir, bərkə düşənlərə köməklik göstərir, lazım gələndə öz gücləri ilə bacara bilmədiklərini cəm etdikləri milyonların, rüşvətin zoru ilə görürlər. ABŞ, Fransa, İngiltərə, Livan, Suriya, İran və dünyanın bir sıra ölkələrində maliyyə cəhətdən güclü, siyasi cəhət-

dən mütəşəkkil və yekdil erməni lobbisi yaradılmışdır. Belə bir beynəlxalq qüvvə ilə qarşı-qarşıya durmaq asan iş deyildir.

Böhran və faciələrdən səbri tükənmiş, rahatlığını itirmiş, qayğısızlıqdan cana gəlmiş xalqın dərdlərinin müalicəsini hardansa müəyyən məqsədlər üçün üzə çıxarılmış qara örtüklü milli şarlatanlara, kənardan dəvət olunmuş ekstrasenslərə tapşırmaq ən azı məsuliyyətsizlik, xalqı və tarixi ələ salmaq deyilmi? Millət vəkillərinə bu ağır, faciəli günlərdə anekdot-lətifə söyləyirdilər, yəqin ki, yaxın vaxtlarda bacarsalar, onlara yenidən «beynəlmiləl» oxutduracaqlar.

Qonşular mərkəzlə birləşib indi beynəlxalq miqyasda özlərinə havadarlar axtarırlar. Respublikamızın prezidenti parlamentdə açıqca söylədi ki, bizi tora salıblar. Amma mən düşünürəm ki, görəsən bizi tora salıblar, ya özümüz düşmüşük?

«Bərəkət» qəz. 12 noyabr 1991

RÜŞVƏTXORLUQ BƏLASI, BİZƏ HARADAN GƏLİB

Son vaxtlar mərkəzi mətbuatda az qala bir-birini təkzib edən iki yazıya rast gəldim. «İzvestiya» yazır ki, rüşvətxorluq və onun açıq və gizli formaları vəba xəstəliyi kimi bütün ölkəni bürüyüb. «Arqumenti i faktı» qəzeti isə ölkədə son illər cinayətlərin statistik cədvəlini dərc etmişdir. Buradan məlum olur ki, sən demə, ölkəmizdə rüşvətxorluq getdikcə yoxa çıxır. Belə ki, iqtisadiyyatla əlaqədar 1989-cu ildə cəmi 433 nəfər, 1990-cı ildə isə 564 nəfər cinayət məsuliyyətinə cəlb olunub. Əgər bu rəqəmləri on beş respublika arasında bölsək, belə çıxır ki, hər müttəfiq respublikada orta hesabla 1989-da 29, 1990-cı ildə isə cəmi 37 rüşvətxor ələ keçib. Belə yerdə atalar deyib ki, inanan daşa dönsün. Əgər yazsaydılar ki, hər rayonda, hər böyük idarədə, müəssisədə, hər ali məktəbdə bu qədər rüşvət aşkar

edilib, onda yenə dərd yarı idi.

Amma bir şeyi də yaddan çıxarmaq olmaz. Axı indi «rüşvət» sözü deyəsən sıradan çıxmaq üzrədir. Bunun yerinə «hörmət» sözü işlədilir. Çünki son illərdə alanın da, verənin də «rüşvət» sözündən zəhləsi gedir. İndi bu məfhum yalnız deyəsən qanun məcəllələrində və hüquq ədəbiyyatında qalır. Amma nədənsə «rüşvətin» sinonimi olan «hörmət» hələlik qanun və hüquq ədəbiyyatına daxil olmamışdır. Görünür, buna görə də hörmət edənləri yaxalamaq dəbdə deyil.

Bu işin bir tərəfi. İndi maraqlıdır ki, bütövlükdə bu rüşvətxorluq bəlası Azərbaycana görəsən haradan və necə gəlib? Böyük mövzudur. Mən onun altına girmək fikrində deyiləm. Lakin ata-babalarımızın bu barədə yazdıqlarının bir qismi mənə məlumdur. Məsələn, İsmayıl xan Ziyadxanov birinci Dövlət dumasının tribunasından Zaqafqaziya torpaqlarını, o cümlədən Azərbaycanı işğal edib, «milli varlığımıza təcavüzə qalxışan, dinimizə və müqəddəslərimizə müdaxilə edənləri» ifşa edərək deyirdi: «Bizdəki idarə sistemi tənqid xaricindədir. O qədər ki, əgər bütün Rusiya bir dəniz, Qafqaz da onun sahilləri olaraq düşünülərsə, bu dənizlə sizə gərəkli olmayan nə qədər boş və səfil varsa hamısını bizim Qafqaz sahillərinə fırılladıb atırsınız. Və bunlar da əslən əxlaqsız olan bir idarənin məmur kadrlarını tamamlamağa yaramış olurlar. Bizim ölkəmizdə dövlət idarəsinin idealı: rüşvət almaq və xalqa əziyyət verməkdir. Kim 90 yaşlı bir qocanın əlindən loxmasını qoparıb alırsa, o, bizdə ən yaxşı məmur sayılır. «Gözü kor olası islamlar üçün bundan dəhşətli nə ola bilər?».

Bunları oxuyarkən adamın varlığı sarsılır. Bu cür tarixi ittihamı təcavüzkar və işğalçının, «əslən əxlaqsız olan» bir idarənin, bir quruluşun, bir ölkənin hakimlərinin üzünə, qaşqasına deyən kişilərin mərdlik və cəsarətinə heyran olmamaq, əhsən deməmək olmur. Digər tərəfdən bizi məhv etməyə, diz çökdürməyə çalışan indiki ölkə rəhbərliyinin ünvanına cüzi tənqidi qeydləri qorxa-qorxa deməyi qəhrəmanlıq sayanların nə qədər

cılız və itaətkar təbiətli olduqlarına da heyfsələnməyə bilmirsən. Doğrudan da tarix kimin kim olduğunu müqayisədə müəyyənləşdirib aşkara çıxarır.

Rəhmət sizə mərd kişilər, yaxşı ki, siz olmuşsunuz. Yazıqlar olsun bizə ki, sizin zəngin mənəvi irsinizi, namus və kişilik dərsinizi öyrənib cavanlara lazımınca tələqin edə bilməmişik.

Yadınıza salım ki, keçən əsrin otuzuncu illərində, yəni Azərbaycan Rusiya tərəfindən işğal olunduqdan az müddət sonra 27 yaşlı məşhur rus yazıçısı Qoqol «Müfəttiş» əsərində qanunsuzluğun, ədalətsizliyin, bürokratizmin, birinci növbədə rüşvətxorluğun Rusiyada dərin kök saldığını açıb göstərir, ifşa edirdi. Həmin illərdə «Kafkazski kalendar» Azərbaycandan yazırdı: «Yerli sakinlərdən heç kəs, hətta gecələr belə evlərinin qapılarını bağlamır, bu barədə heç düşünmürlər də, qaravul söhbəti, alıb-vermək söhbəti buralarda yoxdur». Rüşvətxorluq bəlası bizim əxlaqımızı, mənəvi dünyamızı kor qoyub, o bütün dövlət aparatını, təsərrüfat və ticarət sistemini, inzibati orqanları ağzına alıb. Amma indi bu bəladan danışan yoxdur, yazan da yoxdur. Çünki vaxtilə məşhur tənqid ustası Arkadi Raykin çox böyük uzaqgörənliklə demişdi ki, elə bir vaxt gələcək ki, Rusiyada rüşvətxorluğun müalicəsi tapılacaq, hamı alacaq, hamı da verəcək. Nə haqq qalacaq, nə ədalət, nə də sivilizasiyalı millət. Görək kim-kimi məhv edəcək. Rüşvətxorluq ölkəni, yoxsa ölkə rüşvətxorluğu. Allah sənə də rəhmət eləsin Raykin!

«Bərəkət» qəz. 12 noyabr 1991

MİLLƏT SİZƏ MİNNƏTDARDIR

Üç sözdən ibarət bu cümlə Azərbaycan tarixinə, xalqımızın yaddaşına həkk olunmuşdur. Doğrudur, müəyyən müddət onu xalqın yaddaşından silməyə təşəbbüslər edilmişdir. Lakin tarix yenə də vaxtilə milli dövlətimizi yaradanların bu minnətdarlıq fikrini həyat səhnəsinə qaytarmışdır.

Millət sizə minnətdardır. Bu fikir bir əsrdə ikinci dəfədir ki, səslənir. İlk dəfə 1918-ci ilin sentyabrında deyilmişdir. Məlumdur ki, 1917-ci ilin oktyabr silahlı çevrilişindən sonra Şaumyanın və onun dəstəsinin başçılığı ilə bolşevik-daşnak güruhu Bakını və Abşeronu Azərbaycandan ayırıb Rusiyaya birləşdirmək üçün çox böyük ciddi-cəhd göstərirdilər. 1918-ci ilin martında azərbaycanlılara vəhşicəsinə divan tutmaq da bu məqsədə xidmət edirdi. Bakının isə Azərbaycandan ayrılması bütövlükdə Azərbaycanın özünün itirilməsi idi. M. Ə. Rəsulzadə bununla əlaqədar yazırdı: «Bakı Azərbaycanın, Azərbaycan da Bakınındır. Bakını Azərbaycandan ayırmaq istəyən kim olursa, Azərbaycanın həyatına qəsd etmişdir. Bakısız Azərbaycan təsəvvür olunmaz. Bakı tarixən də halən bir türk şəhri və müsəlman ölkəsidir... Bakı Azərbaycanın qapısıdır... Xülasə, Türkiyə üçün İstanbul, Almaniya üçün Berlin, Rusiya üçün Moskva nə isə Azərbaycan üçün də Bakı ondan artıq olmasa da, odur».

1918-ci il sentyabrın 15-də Nuru paşanın başçılıq etdiyi birləşmiş Azərbaycan-türk islam ordusu Bakını düşmənlərdən azad etdi. Bu münasibətlə Azərbaycan cümhuriyyəti hökumətinin baş naziri Fətəli xan Xoyski Nuru paşaya göndərdiyi təbrik teleqramını «Millət sizə minnətdardır» sözləri ilə bitirmişdi. Nəsib bəy Yusifbəyli isə həmin il oktyabrın 3-də. «Azərbaycan» qəzetində cümhuriyyət gənclərinə müraciətində yazmışdı: «...Zənn edirəm ki, üç kəlmədən ibarət olan bu cümləni Azərbaycan durduqca hər bir azərbaycanlı türk qəlbində yaşadacaq və dilində təkrar edəcəkdir».

Çox böyük müdriklik və uzaqgörənliklə deyilmiş sözlərdir. Yetmiş il müddətində dəmir pərdə və tikanlı sərhəd məftilləri bi-

zi türk və islam dünyasından təcrid etdisə də bu həmrəylik ruhunu öldürə bilməmişdir. Biz həmin üç kəlmədən ibarət cümləni bu gün də təkrar edirik. Bəs indi nə üçün?

Məlumdur ki, Sovet imperiyası dağılmaq üzrədir. Respublikalar öz istiqlaliyyətlərini elan etmişlər. Lakin Pribaltika istisna olmaqla bu respublikaların istiqlaliyyətini beynəlxalq miqyasda nədənsə tanıyanlar tapılmır. Qərbin hakim dairələri bir tərəfdən kommunist imperiyasının dağılmasına sevinir, digər tərəfdən ehtiyat edir. Elə respublikaların öz daxilində də istiqlaliyyəti formal elan etmək tərəfdarları az deyil. Hakimiyyət başında olanlar, uzun müddət zəhmətsiz dolananlar istiqlaliyyətdən, xalqın milli şüurunun oyanmasından ehtiyat edirlər. Biz bunu Azərbaycan Ali Sovetinin sessiyasının işində də aydın görürük. Lakin tarix öz işini görür.

Bu günlərdə Ankaradan şad xəbər alındı. Türkiyə Respublikası hökuməti Azərbaycanın istiqlaliyyətini rəsmən tanıdığını bildirmişdir. Respublika prezidenti bununla əlaqədar olaraq demişdir ki, «Dost dövlətin bu addımı Azərbaycan xalqının tarixində görkəmli hadisədir. Bu addım suveren Azərbaycanın dünya birliyinə daxil olmasına kömək edəcək, habelə Türkiyə ilə Azərbaycanın möhkəmlənməkdə olan münasibətlərini yeni səviyyəyə qaldıracaq».

Azərbaycanın Ali Soveti isə Türkiyə hökumətinə rəsmi minnətdarlıq məktubu göndərməyi qərara almışdır.

Azərbaycanın dövlət müstəqilliyini yenidən tanıyan ilk dövlət Türkiyə Respublikasıdır. Biz bilirik ki, türk xalqı bu günü də uzun müddət gözləmişdir.

Xarici şərhçilər bu mühüm hadisə ilə əlaqədar bəzi faktları da nəzərə çatdırırlar. Məsələn, onlar yazırlar ki, Türkiyə Respublikasının hökumət kabinəsi Azərbaycanın müstəqilliyini tanımaq məsələsini müzakirə edərkən nazirlərdən bir neçəsi belə bir rəydə olmuşdur ki, Türkiyənin belə bir addımı görəsən Sovetlər birliyində və dünyada müsbət qarşılanacaqmı? Buna cavab olaraq həmin nazirlərə bildirilmişdir ki, vaxtilə Mustafa Kamal Paşanın - Atatürkün başçılığı ilə təşkil olunmuş ilk türk

hökumətini birinci dəfə müstəqil Azərbaycan tanımışdır. Müxbirlər yazırlar ki, bu dəlil müəyyən mənada tərəddüd edən nazirləri tərksilah etmişdir. Əlbəttə, biz bu təfərrüatı gələcəkdə ətraflı biləcəyik. Lakin Azərbaycanı müstəqil dövlət kimi tanıyan ilk ölkənin Türkiyə Respublikası olduğu faktı inkaredilməzdir.

Türkiyənin prezidenti Turqut Özal deyir ki, XXI əsr dünyada türk əsri olacaq. Yəni müstəqil demokratik türk dövlətlərinin sayı xeyli artacaq. Biz bu xoş arzuya ürəkdən qoşuluruq, şərik çıxırıq.

Hər bir azərbaycanlı Türk istiqlal mücahidlərini müstəqilliyimizə kömək edənləri, dar gündə bizə əl uzadanları qəlbində yaşadacaq, minnətdarlıq sözlərini dönə-dönə təkrar edəcək.

«Bərəkət» qəz. 18 noyabr 1991

HƏDƏ-QORXU, YOXSA REAL TƏHLÜKƏ

Moskvada nəşr olunan «Nezavisimaya»da Ermənistan Nazirlər Soveti yanında müdafiə komitəsinin sədri Vahan Şirxanyanın müxbirlərə verdiyi bəyanat dərc olunmuşdur. Bu bəyanata çox əcaib bir başlıq verilmişdir: «Bu dəfə Ermənistan ilə Azərbaycan arasında müharibədə heç kimin kənarda qalması mümkün olmayacaq».

Belə bəyanatın üstündən ötəri keçmək olmaz. Vəziyyətin ciddiliyini, təhlükənin real səciyyə daşıdığını hiss etmək, görmək lazımdır. Vahan Şirxanyan belə bir iddia irəli sürür ki, guya Azərbaycan Dağlıq Qarabağ Vilayətindən bütün ermənilərı köçürmək planı hazırlayır, bunun üçün genişmiqyaslı hərbi hazırlıq görür. Heç bir dəlil-sübut gətirmədən bu cür provakasiya xarakterli bəyanatlar vermək Ermənistanın indiki rəhbərlərinin köhnə peşəsidir. Dəfələrlə Azərbaycan Respublikasının Ali Soveti, rəhbərliyi bildirmiş və rəsmən təsdiq etmişdir ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycanın ayrılmaz tərkib hissəsidir, respublika hökuməti orada yaşayan vətəndaşların hüquqlarını tam şəkildə təmin etməyə borcludur. Belə bir təminat da verilmiş və verilir.

Bəs erməni millətçilərinin bu cür bəyanatlar verməkdə məqsədi nədir? Bir neçə ildir ki, Dağlıq Qarabağı Ermənistana birləşdirmək istəyənlər bunun hərbi yolla həyata keçirilməsi planını işləyib hazırlayırlar. İndi Dağlıq Qarabağda erməni hərbi-bandit dəstələrinin fəaliyyəti bunu aydın göstərir. Digər tərəfdən Ermənistan rəhbərliyi İttifaq və dünya ictimaiyyətində Azərbaycan haqqında mənfi təsəvvür yaratmaq, onu insan hüquqlarını pozmaqda təqsirləndirmək və ermənilərı zorla Dağlıq Qarabağdan sıxışdırmaqda ittiham etməklə ideoloji-siyasi zəmin hazırlamaq istəyir.

Ermənistan rəhbərliyi sözün həqiqi mənasında müharibəyə hazırlaşır. Buna göz yummaq olmaz. Əgər əvvəllər Dağlıq

Qarabağ Muxtar Vilayətini və Azərbaycanı ikinci Livana döndərməkdən, çevirməkdən söhbət gedirdisə, indi Vahan Şirxanyan bu regionun Yuqoslaviyaya döndəriləcəyindən söz açır.

Bu real təhlükə qarşısında respublikamızın parlamenti və rəhbərliyi nə iş görür? Hamını maraqlandıran, hamını düşündürən məsələ budur. Əvvəllər deyirdilər ki, Dağlıq Qarabağda, Goranboyda, Qazaxda, eləcə də Ermənistanla həmsərhəd olan geniş rayonlarda vəziyyət gərgindir. Ali Sovetin son sessiyasında isə dedilər ki, vəziyyət lap gərgindir. İndi düşünürsən ki, «lap»dan sonra nə gələcək? Axı «lap-lap» yoxdur.

Açıq desək, vəziyyət pisdir. Ermənistan müasir silahla təchiz olunmuş öz milli ordusunu artıq yaratmışdır. Odur ki, Dağlıq Qarabağda və sərhəd rayonlarında istədiyini edir. Respublikamızın hava və quru sərhədlərini hardan istəsə pozur. Xəbər verirlər ki, təkcə Dağlıq Qarabağa Ermənistandan üç mindən artıq erməni yaraqlısı gətirilib. Erməni silahlı dəstələrinin vilayətdəki sayı on mini keçir. Vahid mərkəzdən idarə olunan, bütün silah növlərindən istifadə edən, yaxşı kəşfiyyat xidmətinin qulluq etdiyi bu ordu hissələri geniş həcmli hücum əməliyyatına ciddi hazırlıq görür. Ermənistan Nazirlər Sovetinin rəsmi nümayəndəsinin bəyanatı da bunu aydın göstərir.

Bəs bunların müqabilində respublika hökuməti, Ali Sovet bu məsələyə necə baxır? Son sessiyada vəziyyəti olduğu kimi nəzərə çarpdıran çıxışlar oldu. Ürəyi yananlar az deyil. Həyəcan təbili çalanlar da var. Lakin Ali Sovetdəki «susan çoxluq» yenə öz işini görür. Müxbirlər yazdılar ki, Dağlıq Qarabağ məsələsi ilə əlaqədar olaraq bəzi susan deputatlar da hərəkətə gəliblər və nümunə göstərdilər ki, onlardan biri bildirdi ki, «Biz əlimizə silah yox, adi dəyənək alıb Ermənistanın üstünə getsək, yerlə yeksan edərik oranı?!». Mən bu sözləri oxuyarkən susan çoxluğun təfəkkür tərzinə təəssüf etməyə bilmədim. Bildiyiniz kimi, bizim ədəbiyyatımızda belə məşhur bir əhvalat nəql olunur. İran sərbazından soruşurlar ki, əgər İran ingilislə vuruşmalı olsa kim qalib gələr? Sərbaz cavab verir ki, palan davası olsa, İran. İndi

bizim deputatlardan bəziləri də deyəsən palan davasına arxayındırlar. Xalqın taleyinin meydana qoyulduğu bir vaxtda bu cür təfəkkür tərzi olanların meydana çıxması nə qədər acınacaqlı və faciəlidir.

Respublika rəhbərliyi, Ali Sovetdəki çoxluq tez-tez deyirlər ki, narahat olmayın, respublika rəhbərliyi var, prezident var, lazım olan tədbirlər görülür. Doğrudan da respublikamızın prezidenti vəziyyət gərginləşən kimi mərkəzə yollanır, danışıqlar aparır, orda söz verirlər yenə qayıdır, amma vəziyyət dəyişmir. Birdəfəlik başa düşmək və bilmək lazımdır ki, Qorbaçovun ikiüzlü oyununu onun dəstəsinin hər bir üzvü yaxşıca öyrənmişdir. Heç kəsə arxayın olmalı deyil. Xalqın taleyini, torpağın taleyini təhlükəyə salmaq olmaz. Vaxtı ilə də Azərbaycan eyni vəziyyətə düşmüşdü. Bu əsrin əvvəlləri idi. O vaxt başbilənlərimiz «Difai» təşkilatını yaratdılar. Düşmənin hücumlarını bacarıqla dəf etdilər. Xalqın fiziki varlığını və torpağını qorudular, saxladılar. O vaxtda liberallıq edənlərə müraciətlə qeyrətli vətən oğlu Ömər Faiq Nemanzadə yazırdı: «Ən əvvəl bu gün odlar içində yanan, əziyyətlə can verən yaxın qardaşlarımızın ah və fəryadlarına çatmalıyıq. Bu gün insanlıq və həqqaniyyətin əmr etdiyi vəzifə budur. Yoxsa, yumşaq kürsülərin üstündə durub insanlıqdan dəm vurmaq yalnız iki şahı mənfəətdən ötrü ittihad edib sosialdemokrat olmaq mənfəətpərəstlikdən özgə heç bir zad deyildir».

Ermənistan rəhbərliyinin bəyanatlarına hədə-qorxu kimi baxmaq sadəlövhlük olardı. Təhlükə realdır. Ermənistanda müdafiə məsələlərinə rəhbərlik edən Vahan Şirxanyan Dağlıq Qarabağ Muxtar Vilayətindən yox, Dağlıq Qarabağ respublikasından söhbət açır. Azərbaycanın ərazi bütövlüyünü pozub Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistana birləşdirmək haqqında qərarlar qəbul edən erməni rəhbərliyi indi görür ki, bu ideyanı nə ölkə daxilində, nə də beynəlxalq miqyasda müdafiə edən yoxdur. Yəni sərhədlərin dəyişdirilməsi, onlara yenidən baxılması məsələsini müdafiə edən tapılmır. Odur ki, indi Dağlıq Qarabağ respublikası haqqında söhbət gedir. Deməli, keçmiş SSRİ-də iki erməni respublikası nəzərdə tutulur. Birincisi, Ermənistan, ikincisi, Dağlıq Qarabağ respublikası. Bu planı həyata keçirmək üçün isə yeganə yolu onlar müharibədə görürlər.

Ölkədə vəziyyət ağırlaşdıqca, mərkəz dağıldıqca Ermənistan rəhbərliyi öz strateji xülyasını həyata keçirməyə, həm də hərbi yolla həyata keçirməyə cəhd göstərəcək. Ayıq-sayıq olmaq, düşmən qarşısına tam hazırlıqlı çıxmaq lazımdır. İndi itirilən hər bir gün bizi yalnız fəlakətə apara bilər. Vaxt gözləmir. Sözdən işə keçmək vaxtı deyilmi?

«Bərəkət» qəz. 19 noyabr 1991

«OYUN» NƏ QƏDƏR ÇƏKƏCƏK?!

- Suverenlik elan olundu, müstəqillik haqqında konstitusiya qanunu Ali Sovet tərəfindən qəbul edildi. Türkiyə hökuməti Azərbaycanı müstəqil dövlət kimi tanıdı. Sizcə, bu Azərbaycanı dünyanın geniş dövlətlərinin tanıması üçün kifayətdirmi? Perspektivi necə görürsünüz?

- Türkiyə dövlətinin Azərbaycanın müstəqilliyini birinci tanımasını hamımız gözləyirdik. Soruşa bilərlər: niyə? Türk diplomatiyasının zəngin tarixi ənənələri var. Siyasətdə uzaqgörənlik əsas şərtdir. Türklərdə bu uzaqgörənlik var. Atatürkün türklərə vəsiyyəti «ölkədə sülh, cahanda sülh» şüarıdır. Bizim həddən artıq ehtiyat etməyimizə baxmayaraq, dünya, eləcə də türklər görürlər ki, dağılan bu imperiyanı heç nə xilas edə bilməyəcək. Respublikaların əksəriyyəti bu və ya geniş şəkildə suverenliyə nail olacaqlar. Gec-tezi var.

Vəziyyət ruslarda ona görə çətin və ağır keçir ki, Rusiyada imperiya yaratmaq, zorla birləşdirmək, saxlamaq konsepsiyası hazırdır. (Nahaq yerə noyabr günlərində imperiya yaradılmasının 270 illiyini qeyd etmədilər). Ancaq imperiyanın sökülməsi, könüllü surətdə azad etmək, xalqlar həbsxanasının qapısını açmaq vərdişi və konsepsiyası yoxdur. Bizim düşdüyümüz vəziyyət bununla səciyyələnir, çətinliklərimizin də əksəriyyəti burdan doğur.

Mərkəz 270 il ərzində tutduğu ölkələri iqtisadi, siyasi, mənəvi, əxlaqi, dini cəhətdən bir-birinə elə bağlamışdır ki, imperiya buxovundan xilas olmaq, çıxmaq cəhənnəm körpüsündən keçmək kimi bir şeydir. Türklər əsrin əvvəllərində Osmanlı imperiyası dağılarkən bu fəlakəti yaşamışlar. Həm də onlar bunu da hiss edirlər ki, axırıncı rus imperiyası da Osmanlı imperiyasının gününə düşməlidir. Bunu bildiklərinə və gördüklərinə görə dilbir, qanbir qardaş xalqın istiqlaliyyətini tanımaya bilməzdilər. Moskvanın özünün də razılığı alınmışdı.

O ki, qaldı geniş dövlətlərin bizi tanımasına, bu birinci növbədə, respublikadan və onun rəhbərliyindən asılıdır. Respublikamızın Ali Soveti, Azərbaycan hökuməti, prezident əgər müstəqil dövlət statusuna uyğun hərəkət etsələr, göstərsələr ki, Azərbaycan sözdə yox, işdə öz taleyinin, öz torpağının sahibidir, beynəlxalq hüquq normaları çərçivəsində, demokratik yolla irəliləməkdədir, onda bizi nə üçün tanımasınlar?

- Əsas səbəb təkcə budurmu?

- Beynəlxalq miqyasda tanımağın obyektiv və subyektiv cəhətləri də var. Mən subyektiv cəhətlərdən bəzilərini deyərdim. Bu hər şeydən əvvəl, Dağlıq Qarabağ problemidir. Bilirsiniz ki, bu yaxınlarda Ermənistanın prezidenti Ter-Petrosyan prezidentlik səfərini Amerikaya etdi. Nə üçün o, erməni mafiyasının daha güclü olduğu Fransaya yox, okeanın o tayına səfərə çıxdı? Ermənilər köhnə siyasətçidirlər, özü də alverçi siyasətçidirlər. Tarixən həmişə güclülərin himayəsinə sığınmışlar, sonra da onlar zəifləyəndə arxadan bıçaq vuran olmuşlar. Bu psixologiya ayrı-ayrı ermənilərə də aid olan xüsusiyyətdir. ABŞ indi dünyada yeganə hegemon dövlət kimi qalmışdır, səsinə, sözünə qulaq asan da çoxdur. Ter-Petrosyan da bu yeganə nəhəngin qoltuğu altına özünü vermək istəyir. İlk xəbərdən məlum olur ki, prezident Buş Ermənistanı müstəqil bir dövlət kimi tanımağı hələlik lazım bilməmişdir. O ki, qaldı iqtisadi köməyə, bildiyiniz kimi, Ermənistanın buna çox böyük ehtiyacı var. Amerika prezidenti bildirir ki, SSRİ-yə kömək ediləcək və respublikalar arasında bölüşdürüləcək köməkdən Ermənistana da pay düşəcək. Deməli, ümid ABŞ-dakı erməni lobbisinədir.

Ter-Petrosyan və onun dəstəsi Amerikada Azərbaycan əleyhinə geniş təbliğat aparırlar. Əsas məqsəd də odur ki, respublikamızın beynəlxalq aləmdə tanınmasına maneçilik törətsinlər. Əldə dəstəvuz edilən dəlil, guya Azərbaycanda, xüsusilə Dağlıq Qarabağda insan hüquqlarının pozulmasıdır. Kimin bu hüquqları pozduğu haqda o qədər yazılıb ki, onları təkrar etməyə ehtiyac görmürəm.

- Respublikada ən çox təşviş doğuran odur ki, görəsən, müstəqil dövlət kimi yaşaya bilərikmi? Xalqımız iqtisadi fəlakətə düçar olmaz ki?

- Bu suallar təbiidir. Müstəqillik uğrunda vuruşan, çalışan xalqlar həmin hissləri keçirmişlər, taleyüklü suallara cavab verməli olmuşlar. Biz də bu mərhələni keçməliyik. Əvvəla, Rusiyanın tanınmış iqtisadçıları, mütəxəssisləri yazırlar və qeyd edirlər ki, yalnız RSFSR və Azərbaycan aktiv saldoya (qalığa) malikdirlər. Yəni xaricə satdıqları aldıqlarından qat-qat çoxdur. Bu günlərdə Baş nazirimiz Həsən Həsənov da rəsmi surətdə bildirdi ki, respublikanın taleyi üçün iqtisadi həyəcan keçirməyə əsas yoxdur. Gələn il ən aşağısı bu ilki səviyyədə yaşayacağıq, qarşıdakı illərdə həyat səviyyəsini yüksəltmək mümkün olacaq.

Ən çox həyəcan təbili çalanlar o adamlardır ki, həmişə hazırın naziri olublar. Müstəqil düşünməyə, müstəqil işləməyə öyrənməmişlər, işgüzarlıq və idarəetmə vərdişinə yiyələnməmişlər. Halbuki bazar iqtisadiyyatı şəraitində bunlar vacibdir.

İqtisadi müqaviləyə qoşulmamağa Ali Sovetdə əvvəlcə lehinə səs verənlər, necə oldu ki, indi fikirlərini dəyişiblər? Deməli, bu adamların heç bir işdə səriştələri yoxdur. Parlamenti öz idarələrindəki iş üsulu ilə qarışdırırlar. O nə parlamentdi ki, çox mühüm həyati bir məsələdə şiltaqlığa yol verir. Qətiyyətlə deyirəm ki, bizim parlament uşaq xəstəliyi kimi bir şeydir. Yəqin ki, gələcək tarixçilər bunu tənqid və təhlil edəcəklər.

Eyni münasibəti ittifaq müqaviləsinə dair də demək olar. Qorbaçovun nəyin bahasına olursa-olsun ittifaqı saxlamaq təşəbbüsü məlumdur. İttifaq olmasa onun prezidenti də olmayacaq. İttifaqın 70 nazirliyi noyabrın 15-dən fəaliyyətlərini dayandırıblar. Qalanlarının taleyi bu yaxınlarda məlum olacaq. Bu prosesin qarşısını almaq mümkün deyil. İmperiyanın dağılmasının kortəbii memarı olan Qorbaçov indi istəyir ki, tarixə bu adla düşməsin. Onun bu işdə həmkarları imperiya təfəkkürü olan RSFSR və müsəlman respublikalarıdır. Qorbaçovun arxasınca bunları gedən görəndə rəhmətlik Sabirin məşhur «Neylərdin, ilahi» şeiri yada düşür.

- Dağılan ittifaqı heç bir iqtisadi və siyasi müqavilə xilas edə bilməyəcək. Bu məsuliyyəti öhdəsinə götürənlər tarix və xalq qarşısında cavab verməli olacaqdır. Tarix müstəqillik üçün əlverişli şərait yaradıb, əgər bundan istifadə olunmasa, onda gərək biz xalq adını üstümüzdən götürək.

«Almaniyanın səsi» radiosunun müxbiri ilə Yerevanda verdiyi müsahibəsində Aşot Əmircanyan (1981-ci ildən o Ermənistanı tərk edib. Almaniyada yaşayır, **xarici** radiostansiyalarla əməkdaşlıq edir) bildirdi ki, indi Yerevanda Dağlıq Qarabağın Ermənistana birləşməsini heç kəs tələb etmir və bu məsələni qoymur. Xalq yorulub, istəkləri budur ki, respublika rəhbəri Azərbaycanla münasibətləri nizama salsın. Əlbəttə, A.Əmircanyan münasibətlərin nizama salınmasını bizim boynumuza qoymaq istəyir. Lakin əsas məsələ yuxarıdakı etiraflardır.

Bəzən belə bir fikir söyləyirlər ki, nə üçün iqtisadi müqaviləyə birinci Ermənistan qol çəkir, biz imtina edirik?

Məsələni bu cür qoyanlar görünür ki, respublikanın iqtisadi potensialından və mövqeyindən xəbərsizdirlər. Ermənistan heç vaxt öz qazancı hesabına dolanmamışdır. İttifaq büdcəsindən həmişə böyük pay almışlar və indiki vəziyyətdə bu imkanı itirmək istəmirlər. İttifaq büdcəsinə və ittifaqın imkanlarına əl uzatmaq fikrindədirlər. O biri tərəfdən də hələ ümidləri var ki, Rusiyanı siyasi cəhətdən də «Böyük Ermənistan» oyunlarına cəlb etsinlər.

«Azərbaycan» qəz. 21 noyabr 1991

BİZ HARA GEDİRİK?

- Mümkünsə, bir neçə kəlmə ilə özünüzü oxucularımıza təqdim edin.

- Məmnuniyyətlə, 1924-cü ildə Şəkidə anadan olmuşam. 3 yaşında ikən atamı itirmişəm. Bakı Dövlət Universitetinin jurnalistika şöbəsini bitirdikdən sonra Moskvada aspiranturaya daxil olmuşam. 1954-cü ildə «1917-1918-ci illərdə Azərbaycan mətbuatı» mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişəm. Həmin ildən Bakı Dövlət Universitetində pedaqoji və elmi fəaliyyətlə məşğulam. Jurnalistika fakültəsində təhsil alan tələbələr üçün yazdığım dərsliklərə, çoxillik elmi-pedaqoji fəaliyyətimə görə professor adına layiq görülmüşəm.

- Bilirik ki, durğunluq və ondan əvvəlki illərdə obyektiv çətinliklərə baxmayaraq vicdanın səsi ilə işləmiş, tələbələrinizə əsl həqiqəti söyləməkdən çəkinməmisiniz. Bununla belə, yəqin siz də etiraf edərsiniz ki, illər boyu kommunist ideologiyasını təbliğ, təşviq edən minlərlə jurnalistin həyata vəsiqə alması üçün siz də xeyli zəhmət çəkmisiniz. Həyatınızın həmin illəri üçün təəssüflənmirsiniz ki?

- Bu suala birmənalı cavab vermək çətindir. «Təəssüflənirəm» desəm, bu, qeyri-obyektiv, qeyri-səmimi olar, bir az da dərinə getsəm, öz mənliyimə toxunar. Axı, acılı-şirinli həmin illərdə minlərlə tələbə ilə təmasda olmuş, rəsmi proqramdan əlavə, özümün yazılmamış proqramım ilə tələbələrimə həyat dərsi vermişəm. Bilirsiz, mənim dünyagörüşüm, həyata baxışım iki zəmində formalaşıb. Biri məktəb mühiti, digəri ailə. Məktəb, istər şagirdkən, istər tələbə ikən kommunist ideallarına sədaqət ruhunda tərbiyələndirirdi. Ailəmizdə isə bəzəksiz, hay-küysüz mühit hökm sürürdü. Dayılarım cəmiyyətin iyrəncliyini bütün çılpaqlığı ilə söyləyir, nifrətlərini gizlətmirdilər. Onların sualları təbii ki, məni də düşündürürdü: «Namuslu filankəsi gecə ikən niyə apardılar? Namussuz filankəs isə öz kefindədir, niyə? Bir sözlə, ailəmiz qapalı, məhdud çərçivədə cəmiyyətin müxalif qüvvəsi idi. Bax, özüm də müəllim ikən çalışmışam ki, tələbələrim

sərbəst düşünsün, ətrafda baş verən hadisələri açıq, ayıq gözlə götür-qoy etsinlər, özləri düzgün nəticə çıxarsınlar.

Bir fakt deyəcəyəm. «İskra»nı biz ilk partiya mətbuatı kimi tədris edirdik. Deməli, orada dərc olunan məqalələrə müraciət edə bilərdik. Mən qəsdən «İskra»nın 1901-ci il, 13-cü nömrəsində çap olunmuş «Gürcüstanda rus süngüsünün 100 illiyi» məqaləsini tələbələrə açıqlayırdım. Bunu elə dövrdə edirdim ki, respublika hökuməti Azərbaycanın Rusiyaya birləşdirilməsinin ildönümünü az qala milli bayram kimi qeyd edirdi. Məsləkdaşı dostum Bəxtiyar Vahabzadə (yeri gəlmişkən, o da universitet proqramı ilə dərs deyirdi, eyni zamanda «Ana dili», «Latın dili» kimi şeirlərini də yazırdı) ilə məni də çoxları kimi 1986-cı il Alma-Ata hadisələri həm sarsıtdı, həm qəlbimizə bir işıq saldı: demək, Sovetlər Birliyindəki türk dünyası, hələ yaşayır, mübarizə aparır. Lakin Alma-Ata hadisələrinə münasibətimizi necə bildirək? Mən Bəxtiyara dedim ki, hadisə ilə ad günüm eyni vaxta - 17 dekabra təsadüf edir. Şeiri ad günümə ithaf et və ürəyindən keçəni yaz. Beləliklə, «17 dekabr» şeiri meydana gəldi. Şeirin leytmotivi türk ruhunun yaşaması və ölməzliyidir. Auditoriyalarda da bu məzmunda söhbətlərimi yəqin ki, tələbələrim də xatırlayır.

Odur ki, universitetdə keçirdiyim illər üçün təəssüflənməyə dəyməz. Digər tərəfdən isə təəssüflənməmək də olmur. Tələb olunanları deməmək özünü yaşamaq imkanından məhrum etmək idi. Ürəyimizdə olanların hamısını isə çox vaxt söyləyə bilmirdik. Bu gün dönə-dönə müraciət etdiyim, sitatlar gətirdiyim mətbuat tariximizi, şübhəsiz, o vaxt indikindən yaxşı bilirdim. Amma susurdum. Bilirdim ki, tələbələrin arasında da Dövlət Təhlükəsizlik Komitəsinin agentləri var. Fikrimcə, bizim nəsil həm bədbəxt, həm xoşbəxt nəsildir. Ona görə bədbəxtik ki, ömrümüzün böyük hissəsi, Leninin təbirincə, «xalqlar-həbsxanası»nda, Qorbaçovun fikrincə, «bədbəxtliyə ortaq qardaşlar» cəmiyyətində, nəhayət, akademik Şmelyov demişkən, «dəlixanada» yaşamışıq. Xoşbəxtik, ona görə ki, xalqımızın qəddinin yavaş-yavaş düzəldiyi günləri də görürük. Azərbaycan Cümhuriy-

yətinin bərpasının şahidi və iştirakçısı olmaq əsl səadət deyilmi?

- Bir halda ki, söhbət müstəqil Azərbaycan Cümhuriyyətinin bərpasından düşdü, zəhmət olmazsa deyin, sizcə nə üçün indi xarici dövlətlər Azərbaycan Respublikasını tanımırlar?

- Bunun bir neçə səbəbi var. Başlıcası deyirəm. BMT-nin Nizamnaməsində hansı ölkələri müstəqil dövlət kimi tanımaq şərtləri barədə yazılmışdır. Əlbəttə, ən əvvəl müstəqilliyini elan etmiş dövləti müstəmləkəçisi olduğu dövlət tanımalıdır, yəni onun razılığı olmalıdır. Bu razılıq isə iki yolla alınar: ya dinc yolla, ya da zorla. Bizdə necədir? Moskva kağızda hər şey, həqiqətdə isə az şey verir. Təkcə respublikaların xarici siyasətlərinə nəzər salmaq kifayətdir ki, mənzərə aydın görünsün. Baltikyanı ölkələr istisna olmaqla keçmiş SSRİ-nin bütün respublikalarının rəhbərləri, mənca, xarici ölkələrə yalnız mərkəzin razılığı ilə gedə bilərlər. Eləcə də iqtisadi-maliyyə əlaqələri Moskvasız mümkün deyil. Bir sözlə, Moskva əvvəlki imperiyanı cildini dəyişib saxlamaq istəyir.

- Sizcə, mərkəz bundan sonra respublikalara qarşı necə siyasət yeridəcək?

- Mərkəz bütün gücü ilə çalışacaq ki, respublikaların ağzını bir yerə bağlasın. Bu zaman yaratmaq istədiyi birliyə ya iqtisadi, ya hərbi, ya suveren dövlətlərin ittifaqı deyəcək. Fəqət imperiyanın dağılmamasına çalışacaqlar.

- Azərbaycanın bütün mənalarda müstəqilliyini özünün başlıca vəzifəsi hesab edən müxalifətə münasibətiniz necədir?

- İstərdim əvvəlcə müxalifət anlayışının özünə münasibətimi bildirim. Təəssüflər ki, bizdə bəzən qüvvələr marksist-leninçi təraziylə ölçülür, cəmiyyət təbəqələrə, siniflərə bölünür. «Bizimlə olmayanlar düşmənimizdir» - bu, çox təhlükəlidir. Xeyr, müxalifət düşmən sinif, təbəqə, qüvvə deyil. Yaxud əksinə, hakimiyyətdə olanlara sinfi düşmən kimi baxmaq lazım deyil. Müxalifətin cəmiyyətdəki rolu, mövqeyini müəyyənləşdirmək üçün uzağa yox, öz mətbuat tariximizə müraciət edək.

1917-ci ildə N. Nərimanov «Hümmət» qəzetinin birinci nömrəsini çapdan buraxır və baş məqalədə öz məramını bəyan

edir. M. Rəsulzadə «Açıq söz»də «Tazə rəfiqimizi təbrik» adlı məqalə ilə çıxış edir və «Hümmət»i təbrik edir. Bununla belə N.Nərimanovun baş məqalədə irəli sürdüyü tezislərə qarşı öz fikrini qoyur. Demək istədiyim odur ki, tərəflər öz proqramını əsaslandırmalı, inandırmalı, təmkinlə qəbul etdirməlidir. Yox, əgər sənin proqramın elmi şəkildə əsaslandırılmayıbsa, yaxud yarımçıqdırsa və mənə onu zorla qəbul etdirmək istəyirsənsə, bu düzgün deyil. Bu o deməkdir ki, «bəy oğlusan, demək, köpək oğlusan».

Bu gün bizdə vəziyyət necədir?

- Əvvəlcədən deyim ki, mənca, müxalif qüvvələr hakim qüvvələrdən bir baş yuxarıdır. Bu, parlament iclaslarında özünü daha bariz büruzə verir. Müxalif qüvvələr xalqın «Bizi hara aparırsınız?» sualına cavab verməyə qismən hazırdırlar və cavab verirlər. Lakin nə prezident, nə baş nazirimiz xalqın «Biz hara gedirik?» sualı qarşısında hələlik susurlar. Onlar nə öz proqramları, nə son məqsədləri, nə tutduqları yol barədə hələlik xalqa bütöv və açıq söz deməmişlər. Həyata keçirilən dəyişikliklər, islahatlar, qərarlar, təzyiqlər, mitinqlər vasitəsilə mümkün olmuşdur.

- Sizcə, Dağlıq Qarabağ problemi necə yaranmışdır və onun həlli yolu hansıdır!

- Bu barədə lazım olduğundan çox danışılmış, deyilmişdir. Əgər kim hələ də Dağlıq Qarabağ münaqişəsinin səbəbini, həlli yolunu bilmirsə, deməli, ya özünü bilməməzliyə, görməməzliyə qoyur, yəni bunu qəsdən edir, ya da o kənar planetdən gəlib. Bu, belədir. Mənsə başqa şey demək istərdim. Ömər Faiq Nemanzadə 1906-cı ildə «İrşad» qəzetində «Nə etməliyik» məqaləsində yazırdı ki, ermənilər bizi öz təbii düşmənləri hesab edirlər. Təbii düşmənlə isə düşmən kimi rəftar etməyi bacarmalısan. Erməni milli faşizmi bizi bir xalq kimi tanımaq istəmir, bizi məhv etməyi qarşısına məqsəd qoyub. Bunu heç vaxt - hətta sülh zamanı belə unutmamalıyıq. Odur ki, hər bir azərbaycanlı doğularkən onun qulağına həm də erməni xətasından sayıqlıq duası oxunmalıdır: erməni səni təbii düşmən sayır.

- Bu gün sanki əksəriyyət latın əlifbasının tərəfdarıdır. Lakin ona doğru irəliləyiş yoxdur. Niyə?

- Çünki əlifba məsələsini siyasi oyuna çevirənlər var. Bəziləri üçün bu, vaxtı çatmamış məsələ, digərləri üçün zaman-zaman nüfuz qazanmaq vasitəsidir. Bir başqası üçün alternativ qoymaq alətidir: ərəb, yoxsa latın?! Bütün bunların arxasında əlifbaya qətiyyən dəxli olmayan niyyətlər, əməllər durur. Latın xalqımız üçün zərurətdir, kim bu nemətdən də sui-istifadə etmək istəyirsə, onun vicdanı təmiz deyil.

- Əvvəllər yaşı 100 olmayan KP-nin tarixinin tədrisinə az qala təhsil illərinin yarısı həsr olunurdu. Halbuki Azərbaycan tarixinə bir neçə saat vaxt ayrılır və ikinci növ fənn kimi öyrədilirdi. İndi vəziyyət necədir?

- Təhsil sisteminin, ümumiyyətlə, köklü islahata ehtiyacı var. Sualınıza isə sevindirici cavab verə bilməyəcəyəm. İndi kommunist partiyasının tarixi öyrənilmir, eyni zamanda Azərbaycan tarixini də istənilən səviyyədə öyrətməyə kadr yoxdur.

- Sonuncu sualı verməyəcəyəm. Belə demək mümkünsə, sərbəst suala cavab verin.

- Xalq hələlik siyasətçilərlə siyasətbazları yaxşı seçə bilmir. Odur ki, kim siyasətbazlıqla məşğul olub xal toplamaq istəyirsə, xalqa xəyanət edir. Gəlin, bunu unutmayaq!

«Odlar yurdu» qəz. 21 noyabr 1991

VERTOLYOT QƏZAYA UĞRAYIB, YOXSA VURULUB?

Noyabrın 20-si Azərbaycan tarixinə təkcə dəhşətli qara faciə günü kimi deyil, həm də ən böyük yalan, riyakarlıq, maymaqlıq və məsuliyyətsizlik günü kimi daxil olacaq.

1991-ci ilin 20 noyabr faciəsi 1990-cı ilin 20 yanvar faciəsinin, 1988-ci ilin 20 fevral faciəsinin, əslində 1905, 1918, 1920-ci illərin fevral-mart faciələrinin davamıdır. 1905-ci ilin fevralında ermənilərin Zaqafqaziyadan azərbaycanlıları qırıb yox etməsi siyasətini bütün mahiyyəti ilə anlayan Azərbaycan Müdafiə Partiyasının xalqa «Var olma və ya olmama» («Ölüm, ya olum») adlı müraciətində deyilirdi: «Millətimizin xarabazarlığı və külü üzərində erməni millətinin səadət və xoşgüzəranlığını qurmaq istəyənlərə aman verilməyəcək!».

Tarix təkrar olunur. Nəticə çıxarmamışıq. Tədbir görməmişik və bu alçaq siyasətin ağrısını indi də çəkirik. Amma nə vaxta qədər?

Bir əsrə yaxındır ki, erməni siyasi terrorist hərəkatı bütün dəhşəti ilə bu və ya başqa şəkildə davam edir. Minlərcə həmvətənlimiz indi də öz doğma torpağından, Dağlıq Qarabağdan qovulur, ev-eşiyi yandırılır, qanına qəltan edilir. Qatarlar, avtobuslar partladılır, təyyarə və vertolyotlar vurulur. Qətillərin və yanğınların coğrafiyası genişləndirilir. Respublikadan kənarda yaşayan yurddaşlarımızın da həyatı təhlükə altındadır. Onlara qarşı kütləvi təzyiq, hədə-qorxu kampaniyası xeyli güclənmişdir. Moskvadakı son hadisələr dediklərimizə sübutdur,

Məlumdur ki, xeyli müddətdən bəri beynəlxalq miqyasda fəaliyyət göstərən erməni daşnak terrorist təşkilatları bu iyrənc sahədə çox böyük «təcrübə» əldə etmişlər. Onlar nəinki dəhşətli cinayətlər törətmək işinin, həmçinin bu cinayətlərin izini itirmək, diqqəti yayındırmaq, ictimaiyyəti aldatmaq və təqsiri günahkarın boynuna qoymaq məharətini də öyrənmişlər. 20 noyabr faciəsində məni ən çox ağrıdan bizim yenə də bu təlyə düşməyimiz oldu. Hadisələr haqqında məlumatın necə verilmə-

yə başladığı oxuculara məlumdur. Noyabrın 20-də axşam respublika televiziyası «24 saat» proqramını vermək əvəzinə matəm musiqisi verməyə başladı. Hiss etdik ki, nəsə bir milli bədbəxtlik üz vermişdir. Çox gözləməli olduq. Tamaşaçılar və xalqa hörmətsizlik göstərən televiziya rəhbərliyi bir saat yarım ərzində xalqın əsəbləri ilə oynadı. Məgər elan etmək olmazdı ki, üzr istəyirik, bədbəxt hadisə baş verib. Lakin hadisənin mahiyyəti məlum olmadığına görə sizə məlumat verə bilmirik. Bu adicə bir mədəniyyət qaydasıdır, xalqa hörmət və ehtiramdır. Lakin belə olmadı. Sonra Azərinformun bəyanatı oxundu. Bu bəyanatda həyasızcasına iddia edilirdi ki, guya hərbi vertolyot Martuni rayonunun Qarakənd yaxınlığında dumanlı havada dağa dəyib qəzaya uğramışdır. Erməni mafiyası tərəfindən əvvəlcədən planlaşdırılmış bu diqqəti yayındırma xəbərinin kimlər tərəfindən və necə təkcə respublikaya deyil, bütün dünyaya yayıldığının məsuliyyətini daşıyanlar cavab verməli olacaqlar. Səhəri gün rəsmi məlumata düzəliş edildi. Göstərildi ki, vertolyot partlamışdır. Yenə də «partladılmışdır» yox, «partlamışdır» dedilər. Noyabrın 21-də mərkəzi televiziya bu yalanları dəfələrlə təkrar etdi. Hətta gündüz verilişində elan etdi ki, Qarakənd yaxınlığında vertolyotun dağa dəyib partlamasını öz gözü ilə görənlər var.

Yalan və riyakarlıq xəbəri yayıldı. Hər yandan başsağlığı teleqramları gəlməyə başladı. Və hamısında da qəza baş verdiyi qeyd olundu. Erməni quldurları, vəhşiləri yenə kənarda qaldılar. İndi isə məlum olur ki, vertolyot vurulmuşdur. Soruşula bilər: əgər respublikaya, xalqa müharibə vəziyyətində başçılıq edənlər bir vertolyotun qəzaya uğramasını və ya vurulmasını vaxtında müəyyən edib dünyaya bildirə bilmirlərsə, xalqın onlara nə etibarı, nə etimadı? Mən məsələnin mahiyyəti ilə maraqlandım. Göstərdilər ki, faciə baş verəndən sonra Dağlıq Qarabağın hərbi komendantı guya daxili işlər nazirliyinin rəhbərliyinə bildirmişdir ki, vertolyot dumanlı havada dağa dəyib qəzaya uğramışdır. İndn məlum olur ki, hərbçilər qəza yerinə iki saat sonra gedib çatmışlar. Həm də görmüşlər ki, yeddi meyit yoxa

çıxıb. Silahlar aparılmışdır. Faciəni sübut edəcək dəlillərin bir qismi aradan çıxarılmışdır. Əgər Respublika Daxili İşlər Nazirliyi yoxlama aparmadan, məsələnin mahiyyətini bilmədən xalqı aldadırsa, məsuliyyət hissini itirirsə, buna nə ad vermək olar? Xalqın təhlükəsizliyini belə bir orqana və onun rəhbərliyinə necə tapşırmaq olar? Məsələ bundadır.

Srağagün mərkəzi televiziyanın «Xəbərlər» proqramı hadisənin bəzi təfərrüatı haqqında məlumat verdi. Lakin ermənilərin vertolyotu vurması haqqında yenə da söhbət getmədi. Məlum olmadı ki, bu dəhşətli hadisəni törədənlər kimlərdir. Bunun əksinə, faciənin arxasınca yenə Azərbaycana, onun xalqına qarşı ciddi ittihamlar irəli sürüldü. Hətta bu zonaya BMT-nin qoşunlarının gətirilməsi məsələsindən söhbət açıldı. Bax, səriştəsizlik, məsuliyyətsizlik və maymaqlığın nəticəsi belə olur. İndi bütün bu hadisələrdən sonra gəl dünya ictimaiyyətinə isbat et ki, erməni vəhşiləri, XX əsrin bu əliqanlı caniləri hərbi vertolyotu vurub xalqın qeyrətli oğullarını qanlarına qəltan etmişlər.

Ermənistan Azərbaycan xalqına qarşı genosid siyasətinə keçmişdir. Artıq elan edilməmiş müharibə söhbəti yoxdur. Müharibə açıqca elan olunub. Və buna qarşı da xalqın bütün qüvvələri səfərbər olunmalı, namuslu, qeyrətli vətən övladları cəm olub, silaha sarılıb düşməni qətiyyətlə dəf etməlidir. Azərbaycan torpağı qatillərdən, canilərdən təmizlənməlidir. Müharibəyə müharibə elan edilməlidir, özü də vətən müharibəsi. Kim yenə də ağlamaqla, sızlamaqla sakitləşmək, göz yaşı ilə iş görmək istəyirsə, yanılır. Ya olum, ya ölüm. Məsələnin qoyuluşu belədir, başqa yol yoxdur.

«Bərəkət» qəz. 25 noyabr 1991

QƏTİYYƏT VƏ CƏSARƏT VAXTIDIR

Tarixi təcrübə göstərir ki, milli istiqlaliyyətini, dövlət müstəqilliyini itirib başqasının əsiri olan xalqlar zaman keçdikcə müxtəlif ictimai-siyasi və mənəvi-əxlaqi xəstəliklərə mübtəla olurlar. Hər bir müstəmləkəçi dövlətin bu bəlaları yaratmaq sahəsində də öz strateji planları, götür-qoyları, üzdəniraq «sınağı» olur. Bunları bilmək vacibdir. Çünki ictimai-siyasi xəstəliklərin də öz anatomiyası var. Bu mərəzlər xalqı qəddini düzəltməyə qoymur, müstəqil düşünmək vərdişini əlindən alır, onu müti, aciz kölə və qula çevirir.

Rusiyada əsir xalqlar da uzun illər boyu məhz belə bir «sınağa» məruz qalmışlar.

Məlumdur ki, Rusiya imperiyası özü ilə həmsərhəd olan torpaqları işğal etmək hesabına genişlənib təşəkkül tapmışdır. Halbuki, məsələn, İngiltərə, Fransa, İspaniya dənizlər keçib, qitələr aşaraq imperiya sahibləri olmuşdular. Hər bir imperiyanın da işğal etdiyi torpaqları və xalqları itaətdə saxlamaq yolu və üsulları olmuşdur. Keçən əsrin iyirminci illərində Rusiyanın da işğal etdiyi Qafqazı əldə saxlamaq üçün həm rəsmi dairələrin, həm də özlərini inqilabçı adlandıran dekabristlərin hazırladıqları planlar vardı. Məsələn, dekabrist P. İ. Pestelin (1793-1826) yazdığı «Rus həqiqəti» konstitusiya layihəsindən aydın olur ki, Rusiya öz sərhədlərindən şimala - İran və Türkiyəyə qədər olan torpaqları işğal etməli, tutmalıdır. Qafqaz xalqlarından sözə baxanları, mütiləri saxlanmalı, həmin yerlərdə rus inzibati idarəsi qurulmalıdır. Lakin savaşqan və müstəqillik əzmi göstərənləri həm fiziki cəhətdən məhv etməli, həm də ailələri ilə bərabər Rusiyanın ayrı-ayrı yerlərinə kiçik qruplar halında paylanmalıdır. Beləliklə də müəyyən müddət içərisində onlar bir xalq kimi itib-batmalıdırlar. Həmin torpaqlara isə rus kəndliləri, başqa xristianlar köçürülməlidir. Beləliklə də Qafqaz Rusiyanın həm sakit, həm də qazanclı vilayətlərindən birinə çevrilməlidir.

Bu dəhşətli siyasətin sonrakı acı nəticələri bizə məlumdur. Dünyanın müxtəlif yerlərindən ermənilər yığıb Zaqafqaziyaya,

xüsusilə müsəlmanlar yaşayan rayonlara köçürdülər. On minlərlə azərbaycanlını isə öz yurd-yuvalarından didərgin saldılar.

Digər tərəfdən tədriclə müstəmləkəçilərə baş əyən, qulluq çırpışdıran xüsusi bir təbəqə də yaratmağa müvəffəq oldular. Uzun müddət bu xəstəlik bizim aramızda yayıldı. Qətiyyətsizlik və acizlik xəstəliyi intişar tapdı. Üzeyir bəy Hacıbəyov 1906-cı ildə «İrşad» qəzetində bu məsələni çox dərin və hərtərəfli təhlil edərək yazırdı ki, indi «bizim öz qüdrətimizə etiqadımız yoxdur, varmışsa da itibdir. Budur ki, indi bizim cürətsizliyə və acizliyə müqərrər olmağımız hər iş müqabilində əl-ayağımızı bağlayıb, bizi hərəkətsiz buraxır. Cürətsizlikdən başqa bir də ümumiyyət etibarilə digər bir fəna sifət dəxi müşahidə olunur. Bu da acizlikdir. Balaca bir müsibət və bədbəxtliyə düçar olanda biz özümüzü bilmərrə itiririk. Əslinə baxsan bu da bizim cürətsizliyimizdən doğan bir sifətdir».

Rəhmətlik Üzeyir bəy təkcə bu xəstəlikləri göstərməklə kifayətlənmirdi, onu dəf etməyə, aradan qaldırmağa çağırırdı. O yazırdı ki, «acizlik və cürətsizlik göstərməkdənsə, mübarizə edib basılmamaq əfzəldir». Çünki «aciz qalıb məqsədimizdən sərfinəzər etsək mütləqa başqalara möhtac olacağıq. Möhtaclıq da tənəzzülə yardım edən bir bədbəxtlikdir».

Mən Üzeyir bəyin bu fikirlərini bu gün xüsusilə nəzərə çarpdırmağı vacib bilirəm. Cürətsizlik və acizlik xəstəliyi indi də bizim içərimizdə geniş yayılıb. Bu bizi bədbəxtliyə apara bilər.

Qətiyyət və cəsarət vaxtıdır. Bu keyfiyyəti hər şeydən əvvəl Vətənin və xalqın taleyi üçün məsuliyyət daşıyanlar göstərməlidir. Son vaxtlar mütilik, ələbaxımlıq, cəsarətsizlik və acizlik xəstəliyinə qarşı mübarizə edənlərin sıraları xeyli çoxalmışdır. İndi bu prosesə mütəşəkkil xarakter vermək, xalqı düşdüyü ciddi böhrandan çıxarmaq üçün real şəraiti nəzərə alan ağıllı, düşünülmüş doğru-düzgün istiqamət götürmək tələb olunur.

Bu gün respublika Ali Sovetinin növbəti sessiyası açılır. Sessiyanın gündəliyində mühüm məsələlər durur. Məsələlərin vacibliyi əlbəttə şərtdir. Lakin əsas məsələ elə qərarlar qəbul etməkdir ki, onlar həyata keçirilsin. Həyata keçirilməyin yolları,

üsulları müəyyən edilsin, real qüvvələr nəzərə alınsın. Bu da yalnız qətiyyət və cəsarətlə, qeyrət və namusla, birlik və yekdilliklə mümkün ola bilər. Tariximizin belə bir böhranlı çağında ölçülüb-biçilməmiş, real əsası olmayan məsələlər və fikirlər irəli sürmək, ümumi işimizə zərər gətirə bilər.

Ali Sovet hər şeydən əvvəl qanunvericilik məclisidir. Daha doğrusu, belə bir məclis olmalıdır. Biz bu vaxta qədər onu bu vəzifəni, bütün cəhətləri ilə yerinə yetirən bir parlament kimi görmürük. Parlamenti mitinqə çevirmək, ağıl ilə yox, emosiya ilə işləmək, xeyirdən çox ziyan verə bilər. Odur ki, Milli Şura yaradılması, qanunvericilik funksiyaların həmin şuraya verilməsi tələbi ağlabatandır. Çünki indi uzunmüddətli müzakirələr, söz güləşdirmək vaxtı deyil. İş görmək vaxtıdır.

«Bərəkət» qəz. 26 noyabr 1991

HÖKMÜ ZAMAN VERİR, MOSKVA VƏ TEHRAN YOX!

Azərbaycan xalqı öz milli istiqlaliyyət və dövlət müstəqilliyini yenidən bərpa etmək qərarına gəlib. Bu təkcə ayrı-ayrı fərdlərin, qrup və cəmiyyətlərin, təşkilatların istəyi və arzusu deyil. Milli varlığı və ləyaqəti tapdalanan, zülm və cəbrə məruz qalan, zəlil günə düşmək təhlükəsi ilə qarşılaşan xalqın iradəsi, qətiyyətidir. «Xalqlar həbsxanasında», «bədbəxt qardaşlıq məskənində», «dəlixana» adlandırılan ittifaq və ölkədə nə qədər əyilmək, özbaşınalığa, həqarət və yalana, riyakarlığa dözmək olar? Qeyd edim ki, təkcə biz bu fikirdə deyilik. Artıq Rusiya özü də deyəsən bu qənaətə gəlib. Bu günlərdə keçmiş SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin keçmiş müavini V.Pirajkovun yazısına rast gəldim. Uzun illər imperiyanın sədaqətli mühafizəçisi olan bu general yazısına belə başlayırdı: «Üç dəfə lənətə gəlmiş bu dövlət sistemində insan heç bir qiyməti ol-

mayan hüquqsuz varlığa çevrilmişdir».

Lakin göstərməliyik ki, Sovet imperiyasının, bütövlükdə neçə əsrlik rus imperiyasının dağılması prosesini, xalqların milli istiqlal əzmini zərurət kimi anlamayanlar da var. Belələrinə həm ölkə daxilində və həm də xaricdə, xüsusilə Qərb dövlətlərinin rəsmi dairələrində rast gəlmək olar. Daxildə bunlar imperiya təfəkkür tərzindən heç cür ayrılmaq istəməyənlər, nəyin bahasına olursa-olsun mərkəzdə güclü dövlət strukturlarını yenidən başqa ad və görkəmdə diriltmək tərəfdarı olanlardır. Respublikalarda isə mərkəzə arxalanıb xalqın var-yoxunu talan edən keçmiş nomenklaturaçılardır. Qorbaçovun ətrafına yenidən cəmləşməkdə olanlara bir fikir verin: Şahnazarov, Yakovlev, Primakov, Bakatin, Şeverdnadze, Volski, Medvedyev, daha nə bilim kimlər, kimlər... Respublikalarda da onlara züy tutanları xalq yaxşı tanıyır.

Azərbaycanın milli istiqlal və müstəqillik hərəkatını silah gücünə boğmağa cəhd edən, onun ərazi bütövlüyünü pozmağa çalışıb Dağlıq Qarabağ problemini yaradan, bütün ölkəni silahlı mübarizə meydanına çevirmək istəyənlər bunlar deyildimi?

Novo-Oqoryovadakı son hadisələr, yəni yeni İttifaq müqaviləsi oyununun bu dəfə də boşa çıxması, nəinki daxildə, deyəsən xaricdə də ittifaq dövlətini saxlamaq tərəfdarlarının mövqelərini laxlatmışdır. Bu vaxta qədər güclü ittifaq dövlətinin tərəfdarı kimi çıxış edən ABŞ prezidenti Buş, sırağagün gözlənilmədən bildirmişdir ki, əgər dekabrın 1-də keçiriləcək rəy sorğusunda Ukrayna xalqı milli müstəqilliyə səs versə, Amerika Ukraynanı rəsmi surətdə müstəqil dövlət kimi tanıyacaq. İcmalçılar yazırlar ki, demək dekabrın biri Sovetlər birliyinin ölüm günü ola bilər.

Bəs belə bir şəraitdə qonşumuz İran İslam Respublikasının ölkəmizdə rəsmi səfərdə olan xarici işlər naziri cənab Əli Əkbər Vilayətinin Moskvada «Exo Moskvı» radiosuna verdiyi Azərbaycanla əlaqədar bəyanatını nə ilə izah etmək olar? Məlumdur ki, İran xarici işlər naziri bildirmişdir ki, «Biz Azərbaycanın müstəqilliyini tanımaq niyyətində deyilik. Bu respublika ilə mü-

nasibətlər Sovet İttifaqı çərçivəsində inkişaf etdiriləcək». Bu xəbəri çox böyük şadyanalıqla elan edən ermənipərəst «İzvestiya» qəzeti və onun müxbiri M.Yusin çox canfəşanlıq edir. Bir növ bizə acıq verir. Hətta bəzən təhqiramiz ifadələr işlədir. Qan çıxmayan yerdən qurdalayıb qan çıxarmaq istəyir. Türkiyə ilə İranın, Azərbaycanla İranın arasını vurmağa çalışır. Deyəsən M. Yusin rus imperiyasının yaradıcısı I Pyotrun vəsiyyətlərini yaxşı mənimsəyib. Amma xəbəri yoxdur ki, vaxt o vaxt, zaman o zaman deyil.

«İzvestiya»nın müxbiri yazır ki, İran xarici işlər nazirinin bu bəyanatı Sovet İttifaqı rəhbərlərinə qiymətsiz hədiyyədir. Çünki Tehranın belə mövqeyi İttifaqın dağılmasının, parçalanmasının qarşısını müəyyən müddət zəiflədə bilər. O, birinci növbədə İslam respublikalarını nəzərdə tutur. Müxbir yazır ki, əlbəttə, Moskva da öz tərəfindən İrana nəsə bir hədiyyə edəcəkdir. Lakin bunu açmır.

M. Yusinə görə, İran müstəqil Azərbaycan dövlətinin yaranmasından çox ehtiyat edir. Çünki axı İranda, xüsusilə onun şimalında on milyon azərbaycanlı azlıq da yaşayır. Əlbəttə, Yusin İranda nə qədər azərbaycanlı olduğunu yəqin ki, bilmir. Son rəqəmlərə görə bu azlıq nə az, nə çox iyirmi milyon nəfərə çatır. Yaxşı olardı ki, «İzvestiya»nın müxbiri bu azlığın nə gündə yaşadığı haqda məlumat verəydi.

Oxuculara bu məsələ aydın olsun deyə, kiçicik bir müqayisə etmək istəyirəm. İranda 200 min erməni yaşayır. Onların 58 milli məktəbi, 13 uşaq bağçası fəaliyyət göstərir. Ermənilərin toplaşdıqları yer əsasən üç şəhərdir: Tehran, Təbriz, İsfahan. İsfahan universitetində erməni ədəbiyyatı fakültəsi var. İran məclisində azlıqda qalan millətlərin beş deputat yerindən ikisini ermənilər tutur. Soruşula bilər bəs İranda bircə dənə də olsun Azərbaycan dilində məktəb varmı? Bu suala müsbət cavab vermək mümkün deyil. Hələ uşaq bağçası, qəzet və jurnallardan, ali məktəblərdə fakültələrdən söhbət getmir. Biz adətən ruslaşdırmadan söhbət açır, bunun əleyhinə çıxırıq. 20 milyon azərbaycanlını milli dildən, milli varlığından məhrum edən, onları

farslaşdıranlardan söhbət açmırıq. Görünür, «İzvestiya» müəllifini Moskva və Tehranın imperiya ambisiyası daha çox maraqlandırır, nəinki xalqların taleyi, varlığı, milli ləyaqəti.

Müstəqil Azərbaycan Respublikası bütün qonşu ölkələr və xalqlarla qarşılıqlı faydaya əsaslanan əlaqələr yaratmağa xeyli səy göstərir. Bu İrana da aiddir. Biz heç bir ölkənin daxili işlərinə qarışmaq fikrində deyilik. Respublika prezidenti və baş nazirinin İran İslam Respublikasına səfərləri də məhz bizim qonşu ölkəylə münasibətləri yaxşılaşdırmaq qətiyyətimizdən irəli gəlir.

Azərbaycanı müstəqil dövlət kimi tanıyıb-tanımamaq İran İslam Respublikasının öz işidir. Heç kəsi buna məcbur etmək olmaz. Lakin ölmüş ittifaqın dirildilməsinə köməyin perspektivsiz olduğunu qonşularımıza xatırlatmaq da əbəs olmaz.

1920-ci ilin yanvarında Fransada Sülh konfransında qalib dövlətlər, yəni ABŞ, İngiltərə, Fransa müstəqil Azərbaycan Cümhuriyyətini rəsmən tanıdılar. Bu münasibətlə 1920-ci il yanvarın 24-də «Azərbaycan» qəzeti «Müstəqil Azərbaycan» adı ilə buraxıldı. Məhəmməd Əmin Rəsulzadə qəzetin bu nömrəsində «Gözlərimiz aydın!» sərlövhəli yazı ilə çıxış etmişdi. Məqalədə deyilirdi: «Arzularını qövldən felə (sözdən işə) gətirməyi əzm edən bir millət heç bir zaman istədiyindən məhrum qalmaz.

Ən müqəddəs bir haqqın verdiyi həqqaniyyətlə istiqlalını almağa əzm etmiş olan azəri türkünün qulağına çoxdan intizar eylədiyi ruhnəvaz bir səda gəldi:

Azərbaycan istiqlalı təsdiq edildi!

- Gözlərimiz aydın!».

Hadisələrin gedişi göstərir ki, tarix təkrar olunacaq. Biz eyni sözləri yaxın vaxtlarda təkrar edəcəyik. Bunu Moskva və Tehran istəsə də, istəməsə də. Amin!

«Bərəkət» qəz. 30 noyabr 1991

ÜMİDİMİZ, ŞƏRƏFİMİZ, NAMUSUMUZ - ORDUMUZ!

Dekabrın 8-də Azərbaycan Milli Ordusunun ilk dəstəsi Şəhidlər xiyabanında Vətənə, xalqa sədaqət andı içdi. Biz bu günü, bu mərasimi çoxdan gözləyirdik. Uzun müddət idi ki, onun həsrətindəydik. Axı ordusuz müstəqillik olmaz. Qorunmayan torpağa göz dikən çox olar. Silahlı düşmən qarşısında əliyalın çıxmaqmı olar? Müstəqilliyin ən mühüm şərtlərindən biri onu qorumağı bacarmaqdır. Xalqın müdafiə və mühafizəsi həlledici məsələdir. Həyat-məmat məsələsidir. Var olmaq və olmamaq məsələsidir. Bütün tarixi təcrübə buna şəhadətlik verir.

Azərbaycanın milli orduya daha böyük ehtiyacı var. Tarix və tale bizə naxələf, məkrli, qəddar, həm də yaltaq, ikiüzlü bir qonşu qismət edib. Belə bir qonşu ilə dinc yanaşı yaşamaq yalnız o vaxt mümkün ola bilər ki, sənin qüdrətinə, gücünə bələd olsun. İnanın ki, sərhədini pozanlara, torpaq iddiasında olanlara həddini tanıdacaq real qüvvə vardır, xalq vardır. Bir də ki, bütün dünyada hələ ki, ordusu olmayan müstəqil dövlət, demək olar ki, yoxdur. Bəzən belə bir iddia irəli sürürlər ki, milli ordu yaratmaq üçün xeyli vəsait lazımdır, təcrübə lazımdır, imkan gərəkdir. Bunlar doğrudur. Lakin necə olur ki, bütün dünyanın müstəqil xalqları bu yükü götürməyə hazır olurlar? Yoxsa bizdən imkanlıdırlar. Xeyr! Min dəfə xeyr! Qorunmayan torpaq vətən deyil.

Ordu yaratmaq qan tökmək üçün deyil, yaşamaq, sülh şəraitində yaşamaqdır. Sakit yaşamaqdır. Yaradıcı əməklə məşğul olmaq imkanıdır. Ata-baba yurdunu qorumaq, gələcək nəslə təminat verməkdir.

Çox təəssüf ki, bu həqiqətləri başa düşməyənlər hələ də var. Özü də az deyil. Bir neçə ildir ki, respublika Ali Sovetində milli ordu yaratmaq məsələsi qaldırılırdı. Lakin qəlbi qaralar, düşüncəsi darlar, mərkəzdən qorxanlar var qüvvələri ilə bunun əleyhinə çıxırdılar. Nə edəsən ki, biz də beləyik. Xalqa lazım olan yerdə həmişə gecikirik və beləliklə də zaman və müddəti uduzuruq. Qonşularımıza bir diqqət edin. Ermənilər öz milli ordularını -

öz quldur dəstələrini müxtəlif adlar altında çoxdan yaratmışlar. Ən son məlumata görə onların sayı 20 mini ötüb keçmişdir. Azərbaycan torpağında, Dağlıq Qarabağda qan tökən də bu nizami ordu hissələridir. Bu ordunun yaxşı təlim görmüş kadrları, mobil silahları, hərbi vertolyotları və hətta deyildiyinə görə hərbi hava qüvvələri də vardır, Dağlıq Qarabağda Azərbaycan xalqına qarşı erməni ordusunun apardığı müharibə milli ordu yaratmağın zəruriyyətini başa düşməyənlərin diqqətini nədənsə cəlb etmirdi. Çünki onların böyük bir qismi təhlükənin böyüklüyünü, düşmənin gücünü, riyakarlığını nəzərə almaq iqtidarında deyildilər. 20 noyabr faciəsi lazım idi ki, respublika rəhbərliyi real addım atmağa getsin. Lakin niyə əvvəlcədən bu hazırlıq, bu tədbir görülmürdü? Hələ indinin özündə də yalnız ilk addım atılmışdır. Qarşıda çox böyük işlər durur. Müasir ordu yaratmaq üçün çox şey tələb olunur.

Gücsüz siyasət xəyaldır. Ordusuz istiqlaliyyət baş tutan şey deyil. Bunu xalqımızın böyük siyasi xadimləri, düşünən başları həmişə qeyd etmiş və əməli təcrübədə isbata yetirmişlər.

1918-1926-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin milli ordu yaratmaq təcrübəsi indi nə qədər vacibdir. Maraqlıdır ki, bir neçə ay ərzində yaradılmış Azərbaycan milli ordusunun ilk hissələri məhz Dağlıq Qarabağda daşnak ordularına qarşı ölüm-dirim mübarizəsində imtahandan çıxmışdılar. Milli ordumuzun tanınmış sərkərdəsi, general Mehmandarov Qarabağda erməni silahlı qüvvələrini darmadağın edən Azərbaycan əsgərlərinə aşağıdakı sözlərlə müraciət etmişdi: «Qəhrəman əsgərlər, mən şəxsən Almaniya cəbhəsində, bir çox müharibələrdə oldum, fəqət sizin qədər qəhrəman əsgərlərə nadirən təsadüf etdim. Siz mənim ümidlərimi qüvvətləndirdiniz. Siz qanınızla gənc Azərbaycan ordusunun namusunu mühafizə etdiniz».

Bu sözləri milli ordumuzun gənc əsgərləri, zabitləri çox yaxşı bilməli, dillərinin əzbəri etməlidirlər. Qoy onlar kimlərin övladları, nəvələri, nəticələri olduqlarını yaxşı bilsinlər.

Azərbaycan xalqının müstəqil yaşamağa, öz taleyini həll etməyə tam haqqı və hüququ vardır. Tarix indi belə bir şans yaradıb. Artıq Sovetlər İttifaqı deyilən ölkə yoxdur. Üzünü həmişə

mərkəzə tutanlar indi baxmaq səmtini də dəyişməlidirlər, iş səmtini də, siyasət səmtini də. Xalqa arxalanmaq, yalnız onun mənafeyi ilə yaşamaq vaxtı çatmışdır. Həm də nə üçün belə də olmasın? Yenə tarixə müraciət edək. Azərbaycan cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəyli başımızın üzərini təhlükə aldığı fırtınalı bir zamanda 1918-ci ilin oktyabrında xalqa müraciətində yazırdı: «Nə üçün şansız, şərəfsiz, tarixsiz, keçmişsiz millətlərin istiqlaliyyətə haqları olsun da... nəcib, şanlı, şərəfli, keçmişli, istiqlallı türk millətinin istiqlala haqqı olmasın? Başqalarını idarə etməyi, həm də insancasına idarə edə bilən türk milləti kimi bir millət dünyada bulunmadığı halda nə üçün öz-özünü idarə etməyə həsəd edirsiniz?..».

Bu sözlər ibrətamiz deyilmi? Öz şəxsi ambisiyaları, varlanmaq və vəzifə ehtirasları ilə yaşayanlar ayılmalıdır. Biganəlik göstərənlər hərəkətə gəlməlidir. Namus və qeyrət vaxtıdır. Xalqımızın böyük siyasi xadimi Məhəmməd Əmin Rəsulzadə yazır: «Əski istibdad yerində bu gün hürriyyət, ədalət müsavat icab edir. Vaxt və zamanın icabatına, təbiətin qanununa yalnız bizmi qarşı duracağız? Biz heç vaxt bu hökmün, bu təbiətin, bu ümumiyyətin, bu mətanətin qarşısında dura bilməyəcək. Bu icabət, bu təbəddülat bizi təpələyib, yaxalayıb insan edəcək».

Vaxtı ilə deyilmiş bu sözlər bu gün də aktual səslənmirmi?

Mənim tarixi faktlara müraciət etməyim təsadüfi deyil. Keçmiş bizə çox lazımdır. Amma tarixdən cansız faktları yox, xalqın qəlbini, ruhunu oyadan faktları seçmək lazımdır. Keçmişdən kül deyil, od götürmək lazımdır. Biz kim olduğumuzu indi həmişəkindən daha yaxşı dərk etməli və bilməliyik.

Milli ordumuzun ilk dəstələri yaranmışdır. Bu ordu bizim ümidimiz, şərəfimiz, namusumuzdur. Onlar vətənin keşikçiləridir. Respublika prezidentinin fərmanı ilə dekabr və mart aylarında Azərbaycan ordusuna çağırış elan edilmişdir. Hər bir namuslu, qeyrətli gənc bu çağırışa çox böyük məhəbbət və həvəslə səs verməlidir.

Azərbaycan ordusu Azərbaycanın xilasıdır. Qədəmlərin mübarək! Dostlar sevinsin, düşmən fikirləşsin!

«Bərəkət» qəz. 10 dekabr 1991

İTTİFAQ DÖVLƏTİNİN FATİHƏSİ VERİLDİ. SONRA?..

Zülm ilə abad olanın axırı bərbad olar. Min illərin sınağından çıxmış bu kəlam bu günlərimizdə xüsusi ahəng və əzəmətlə səslənir. Deyəsən tarixin və taleyin nəzəri bizim səmtə dönüb. Neçə yüzilliklər ərzində yaradılmış «şər imperiyası»nın süqutunu nəinki müşahidə və seyr etmək, həmçinin zamanın hökmünün icrasının iştirakçısı olmaq bizim nəslə də müyəssər olub.

İttifaq dövlətinin və mərkəzin varlığına xitam verilən bu günlər nə qədər çətin və məşəqqətli, qanlı-qadalı olsa da yenə ümumdünya tarixinin ibrətamiz, əzəmətli günləridir. Lakin papaq atmağa, şadyanalıq etməyə hələlik real əsas da yoxdur. Hadisələr gözlənilməz çalarlar alır, ən ayıq başlar, güclü mərkəzlər belə çaş-baş qalmışlar. Yerin-göyün nəbzini əllərində tutanlar peyğəmbərlik etməkdən, proqnoz verməkdən çəkinirlər. Heç kəs ağlına belə gətirə bilmir ki, dünyanı lərzəyə salan kommunizm və sosializm ideologiyası və dövlət sistemi elə beləcə asanlıqla siyasət meydanını tərk edə bilər. Bu baxımdan dekabrın 8-də üç müstəqil slavyan dövləti rəhbərlərinin Minsk görüşü, onların imzaladıqları sənədlər xüsusilə gözlənilməz olmuşdur. Rusiya Federasiyası, Ukrayna və Belorusiya respublikası rəhbərləri elan etmişlər ki, beynəlxalq hüququn subyekti və geopolitik reallıq - yəni coğrafi vahid kimi SSR İttifaqı öz fəaliyyətinə xitam verir.

1922-ci ildə sovetlər birliyinin əsas təsisçiləri olan hər üç slavyan respublikasının indi tarixən özünü doğrultmayan federativ dövlət formasından imtina etmələri təəccüb və təəssüf doğurmur. Bu sistem ölkəni sözün həqiqi mənasında uçurum və fəlakət qarşısında qoymuşdur.

İndi ölkə daxilində və xaricdə hadisələrin bundan sonra necə cərəyan edəcəyi məsələsi ön planda durur. Müstəqil dövlətlər birliyi barəsində üç Slavyan respublikası rəhbərlərinin imzaladıqları sazişin mətni Yeltsin, Qorbaçov və Nazarbayev görü-

şündən sonra suveren respublikaların parlamentlərinə göndərilmişdir.

Qeyd edək ki, Ukrayna və Belorus Ali Sovetləri artıq dekabrın 10-da Minsk sazişini bəyənmiş və təsdiqləmişlər. Bildirilmişdir ki, Slavyan respublikaları birliyinin qapısı onun məqsəd və prinsiplərinə şərik çıxan geniş suveren dövlətlər üçün də açıqdır. İndi ən çox maraq doğuran RSFSR Ali Sovetinin tutacağı mövqe, verəcəyi qərardı.

Minsk sazişinə müxalif qüvvələr də az deyil. Keçmiş ittifaqın keçmiş prezidenti adlandırılan Qorbaçov öz mövqelərini, vəzifəsini deyəsən asanlıqla əldən verənə oxşamır. Doğrudur, onun əvvəlki nüfuzu, hörməti və gücü qalmamışdır, hədə-qorxusuna, indi isə imperiya ambisiyasına məhəl qoyan da azdır. Ən çox arxalandığı və ümid etdiyi qüvvələr və adamlar da ondan uzaqlaşır. Uzun müddət ona yaltaqlıq edən, ətrafında kölgə kimi hərlənən, erməni mafiyasının başçılarından Georgi Şahnazarovun bəyanatları buna ən bariz nümunədir.

Göstərək ki, xaricdə Qorbaçovu müdafiə edənlərin də xeyli hissəsi indi Slavyan üçlüyünə tərəfdar çıxırlar. ABŞ, Qərbi və Şərqi Avropa ölkələri rəhbərlərinin Belorus sazişinə münasibətləri bu həqiqəti təsdiq edir. Məsələn, dekabrın 9-da Hollandiyanın Maastrix şəhərində Avropa birliyinə daxil olan ölkələrin liderləri Minsk sazişlərindən bütövlükdə razı qaldıqlarını, həmçinin bu barədə öz qeyd və arzularını bildirmək üçün Kiyevə xüsusi nümayəndə göndərməyi qərara almışlar.

Köhnə federativ ittifaqın, suveren dövlətlər ittifaqı layihəsinin tərəfdarları da xeyli fəallaşmışlar. İndi Moskvada mitinqlər, nümayişlər keçirilir. Qorbaçovun ardınca ittifaq sovetinin sədri də SSRİ xalq deputatlarının altıncı fövqəladə qurultayını çağırmaq təklifi ilə çıxış etmişdi. Lakin bunun baş tutması şansı çox azdır.

Ən çox maraq doğuran geniş suveren və müstəqil respublikaların Minsk sazişinə münasibəti məsələsidir. Alınan son xəbərlərə görə Ermənistan, Moldova, Özbəkistan, Qırğızıstan və Pribaltika dövlətləri rəhbərləri müstəqil dövlətlər birliyi ideyasını bütövlükdə rəğbətlə qarşılamışlar.

Dekabrın 10-da Azərbaycan prezidenti A.Mütəllibovun sədrliyi ilə respublika Dövlət Şurasının təcili iclası olmuşdur. İclasda deyilmişdir ki, «birlik yaradılması ideyası suverenləşmə və istiqlaliyyət qazanılması proseslərini inkar etmirsə, müsbət qarşılana bilər».

Keçmiş ittifaq, dünyanın sonuncu imperiyası fövqəladə hadisələr baş verməsə, son günlərini yaşayır. Müstəqil dövlətlərə sərbəst inkişaf etmək, iqtisadi və mədəni əlaqələri genişləndirmək, dünyanın inkişaf etmiş demokratik ölkələrinin cərgəsinə qoşulmaq imkanı yaranır. Vəzifə bu yolla inamla, qətiyyətlə irəliləməkdən ibarətdir.

«Azərbaycan» qəz. 12 dekabr 1991

İLAN VURAN
ALA ÇATIDAN QORXAR

SSRİ kimi suveren dövlətlər ittifaqı ideyası və layihəsi də mərkəzlə birlikdə artıq keçmişdə qaldı. Üç müstəqil slavyan dövləti rəhbərlərinin təşəbbüsü ilə həyata qədəm qoymağa başlayan müstəqil dövlətlər birliyi təşəbbüsü deyəsən reallaşmaq üzrədir. Ukrayna və Belorusdan sonra dekabrın 12-də RSFSR-in Ali Soveti də Minsk sazişini bəyəndi və təsdiq etdi. O biri tərəfdən Aşqabadda Orta Asiya və Qazaxıstan prezidentlərinin görüşü keçirilir. Yaranmış vəziyyət müzakirə olunur. Ehtimal belədir ki, onlar da müstəqil dövlətlər birliyinə qoşulmağa meyllidirlər. Amma bu barədə son sözü həmin müstəqil respublikaların parlamentləri deməlidir. Bütün bunlardan belə nəticəyə gəlmək olur ki, Qorbaçovun və mərkəzi ittifaq dövləti tərəfdarlarının kitabı bağlanmaq ərəfəsindədir. Əlbəttə, son həmlələr ediləcək, təşəbbüslər göstəriləcək, hətta siyasəti umu-küsülər də əvəz edəcək. Məsələn, əlindən hakimiyyəti, ayağının altından paytaxtı gedən Qorbaçov Yeltsin, Kravçuk və Şuşkeviçdən gileylənir ki, onlar birlik haqqında saziş imzaladıqdan sonra nə üçün ilk dəfə məhz ona deyil, ABŞ prezidenti Corc Buşa zəng etmişlər. Adam inana bilmir ki, Qorbaçov prezidentlik kürsüsü ilə vidalaşmaq dəmi gəldiyini deyəsən hiss etmir. Faciədir. Amma dövlət başçısının şəxsi faciəni ölkənin və millətin faciəsinə çevirməyə səlahiyyəti və ixtiyarı yoxdur.

Müstəqil dövlətlər birliyi haqqında saziş və geniş razılaşmalar ilk baxışda ağlasığan real şəraiti hərtərəfli nəzərə alan sənədlər təəssüratı bağışlayır. Lakin bu sənədlərlə bərabər son günlər bu haqdakı çıxışları, yazıları dinlədikdə və oxuduqda narahatçılıq doğuran meyllər də hiss olunur, nəzərə çarpır. Məsələn, görəsən nə üçün Rusiya, Ukrayna və Belorus rəhbərləri özlərinin slavyan olduqlarını xatırladırlar, nəzərə çarpdırırlar. Burada məqsəd nədir, nə demək istəyirlər? Bəlkə hər üç xalq slavyan olduğunu yadından çıxarmışdır? Yox, belə düşünmək sadəlövhlük olardı. Bəlkə bunun xarici çalarları var, uzunmüddətli strateji hədəfləri var. Axı ruslar, ukraynalılar və beloruslar Şərqi slavyanlardır. Bundan əlavə Avropada Qərbi (polyak, çex, slovak) slavyanlar da var, Cənubi (bolqarlar, serblər, xorvatlar, slovenlər, makedoniyalılar və s.) slavyanlar da var. Hətta qeyd edim ki, ABŞ-da da səkkiz milyona yaxın slavyan yaşayır. Bütövlükdə Avropa qitəsində 280 milyona yaxın slavyan məskundur. Bunların 200 milyonu keçmiş SSRİ ərazisindədir. Belorusiya sazişində qeyd olunur ki, müstəqil dövlətlər birliyinə təkcə keçmiş SSRİ-nin müstəqil respublikaları deyil, digər ölkələr də qoşula bilərlər. Əlbəttə, burada birinci növbədə slavyan dövlətləri nəzərdə tutulur. Belə təsəvvür yaranır ki, Qərbi Avropa ilə Şərqi Avropa və Rusiya arasında bir strateji balans yaratmaq meyli sınaqdan keçirilir. XIX əsrin ikinci yarısında bu ideya, yəni panslavizm ideyası bir müddət geniş yayılmışdı.

Digər bir məsələ Belorusiya görüşlərinə Qazaxıstan prezidenti Nazarbayevin dəvət edilməməsidir. Məlumdur ki, keçmiş SSRİ-nin dörd respublikasında atom nüvə silahı yerləşdirilmişdir. Ukrayna prezidenti Kravçuk saziş bağlanandan sonra bildirmişdir ki, atom nüvə raketlərinin düyməsi əgər əvvəllər təkcə ölkə prezidentinin sərəncamında idisə, indi üç slavyan dövlət başçılarının nəzarəti altındadır. Yəni indi bir düymə yox, eyni vaxtda üç düymə basılmalıdır ki, atom nüvə raketləri silahı işə düşsün. Soruşula bilər ki, bəs Qazaxıstanda yerləşdirilən atom nüvə silahının düyməsi kimin ixtiyarında olacaq? Bəs niyə ərazisində belə raketlər olan qazaxlar bu hüquqdan məhrum edilirlər? Məlumdur ki, böyük dövlət statusunu verən və təmin edən məhz hər şeydən əvvəl atom silahı və strateji raketlərdir. Dünyanın beş böyük dövlətinin beşi də bu silaha malikdir. Amma söhbət müsəlman ölkələrindən gedəndə hay-küy qoparılır və belə bir fikir söylənilir ki, müsəlmanlara bu cür silaha malik olmağa izn vermək olmaz. Digər tərəfdən bu silahın hakim millətlərə və dövlətlərə necə üstünlük verdiyini izah etməyə ehtiyac yoxdur.

İlk tanışlıq göstərir ki, yazılanlar pis yazılmayıb. Amma söhbət bunun arxasında nələrin durduğundadır. Biz çox belə şeylərin şahidi olmuşuq. Yazılanlara inanmaq bizim evimizi yıxıb, kölə vəziyyətinə salıb. Məsələn, gəlib vurub dağıdıb, torpaqlarımızı işğal ediblər, amma yazıblar ki, guya biz könüllü surətdə

Rusiyaya birləşmişik. İnanmayanları qırıb, pərən-pərən salıblar, yazılanları tutuquşu kimi əzbərləyənlərə ənam veriblər, vəzifə veriblər. Elə 1917-ci ildə də belə oldu. Romanovlar mütləqiyyət rejimi dağıldı. Bütün xalqlara müstəqillik və öz talelərini təyin etmək hüququ vəd edən bolşeviklər ilk vaxtlar sözlərinə əməl etdilər. Müstəqil dövlətlər yarandı. Lakin bir neçə ildən sonra özlərini düzəltdilər, proletar beynəlmiləlçiliyi, imperializmə qarşı mübarizə və azadlıq şüarı ilə yenidən müstəqil dövlətləri silah gücünə işğal etdilər. Romanovlar rejimindən də dəhşətli bir üsul-idarə yarandı. Bununla əlaqədar yadıma tarixi bir fakt düşür. 1917-ci ilin iyununda I Sovetlər qurultayında menşevik liderlərdən Seretelinin Rusiyada hakimiyyəti ələ alıb təkbaşına idarə edə biləcək bir partiya olmadığına dair sözlərinə Lenin yerindən «Belə bir partiya vardır» demişdi. Biz bu sözləri min dəfələrlə təkrar etmişik. Lakin tarix ədəbiyyatında Seretelinin Leninə nə cavab verdiyi məlum səbəblər üzündən yada salınmırdı. Sereteli o vaxt Leninə və qurultay iştirakçılarına müraciətlə demişdi ki, «cənablar, bu Lenin və onun başçılıq etdiyi bolşeviklərin simasında Rusiyaya dal qapıdan elə bir mütləqiyyət rejimi girə bilər ki, o, ikinci Nikolayın rejimindən qat-qat zülmkar və əcaib olar». Bax hamımızın olmazın lənətlər yağdırdığımız belə uzaqgörən kişilər də olub. Tarix Seretelinin dediklərini təsdiq etdi. Belorusiya sazişlərini oxuduqda və öyrəndikdə məlum olur ki, keçmiş dövlət strukturlarının mühüm əlamətləri müəyyən tərzdə saxlanılır. Vahid ordu, pul və maliyyə sistemi, iqtisadi məkan və s. RSFSR parlamentində qeyd edirdilər ki, əgər keçmiş respublikalar müstəqil dövlətlər birliyinə daxil olsalar, sərhədlər toxunulmayacaq, olduğu kimi qalacaq. Belə çıxır ki, hansı müstəqil respublika bu sazişə qoşulmasa, onun sərhədlərinə yenidən baxılacaq. Bu nədir? Yenə meydan oxumaq deyilmi?

Azərbaycanın Milli Şurası Belorusiya sənədlərini müzakirə edəcək. Biz arzu edərdik ki, bu işə analitik təfəkkür tərzinə malik olanlar, düzgün nəticələr çıxarmağı bacaran politoloqlar, mütəxəssislər cəlb olunsunlar. Heç bir tələsikliyə yol verilməsin. Heç olmasa bu dəfə yüz dəfə ölçəndən sonra qərar çıxarılsın:

Axı ilan vuran ala çatıdan qorxmalıdır. Bunu yaddan çıxarmaq olmaz. Bəlkə bu çatı elə ilanın özüdür?!

Bu günlərdə ermənipərəst «İzvestiya» qəzetində dövlət katibi Beykerin belə bir bəyanatı şərh edilmişdir ki, guya Gürcüstan və Azərbaycan Qərbin köməyinə ümid bəsləyə bilməzlər. Çünki guya bu respublikalarda həqiqi demokratik dəyişikliklər nəzərə çarpmır. Bu bəyanatın və xəbərin nə dərəcədə doğru, düzgün olduğuna inanmaq çətindir. Çünki «İzvestiya» qəzeti kimlərəsə istinad edib Azərbaycan və Gürcüstan haqqında çox hədyanlar və uydurmalar yazmışdır və yazmaqdadır.

Dekabrın 15-də ABŞ dövlət katibi Beyker Moskvaya gəlmişdir. Onun ilk görüşü RSFSR xarici işlər naziri A. Kozırevlə oldu. Xəbər verirlər ki, dekabrın 16-da səhər Beyker Yeltsinlə görüşdükdən sonra Qorbaçovun yanına gedəcək. Bundan sonra isə onun Ukrayna, Belorus, Qazaxıstan və Qırğızıstana səfəri gözlənilir. Biz bu səfəri diqqətlə izləyirik.

Beynəlxalq miqyasda ermənilərin Azərbaycana qarşı şeytan karxanası bərk işləyir. Ermənistan prezidenti Ter-Petrosyan Vaşinqtona getdikdən sonra bu daha çox hiss olunur. Bu günlərdə Ermənistanın xarici işlər naziri Amerika vətəndaşı Raffi Ovenasyan Avropanın yeddi ölkəsində, o cümlədən İngiltərə, Almaniya, Fransa, İtaliya və Hollandiyada olmuşdur. Erməni diplomatiyasının bütün qəsdi budur ki, Azərbaycanı beynəlxalq miqyasda olmasa da Amerika və Qərb ölkələrindən təcrid etsin. Azərbaycanı müstəqil dövlət kimi tanıyanlar çoxalır. Həm də qonşu ölkələrdə və regionda.

Ermənilərin şeytan karxanası müqabilində həqiqət və ədalətin səsini, işini gücləndirmək, məkrli düşmənin hiylələrini ifşa etmək vacibdir. Vaşinqton və Yerevan istəsə də, istəməsə də Azərbaycan müstəqillik yolu ilə inamla irəliləyəcək. Bunun üçün isə dəfələrlə təkrar etdiyimiz kimi millətin sağlam qüvvələrinin birliyi, səyi, əlbir işi lazımdır. Bunu hər bir vətəndaş, hər bir vətənpərvər bütün məsuliyyəti ilə dərk etməlidir.

«Bərəkət» qəz. 14 dekabr 1991

ŞEYTAN KARXANASI İŞLƏYİR

Adam inana bilmir ki, yerin altından da, üstündən də xəbərdar olan Vaşinqtonun, ABŞ-ın dövlət katibi Beykerin Zaqafqaziyada gedən hadisələrdən əməlli-başlı xəbəri olmasın. Yadımdadır, 1989-cu ilin noyabrında ABŞ-ın Moskvadakı səfiri Metlok Yerevandan keçib Bakıya gəlmişdi. Rəsmi görüşlərdən sonra onun mətbuat konfransı oldu. Mən də iştirak edirdim. Əsas mövzulardan biri Dağlıq Qarabağ, Ermənistan - Azərbaycan münasibətləri idi. Bir saatlıq sual-cavab əsnasında mənə el gəldi ki, səfirin hadisələrdən müəyyən mənada xəbəri vardır. Maraqlı idi ki, Azərbaycan jurnalistlərindən Metloka sual verənlər içərisində azərbaycanlılarla yanaşı, rus, yəhudi və erməni də vardı. Metlok və onun xanımı, onu müşayiət edən Amerika diplomatları və jurnalistləri təəccüb qalmışdılar. Axı Yerevanda bunlara demişdilər ki, Azərbaycanda başqa millətləri yaxına qoyan yoxdur. Məndə belə bir təsəvvür yarandı ki, Amerika səfiri öz hökumətinə az-çox obyektiv məlumat verəcəkdir. Metlokun da ermənipərəst olduğuna şübhə yox idi. Lakin onun Bakıda dedikləri müəyyən bir ümid yaradırdı. Lakin tezliklə Metlok Moskvadan getdi. Onun yerinə kimi göndərmək istəsələr yaxşıdır? Amerikanın Suriyadakı səfirini, milliyyətcə ermənini. Suriya və Livanda, ümumiyyətlə, Yaxın Şərqdə ermənilərə hamilik edən, onları türklərə qarşı mübarizəyə səsləyən, ara qarışdıran, qatı bir daşnakı. Lakin Azərbaycan hökuməti buna qəti etirazını bildirdi. Mən fikirləşdim ki, görünür Vaşinqtonda Azərbaycan və Ermənistandakı vəziyyət haqqında həqiqət kiminsə xoşuna gəlmir. Erməni səfir lazım imiş ki, hadisələrin məcrasını dəyişsin. Axı Qorbaçovun yanında Şahnazarov olduğu kimi Reyqan və Buşun yanında da erməni nümayəndəsi oturmuşdur. Hətta Reyqandan fərqli olaraq Buşun gəlini də ermənidir, yəni ailəsində də erməni var. Bundan sonra indiki Amerika administrasiyasından nə gözləmək olar?

«Bərəkət» qəz. 1 dekabr 1991

ÖMRÜ TARİXƏ ÇEVİRƏK

Hər bir nəsl üçün keçmiş tarix, yaşanan ömürdür. Ömrün tarixə çevrilən anları hər deyəndə olmur. Tale nə vaxtsa istiqlaliyyət məhvərindən qoparılmışları bu məhvərə hər deyəndə bir də qaytarmır. Hətta şahlıq quşunun birbaşa iki dəfə qonduğunu görənləri də barmaqla saymaq olar. Bir həqiqət də var ki, tarix və tale bəzən milləti, xalqı imtahana çəkir, onun qarşısına dünyanın şərəf və namus, istiqlaliyyət və müstəqillik qapısını açır, şansını yaradır, sonra isə onun yetişmiş, sərbəst yaşamağa qədərli və qabiliyyətli olub-olmadığını müəyyənləşdirir. İnsan və ya kölə kimi qalması barədə hökm çıxarır.

Mən yaşından asılı olmayaraq bu torpaqda ömür sürənlərə və səs vermək hüququ olanlara müraciət edirəm. Gəlin yaşadığımız ömrü tarixə çevirək. Bir kərə yüksələn istiqlal bayrağını dekabrın 29-da hər birimiz öz rəyimizlə, iradəmiz və qətiyyətimizlə Azərbaycan torpağına, şüurumuza, qanımıza elə həkk edək ki, onu heç bir qüvvə, heç bir vaxt yerindən tərpədə və endirə bilməsin.

Mən çox seçkilər görmüşəm. Yalançı, fırıldaqçı, gözdən pərdə asan seçkilər, riyakarlıq seçkiləri, səs vermələri. Son 40 ildə seçki məntəqəsinə getdiyim olmayıb. Çünki inamım qalmayıb. Amma bu gün qarşıdakı referendum başqa mahiyyət daşıyır. İstiqlaliyyətimizə, müstəqilliyimizə həqiqətən səs vermək anı deyəsən gəlib. Gedəcəyəm və səs də verəcəyəm. Lakin qəlbimdə olan bir rahatsızlığı da söyləməliyəm. Əgər bu referendumdan sonra da bizim müstəqillik kəmimizi yenidən kiminsə yedəyinə bağlamağa çağırışlar olacaqsa, onun qarşısını mütləq alaq. İstiqlaliyyət ruhu xalqın namus və şərəfidir. Onunla uzun müddət oynamaq təhlükəlidir. Çünki bu gün məsələ belə qoyulub. Ya tam müstəqillik, ya da ömürlük asılılıq, kölələk. Başqa seçənəcək yoxdur. Gəlin bir nəfər kimi istiqlaliyyətə, tam müstəqilliyə səs verək. Ömrü əbədi tarixə çevirək. Bu yolda ümidimiz göydə Allah, yerdə xalqdır.

«Azərbaycan» qəz. 19 dekabr 1991

ƏMƏKDAŞLIQ, SOYMAQ VƏ SOYULMAQ

Dünya köhnə dünyadır. Bəşər tarixində neçə nəslin, neçə xalq və millətin gəlib-getdiyini dəqiq bilən yoxdur.

Alimlər təxmin edirlər ki, yaşadığımız dünyanın pəncərəsindən 75-80 milyard insan baxıb keçmişdir. İndi bu pəncərə önündə beş milyard üç yüz milyona yaxın sakin növbədədir. Alimlər bu fikirdədirlər ki, bir yandan boşalıb, bir yandan dolan dünyanın yazılmamış qanunları yazılanlardan qat-qat çoxdur. Bunların içərisində insanlar, xalqlar və ölkələr arasında insancasına əməkdaşlıq, ünsiyyət, qarşılıqlı hörmətə əsaslananları həmişə ön planda olub. Lakin soymaq və soyulmaq da dünyanın gərdişini müşayiət edib. Adətən iştahı çox, əqlin və zəhmətin hesabı ilə yox, zorun hesabına baş girləmək istəyənlər bu naxələf yola, vasitəyə əl atıblar. Zaman-zaman dünyanın əbədi qanunauyğunluqlarını dərk edənlər də olub, etməyənlər də.

Əlbəttə, bir qayda olaraq əməkdaşlıq və ünsiyyət tərəfdarları olanlar sağlam düşüncəyə və əqlə əsaslanmışlar. Soyanlar isə adətən fəndgir və çevik olublar. İstənilən şəklə düşə bilib, öz yırtıcı simalarını gizlətməyi də bacarıblar. Soyanın böyüyü də olur, kiçiyi də. Soyan sinif, qrup və dəstə də olur. Bəzən hətta bütöv bir xalqı da bu yola sövq edirlər. Məni bu düşüncələrə salan yarıerməni, yarırus Y. Losotonun «Komsomolskaya pravda» (17-18 dekabr) qəzetində dərc edilmiş «Rusiyasız Ermənistan» sərlövhəli məqaləsi oldu.

Adı çəkilən qəzetin xüsusi müxbiri Losoto Ermənistan barədə çox yazıb. Çünki o ruhən ermənidir. Məfkurəcə həm böyük dövlət şovinisti və həm də ermənipərəst millətçidir. Bu dəfə də Ermənistanda olmuş və öz təəssüratını çox geniş bir şəkildə izhar etmişdir. Yazı böyükdür, qoyulan məsələlər və problemlər çoxdur, onların hamısı barədə danışmağa ehtiyac duymuram. Lakin bir-iki prinsipial məsələni şərh etmək vacibdir.

Losoto Ermənistanda indi yaranmış ciddi iqtisadi çətinlikləri bütün çılpaqlığı ilə qələmə alır. Erməni qələm sahiblərinə xas olan ağlayıb sızıldamaq, hər sətirdə hiss olunur. Az qalır qışqırsın ki, ay aman qoymayın, erməni xalqı milli fəlakət qarşısındadır. Qaz yox, isti yox, işıq yox, yemək yox, nə bilim nə yox, nə yox! Yazır ki, Ermənistanda dövlət yoxdur. Alverçilər var. Hakimiyyət başına səriştəsi olmayanlar, bir gün də belə müəyyən bir təşkilatda işləməyənlər gəlmişlər. Oğurluq aləmi götürüb. Hətta zəlzələ rayonlarında ermənilər üçün ev tikən erməni inşaatçıları evlərin qapı və pəncərələrini səhər elə salırlar ki, axşam onu oğurluyub apara bilsinlər. Müəllif yazır ki, erməni cavanları işləmir. Əsasən evsizlər üçün ev tikənlər Rusiyadan və Qərbi Ukraynadan gələnlərdir. Qalan respublikaların inşaatçıları başlarını götürüb qaçıblar. Nə tikiblərsə, xaricilər və kənardan gələnlər tikiblər.

İndi məni oxucu kimi bir məsələ maraqlandırır: görəsən Losoto bu vəziyyətin səbəbini, təqsirini kimdə, nədə görür? Əlbəttə, müəllifə görə birinci təqsirkar bizik. Neçə dəfə yazıda blokada sözü işlənilsə yaxşıdır. Digər təqsirkar gürcülərdir. Müəllif yazır ki, Azərbaycan yükləri buraxmır, Gürcüstanda isə Ermənistana göndərilən yükləri qarət edirlər.

Losoto istər-istəməz erməni ziyalılarının bostanına bir daş atır. O yazır ki, Ermənistanın müstəqilliyini ortaya atıb onun SSRİ-dən çıxmasına təkid edənlər indi ortada yoxdurlar. Üzə çıxsalar da artıq onlara qulaq asan da demək olar ki, olmaz. Mən də deyirəm son vaxtlar erməni daşnak «qəhrəmanlarının» səsi niyə çıxmır. Sən demə, aranı qarışdırıb ortadan çıxmışlar.

Losoto çıxış yolunu nədə görür? Onun fikrincə, Ermənistana hər şeydən əvvəl Rusiya lazımdır. Rusiyasız Ermənistan heçdir. Bax bu məsələnin qoyuluşu tamamilə düzdür. Etiraz etmək olmaz. Doğrudan da ermənilər gətirib indi yaşadıqları ərazidə məskunlaşdıran da, oradakı yerli sakinləri qırıb qovan da, ermənilərə dövlət yaradan da, bütün ittifaqı soyub onların hesabına Ermənistanda görünməmiş miqyasda sənaye və elmi müəssisələr tikən də mərkəz olub. Müəllif haqlı olaraq yazır ki, cırtdan

Ermənistan hara, ən müasir atom sürətləndiricisi, beynəlxalq təyyarə meydanı, metro, ittifaqda inhisarçı vəziyyətdə olan kauçuk zavodu kompleksi və s. hara? Doğrudan da keçmiş MK aparatında və siyasi büroda oturan mikoyanlar mərkəzin erməni mafiyası burada ittifaqın heç bir respublikasında görülməyən işlər görüblər. Sözün qısası, geniş respublikaları soyub, talayıb Ermənistana veriblər. Losoto da açıq göstərir ki, Ermənistan təkbaşına yaşaya bilməz. Əgər buna təşəbbüs etsə indiki kimi zəlil günə düşəcək. Müəllifin ifadəsini işlətsəm o, daş dövrünə, çıraq işığına, ocaq başına qayıtmalı olar.

İndi belə bir məsələ ortaya çıxır ki, Ermənistan və ermənilər Rusiyanın nəyinə lazım idi ki, onlara bu qədər maya qoyur, onları bu qədər himayə edirdi və edir. Yazıda buna da az-çox cavab verilir. Müəllif yazır ki, Ermənistan yaxın Şərqdə Rusiyanın dayaq məntəqəsidir. Ermənilər müsəlman dünyasının əhatəsindədirlər. Bu dünya qaynayır və ayağa qalxır. Çeçendəki hadisələr bu vulkanın ilk püskürməsidir. Azərbaycan Türkiyə ilə öz qan qohumluğunu dərk etməyə başlamışdır. Tatarlar (Losoto deyəsən bizi, yəni türkləri indi belə adlandırmağa başlayıb) Qara və Aralıq dənizlərinə gəldikləri yolları deyəsən yadlarından çıxarmamışlar. Şimal imperiyası dağılır, cənub imperiyası bərpa olunacaqmı?

Görürsünüz, necə bir məkrli siyasi oyun oynayır. O ruslara müraciət edərək yazır ki, ey ruslar, siz təhlükə hissini itirmisiniz. Rusiyanı xilas etmək vaxtı çoxdan çatmışdır. Niyə görmürsünüz ki, vətən təhlükədədir.

Erməni daşnaklarını, Yerevan avantüristlərini xilas etmək üçün Losoto az qalır Rusiyanı Qafqaz xalqlarına qarşı səlib yürüşünə çağırsın. Yeri gəlmişkən qeyd edim ki, elə ermənipərəst Qalina Starovoytova da bu mövqedən çıxış edir. O bu günlərdə bildirmişdir ki, guya Qarabağın dağlıq hissəsindəki hadisələr üçüncü dünya müharibəsinə səbəb ola bilər.

Məqsəd aydındır. Erməni siyasətbazları bu dəfə də bərk ilişmişlər. Çıxış yolunu avantürada görürlər. Rusiyanı bu siyasətə

cəlb etmək fikrindədirlər. Yeri gəlmişkən Amerika və Qərbdəki erməni mafiyasının da bu sahədəki cəhdlərini nəzərə almamaq olmaz. Dövlətin olmadığı, yalnız alverçilərin olduğu Ermənistana, Amerika Birləşmiş Ştatları və Qərb ölkələri kömək etməyə hazırdırlar. Lakin demokratikləşdirmə və insan hüquqları sahəsində guya ləng tərpənən Azərbaycan və Gürcüstana kömək etmək məsələsinə hələlik baxmaq olmaz.

Gözüaçıq olmaq lazımdır. Əməkdaşlıq, insancasına ünsiyyət yaratmaq tərəfdarlarına geniş meydan verilməlidir. Lakin soymaq tərəfdarları ifşa olunmalıdır. O biri tərəfdən də soyulmaq hədəfinə çevrilmək də ləyaqətsizlikdir.

«Bərəkət» qəz. 21 dekabr 1991

SİYASİ REJİSSORLUQ ASAN İŞ DEYİL

Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə qoşulub qoşulmaması çox ciddi məsələdir. Burada siyasi özfəaliyyət işə keçməz. Dekabrın 19-da Azərbaycan Teleradio şirkətinin «24 saat» xəbərlər proqramına diqqətlə baxandan sonra bunu bir daha yəqin etdim. Əvvəlcə rəsmi matbuat konfransı haqqında məlumat verildi. Göstərildi ki, respublika prezidenti Ayaz Mütəllibov Alma-Ata görüşündə iştirak edəcək. Onun Birliyi haqqında sazişə qol çəkib-çəkməyəcəyi məsələsindən söhbət getmədi. Bundan sonra prezident aparatının işçisi, tənqidçi-publisist Rəhim Əliyevlə müsahibə verildi. Əlbəttə, onun mövqeyi aparatın mövqeyidir, lakin əgər rəsmi şəkildə prezidentin Alma-Ataya gedəcəyi xəbər verilir, sazişə qoşulmaqdan söhbət getmirdisə Əliyev bu müqaviləyə qoşulmağın vacibliyini niyə isbat etməyə çalışdı. Burada təəccüb ediləcək bir şey yoxdur. Hər kəsin bu barədə öz mülahizəsi ola bilər. Qeyd edim ki, bundan bir neçə gün əvvəl bu məsələ ilə əlaqədar xalq deputatı İ. Həmidovun çıxışı olmuşdu. Dərhal həmin gecə televiziya şirkəti sədrinin statdankənar müşavirini ekranda gördük, o da bizi sazişə qoşulmağa çağırdı.

Lakin srağa günkü verilişdə diqqətimi cəlb edən rejissor Vaqif İbrahimoğlunun çıxışı oldu. O da əvvəlkilərin, yəni rəsmi dairələrin fikrini ifadə etmək istəyirdi. Lakin bir az siyasi rejissorluğa başladı. İddia etdi ki, guya suverenlik və müstəqillik ideyası məqsəd deyil, vasitədir. Bax, bu, fəlsəfəyə və politologiyaya gətirilən yenilikdir. Rejissor yeniliyi. Digər tərəfdən o, tarixə müraciət etdi. Stolıpinin müddəalarına əsaslanmaq istədi. Dedi ki, guya Stolıpin demişdir ki, «sizə qan tökmək lazımdırsa, bizə böyük, azad Rusiya lazımdır». Stolıpinin dediklərini getdim bir daha nəzərdən keçirdim. Gördüm ki, Stolıpin hörmətli rejissor deyəni deməyib. O, demokratlara müraciətlə deyib ki, «əgər sizə böyük sarsıntılar lazımsa, bizə böyük Rusiya lazımdır». Burada «azadlıq» sözünü əlavə eləmək ən azı tarixi təhrif

etməkdir. Stolıpin heç vaxt Rusiyada azadlıq tərəfdarı olmayıb. İmperiya tərəfdarı olub, böyük Rusiya tərəfdarı olub. Bu imperiyanı islah etmək, onu müasirləşdirmək tərəfdarı olub. Özü də lazım gəlsə qılınc gücünə, zor gücünə, qan tökmək hesabına, dar ağacı hesabına. Hörmətli rejissor gərək bunları öyrənəydi, biləydi, sonra Stolıpindən bizə misal gətirəydi.

Bilmək lazımdır ki, siyasətbazlıq çox xatalı şeydir, siyasətlə oynamaq olmaz.

«Səhər» qəz. 21 dekabr 1991

TƏKİ YAĞIŞDAN ÇIXIB YAĞMURA DÜŞMƏYƏK

Qorbaçov getdi. Kremldən Sovet bayrağı çıxarıldı. Rusiyanın üçrəngli bayrağı asıldı. İlk baxışda nəhəng imperiya dağılmış kimi görünür. Bir məsələ aydındır ki, kommunizm xülyası yox oldu. Sovet totalitarizminin sonu çatdı. İqtisadi, siyasi və ideoloji inhisara son qoyuldu. Ən əhəmiyyətlisi də budur ki, dünyanın digər xalqlarının nümunə kimi baxdığı və ya baxılmağa məcbur olduğu nümunə də gözdən düşdü. Deməli, onlar daha bizim yaşadığımız faciəni təkrar etməkdən xilas oldular.

Sovet İttifaqı yerinə indi Müstəqil Dövlətlər Birliyi yaradılmışdır. Hələ çoxları geniş mənada bu birliyin mahiyyətini, strateji məqsəd və qayəsini düzgün təsəvvür edə bilmir. Doğrudur, bizə Qərbdə və Şərqdəki belə birlikləri nümunə göstərirlər. Lakin yaddan çıxarmaq olmaz ki, Rusiya nə Qərbdir, nə də Şərq. Hər ikisinin müsbət cəhətlərindən çox mənfi cəhətlərini özündə birləşdirən «orijinal» bir varlıqdır. Buradakı hadisələri əvvəlcədən görmək, planlaşdırmaq çox çətindir. Əslində elə dünya sovetoloqları da indi baş sındırıb gecə-gündüz bunu fikirləşir, müxtəlif istiqamət və mahiyyətli mülahizələr irəli sürürlər.

Deməli, rəsmi surətdə biz imperiyadan, mütləqiyyət rejimindən azad hesab olunuruq. Lakin əslində belə deyil. İmperiya da-

ğılmış, lakin imperiya təfəkkürü hələ güclü şəkildə qalmışdır. Mən deyərdim ki, Rusiyanın mərkəzindən çox bu düşüncə tərzi, həyat tərzi milli respublikalarda, xüsusilə müsəlman respublikalarında özünü göstərməkdədir. Uzun əsrlər boyu milli ucqarlarda o qədər manqurt, o qədər öz milli dəyərlərindən, tarixindən xəbəri olmayan bürokratlar yetişib ki, onları təzədən milli demokrat etmək çətin məsələdir.

Qərb sovetşünasları belə bir fikir irəli sürürlər ki, Moskvanın keçmiş totalitar nümunəsi bəzi respublikalarda uzun müddət yaşaya bilər. Çünki müstəqil dövlətlər olsalar da bu respublikalarda demokratik ənənə, demokratiyanın Qərb modelini həyata keçirməyə hazırlıqlı kadrlar çox azdır. O biri tərəfdən iqtisadi, siyasi və ictimai islahatların keçirilməsi yolunda əngəllər istənilən qədərdir. Bir sözlə, qarşıda son dərəcə ciddi, çətin və çox məşəqqətli problemlər, deməli, günlər, aylar, illər durur.

Belə bir tarixi həqiqət də vardır ki, imperiyalar özlərindən sonra ədavət, milli toqquşma, qarşı-qarşıya durma və sair bu kimi ziddiyyət toxumları da səpib gedirlər. Bu baxımdan Sovet imperiyası da müstəsna deyil; Azərbaycan bunun ən yaxşı nümunəsidir.

Qeyd edək ki, yenidənqurma adlandırılan və Qorbaçovun adını daşıyan 6 illik yeniləşmə prosesində keçmiş Sovetlər birliyində ən çox əziyyət çəkən məhz bizim respublika olmuşdur. Bu altı ildə heç bir xalq bizim qədər təcavüzə, təhdidə məruz qalmamışdır. Elə itkilərdən ən çoxunu verən bizik. Qorbaçovun ətrafında cəmləşmiş erməni daşnak siyasətçiləri ondan öz «Böyük Ermənistan» planlarını həyata keçirmək üçün istifadə etməyə çalışdılar. Bədnam Dağlıq Qarabağ problemi də məhz beləcə yarandı. İndi heç bir şübhə yoxdur ki, Stavropolda işlədiyi vaxtlarda ermənilərlə bilavasitə yaxınlaşan Qorbaçov nədənsə onların bir növ iradəsini ifadə edən siyasətçini xatırladırdı. Elə dekabrın 25-də Qorbaçovun vida görüşlərində də biz bunu aydın gördük.

Dekabrın 25-də axşam mərkəzi televiziya ilə Qorbaçovun vida nitqini verdilər. Özü də iki dəfə. Yenə həmin gecə mərkəzi televiziya ilə özünü insan hüquqları carçısı kimi qələmə verən, əslində erməni mafiyasının başçılarından sayılan Yelena Əlixanyan-Bonner Əfqanıstan məsələsi ilə əlaqədar çıxış etdi. Bu hiyləgər və məkrli qadın harda çıxış edirsə-etsin mütləq Dağlıq Qarabağ problemindən və yaxud da azlıqda qalan millətlərin öz müqəddəratını təyin etmək hüququndan danışmalıdır. Qulaq asanlar onun nə dediyini, əlbəttə, anlayırlar.

Dekabrın 26-da isə ermənipərəst «İzvestiya» qəzetində birinci səhifədə Qorbaçovun vida nitqi ilə əlaqədar prezidentə məhəbbət izhar edən yazı verildi. Bu yazının altında isə Dağlıq Qarabağdan daxili qoşunların çıxarılması və hadisələri təhrif edən geniş xəbər də dərc olundu.

Xarici müxbirlər Qorbaçovun öz müşavirləri ilə son vida görüşündə yenə onun yaxın adamları sırasında Şahnazarovu və mətbuat bölməsinə başçılıq edən erməni daşnak Qaragözovu gördülər. Belə təsəvvür yaranır ki, keçmiş ölkə prezidenti ermənilərsiz nəfəs ala bilmir.

Qorbaçovun bizim üçün qoyub getdiyi ən rəzil irs məhz erməni daşnak problemidir, Dağlıq Qarabağ məsələsidir. Azərbaycanı bütün dünyada nüfuzdan salmaq kimi riyakar siyasətdir. Göstərmək lazımdır ki, bu siyasətin Rusiya parlamentində və Yeltsinin ətrafında tərəfdarları da az deyil. Biz bu vəziyyəti çox ciddi şəkildə təhlil etməli, lazımi tədbirlər görməliyik. Elə son günlər Qarabağdakı rus əsgərlərinin öz silahlarını ermənilərə kütləvi şəkildə vermələri məncə, elə-belə, yerli xarakter daşıyan təsadüf deyil. Bu əvvəlcə düşünülmüş, planlaşdırılmış aktdır. Bunun arxasında nələrin gizləndiyini isə aid orqanlarımız ortaya çıxarmalıdır.

Ölkə daxilində qüvvələr nisbəti hələlik uzunmüddətli strateji baxımdan tam aydın deyil. Mərkəz fəaliyyət göstərməsə də iqtisadi təzyiq vasitələrini əlində möhkəm saxlayır. Silahlı qüvvələr müstəqil dövlətlərin ərazilərində qalmaqdadır. Onlar respublika rəhbərliyinə tabe olmaq istəmirlər. Söhbət sözdən getmir, işdən gedir. Çünki bəzən bu hərbçilər söz verməkdən, vəziyyəti başa düşməkdən müstəqil dövlətin ərazisində yaşadıqlarını bildir-

məkdən çəkinmirlər. Lakin bu müstəqil dövlətlərin sərhədlərinin, mənafeyinin qorunması məsələsinə gəldikdə belə bir iddia irəli sürülür ki, biz millətlərarası münaqişəyə qarışmırıq. Əslində bu ideyanın müəllifləri Rusiya Federasiyasının prezidenti Yeltsin və müdafiə naziri Şapoşnikovdur.

Müstəqil dövlət xalqın, onun hər bir əmək qabiliyyətli və düşünən fərdinin maddi-mənəvi iştirakı ilə yaranır. Hər bir Azərbaycan vətəndaşı yeni yaranan müstəqil dövlətin onun payına düşən ağırlığını öz çiynində daşımalıdır. Əks təqdirdə bu dövlət yaşaya bilməz.

Vətən deyə yüz illərdən bəri uğrunda sel kimi qan tökülən, can verilən bu torpaqları bizlərə qazandıranları yada salmaq lazımdır. Bizim qüvvət mənbəyimiz, gələcək taleyimiz bununla əlaqədardır.

Tarixin Qorbaçov dövrü sona çatdı. Akademik Dimitri Lixaçov demişkən: «Allah bizi yeni kələkbazların hiyləsindən saxlasın». Ən ciddi məsələ budur ki, biz yağışdan çıxıb yağmura düşməyək. Ukrayna prezidenti Kravçuk Mərkəzi qəzetlərdən birinin müxbiri ilə müsahibəsində qeyd edir ki, bu vaxta qədər Ukraynanın taleyi 95 faiz Moskvada həll olunurdu. İndi isə bir faizini belə hardasa həll olunacağına razı olmayacağıq. Əgər Ukrayna prezidentinin dedikləri həqiqət olsa məhz, bu yolu tutmaq lazımdır.

«Bərəkət» qəz. 28 dekabr 1991

KEÇMİŞİMİZ, GƏLƏCƏYİMİZ...

Hər bir sözün, hər bir məfhumun zaman-zaman ictimai-siyasi meydana çıxdığı, nəhəng tarixi proseslərə özündə əks etdirdiyi anlar, illər olur. Yaşadığımız və yola saldığımız ildə də ümumdünya sosiyyəli qlobal dəyişiklikləri özündə əks etdirən, ilk növbədə sifət kimi işlənən «keçmiş» sözüdür. Neçə yüz illər ərzində yaradılmış, son yetmiş dörd ildə isə dünyanın iki böyük dövlətindən birinə çevrilmiş SSRİ də indi dönüb

«keçmiş» olub. Bir əsrə yaxın təkcə Rusiyanı deyil, dünyanı öz təbii məhvərindən çıxarmağı və qırmızı rəngə boyamağı qarşısına məqsəd qoyan Sov.İKP də indi dönüb «keçmiş» Sov.İKP olub. Son vaxtlar nə qədər «keçmiş» olsa yaxşıdır? «Keçmiş» mərkəz, «keçmiş» dünya sosialist sistemi, «keçmiş» nazirliklər, «keçmiş» siyasi büro üzvləri, «keçmiş» katiblər, nə bilim, «keçmiş» nələr, nələr və nələr... Nəhayət, «keçmiş» prezident Qorbaçov. Sabah isə deyəcəyik «keçmiş» 1991-ci il.

Şair yaxşı deyib ki, nələr yaradırsan tarix, sən nələr, duyub düşündükcə donur bədənim! Gələcək nəsillər, tarixçilər bu keçmişləri çox diqqətlə öyrənib ümumi nəticələr çıxaracaqlar. O illəri yaşayanlar, yəni bizlər hələ baş vermiş hadisələrin geniş və böyük mənasını dərk etməkdə, duymaqda nisbətən acizik. Bu böyük hadisələr haqqında axırıncı hökmü də tarix və zaman özü verəcək.

İndi hamını maraqlandıran ən mühüm sual belədir: keçmişdən bizə nə qalmış, nəyin sahibiyik? Sonra isə ikinci bir sual gəlir: nədən başlamalı və nə etməliyik? Qorbaçovu getməyə məcbur etdikdən sonra onun kürsüsündə əyləşən Rusiya Federasiyasının prezidenti Boris Yeltsin srağagün televiziya ilə Rusiya vətəndaşlarına müraciət etdi. Çox məsələlərdən danışdı, çox problemlər qoydu. İlk növbədə göstərdi ki, keçmiş mərkəzdən və geniş keçmişlərdən Rusiyaya xəstə ölkə, dağılmış iqtisadiyyat, qeyri-insani şəkildə idarə edilmiş və xarabaya çevrilmiş torpaq miras qalmışdır. Çox böyük etirafdır. Lakin, Yeltsin niyə demədi ki, Rusiyaya zorla birləşdirilən xalqları, torpaqları da məhz onlar bu günə qoymuş, bu vəziyyətə salmışlar. Görəsən, bizim təqsirimiz nə idi ki, müxtəlif bəhanələrlə bizi də xalqlar həbsxanasına, dəlilər ölkəsinə, özbaşınalıq üsul-idarəsinə müncər edib, zəlil günə qoymuşlar.

Rusiya xəstədir, ölkə xəstədir - deməklə yara sağalmır. Əvvəla, bu xəstəliyin səbəblərini aydınlaşdırmaq lazımdır. Onun yoluxucu xarakterini göstərmək vacibdir. Əlamətləri bilinməlidir.

Hələ indi-indi, yavaş-yavaş mərkəzdə nələrin baş verdiyi aydın olur. Məsələn, Amerika kəşfiyyatı müəyyənləşdirmiş və

dövlət təhlükəsizliyi komitəsinin əməkdaşları da təsdiq etmişlər ki, sən demə, Moskva altında bir neçə yaruslu şəhər vardır. 70-120 metr dərinlikdə olan bu şəhərdə 120 min adam yaşaya bilər. Orada mehmanxana tipli lüks nömrələr, kino-teatr, camaşırxanadan tutmuş bütün məişət xidməti, idman obyektləri vardır. 60-70-ci illərdə tikilmiş bu şəhər birinci növbədə Siyasi Büro və MK aparatının rəhbər işçiləri mərkəzi partiya və dövlət aparatlarının əməkdaşları və onların ailələri üçün nəzərdə tutulub. Atom nüvə müharibəsi təhlükəsi bilavasitə reallaşdıqda ölkənin sahibləri bu şəhərdə məskunlaşacaqlarmış. Göstərirlər ki, şəhərdə 25-30 il çölə çıxmadan belə yaşamaq mümkündür. Çünki onun lazım olan bütün ərzaq ehtiyatları o cümlədən su ehtiyatı vardır.

Yeri gəlmişkən deyim ki, həmin illərdə məhz Ermənistanda da yeraltı Arpa-Sevan kanalı inşa edilmişdir. Moskva yeraltı şəhərindən də bəzən üç-beş dəfə dərində olan belə sığınacaqların uzunluğu nə az, nə çox 46 kilometrdir. Moskva və Yerevan atom-nüvə silahından özlərini qorumaq üçün yeraltı sığınacaqlar tikirdilər. Bunlar sovet adamlarına, Rusiyanın geniş xalqlarına neçə yüz milyardlara başa gəlib, bunu bir allah bilir, bir də gizli seyflərdə saxlanılan sənədlər.

Bütün bunlardan sonra öz respublikamıza, yaşayış tərzimizə baxıram. Xalqın varidatını soyub orden və medallara, qırmızı bayraqlara satan respublikanın rəhbər işçiləri gözümün önünə gəlir. Əgər Yeltsin Rusiyanın iqtisadiyyatının dağıdılmasından, onun çox dəhşətli xəstəliyə mübtəla olmasından danışırsa, biz nə deməliyik? Axı Azərbaycan həmişə bir yox, bir neçə zülmün altında inləyib, əziyyət çəkib.

Yetmiş illik tariximiz, keçmişimiz faciəlidir. Bəzən belə deyirlər ki, axı bu illərdə də az iş görülməyib. Camaat savadlı olub, sənət və mədəniyyətimiz inkişaf edib. Səhiyyə sahəsində də nailiyyətlərimiz az deyil. Lakin bunların nəyin bahasına başa gəldiyini fikirləşdikdə və gələcəyə baxdıqda tərəzinin gözü fəlakət və faciə tərəfə əyilir.

«Bərəkət» qəz. 31 dekabr 1991

MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

Xalqı hər şeydən əvvəl tarixi şəxsiyyətləri ilə tanıyırlar. Əlbəttə, dövlət və hökumət kürsülərində oturmaq hələ şəxsiyyət olmaq deyil. Millət və xalqın taleyini həll etmək, onun varlığını və torpağını qorumaq yükünü çiyninə götürənlər hamısı bu rütbəyə xalqın öz içindən, həqiqətən fitri istedad və bacarıqla, əməli təcrübə və vərdişlə yüksəlib seçilənlər olurlar. Dövlət və milləti idarə işinə bürokratik pilləkənlə dırmaşanlar da çox olur, ara qarışıb məzhəb itəndə dal qapıdan girənlər də. Maraqlıdır ki, xalqın bağrından qopan, onunla birgə nəfəs alan, özünü Vətənin azadlığı, rifahı və tam müstəqilliyi yolunda şama çevirənlər nə qədər sadə, təvazökar, peyğəmbərin özü qədər inamlı və insaflı olurlarsa, şeytan karxanasından çıxıb hiyleyişərlə millət kürsüsünü tutanlar özlərindən razı, xudbin, fəndgir, yezid qədər inamsız və insafsız olurlar.

XX əsrdə Azərbaycanın fəxr edəcəyi ən böyük tarixi şəxsiyyət M. Ə. Rəsulzadədir. Mən bunu bəziləri kimi elə-belə dəbə uyub demirəm. Onun ədəbi, publisist irsini təhlil edib bu nəticəyə gəlirəm. Şimallı-Cənublu Azərbaycanı, İranı və Türkiyəni yaxşı tanıyan, «Türkəm, bu cəhətdən özümü xoşbəxt hiss edirəm» - deyən gənc Məhəmməd Əminin torpağa, onun sakinlərinə olan məhəbbətini «İran məktubları» silsiləsindən olan təəssüratlarında daha aydın görmək olur. Həmin silsilədən bir yazını oxuculara təqdim edirəm. Onun xalqın adət və ənənəsinə bağlı olduğu, ictimai-siyasi təfəkküründü, düşüncə tərzini, görmək istedadını sadə, təbii, həm də mahir publisist qələmi ilə yazılmış bu təəssüratlar əyani şəkildə nümayiş etdirir.

YOL TƏƏSSÜRATI
Urmiya

Urmiya dəryasının (gölünün) Urmi tərəfi Gülməxanə kəndi Urminin hal və vəziyyətindən bir nümunə!..

Burası kiçik bir kənddir. Nə mollası var, nə kəndxudası. Hər bir cəhətdən qonşudakı böyük kəndə tabedir.

Xərvardan bir ovuc nümunə qəbilindən olaraq Gülməxanədən aldığımız zövqü, orada gördüyümüz hüsnü-qəbulu, mehmannəvazlığı (qonaqpərvərliyi), əhalinin sadədil, safürəkli olması ilə bərabər, birdərəcəyədək arif olduğunu görüncə, insanın ürəyi şad olur. Bu mütəşəkkillikdə nə qədər dilgüşa (könülaçan), ruhpərvər isə Xərvar timsalında olan Urmi daha zövqəfza (zövq artıran) olacağından insanın ürəyi haman o tərəfə pərvaz edir. Dəryanın o tərəfində, dəryanın üzündə İmamqulu Mirzənin paraxod adı verdiyi qan çanağında insan nə qədər əzilib, ürəyi nə qədər qısılırsa da, Gülməxanədə bir gecə qalmaq hamısını yaddan çıxarır.

Kokanda məktəb var idi. Yəni bir molla var idi ki, uşaqlara dərs deyirdi. Amma mizbanımız (ev sahibi) oğlanlarını oxutmamış və oxutmurdu. İşə göndərir idi. Gülməxanədə molla yoxsa da qonaqçımız Muradın üç oğlanlarının üçü də əhlisavaddırlar. «Gülüstan» və Hafizdən şeirlər oxuyub, risalədən (kitabçadan) danışırlar.

Bunlar şəhərdə molla yanında oxumuşlar. Gülməxanə - görərək gəldiyimiz bu qədər qaranlıq səhifələr arasında bir saf rəngli güldür. Bura insanın ürəyini açır, güldürür. Adının Gülməxanə olduğu nahaq deyilmiş!..

Gün çıxmış, Gülməxanəni işıqlandırmış, cavan yolçum Rəmz bizi tələsdirir, «istiyə düşərsiniz» - deyir.

Havada gecənin sərinliyindən bir əsər var ikən getməyimizi məsləhət görürlər. Bizim halımıza qaldıqlarında öz mənfəətlərini də təmiz ürəklə gizlətmirlər. Onlar çalışırlar ki, tezliklə qayıtsınlar, gəmi adam gətirmiş olursa kirayə aparsınlar. Yola çıxırıq. Bütün külfət bizi yola salır. Hərəsi bir dil ilə nəvaziş edir.

Ev kişisi Murad təvəqqe edir ki, qayıdan baş dəxi onlara qonaq olaq. Vədə veririk, vidalaşırıq. Kəndi çıxdıqca haman «yaxşı yol» - deyə bizi ötürürlər, hörmət edirlər. Kəndi çıxırıq, təpəyi aşırıq, artıq dərya görünmür.. Ətraf bütün bağdır. Göyərir, yolçularımız bizi təfrih (sevindirmək) üçün xahişimizi əmələ gətirmək üzrə milli mahnılar oxuyurlar. Bu mahnılarda nə qədər sadəlik, nə qədər hissiyyati-təbii vardır. Mahnılardan birisini kəndçinin hal-hazırda nisbətən tutduğu nöqteyi-nəzəri saf dərunanəsini mütərcim olduğu cəhətdən şayani-qeyd olduğundan burada zikr ediriz.

Mahnı cavan bir kəndli dilindən öz sevgilisinə xitabən deyilir:

Abı, yaşılı geyinər,
Zəbuni (paltarı) yerdən sürünər,
Yel vurar məmən görünər.
Yandım yanasan, ay qız!
Xırda qalasan, ay qız!
Apararlar xan yanına
Məni danasan, ay qız!
Qənd olasan, şəkər olasan,
Cibə dolasan, ay qız!
Xırda qalasan, ay qız!
Aparalar əncüməno
Məni danasan, ay qız!

İştə avamcasına deyilən bu şeirlərdəki mütəəssir sözlər kəndistan həyatına bir şölə salır ki, onu bütün həqayiqi (həqiqətləri) ilə aşkar edir.

Oğlan bir qızı sevir, onu alıb qaçır, çünki qızın ürəkdən istədiyinə baxmayaraq ata-anası özlərinə məxsus mülahizələrinə görə vermək istəmirlər.

Xan yanına aparıb, onu qandırmaq istəyirlər. İnqilab başlayır, xanlıq işinə gedir, əncümən qurulur, amma eşq-məhəbbət işi haman köhnəliyində qalır. Bu dəfə də qızı sevgilisini danmaq üçün əncümənə aparırlar.

Sadə aşiqin ürəyini dağlayıb şairanə xəyallarını oyadırlar. Yuxarıdakı mahnıları oxutdururlar. Öylə ki, onun bu dərdi, o

ağlayıb-oxşaması milli olur. Yolçular ağzına düşür də, dağlara səs salır, bağları ağladır, müsafirləri düşündürür.

Yolçularımız çox mehribandırlar, öz bildiklərini zühura verməkdə bir zərrə də müzayiqə etmiyorlar, oxuyurlar.

Lakin, avamcasına mənalı olan mahnıları eşitdirən, bu sadə olan millət verdikləri zövq əvəzində mükafat alaraq qeyri yerlərdə olduğu kimi cib deyil, haman könülə baxırlar.

Təvəqqe edirlər ki, mən də oxuyum. Bunlar israr edirlər, «sizin yerin oxumağını eşitmək istərdik. Müzayiqə buyurmayınız» - deyirlər.

Belə bir sadədil rəfiqlərin ürəklərini sındırmaq insafdan deyil. Oxumaq bilməsəm də haman yolçularımızın xatirini sındırmamaq üzrə «Leyli Məcnun»un «Söylə bir görək, ey ərəb»indən istifadə edirəm.

Yolçularımızın şadlığı, razılığı həddindən artıqdır. Yolun əyriliyini yolçularımızın düzlüyü yaddan çıxarır. Gedirik. Özümüzü bu anda məsud biliriz. Yolçularımız yoldan kənar olan hündür bir təpəni nişan verirlər.

- Bax, bu şiş dağı görürsünüzmü, oradan bizim başımıza nə bəlalar yağır...

- Əgər sizin bu gözəl və hasildar yerlərinizdə qaidə olaydı, qanun olaydı, bu yerlərin sahibi olaydı, yəni qoyaydılar ki, məşrutə düzələydi, o vaxt siz nə qədər məsud olur, nə qədər xoşbəxt keçinərdiniz, bilirsiniz?..

- Ah, məşrutə də bir şey deyildir, şuluqluqdur. Əgər şuluqluq olmasaydı, əlbəttə, məşrutə yaxşıdır, amma qoymayırlar!..

Əvət məşrutə yaxşıdır, amma qoymurlar!.. Bu sözlərdə - sadədilanə rədd edilən bu sözlərdə nə qədər həqiqət, nə qədər məna var!..

- Kimdir qoymayan!

- Allah bilir!..

İştə İran məşrutəçilərinə lazım idi və lazımdır ki, kəndçilərin, əhalinin mübaliğəsiz və təşviqsiz almış olduqları bu dərəcədə məlumatlarını artırsınlar.

Öylə etsinlər ki, yazıq kəndçi «məşrutəni kim qoymur?» - sualının cavabını allahın öhdəsinə atmayıb da özü bilsin.

Böylə olur isə, o vaxt kəsbi-hürriyyət bugünkü bir halı-fəlakətə düşməz və əcnəbi qoşunlar dəxi məmləkət daxilində şeypur çalıb, nəğmə oxuyub nümayiş etməz və məmləkətin istiqlalı təhlükəyə düşməz idi.

Ey dad adamsızlıq!!!...

* * *

Gedirik gün var, fəqət biz görmürük, yolumuzun bu yan, o yanında baş qalxızmış olan zümrüd rəngli ağaclar asimanə çəkilmiş, kölgə salmış, bir hümməti-la-qeydanə ilə ətrafına əhəmiyyət verməyib yüksəliş pərəstanə bir hal ilə həmişə yuxarı çəkilməkdə olan qovaqlar sərbaz səfləri kimi düzülmüşlər də təravətli yarpaqların gümüşü şüaları ilə günəşin oxlarını rədd edirlər, yolu sərin saxlayırlar, gözəl bir xiyabandır gedirik. Təbiətdən həzzləniriz. Ağacların xışıltısı, onları tərənnümə gətirib təravət verən, kötüklərində axan suyun şaqqıltısı, yolçularımızın zümzüməsi, yoldan kənar eşidilməkdə olan cüllütlərin mahnıları tam bir musiqi dəsgahıdır!

İştə bu xiyaban Urmiyə gedir...

Bir az sonra şəhərə daxil olacaq!..

Yolda rast gələn qulamlar şəhərin vəziyyətindən xəbər verirlər.

Müxtəlif geyimli adamlara rast gəlirik də Urminin beynəlmiləl bir şəhər olduğuna dəlalət edir.

Böyük çalmalı, gen şalvar, ənni (enli) qurşaqlı kürd gəlir.

Belindəki xəncərini rahlayır. Gözlərindəki iti baxış ilə bir çox mənalar ifadə etdirir.

Xəyal edirsən ki, böylə deyir:

- Ax nolaydı, xəlvətdə əlimə düşəydin!..

Bir dəstə ərəb dilinə bənzər bir ləhcə ilə danışan müxtəlif qiyafəli insanlar keçir. Bunlar yolun hər tərəfinə baxır, yolçunun hamısına diqqət edirlər. Bunlar qiyafeyi-milliyyələrini itirmiş aysorlardır. Bunlardan kimisi iranlı qiyafəsində olub keçə papaqlı, kimisi Avropa libasında olub həsir şlyapalı, kimisi Qafqaz paltarı geyib baş furaşkalı, kimisi kürd libasında qırmızı fəslidir.

Odur, İran ermənisi gəlir. Ermənliyinə işarə olaraq belində bir qayışı vardır. Yoldaşı zərdüşti paltar yəhudi ilə türkcə söhbət edir.

Müxtəlif millətlərin arasında bir-birini qanmaq və qandırmaq üzrə ümumi olaraq türk dili işlənir. Türk dili burada beynəlmiləl bir dildir.

Onu hər kəs bilir. Erməni, kürd, rus, fransız, ingilis, fars, aysor, alman hamısı türkcə danışır.

Bu qədər müxtəlif cinsli bir heyətin hamısı ilə danışa bilirəm. Türkəm, bu cəhətdən özümü xoşbəxt hiss edirəm.

Bizi saxlayırlar. Rus saldatlarının kəlməsini eşidiblərmiş, xəbər alırlar. Deyirik ki, sabah gələcək.

Aysorilərin sifətlərində bir başaşət görünür. Anlaşılır ki, bu gəliş çoxdan gözlənir. O saat dönüb yanında başdan-başa ağ geymiş olan qarısına öz dili ilə bəyani-hal edir, o da sevinir.

Saldat gələcək, xristianlıq güclənəcək, kürdlər daha qarət edə bilməyəcəklərmiş!..

Haman mənzərə, haman təravət, haman ahəng, haman xiyabandır gediriz. Təbiətin hüsn və qüdrətin hiss ediyor, yaratdığı müxtəlif əlvan məxluqatı görür, hifz ediriz!..

Nakah bir ətri-kiyah (göy ot) və səbzanə öyrəşmiş olan qonşumuz tənəffür (iyrənmə) edir, belə bir gözəl və müəttər (ətirli) olan ərsəgahi təbiətdən xilafi-məmul olaraq nifrətli və çirkin bir qoxu qalxır.

Bu dabbaqxana qoxusudur...

Şəhər darvazasının qabağından axan suyun üstündə, kölgəli söyüdün dibində qolları və baldırı çırmanmış dabbaq başını aşağı salıb, aşılanmış camış dərisini təmizləyir. Dəridən qalxan üfunət suyu havanı pisləyir də, dabbaqxananın təşkil elədiyi heyət bütün o şairanə mənzərəni korlayır.

Atları qamçılayır, burnumuzu tutub cəldlik ilə ötürük, şəhərə daxil oluruq.

M. Əmin.

Urmiya. 15 iyun.

«Tərəqqi» *qəzeti, 30 iyun, 1909*

«Mədəniyyət» qəz. 1 yanvar 1992

ZAMAN KEÇSƏ DƏ BƏLA ELƏ HAMAN BƏLADIR

Qarabağın təkcə dağlıq hissəsində deyil, ətraf rayonlarda da qan tökülür. Erməni yaraqlıları azğınlaşmışlar. Vəziyyət həddindən artıq çətindir. Yerevanın rəsmi dairələrinin köməyinə arxalanan erməni millətçiləri nəyin bahasına olursa olsun Qarabağın dağlıq hissəsini Azərbaycandan ayırmaq, əgər baş tutmasa onu viranəyə çevirməyi qarşılarına məqsəd qoymuşlar. Dəhşətlisi budur ki, qan tökən də erməni quldurları, hamıdan bərk qışqıran da onlardır.

Erməni daşnak mafiyası çoxdandır Azərbaycan torpaqlarına göz dikir. Onun hesabına öz ərazisini genişləndirmək istəyir. Bunun üçün isə heç bir yalan və iftiradan çəkinmir. Bu günlərdə Rusiya televiziya xəbərləri verilişində yenə mənfur araqızışdıran Zori Balayanın iyrənc adı çəkildi. O, həyasızcasına, utanıb qızarmadan bəyanat verir ki, guya Dağlıq Qarabağda azərbaycanlılar genosid həyata keçirmək istəyirlər. Deyim ki, bu cür iftiralar, bu cür həyasız böhtanlar yeni deyil. Balayanların və onun cərgəsində duran bişərəflərin ata-babaları da bu işlə məşğul olublar. Təəssüf ki, biz uzun müddət bunlardan xəbərsiz olmuşuq. Keçmişin acı səhifələrini vərəqləyib lazımi nəticə çıxarmamışıq. Bu gün mən oxucuları görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin «İrşad» qəzetində dərc olunmuş «Daşnaksutyunçuya rəddiyyə» məqaləsi ilə tanış etmək istəyirəm. Görəcəksiniz ki, zaman dəyişsə də bəla elə həmin bəladır, davam edir. Amma nə vaxta qədər? Məsələ bundadır.

DAŞNAKSUTYUNÇUYA RƏDDİYYƏ

«İrşadın 156-cı nömrəsində «İki nüktə» ünvanında yazdığımız məqalə Daşnaksutyunun mürəvvici-əfkarı olan «Alik»i («Dalğa») təşvişə salmışdır. Həqiqət acı olduğu üçün «Alik» oy-

lə həyəcana gəlmişdir ki, adətən bir az da artıq söyüş və hətərən-pətərən başlamışdır.

63-cü nömrəsində «Mətbuat» qismində bizim «İki nüktə»ni mövriydi (müzakirə etmək) bəhs edib, «Alik» bu növ ilə intiqada (tənqidə) girişir.

«İrşad»ın ətrafına toplaşan müsəlman «intelligentləri» erməni inqilabiyun firqəsi daşnaksutyunun əksinə çox şuriş (üsyan) ediyorlar. Bu da vazehdir ki, onların hökumətlə əlbir olub, ermənilərı puç etmək demon (iblis) proqramlarına daşnaksutyun mane oldu. İş boylə olduqda, müsəlman «intelligentləri» gördülər ki, bütün ermənilərı qırmaq üçün qabaqca daşnaksutyunu puç etmək lazım gəliyor».

Əcəba, «Alik»in utanmamazlığı gör nə yerə çatıbdır ki, erməni milləti ilə daşnaksutyun firqəsini bir hesab ediyor. Bu firqəni də puç etmək fikrinə düşüb, onun əleyhinə fikir sürənlər yalqız irşadçılardır, demək istiyor. Nə qədər cəsarət, nə əndazədə həyasızlıq! Cənab daşnaksutyunçu, rus hökuməti ilə rus millətini bir hesab etmək olursa, daşnaksutyun ilə də ermənilərı bir hesab etmək olur. İndi rus hökuməti - istibdadiyyəsinin əleyhinə çalışanlar, rus millətinə qarşı gediyorlarsa, müsəlman intelligentləri ilə bərabər, qeyri-hürriyyətpərəstlər də daşnaksutyunu puç etmək istədikdə erməni millətini məhv etmək istərlər. Ey erməni millətinin «hamisi!». Sizin əleyhinizə gedən tək bir müsəlman intelligentləri deyil. Rus intelligenti və erməni intelligentləri də vardır. Ürəyiniz bulansa da Bakıda nəşr olunan «Trudovaya jizn» qəzetəsinin axırıncı, hökumət tərəfindən bağlanmış nömrəsinə, «Kayts» («Qığılcım») və «Mışak»ın (əməkçi) 150-i nömrəsində Sərkisyanın məqaləsinə baxınız. Baxınız da görünüz ki, daşnaksutyunu tanıyan tək bir «İrşad»ın tək bir müsəlman intelligenti, tək bir Rəsulzadə deyil, qeyriləri də var. «Hiçakistlər» kimi felən protest edib dalaşanlar da var.

Zikr etdiyimiz müqəddəmədən sonra «Alik» mətləb ustə gəlib «Kayts»ın doğru və haqq sözülə, adətinə görə danos adı verib, bizim sosial-demokrat olmağımıza da şəkk edərək, «nağara çalıb» yoldaşların diqqətini daşnaksutyuna cəlb etməyimizdən

mükaddər (kədərli) oluyor. Biz ki, müsəlman fəhlələrinin qoyduqları tələbi (ki erməni fəhləsinin də qəbulundan ibarət idi) tərifləyib, bu tələbin müqəddəs bir əqidədən naşı olduğunu demişdik. «Alik» bizim bu sadə ibarəmizi qanmayıb, xəyal etmiş ki, biz müsəlman fəhlələrinə müqəddəs demişiz.

Və bunun üçün də səbr edəməyib kəmali-qəhr ilə bizə hücum ediyor.

«...Doğrudur deyiblər ki, adam nə qədər cahil olsa, bir o qədər cəsur olar. Bizim sosial-demokrat gopçularımız bu qədər uzağa gediyorlar ki, «Volteri vaxmister etməyə» hazırdırlar... Onların tazə müsəlman «yoldaşları» cəsarəti o yerə çatdırıblar ki, meydana çıxıb elan ediyorlar ki, müsəlman fəhlələri müqəddəslər dərəcəsinə çatıblar, çünki sosial-demokrat təsiri altındadırlar».

Qəddar daşnaksutyunçu öz cahil mütərciminin səhvinə düçar olub, müqəddəs ləfzini, ictimaiyun ammiyun əqidəsinə təbir edilmişdir, müsəlman fəhlələrinə müxtəs (məxsus) edib həyasızlığından, cəmi ictimaiyun ammiyunları gop vurmaqda müttəhim ediyor. Müttəhim etmək istədiyi yerdə biçarə hiyləgərin hiyləsi öz ayağına düçar olub, köhnə böhtançılıq və iftirakuluğunu indi də büruzə verir. Ey həqiqəti görmək istəməyən qəddar! Biz adını və müqəddəs ibarələri eşitmişiz, fəqət fəhlələrə deyil, əqidələrə təbir etmişiz, biz daşnaksutyun millətçiliyinin adını deyib ictimaiyun-ammiyun insaniyyətpərvərliyini müqəddəs bəyan etmişiz. Sözün məzmununu dəyişib, sonra məzəmmət etməyi ancaq daşnaksutyunçu «Alik» kimi həyasızlar bacararlar.

Lap axırda «Alik» bizim cümlə fəhlə sinfi tərəfdaranəsinə olan müraciətimizi dərc edib daşnaksutyunun maskası götürülmək təklifinə xeyli acığı tutub diyor ki:

«...Hərgah məqalə yazan sosial-demokrat cənabın maskasını götürsək, görərsən altından nə çıxar? Kramolni (hökumət əleyhinə fəaliyyət) panislamisti, yainki, müsəlman feodalizminin bir layiqli nümayəndəsi? Bəlkə bunların xahişi budur ki, daşnaksutyunu puç etsinlər...?».

Yenə köhnə zurna! Hər vaxt bir kəs daşnaksutyunçulara

müqabil durur isə, o saat daşnaksutyunçuların nəzərində Sultanhəmid, panislamizm və müsəlman feodalizmi mücəssəm oluyor. Əcəba, «Alik» haradan duydu ki, biz panislamistik və yainki feodalist. Məhz ondan ötrümü ki, daşnaksutyun əleyhində qələm sürmüşük? Boylə isə «Alik»in məntiqinə görə «Kayts», «Mışak», «Trudovaya jizn» panislamizm orqanlar olub, «hiçakistlər» Sultanhəmidin agentləridir. Bu beləmi?..

Əzizim qare (oxucu)! Niyə gülürsünüz? «Alik»in məntiqinəmi? Xeyr əfəndim, burada bir təəccüb yeri yoxdur. Türkdə məsəldir: «Aşığın sözü qurtaranda yarım-yarım çağırar».

M. Ə. Rəsulzadə,
«İrşad», 21 iyun 1906

«Bərəkət» qəz. 4 yanvar 1992

BÖHRAN ÇOX DƏRİNDİR, ONDAN ASANLIQLA ÇIXMAQ OLMAYACAQ

Yaşadığımız günlərdə hadisələr elə sürətlə cərəyan edir ki, neçə yüz illər ərzində Rusiyada formalaşmış iqtisadi-siyasi dövlət mexanizminin təbiətinə və fəaliyyət prinsiplərinə bələd olmadan onlardan baş çıxarmaq müşküldür.

Rusiya tarixini hərtərəfli tədqiq edənlər belə bir qanunauyğunluğu qeyd edirlər ki, mütləqiyyət və hərbi feodal təfəkkür tərzinin hakim olduğu Rusiyada zaman-zaman müxtəlif intervallarla böhranlar və sarsıntılar baş verir. Məsələn, göstərirlər ki, keçən əsrin əvvəllərindən başlayaraq, Rusiyada doqquz belə böhranlar və inqilablar dövrü mövcud olmuşdur: 1801, 1825, 1856-1866, 1881, 1905-1907, 1917, 1937, 1956, 1985. Burada nəzərə çatdırılır ki, hadisələr arasındakı müddət yeni bir nəslin meydana gəlməsi müddəti qədərdir. Yəni, valideynlərin anadan olması ilə onların valideyn olması arasındakı məsafə qədərdir.

Müstəqil fəaliyyətə qədəm qoyan hər bir yeni nəsil köhnəni birdən-birə rədd etmir. Əvvəlcə həyat səhnəsinə öz prinsip və ideyaları ilə qədəm qoyur. Sonra onu da təkamül, yaxud sıçrayışlar, inqilablar yolu ilə həyata keçirməyə çalışır. Hakimiyyətə gələn yeni qüvvələr çox vaxt sistemi dəyişmir, cüzi islahatlarla öz mövqelərini möhkəmləndirməyə səy göstərirlər. Bu islahatlar isə ona görə lazım olur ki, köhnəni yerindən tərpətmək və özünə tabe etmək üçün ətrafına kütlə yığa bilsin. Lakin zülm də qalırdı, zülmət də.

Rusiya tarixi əyani şəkildə göstərir ki, bütün islahatlara və inqilabi sıçrayışlara baxmayaraq, burada mütləqiyyət üsuli-idarəsi öz mövqelərini həmişə saxlaya bilmişdir. Padşahı baş katib əvəz etmişdir. Hətta baş katibin səlahiyyəti mütləq hakimdən də qat-qat artıq olmuşdur.

Alimlərin diqqət verdikləri geniş cəhət də odur ki, əgər Qərb ölkələri iqtisadi çətinlikləri, böhranları məhsuldar qüvvələrin sürətli inkişafı vasitəsilə aradan qaldırmağa səy göstərirdilərsə, Rusiyada bu çətinlikləri yeni torpaqlar işğal etmək və əhalini

var-yoxdan çıxarmaq hesabına görürdülər. Məsələn, belə bir faktı qeyd edək ki, əgər XIX əsrin ikinci yarısında İngiltərədə sənaye məhsulu 30 dəfədən çox artmışdısa, həmin müddətdə Rusiyada bu cəmi iki-üç dəfədən çox artmışdı. O da ən çox hərbi və onunla əlaqədar olan sənaye sahələrinin hesabına, Rusiyanın Qərbdən geriliyi neçə yüz illərdir ki, davam edir. Bunun ən böyük təqsiri mövcud olan dövlət mexanizmində, mütləqiyyət rejimindədir.

Bizim bu tarixi faktları nəzərə çatdırmağımız təsadüfi deyil. Oktyabrdan keçən 74 il ərzində Rusiyanın əsas inkişaf meylləri, dövlət mexanizmi yeniləşdirilsə də onun əsas fundamenti, kökləri qalmaqda idi. Bu birinci növbədə iqtisadiyyat və siyasət üzərində dövlət inhisarının hakim olması ilə səciyyələnir. Hətta çar Rusiyasına nisbətən sovet dövründə dövlət kapitalizmi səviyyəsinə qaldırılan iqtisadiyyat məhsuldar qüvvələrin inkişafını ləngidir, onun əl-qol açmasına imkan vermirdi və indi də vermir.

İndi Rusiyada elan edirlər ki, yanvarın 2-dən ölkə yenidən kapitalizm dövrünə qədəm qoyur. Düzdür, bunun adına bəzi rus iqtisadçıları humanist kapitalizm də deyirlər. Lakin soruşulur ki, yeni kapitalistlər hardan əmələ gəlmişlər? Nəyin hesabına varlanmışlar? Xarici icmalçılardan birinin fikri ilə razılaşmaq olar ki, sosializmdəki oğrular və rüşvətxorlar kapitalizmdə yeni ağalar olacaqlar.

Ölkədə yeni iqtisadi islahatlar həyata keçirilməyə başlanır. Qiymətlərin başı buraxılıb. Yanvarın 6-dan respublikamız da bu iqtisadi oyuna girib. Xalqı çox çətin və məşəqqətli günlər gözləyir. Satılmalı şey də qalmayıb. Rusiya Federasiyasının prezidenti Yeltsin hətta deyir ki, xarici ölkələrin keçmiş Sovet İttifaqına olan borclarını xaricə satmaq lazımdır. Bildiyimiz kimi bu borclar təxminən 60 milyard dollar miqdarındadır. Onu deyim ki, mən birinci dəfədir ki, borcun satılması haqqında, özü də dövlət səviyyəsində satılması haqqında faktla rastlaşıram. Yeltsinin 60 milyard xaricdən alınacağı borcu satmaq təşəbbüsü nə nəticə verəcək? Onu kim alacaq? Bu borcları biz özümüz xarici ölkələrdən ala bilmirik. Bilirsiniz nə üçün? Uzun illərdir ki, Rusiya xaricə xammalla yanaşı külli miqdarda silah satmışdır. Bizə borclular içərisində Vyetnam, Əfqanıstan, Efiopiya, Mozambik, Anqola, İraq və s. bu kimi ölkələr var. Onlar indi özləri çox pis vəziyyətdədirlər. Müflis olmuşlardan hakimiyyətdən uzaqlaşdırılmışlardan necə borc almaq olar və bu borcları xaricdə kim alar? Atalar yaxşı deyib ki, suda boğulan saman çöpünə əl atar. Biz də deyəsən eləyik.

Rusiyada həyata keçirilən iqtisadi islahatları ölkəni xilas etmək planı adlandırırlar. Bu islahatların nə nəticə verəcəyi hələlik müəmma olaraq qalır. Həm də hadisələr təkcə iqtisadi çərçivədə qalmır, ictimai-siyasi xarakter alır. Axı nəzəriyyə nə qədər desən var, təcrübə yoxdur. Başlanğıc var, davamı, sonu görünmür. Səbəb var, nəticə yoxdur. Ölkədə kollektiv çılğınlıq hökm sürməkdədir. Hər şeyi vurub dağıtmaq meyli də hiss olunur. Səbrlə işləmək, hərəkət etmək meyli zəifləyir.

Bu gün dünənin, sabah bu günün davamıdır. Heç kəsin də sabahdan möcüzə gözləməyə haqqı yoxdur. Payızda, yazda əkməyənin yayda xırmanı olmaz. Adam əkdiyini biçər - demişlər. Xalqın əl-qolunu bağlayıb, təhkimçi vəziyyətinə salanlar, muzdlu köləyə çevirənlər, torpaqsız qoyanlar sonda özlərinə quyu qazırlar. Xalq onların yığdıqlarını da vallah-billah yeməyə qoymayacaq. Bir bərk ayaqda xanimanlarını vurub dağıdacaqlar. İt də gedəcək, ip də.

Sosialist mülkiyyəti, xalqı yaşada bilmir. Kapitalist, xüsusi mülkiyyət forması isə hələlik ayaq tutmayıb. Keçid dövründə çinovniklər, birja sahibləri, alverçilər, möhtəkirlər meydan oxuyur, xalqı soyurlar. Tətbiq olunan azad qiymətlər vəziyyəti dəyişə biləcəkmi? İndi bizdə yaranan alverçi bazarı əmtəə-pul tədavülü deyil. Mülkiyyətçilər arasında, alverçilər arasında tədavüldür. Sosialist mülkiyyət formasının hakim olduğu bir şəraitdə bazar iqtisadiyyatından necə söhbət gedə bilər.

Dövlət başçıları təminat verirlər ki, aclıq olmayacaq. Yaşayaq, görərik. Təki onlar deyən olsun. Amma mənim buna inamım azdır.

Düşdüyümüz böhran çox dərindir. Bu yetmiş dörd ilin böhranı deyil, neçə əsrlərin böhranıdır. Özü də bu həyatımızın bütün sahələrini əhatə edən böhrandır. Ondan çıxış yolunu asan tapmaq da mümkün olmayacaq. Bunun üçün həm tarixi keçmişimizi, həm indimizi yaxşı və dərindən tədqiq-təhlil etməyə borcluyuq. Xarici ölkələrin təcrübəsi də öyrənilməlidir. Lakin vəziyyət elə gətirib ki, bu böhrandan çıxmaq yolunu hər bir xalq, hər bir millət özü birinci növbədə özü tapmağa borcludur. Bu, təcrid olunmaq, ayrılmaq deyil. Ölkə iqtisadi və siyasi cəhətdən dolaşmış kələfə bənzəyir. Bu kələfin ucunu tapmaq isə çox böyük axtarışlar, səylər, bacarıq və istedad tələb edir.

«Bərəkət» qəz. 7 yanvar 1992

İNSAF DİNİN YARISIDIR

Hər bir xalqın həyatında istər-istəməz xoşbəxt və müsibətli günlər olur. Lakin bir medalın iki üzü olan səadət və faciə göydən düşmür. Əgər təbiətin nadir hökmləri nəzərə alınmazsa, ictimai iqlimi insanlar özləri müəyyən mənada tənzim etmək iqtidarındadırlar. Əlbəttə, cəmiyyətin də obyektiv qanunauyğunluqları var. O yerdə, o məmləkətdə ki, aşağıdanyuxarı hər fəaliyyətin mərkəzində insan, insanpərvərlik, mərhəmət və insaf durur, orada xoş günlərin sayı da çox olur.

Rəhmdillik, mərhəmət hissi və insaf həyata aşağıdan nüfuz etməlidir, beşikdən tərbiyə olunmalıdır. İnsafı olmayanın Allahı da olmur. Müqəddəs Quranda «insaf» sözünə 960 dəfə rast gəlinir. Məhz buna görə deyiblər ki, «insaf dinin yarısıdır».

Bu gün biz tariximizin çox çətin, işıqlı və eyni zamanda, faciəli günlərini yaşayırıq. Əgər cəsarət, qeyrət, fədakarlıq və məsuliyyətlə yanaşı, rəhmdilliyi, mərhəməti və insafı ön xəttə çəkməsək, onları həyat və davranış qaydasına çevirməsək ağır ictimai-siyasi böhrandan müzəffər çıxa bilmərik.

Tarixi təcrübə də göstərir: əsl vətənpərvər, əsl vətəndaş o kəsdir ki, bərkə düşənə qəlbinin səsi, vicdanın hökmü ilə təməннasız əl uzadır, bu ilahi hissi təbliğ edir. Böyük humanist, insanpərvər, siyasi və dövlət xadimimiz M.Ə.Rəsulzadənin ibrətamiz fəaliyyəti və zəngin irsində bunu bütün təfərrüatı ilə görmək mümkündür. Nümunə olaraq «Bir qocanın müsibəti» adlı publisistik yazısını oxuculara təqdim edirəm. M.Ə.Rəsulzadənin bu əsəri çıxan günün səhəri, yəni 1909-cu il yanvarın 31-də onun 25 yaşı tamam olurdu. Gənc Məhəmməd Əminin qəlbinin döyüntüləri, ürək yanğısı, milli təfəkkürü bu yazıda konkret şəkildə çox geniş və mənalı əks olunmuşdur. Oxuyaq, biz də düşünək, hərəkət edək!

BİR QOCANIN MÜSİBƏTİ

İdarə xidmətçisi ərz edir:

- Bir nəfər qoca kişinin idarəyə ərzi var.
- De gəlsin.

Qapı açılır. Cındır kürklü, şikəst gözlü, həzin qiyafəli, 80 yaşlı bir qoca kişi içəri daxil olur. Görünür ki, bu kişinin söykənəcəyi, pənahı əlindəki bir ağacı qalmışdır ki, ona təkyə edərək gəzir.

- Əmi, əyləş. Nə işiniz var, əmi?

- Mən bir fəqir adamam. Güzəranım çox pis keçir.. Altı baş külfətim var. Xırda uşaqlarım - üç qızım, bircə oğlum var. Oğlum 9 yaşındadır, palçıqçılığa gedir. Gündə iki abbası gətirir, o da hər gün olmur. Mənim bir eşşəyim var idi, onunla gedirdim dərya kənarında bostanlarda talaşa yığırdım. Bəzən kəndimizə gedirdim, orada mənə əl tuturdular. Ondan-bundan, buğdadan, arpadan-zaddan verirdilər, gətirirdim. İndi bundan da əlim çıxdı.

Burada qoca müsahibimin boğazı qəhərləndi, doluxsundu, böyük bir bəlaya düçar olan bu zəif insan sözünə belə davam etdi:

- Dünən dəniz qırağında talaşa yığdım, eşşəyin üstünə qoydum. Köhnə veçerni yanından gedirdim, mən səki üstü ilə, eşşək də küçə ilə, birdən kim isə məni itələyib küçənin aralığına yıxdı, mən durmaq istədim, məni vurub burnumu qanatdılar. Bir azdan sonra ölə-ölə ayağa qalxdım. Gördüm iki nəfər müsəlman bir başqa iki nəfəri məzəmmətləyir. Onlar bir-biri ilə söyüşdülər, getdilər. Mən baxdım ki, eşşəyim yoxdur.

Burada biçarənin çeşmək arxasından baxmaqda olan kirpiyi tökülmüş korhal gözlərindən qocalıq və acizlik yaşları tökülməyə başladı. Mənim ürəyim qısıldı.

- Ah! Mən eşşəksiz nə edəcəyəm? Yazıq mənim halıma! Altı baş külfətim o eşşəyə baxırdıq. İndi nə edəcəyik!...

Artıq mənim də bu qocanın tökülən göz yaşlarına taqətim qalmadı! Bu eşşəyi oğurlanıb mafövqi (yuxarıda göstərilənı) təsəvvürə gətirilməyən bir qüssəyə düçar olan qocanı bilaixtiyar böyük məbləğ almaq tamahı ilə tutulub soyulan ərbabi-dövlətlərlə müqayisə etdim.

Əcəba, bunların hansı böyük bir bəlaya düçar olmuş? Bu xüsusda qocanın öz fikrini bilmək üzrə belə bir sual verdim:

- Necə bilirsən, əmi, Musa Nağıyevin zərəri, yoxsa səninki - hansı çoxdur?

- A... nə deyirsən, ay ağa, Musadan yüz min manat alsalar da heç olmasa 50 mini qalar ki, dolansın. Amma mən... mən biçarənin eşşəyini apardıqda dəxi dolanmaq mümkün olmur. Altı baş külfət o eşşəyə, o ac eşşəyə göz dikmişdi.

- Bəli, qoca əmi, sənin dərdin hamısından ağırdır.

- Hə, balam! Mən eşşəksiz nə edəcəyəm? Elə mən eşşək üçün ağlayıram. Amma arvadım xəvarici üçün ağlayır. Deyir ki, mən çalışıb göz işığı qoymuşam, yun xərcləmişəm, xurcun toxumuşam. Mən eşşəkdən ötrü ağlayıram, o xurcunu oxşuyur. Amma bilmir ki, iki kisəni bir-birinə tikərsən, xurcun yerini görər. Amma gözünün qorasını sıxır. Eşşək olmayandan sonra xurcun nə iş görəcək?

Nə qədər təzad!

Ah dünyamızın əsasları! Çoxlarının maddeyi-kərahəti (nifrəti), zəhləsi getdiyi eşşək, o həqir heyvan, yalqız insana nə qədər əzizdir. Baxınız, iyirminci əsr mədəniyyəti, qüdrəti və sənəti ilə fəxr edən insanların əfradı (fərdləri) nə qism aciz qalmış ki, bütün həyatı və mayeyi-nicatı bir ac eşşəyə bağlıdır.

Bir baxınız insanların dənaətinə (alçaqlığına), öz aciz zəif üzvlərinin əlindən belə bir vasiteyi-məişəti dəxi qəsb edir.

Ah qasiblər (qəsb edənlər), həyasız dəni (rəzil) hasiblər (hesab çəkənlər)!.. Əclaflar! Bu qocanın acizliyindən, sinnindən, saçından, saqqalından utanmırdınız, barı oz boy-buxununuzdan, qüvvətli, qüdrətli qolunuzdan utanaydınız!..

Ah... Mən də gör sizdən nə istəyirəm!.. Sizlərdən həya istəyirəm!

- Heyhat, həya, insaf sizdə nə gəzir, camaat laqeydliyindən siz bu hissiyyatı itirib, insanlığı fəramuş etmiş, getmişsiniz!

Ey ciblərinə hücum edildikdə özünə gəlib dad-fəryad edən ağalar, siz də diqqət veriniz! Cavanlığını ərbabi-miknət (dövlət sahibləri) və sərvətin qulluğunda zail etmiş, bütün qüvvət və bacarığını ağalara satmış olan bu qoca, bu zəif insan nə gündə rüzgar keçirir. Bunu da biliniz ki, bu tövr eşşəklərə möhtac olub qalan züəfa bir tək Rəcəb Əli oğlu Səfərəli deyil: bu qism fələkət-zədələr hədsiz-sansızdır, Bunlardan elələri vardır ki, dərdini belə bir yerə, bir idarəyə demir. Onu da bilmirdiniz, görək bu dəfə, bir an olsun bu acizlərin qeydinə qaldınızmı? Bu xüsusda bir təşəbbüs göstərə bilirsinizmi?!

- Yox! Əvət, yox!

Hərgah sizdə o dərəcə bir insanpərvərlik, o dərəcə bir təşəbbüs və həssaslıq olsaydı, bugünkü cibinizə hücum edən qasiblərdən də əminəm ki, xatircam olub qalardınız!..

* * *

Əziz oğlu ölmüş kimi eşşəyin fərağında göz yaşı töküb qırışıq rüxsarını islatmaqda olan bu qocaya, qoca Səfərəliyə nəhayət dərəcədə yazığımız gəldi. Ona təskinlik olmaq, onun dərdinə şərakət etmək üzrə rəy verdik ki, ianə vərəqi açıb ondan ötrü bir

eşşək pulu yığaq. Bundan ötəri də ona 15-20 manat lazımdır.

İndi ey ürəyində rəhm olan qareini-kiram (əziz oxucular), bu xüsusda bizə yardım ediniz də bu qoca kişiyə kömək edək. Ona eşşək almaq üçün bu cüzi məbləği cəmləyək. Biz ona vədə verdik ki, rus cüməsi gəlsin pulu aparsın.

İştə hörmətli qareimiz, hümmət edin, bildirək ki, aramızda dəni, təəblər (əziyyət verənlər) məətəəssüf mövcud isə bunlara etiraz edən sahibi-vicdanlar da yox deyildir!..

İanə etmək istəyənlər «Tərəqqi» idarəsinə verə bilərlər.

M. Ə. Rəsulzadə
«Tərəqqi» *qəz, 30 yanvar 1909*

«Xalq qəzeti», 10 yanvar 1992

İSTİQLALİYYƏT HAVASI VƏ MƏSULİYYƏTİ HİSS OLUNURMU?

Planetimizdə məskunlaşan hər bir xalq üçün milli dövlət və milli istiqlaliyyət qazanmaqdan ulu arzu və istək təsəvvür etmək çətindir. Müstəqil dövlət kimi dünya xalqları ailəsinə mənsub olmaq çox böyük tarixi nailiyyətdir. Bununla bərabər bu həm də çox böyük məsuliyyətdi. Bu vaxta qədər keçmiş Sovetlər birliyinə daxil olan müttəfiq respublikalar kimi, Azərbaycana da yalnız Moskvanın icazə verdiyi mövqedən baxırdılar. Xarici nəzərlər bizdən çox-çox uzaqda idi. Respublika paytaxtında yalnız iki ölkənin - İran və İraqın konsulları vardı. Dünyanın kütləvi informasiya vasitələrinin nümayəndələrini Azərbaycanda çox az-az görmək olardı. Bununla əlaqədar olaraq deməli, xaricdə respublika haqqında informasiya kasadlığı da mövcud idi.

İndi şükür olsun ki, Sovetlər birliyi dağılmış müttəfiq respublikalar, o cümlədən Azərbaycan öz milli istiqlaliyyətinə nail olmuşdur. Artıq dünyanın beş qitəsinin əllidən artıq ölkəsi Azərbaycanın istiqlaliyyətini tanıdığını bildirmişdir. Bunların sırasında BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü də vardır. Deməli, bu beynəlxalq təşkilatın qapısı bizim üzümüzə açıqdır.

XX əsrin doxsanıncı illərinin başlanğıcında bəzən fərqinə varmadığımız çox böyük tarixi hadisənin şahidləri və iştirakçıları oluruq. Beynəlxalq miqyasda sonuncu Sovet imperiyasının süqutunu XX əsrin ən böyük hadisəsi hesab edirlər. Lakin başımız istiqlal mücadiləsinə, inzibati amirlik sistemi ilə mübarizəyə, iqtisadi çətinliklərə, erməni təcavüzünə, daxili çəkişmələrə o qədər qarışıb ki, müstəqil suveren dövlət kimi dünya səhnəsinə çıxmaq sevincini və qürurunu ürəkdolusu qeyd edə də bilmirik. Görünür bu sevinc payını gələcək nəsillərə ərməğan edirik.

Müstəqil dövlət kimi beynəlxalq səhnəyə, siyasət meydanına çıxmaq asandırmı? Əlbəttə, yox!

Hər bir ölkənin, xalqın daxili və xarici siyasətinin məzmunu və xarakteri onun tarixi və ümumi bəşəri inkişafın hansı pillə-

sində olması ilə ölçülür, müəyyənləşir. Gəlin tarixi həqiqətin gözünə dik baxaq. Biz bundan sonra özümüzün kim, nəyə qadir olduğumuzu beynəlxalq miqyasda göstərməliyik. Əgər 1918-1920-ci illərin 23 ayını - Azərbaycan Xalq Cümhuriyyətinin varlığını nəzərə almasaq, neçə əsrlər Azərbaycan xalqının heç bir nəsli qarşısında indiki qədər əzəmətli, məsuliyyətli, çətin və həm də fəxarətli dövr açılmamışdı. Mən gecə-gündüz düşünüb-daşınıram ki, necə edək ki, bu əzəmətli, bu məsuliyyətli, çətin və həm sevinci hər bir vətən övladı başa düşsün, nə etmək və nədən başlamaq lazım olduğunu dərk etsin. Bunun üçün isə sözdən işə keçmək hamının qol çırmayıb işləməsinə nail olmaq lazımdır. Yenidənqurma xalqa danışmaq öyrədib. Lakin əlini-qolunu işdən soyudub. Elə bir vəziyyət yaranıb ki, işə can yandıranları az qalır ələ salsınlar. Nədənsə düzlük dönüb qəbahət olub. İstedad fərəhdən çox bəzilərində nifrət yaradır. Hər şey satılıb-alınır. İndi belə bir şəraitdə, bu vəziyyətdə dünya miqyasına çıxmaq olarmı?

Dünya meydanına, siyasət səhnəsinə əvvəllərdə olduğu kimi, indi təkcə incəsənət kollektivləri, çalıb-oxuyanlarla çıxmaq olmaz. Respublikada bütün iqtisadiyyatı, idarəetmə işini, münasibətləri yenidən qurmaq tələb olunur. Dünya standartı səviyyəsində məhsul istehsal etməklə, elmi-texniki ixtiralarla, siyasi, iqtisadi və diplomatik təşəbbüslərlə tanınmaq olar. Bu sahələrdə isə hələlik ciddi yaradıcılıq əzmi, təşəbbüskarlıq və işgüzarlıq nəzərə çarpmır. Xarici ölkələrlə əlaqə saxlayanların böyük bir qismi yalnız alıb-vermək və ticarətlə məşğul olur. Elə bil xarici siyasəti alıb satmaq və yaxud da ərzaq siyasəti əvəz edir. Bütün bunlar uzun əsrlərdən qalmış köləlik psixologiyasının, düşüncə tərzinin təzahürləridir.

İndi hamı göstəriş gözləyir, icraçılıq ruhu hökm sürməkdədir. Müstəqillik ruhu, sərbəstlik geniş miqyasda hiss olunmur. Bunu biz respublika Xarici İşlər Nazirliyinin fəaliyyətinə münasibətdə də görürük. Mən bu nazirlikdə arabir oluram. O darısqal bir binada yerləşir. Müasir elmi-texniki əlaqə və rabitə vasitələrinin kasadlığı hiss olunur. Elə əməkdaşlarının sayı da narahatlıq yaradır. Müqayisə üçün deyim ki, əgər keçən ildə Ermənistanın xarici işlər nazirliyində 180, Gürcüstanın xarici işlər nazirliyində 200 nəfərdən çox əməkdaş çalışırdısa, bizim Xarici İşlər Nazirliyində cəmisi 40 nəfər işçi vardı. Halbuki xarici siyasət sahəsində bizi çox böyük işlər gözləyir.

Əvvəllər İttifaq respublikası paytaxtı kimi tanınan Bakı, indi müstəqil Azərbaycan Respublikasının paytaxtı statusunu yenidən alır. Bakılılara bunun nə demək olduğunu izah edirikmi? Axı birləşmiş millətlər ailəsinin üzvü kimi minlərlə xarici göz bizə dikiləcək, şəhərimiz, mədəniyyətimiz, davranışımız, əxlaqımız haqqında təsəvvür və təəssürat yaranacaq. Xarici ölkələrin kütləvi informasiya vasitələrinin hər şeyi görən, seçən və göstərən jurnalist və publisistləri paytaxtımızın daimi məskunları olacaqlar. Əgər bura bizim istiqlaliyyətimizi tanıyan ölkələrin səfirlərini və diplomatik nümayəndələrini də əlavə etsək, görün şəhərimizin həyatını necə böyük dəyişikliklər gözləyir. Mən təəccüb edirəm ki, şəhərin rəhbərləri Azərbaycan paytaxtının yeni statusu ilə əlaqədar şəhər sakinlərinə, burada yerləşən idarə və müəssisələrə müraciət etmirlər, onların diqqətini paytaxtımızın yeni statusu ilə əlaqədar ciddi problemlərə yönəltmirlər. Məncə, respublikamızın kütləvi informasiya vasitələri də bu sahədə çox iş görə bilər.

Müstəqillik xalqın və ölkənin taleyini ələ almaqdır. Beynəlxalq miqyasda tanınmaq siyasətdə dünya standartları səviyyəsinə yüksəlməkdən, ümumi bəşəri dəyərlərə yiyələnmək və sadiq olmaqdır.

Əsrimizin əvvəllərində «Molla Nəsrəddin» jurnalı böyük ürək ağrısı ilə yazırdı ki, «Tənbəllik və qeyrətsizlik karxanasını» bağlamadan xalqın azadlığı mümkün olan şey deyil». Böyük siyasi xadimimiz M. Ə. Rəsulzadə yazırdı ki, «bir para əhli mariflərimiz yeri düşəndə köhnə islam mədəniyyəti ilə fəxr edirlər ki, bu hal alim babası ilə fəxr edən cahil nəvənin gülünc halına bənzər». Gəlin keçmişi öyrənək, həm də bu gün və gələcəklə fəxr etməyə çalışaq.

Elə etmək lazımdır ki, istiqlaliyyət havası və məsuliyyəti bütün respublikada hakim olsun.

«Bərəkət» qəz. 11 yanvar 1992

ORDUNUN TALEYİ NECƏ OLACAQ?

Rusiya imperiyasını rus ordusu yaratmışdır. Ona görə də orduda imperiya ruhu həmişə güclü olmuşdur. İndi imperiya dağılır. Onun yerində on beş müstəqil dövlət yaranmışdır. Amma imperiyanın əsas dayağı ordu hələlik toxunulmamış qalır. Bəs bu ordunun taleyi necə olacaq? Minskdə slavyan dövlətləri başçıları təxmini razılığa gəlmişdilər ki, Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin strateji silahlar üzrə ümumi komandanlığı olacaq. Lakin yerdə qalan ordu hissələrinin müstəqil dövlətlərdəki taleyi məsələsi dəqiq aydınlaşdırılmamışdı. Doğrudur, belə bir fikir vardı ki, hər bir müstəqil dövlətin öz milli qvardiyasını, kiçik milli ordusunu yaratmaq arzusu qanunauyğundur.

Ordu məsələsi indi ön plana çıxır. Əvvəla, bu ordunu kim saxlayacaq? Onun təchizatı ilə kim məşğul olacaq? Axi mərkəzi dövlət yoxdur. İttifaq budcəsi də yoxdur. Əslində indi heç SSRİ Müdafiə Nazirliyinin özü də göydən asılı vəziyyətdədir. Şaposnikovun vəziyyəti elə belədir.

Ordu saxlamaq hər bir müstəqil dövlətin qanuni haqqıdır. Ordusu, müstəqil pul vahidi olmayan, öz sərhədlərini özü qorumağı bacarmayan, müstəqil xarici siyasət yeritməyən məmləkəti necə müstəqil adlandırmaq olar? Əlbəttə, bütün bunların hamısına birdən-birə nail olmaq çətindir. Lakin bu yolda real addımlar atılmalıdır. Bu baxımdan Ukrayna Respublikasının və onun prezidenti Kravçukun fəaliyyəti diqqətəlayiqdir. Bu da təbiidir. Rusiya hərbçilərinin qarşısında, o cümlədən Rusiya Federasiyası prezidentinin qarşısında elə yalnız Ukrayna dura bilər. Yerdə qalan respublikaların bu işə hələlik qüvvəsi, cürəti və cəsarəti çətin çatsın.

Dörd milyonluq Sovet Ordusunu saxlamaq üçün iqtisadi güc, qüdrət lazımdır. Məsələn, belə bir fakt. Türkmənistan Respublikasında işləyən hər səkkiz nəfər bir hərbi xidmətçini saxlamağa məcburdur. İndi söruşula bilər: yaşayış səviyyəsi aşağı olan respublika bu böyda yükün altından necə çıxsın? Və bütövlükdə Türkmənistana belə bir böyük ordu lazımdırmı? Kimdir onun müstəqilliyini hədələyən? Xaricdən belə bir hədə hələlik mövcud deyil?

Bu baxımdan bizim vəziyyətimiz xüsusilə acınacaqlıdır. Azərbaycan dörd ildən artıqdır ki, açıq-aşkar erməni təcavüzünə məruz qalır. Torpağımızın Dağlıq Qarabağ hissəsi xarabazara cevrilir, qan axıdılır, yüzlərlə, minlərlə ev dağıdılır. Lakin bu təcavüzü dəf etmək üçün görülən təşəbbüslər, atılan addımlar hələ heç də kifayət deyil, əksinə, keçikmək bizi məğlubiyyətə aparır.. Həqiqi ordu yaratmaq əvəzinə söz güləşdirmək, şəxsi ambisiyalar iş görür.

Ordunun taleyi ilə əlaqədar indi Moskva və Sankt-Peterburqda mühafizakar qüvvələr baş qaldırmışlar. Vahid ordunu saxlamaq, keçmiş SSRİ-ni bərpa etmək tələbi ilə nümayişlər keçirilir. Ordu içərisindəki imperiya təfəkkürlü zabitlər açıq-aşkar hədə-qorxu gəlirlər. Yanvarın 17-də Moskvada zabitlərin ümumi yığıncağı keçiriləcək. Hərbçilər bu yığıncağa müstəqil dövlətlərin başçılarını da dəvət etmişlər. Deyəsən silah oynatmaq, hədə-qorxu gəlmək, xalqları müstəqillik yolundan yayındırmaq təşəbbüsləri ediləcək.

Müstəqil dövlətlərin ərazilərində yerləşən ordu hissələrində də belə əhval-ruhiyyə nəzərə çarpır. Bir sözlə, ordunu xalqa qarşı qoymağa çalışanlar öz qüvvələrini səfərbər edirlər. Belə bir şəraitdə ayıq-sayıq olmaq tələb olunur.

«Bərəkət» qəz. 14 yanvar 1992

YELENA QAN-QAN DEYİR

Bu günlərdə «Azadlıq» radiostansiyası Azərbaycan xalqının və bütünlükdə İslam dünyasının qəddar düşməni olan, erməni irqçi millətçilərinin başçılarından sayılan Yelena Əlixanyan-Bonnerin Rusiya Federasiyasının prezidenti Yeltsinə məktubunu onun öz səsi ilə efirə vermişdir. Mənim məqsədim Bonnerin bu sayıqlamalarını geniş şərh etmək deyil. Çünki onun cavabını «İzvestiya» qəzetinin yanvarın 11-i nömrəsində İrina Ovçinnikova çox tutarlı şəkildə vermişdir. O da maraqlıdır ki, ermənipərəst «İzvestiya»da bu yazı çap olunmuşdur. Məqalə belə adlanır: «Jandarm mundiri Rusiyaya yaraşmır».

Yelena Əlixanyanın məktubunun əsas canı belədir: əgər Amerika Birləşmiş Ştatlarının prezidenti Corc Buş İraqı darmadağın etdisə, eyni şeyi Rusiya Federasiyasının prezidenti Boris Yeltsin də görməlidir. O da Azərbaycana bu cür dərs verməlidir.

İrina Ovçinnikova özünü sülh tərəfdarı, millətlərin hüquqlarının müdafiəçisi kimi qələmə verən, özünün əsl simasını gizlətmək üçün ərİ Andrey Saxarovu bayraq edən Yelena Bonnerin bu açıq, davakar, araqızışdıran fitnəsini qətiyyətlə pisləyir. Onun əsl niyyətlərini açıb göstərir. Və belə bir nəticəyə gəlir ki, ermənilərin ərazi iddiaları üçün niyə ruslar qan tökməli, vuruşmalıdırlar? Onsuz da başıbəlalı Rusiyanın adı bu sahədə də bədnamdır. Müəllif tarixi faktlar göstərir. Macarıstan, Çexoslovakiya və Əfqanıstanın adını çəkir. Rus analarının faciəsini çox tutarlı şəkildə nəzərə çarpdırır. Və belə bir nəticəyə gəlir ki, Bonnerin bu cür davakar, fitnəkar çıxışları Rusiyanı və onun prezidentini gözdən sala bilər. Axı uzun əsrlər boyu Avropa və Asiyanın jandarmı rolunu oynayan Rusiya, məgər indi də keçmiş SSRİ daxilində müstəqil dövlətlərin jandarmı vəzifəsini öz öhdəsinə götürməlidir? Bu cür sayaqlamaların sülh işinə, əməkdaşlıq işinə nə xeyri ola bilər? Müstəqil Dövlətlər Birliyi yenicə yaradılıb. İndidən bu birliyə yeni səciyyə vermək təşəbbüsləri edilir. Özü də birinci növbədə erməni millətçiləri tərəfindən.

Sözdə müstəqilliyə tərəfdar çıxan ermənilər bu birlikdən, xüsusilə Rusiya Federasiyasından öz torpaq iddialarını, milli ambisiyalarını həyata keçirmək məqsədilə istifadə etməyə səy göstərirlər.

Bu günlər ikinci bir erməni siyasətçisi, Qorbaçovun köməkçisi olmuş Şaxnazarov da Çexoslovakiya mətbuatı orqanlarına müsahibə vermişdir. Şaxnazarov belə bir iddia irəli sürür ki, keçmiş SSRİ-nin yerində yaradılmış müstəqil dövlətlərə geniş əl-qol açmağa imkan vermək lazım deyil. Bu dövlətlərin hamısı üçün vahid birləşmiş ordu, vahid pul, vahid vətəndaşlıq olmalıdır. Özünü milli məsələlər üzrə mütəxəssis hesab edən Şaxnazarovun bu cür bəyanatı imperiya tərəfdarlarının dəyirmanına su tökməkdir. Şaxnazarovlar, əlixanyanlar və digər yanlar yaxşı bilirlər ki, müstəqil dövlətlər həqiqətən öz torpaqlarının, öz varidatlarının sahibi olsalar, bu vaxta qədər başqa xalqların və respublikaların hesabına dolanan erməni mafiyasının işi çox çətin olacaq. Ona görə də bunlara imperiya təfəkkürlü vahid dövlətlər birliyi lazımdır ki, onun mərkəzi orqanlarına soxulub öz planlarını həyata keçirməyə başlasınlar.

Rusiya Federasiyasının deputat komissiyası keçmiş KQB - Dövlət Təhlükəsizliyi Komitəsinin arxivlərində iş aparırlar, «məxfi», «tamamilə -məxfi» sənədləri araşdırırlar. Bu haqda verilmiş yazılarda diqqətimi bir fakt cəlb etdi. Sən demə, dövlət təhlükəsizliyi orqanları Yelena Əlixanyan-Bonnerə xüsusi ləqəb vermişlər: «Lisa», yəni «Tülkü» ləqəbi. Başqa sənədlər haqqında bir şey deyə bilməsəm də amma bu barədə keçmiş dövlət təhlükəsizliyi orqanlarının işçilərinin tapıntısı mənco lap yerindədir. Yelena Əlixanyan-Bonner doğrudan da yaltaq, tülküdür. Saxarov donunu geyib öz əsl simasını gizlədir. Amma bu günlərdə o, yeni bir libasda - qurd libasında meydana çıxıb qan-qan deyir. Allah bəlasını versin! Məddəsi başında çatlasın!

«Bərəkət» qəz. 14 yanvar 1992

ŞƏRƏFLİ, MƏŞƏQQƏTLİ İSTİQLAL YOLU

Yaşadığımız dünyanın öz əsrarəngiz gərdişi var. Təbiətdə fəsillər fəsilləri, cəmiyyətdə nəsillər nəsilləri daim əvəz edir. İctimai-siyasi quruluşlar dəyişir. Fələyin də çərxi daim fırlanır. Hər kəsin payına, hərənin çiyinlərinə bir tale yükü düşür. Onu fəxarətlə, namus və qeyrətlə daşıyanlar da olur, fəndkirlik edib çiyinlərindən aşıranlar da.

Xalqı, vətəni çiyinlərinə millət və vətən yükü, el dərdi götürənlər yaşadırlar. Torpağı, onun uğrunda şəhid olanlar vətənə çevirirlər. Ona görə deyiblər ki, torpaq əgər uğrunda ölən varsa vətəndir. Vətən və torpaq ayrılmazdır, vəhdətdədir, hər ikisi namus, şərəf rəmzidir.

Vətən yolunda, torpaq uğrunda vuruşanlar mücahid, həlak olanlar şəhid olurlar. Şəhid - bir məsləkdə, bir əqidə yolunda həlak olan qəhrəmanlara deyirlər. Şəhid- xalqını, torpağını, millətini, onun namusunu düşmənlərdən mərdi-mərdanə qoruyan, canını bu yolda fəda etməyə hazır olan millət qəhrəmanlarına deyirlər. Ona görə də şəhidlər məzarı məbəd və ziyarətgah yeri olur. Onlar heç vaxt xalqın qəlbindən, tarixindən, hafizəsindən silinmir. Ömürlük yaşayır. Azərbaycan istiqlal fikri və müasir dövlətçilik təliminin əsas meyarı sayılan M.Ə. Rəsulzadə məhz bunu nəzərdə tutaraq demişdir: **«Minlərlə can fəda edən hürriyyət qurbanları yaddan fəramuş olarmı? Mümkünmü ki, külli məşriqin (Şərqin) və bəlkə dünyanın səadət və hürriyyəti yolunda can qurban edən bu fədailər yaddan çıxsın?.. Heyhat! Heyhat! Onları nəinki bir tək Rusiya, hətta cümlə məşriq, cümlə aləm yadda saxlayacaqdır».**

İstiqlal mübarizəsi, azadlıq uğrunda mübarizə çox təəssüf ki, şəhidsiz başa gəlmir, şəhidsiz mümkün olmur. **20 YANVAR ŞƏHİDLƏRİ** də belədir. Onlar da Azərbaycan durduqca, yaşadıqca yaşayacaqlar. Bu bizim sözlərimiz deyil, bu tarixin və taleyin hökmüdür.

Tarixdə elə anlar olur ki, öz müstəqil milli dövlətini yaratmaq və yainki yenidən bərpa etmək fikri, onu əməli surətdə həyata keçirmək əzmi və qətiyyəti bir xalqın, bir nəslin nəinki düşünən qabaqcıl hissəsinin, həmçinin bütün soydaşların yaşamaq qayəsinə, həyat amalına, ölüm və ya olum məsələsinə çevrilir. Bizim nəslin də taleyinə məhz belə bir əzəmətli, məşəqqətli, lakin fəxarətli vəzifə düşüb. İndi torpağımızda qarşısıalınmaz təbii, nəhəng el gücü, potensialı formalaşmağa başlayır. Atalar məhz bu dövrləri nəzərə alaraq deyiblər ki, el gücü sel gücünə çevrilə bilər. Lakin bu gücü ram edib köləlik və müstəmləkəçilik zəncirini dağıtmağa, istiqlal bayrağını qaldırmağa, yurdu azad etməyə yönəltməyə başbilənlər, milli aydınlar, tarixi şəxsiyyətlər lazımdır. Millətin, tarixin belə tufanlı çağında böyük istedad və dövlət düşüncəsinə malik şəxsiyyətlərə ehtiyac hər şeydən artıq hiss olunur.

İki il bundan əvvəl yanvarda baş vermiş faciənin başlıca səbəblərindən biri də mənim qənaətimcə bu idi ki, bizdə məhz belə şəxsiyyətlər yox idi. Onların bir qismi böhranın bilavasitə iştirakçıları, tufan başlananda isə başlarını götürüb, necə deyərlər, özləri də «qaçqın» oldular. Bir qismi isə öz qınına çəkildi, gizlənib fürsət gözlədi. Yanvar faciəsini planlaşdıran və ona fitva verən Qorbaçov dəstəsinin təyinatı ilə hakimiyyət kürsüsündə əyləşdilər. İndi deyirlər ki, şəhidlər var, qatillər, səbəbkarlar tapılmır. Lakin bir şey aydındır ki, tökülən qanlar, axıdılan göz yaşları əbəs getməmişdir. İki ildir ki, biz imperiyanın, zülm və işgəncə imperiyasının dağılması prosesinin şahidləriyik. Nəhəng selə dönən xalq hərəkatının gərdişi ilə çox şeylər dəyişib və dəyişməkdədir. Bakı faciəsinin fitvaçılarının və icraçılarının bir qismi artıq rüsvayçılıq məhkəməsi qarşısında duracaqlar. Onlar sonralar ölkəni bu faciəli yola sövq etməyə cəhd göstərdilər. Deyəsən Bakı faciəsindən sonra ağızlarında «qələbə» şirəsi qalmışdı. Kryuçkovun, Yazovun, Lukyanovun və başqalarının məhkəmə prosesini biz hamımız çox böyük intizarla gözləyirik. Lakin təəssüf ki, hələlik primakovlar və bakatinlər, faciənin digər icraçıları - əli-qanlı hərbçilər siyasət meydanını tərk etməmişlər. Yaşayıb onların da ədalət məhkəməsi qarşısında dura-

caqları günün şahidi olacağıq, inşaallah!

Azərbaycan istiqlal hərəkatının görkəmli xadimlərindən Mirzəbala Məmmədzadə yazmışdı: **«Bizə milli birliyini anlamış bütöv bir Azərbaycan lazımdır»; «Azərbaycan əsrlər uzunu davam edən siyasi-dövləti bir birlik həyatını dəxi yaşamış olduğunu xatırlayırdı».**

Doğrudan da Azərbaycan əsrlər boyu «siyasi-dövləti bir birlik həyatını yaşamışdır». Başqa deyimlə, bizim siyasi dövlət quruculuğu ənənələrimiz, yaddaşımız vardır. Bununla birlikdə və bununla yan-yana bizim qədim ədəbiyyatımız, maddi və mənəvi mədəniyyətimiz mövcuddur. Bizim taleyimizi həll edən, bizi məhv etməyə qoymayan əsas dayaqlarımız da onlardır.

Belə bir potensial qüvvəsi, ənənəsi olan xalq nə üçün çıxılmaz çətinliklər və böhranlar içində çabalayır, həqiqi, kəsə çıxış yolunu tapmaqda acizlik göstərir. Məncə, bunun səbəbləri çox, kökləri dərindir. Ən başlıcası odur ki, respublikada indi mövcud olan siyasi dövlət quruluşu, vaxtını keçirmiş inzibati-amirlik sistemi və məfkurəsi yenə də əl-qolumuzu bağlayıb. Ölkəni çıxılmaz böhran vəziyyətinə salanlar onu bu vəziyyətdən xilas etmək iqtidarında olacaqlarmı? Axı kiminsə göz görə-görə oturduğu budağı kəsdiyini görən olmayıb. Yüzlərcə fərman, qanun və qərarlar qəbul edilə bilər, lakin onlar işləməyəcək, real nəticə verməyəcək. İqtisadiyyat dağılacaq, qiymətlər hədsiz dərəcədə artıb xalqın geniş kütləsinin dilənçi vəziyyətinə düşməsinə səbəb olacaqdır. Nə qədər ki, biz öz yolumuzla getmirik. M.Ə.Rəsulzadə vaxtilə müdrikcəsinə deyib ki, **hər bir millət ümumi bəşəri dəyərləri nəzərə almaqla, öz müstəqillik yolunu tapmağı, bu yolla getməyi bacarmalıdır.**

Rusiyanın öz problemləri, öz ənənələri, öz tarixi mənəvi sərvətləri vardır. Biz hər cür ehkamdan təmizlənməliyik. Rusiya ilə ümumi problemlərimiz çoxdur.

Çətinliklərimizin bir qismi müəyyən mənada eynidir. Yeltsin yanvarın 15-də Sankt-Peterburqda verdiyi ilk bəyanatda dedi ki, son 74 ildə biz özümüzə elə bir dərin quyu qazımışıq ki, indi oradan çıxmağın əzabını çəkməyə məcburuq. O, Rusiyadakı indiki vəziyyəti Böyük Vətən müharibəsi dövründəki vəziyyətlə müqayisə etdi.

Məlumdur ki, quyuya düşənlərdən hər biri əvvəlcə özünü xilas etməyə cəhd göstərir, çalışır, özgələrlə bilavasitə işi olmur. Rusiyadakı indiki vəziyyət də bunu xatırladır. Rusiya prezidentinin və onun hökumətinin əsas məqsədi indi Rusiyanı xilas etməkdir. Keçmiş respublikalar isə yalnız bu işə köməkçi roluna cəlb ediləcəklər. Bunu da başa düşmək vacibdir.

* * *

Nə tarixçilər, nə də tarixi şəxsiyyətlər öz dövrlərinin tam həqiqətlərini axıra qədər deməyiblər, açmayıblar. Bunu sonrakı qərəzsiz, təmənnasız tarix elmi deməlidir. Bu, 20 yanvar faciəsinə, onun tarixinə də aiddir.

«Bərəkət» qəz. 24 yanvar 1992

TƏRƏQQİ, YOXSA FİTNƏ-FƏSAD

Son illərin təcrübəsi göstərir ki, bəşəri inkişafın ümumi istiqaməti geniş, hərtərəfli, həqiqi demokratik cəmiyyətə doğru tuşlanıb. Yaşadığımız və artıq sona çatmaqda olan XX əsrdə cərəyan edən hadisələrin məğzi də bunu göstərir.

Maraqlıdır ki, Azərbaycanın milli müstəqilliyi ideyasını irəli sürənlər bu qlobal ümumbəşəri istiqaməti vaxtında görmüş, bütün ictimai-siyasi və əməli fəaliyyətlərində onu əsas götürmüşlər. Azərbaycanda ilk demokratik cümhuriyyət də bu zəmində yaradılmışdır.

Lakin demokratik təfəkkür və həyat tərzi zaman-zaman uzun əsrlərin mütləqiyyət idarə-üsulu və düşüncə tərzi ilə qarşı-qarşıya durmalı, ölüm-dirim mübarizəsi aparmalı olmuşdur. Bu vuruş indi də davam edir.

Həqiqi demokratiyanın ilkin şərtlərindən biri mətbuat azad-

lığıdır, cəmiyyətdə fikir müxtəlifliyinə, işgüzar tənqidə sağlam, qərəzsiz münasibətdir. Həmin keyfiyyət də birdən-birə yaranmır. Bunun üçün tarixi təcrübəyə ehtiyac duyulur, şərait tələb olunur. Bu baxımdan mətbuat tariximizdə ibrətamiz səhifələr az deyil. Bu gün anadan olmasının 108 ili tamam olan M.Ə. Rəsulzadənin «İrşad» qəzetinin ilk nömrələrindən birində dərc olunmuş «Mövcibi-heyrət» (heyrət doğuran səbəb) sərlövhəli, həcmcə kiçik məqaləsində çox böyük problemlərə toxunulur, «fikirlərin toqquşmasından nifaq, fəsad» salmaq üçün deyil, «həqiqət», «səadət və tərəqqi» yoluna çıxmaq, «millətin tərəqqisi üçün» istifadə etmək zərurəti qeyd olunur.

MÖVCİBİ-HEYRƏT

Bu bəndimi yuxarıda yazdığım ünvan ilə sərlövhələndirməyim «İrşad» qəzetinin intişarında eşitdiyim müxtəlif fikirlərdən naşidir. Hənuz (hələ) «İrşad» qəzeti aləmi intibaə (kəşrə) qədəm basmamış şəhərdə bəzi əcaib və qərib (təəccüblü) fikirlər dövran edirdilər ki, guya «İrşad» zühur edirsə şəhərimizə nifaq, ikitirəlik düşəcəkdir. Həmin fikir sahibləri öz səhvlərini buna məbniyi (əsasən) - isbat edirdilər ki, bir yerdə, bir şəhərdə iki qəzet olursa, bir məmləkətdə hökmdari-mütləq olduğu kimi şiqaq (ikitirəlik) və nifaq biruz edəcəkdir. Nə kəsif təsəvvür, nə vəxim (vahiməli) fikir! Qəzetənin mütəəddid (çoxsaylı) olmağındanmı nifaq çıxar?!.

Doğrudur, qəzetlər arasında hər bir vaxt, hər bir zaman mübahisə, mücadilə, mübarizə olur. Lakin bu bəhs, bu cidal, xəncər və tapança davası olmayıb, müsadimeyi-əfkar (fikir toqquşması), mübarizeyi-təsəvvürdən ibarətdir və bu toqquşma və vuruşma qəbih (çirkin) olmayıb bəlkə ən gözəl və müstəhsən (xoşagələn) mübarizə təriqidir. Müsadimeyi-əfkardan bariqeyi-həqiqət (həqiqət şimşəyi) çıxartmışlar! Qəzetənin tedadına (sayına) sədd qoyan əşxaslar (şəxslər) ya gərək qəzetəni mənfəətdən xali bilsinlər və yainki yetmiş min müsəlman əhalisi olan bir şəhərdə

iki deyil, onlarca qəzetə nəşrinə himmət eləsinlər.

Əcəba, nə üçün gərək qəzet çox olduqca nifaq artsın, bərəks (əksinə) olaraq qəzetələr və ruznamələrin çoxluğu həsbi (səbəbi) ilə ittifaq, ittihad artıb, insaniyyət, haqqaniyyət, mədəniyyət tərəqqi etməlidir. Buna intibaatı (nəşr etmək imkanı) olan millətlərin halı şahidi-aşkardır.

Şəhərimizdə bir qəzetə nəşr edilərkən millətimizə «həyat» bağışlandı. «Həyat» olandan sonra «İrşad» (doğru yol göstərən) lazımeyi-mədəniyyət olduğundan «İrşad»ın zühuru mətlubi-təbii (təbii istənilən)»olmazmı?

Fikrimcə «Həyat» ilə «İrşad» sütunlarında yek digərinə intiqad (tənqid) bəndləri yazılır isə həriflər budur nifaq əlamətləri - deyə çığıracaqlar. Lakin xeyr! Bu tənqidlər hərgiz yaramaz, ədavətəngiz olmayıb, bəlkə haqiqəti meydana çıxarmaq üçün bir asan yol, bir müstəqim baş yoldur.

Ey «həyat»çılar! Vəli «İrşad»çı! Hər kəsdə nə nöqsan, nə eyb var isə, ona ayna faş edin, tainki o eybdən, o nöqsandan təmiz olsunlar.

Millətin ehtiyaclarını, dərdlərini nəzəri-tənqiddən keçirib ona ayna olun! Tənqiddən əl çəkməyiniz. Çünki tənqidsiz heç bir sənət, heç bir millət tərəqqi etməmişdir. Göstərin ki, fikirlərin toqquşmasından nifaq, fəsad deyil, həqiqət; səadət və tərəqqi çıxar!

M. Ə. Rəsulzadə.
«İrşad», 9 yanvar 1906
«Xalq qəzeti» 31 yanvar 1992

FƏDA OL - QƏDR GÖR!

Öz gücünə, qüdrətinə, qeyrətinə və cəsarətinə, ən vacibi, gələcəyinə inanmayan xalq məhvə məhkumdur. İnamsızlıq, hər şeyə və hər kəsə şübhə ilə yanaşmaq, vəzifə və sərvəti ideal saymaq milli fəlakətə aparan yoldur. Laqeydlik, ruh düşgünlüyü, qəlbən heç şeyə inanmamaq, ehtiyac və qorxunun əsiri olmaq dəhşətdir. Millətin varlığı - torpağında, mənəvi qüdrət mənbəyi - keçmişindədir. Bu iki həyat çeşməsinin itirilməsi və ya çərçivəsinin daraldılması bu günü və gələcəyi əldən verməyə bərabərdir. İki əsrə yaxındır torpağımızın çərçivəsi daraldılır, biz onu hissə-hissə, bölgə-bölgə, qarış-qarış itiririk. Azərbaycan torpağına, deməli, varlığımıza göz dikənlər, qəsd edənlər çoxalır. Niyə? Dörd hərfli bu bir kəlmə suala cavab vermək asandırmı? Əsla yox. Aydın olan həqiqət budur ki, öz torpağını qorumağa hazırlaşmayan, bu müqəddəs vəzifənin icrasını kənarda axtaran nəsil - xalqın keçmişi, indisi və gələcəyi qarşısında xəyanətə yol vermiş kimidir. Müstəqillik, istiqlal və azadlıq uğrunda vuruşanlar, torpağımızın hər qarışı uğrunda, canını fəda edən millət qəhrəmanları tarix qarşısında imtahan verən mücahidlərdir. «Kişi gərək camaat üçün hər bir şeyindən, hətta canından keçsin» - qeyrət və namus, müdriklik və uzaqgörənlik simvolumuz M.Ə.Rəsulzadə bu sözləri yazanda cəmi 24 yaşı vardı.

«Millət necə tarac olur-olsun nə işim var» - səf-səfəsinə qulluq edənlərə, «camaat öz mücahidlərinin qədrini bilmir» - deyənlərə cavab verərək M.Ə.Rəsulzadə yazırdı: «Nə vaxt bir mücahid özünü fəda etdi ki, camaat onun qədrini bilmədi? Camaətə qədr bilməyi fədakarlığın ilə gərək öyrədəsən. Əvəzsiz heç nə alınmaz. Fəda ol, qədr gör!».

Mən bunları ona görə nəzərə çatdırıram ki, keçmişdən, o cümlədən M.Ə.Rəsulzadə irsindən onun mahiyyətinə varmadan bizə dərs vermək istəyənlərə xatırladım: indi bizə bu irsdən kül yox, daim közərməkdə olan, heç kəsin söndürə bilməyəcəyi milli qeyrət qığılcımı, odu gərəkdir. Respublika Teleradio şirkəti «Radikal studiyası»nın M.Ə.Rəsulzadəyə həsr etdiyi və bütövlükdə uğurlu olan verilişində bəziləri iddia edirdi ki, guya M.Ə.Rəsulzadənin əsl publisist yaradıcılığı 1910-cu ildən başlayır. Guya M. Ə. Rəsulzadənin atası onun mücahid yolunu seçməsini bəyənirdi və s.

İndi, hörmətli oxucular, mən sizə 1903-1909-cu illər ərzində publisistikamızın 200-dən artıq klassik nümunəsini yaratmış bu mütəfəkkir millət xadiminin bir yazısını təqdim edirəm. Oxuyun. Onda görərsiniz ki, səriştəsi olmayıb televiziya ekranına çıxaraq M.Ə.Rəsulzadə haqqında danışanlar nələri yaddan çıxarırlar. Yazıdakı Qəhrəman müəllifin özü, Mirzə Yusif onun opponentidir.

MÜTALİƏLƏRİMDƏN

Əlimə düşmüş qələmi (əlyazması - red.) bir nüsxədən bu gün tərəqqipərvanəmiz ilə ehtiyatkaran və mazipərəstanımız arasında təsadüm (çarpışma, toqquşma - red.) və mübarizədə olmaqda olan bir məsələyə dair müsadimeyi-əfkari burada nəql etmək istiyoram.

İştə o kitabda oxuduqlarım:

Mirzə Yusif: - Balam, tamam şəhərdə sənin sözünü danışırlar. Bir məclis olmayır ki, orada səndən deməsinlər. Heç adam tapılmaz ki, yaxşılığın desin. Hamı səni pisliyor. Kimi diyor ki, heyf o kişidən ki, onun oğlu böylə veyl çıxdı. Kimi diyor ki, babi olub, kimi diyor ki, sosialist olub. Hərə ağzına gələni diyor. Heç bir nəfər adam mənə rast gəlmədi ki, desin: «filan kəsin oğlu əcəb oğlandır». Canım, niyə özünü dillərə salmısan? Nə üçün eylə olasan ki, camaətin dilinə düşəsən? Aton sakit bir adamdır, dolanacağı camaətdəndir. Sən belə eləyəndən sonra aton nə eləsin, kim ona əl tutar? İndi mən bir çox adam bilirəm ki, sənin acığına atova bihörmətlik ediyorlar. Sən necə rəva görürsən ki, o bu vaxtında rüsvayi-cahan olsun. Deyirlər guya orada-burada gəzib, diyorsan ki, camaat gərək həqqini alsın, nə bilim dövlətlilər camaətə düşməndirlər, beladirlər, heladirlər. Axı sənin bular nəyinə lazım, kasıb babasan çəkil bir yana, bu zibildə, sənin bu işlərdə nə işin var?..

Qəhrəman: - Dayı, bircə dayan, buracan ki, danışmısan ey... Hamısı doğrudur. Mən gəzib, öz əqidəmi, öz fikrimi deyəcəyəm. Həmin fikrimi demək üstündə bu az ömrümdə az bəlalar görməmişəm: ata ilə aramız dəyib, bəzi cəmaət hesab olunanların nəzərindən düşmüşəm, uşkoldan qovulmuşam, lakin bunların hamısını qəbul eləyib, bildiyimdən geri qalmayacağam. Mən öz fikrimi deməsəm, özümü günahkar bilərəm. İnsan gərək cəmaət yolunda hər bir şeydən keçsin.

Mirzə Yusif: - Ədə, nə danışırsan? Görünür ki, doğrudan da cavansan! Mən elə bilirdim ki, sən cavan olsan da təsəvvüratın piranədir. Amma indi gördüm ki, özünü həlak etmək istəyirsən.

Yaxşı deyirsən ki, kişi gərək cəmaət üçün hər bir şeyindən keçsin.

Qəhrəman: - hətta canından da.

Mirzə Yusif (təəccüblü): - Canından da?.. Adə, canı nə ucuzlaşdırdın?

Qəhrəman: - Cəmaətdən də artıq şey varmı?

Mirzə Yusif: - Səbr elə, səbr elə, sən deyən cəmaət hələ burada yoxdur. Adə, hansı cəmaətə özünü qurban eliyorsan? Bu Kufə məxluqunamı? Bu öz xeyri ilə şərini bilməyənlərəmi? Əzizim, sən bizim bu cəmaəti tanımıyorsan, bunlar sözə baxmazlar, sənin sözün nə qədər həqq, nə qədər düz, doğru olsa da çiyində bürünc, başında əmmamə, belində tapança, cibində pul olmayınca, sənə qulaq asmazlar. Bu üç nişanlardan birinə dara olsan hər nə desən qulaq asarlar. Görürsən? Hələ cavansan, bu məxluqu tanımıyorsan. Mən bilirəm bunlar necə taifədir. Beş-altı nəfər sənin kimi cavanlara, qanı istilərə nə allanırsan? O tövr yoldaş sən ancaq beş-altı nəfər taparsan, onların da bərk gündə kömək etmələrinə çox da güman yoxdur.

Qəhrəman: - Dayı, mən bilən, siz səhvdəsiniz. Doğrusu, cəmaətimiz cahildir, avamdır, xeyrini-şərini bilmiyor, əmmamələrə, medallara, tapançalara, pula itaət ediyor, həqq və həqiqətə səbr eləmiyor. Bunlar hamısı düzdür. Hərgah bunlar olmayaydı, hər bir şey yeri-yerində olaydı, onda daha bizə nə ehtiyac, onda daha nə lazım gəliyordu ki, cəmaəti öz həqqini bilməyə, qara qüvvələrə itaət etməməyə çağırasan.

Sizin dediklərinizdə bilmərrə məntiq yoxdur. Siz diyorsunuz ki, «cəmaət bilmiyor, bildirmə, biləndə deyərsən». Bunu bir nəfər müstəbidin dilindən eşitsəydim bir o qədər təəccüb etməzdin. Çünki, böylə məntiq ilə ancaq onlar razı olarlar. Cəmaətin ziyalı, mərifətli bir üzvü isə gərək desin ki: «Cəmaət bilmiyor, bildir, deməsən bilməz». Qoy əvvəl dəfə səni döysünlər, vursunlar, sözünü eşitməsinlər, eybi yoxdur. Axırda bilərlər, həqq hər halda qələbə edər. Əgər ki, sən bir toxum əkərsən, müruri-zaman ilə o toxum göyərib sünbül olacaq, nəticəsindən isə un və sonra çörək olacaq. Toxum səpən bir kəndçi toxum: əkdiyi bir ani-vahiddə o saət dönüb çörək olduğunu istəməyə həqli deyil, çünki bu təbiətdən xaricdir.

Bundan əlavə biz müsəlman cəmaətinin övzai lap da öylə deyil ki, siz təsəvvür ediyorsunuz. Sizin gördüyünüz dolandığınız tacirlər, mollalar və bəzi əhvali-güzərani vüsətlə (bolluq, rifah - red.) keçənlər ilə olduğundan təbiidir ki, ətrafınızda olanları öz məişətindən razı görüb, siyasi işlərdə mühafizəkar görürsünüz. Cəmaət mücahidlərinə nisbətən onlarda ədavət müşahidə qılırsınız. Bundan da belə nəticə çıxarırsınız ki, azad fikirlər hələ müsəlman arasında yeriməz. Lakin bu əbəs fikirdir, hərgah, siz əsl cəmaət hesab olunan fəqir-füqəra, əmələ və fəhlə sinfinin arasında gəzeydiniz, hərgah siz məişətin bütün ağırlığını arxasında çəkənlər arasında olsaydınız, hərgah siz onların əzab və məşəqqətlərindən xəbərdar olsaydınız, onda bilərdiniz ki, müsəlman arasında işləmək üçün necə hazırlanmış yerlər var. Mədəniyyət əkmək üçün müsəlman çəmaəti necə münbit bir topraqdır.

Ancaq müdəbbir (tədbirli - red.) əkinçi lazımdır ki, bu yerləri şum eyləyib əksin. O əkinçilər də biz millət cavanlarıyıq. Bizə vacibdir ki, heç bir mümanəət və çətinliyə baxmayıb, var gücümüz ilə çalışaq ki, cəmaətimizi düçar olduğu fəlakətdən xilas edək.

Hər sahibi-vicdan olan kimsə guşi (qulaq - red.) ibrət ilə qulaq assa, məzlumların nalələsini, yetim uşaqların fəryadını, zülm altında əzilən əhalinin istimdadını eşitməyə bilməz! Bunları eşitməmək üçün kar olmalıdır, gözümüzün önündə aclıq və fəlakətləri görməmək üçün kor olmalıdır, mənəvi kar və mənəvi kor

olmalıdır. Hər kəs ki, kar deyil, hər kəs ki, kor deyil, hər kəsin ki, bədənində gizlətdiyi qəlb daş parçası deyil, dövrəmizi tutan bu dəhşətli mənzərə içində sakit otura bilməz. Ona lazım və vacibdir ki, öz cəmaətinin əlindən tutub, ona kömək etsin...

Dayı, məgər qonşumuz gürcüləri, ermənilər, yəhudi və ruslar görmüyorsunuzmu ki, necə cəmaət yolunda qurban olurlar?..

Mirzə Yusif: - Bax, yenə mən deyənə gəldin ha... Ermənilər, gürcülər və qeyrilərini mənə göstərirsən, niyə baxmıyorsan ki, onların cəmaəti necə öz mücahidlərinin qədrini bilirlər. Bizimkilər də bilərlərmi?

Qəhrəman: - Ah... nə vaxt bir mücahid özünü fəda etdi ki, cəmaət onun qədrini bilmədi? Cəmaətə qədr bilməyi fədakarlığın ilə gərək öyrədəsən. Əvəzsiz heç nə alınmaz. Fəda ol, qədr gör! (Əvət: «Fəda ol, qədr gör!»).

Mirzə Yusif (hiddətlənmiş): - Adə, axı sən nə diyorsan?!...

Qəhrəman: - Dayıcığım, mən çox söz diyoram, ancaq müxtəsəri budur ki, hamının dirilik etməyə ixtiyarı olmalıdır.

Mirzə Yusif: - İnan ki, qanmıyoram.

Qəhrəman: - Ən açıq sözlərdən biridir. Dünya gərək hamı üçün bir olsun. Bir ovuc insanların səadət və rahatlığı üçün milyonlarca insanlara cəbr olunmasın.

Mirzə Yusif: - Budurmu sizin istədiyiniz? Ax, xülyapərəstlər! O hansı axmaqdır ki, buna razı olsun? O hansı sarsaqdır ki, öz qulluqçusu ilə bərabər olmağı istəsin?

Qəhrəman: - Düzdür, dayı, düzdür! Dünyada elə axmaq tapılmaz. Yer üzündə öylə səfeh yoxdur. Amma onları, o axmaqlığa o səfahətə vadar edərlər.

Onların xoşuna qalsa, əlbət ki, riza verməzlər, əlbət ki, razı olmazlar. Amma cəmaət yığışıb birləşə, müttəfiq olub öz həqqini qansa və bu həqq dalınca düşsə, onda tez razı olarlar.

«Kafər becəhənnəm nə mirəvəd, kəşan-kəşan mibərənd». (Kafir cəhənnəmə getməz, onu çəkə-çəkə apararlar - red.).

Məhəmməd Əmin:
«İrşad», № 51, 15 aprel 1908

«Aydınlıq» 14 fevral 1992

ÇÜRÜK ZƏMİNDƏ BİRLİK OLMAZ

Müstəqil Dövlətlər Birliyini - beynəlxalq deyimlə SNQ-ni nə gözləyir?

Bu günlərdə Vaşinqtonda xüsusi mərasimlə dünya xəritəsindən SSRİ adını rəsmən pozdular. Lakin onun yerinə MDB yazmadılar. Çünki dünyada belə bir dövlət yoxdur. Əvvəllər üç Pribaltika respublikasının müstəqilliyini tanımış ABŞ və digər dünya dövlətləri elə bil birdən ayıldılar, real varlığı gördülər. Tezliklə keçmiş SSRİ-yə daxil olan respublikaların dövlət müstəqilliyini bir-birinin ardınca tanımağa başladılar, Axı, tarixin yaratdığı belə bir şansı əldən buraxmaq olmazdı.

Neçə yüz illərdir ki, planetin az qala altıda birini zəbt edib dünyaya meydan oxuyan «şər imperiyası» təbii şəkildə süqut edib parçalandı. Moskva 15 müstəqil dövlətdən birinin - Rusiya respublikasının paytaxtıdır.

İndi neçə aydır ki, siyasi leksikonumuza yeni bir şəhərin - Belorusun paytaxtı Minsk şəhərinin adı daxil olub. «Minsk sazişi», «Minsk görüşü» və s.

Görən, Belorus paytaxtı tarixə necə daxil olacaq?

Burada özülü üç slavyan respublikası tərəfindən qoyulan və indilikdə keçmiş SSRİ ərazisindəki 11 müstəqil dövləti birləşdirməli olan MDB yaşaya və fəaliyyət göstərə biləcəkmi? Dövlət başçılarının son görüşündən sonra Rusiya paytaxtında rəyi soruşulanların 41 faizi bu suala müsbət, amma 45 faizi mənfi cavab vermişdir.

Bu inamsızlıq nədən doğur? Verilən rəsmi informasiyalar, rəy sorğuları iştirakçıların bəyanatları o qədər ziddiyyətli, birtərəflidir ki, həqiqi mənzərəni təsəvvür etmək çətinləşir. Əlbəttə, son Minsk görüşündə MDB-yə daxil olan dövlət başçıları bəzi iqtisadi-siyasi və hərbi məsələlərə dair razılaşma əldə etdilər, sənədlər imzaladılar. Bunları qiymətləndirməmək olmaz. Lakin bu görüş göstərdi ki, MDB üzvləri arasında bir sıra mühüm məsələlərə dair fikir ayrılıqları getdikcə güclənir. Məsələ bundadır ki, müstəqil dövlətlərə xas olan statusların gözlənilməsi bəzən nədənsə Rusiya rəhbərliyi tərəfindən və ona təzyiq göstərən hərbçilər tərəfindən nəzərə alınmaq istənilmir.

Mərkəz yoxdur, mərkəz ruhu isə yaşayır. İmperiya parçalanıb, onu yaradan, onun əsas dayağı olan ordu toxunulmamış qalır. Son məlumata görə, ölkədə üç milyonluq ordu vardır. Onlardan bir milyonu zabitdir. Zabitlərin çox böyük əksəriyyəti isə ruslardır. Bunlar heç bir şey istehsal etmirlər. Lakin çox yaxşı, iştahlı istehlakçılardır. Moskvadakı hərbi aparatda 20 min general və yüksək rütbəli zabit qulluq edir. Yazovun bu komandası, hərbi aparatı toxunulmamış qalmışdır. Yazovun yerində eyni imperiya ruhlu, lakin arabir gülümsəyən və mülki paltar geyən aviasiya marşalı Şaposnikov oturmuşdur.

Orduda əsaslı dəyişiklik aparılmamış, islahat həyata keçirilməmişdir. Moskvada zabitlərin ümumi yığıncağını keçirən və az qala MDB-yə ultimatum vermək istəyən onlardır.

Bizi maraqlandıran Azərbaycan nümayəndə heyətinin fəaliyyətidir. Ordu məsələsində Ukrayna və Moldova ilə bir mövqedə durduq. Yəni əgər MDB adlı bir dövlət yoxsa, vahid ordu da olmamalıdır.

Minskdəki son görüşü onun iştirakçıları müxtəlif cür qiymətləndirmişlər. Məsələn, Şuşkeviç görüşü bütövlükdə yaxşı, Kravçuk dörd minus, Nazarbayev isə hətta məqbuldan aşağı kimi qiymətləndirmişdir.

Təəccüb və təəssüf doğuran odur ki, respublikamızın rəhbərliyinin hər bir səfərini tarixi, uğurlu səfər kimi qələmə vermək istəyən telejurnalistlər bu dəfə də eyni yolla getdilər. Müşavirənin başqa iştirakçılarının, digər informasiya vasitələrinin nə deyəcəklərini, nə söyləyəcəklərini gözləmədilər. Məsələn, «215 KL» studiyası aparıcısının sualına cavab verilərkən Şaposnikovun guya Xankəndən 366-cı polku bir-iki günə çıxartmağa razılıq verdiyi barədəki xəbər, görəsən, kimi aldatmaq üçün idi? Və yaxud aparıcının Gürcüstan nümayəndəsi ilə müsahibədə bəzən provakasiya xarakterli sualları kimə lazım idi?

Minskdəki son görüş haqqında nəticədə onu deyə bilərəm ki, razılıq əldə edilən məsələlər qarşıya çıxan yeni problemlərə nisbətən azlıq təşkil etmişdir. Bir şey aydındır ki, müstəqil dövlətlər öz suverenliklərini qorumaq əzmindədirlər. Yeni mərkəz yaratmaq, köhnə ittifaqı yeni formada bərpa etmək təşəbbüsləri baş tutan şey deyil.

«Azərbaycan» qəz. 20 fevral 1992

NƏ QƏDƏR DÖZMƏK OLAR?

Keçən il tanınmış rus şairi, son zamanlar səsi çıxmayan və ya hərdən bir teleekranda görünən Yevgeni Yevtuşenko «Proterpet» (dözmək, qatlaşmaq, davam gətirmək) adlı bir şeir yazmış və dərc etdirmişdi. Mən bununla əlaqədar şairə qısa bir məktub yazmışdım. Onu oxuculara təqdim edirəm.

Hörmətli Yevgeni Aleksandroviç! Sizin «Komsomolskaya pravda»da dərc olunmuş «Proterpet» adlı şeirinizi diqqətlə oxudum. Doğrudan da rus xalqının hüdudsuz, ölçüyəgəlməz dözüm fenomeni yaşadığımız dünyanın ən böyük və anlaşılmaz sirlərindən biridir. Rus xalqına və onunla birlikdə «xalqlar həbsxanası»nda dözüm təlimi keçməkdə olan digər əsir xalqlara ürəyi yanan böyük rus şairi Aleksandr Blok sizdən əvvəl yazırdı ki, allah Rusiyanı ona görə yaratmışdır ki, dünyanın digər xalqları necə yaşamaq lazım gəlmədiyini baxıb, ruslardan öyrənsinlər.

İnkaredilməz bir həqiqətdir ki, Rusiyanı dünyanın ən radikal, ağlasığmaz nəzəriyyələrinin sınaq meydanına çevirmək təşəbbüskarları məhz radikal rus ziyalıları olublar. Zorakılıq, qanunsuzluq, ədalətsizlik fəlsəfəsi və təcrübəsi üçün dünyada ən münbit zəminlərdən biri Rusiya olub. İndi əsas məsələ Rusiyanın bu xəstəlikdən necə xilas edilməsi problemidir. Bunun üçün yenəmi, dözmək tələb olunur? İndi bir fikirləşin: əgər siz dözə bilmirsinizsə, bizlər - bədbəxt və zəlil vəziyyətə düşmüşlər necə dözsünlər?

Əlinizin üstündə əl yox,
Gözünüzün üstündə göz yox,
Sözünüzün üstündə söz yox,
Ayağınız altında göz yox.
Siz dözürsünüz, bəs biz nə edək!

Hörmətli Yevgeni Aleksandroviç! Azərbaycanda xalq məsəli var, deyərlər: «Özünü yorulmuş biləndə, yoldaşını ölmüş bil».

Dözüm - zülmdür. Dözmək - cəhənnəm əzabıdır. Gəlin siz də, biz də bu bəladan xilas olmaq yolunu arayaq. Başqalarını köləlikdə saxlayan bir xalqın özü də kölə vəziyyətinə düşməlidir. Gəlin, dözməyək, bəsdir.

Rusiyadan yenə əvvəlki imperiya qayda-qanunlarına qayıtmaq səsləri eşidilir. Bu təbliğatın və hərəkatın ön cərgəsində duranların bir qismi radikal rus ziyalıları, şairləri və imperiya tərbiyəsi görmüş yerli manqurtlardır. Gəlin, siz mərkəzdə və Rusiyada, bizlər isə yerlərdə bizi cəhənnəmə sürükləmək istəyənlərin məkrli planlarını pozaq. Müqəddəs kitabımız Qurani-kərimdə belə bir ayə var: «Ancaq yolunu azmış adamlar şairlərin ardınca gedərlər». Bunu da nəzərdən qaçırmayaq.

«Aydınlıq» qəz. 21 fevral 1992

KİMƏ SAHİBLİK EDİRİK: DİRİYƏ, YOXSA ÖLÜYƏ?

«Əkinçi»nin nəşrə başladığı gün - iyulun 22-si keçən ildən Azərbaycanda milli mətbuat günü kimi qeyd edilir. 117 il bundan əvvəl torpağımıza, milli ruhumuza Zərdabi qeyrəti, Zərdabi fədakarlığı və Zərdabi qətiyyəti, Zərdabi uzaqgörənliyi və Zərdabi mücahidliyi qədəm qoymuşdur. Kim bu böyük istedadın nəyə qadir olduğunu bilmək və öyrənmək istəyirsə, Zərdabi irsinə müraciət etsin. Bu, xüsusilə jurnalistlərimizə, siyasət və millət meydanında çarpışan mücahidlərə, mübarizlərə lazım və vacibdir. Yaşadığımız çox ziddiyyətli, doğru və oğrunun qarışıb demokrat libası geydiyi, vəzifə və var-dövlət hərislərinin əl-qol açdıqları şəraitdə bizə hava-su kimi gərəkdir. Əziz oxucular, bu tarixi bir həqiqətdir ki, biz indiyə kimi əsl millət fədailərinin, ağlı, elmi və istedadı ilə milli müqəddəslər səviyyəsinə yüksələn, millət və vətən naminə özünü fəda etməyə hazır olan mücahidləri sağlığında görüb qiymətləndirməyi bacarmamışıq. Yalançı, gözə kül üfürən, xalqın zəlalətı hesabına yüksələn «millət pəhləvanlarına» çox uymuşuq. Sonra da peşimançılıq keçirmişik. «Quru taxta üstə vəfat edib, əhli-əyalına bir şey qoya bilməyən», yalnız öləndən sonra həmvətənlərinin yadına düşən Zərdabinin timsalı yalnız keçmişdəmi qalmışdır?

Fikirləşirəm: görəsən, nə vaxta kimi namus və qeyrət, düzlük və haqqaniyyət, elm və bilik sahibi olan dirilər sağlığında diqqətdən kənar qalacaq, minbir hiylə və oyunla cildlərini dəyişən, fitnə-fəsad mühərriki ustaları isə meydan oxuyacaqlar. Millətin böyüklüyü əyri ilə düzü, yalanla doğrunu seçə bilməsindədir. Həsən bəy Zərdabi məhz belə şəxsiyyət olub.

Gəlin, mətbuat günü bir daha Həsən bəy Zərdabi ilə təmasda olaq. Sözü namus, idrak sahibləri Əhməd bəy Ağayevə və Qara bəy Qarabəyova verək, görək 85 il bundan əvvəl nə düşünmüş, nə demişlər? Zamanın kollektiv yaddaşı - «İrşad» qəzeti buna imkan verir.

* * *

«Srağagün mətbuatımızın banisi, hissi-milliyyəmizin oyanmasına ən ümdə səbəb olan, ürəfa və danişməndlərimizin sərkərdəsi və pişrovu, millət mücahidi Həsən bəy Məlikovun dəfnikeyfiyyəti Bakıda görünməmiş və eşidilməmiş bir təntənə və şəşəə (təmtəraq) ilə icra olundu.

Bu vaqiə qəlbə sükunət verən, ürəyi həsrətlə dolduran və istiqbalımızı təmin etdirən iki şeyi isbata yetirdi. Əvvəlinci, cəmaətimizin oyanmasını, düz, həqiqi xadimlərinin qədrini başlayıb bilməsini, mətbuat aləmində, cəmaət işlərində sədaqət və səfa ilə işləyənləri layiqincə təqdir etməsi; ikinci, ürəfa və danişməndlərin gücünü cəmaət arasında vəq və heysiyyətini cəmaətimiz nə qədər əvam, nə qədər geridə qalmış, nə qədər cahil də olsaq ürəfanın sidq və sədaqətini düşünüb də daha şeytanətlərə və vəsvəsələrə uyuyub ürəfanın dəvət və sədasını eşitməyə, onlara pişrov olmağa, onlarla bərabər iş görməyə şüru etməsi.

Bu halətı srağagün müşahidə edən hər bir millətpərəst və tərəqqixah müsəlman Həsən bəy mərhumun vəfatından nə qədər məyus və mükəddər olsaydı da özüçün bir dərəcəyədək təskinlik, gələcəyə ümidvarlıq hasil edə bilərdi. Görünür ki, mərhumun və mərhumə peyrəvi olanların bu 40 il müddətində səpdiyi toxumlar bisəmərə qalmamışlar. Yavaş-yavaş qülubünnasta (qədirbilənlərdə - red.) nəşr və nüma edib bəhrə veriyorlar.

Mərhumun cənazəsini təşyi etmək üçün Bakıda sakin cümlə ürəfa, danişməndlər, Bakı məktəblərinin cümlə müsəlman şagirdləri, cümlə müsəlman müəllimləri Bakı əhalisindən cəmi üləma və rüəsa ilə bərabər və qeyri-tayfaların ürəfa və nümayəndələri hazırdırlar.

Cənazə başdan ayağa növbənöv cəmiyyətlərdən təqdim olunmuş şallar ilə, hadisəyə münasib yazılar ilə yazılmış lentlər ilə müəyyən olmuşdu...

Namazdan sonra qabaqca tərtib olunmuş qayda üzrə natiqlər nitq deməyə şüru etdilər.

Əhməd bəy Ağayevin nitqi

Cəmaət! Biz buraya cəm olmuşuq məşhur və məruf (tanınan - red.) Həsən bəy Məlikovun cənazəsini təşyi (yola salmağa - red.) etməyə.

Baxınız! Göz qabağında nə görürsünüz? Beş gün bundan əqdəm fail (işləyən), muxtar, hərəkət, hiss, fel sahibi olan bir zatın şimdi bir cansız, hərəkətsiz, heç bir işə, heç bir şeyə qabil olmayan bədəni duruyor. Nə oldu, nə ittifaq düşdü? Bu bədənə dirilik verən, bu bədəni hərəkətə, hissə, felə qabil edən ruh dediyimiz şey ondan ayrıldı! Pəs insanın insanlığı, insanın diriliyi, insanın varlığı ibarətdir onun ruhundan. Lakin ruh özü nədir? Bu məsələni nə əqil, nə elm və nə fənn həll edəməyib. Hətta lisani-Allah olan Qurani-Şərifimizdə bu məsələ barəsində buyrulub: «Əgər səndən sual olunsa ki, ruh nə şeydir, cavab ver ki, bu bir əmrdir (işdir) Allah yanında». Fəqət, əgər ki, ruh özü bizə məlum deyilsə, onun məzhəri (təzahürü), vücudi-zahirisi, səmərələri bizə məlumdur. Günün olduğu günün şüasindən aşkar olduğu kimi, ruhun da varlığı onun səmərələrindən aşikardır. Bu səmərələr hansılardır? Haman insanı halətı-heyvaniyyətdən xilas edib də insanlıq halətinə yetişdirməkdən, yəni elm və fənn, tərəqqi və təaliyə, həmcinsi olan millətə və ümuminsaniyyətə xidmət etməkdən. Odur ki, yenə lisani-Allah olan Quranımız bugünə ruhi təbiiyyə malik olanlara əsl insan adı qoyub, qalanlarını kələnam, yəni dördayaqlı adlandırıb.

İşdə bu nöqteyi-nəzərdən Həsən bəy mərhumun tərcümeyi-halına, ömür və güzəratına nəzər edəlim, baxalım, nə dərəcədə o mərhumun ruhu ruhi-əvalimi (aləmləri) insaniyyəti seyr etmiş və özündən sonra nə əsərlər qoymuş.

Tam 50 il bundan əqdəm, yəni o vaxtlar ki, Qafqaz dairəsində elm və fənn nə olduğuna etina belə olunmuyordu, Həsən bəy mərhum, Moskva şəhərinə gedib orada Darülfununda təhsil etməyə bəzi hümmət etmiş, sonra Darülfununun ülumi-riyaziyyə şöbəsini qurtarıb öz vilayəti olan Bakıya müraciət etmiş, Bakıya qayıdıb da bu mərhum nəylə məşğul olmuş? Yerlər qəsb etmə-

yə? Dövlət qazanmağa? İsmi-rəsm, şöhrət və pul qazanmağa? Xeyrə Xeyr! Müəllimlik edib öz həmcinsi və qövmi olan taifəni düçar olduğu cəhalətdən, zülmətdən xilas etməyə! Əlan (bu gün) Qafqaz dairəsində iş görən bir çox ziyalı, mərifətli, elm və ürfan sahibi olan müsəlmanlar var ki, bu mərhumun şagirdləridirlər. Onlardan bəzilərinin saqqalları ağarmış, oğul-uşaq sahibi olan zəvat (şəxslər) bu məclisdə hazırdırlar! Lakin mərhum bir müəllimliklə iktifa etməyib, millətinə daha böyük bir dairədə qulluq etmək niyyətiylə 1875-ci ildə haman bu Bakıda bir «Əkinçi» adında qəzetə nəşr etməyə şüru etmiş. Bu qəzetənin nəşrindən mərhumun məqsədi nə? Öz millətini uyuduğu cəhalətdən, zülmətdən və onların vəxm qorxulu nəticələrindən xəbərdar etmək idi! Bu gecə haman «Əkinçi»nin əvvəlimci nömrələrindən mütaliə edirdim. Onların birisində mərhum yazmış: «Ey müsəlmanlar! Gərək zəmanə ilə saziş etmək! Zəmanənin təqazasına görə iş görmək! Əgər görməsək, zəmanə özü-özünə bizsiz iş görüb, fəqət bizi əzər, bizi döyər, keçər». Bu sözlər 1875-ci ildə yazılmış! Müsəlmanlar bu sözləri səmi etibara (eşitmədi) almadı. 1877-ci ildə Qafqazın bir böyük qalası əldən getdi. 1882-ci il İranın Bücistanı ingilislərin əlinə düşdü; haman ildə firənglər, ingilislər Misirə daxil olub Misiri təsərruf (işğal) etdilər. Yenə haman illərdə Tunis əldən getdi. Xülasə, aləmi-islam öz dağılmağında davam etdi!

Baxın, bu şəhərin özündə bizim halımıza: qeyrilər tərəqqi və təali, sərvət və rəfahiyyət fikrində olduqları zaman, biz bir-birimizin canına, malına, irzi-namusuna düşüb, bir-birimizi dağıtmaqdayız!

Həsən bəyin sözünə baxmamaq azdır! Həsən bəy bizə haqq söz dedikdə acığımız tutub, ağzına belə döyürdük! Ən əvvəlinci tənə və sərzəniş (danlaq) ki, ona edirdik onun kasıblığı, onun acizliyi idi. Ağzını açıb danışdıqda biz ona deyirdik: kəs səsüvü! Danışma! Sən kasıbsan! Sən fəqirsən! Yəni biz ona tənə edirdik ki, vaxtını pul qazanmağa sərf etmək əvəzinə, bizə, biz millətə qulluq etməyə sərf edirdi! Lakin bu mücahid, bu millətpərəst bizim heç bir cövri-cəfamızdan geri durmayıb öz tutduğu yolunda

qəribə bir səbat ilə davam edib milləti ayıltmaq işi ilə, taifəsinə xidmət etmək üçün əlindən gələn cümlə-səyi bəzl (əsirgəmədən) edirdi. Əlan Bakıda 11 rus-müsəlman məktəbi var! Bu məktəblər cümləsi o biçarənin səylərinin, zəhmətlərinin nəticəsidir!

Şimdi bu qədər böyük, bu qədər bir ali şəxsin təşyinə gəlib də, biz ona nə deyək! Nə növ onunla vida edək? Əqidəmcə biz gərək o ruhi-paka xitab edib də deyək! «Ey ali ruh! Şimdi sən gedirsən ata-babalarımızın, əcdadımızın hüzuruna! Onlara bizdən salam yetirib də bizim bu şikayətimizi de: Ey əcdad, ey babalar! Bizə nə gün qoydunuz?! Bizə nə növ irs qoydunuz, getdiniz?! Stanlarımız (məmləkətimiz) xərabə, vilayətlərimiz viranə! Cümlə millətlər arasında sərnigün, xar, zəlil, məqhur (qəhr olmuş), məzlum, əhvalımız pozğun! Günü-gündən tənəzzül edib, günü-gündəm puç və zay olmaqdayız! Əlan işimiz, sənətimiz oğurluq, quldurluq, bir-birimizin canına, malına, irzi-namusuna qəsd etmək imiş! Ey kaş nə biz olaydıq, nə böylə irs».

Şimdi üzümü cavan məktəb uşaqlarına tutub da diyoram: «İştə Həsən bəyin bu bihörmət, bihiss, natəvan qalmış bədəni sizə ibrət olsun! Dünyadan cümləmiz böyləcə gedəcəyiz! Heç bir şeyi aparmayacayız! Bizdən qalan fəqət o insanlıq, o öz millətimiz, öz taifəmizə və ümumin saniyyətə qulluq və xidmət qalacaq ki, əlan Həsən bəyin ruhunu bu qədər əziz və möhtərəm ediyor.

Həsən bəyi özünüzə nümunə edin və ələdəvam o ustadı - bihəmtanın (misilsizin) ruhuna rəhmət oxuyun!».

Qara bəy Qarabəyovun nitqi

Ağalar! Bakı şəhərinin az qədərli müəllimlər əhli-maarifi mənim öhdəmə həvalə etmişlər ki, bu mərhumun tərcümeyi-halını bəyan edəm. Həsən bəy kimi bir mücahidin tərcümeyi-halını bəyan etmək, onun münəqqidi olmaq nəhayətdə çətin bir əmrdir. Bu da bu zamanda...

- Həsən bəy bir zat idi ki, onu yaxından tanıyanlar bilir ki, heç bir zaman öz şəxsi işinin fikrində olmamışdır.

Bu mərhum öldüyü günə kimi belə millət və cəmaət fikrində olmuşdu. Müsəlmanların arasında olan hər bir əsas mədəniyyətə bu zat ələmdari-əvvəlinci, ya ki, əvvəlinci müəssis olmuşdu. Götürək, nəşri-maarif işini: Həsən bəy, müəllimlərdə əvvəlinci Avropaca təhlil ikmal etmiş bir müəllim idi ki, özünün mərifətli şagirdlərini saymaqla qurtarmaz. Cəmaət mərifəti yolunda ondan mücahidə fikrini əvvəlinci dəfə verən və onu felən görən Həsən bəy oldu. Həsən bəyin əli ilə bina olunan məktəblər indi çox şəhərlərdə və kəndlərdə durur. Götürün, qəzet işini. Həsən bəy 35 il bundan əqdəm «Əkinçi» bir qəzet çıxarırdı. Bu qəzetəni məzkur özünün az mayası ilə aldığı müəllimlik mavacibi ilə nəşr ediyordu. Haman o qəzetənin nömrəsini budur o lövhədə diri olan «İrşad» idarəsi yadigarlıq rəsmi ilə götürmüşdür.

Bu işin də əsas və binası bütün-bütünə ona mütəəllimdir. Bu gün aramızda olan drama heyətləri də bu zatın himməti sayəsində əmələ gəlmişdir.

Həsən bəy əvvəlinci dəfə olaraq 35 il bundan qabaq Bakıda həvəskarlar yığıb teatro oyunları vermişdi. Həsən bəy biciz (kasıb) mutəəllimlərə kömək etmək üçün əvvəlinci şəxsdir ki, ianə heyətləri təşkilinə çalışmış ki, o səyin nəticəsi olaraq indi bizim Bakı şəhərində belə neçə-neçə cəmiyyəti-xeyriyyələr vardır.

Müsəlman cəmaəti işinin hər tərəfinə baxarsa, biz Həsən bəyi orada zəhmət çəkən görüyoruz. Həsən bəy ünas maarifinə ciddiyyəti ilə xidmət etmişdir.

İşte, Nikolayevsk küçədə o dərəcə bir cəlal ilə duran ünas məktəbi haman bu mərhumun məhsulu-fikridir ki, Hacı Zeynalabdinin Tağıyevin pulu ilə bina edilmişdi. Həsən bəy Bakı dumasında çox zəhmətlər çəkmişdir. 30 il tamam dumada qlasnı olub. Bir müddət fövqəladə ilə öz doğru sözünü demişdir. Hər bir şəhər əmlakına xəyanət edənlərin sözünü üzlərinə demiş və bu cəhətdən özünə bir çox düşmənlər qazanmışdır. Həsən bəy tək bircə qlasnı idi ki, hamı müsəlman qlasnılarının yerinə şikayət etməyərək işləyir, fəqət dövrəsində olən qlasnı adını daşıyanlardan bunu rica ediyordu ki, işlərində doğruluq və həqiqət ilə əlaqə etsinlər. Xülasə, Həsən bəy cəmaət işinin hər bir tərəfində, səmimi bir surətdə işləyərək özünün xüsusi mənafeyini bilmərrə fəramuş etmişdi. Həsən bəyin Bakıda qəzetə çıxardığı zamanlar öylə bir vaxt idi ki, onda yerin sajınını üç qəpiyə almaq mümkün idi. Neft yerləri, demək olar ki, müftə paylanırdı. Həsən bəy istəsəydi indi Bakının kapitalistlərindən ola bilərdi. Lakin o bunu eləmədi. **Dünya malına göz dikmədi. Ancaq cəmaət dərdinə qaldı. Axırda da quru taxta üstə vəfat edib, öz əhli-əyalına heç bir şey qoymadı.** Onun «nöqsanı» bu idi. Amma bizlər üçün, onun şagirdləri və məsləkini təqib edənlər üçün bu böyük bir fəxr və mübahatıdır! Biz Allaha heç bir şəkva (şikayət) etmiyoruq ki, o bizim qoca ədibimizi əlimizdən aldı. Çünki onun vaxtı çatmış idi. Bizi onun fəqirlik içində vəfat etməsi də mükəddər etmiyor. Bizi mükəddər edər o hal və o zaddır ki, **bu Həsən bəyin naxoşluğu cəhətinə cəmaət işinin səhnəsindən düşdüyü zamanda bizim xatirəmizdən çıxmışdı. Heç birimiz onun görüşünə belə getməmişdik. Həmçinin bizim şəhərimizin nümayəndələri də onu saymırdılar. Bu qızıl və dövlət adamları onun hər bir haqq sözünün müqabilində diyordular ki, sən danışma - pulun yoxdur! Sən danışma- kasıbsan!**

Ağalar, hər kəsə ki, haqq və həqiqət xoş gəlmiyordu, onlar Həsən bəyi sıxırdılar. Hətta seçki vaxtında qutusunu oğurlamaq dərəcəsinə gəliyordular. Bu şəhərin fəsat və cinayətlərinin müharrikləri olan şəhər nümayəndələri təbii ki, Həsən bəyi xoşlamırdılar. Biz ürəfa müsəlmanlar mübahat ediyoruz ki, sən, Həsən bəy, özünə belə dostlar saxlamadın. Biz fəxr ediriz ki, sənin düşmənlərin bu kimi adamlar oldu! Biz ancaq bundan utanırıq ki, bu adamın cənazəsi üstündə məcbur oluruq ki, onun nə dərəcədə hümmətli bir zat olduğunu cəmaətimizə bildirək. Çünki cəmaətimiz hələ çox cahildir ki, bunu özləri özü-özünə bilsinlər. Biz ilə bərabər bir az bundan irəli gürcü qonşularımız öz şöhrətli şairləri knyaz Çavçavadzeni dəfn etdilər.

Onların hörmətləri nə dərəcədə böyük idi! Nə dərəcədə onların hissi-milliyyələri öz şairlərinə nisbətən böyükdür.

Biz müsəlmanlar Çavçavadzenin etdiyi xidmətlərini bilə bilməyərək gürcü millətinin o dərəcədə qəmə aludə olduqlarını gö-

rüb, bu zatın yadigarını saxlamağı gördük. Bizim bu qabağımızda yatan mərhum Həsən bəyin gördüyü işlər müsəlmanlardan ötrü Çavçavadzenin gürcülərdən ötrü gördüyü işlərdən az deyildir. Yox, Həsən bəy! Siz indi bir qüvvəsiniz ki, əl çatmayanların əlində olub, onlar səni bizə qaytarmazlarsa da, millətimizin cavanları sənə lazım olan qədr və qiyməti verərlər. Sən yoxsan da, sənin işlərin payidardır! Sənin o işlərin həmişə səni yadda saxlatdıracaqdır.

Möhtərəm Həsən bəy! Sənin məmatın, həyatın kimi bizə deyir ki, özünüzü yadınızdan çıxardın, gedin cəmaətinizi işıqlandırmağa, öz peyğəmbərimizin böyük vəsiyyətlərini əmələ gətirin ki, islamın iqtidar əzəmətindən ibarətdir.

Biz sənin qulağımıza oxuduğun nəfələri dərguş edib, sən hazırladığın yol ilə gedəcəyik!

Allah sənə rəhmət eləsin! - AMİN!

«İrşad» qəzeti, № 122, 2 dekabr 1907-ci il.
«Aydınlıq» qəz. 14 iyul 1992

MİLLİ QEYRƏT VƏ MİLLİ TƏRƏQQİ DİYARI - ŞƏKİ

Uzun əsrlər boyu Şəki ziyalıları, diyarın işgüzar adamları və sənətkarları, xüsusilə onların uzaqgörən aydınları həmişə milli inkişaf və tərəqqinin ön cəbhəsində olmuşlar. Onların düşüncə və təfəkkür tərzi milli-coğrafi məkanla məhdudlaşmamışdır. Ümumi milli və bəşəri insani keyfiyyətlərə rəğbət, elm və maarifə sonsuz məhəbbət, cəhalət və fanatizmə nifrət, yeniliyə dayaq olmaq və sair bu kimi zamansız dəyərlərə sədaqət Şəkinin əsl ziyalılarına xas olan əlamətlər olub. Milli mətbuatımızda Şəkidən göndərilən və dərc olunan yazılar üzərində aparılan tədqiqat belə mülahizə söyləməyə əsas verir. Açıq və gizli imzalarla - təxəllüslərlə dərc olunmuş belə yazılar isə çoxdur. Məsələn, «Nida» təxəllüsü ilə milli mətbuat orqanlarında yüksək peşəkarlıq səviyyəsində çıxış edən Məşədi Mehdi Sadıqovun yazıları xüsusilə diqqəti cəlb edir. Onun yazılarında toxunulan məsələlər və problemlər görkəmli qələm sahiblərimizin düşüncələri ilə səsləşir, ümumi milli təfəkkür tərzinin formalaşmasına əməli yardım göstərirdi. Müqayisə və əyanilik üçün bu gün üçun də aktual səslənən bir neçə nümunəni oxuculara təqdim edirəm.

Məşədi Mehdi Sadıqov

«Biz əski adət və xurafatımızı, yalan və riyakarlığımızı öylə müqəddəs zənn edirik ki, birdəm bunlardan, bu istibdadlıqdan ayrılmayıyoruz. İqtizayi-zaman və əhvali-zəmin hər vaxt, hər an təbdil olunur.

Əski istibdad yerində bu gün hurriyyət, ədalət, Müsavat icab ediyor. Vaxt öz zamanın icabatına, təbiətin qanununa yalnız bizmi qarşı duracağız? Biz heç vaxt bu hökmün, bu təbiətin, bu

ümumiyyətin, bu mətanətin qarşısında dura bilməyəcəyiz. Bu icabat, bu təbəddülat bizi təpələyib, yaxalayıb insan edəcək.

Vaxt və zaman nəyi icab ediyorsa şunu düşünməliyiz. Hürriyyət, ədalət, Müsavat olduqdan sonra hər işimizi buna tətbiq etməliyiz.

Hürriyyət bizə doğru yolu göstərməklə, millət, vətən, məişət üçün kəşfiyyatı səadət və istifadəni əmr ediyor.

Tərəqqi və təkamül üçün əvvəlcə maarifdən başlamalıyız...».

«Tərəqqi», № 11, 14 yanvar 1909

Həsən bəy Zərdabi

Həqiqət biz bir-birimiz ilə xoruz-beçə kimi cəmaətin, ələlxüsus xaricilərin hüzurunda döyüşməmiz çox eyibdir. Bizim bədbəxt müsəlman taifəsi qeyrilərdən geridə qalıb xab-qəflətdən oyana bilmədiyinin bir böyük səbəbi də budur ki, biz öz nəfsimizi öldürə bilməyib qeyri vacibli işləri kənara qoyub bir-birimiz ilə tutuşub qeyriləri özümüzə güldürürük. Bəsdir, belə məsləkdən əl çəkəlim.

«İrşad», №15, 18 yanvar 1906

Əhməd bəy Ağayev

Hər yerdə, hər məkanda, hər kəsin ixtiyarı var ki, allahımızı, dinimizi, peyğəmbərimizi, Quranımızı, şəriətimizi, əxlaqımızı, adətimizi, ədəb və nəzakətlə tənqid etsin. Allahımız, peyğəmbərimiz, şəriətimiz bu günə tənqidlərdən vahimə etmiyorlar. Vahimə edənlər qeyri allahlardır, qeyri şəriətlərdir. Lakin söyüş söyməyə, təhvin etməyə, hədyan danışmağa heç kəsin ixtiyarı yoxdur.

«Tərəqqi», № 5, 7 yanvar 1909.

M. Ə. Rəsulzadə

Siz elə bilirsiniz bu hərzə ermənilər... börkləri yanıb bizdən ötrü İrana hürriyyət almağa gəlmişlər. Vallahi, İran milləti sonra biləcəkdir ki, kimdir onun dostu və kimdir onun düşməni... İran millətindən əmin bir cəmaət yoxdur. Bu cürə şeytanlar aralığı pozub öz ciblərini doldurmaq üçün bunların məişətinə zəhər qatıyorlar.

«Tərəqqi», № 112, 24 may 1909

M. Ə. Rəsulzadə

İndi əhval böylə bir surət almışdır: məşrutəpərəst hardan başlanıb, müstəbid nərədə qurtardığı məlum deyildir. Hamısı biri-birinə qarışıb məzhəb itmişdir.

Məhəmmədəli şah xəl olunmuş, amma Məhəmmədəli şahı saxlayan qüvai-ictimaiyyə təsfiyyə olunmamışdır. İstibdad sınmış, amma ona təravət verməkdə olan qabığı üzülməmişdir.

«Tərəqqi», № 163, 22 iyul 1909.

M. Ə. Rəsulzadə

Şəxsi həyatdan, xüsusi xanəsindən zövq almaq istəyən bir iranlı ümumişəhərdən, növi Vətəndən həzz etmək istəmiyor. İştə bunu da Şərq istibdadından xəbər alınız, cavabı ondadır.

Siyasətcə istibdada, ibadətcə istibdada, mənhətcə istibdada və yenə də istibdada məqhur olan bir məmləkətdə, həyati-ictimaiyyənin azad və nəfis bir surətdə olduğunu arzu etmək, qaranlıq bir otaqda aynabəndlik etməyə bənzər.

«Tərəqqi», № 135, 19 iyun 1909

Üzeyir bəy Hacıbəyov

«Bizim öz qüdrətimizə etiqadımız yoxdur. Varmışsa da itibdir. Budur ki, indi bizim cürətsizliyimiz və acizliyimizə mübtəla olmağımız hər bir iş müqabilində əl-ayağımızı bağlayıb bizi hərəkətsiz buraxır. Cürətsizlikdən başqa bir də ümumiyyət etibarilə digər bir fəna sifət dəxi müşahidə olunur. Bu da acizlikdir. Balaca bir müsibət və bədbəxtliyə düçar olanda biz özümüzu bilmərrə itiririk. Əslinə baxsan, bu da bizim cürətsizliyimizdən doğan bir sifətdir... Acizlik və cürətsiz göstərməkdənsə, mübarizə edib basılmamaq əfzəldir».

«İrşad», 29 dekabr 1907.

M. Ə. Rəsulzadə

«Nə qədər acı və gülünc bir istehzadır ki, biz müsəlman milləti öz dostumuz ilə düşmənimizi tanımayıb millət xainlərinə öz insaf və mürüvvətlərini, hər bir müqəddəs və pak şeylərini qara pula, bir əl verişinə, bir molodesə satan vücudlara öylə bir vüsət vermişik ki, onların vücudu ilə xuliqan Damanskilər (Dimanski böyük rus şovinistlərindən idi, müsəlman nəxələfləri də öz ətrafına cəlb etmək istəyirdi - Ş.H.) öz qara fikirlərinin rəvacına bizi alət göstərib, özümüz-özümüzü puç etməyə qabil, vicdansız olmamıza işarə ediyor. Lakin biz çox yaxşı bilirik ki, Dimanskilərin «müsəlmanları» hansılar, hansı boynu və cibi yoğunlardır».

«Təkamül», № 12, 12 mart 1907.

Ömər Faiq

...Bizdə, bizim xasiyyətimizdə özgələrlə olan dostluğun davamı üçün, özümüzün mənfəətini, özümüzün təhlükədə olduğunu düşünməmək adəti var, həm çoxdan var.

Bu xasiyyət yalnız tək-tək kişilərin beyinlərində deyil, millətimizin ruhunda, əxlaqi ictimaimizdə köklənmiş, möhkəmlənmişdir.

Dostluq xəncəri ilə yaralanmaq və o yaranın acısını duymamaq igidliyi (?) bizdə çoxdan milli əxlaq yerini tutmuşdur.

İşdə bu yaman adət və xasiyyətimizin zərəri bu gün elə artmış, dostluq yolu ilə milli mənfəətimizə endirilən baltanın acısı bu gün elə şiddətlənmişdir ki, artıq onu duymamaq, anlamamaq aşkar bizim qabalığımızı, quru cahilliyimizi bildirir...

Balalarımızı dillərindən, dinlərindən, milliyyətlərindən çevrilməyə qoymayaq! Analarımızın yadların, səfehlərin ayaqları altına düşməsinə məhəl verməyək! Bacılarımızın bir loxma çörək üçün namuslarını satmağa razı olmayaq! Və razı olmayaq ki, gələcək nəslimiz millətimizin bu ağır günlərindəki, qansızlığımızı, həmiyyətsizliyimizi, imansızlığımızı, yalançılığımızı məhakimə edib bizə lənət oxuyarlar.

Dostluq, səmimiyyət qara günlərdə bəlli olur. Bir millətin yaşamağa istedadı fəlakətli günlərdə anlaşılır. Bir millətin qələbəsi halidəki çıxışında, tərpənişindən aşkar olur. Bir millətin, xüsusilə məhkum bir millətin insanca yaşaya biləcəyi, tərəqqi edə biləcəyi, mədəni bir ünsür halına keçə biləcəyi «köməkləşməsinin» az və çoxluğu ilə ölçülür. Bir millətin başçısı o millətdən olanların öz millətini tanıması ilə, özü-öz anası kimi sevməsi ilə, onun şanını, namusunu, diriliyini, mənfəətini, öz namusu, öz mənfəəti kimi bilməsilə olar.

Bir din və əqidənin doğruluğu ona iman edənlərin rəftarı ilə, mərhəməti ilə, insanlığı ilə qiyas edilir. Vaxtdır ki, bizdə bu həqiqətləri qamıb yaşamağa layiq olduğumuzu, millətimizin şərəfini, dinimizin «səlamət»liyini quru söz, lovğalıq ilə yox, əməlimizlə, köməyimizlə göstərək!

«Açıq söz», 10 yanvar 1917
«Aydınlıq» qəz. 10 sentyabr 1992

DÖVRAN YENİ, BƏLALAR KÖHNƏ VƏ YA DÖVLƏTÇİLİK ƏXLAQI HAQQINDA ÜÇ-DÖRD SÖZ

İyul-avqust aylarında Şəkini, ətraf rayonları, kənd və qəsəbələri xeyli dolaşdım. Yüzlərlə adamla, müxtəlif yaş, sənət və peşə sahibləri ilə görüşüb-ürəkdolusu açıq-saçıq söhbətlər etdim. Xalqın əksəriyyətinin ürəyi dolu, qəlbi həyəcanlı, gələcəyə ümidi dumanlıdır. Elə bil cəmiyyət üzərində nəzarət itib. Şüur real varlıqla hesablaşa bilmir. Köhnə anlayışlar, baxışlar, həyat və yaşayış standartları sürətlə dağılır, yenisi isə hələ qurulmur. Haraya gedirik, taleyimizi kimlərə tapşırmışıq, yaxud bizi hara aparırlar? - suallar dolu kimi yağdırılır. Ümid həsrətli, bəzən də min suallı gözlərə dik baxmağa adamın cürəti çatmır. Axı çox şeylər elə mənim özüm üçün də aydın deyil, nə cavab verəsən, nə deyəsən? Hakimiyyətsizlik, kütləvi ümidsizlik, inamsızlıq, həyəcan dağ seli kimi çox böyük qüvvəyə, həm də dağıdıcı qüvvəyə malik gözəgörünməz və hesablaşmalı qüvvədir.

Elm və təcrübə ilə isbat olunub ki, təbiətdə fırtına və tufanların əsas səbəbi günəş enerjisinin atmosferdə qeyri-bərabər bölünməsidir. Cəmiyyətdə isə inqilab və çaxnaşmaları, böyük sarsıntı və qırğınların əsas törədicisi sosial ədalətin pozulmasıdır.

Ağsaqqallarla görüşlərimdə yəqinləşdirdim ki, onları ən çox narahat edən məhz sosial ədalətin bərqərar olub-olmayacağıdır. Şəki ipək kombinatında əli qaynar suda pörtələnən fəhlələr mənə dedilər ki, onların bir iş günü ərzində qazandıqlarının 20-cə faizini zəhmət haqqı kimi onlara qaytarsalar, ailələrini minimum səviyyədə dolandıra bilərlər.

Kənddə xüsusilə dəhşətlidir. Kəndli nə qazanırsa, 94 faizi əlindən alınır. Yüksək həyat standartları olan ölkələrdə, məsələn, ABŞ-da bu ödəniş faizi 65-dir. Keçmiş SSRİ-də isə bu, cəmi 7-8 faiz olub. Ona görə ki, bilavasitə maddi nemətlər istehsal edən hər bir əmək adamı neçə-neçə kommunist paraziti, bürokrat- istehlakçını yaşatmalı, harınlar ordusunu bəsləməli idi. Kolxoz sədrləri, kolxoz və sovxoz bürokratiyası, mənim zənnimcə, ölər - amma torpağı, əmlakı əlindən verməz. Kəndləri gəzərkən inandım ki, hər şey əsasən olduğu kimi qalır, fəallıq göstərənlərin çoxu vəzifə həvəslilərdir.

Bunları ona görə xatırladıram ki, hakimiyyətə gəlmiş demokrat bəylərin içərisində, xüsusilə əyalətdə, hər şeyi zorla, qaydaqanunu, xüsusilə sosial ədaləti gözləmədən həll etmək meylinin getdikcə gücləndiyini görürəm. Sərişтəsizlik, idarə etmək sahəsində naşılıq, ictimai rəyə etinasızlıq, cəbhə dostbazlığı, keçmiş rüşvətxorların, varidat sahiblərinin qiyafəsini dəyişərək dövlət və siyasət meydanlarında at çapması xalqın gözündən yayınmır.

Müstəqil dövlət yaratmaq, həqiqi suverenlik qazanmaq nə qədər çətinsə, onu qoruyub yaşatmaq sosial ədalətin, qanun və hüququn üstünlüyü zəminində demokratik cəmiyyət və dövlət bərqərar etmək ondan dəfələrlə çətindir. Meydan mübarizəsi və hətta savaşı ilə hakimiyyətə gəlmək olar, lakin ölkə idarə etmək olmaz. Bizdə demokratik dövlətçilik mədəniyyəti, dövlətçilik ənənəsi çatışmır. Göstərim ki, 1918-1920-ci illərdə, yəni Azərbaycan Xalq Cümhuriyyəti dövründə buraxılmış bəzi ciddi səhvlər indi də təkrarlanır. Cümhuriyyəti yaradanların, ona başçılıq edənlərin tarixi yoluna və zəhmətlərinə çox böyük qiymət verməklə yanaşı, tarixi həqiqətləri də unuda bilmərik. Həmin illərdə bu barədə yazanlar da var. Məsələn, 1921-ci ildə İstanbulda «Azərbaycan faciəsi» adlı kitabça buraxılıb. Müəllifi Türkiyədə Azərbaycan səfirliyində hərbi attaşe olub, işləyib. O, Azərbaycan dövlətinin süqutunun daxili və xarici səbəblərini aydınlaşdırmağa çalışır. Daxili siyasətdə ən böyük qüsuru birinci növbədə kadrlarda görür. Müəllif yazır ki, yuxarıdan aşağıya qədər bütün pillələrdə dövlət qulluğuna irəli çəkilənlər, əsasən, qohumbazlıq, yerlibazlıq və ən dəhşətlisi, rüşvət yolu ilə seçilib təyin edilirdi. Ölkəni qanun deyil, adamlar idarə etməyə çalışırdılar. Sosial ədalət prinsipi hər addımda pozulurdu. Bu səbəbdən iqtisadi islahatlar, xüsusilə torpaq reforması gerçəkləşmirdi və s. Əlbəttə, bu ittihamların həqiqətə uyğunluq dərəcəsi yoxlanmalıdır. Ancaq müəllifin ürək yanğısı, Azərbaycana məhəbbəti, qərəzsizliyi şübhə doğurmur. Axı xalqın psixologiyası,

dövlətçilik əxlaqı qısa müddətdə dəyişmir. Onun göstərdiyi milli bəlaların varlığını kim dana bilər? İndi yenidən müstəqilliyə qovuşduğumuz zamanda, məncə, daha açıq danışmaq, bu mərəzlərdən tədriclə xilas olmaq bizə çox vacibdir.

«Azadlıq» qəz. 12 sentyabr 1992

DİKTATURADAN DEMOKRATİYA YARANA BİLMƏZ

- Sirməmməd müəllim, söhbətə mövcud mətbuat nəzəriyyələri barədə qısa məlumatla başlayaq.

- Nə deyirəm. Nəzəriyyə 4 tip mətbuatdan danışır. Yəni mətbuatın 4 mühüm konsepsiyası var: totalitar, azad iradə, sosial məsuliyyət və sovet kommunist mətbuatı. Totalitar mətbuat bu adlı rejimlə bağlıdır. Belə rejimdə azad mətbuat yoxdur, orqan, təbliğat vasitəsi var.

Marks totalitar mətbuatı vaxtilə yaxşı səciyyələndirib: «Hökumət yalnız öz səsini eşidir. O yaxşı bilir ki, eşitdiyi səs özününküdür. Amma bununla belə özünü aldadaraq guya xalqın səsini eşitdiyini söyləyir. Və xalqdan da bu aldanışa tərəfdar çıxmağı tələb edir. Xadqın bir qismi siyasi mövhumata, bir qismi isə siyasi inamsızlığa qapılır, ya da ki, dövlət həyatından tamam üz döndərərək yalnız öz aləminə çəkilib ömür sürən kütləyə çevrilir» (tərcümə sərbəstdir - red.).

İndi Qərbdə, xüsusən Amerikada dəbdə olan sosial məsuliyyət nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə, mətbuat əvvəla, xalqa düzgün, operativ informasiya verməlidir. İkincisi, auditoriyanı əyləndirməlidir. Üçüncüsü, geniş reklam fəaliyyəti ilə məşğul olmalıdır. Dördüncüsü isə, cəmiyyətdəki ziddiyyətləri barışıq məcrasına yönəltməlidir. Bizdə vəziyyət bu nəzəriyyələrdən heç birinə uyğun gəlmir. Çünki tarixdə sosializmdən kapitalizmə keçid təcrübəsi yoxdur.

- Bizdə qərbsayağı mətbuat yaranırmı?

- Doğru-düzgün bazar iqtisadiyyatı var ki, buna uyğun mətbuat da olsun? Götürək elə reklam məsələsini. Xüsusi mülkiyyət, azad iqtisadiyyat, bunun üzərində bazar və bolluq olmayan yerdə reklam necə ola bilər? Amerikada təkcə 150 növ minik maşını reklam olunur. Yaponiyada söhrət reklamın özünün reklamından gedir. Yoxlanılmış, təminat verilmiş reklamın bir dəqiqəsi Yaponiya televiziyasına 1 milyon dollar gəlir gətirir.

İqtisadiyyat dəyişməsə, mətbuat da çətin dəyişər. Bizdə iqtisadiyyatın 97 faizi dövlət mülkiyyətindədirsə, siz istəsəniz də sosial məsuliyyət nəzəriyyəsinə uyğun gələn mətbuat yarada bilməzsiniz. İqtisadiyyatı özəlləşdirmək isə asan məsələ deyil. Türk modelindən çox söhbət gedir. Onların özündə bir çox təsərrüfat sahələri hələ də dövlətin əlində qalır. M.Tetçer İngiltərədə 10-12 ilə dövlət mülkiyyətinin yalnız 40 faizini özəlləşdirə bildi.

Sözümün canı budur ki, əsl bazar iqtisadiyyatı yaranmamış mətbuatı bazara keçirmək asan deyil. Bazara keçirilmiş mətbuat gərək yuxarıda dediyim tələblərə uyğun gəlsin ki, özünə bazar yarada bilsin. İndi bəlkə də yeganə bazar mətbuat üçündür. Görürsünüzmü o nə vəziyyətdədir? Alıcıda imkan yox, reklam da reklam deyil.

- Bu qədər aşkarlıq, demokratiya deyirik. Nəhayət, «söz» azadlığa çıxıbmı?

- Gəlin belə deyək: «söz», «mətbuat» deyil, insan jurnalist azad ola bilər. Söz azadlığı insanın təbii azadlığıdır. Kütləvi informasiya vasitələri adında deyildiyi kimi yalnız vasitədir, silahdır. Onu əlində tutan azad olmalıdır. «Azad iradə» nəzəriyyəsinin müəllifləri Milə, Lokka görə insan gördüyü, eşitdiyi, duyduğu, düşündüyü kimi də danışmalıdır.

Bu mənada, söz azadlığı həm təbii, həm də ictimai hüquqdur. Heç kəs deyə bilməz ki, bu fikir niyə ağlına gəldi. Mətbuat azadlığı məfhumu burjua inqilabları dövründən qalıb. Hazırda buna jurnalist azadlığı deyilir.

- Bizdə dördüncü hakimiyyət formalaşırmı?

- Gərək o biri 3 hakimiyyət ayrılıb formalaşsın ki, dördün-

cüdən də söhbət getsin. Demokratik ölkələrdə belədir: dördüncü hakimiyyət olan mətbuat qanunverici, icraedici və məhkəmə hakimiyyəti barədə ictimai rəyi formalaşdırmaqla onlara fəal təsir edir. Dördüncü hakimiyyət aranı qarışdırıb cəmiyyəti məcrasından çıxara da bilər, istəsə barışıq da yaradar. O hər şeyi görməyi, ağılla qiymətləndirməyi bacarmalıdır. Bu hakimiyyətin öz statusu, konsepsiyası var. Bizdəki nəşrlər əsasən ya kimisə müdafiə edir, ya da adamları qızışdırıb aranı qatır.

Biz 170 ildən bəri Rusiya ictimai təfəkkür sistemində tərbiyə almışıq. Bu ölkədə dövləti həmişə qanunlar deyil, adamlar idarə edib. Rusiyada da, bizdə də həmin adamlar istəsələr mətbuatı nizama sala bilər, istəməsələr yox. Çünki hələlik ya qanunlar yoxdur, ya da olanlar işləmir. Adamlar isə əvvəl olduğu kimi yenə də ölkəni istədikləri kimi idarə edirlər. B. Yeltsin deyir ki, «İzvestiya» qəzetinin mülkiyyəti kollektivindir. R. Xasbulatov isə deyir ki, yox, qəzet dövlət mülkiyyətidir. Görürsünüz, bu, qanunun yox, adamların iradəsidir. Hakimiyyət bölünəndə, qanunlar işləyəndə dördüncü hakimiyyət da olacaq.

- Axı bu gün mətbuat sərbəst danışmağa can atır, adamların ürək sözlərini ifadə edir.

Mətbuat çox şey yaza bilər, səhifələrini xalqın ürəyindən gələn sözlərlə bəzəyər. Lakin gəlin görək həmin sözlər gerçəkliklə, cəmiyyətin inkişaf qanunları ilə nə dərəcədə səslənir? Bəyəm dünən pis sözlər yazılırdı? Sosializm adamlara pis nə vəd edirdi? Heç kəs sosial ədalət məsələsini sosialistlər kimi qoymayıb. Bəs niyə belə oldu? Çünki, tarixi reallıq, cəmiyyətin öz inkişaf yolu var. Bundan kənarda heç bir xoş söz, xoş güzəran yarada bilməz.

Mühacir Kuba ədibi Tomas Borxe yazır ki, F. Kastro sosial ədalət axtarırdı, özü sosial ədaləti tapdalayan birinci adam oldu. O, Kubanı Amerika təsirindən azad etmək istəyirdi, ölkəni SSRİ-nin köləsi elədi. Bu adam kubalıları kasıblıqdan çıxarmaq istəyirdi, hamını dilənçi kökünə saldı. Jurnalistlər də bəzən çox gözəl şeylər arzulayırlar. Amma unudurlar ki, hələlik onların həyata keçmə mexanizmi yoxdur. O arzuların həyata keçirilməsinə süni cəhd göstərilsə uçuruma aparacaq. Reallıqla hesablaşmaq lazımdır.

- Hakimiyyətə gəlmiş demokratlar çox iş görəcəklərini vəd edirlər. Jurnalistləri də həvəsə gətirən budur.

- Tarixdə hakimiyyətə gəlişin müxtəlif yolları var: dinc, təkamül yolu ilə, inqilab, sıçrayışlar yolu ilə. 1917-ci ilin iyununda Sovetlərin birinci qurultayına sədrlik edən Sereteli deyəndə ki, Rusiyanı təklikdə vəziyyətdən çıxara biləcək partiya yoxdur. Lenin cavab vermişdi ki, belə bir partiya var. Bizim kitablarda bu dialoqun ardı verilmirdi. Mən «İzvestiya»nın o vaxtkı nömrələri ilə maraqlandım. Sən demə, Sereteli bunun ardınca deyib: Lenin və bolşeviklərin timsalında Rusiyaya dal qapıdan elə bir diktatura daxil ola bilər ki, II Nikolayın diktaturası toya getməli olar. Sonrasını yaxşı bilirsiniz.

... Hakimiyyətə küçədən gəlməyin axırı necə olur, məlumdur. Hitler deyirdi ki, küçənin sahibi kimdirsə, əvvəl-axır hakimiyyətin də sahibi o olacaq. Keçmiş sistemi zorla yıxmaq olar, amma zorla idarə etmək olmaz. 1909-cu ildə M. Ə. Rəsulzadə Təbrizə getmişdi. Rus qoşunları şəhərə girdiyindən Səttarxan Türkiyə səfirliyində sığınacaq tapmışdı. Məhəmməd Əmin onunla görüşür. Deyir ki, sərdari-milli, bu saat İran qaynayır, məşrutə elan olunub, millət sizi gözləyir.

Səttarxan nə desə yaxşıdır? Cavab verir ki, bizim işimiz köhnəni yıxmaq idi. Nə qədər bacardıq dağıtdıq. İndi tikənlər gəlməlidir. Ölkəni alimlər, işbilənlər idarə etməlidir. İndi də belədir. Hakimiyyətə quranlar gəlməyibsə, siz ha qurmaqdan yazın. Qorbaçov da çox deyirdi ki, əsrin sonunda hamının ayrıca mənzili olacaq. Bəyəm sözlə ev tikilir?

- Belə söhbətlər də gedir ki, demokratiyanın yolu diktaturadan keçir.

- Yalandır. Diktaturadan demokratiya yarana bilməz. Frankonu, Pinoçeti misal çəkirlərsə unudurlar ki, İspaniyada da, Çilidə də diktatura siyasi hakimiyyətdə idi. İqtisadiyyat isə azad idi. Bizdə üç diktatura forması vardı: iqtisadiyyatda dövlət mülkiyyəti diktaturası, ideologiyanın, bir partiyanın diktaturası.

Xüsusi mülkiyyət olmayan yerdə demokratiya, demokratiya olmayan yerdə isə hüquqi dövlət olmaz.

Məhəmməd Əmin vaxtilə deyirdi ki, iqtisadiyyatda istibdad, ictimaiyyətdə istibdad, ibadətdə istibdad, hər yerdə istibdad. Belə yerdə demokratiya axtarmaq qaranlıq otaqda aynabənd çəkmək kimi bir şeydir. O aynabəndə işıq haradan düşəcək? Siyasi, ideoloji və iqtisadi diktatura qalsa, mətbuat azadlığı da əvvəl-axır boğulacaq. İstəsən də, istəməsən də.

- İndi bizdə mətbuat bolluğudur. Dövlət nəşrləri var, siyasi hərəkatlar və partiyalar qəzet buraxır, bir də müstəqil nəşrlər çıxır. Azad mətbuata bunların hansı daha çox yaxındır?

- Bizdə hələ Qərb tipli demokratiya olmadığı kimi, Qərb tipli azad mətbuat da yoxdur. Bizdə mətbuat bolluğu var. Bu da ona bənzəyir ki, yazda torpaq oyananda yer nəm olur, bütün toxumlar göyərir. Lakin havalar istiləşdikcə, nəmişlik çəkildikdə bu cücərtilərin bir çoxu quruyur. Kökü dərinə işləməyənlər yaşamır.

Bizdəki nəşrlərin çoxu özü bağlanacaq. Diktatura möhkəmlənsə Oktyabr inqilabından sonra olduğu kimi, hakim dairələrin ziddinə gedənlər susdurulacaq. Demokratik cümhuriyyəti məqsəd kimi başa düşənlər də yanılır. O, məqsədə çatmaq üçün yalnız vasitədir. Vaxtilə N. Nərimanov deyəndə ki, milli cümhuriyyət bizim üçün məqsəddir, idealdır, Məhəmməd Əmin əlavə edirdi ki, ideal cümhuriyyət deyil, sosial ədalət ola bilər (Bu iki şəxsiyyət bir-birini tamamlayırdı). Tarixin dərslərini unutmaq faciəli ola bilər.

- Təəssüf ki, mətbuatımızda peşəkarlar, avtoritetlər azdır...

- Bu, mühüm şərtdir. Bəla burasındadır ki, jurnalistlər, publisistlər arasında sözü geniş auditoriyada eşidilən, fikrinə inanılan şəxsiyyətlər azdır. Amerikalılar prezidentlərindən çox Uolter Lipmana inanırdılar. O, 1919-cu ildən 60-cı illərədək həftədə 2 dəfə «Nyu-York tayms»-da icmal yazardı. Bu ölkədə deyərdilər ki, prezidentlər gəldi-gedərdir, Lipmanca həmişə qalacaq. Bizdə oxucu da o oxucu deyil. İndi mətbuat bazarına hər şey çıxarılır. Oxucu ac olduğundan əlinə keçəni yoxlamadan alıb oxuyur, həzm edir. Hadisələr o qədər sürətlə cərəyan edir ki, yazanlar da, oxuyanlar da müvazinətlərini çətin saxlayır. Bəzən ictimai fikir idarəolunmaz hala düşür.

- Mətbuatımızda sosial məsuliyyət hiss olunurmu?

- Onda bir misal da çəkim. Dayanacaqda hamı sürücünü tələsdirir ki, tez ol tərpən. Yaxında düşəcək adamlar isə lap çox qışqırır. Maşın saz oldu-olmadı onun vecinə deyil. Lap uzağa gedənlər isə fikirləşir ki, bir az gec tərpənsin, axır ki, maşın nasaz olmasın. Uzağı görmək lazımdır. Bizdə qışqıranların çoxu hakimiyyətə can atırdı. Vəzifə tutdu, çığırtısı da kəsildi. Sosial məsuliyyət mütləq olmalıdır. Xüsusən də mətbuatda.

Xalqın təfəkküründə bir aya, beş aya dəyişmək olmaz. Məhəmməd Əmin deyirdi ki, bu ölkəni rus çinovniki fəlakətə aparır. Çünki evdən çıxanda fikirləşmir ki, bu gün qanunu necə gözləyəcək. Fikirləşir ki, bu gün qanunu necə pozub, kimi necə aldadacaq və qazanacaq. Bizdə də uzun illər belə olub. Vay o haldan ki, yenə qanunu poza-poza gedək. Hüquqi dövlət boş söhbət deyil. Gələcəyimiz də, azad mətbuatımız da onunla bağlıdır.

«Xalq qəzeti», 16 sentyabr 1992

ERMƏNİLƏR İNDİ DƏ TÜRKİYƏNİ ÇALXALAMAQ İSTƏYİRLƏR

Qarabağ problemi müstəqilliyimizin, milli varlığımızın əsas məsələsinə çevrilmişdir. Hiyləgər, maddi, mənəvi və hərbi imkanlı qatı erməni millətçiləri Azərbaycanı təkləmək, birinci növbədə onun böyük qonşuları Rusiya, İran və Türkiyə ilə arasını vurmaq üçün dəridən qabıqdan çıxırlar. Son vaxtlar isə beynəlxalq miqyasda Türkiyə əleyhdarlarının, müxtəlif separatçı və terrorist qrupları şirnikdirir, onların sıralarına sızır, Rusiya, İran, Suriya və İraqla türklərin arasını vurmağa və beləliklə də Türkiyənin diqqətini yayındırmağa səy göstərirlər. Rəsmi türk dairələrinin məlumatına görə ölkədə son vaxtlar baş qaldırmış terrorist qruplarının tərkibində xeyli erməni vardır. Bunlar qonşu ölkələrdən Türkiyə torpaqlarına soxulurlar. Hadisələrin bu tərzdə cərəyan etməsi qarşısını almaq üçün Ankara hökuməti ciddi hərbi və diplomatik tədbirlər görür. Bu baxımdan Türkiyənin daxili işlər naziri İsmət Sezginin Suriya və İran səfərləri diqqəti cəlb edir. Suriyada, o cümlədən onun ordusunun nəzarəti altında olan Livanda terrorist bazalarının ləğv edilməsi barədə razılıq əldə edilib. Bu günlərdə Tehrandakı görüşlər zamanı da hər iki ölkənin terrorçuluğa qarşı qəti mənfi mövqeyi elan edilib. Tehran görüşlərində elan edilib ki, hər iki ölkə Qafqaz və Orta Asiyada hər cür rəqabəti yolverilməz hesab edirlər. Onlar birgə əməkdaşlıq, qardaş ölkələrin və xalqların milli mənafeyinə uyğun siyasətə üstünlük verəcəklər.

Mənim fikrimcə, Azərbaycan diplomatiyası da bu mühüm cəhəti nəzərə almalı, daşnakların məkrli siyasətinə fəal, düşünülmüş hər cür təsadüfi meyllərdən uzaq, real gerçəkliyə əsaslanan aydın xətt tutmalıdır.

YENƏ DƏ İSLAM FUNDAMENTALİZMİ VƏ SAMAN ÇÖPÜ HAQQINDA

Qorbaçovun, Primakovun, Yazovun, Bakatinin və bu qəbildən olan məlum komanda üzvlərinin Azərbaycanda islam fundamentalizmi təhlükəsi barədə sərsəm, uydurma bəyanatları oxucuların xatirindədir. 1990-cı ilin yanvarında Bakıya işğalçı qoşun dəstələri həm də məhz bu uydurma «təhlükənin» qarşısını almaq üçün yeridilmişdi. O vaxt ölkənin xarici işlər naziri olan Eduard Şevardnadze bu məsələ barəsində susurdu. Düzü əhvalatlardan tam hali olan Şevardnadzenin hadisələrə öz münasibətini açıq bildirməməsi bir çoxları kimi məni də düşündürürdü. Amma fikirləşirdim ki, yəqin konfliktdə olan tərəflər arasında o, bir növ, bitərəf mövqe tutduğunu nümayiş etdirmək istəyir. Gürcüstan Dövlət Şurasının sədri kürsüsünə yiyələnmiş Şevardnadzenin bu günlərdə BMT Baş Məclisinin növbəti sessiyasında çıxışı hər şeyi öz yerinə qoydu. O, yüksək beynəlxalq tribunadan real həqiqəti təhrif edərək bildirmişdir ki, guya Gürcüstan və Ermənistan Qafqazda baş qaldırmış islam fundamentalizminin təcavüzünə məruz qalmaqdadırlar. Elə Abxaziyadakı hadisələr də guya onların işi imiş. Hətta «Azadlıq» radiosunun rus redaksiyası belə sentyabrın 27-də «Zaqafqaziya imperiyadan sonra» verilişində Şevardnadzenin bu bəyanatından təəccüblə danışırdı. Biz başa düşürük ki, əvvəllər Gürcüstanın daxili işlər naziri, sonra uzun müddət respublika partiya təşkilatının rəhbəri olmuş Şevardnadze yenidən Tbilisiyə qayıtsa da, əvvəlki itaəti görmür, vətəndaş müharibəsi, siyasi və hərbi qarşıdurma respublikanı çətin vəziyyətə salıb. Biz yaxın qonşularımızın daxili işlərinə qarışmır, onların bu böhrandan tezliklə çıxmalarını arzu etmişik və edirik. Amma təcrübəli diplomat Şevardnadzenin haqqında söz açdığımız düşünülməmiş çıxışı təəssüf və təəccüb doğurmaya bilməz. Belə təsəvvür yaranır ki, Qorbaçov komandasının fəal üzvü Şevardnadze bu uydurma «ideyanı» ehtiyatda - «bəd gün üçün» saxlayıbmış. Atalar: «Saxla samanı gələr zamanı», - demişlər. Həmin atalar «Suda boğulan saman çöpünə əl atar» - da demişlər. Amma idarə etmək, real düşünmək qabiliyyətini itirənlərin uydurma islam fundamentalizminə əl atmaları barədə bir şey dedikləri yoxdur.

«Azadlıq» qəz. 29 sentyabr 1992

TARİXİMİZİN İBRƏTAMİZ SƏHİFƏLƏRİ

Son vaxtlar yaşadığımız əsrin birinci on illiklərində nəşr olunmuş mətbuat orqanlarının adlarını götürmək dəb düşüb. Hətta bəzi qəzetlər nəşr tarixlərini də onlardan başlayırlar. Nə olar, vərəsəlik, kökə bağlılıq, ənənəyə sədaqət, qədrbilmək yaxşı keyfiyyətdir. Lakin qalır əsas məsələ - yəni məzmunca, jurnalist sənətkarlığı cəhətincə, ən vacibi isə milli qeyrət, həyat həqiqətinə, istiqlal məfkurəsinə sədaqətlə onların yolunu davam etdirmək məsələsi.

Mən bu sözləri tarixən iki əzəmətli dövr keçmiş, indi isə üçüncü dövrə qədəm qoymuş «Azad Azərbaycan» qəzetinə də şamil etmək istəyirəm.

Jurnalistikamızın «Əkinçi», «Molla Nəsrəddin», «Açıq söz» məktəbi kimi milli istiqlal məfkurəmizin bayraqdarı «Azərbaycan» jurnalistika məktəbi də mövcud olmuşdur. Təəssüf ki, hələlik bu zəngin mənəvi xəzinənin qapılarını geniş açа bilməmişik. Doğrudur, son vaxtlar «Azərbaycan» qəzetinə, onun 1918-1920-ci illər fəaliyyətinə, yazılarına maraq xeyli artmışdır. Lakin görüləsi işlər hələ qarşıdadır. Zənnimcə, ən əvvəl «Əkinçi» kimi «Azərbaycan» qəzetinin də 1918-1920-ci il nömrələrini yeni əlifba ilə transliterasiya edib nəşr etmək vaxtı çatıb. Qəzetin baş mühərrirləri Ü.Hacıbəyov və C. Hacıbəyovun qəzetdə dərc olunmuş yazıları toplanır, yaxın zamanda işıq üzü görə biləcəkdir. Növbədə digər görkəmli qələm sahiblərinin, o cümlədən, zəngin və ibrətamiz irs qoyub getmiş qəzetin baş mühərrirlərindən Xəlil İbrahimin publisistik irsini toplamaq, ona yeni həyat vermək borcu qalır. Mən «Açıq söz» və «Azərbaycan» qəzetlərinin nömrələrini nəzərdən keçirərkən X. İbrahimin çox ibrətamiz, sənətkarlıq və xeyirlilik baxımından bu gün də faydalı ola biləcək yazılarına rast gəlmişəm. Onlardan bir nümunəni oxuculara təqdim edirəm.

XALQ İSTƏYİR

Azərbaycan həyatında elə anlar var ki, tarix səhifələrində qeyd olunmağa layiqdir. Bilaxassə bunlar yalnız Azərbaycan həyatında deyil, sair məmləkətlərin də həyatında görülmüş şeylərdir. Tarixi-məşrutəyə baxıldıqda adətən iki böyük cərəyan müşahidə edilir: 1. Hürriyyət fikrinin ali siniflərdə doğub da aşağı təbəqələrə yayılması. 2. Aşağı təbəqələrdə oyanıb da yuxarı sinifdən istənilməsi.

Burası da isbat olunmuş bir həqiqətdir ki, ayıqlığı aşağı təbəqədən başlanmış olan məmləkətlər daha məsud, daha azad və daha müasir bir həyata nail olurlar.

Xoşbaxtanə Azərbaycan həyatında dəxi bu ikinci cərəyan bütün qüvvəsi ilə müşahidə edilməkdədir. Həyatımızda sevinclə qeyd olunacaq cərəyanlardan birisi də xalq arasında istiqlal fikri və istiqlalı mühafizə çarələrinin düşüncələri və camaatımızın əsgərlik məsələsinə nə nəzərlə baxmasıdır. Quru fəlsəfədən isə fikrimizi dəlillər ilə anlatayım.

Qazax qəzası türkləri sahib-mənsəb bir zatın hüzuruna gələrək şikayət edirlər:

- Aclıqdanmı? Bahalıqdanmı?

- Xeyr!

Camaat şikayət edir ki, Azərbaycan qoşunu azdır. Onların əsgərliyə yarayanlarını əsgər almayırlar. Əsgər əvəzinə onlardan pul istəyirlər. «Əgər bizdən doğruluqla əsgər yığsalar, həpimiz gedəriz və dövlətimizin qüvvəsi neçə qat artar. Amma, əsgər istəmirlər, bədəl (əvəz) yığırlar» deyə məmurlardan şikayət edirlər.

İkinci bir şikayətə:

Suraxanı, Bülbülə, Əmircan və sairə kəndlərin əhalisi kərahətlə (nifrətlə) gəlib şikayət edirlər ki, onları əsgər almayıblar. Təqribən 100 nəfərdən 30-nu qəbul edib, yerdə qalanlarını «sağsəlamət» olduğu halda buraxdılar ki, «get, sən yaramazsan». Kəndlilər təəccüb edirlər, mütəəssir qalırlar ki, dövlətimizə əsgər lazım olan bir zamanda nə üçün əxz əsgər (əsgəryığma) idarələri

belə edirlər?

Şayani diqqət qeyd fəqərələrin (hekayənin) ən ümdəsi bunlar da deyildir. Əsl mətləb Bakı dükançılarının bir təşəbbüsüdür.

Neçə vaxt bundan əvvəl Bakı dükancıları məqami-aidinə müraciətlə bütün azərbaycanlıların əsgəri nizama bilmərrə ehtiyacı olduğunu kəndilər (özləri) dəxi əsgər düşmədikləri halda, nizam öyrənmək istədiklərini bildirmiş və onlara məşq vermək üçün müəllim zabitlər istəmişlərdi. Hərbiyyə idarəsi, əlbəttə bu xahişə laqeyd baxa bilməzdi. Ona görə dükançıların iddiasını qəbul edib müəllimlər vermişdir. Bu cümə günündən etibarən Salyan qışlasında dükançılar əsgəri məşq almağa başlamışlardı. Eşitdiyimizə görə, birinci gün məşqə 600 adam gəlmişdir. Və bütün alış-verişçilər hər cümə gəlməyə qərar vermişlərdir. Gələn cümədən şübhəsiz bunların miqdarı minləri təcavüz (həddini keçmə) edəcəkdir.

Millətin, camaatın böylə ayıqlığı hökumət məmurları üçün o qədər böyük bir ibrət dərsi olmalıdır.

Ayıqlıq, milli qayğıkeşlik və müdafieyi-milliyyə hissinin camaatın aşağı təbəqələrində bu qədər geniş və açıq surətdə təzahüri-ibrazi (aşkara çıxması) istiqlaliyyət, fikrinin əsl demokratiya içərisində nə qədər möhkəm yerləşmiş, kök salmış olduğunu göstərməklə bərabər, istiqlalımızda əbədi (həmişəlik) paydar olacağına və millət tərəfindən hər vasitə və vəchlə müdafiə və mühafizə ediləcəyinə əsaslı bir dəlildir.

Şayani-təqdir odur ki, yazılanlar cümləsində cümə günü məşqdə 65 yaşında bir qoca ilə 11 yaşında bir cocuq da varmış.

Allah tovfiq (köməklik) versin!

X. İ. (Xəlil İbrahim)
«Azərbaycan» *№ 192, 1 iyun 1919*

«Azad Azərbaycan» qəz. 7 oktyabr 1992

ZAMANIN SINAĞINDAN ÇIXDI «MÜSAVAT»

Adətən, «Müsavat» partiyasının tarixini 1911-ci ilin təşrini - əvvəl (oktyabr) ayından başlayırlar. Onun ilk təşkilatçıları kimi Tağı Nağı oğlu, M.Ə.Rəsulzadənin əmisi oğlu Məmmədəli Rəsulzadə və Abbas Kazımzadənin adları çəkilir. Məhz bu üçlük «Müsavat»ın ilk proqramını tənzim edərək: Bəyannamə ilə birlikdə nəşr etmişdi. Bunlar doğrudur. Lakin millətin vicdanından doğan, milləti birləşdirən, onun mənəvi həmrəyliyini yaradan və təmin edən, millətin fərdləri arasında fikirlərdə, duyğularda, qənaətlərdə, vuruşlarda bir vəhdət və müvazinət vücuda gətirən «müsavatçılığı» çox-çox əvvəllərdə Azərbaycanın qeyrətli və uzaqgörən milli mücahidləri yaratmışdılar.

«Müsavat»ın ilk proqramı və bəyannaməsi islami mahiyyətdədir. Burada «ümmət» (bir peyğəmbərin dininə mənsub olan adamlardan ibarət icma) ilə «millət», «türklük» ilə «müsəlmanlıq» bir-biri ilə çulğalaşmışdır. Məqsəd, qayə bütün müstəqil müsəlman dövlətlərinin istiqlallarını qorumaq və bütün məhkum müsəlman millətlərinin istiqlala qovuşmalarına kömək etmək idi. Bu, birinci dünya müharibəsi ərəfəsində Qərbdə xristianlıq, Rusiyada panislamizmin baş qaldırmasına qarşı, bir növ, cavab tədbiri, müsəlman millətlərinin istiqlalına xidmət edən digər firqələrlə ortaq fəaliyyət göstərmək proqramı idi.

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə elan olunmuş əfvi-ümumi nəticəsində M.Ə.Rəsulzadə Azərbaycana qayıtdıqdan sonra «Müsavat»ın fəaliyyətinin yeni dövrü başlandı. Bu dövrün bütün məna və mahiyyəti onun «Türkləşmək, islamlaşmaq və müasirləşmək» şüarında öz əksini tapmışdır. Türkləşmək, öz kökünə qayıtmaq, özünü dərk etmək, türklüyümüz və islamlığımız üçün, bizi məhv etmək fikrində olanlara layiqincə cavab verməyi bacarmaq üçün xalqın bütün mənəvi, maddi və elmi potensialını səfərbər etməyi nəzərdə tuturdu. Nəsib bəy Yusifbəyli məsələni belə qoyurdu ki, «nə üçün şansız, şərəfsiz, tarixsiz, keçmişsiz millətlərin istiqlaliyyətə haq-

ları olsun, nəcib, şanlı, şərəfli, keçmişli, istiqlallı türk millətinin istiqlala haqqı olmasın?!».

M.Ə.Rəsulzadə hələ ilk məqalələrində yazırdı: «Nə sosial-demokratizm, nə demokratizmin ümdə əqidələri islam ilə müxalif deyil», odur ki, «biz hansı dəstədən olursa olaq, ancaq islamiyyət üzrə olaq. İslamiyyətdən kənara çıxsaq, fəlakət bizi gözləyir», çünki islamiyyət «eynən insaniyyətdir».

Türkləşməyi pantürkizm ilə eyniləşdirməklə nəzərdən salmaq istəyənlər yanılmışlar və yanılırlar.

«İslamlaşmağ»ın panislamizm və islam fundamentalizmi ilə heç bir əlaqəsi yoxdur. Dünyanın müasir demokratik ölkələrində xristianlığa baxış ilə M.Ə.Rəsulzadənin islama baxışları arasında bir oxşayış olduğu qeyd edilməlidir.

Müsavatçılar və onun lideri M.Ə.Rəsulzadə «müasirləşmək» şüarını irəli sürürdülər. Ağıl, elm və real gerçəklik zəminində istiqlala, demokratik cümhuriyyətə və sosial ədalətə çatmağın mümkünlüyünü nəzərdə tutan bu təlim «Müsavat»ın fəaliyyətinin canı, bizə qoyub getdiyi ən dəyərli irsdir.

1911-ci ilin payızında üçlüyün yaratdığı «Müsavat» tarixən qısa bir müddətdə Zaqafqaziyada ən güclü siyasi partiyaya, müsavatçılıq isə ümummilli hərəkata çevrildi. 1918-1920-ci illərin müstəqil Azərbaycan Xalq Cümhuriyyəti kimi, indiki müstəqil Azərbaycan Respublikası da onun meyvəsidir. 1938-ci ildə «Müsavat» sözünün Azərbaycan dilindən zorla çıxarıldığı, bu barədə düşünənlərin və onu dilinə gətirənlərin az qala çarmıxa çəkildikləri bir dövrdə M.Ə.Rəsulzadə çox böyük inam və inancla «Milli Azərbaycan hərəkatı» əsərini bu sözlərlə bitirmişdi: «Müsavat» bu surətlə milli birlik və milli həmrəyliyin təməlini qoymuş və milli qurtuluşla onun ardınca gələcək milli hakimiyyət üçün milləti polad kimi monolit, həm mənəvi, həm də maddi bir vücud halına gətirəcək ən doğru yol göstərmişdir. Bu yol ilə «Müsavat» durmadan yürüyəcək, millətlə və məmləkətlə daşıdığı böyük milli məfkurənin gerçəkləşməsini bir daha görəcəkdir».

«Azadlıq» qəz. 10 oktyabr 1992

85 il əvvəl

OKTYABRIN 17-si

Zaman dəyişir, nəsillər bir-birini əvəz edir, adama elə gəlir ki, yaşadığı ömür, qarşılaşdığı hadisə və problemlər ilk dəfədir, yalnız onun payına düşəndir. Lakin tarixlə, mətbu irslə tanışlıq zamanı çox-çox mətləblərin uzun müddətdir ki, bizi təqib etdiyini, dərd və bəlaların xroniki səciyyə daşıdığının şahidi oluruq. Gərək bilək, öyrənək ki, müalicəsinə də girişək. Heç olmazsa gələcək nəsilləri, heç olmazsa inkişafa mane olan milli xəstəliklərdən xilas edək. Qarşıda parlament seçkiləri durur. İndidən fikirləşmək, götür-qoy etmək, xalqın geniş təbəqələrinin gözünü açıb, əsl həqiqəti və vəziyyəti başa düşməsinə, yardımçı olmaq vacibdir. 85 il bundan əvvəl Duma seçkiləri dövründəki vəziyyəti 22 yaşlı Məhəmməd Əmin Rəsulzadə görün necə təsvir edib. Çoxmu şey dəyişib?

* * *

Bu gün oktyabrın 17-sidir. Tarixi-mədəniyyətdə bağlanan müəzzəm əqdlərdəi birinin, Rusiya inqilabi-kəbirinin birinci fəth-əzəminin bir illiyidir.

Tamam bir il bundan qabaq həmin oktyabrın 17-sində ölkənin əsəb və damarları dərəcəsində olan cümlə dəmir yolları və teleqraflar tətil edib məmləkəti iflic halına yetirən bir zamanda xətti-hümayunu sadir olub məmləkətə səadət və rəfahət vədə etdi.

Bu oktyabrda vədə verilənlər çox-çox idi. Həm mətbuat hürriyyəti, həm danışıq, ittifaq və ictimalar azadlığı, hürriyyəti-din və vicdan, insani ondan mən eləmək olmayacaq bir tağım hürriyyətlər, cümləsi vəd edilmişdi.

Bəli, vəd edilmişdi! Yalxu vədə olub da vədəliyində qaldı-qövldən felə keçmədi. Qövldən felə keçmədi səhildir, tərəqqiyi makus edib oktyabrdan qabaqkı dövrdən bədtər, daha acraq

olaraq zülm və təəddilər, rəsmi cəbr və təəddilər çoxlaşdı.

İstibdad və bürokratiya təcavüzündən təngə gəlmiş cümlə millətlər bu fərman süduri ilə özlərinə bir ümid işığı gördülərsə də, lakin bu işıq, bu nur tezcə də sönüb hürriyyət və ədalət məhtabının üzünü yenə cəhalət və istibdadın dəhşətli buludları tutub hər tərəfdə cəfa ruzigarı mütərakim[1] olub müqatilələr, mücadilələr bir milləti o biri millətə yağı etmək siyasəti - şəni[2] meydangir olub hürriyyəti-kəlam-həbs və nəfyidən, hürriyyəti-mətbuat-mətbəələrin qarəti və qəzetələrin bağlanmasından, hürriyyəti-ittifaq insanları dəstə ilə, firqə ilə sürgünə çəkmədən, hürriyyəti-şəxsiyyə-xəlayiqi küçədə deyil, evində belə rahət qoymamadan ibarət oldu. Tamam hürriyyət və imtiyazlar mövcud oldu, fəqət məzlumlara deyil, zalimlərə, cəmaət qanı soranlara əlverişli oldu.

Nəhayət, hər bir qism ilə olsa da, Rusiyada tamam bir qanlı meydana dönən halda, topların, tüfənglərin ürək partladıcı məhib səsləri altında, həbs və nəfyilərin müavinəti ilə Dövlət duması yığıldı.

Dövlət duması yığıldı, lakin hökumət çox çalışdı, çox səy elədi ki, bu Dumaya cəm olanlar istibdad tərəfdarlarından, köhnə idarə dostlarından olsun. Lakin tarixin 2-ci səhifəsini çevirmiş olan Rusiya cəmaəti hökumətin bu hiyləsinə bacardıqca sədd qoyub, Duma əzalarının çoxusu hürriyyətpərəst oldular.

İş böylə olduqda hökumət özünü aldanmış görüb - siz inqilabçısınız, məmləkəti islah etməyə müstəid deyilsiniz - deyə Dumanı dağıtdı.

Dumanı dağıtdılar və «gediniz 7 aydan sonra təzədən çağıracağız» - deyə vəkilləri evlərinə qovdular və tək bu qovmaqla kifayət etməyib vəkillərin «şiddətli inqilabçı»larını da kimini nəfy, kimini həbs etməyə başladılar.

İndi hökumət yeni bir Duma ictimainə hazırlaşır. Hərgah bu

[1] Mütarakim - üst-üstə qalanmış
[2] Şəni - biabırçı iş, eybli iş

dəfə də Duma «inqilabçı» olsa, onda hökumət nə tədbir tökəcəkdir, özü bilir... Əlbəttə ki, cəmaət də öz hüququnu yaxşıca tanıyor.

Cəmaət də öz hüququnu yaxşıca tanıyor! Hər kəs öz hüququnu yaxşıca bilsə də biz müsəlmanlar öz hüququmuzu heç yamanca da olsun belə bilmiyoruq.

Cümlə millətlər vəkil göndərəndə, o vəkilin nə əqidədə, nə yolda işlədiklərini bilib seçdilərsə biz əlli iki min hiylə və təzvir qurub öz aşnamızı, dostumuzu, «millət necə tarac olur, olsun nə işim var» - deyib, vəkil etməyə çalışdıq. Ümumi adətimizə görə hər kəsin pulu varsa, arxalı isə, qolu güclü isə ondan qorxub öz hüququmuzu bir taqım «millətpərəst» namində cibpərəstlərə qurban etdik. Vəkil seçəndə onun istedadına, bacarığına, əqidəsinə, tutduğu məsləkinə etina etməyib, fəqət flankəs oxumuş adamdır, flan ağa onu təklif edir - deyə qoyun sürüsü kimi birimiz hürkdükdə qeyrilərimiz da haman tərəfə qaçışdıq. Dəxi Rusiyanı bürüyən bu təlatüm və həyəcanın həmin bu hüquqpərəstlikdən öz qədr və heysiyyatı - insaniyyəsini özgələrə qurban etməmək xahişində olmadan nəşət etməsini qanmadıq!

Qanmadıq ki, illər uzunu bizim qanımızı soran «rəislər, ağalar» bizə rəis deyillər, bizim həqiqi rəisimiz özümüzük, cəmaətdən böyük qüvvə heç bir şey yoxdur. Odur ki, bizim vəkillərimiz də nə Dumada bir iş gördülər, nə bizim dərdlərimizi bir dəfə olsun mövqeyi müzakirəyə qoydular və nə də qayıdıb geri gələndə bizə bir hesabat, bir məlumat verdilər!!

Əlbəttə, bir taqım rüəsalər[1] və ağalar tərəfindən seçilib gedən şəxs haman öz intixabçılarına da hesab və məlumat verir, o cəmaəti nə tanıyor, camaət onun nəyinə gərəkdir. Lal və kar olan camaətin nəyindən qorxsun, nəyindən həzər eləsin!

Cəmaat, budur, yeni seçki başlanır! Əvvəl bila əvvəl, gərək səy eləmək ki, bu Duma keçmiş Dumanın ixtiyarında olmayıb daha ixtiyarlı, daha imtiyazlı olsun, öylə Duma olsun ki, gəl de-

[1] Rüəsalər - rəislər

yəndə gəlib, get deyəndə getməsin. Bizə öylə Duma lazımdır ki, cümlə generallar, vəzirlər və sahib-mənsəblər onun hökmünə tabe olsunlar. Və oraya seçilən vəkillər bir taqım nəfspərəstlər tərəfindən deyil, ümum cəmaət tərəfindən dörd üzvülü-seçki qaiyəsi üzrə olaraq seçilsin!

Hərgah Duma böylə olarsa, ondan Rusiyanın rahat və sakit olmasına ümid bağlamaq olar!

Rusiyanı bu fəlakət, həlakət və anarxiyadan qurtaracaq bir çarə varsa, o da tamam ixtiyarlı Dövlət Dumasıdır.

Yaşasın tamam ixtiyarlı Dövlət Duması!

M. Ə. Rəsulzadə

«İrşad» № 245, 17 oktyabr 1906

«Aydınlıq» qəz. 16 oktyabr 1992

ŞƏKİLİ HACIBALA BƏYİN VƏSİYYƏTİ

Bu yaxınlarda az təsadüf edilən maraqlı bir sənəd rastıma gəldi: şəkili həkim, Giləhli məhəlləsinin keçmiş sakini (indiki Giləhli küçəsi, 7 №-li evin sahibi) Hacıbala bəy Nağıbəyovun vəsiyyəti. Bu notarial mənəvi vəsiyyət 1916-cı il iyunun 3-də Pyatiqorski şəhər notariusu tərəfindən, 3 nəfər şahidin iştirakı ilə tərtib və rəsmi surətdə təsdiq edilmişdir. Sənəddən məlum olur ki, H. Nağıbəyov həmin vaxtda Pyatiqorskda Uptonun evində kirayə etdiyi mənzildə yaşayırmış.

Göstərim ki, Şəkinin tanınmış Nağıbəyovlar nəslindən olan Hacıbala bəy 1870-ci ildə anadan olmuş, rus-müsəlman məktəbində oxumuş, tibbi təhsil almışdı. O, Qafqazın müxtəlif şəhərlərində, bir müddət isə İranda işləmişdi. Onun Rusiya, İran və bir sıra xarici banklarda xeyli pulu, həmçinin mülkləri var idi. 46 yaşlı Hacıbala bəy yəqin ki, xəstəliyinə görə Pyatiqorskiyə müalicəyə getmişdi. O, 1922-ci ildə Bakıda vəfat etmişdir.

Mən Hacıbala bəyin 1903-cü ildə «Şərqi-rus» qəzetinin naşiri və redaktoru M.A.Şahtaxtlıya göndərdiyi və qəzetdə dərc olunmuş məktubu ilə keçən il «Şəki fəhləsi»nin oxucularını tanış etmişdim. «Şərqi-rus» və onun redaktorunun mütərəqqi mövqeyini ürəkdən müdafiə» və təqdir edən Hacıbala bəy qeyrətli, uzaqgörən ziyalı kimi yadımda qalmışdır. Odur ki, onun vəsiyyəti də diqqətimi cəlb etdi.

Vəsiyyətin, həm də hüquqi orqanlar tərəfindən rəsmiləşdirilən notarial mənəvi vəsiyyətlərin qayəsi əsasən məlumdur. Bu, birinci növbədə, kapital, pul və əmlakın varislər arasında bölüşdürülməsi məsələsi ilə bağlı olur. Lakin bəzən ilk baxışda quru rəsmiyyətçilik xarakteri daşıyan sənəddə də onun sahibinin dünyagörüşü, əxlaqı, xalqa və Vətənə, həmyerlilərinə və gələcək nəslə münasibəti də bu və ya başqa şəkildə öz əksini tapır. Söhbət gedən vəsiyyətdə də biz bu xüsusiyyəti görürük. Məsələn, Hacıbala bəy doğma anası Səltənət xanıma ömürlük hər ay 60 manat, qohumu Abdurrəhman Ağaya və onun iki oğlunun hər birinə birdəfəlik 5 min manat vəsait ayırmışdı (Bu indiki vecsiz

kağız pul deyildi, qızıla bərabər Nikolay pulu idi, məhz buna görə deyərdilər ki, pulun oldu yüz, düş içində üz - Ş. H.). Digər ailə üzvlərinə və qohum-qardaşlara da müvafiq məbləğlər vəsiyyət edilmişdi. Bunlar təbiidir. Maraqlı cəhət onun xeyriyyə məqsədi daşıyan sahəyə dair vəsiyyətindəki sərəncamlardır. Məsələn: Hacıbala bəy «Giləhli» məscidinə 3 min manat, məhəllə qəbiristanlığının abadlaşdırılması, yolunun təmiri, mühafizəsi, həmçinin Hacınağı bulağının saxlanmasına 6 min manat vəsait ayırmışdı.

Maarif və mədəniyyətin, milli tərəqqinin fədailərindən olan Hacıbala bəy kapitalının böyük bir qismini bütün Azərbaycan üçün fəaliyyət göstərən M.Ə.Rəsulzadənin başçılıq etdiyi «Nicat» xeyriyyə cəmiyyətinə vəsiyyət edirdi. Həm də göstərirdi ki, onun verdiyi vəsait ibtidai, orta və ali məktəblərdə yetim və imkansız istedadlı müsəlman balalarına təqaüdə xərclənməlidir. Öz dünyasını dəyişməyə hazırlaşan Vətən övladının bu vəsiyyəti yazdırmaq və imza etmək əsnasında nələr düşündüyü, hansı hisslər keçirdiyi bu sənəddən də müəyyən mənada aşkarlanır.

Axtarılsa Şəkidə də yəqin ki, bu qəlbin, bu qeyrətin sahiblərindən, necə deyərlər, keçmiş kişilərdən az olmayıb. Elə məşhur tacir Hacı Məmməd Sadıq Əliyevi yada salaq. Şəki gimnaziyası binasını tikmək üçün 100 min manat pul vermişdi. Gəlin, bu kişilərə min rəhmət oxuyaq və fikirləşək.

Mənim qənaətimcə, bizim zəmanəmizdə belə vəsiyyətlərə rast gəlmək çətindir. Əvvəla, ona görə ki, indiki maaşla var-dövlət sahibi olmaq mümkün deyil. Xüsusi mülkiyyətdən məhrum, halal zəhmətlə qazanmağın məhdudluğu; açıq işgüzarlığın qadağan edildiyi, yalnız gündəlik yaşayış ehtiyacları uğrunda çabalayan insanların gələcəyə vəsiyyət ediləcək nəyi ola bilər? O ki qaldı oğru və rüşvətxor milyonerlərə, onların da yazılı rəsmi vəsiyyət qoymağa cürətləri, belə hərəkət etməyə qeyrətləri, kişilikləri çatmaz.

Yeni əmələ gələn milli kapitalistlərə, zənginlərə gəldikdə isə, onların əksəriyyəti pul, mülk, sex sahibləri olsalar da, mənəvi cəhətdən yoxsuldurlar. Çünki milli mədəniyyət və milli qeyrət məktəbi keçməmişlər. Yəqin ki, bu tarixi mərhələni də keçməliyik. Yaxşı ki, öyrənməyə, ibrət götürməyə nümunələrimiz var.

«Aydınlıq» qəz. 23 oktyabr 1992

1906. YENƏ DƏ MÜSİBƏTMİ!?

Bu günlərdə ətrafdan gələn xəbərlər özgə idi, özgə rəngdə gəliyor. Ətrafdan gələn qara fitnə buludları üfüqü örtüb, həqiqət günəşini pərdələməsinə səbəb oluyor. Vətəni - məlufumuzu[1] qara günlərə qoyan, ataları oğulsuz, anaları balasız, qardaşları bacısız, bacıları qardaşsız, arvadları dul, biçarə ailələri pərəsdarsız, abadanlıqları xarab qoyan, gözəl, münbit çöllərimizi xərabəzara döndərən müfəttinlər ətraf və əknafda (ucqarlarda) vüqu bulan hadisati-ittifaqiyyələrdən istifadə edib, yeni sakit, rahat olmuş vətənimizi dübarə bəlayi-əzimə giriftar etmək istəyirlər.

Qan içməyi adət edən bu «şeytan» xidmətçilərinə bu qədər də tökülən məsum qanlar görünür ki, kifayət etməyib, görünür ki, xərabə sevən bu bayquşlar vətəni-məlufumuzu bilmərrə xak ilə yeksan etmək istəyirlər.

Fitnəçilərin böylə bir itazi-fitnəyə əllərində ümdə dəstavizləri İrəvan hadiseyi-müəssifəsidir. Lakin hər bir ziəql, zihuş bu hadisəni ittifaqi bir şey olduğunu qəzetələrdə verilən məlumatdan əlani görür. Əgər ki, bu barədə bizə təfsildən bir xəbər gəlməmişdir. Lakin Bakı və Tiflis qəzetələrinin aldıqları xəbərlər cümləsi bir məzmunda olub, küllən hadisənin ittifaqən baş verməsini təsdiq ediyorlar.

İrəvanda vüqu bulan hadisənin çe günəliyin keçən nömrələrimizdə yazdığımızdan başqa bir şey olmaması qeyri-qəzetələrin xəbərlərindən də anlaşılır.

Lakin fitnəçi pravakatorlar, «şeytan» xədəmələri bunları mülahizə edirlərmi? İşin həqiqətini axtarırlarmı? Madam ki, iş böylə oldu, fitnəçi də həqiqət axtardı. Cəmaətin səadət və asayişini mülahizə etdi. Onda dəxi nə müftinlik, nə pravokatorluq!

Əcəba, biz həmişə pravokator, müftin - deyə duruyoruz. Hər bəlanın mənbəyi bunlar və baisi bunlardır - deyib bir şey olan kimi, o saat «budur müftin yenə işlədi» - deyib izhari-nifrət edi-

---

[1] Məluf- əziz

yoruz. Madam ki, belə müftinlərin vətənimizdə olmasını biliriz, madam ki, hər vəqt mənbəyi onlardır - deyiriz - pəs niyə bunun önünü almağa bir çarə, bir vəsilə axtarmıyoruz?!

Heyhat! Aramızda müftin olan qədər müşəvviqlərimiz yoxdurmu? İnsanları vəhşiliyə çağıranların müqabilində ünsə, ülfətə, niyyət və səlamətə, be ibarəti-üxra[1] insanlığa çağıranlar yoxdurmu?

Vaxtdır, vaxtdır ki, bəla sellərinin qabağı alınsın! Vaxtdır ki, hər iki tərəfin sülhpərvər olan ünsürləri, fitnə və fitnəçilərin əleyhinə durub, onların nəhs olan əfkarlarının vəslinə sədd çəksinlər. O qədər ki, hər iki millət öz vəqi və heysiyyətini bilib böylə bir vəhşi ədavətə inqiraz[2] qoysunlar! Vaxtdır ki, insanlar özlərinin insan olub, qardaşı insanın üstünə əl qalxızmağın günahi-kəbir olmasını bilsinlər! Vaxtdır ki, Rusiyanın indiki, övzaini bilib, müttəfiqən, müttəhidən, cümlə millətləri bir əndazədə bir mizanda təhti-zülm və təzyiqdə saxlayan, kökü çürümüş istibdad hökumətinin əleyhinə durub, naili-məram olaq.

Şükürlər olsun ki, indi hər iki tərəfdə sülhpərvərlər çoxlaşıb artmaqdadır. Hər tərəfdə fitnəəngizlərin səsləri gələn kimi sülhpərəstlərin də sədaları ucalır. Şəhrimizdə çıxan «Dəvət» qəzetəsi də, hər iki tərəfin ən yaxşı ünsürləri tərəfindən nəşr olunur, bu yolda böyük xidmətlər edəcəkdir.

Biz çox inanırız ki, İrəvan müsəlmanlarının və ermənilərinin əfkari-həsənə sahibi olanları böylə vəqeyi-ittifaqiyyənin vəxim nəticələrinə öz dəvət və təşviqləri ilə sədd çəkib, bir dəxi hadisati-müəssifə[3] üz verməsinə imkan verməzlər.

Vükəla biz ilə və cümlə Qafqaz balaları ilə bərabər səs-səsə verib, ürəkdən nida edərlər ki, batsın fitnəçilər! Yaşasın sülhçülər!

M. Ə. R-zadə

«İrşad», № 127, 31 may 1906,

---

[1] Be-ibareti-üxra - başqa sözlə

[2] İnqiraz - son

[3] Müəssifə - təəssüf, doğuran

1992: BƏLİ, YENƏ DƏ MÜSİBƏT!

Əziz oxucular! Milli istiqlal mücahidi və fədaisi M.Ə.Rəsulzadənin ürək yanğısı ilə qələmə aldığı yazı - «Yenə də müsibətmi!?» adlanır. Nida və sualla möhürlənmiş bu sözlərdə çox böyük məna, tarixi həqiqət, milli faciə və müsibətlərə düçar olan vətən övladlarının ah-naləsi, milli sülh və xilasa çağırış, böyük insanpərvərlik və müdriklik ruhu hiss olunur. Burada həmçinin qan içməyə adət edən «şeytan» xidmətçilərinin» fitnə-fəsadları, «əziz vətəni bilmərrə xak ilə yeksan etmək istəyən» xərabəsevər bayquşların» əməlləri tutarlı tərzdə məhkum və ifşa olunur.

XX əsr Azərbaycan tarixinə, az qala həm də faciə və müsibətlər əsri kimi daxil olmaqdadır. Bu fəlakət və əzabların tarixi əvvəlki əsrləri əhatə etsə də (müstəqil dövlət qurumunun itirilməsi, vahid Azərbaycanın parçalanması, xarici istila, daxili çəkişmələr və s), Azərbaycan torpağı zaman-zaman ictimai-siyasi tufanla qarşılaşsa da vəziyyətimiz heç vaxt yaşadığımız XX əsrin onilliklərində olduğu qədər məşəqqətli, faciəli, xətalı olmamışdır. Burada obyektiv və subyektiv səbəblər çox-çoxdur. Ən əsası isə odur ki, M.Ə.Rəsulzadənin göstərdiyi kimi, «biz müftinlərin vətənimizdə olmasını» hər an yaddan çıxarmışıq. Onların müqabilində isə «aramızda müftin qədər müşəvviqlərimiz» - yəni düşmənin hiyleyi-şərini vaxtında görən və xəbərdarlıq edən, tədbirə çağıran aydınlarımızı saya salmamışıq. Başqa deyimlə, «insanları vəhşiliyə çağıranların müqabilində ünsə, ülfətə, niyyət və səlamətə çağıranların» səsini eşitməmişik.

«Yenə də müsibətmi?!» məqaləsi 1906-cı ilin mayında İrəvan və bu adlı quberniyada daşnakların imperiya qüvvələrilə əlbir azərbaycanlılara qarşı geniş miqyasda həyata keçirdikləri qətliam və qırğınla əlaqədar qələmə alınmışdır. Göstərək ki, «İrşad»ın sonrakı nömrələrində M.Ə.Rəsulzadə «Daşnaksutyuna «Rədiyyə» sərlövhəli məqalə ilə də çıxış etmişdi. Burada o «özünü erməni millətinin hamisi» adlandıran daşnaksutyunu «həqiqəti görmək istəməyən qəddar», həmişə «hiyləgərliyi öz ayağına düçar olan» böhtançı, həyasız siyasi qüvvə və partiya kimi ifşa edir, ayıq-sayıq olmağa çağırırdı. Bununla belə M.Ə.Rəsulzadə yazırdı ki: «erməni

milləti ilə daşnaksutyun firqəsini bir hesab etmək olmaz».

Tarixdən, əməlli-başlı xəbəri olmayanlara elə gəlirdi və indi də elə gəlir ki, xalqımızın düçar olduğu faciə və müsibətlər yalnız yaşadığımız dövrün təsadüfi hadisələridir, onları asanlıqla dəf etmək olacaq. Tarixi həqiqətləri dərk etməyənlər, onu bilib, qulaqardına vuranlar isə çox təəssüf ki, təhlükəni görən və xəbərdarlıq edənlərdən çox-çoxdur. Siyasət meydanında at oynadanların böyük bir qismi də məhz bunlardır. Bu qəbildən olanları başqa ambisiyalar, ölçülüb-biçilməmiş keçici səciyyəli aktlar və faktlar maraqlandırır. M.Ə.Rəsulzadə məhz bu xəstəliyi, bu qəbildən olanları nəzərdə tutaraq, çox böyük uzaqgörənliklə xəbərdar edirdi ki, «əqilsiz dəli dostlardansa, ağıllı düşmənlər yaxşıdır», «siyasət meydanını güc meydanına çevirmək yaramaz», «gücün öz xüsusi meydanı vardır».

M.Ə.Rəsulzadə və onun məsləkdaşları milli fəlakətdən çıxış yolunu «hər iki tərəfin sülhsevər ünsürlərinin fitnə və fitnəçilərin əleyhinə durub onların nəhs olan əfkarlarının vəsinə sədd çəkməkdə» görürdülər. M. Əmin yazırdı: «Vaxtdır ki, Rusiyanın indiki ovzaini (vəziyyətini) bilib, müttəfiqən, müttəhidən, cümlə millətləri bir əndazədə, bir mizanda təhtizülm və təzyiqdə saxlayan, kökü çürümüş istibdad hökumətinin əleyhinə durub, naili-məram olaq».

Bu sözlərin yazılmasından 86 il keçib. Azərbaycan iki dəfə istiqlalını elan etsə də, daşnak təcavüzü davam edir. 1905-1906, 1918-1920-ci illərin Bakı, İrəvan, Şuşa, Zəngəzur, Gəncə faciələrinə, Ermənistandakı soydaşlarımızın, Xocalı, Şuşa, Laçın və bütövlükdə Qarabağ müsibətləri də əlavə olunmuşdur. Müsibət yenə də davam edir!

Bayrağına və istiqlal məfkurəsinə sədə etdiyimiz M.Ə.Rəsulzadə yazırdı: «Vaxtdır, vaxtdır ki, bəla sellərinin qabağı alınsın!». Doğrudan da qanında və canında vətən eşqi, torpaq namusu olanların hamısı məhz bu müqəddəs qayəyə xidmət etməli, indiki və gələcək nəsilləri təqib edən müsibətlərdən birdəfəlik xilas olmaq uğrunda çalışmalı, vuruşmalıdır. Əcdadlarımızın ruhu bizi bu yola səsləyir!

«Xalq qəzeti» dekabr 1992

ƏSRİN ƏVVƏLİNDƏN BUGÜNÜMÜZ GÖRÜNÜR

Respublikamızda mətbuat bolluğudur.. Qəzetlərin dəqiq sayını bilən belə yoxdur. Kimi 410, kimi isə 500 adda qəzet çıxdığını söyləyir. Əsrin əvvəllərində də belə idi... Demokratiya qəzet nəşr etmək sarıdan özünə geniş meydan açıb. Bəs məzmun, həyatı doğru və düzgün əks etdirmək, ictimai rəyi düzgün formalaşdırmaq baxımından vəziyyət necədir? Bu suala cavab vermək o qədər də asan deyil. Bunun üçün mətbuatın fəaliyyətini tədqiq edən mərkəz yaradılmalı, birinci növbədə, oxucu auditoriyası öyrənilməlidir.

XX əsr Azərbaycan demokratik mətbuatının bu gün davam etdirilməli gözəl ənənələri var, onları yaşatmaq bizim borcumuzdur. Bu baxımdan, «Demokratik Azərbaycan» qəzetinin mətbuat tariximizin səhifələrinə «səyahəti», indi də əhəmiyyətini itirməyən yazıları çap etmək niyyəti təqdirəlayiqdir.

Mətbuatla əlaqədar digər problem jurnalist sənətkarlığı problemidir. Bu sahədə örnəklərimiz az deyil. Məsələn, elə «Təkamül» qəzetində M.Ə.Rəsulzadənin (Marzadə imzası ilə) yazılarını, xüsusilə «Hər yandan» ümumi başlığı altında dərc olunmuş satirik parçalarını nəzərdən keçirmək olar. Bir sıra çox mühüm, aktual mətləbləri anlaşıqlı dil və obrazlı təfəkkür tərzilə şərh etmək bacarığı burada özünü aşkar göstərir. Bu yazılardan ilk nümunələrlə tanışlıq dediklərimizi əyani nümayiş etdirə bilər.

HƏR YANDAN

Bizim hökumətimiz qəribə dərdə giriftar olubdur. Həmişə döydüyü, əzdiyi, başında əlli iki min oyun çıxartdığı cəmaət indi durub ki, nə var, mən də varam, nə var ki, mən də adamam... Hələ yenə bu arzunu edənlər dövlətlilər, «abrurilər», böyük-böyük adamlar olsa dərd yarıdır... Əşi, bu cırıq fəhlələri görürsənmi, pah, iş gör nə yerə yetib ki, bunlar da durub haqq istəyir-

lər... xülasə yazıq hökumət lap özünü itirib, heç bilmir ki, nə eləsin. El idarəsi - deyib çığıranların ağzına sakit olmaqdan ötrü bir «Dövlət duması» buraxdı ki, gələ, bu da sizin saqqızınız, çeynəyin, məni yadınızdan çıxardın.

Amma olmadı... iş daha da yaman oldu. Dumadakılar da az adam olduqlarını iqrar edib hələ azdır, el vəkilliyi iddiasına düşüb, nə bilim «yer və ixtiyar», «səkkiz saatlıq iş günü», mən nə bilim cürbəcür azadlıqlar, elə şeylər ki, o vaxtadək onu hökumət eşitməmişdi - deməyə başladılar. Xülasə, axırda Dumanın lap «həyasızlığını» görüb, haydı, gediniz, sizə üz göstərməli deyil, yoxsa adamın başına «çıxarsınız» sözünü burda deyib vəkilləri motalladılar.

* * *

Elə ki, Dumanı motalladılar, cənab tərəqqipərvər Stolıpin məmləkəti hərcmərc bir halətdən qurtarmaq fikrinə düşdü və bunun üçün də əqlinə hər nə gəldi elədi...

Stolıpinin ağlına çox şeylər gəldi: məsələn, vayenin polevoy sudlar, cəza qoşunları, qəzetləri bağlamaq, top, tüfəng, xülasə, Stolıpinə layiq çox şeylər...

* * *

Stolıpinin ağlı nə qədər iti olsa da, nə qədər də vəsilə, tədbir tapsa da, Şamaxı əfəndisi Əbdülrəhim kimi zəki və iş bilən ola bilməz. Zalım balası götürüb padşaha bir petik yazmışdı ki, onunla ölkəni anarxiyadan qurtarsın. Zəhməti hədər də getmədi.

Əvvəla, padşah həzrətlərindən bir «molodes», sonra da həqiqətən məmləkəti anarxiyadan saxladı.

* * *

Olmaya əfəndi babanın duasının təsirinə inanmıyorsan? Bax, keçən Dumanı baykotlayanlar indi hamısı seçkiyə çalışır,

bu nədir? Həmin o canına qurban olduğum ağanın bərəkətindən deyilmidir?

* * *

«Əsl rus» cəmaəti dini də insan üzərinə müəyyən bir şeyi qərar verir ki, bəli, göygöz, sarı tük piyanskə bir urusdur, qarşıda durur. Özü də rus millətindəndir. Amma indi təzə «Əsl rus» sözü çıxıbdır ki, insan lap təəccüb qalır ki, bu söz də ibarət ola Baxçasarayda əmələ gələn «müsəlman» xuliqan dəstəsinin adı «Əsl rus müsəlmanları» - nədən təəccüb ediyoram. Hərçe fikir edirəm ki, bu adamları özümə bir təsəvvür etdirim.

Lakin heç mümkün olmuyor. «Əsl rus» deyəndə, ərz elədim ki, nəzərimə göy göz sarı tük bir piyanskə urus gəlir, əgər «əsl müsəlman» desək yekə qarın, uzunsaqqal bir bəy görərəm. Amma «əsl rus müsalmanı» deyəndə lap mat qalıram. A kişi, müsəlman hara, urus hara, o da «əsli» ola...

Xülasə, bir müsəlmanlıqdan başqa hər nə desən müsəlmanlardan çıxar...

* * *

«İştirakiyyətin («Tərcüman» sosializmə «iştirakiyyət» diyor) nə olduğu aşkar edilərsə, müsəlmanların heç biri ona tərəf getməyib müğayir din olmasını görər» deyən «Tərcüman» qəzetəsi görəsən bu «əsl rus musəlmanlar» cəmiyyət qayıranda harada imiş?.. Niyə onlara bir bənd də olsun yazmıyormuş?...

* * *

O kişini çox da qınamaq olmaz, bu məlumdur ki, bir əldə iki qarpız dayanmaz, həmi iştirakiyunları güdəsən, həm də «əsllər». Bu bir işdir ki, öhdəsindən heç gəlmək olmaz...

Yazıq dedim, yadıma şey düşdü:

Əsl yazıq deyəndə, indi bu mütrübçilərdir. Bilmiyorum ki,

«mücahidə» mütrüblər nə eləyiblər ki, götürüb «hidayət»ə onların əlindən ərizə vermişlər. A canım, bəs bu yazıqlar haradan çörək yesin, hələ bu o yanda dursun, bəs bizim bu kərbəlayi məşhədilər indi nə eləsin? Bunlar hamısı o yana, belə de görüm, ki, xəlq daha toy eləməsin? Mütrübsüz də toy olar?..

Yazıq bundan sonra toy edənlərin gününə, əliniz mütrübdən çıxdı. Vay heyf, heyf!

Görünür ki, zəmanəmiz çox dəyişibdir.

Bir neçə il bundan qabaq konsulxananın özündə padşah bayramı olanda mütrüb oynadırdılar.

Amma indi mütrübləri qovmağı konsulxanaya təklif edirlər...

* * *

Bəli, zəmanənin dəyişməsinə heç söz yoxdur. Hər yerdə dəyişməsə də Bakıda ki, lap dəyişibdir. Məsələ, əvvəl Bakı voyenni polojeniya idi.

Amma indi voyenni polojeniyadan çıxarılmışdır. İnanmırsan - bu günlərdə bağlanan prikazçiklər-ittifaqı idarəsindən xəbər al, desin...

Marzadə

«Təkamül», *№ 2, 23 dekabr 1906.*

«Aydınlıq» qəz. dekabr 1992

TÜRK BİRLİYİ REALLAŞACAQMI?

Ankarada altı müstəqil türk dövləti başçılarının görüşü və burada imzalanmış sənədlər beynəlxalq miqyasda, kütləvi informasiya vasitələrində türkçülük, türk-islam dünyası problemi adı altında çox geniş müzakirə və şərhlərə səbəb olub və olmaqdadır. Sülh, əmin-amanlıq, qarşılıqlı əməkdaşlıq və beynəlxalq hüquq və insani dəyərlərə əsaslanan bu qanunauyğun tarixi prosesi bəyənənlər, ona rəğbətlə yanaşanlar da var, əvvəllərdə olduğu kimi, bu dəfə də araqızışdıran və etimadsızlıq ab-havası yaratmaq istəyənlər də. Bu, təbiidir. Təxminən üç əsrdən çoxdur ki, türkləri Avropa, Kiçik Asiya və Qafqazdan sıxışdırmaq, fiziki cəhətdən məhv edib, torpaqlarına sahib olmaq xülyası ilə yaşayanların planları, arzuları, cəhdləri ürəklərində qalmaq üzrədir. Uzun illərin sükunət buzu artıq qırılmış, sınmış, böyük türk-islam dünyası nəhri hərəkətə gəlmişdir.

Belə tarixi günlərdə türkçülük məfkurəsini işləyib hazırlayan, ona elmi-siyasi səciyyə verən və bu yolda geniş əməli fəaliyyət göstərən milli istiqlal mücahidlərini anmaq, onların baxış və görüşlərindən bəhrələnmək türk dünyasının yenicə başlamış birlik hərəkatına çox böyük fayda verə bilər. Belə tarixi şəxsiyyətlərdən biri XX əsrdə Azərbaycanı müasir türkçülüyün mərkəzinə çevirməyi bacaran M. Ə. Rəsulzadədir.

Məlumdur ki, Birinci Dünya müharibəsi illərində Osmanlı imperiyası və dünya türkçülüyünə öldürücü zərbə vurmağı qarşılarına məqsəd qoyan türk-islam düşmənləri, hər şeydən əvvəl, türk xalqlarını bir-birindən təcrid edib ayırmaq, aralarına ədavət və düşmənçilik toxumu səpmək üçün heç bir şeydən çəkinmirdilər. Çar Rusiyasında da bu məqsədlə fitnəkar planlar hazırlanır və həyata keçirilirdi. Ölkədə vahid islam dini mərkəzinin yaradılmasına hər cür maneçilik göstərmək cəhdləri də bununla bağlı idi. Belə bir vaxtda M. Ə. Rəsulzadə, onun yaratdığı «Müsavat» partiyası və «Açıq söz» qəzeti çox böyük məharət və bacarıqla türk-islam birliyi uğrunda əzm və səbatla mübarizə

aparırdılar. Təsadüfi deyildi ki, çar hökuməti Birinci Dünya müharibəsinin Rusiya qanunlarına görə M.Ə.Rəsulzadəni əsgəri məhkəməyə cəlb etməyə hazırlaşırdı. Lakin 1917-ci il fevralın sonunda baş verən inqilab tufanı bu faciənin qarşısını aldı. Məlumdur ki, 1917-ci ilin aprelində Bakıda toplanan «Qafqaz islam qurultayı», eyni ilin mayında Moskvada toplanan «Rusiya türkləri böyük konqresində» (Rusiya müsəlmanları heyəti) Rəsulzadə türkçülük və «milli dövlət» tezisini hərarət, israr, qüvvət və müvəffəqiyyətlə müdafiə etdi və bu, Rəsulzadəni məhkum türklərin lideri səviyyəsinə yüksəltdi. Məhz buna görə M.Ə.Rəsulzadə açılışı 1918-ci ilin yanvarına nəzərdə tutulmuş Rusiya qurucular məclisinə (məclisi-müəssisana) həm Azərbaycandan, həm də Türküstandan böyük üstünlüklə xalq vəkili seçilmişdi.

1918-ci ilin martında Bakı türklərini qılıncdan keçirən bolşeviklər Rəsulzadənin lideri olduğu «Müsavat» partiyası-binası ilə sahibi və baş redaktor olduğu «Açıq söz» qəzetəsi mətbəəsini atəşə verdikləri zaman «Türklüyün Bakı cəbhəsini yıxdıq» - deyə sevinmişdilər. Hadisələrin sonrakı gedişi oxuculara bəllidir.

Türkçülük məfkurəsinin yeni intibah günlərində M.Ə.Rəsulzadənin türk-islam dünyası problemlərinə həsr olunmuş və dövrün real şəraiti ilə bağlı 1917-ci il fevralın 12-də «Açıq söz» qəzetində dərc olunmuş «Müsəlman idareyi-ruhaniyyələri» sərlövhəli məqaləsini oxuculara təqdim edirəm.

M.Ə.Rəsulzadə

MÜSƏLMAN İDAREYİ-RUHANİYYƏLƏRİ

Rusiyada yaşayan müsəlmanlar: Volqa boyundakı tatarlar, krımlılar, qafqaziyalılarla türküstanlılar hamısı bir din ilə mütəəddid olduqları kimi, bir böyük suyun ayrı-ayrı bulaqları, bir böyük kötüyün dürlü şaxələridir. Hənbəli, şafii, hənəfi, maliki şiə kimi müxtəlif məzhəblər haman bir dinin fəriə aid cüzi təfavütlərlə - şöbələr olduğu kimi, tatar, azərbaycanlı, özbək, qırğız və türküstanlılar da böyük türk ailəsinin doğma uşaqlarıdır. Biz Rusiyada yaşayan müsəlmanlar eyni zamanda da türk, biz Rusiya türkləri eyni zamanda da müsəlmanız, hər nə qədər sayımız da 20 milyon ilə 30 milyon arasında gəzər. Aramızda böyük bir ixtilaf varsa, hamımızın bir din və bir cinsə mənsub olduğumuza da əslən şübhə yoxdur.

Belə iki böyük mənəvi rabitə ilə bir-birinə bağlı olan Rusiya müsəlmanları arasında az-çox bir təfavüt görünürsə bu, cinsiyyət və ya din təsiri ilə deyil, iqlim və şərait sayəsində irəli gəlmiş xüsusiyyətlərdir ki, har halda əsli deyil, ərzidir. Bu ərzi (xaricdən ariz olan) təsirlər sayəsində digər «bir kütlə» (kütleyi-vahid) olan «camiə»lərdə görüldüyü kimi türk-tatar «camiə»si də vaxtilə təsiratı-firqəyə tutularaq ayrılıb dağıdılmışdır.

Bütün bəşər «camiə»ləri idraklarının tərəqqisi nisbətində ayrıldıqdan sonra (bu sözlərdən sonra mətndən bir neçə xətt çıxarılmış, qəzetdə yeri ağ buraxılmışdır - Ş. H.) çalışıb çabalamaqdadır. Bu məqsədlə Rusiya müsəlmanları mütəəddid ictimalarında müxtəlif vaxtlarda hökumətə verdikləri ərzi-hallarında hal-hazırda mövcud olub da Rusiya müsəlmanlarının ruhani işlərini tənzim edən qərardadları dəyişməsini tələb eləmişlərdir. Çünki bu qərardadlar nə ruhi-şəriətlə müvafiq olub, nə də millətin mənəvi ehtiyacları ilə mütənasibdir. Qərardadların cüziyyətindən bu dəfəlik sərfi-nəzər eləsək, belə bir dəfə bir «kütleyi-vahid» təşkil edən müsəlmanların müxtəlif qərardad-ruhaniyyələr vasitəsilə idarə olunmaları üstündə dayanmaq məcburiyyətindəyiz.

Dinləri, cinsiyyətləri bir Rusiya müsəlmanlarının üç növ idareyi-ruhaniyyələri vardır. Bu idarələr bir-birindən həm hüquq və səlahiyyət, həm də təşkilatca fərqlidirlər. Müxtəlif zamanlarda müxtəlif siyasi amillər təsiri altında yazılan qərardadlarla vücuda gətirilən idareyi-ruhaniyyələr arasında ən geniş hüquq və səlahiyyətə malik olanı Zaqafqaziya müsəlman idareyi-ruhaniyyəsi olub, ən dar bir ramka və qısıq bir hüquq və səlahiyyət içərisinə qoyulanı da «Orenburq duxovnı sobraniyası»dır. Krım

idareyi-ruhaniyyəsi isə bunların ikisi arasında bir növ bir zəxm təşkil etməkdədir.

Daxiliyyə vəziri Protopopovun müsəlman idareyi-ruhaniyyələrini islah qəsdi ilə tərtib elədiyi layihədə - qəzetlərdə oxunduğuna görə - bütün Rusiya müsəlmanları ümuri-ruhaniyyəsinin hər bir yanda bir qaidəyə salınması dəxi varmış. Protopopov «Qaideyi-külliyyə»sinin nədən ibarət olduğunu bilməyincə, biltəb bu zahirəc müsəlmanların istədiklərinə bənzəyən təşəbbüsün həqiqi qiymətini kəsdirmək müşküldür. Müsəlman idareyi-ruhaniyyələrini idarə və səlahiyyətcə hankı bir məqsumi - müştərək (obşi znamenatel) idarəsinə gətirməyi yaxşıca bilmək üçün hal-hazırda mövcud üç müxtəlif idarənin nə halda olduqlarını mütailə etmək gərək.

Bu xüsusda yarın.

«Açıq söz», № 402, 13 fevral 1917-ci il.

«Aydınlıq» qəz. dekabr 1992

Gəncəli Hacı Məhəmmədsadıq

1876 - KÖRPÜ SUDAN UZAQ QALIB

Neçə qism qardaşlıq var. Onun iki qismindən danışaq. Əvvəl bəni-adəm və növi-bəşərlik qardaşlıqdır ki, hamı kəs bir-birilə qardaşdırlar. Amma ixtilafi-əqaidə (əqidələrə) binaən firqə-firqə olub hər biri bir millət adlanıb, onların böyük icmasına dövlət deyilir və kiçik icmalar bir dövlətə tabe olmaq səbəbilə asudə olublar. Məgər Dəşti-Qıpçaq əhalisi və əgər onlar həm öz məsləhətlərinə binaən təfəkkür, təəqqül (düşünmə) etsələr, onlara məlum olur ki, bir dövlətə tabe olalar, həm özləri asudə olurdular, həm başqa xalq onların azarından xilas olurdu və özləri özgəyə baxıb elmi-ədəb öyrənib tərəqqi tapardılar. Amma dövlətlər

üçün iki məqam var: biri - məqami-cəng ki, onun təklifi (vəzifəsi) özgədir və biri məqami-sülh ki, ol vaxtda gərək hamı bir-birilə məhəbbət və doğruluq ilə rəftar etsinlər, ona binaən ki, insan məişət üçün bir-birinə möhtacdır, adamın işi adam ilə keçər və əgər doğruluq olmasa bir-birindən nəfbərdar ola bilməz. İkinci, milləti qardaşlıqdır. Bunlar gərək ziyadə qardaşlıq mərasimin müraat edib (gözləyib) məhəbbət, insaf və doğruluq ilə bir-birilə rəftar etsinlər. Hansı ki, aciz və miskinlər, gərək əl-ələ vermək ilə dolandırmaq. Amma bizim camaatda pul qazanmaq elmləri az olduğuna varlımız az və bibəzaətimiz (kasıblarımız) çoxdur və hamısının varlıqdan bir növ çeşmdaştı (ümid bəsləməyi) var. Lihaza (buna görə) az qardaşlar çox qardaşları dolandıra bilməz, ona binaən gərək varlılar insafı və varsızlar doğruluğu və insafı ortalığa qoyub, bir-birilə əl-ələ verib köməkləşib, dövlət qazanmaq təriqəsini (yolunu) tapmağa səy etsinlər, ta millət dövlətləri tərəqqi tapsın. Amma çifayda, bizim varlı, varsız, hər kəs öz haqqına razı olmamağına binaən bir-birinə inanmır. Belə də işlər yerdə qalır...

Amma milləti qardaşlar, bilin ki, körpü sudan uzaq qalıb, necə ki, sabiq ərz oldu, əql itib hər kəs bir təriq ilə özünə çıxıb: həmçinin kəmal da itib hər kəs özünə çıxır...

Əhsənul-Qəvaid

«Əkinçi», № 4, 29 fevral 1876

1992 - KÖRPÜ SUDAN YENƏ DƏ UZAQDIR

Məktub müəllifinin «Körpü sudan uzaq qalıb» kəlamında çox böyük tarixi həqiqət, xəbərdarlıq və həyəcan ehtiva olunmaqdadır. Vaxtilə tarixin inkişaf və təkamül yolu, bəşəri tərəqqinin məcrası Yaxın və Orta Şərqdən, bütövlükdə, Məşriqdən keçirdi. Min illər ərzində hər bir müstəqil yaşamaq iqtidarında olan xalq öz zaman körpüsünü məhz bu məcraya uyğun qurmağa, dövrlə, tarixlə bir səmtdə addımlamağa, irəliləməyə səy və qeyrət göstərirdi.

Lakin fələyin çərxi istiqamətinin, bəşəri tərəqqinin zaman və məkanının dəyişdiyi qlobal qütbləşmə dövründə yeni körpülər salmaq hər xalqa müyəssər olmamışdır. Mühafizəkarlıq, keçmişlə öyünmək, elm və ictimai tərəqqiyə laqeydlik çox-çox ölkə və xalqları yeni məcradan kənarda saxlamış, cəhalət və zülmətə qərq etmişdir. Hacı Məhəmmədsadıq bundan qabaqkı məktublarının birində ürək ağrısı ilə haray çəkərək yazırdı: «Ey yaran! (ey dostlar!). Nə yatıbsız, oyanın, karvan getdi, biz qaldıq, əcəb bixəbərik!», yaxud «dövləti eşşəklərə vermişik, nemətı itlərə. Bəs biz dünyaya tamaşa etməyəmi gəlmişik?».

Müəllifin milləti vahid bir qardaşlıq toplumu kimi görməsi barədəki mülahizələri də diqqət veriləsi cəhətdir. Dövlətliləri «az qardaşlar», kasıbları «çox qardaşlar» kimi sosiyyələndirən gəncəli soydaşımız hamını birliyə, «insaf və doğruluq ilə əl-ələ verib» «pul qazanmaq elmlərini öyrənməyə», «dövlət qazanmaq yolunu tapmağa» çağırırdı.

«Əkinçi»nin nəşrindən, bu məktubların işıq üzü görməsindən 116 illik bir dövr keçir. Dünya əsaslı surətdə dəyişməkdədir. Biz də dəyişirik. Amma etiraf edək ki, körpü sudan yenə də uzaqdadır. Tarixi bir həqiqət var ki, köhnə körpüləri yıxıb-dağıtmaq çox-çox asandır. Əgər bu dəfə də «karvan getsə, biz qalsaq» aqibətimizin necə olacağını təsəvvür etmək çətindir. Bu gün isə üzümüzü gəncəli Hacı Məhəmmədsadıq kimi qeyrətli uzaqgörənlərə tutaraq deyək ki, Allah sizə min rəhmət etsin, kişilər!

«Aydınlıq» qəz. 23 dekabr 1992

VƏTƏNİN İKİ MÜCAHİD ÖVLADININ İLK GÖRÜŞÜ

1909-cu ilin yazı. Çar mütləqiyyət rejiminə qarşı Rusiyanın digər azadlıqsevər xalqları ilə çiyin-çiyinə ölüm-dirim savaşı aparan Şimali Azərbaycanda silah gücünə nisbi sakitlik yaradılsa da, xalq və vətən matəm içində idi. Qara irtica kəsif qanadlarını açıb istiqlal fikrinin qabağını kəsmək istəyirdi.

«Böyük Ermənistan» barədəki daşnak xam xəyallarına rəvac verən çar xəfiyyəsi və hərbçiləri erməni silahlı quldur dəstələrinin əli ilə bütün Qafqazda azərbaycanlıların məskun olduqları yüzlərcə kəndi, minlərcə evi xarabazara döndərmişdi. Milli qeyrət və namus simvoluna çevrilmiş Şuşanın müsəlman məhəllələri atəşə tutulurdu. Günahsız qurban və şəhidlərin sayı-hesabı bilinmirdi. Qaçqınların sayı isə yüz mini haqlamışdı. Şimali Azərbaycan bir növ susdurulmuşdu. Lakin inqilab və azadlıq qığılcımı vətənimizin cənub hissəsində közərməkdə, alovlanmaqda idi.

Bütün İranı bürümüş məşrutə hərəkatının əsas mərkəzi inqilablar yurdu Təbriz, inqilabın aparıcı qüvvəsi azəri türkləri idi. 1908-ci ilin iyulunda Təbriz üsyanını boğmaq üçün şah 49 minlik bir ordu göndərmişdi. Lakin Səttarxanın və onun fədakar millət mücahidlərinin əzmi sayəsində Təbriz təslim olmamış, şah qüvvələrini şəhərdən vurub çıxarmışdılar. 1909-cu ilin aprelində Peterburq-Tehran sövdələşməsi ilə bu dəfə rus qoşunları Təbriz üzərinə yeridi. «Vətəndaşların əmin-amanlığını təmin etmək» pərdəsi altında həyata keçirilən bu təcavüz inqilaba, istiqlal və məşrutə hərəkatına qarşı yönəldilmişdi. İnqilab sərkərdələri Səttar xan və Bağırxan həmin günlərdə Təbrizdəki Osmanlı konsulxanasında sığınacaq tapmışdılar.

İranda, xüsusilə Cənubi Azərbaycanda cərəyan edən məşrutə hərəkatını yerində izləmək, Şimaldakı qan qardaşlarına və Rusiya türk-müsəlman ictimaiyyətinə doğru-düzgün məlumat vermək üçün M.Ə.Rəsulzadə 1909-cu ilin fevralında Cənuba

yola düşür. Bakıda Əhməd bəy Ağayevin redaktoru olduğu və demokratik ziyalıları ətrafında cəmləşdirən «Tərəqqi» qəzetində əməkdaşlıq edən M.Ə.Rəsulzadə bu dəfə qəzetin xüsusi müxbiri kimi səfərə çıxmışdı. Həm də tək yox, Rusiyada nüfuzlu mətbuat orqanlarından sayılan «Russkoye slovo» qəzetinin müxbiri Tardov və onun xanımı ilə birlikdə. Bu da düşünülmüş addım idi. Axı, Cənubi Azərbaycanda və İranın şimalında rus hərbçiləri meydan oxuyurdular.

M.Ə.Rəsulzadənin Cənubdan xüsusi müxbir kimi göndərdiyi ilk yazı «Tərəqqi»nin 1909-cu ilin 18 mart nömrəsində dərc olunmuşdur. «İran məktubları» rubrikası altında «Tərəqqi»nin 1909-cu ilin mart-avqust nömrələrində 43 belə yazı işıq üzü görmüşdür. Çox böyük səmimiyyəti, dərin siyasi, elmi-nəzəri səviyyəsi ilə səciyyələnən bu məktubları dövrün ən qiymətli və dəyərli salnaməsi adlandırmaq olar. İndi də onları həyəcansız oxumaq olmur.

M.Ə.Rəsulzadənin qələmindən çıxan yazılar içərisində «Tərəqqi»nin 1909-cu il 28 may nömrəsində dərc olunmuş «Təbriz. Səttarxanla mülağat (müsahibə)» sərlövhəli yazısı xüsusilə diqqətimi cəlb etdi. Sən demə, 1909-cu il mayın əvvəllərində Təbrizdə, Osmanlı konsulxanasında o taylı - bu taylı Azərbaycanın iki cəngavər siyasi xadimi Səttarxanla M.Ə.Rəsulzadə ilk dəfə görüşmüş, cərəyan edən hadisələr və vətənin taleyi ilə bağlı məsələlər barəsində fikir mübadiləsi etmişdilər. Tanınmış sərkərdə, Sərdari-milli adına layiq görülmüş 42 yaşlı Səttarxanla gənc inqilabçı, tanınmış jurnalist və publisist 25 yaşlı M.Ə.Rəsulzadənin may görüşlərində nələrdən danışıldığı, müsahibənin geniş təfsilatı bizə məlum deyil. Tarix bizə bu görüşdən, bu söhbət və müsahibədən teleqrafla verilmiş və «Tərəqqi»də dərc olunmuş bir parçanı saxlamışdır. Milli istiqlal hərəkatımızın iki böyük şəxsiyyətinin bu gün qəvetdə dərc olunan müsahibəsində diqqət veriləsi cəhətlər, mətləblər çoxdur. Səttarxan öz şimallı qardaşına deyirdi ki, «mən artıq istərdim ki, bizim millət Osmanlı ilə yaxınlaşsın», yaxud vəzifə istəyən hakimlərin əksinə olaraq, Səttarxan bildirirdi ki, əgər «məşrutiyyətimizin səlamətliyinə əmin olsam... yenə də öz rəncbərliyimlə məşğul ollam». Vəzifə hərisləri üçün ibrətamiz fakt deyilmi?

83 il bundan əvvəl Səttarxanla - M.Ə.Rəsulzadənin ilk görüşü tariximizin çox mühüm, əlamətdar hadisəsidir. Bu görüş bizi birliyə, vəhdətə, tam istiqlala səsləyir.

TƏBRİZ
SƏTTARXANLA MÜLAQAT

Təbrizə qazetəmiz tərəfindən göndərilən xüsusi müxbir idarəmizə böylə bir teleqraf göndərmiş:

Bütün İrani təmin yolunda tamam dünyaca şöhrət qazanmış olan bu qəhrəmanı-millinin ziyarətinə nail oldum. Fəqət böylə bir qəhrəman mal və canını təmin üçün bəstidə bulunurdu.

Mülaqatımız Osmanlı konsulxanasında vaqe oldu. Bağırxan ilə Səttarxan bir odada olduqları halda Sərdari-milli bizi qəbul etdi.

Sərdarın zahirini tərif etmək məncə əbəsdir. Zira, bu surətibenami tanımayan bir nəfər tapılmaz. Fotoqraf o əksi - millini eynilə bütün aləmə nəşr etmiş və hər bir kəsə tanıtdırmışdır.

Sərdar qayətdə sadə və safdil bir adam olub, öz qüvveyi bazubinə kəmali-əmniyyətlə inanan bir adam olduğu hər bir hərəkət və kövtari ilə aşkar ediyor.

Nə üçün konsulxanada bəstə girdiklərini xəbər aldıqda böyük bir ürək ağrısı və ciddi bir təvr ilə:

- Mən vətənimin istiqlalı yolunda bir il tamam çalışdım. Ölüm içində dirildim. Barıt tüstüsü udaraq, işi bu yerə çıxartdım. İndi əziz vətəndə bir işıq ucu göründüyü kimi, o doğma anam başqa bir həlakətə uğrayır. Asayiş hazırlamaq və rahətlik bərdavam etmək üzrə gəlmiş olan ruslar, hala bir hərəkəti-istilacuyanyə başlamışlar ki, artıq vətənimizin istiqlalından qəti - ümid edir. Elan olunan əfviümumiyə inana bilmiyoruz.

Zira, xaricilər hər kəsi istərlərsə, tutarlar, hər nə istərlərsə, edərlər. Məmləkətin hakimləri vəzifə almaq istiyorlar. İştə böylə bir halda biz nə qayıra bilərik? Artıq canbazlıq meydanına atılıb, müqatilə başlamaq işə keçməz. Çünki burası vətəni daha tez əldən verməyə səbəb ola bilər. Odur ki, biz də burada mütəhəssin olub, sülhə protestimizi bütün dövlətlərə bildirib, xaricilərin tezliklə vilayətimizdən çıxmalarını istəyirik.

Mən artıq istərdim ki, bizim millət osmanlı ilə yaxınlaşsın. İndi bu haldan bir dərəcə mütəşəkkirəm ki, bizi birləşdiriyor. Təmin almaq və bəstə girmək üçün doğrusu burasını müvafiq gördük. Zira, İslam məmləkəti və ümdəsi məşrutəli bir məmləkətin nümayəndəsidir.

- Bu dəfəki, elani məşrutiyyətə inanıyormusunuz?

- Məşrutə verilmişdir. Amma rusların bu hərəkəti bir çox şübhə və gümanlara yol açıyor.

- Rusiya qəzetələrində şahın Sizi Tehrana dəvəti xüsusunda yazılan xəbərlərin əsli varmıdır?

- Bəli, elə ki, məşrutə elan olundu, şəhər şadimanlıq etdi, mən də götürüb şaha bir teleqraf çəkdim. Məzmunu belə ki, bu vaxtadək qılınc çəkib, güllə atıb, var qüvvətlə çalışdım, məqsud ələ gəldi. Hala əgər izni-şahanə sadir olursa, bəndələri məşrutiyyətimizin səlamətinə əmin olaraq gedim də, yenə öz rəncbərliyimə məşğul olum.

Bunun cavabında isə şah yazdı ki, sənin rəşadətlərin bütün düvəli-müəzzəmə arasında isbat olunub, nam və şöhrətin zihəqq olaraq bütün afaqı basmışdır. Heç rəva deyil, sən indi gedib rəncbərlik edəsən. Lazımdır ki, burada millətə və dövlətə xidmət etmək üzrə olub, bizim dəvətimizi qəbul edəsən.

- Sizin evinizi partlatmaq barəsində buraxılan xəbərlərin əsli varmıdır?

- Mənim evimi heç kəs partlatmadı. Bu haman sursat qulluqçusu, əlindən bir süstlük nəticəsi olaraq, od almış barıtın odlanmasından başqa bir şey deyildir.

Bu xüsusda mənim imzam ilə «Russkoye slovo» qəzetəsində bir məktub çap olunmuşdur.

Sərdar qayətdə qanı isti bir adam, hərəkəti xeyli cəlddir, danışığı çox ciddidir. Məşrutəpərəstliyi din dərəcəsində qəvidir. Bu adam məşrutə tərəfdarı olmaqda fanatizm ediyor. Bütün hərəkətini, vücudunu, zori-bazusunu millətə sərf etmiş olan bu adam özünün təkrarən bəyan etdiklərinə görə Nəcəf üləması hökmi-müqəddəslərinə tabe olub, onlar nə əmr edirsə, bir an təxir-etməsizin icrayə hazırdır.

- Rus və ingilis konsulxanaları yanıma gəldiklərində: məşrutə sənin əlindədir, dedilər. Mən isə cavab verdim ki, siz böyük bir səhv edirsiniz, mən məşrutənin iti işli bir pasibaniyəm. Sahibləri isə Nəcəf üləmayi - əlamıdır. Onlar nə əmr edirlərsə, mən o saatcada icraya hazıram.

M. Əmin

«Tərəqqi», *№ 116, 28 may 1909*

«Aydınlıq» qəz. 11 dekabr 1992

YANĞILI ÜRƏYİN FƏRYADI

86 il sonra da eyni vurğu ilə səslənir

Qeyrət və namus sahibi olan hər nəsil, hər fərd öz milləti və əcdadlarının uyuduğu torpaq, gələcək önündə» cavabdehdir, hökmlüdür. Varislik və nəsli məsuliyyət müqəddəs borcdur, həyatın, yaşamağın mayasıdır, mənasıdır. Bu həqiqəti dərk edənlərin sayı ilə hər bir millət bəşəri ailədə öz yerini və mövqeyini müəyyənləşdirə bilir. Əksinə, bu keyfiyyətdən məhrum olanlar başqalarının şikarına çevrilir, zəlalət və fəlakətə düçar olurlar.

M.Ə.Rəsulzadənin 86 il əvvəl «Təkamül» qəzetində «Cavanlarımıza» müraciətini diqqətlə oxuduqdan sonra ilk təəssüratım məhz belə oldu. Belə bir müraciəti, ürəkyandıran fəryadı yalnız xalqının tarixinə, həyat və güzəranına, düşüncə və təfəkkür tərzinə, inam və inancına, düçar olduğu bəlalara və onun səbəblərinə dərindən bələd olan qeyrət və milli heysiyyət sahibi, müdrik və dünyagörmüş bir tarixi şəxsiyyət yaza bilərdi. M.Ə.Rəsulzadənin isə bu vaxt cəmi 22 yaşı vardı.

Əsrin əvvəllərində səslənən, həyəcan təbilini xatırladan çağırışı geniş şərh etmək fikrində deyiləm. Siyasi təfəkkür və siyasi mədəniyyətimizin az-çox formalaşmağa başladığı bir şəraitdə buna ehtiyac da görmürəm. Lakin bir cəhəti, bir mətləbi söyləməyi vacib bilirəm. O da mövcud cavanlıq çağının yaş həddidir. Biz yaşlılar bəzən onu az qala 25-30-dan da o yana addadırıq. Beləliklə də gənc nəslin potensial gücünü, sahiblik və məsuliyyət yükünü azaldırıq. M.Ə.Rəsulzadə 19 yaşında «Şərqi-rus» qəzetində «Hümmət və qeyrət vaxtıdır» -sərlövhəli məqalə ilə çıxış etmişdi. Alim babaların, döyüşkən əcdadların ad-sanını özlərinə bayraq edənlərə müraciətlə yetişmiş ağıl və kamal sahibi olan bu gənc yazırdı ki, «müsəlmanam - deyib, oturub baxmaqla iş aşmaz», «Qardaşlar! Gəlin hamımız birlikdə hümmət edək!», həm də başa düşək ki, «elmsiz bir nöqsanımız belə götürülməyəcəkdir». Yaxud «Mərəzimizin çarəsi» (19 iyun 1906) məqaləsində Qafqazda milli qırğın törədənlərin «şeytani əməllərini»n məqsəd və qayəsini açaraq diyarın əsl vətənpərvərlərini fəaliyyətə səsləyib yazırdı: «Ey Vətənini istəyən qafqazlı sülhsevər ünsürlər! Əgər sülh istəyirsiniz, yəni düçar olduğumuz mərəzdən səhhət tapmağımızı arzu edirsiniz, müttəhid olun, birləşin, təki zikr olunan illətlər aradan götürülsün. Nə qədər ki, bu illətlər durur, bu mərəz, bu xəstəlik də olacaqdır».

Nəhayət, daha bir mühüm cəhəti xatırladım. Tariximizin və taleyimizin bu mürəkkəb, keşməkeşli çağında hamımız gələcək qarşısında məsuliyyətimizi lazımınca dərk edirikmi? Əsrin əvvəlində siyasət meydanına atılanların bu barədəki kəskin, ittiham səciyyəli görüşləri adamı yerli-yataqlı silkələyir, düşünməyə vadar edir. M.Ə.Rəsulzadənin cavanlara müraciətindən təxminən bir il sonra - 1907-ci il noyabrın 30-da Əhməd bəy Ağayev ilk milli mücahidimiz Həsənbəy Zərdabinin dəfn mərasimindəki nitqində mərhuma, əslində dirilərə demişdi: «Ey ali ruh! Şimdi sən gedirsən ata-babalarımızın, əcdadlarımızın hüzuruna! Onlara bizdən salam yetirib də bizim bu şikayətimizi de: Ey əcdad, ey babalar! Bizə nə gün qoydunuz?! Bizə nə irs qoydunuz getdiniz?! Stanlarımız (məmləkətimiz) xərabə, vilayətlərimiz viranə! Cümlə millətlər arasında sərnigun, xar, zəlil, məqhur (qəhr olmuş), məzlum, əhvalımız pozğun! Günü-gündən tənəzzül edib, günü-gündən puç və zay olmaqdayız! Əlan işimiz, sənətimiz oğurluq, quldurluq, bir-birimizin canına, malına, irz-namusuna qəsd etmək imiş! Ey kaş nə biz olaydıq, nə böylə irs».

Ürək və vicdan, qeyrət və milli təəssübkeşlik yanğısından gələn bu ittihamları irəli sürənlər iş gördülər, fəaliyyət göstərdilər. 1918-ci il mayın 28-də İstiqlal bayrağını ucaltdılar. Bizim M.Ə.Rəsulzadə, Ə.Ağayev və müstəqil dövlətçiliyimizi bərpa etmiş nəslə yalnız minnətdarlığımız ola bilər.

İndiki nəsil haqqında gələcəkdə övladlarımız və nəvələrimiz nə fikirdə olacaqlar? Bunu zaman göstərər. Lakin indn bu gələcək barədə cavan da, kamil və əhil də düşünməlidir. Ə.Ağayev

deyirdi ki, «Dunyada cümləmiz böyləcə gedəcəyiz! Heç bir şey aparmayacağız! Bizdən qalan fəqət o insanlıq, o öz məmləkətimizə, öz taifəmizə və ümum insaniyyətə qulluq və xidmət qalacaq». Məncə, bu sözlərin şərhə ehtiyacı yoxdur.

M.Ə.Rəsulzadə

CAVANLARIMIZA

Millətimiz bir cəhl içində yaşayıb, ömrünü qəflət və xəbərsizlikdə keçirməkdədir. Ətrafını tutan heç bir hərəkətləri sənələr ilə istibdadın və hökuməti-mütləqənin çəkdiyi zəncirlərdən keyimiş bədəni hiss etməyib havayı-havayı sözlər ilə cəfəngiyyat və mövhumata, hekayə və vəzlərlə dolmuş qulaqları küll Rusiyanı çuğlayan hürriyyət və inqilab sədalarını eşitmiyor. Alimnüma mollalar göz heyrətləndirən şəbədələri və sərmayədarların hər bir şeyi əsildə olmadığı bir rəngdə göstərmələrindən naşi pərdeyi-zəlam və qəflət ilə örtülən gözləri hürriyyət, insaniyyət və həqqaniyyət yolunda tökülən qanları, onu (özünü) əhatə edən rəzalət və zəlaləti görmiyor. Və daha doğrusu, əvarizi-siyasiyyə ilə məyub olan gözləri əhvəl adamlar kimi hər bir şeyi başqa bir rəngdə, başqa bir ədəddə görür. Elmə həvəs etmiyor, mərifət kəsb eləmiyor, kəsb-ruzi yolunda lazım olan səy və guşiş etmiyor, Allah özü yetirər - diyor.

Giriftar olduğu fəqr və faqəyə təhəmmül ediyor. Sahibkar və dövlətlinin hər bir cövr və sıxıntısına səbr ediyor. İnsana yaraşmaz ağırlıqlarda, ən alçaq bir məvacib və şərtlər üzrə işliyor. Hər cəbr və zülmü, nə qədər ağır və şiddətli olsa da çəkiyor. Hər ədalətsizliklər səbr edib dinmiyor, göydən belə yazılıb - diyor.

Hər bir hiyləkara düçar olur, var-yoxunu əlindən aldadıb alırlar, bir yavan çörəyə möhtac ediyorlar. Bunların hamısını görür, hamısının ağrısını qəbul ediyor - yenə də ümid üzməyib, Allah Kərimdir - diyor.

Bu qədər cəfa və əzalardan təngə gəlir, nəhayət, özünə bir çarə axtararaq hökumətə güvənir, polisəyə şikayət edir, bir neçə gün gedir-gəlir, yol ağardır, axırda özü müqəssir olur, dərdinə çatan olmuyor, yenə də sakit-sakit durub əli qoltuğunda heyran və sərkərdan qalıyor.

Nə eləsin, nə çarə qılsın, kimə dərdini deyib, kimdən imdad istəsin, hər yanə gedir zülm, hər tərəfə qaçır təəddi, hər şəxsə sığınır əza, hər guşəyə varır cəfa, hər səmtə dönür ədalətsizlik, xülasə, hər yanda yalan və zülmət görüb aciz qalır, nə eləməyin bilmir, çarə yolunu tapmıyor. Özünə bir yol göstərən, dərdinə dəva deyən görmüyor. O biri yandan isə hallı mollalar, rövzəxanlar və qeyri bu kimi şəbədəbazlar, o zülm və zülmətin əmirləri, o şəriət və millətin hadimləri[1], o pula səcdə edən dənilər bu biçarəni səbrə, təhəmmülə, hər bir şeyə razı olub «Allah tərəfindən müqəddərdir, razı olmaq gərək» deməyə alışdırıb və bu zəifin, bu məzlumun başaltını yastıqlayıb, onu yatırdırlar. Bəstəri-qəfləti döşüyüb cəhalət yuxusuna alışdırırlar. Bu da yatır, mürəbbilərin verdikləri tərbiyə ucundan elə bərk yatır ki, hər bir ağrı və sancıları da bilmərrə yadından çıxarıyor. Bu minval ilə bir xeyli zaman yuxulayır. Hərdən bir bəzi həmiyyətməndan tapılıb bunları oyatmaq istiyor, lakin qaravulda duran laylaçılar haman şəxsi qovub onu ayılınağa qoymuyorlar. Zira yatanlar ayılarsa öz həqlərini alarlar, qasiblər isə rüsvay olar.

Nəhayət, Rusiya inqilabı alovlanır, bir kirdar düşüb hay-huy qopur, bu hay-huy və mərəkənin səsindən yatmış olan millətimiz yavaş-yavaş ayılmağa başlayır, ayılır, ayılır da yön tutub bir yana getmək, vəsilə tapıb bu əsarətdən qurtarmaq, xadim tapıb hadimlərin əlindən çıxmaq istiyor.

Budur, müsəlman füqərası, füqərayi-kasibəsi öz qeyri-münəzzəm tətilləri ilə ürəkdən fəryad edib çağırır ki, ey millətin cavan qüvvəsi, ey hər bir cəmaətin tərəqqi və təalisinə səbəb olan millət cavanları, gəlin, siz Allah gəlin, bizi əsarətdən qurtarıb

---

[1] hadim - dağıdan, sökən

rahi-səadət və səlaməti bizlərə göstərin. Qərinələr ilə uyuduğumuz xabi-cəhalət və qəflətdən oyandıq, bir daha yatmaq, bir daha düşmənlərin laylasına uymaq istəmiyoruq. Sizi and veririk insaniyyət və həqqaniyyətə ki, bizim əlimizdən tutub bizləri nicat və fəlahə yetirəsiniz!!!

Ey millət-millət deyib bar-bar bağıranlar, ey öz elm və bilikləri ilə fəxr və mübahat edən cavanlar, ey tələbəlik və studentlik faxir-libası ilə müzəyyən ziyadarlar, ey cəmaət müəllimi adlanan zəvati-giramlar, ey təbən hürriyyət və azadlıq məftunu olan millət balaları! Biçarə füqəra ürəyinin ən dərin guşəsindən gələn bu səda fəryadı, millətimizin çox qismi olan bu füqəra və kəsəbənin yanğılı fəryadlarına guş veriniz! Giriniz bunların içinə, göstərin onlara o yolu ki, onunla mənzilə yetişə bilsinlər.

Havaxta kimi bətalət, havaxta kimi kəsalət bizlərə qabil olub, fəqət özümüzə məşğul olub öz qardaş və yoldaşlarımızı fəramuş edəcəyiz?

Bir baxın özgələrə, bir baxın ətrafınıza, bir görün qeyri-millət cavanları nə qayırırlar, nə yolla iş görüyorlar. Necə gör hürriyyət və füqarə yolunda candan və başdan keçiyorlar.

Hər sahibi-vicdan, mərhəmət və şəvqətə lazım və bəltə vacibdir ki, füqərayi-kasibənin və ümum millətin yanıqlı ürəyindən gələn bu sədaya öz ürəyində yer verib onun dərdini öz dərdi, onun əsarətini öz əsarəti bilib ona imdad əlini uzatsın, ona yol göstərib, belə bir fəlakətdən qurtarmağa səy etsin.

Gəlin, yoldaşlar, işlə insaniyyətə dəyər iş fəqət budur!

«Təkamül», № 2, 23 dekabr 1906.

«Xalq qəzeti», 23 dekabr 1992

MUSTAFA BƏY VƏ ƏFRUZ XANIMIN FACİƏSİ

Qədim Şəkidə öz xeyirxah əməlləri, insanı keyfiyyətləri, insaf və mürvətləri ilə seçilən, yadda qalan kişilər az olmayıb. H. M. Əliyev, H. Nağıyev, A. Mustafazadə, M. F.Pişnamazzadə, Ş. Aşurbəyov, A. Əfəndiyev, M. Zülfüqarov, M. Nütvəlibəyov və başqalarını göstərə bilərik. Yeri gəlmişkən deyim ki, indinin özündə də belə adamlar vardır, onların xeyirxah əməlləri barədə heç şübhəsiz ki, yazılacaq.

Həyatın mənasını dar çərçivədə, şəxsi və ailə miqyasında deyil, milli mənafe baxımından dərk edənlər qondarma ad, rütbə, vəzifə naminə ömür sürməmişlər. Onlar şəxsi və milli dəyərləri vəhdətdə götürmüş, iman və inancın hökmü ilə yaşamışlar. Xalq da belə kişiləri həmişə hafizəsində saxlamağa, xatirəsini əziz tutmağa səy göstərmişdir. Onlardan biri adını hər bir şəkilinin tanıdığı Mustafa bəy Əlibəyovdur.

Tanınmış hüquqşünas, xeyriyyəçi və ictimai xadim olan Mustafa bəyin xidmətləri çoxdur. Bunlar haqqında zaman-zaman yazılıb. Məsələn, Azərbaycanda ilk qadın «İşıq» jurnalının naşiri M. Əlibəyov, redaktoru onun ömür yoldaşı Xədicə xanım olmuşdur. «Nicat» xeyriyyə» cəmiyyətinin fəalları sırasında Mustafa bəyin adı iftixarla çəkilir. Giləhli məhəlləsində, Taclıq bulağı zonasında Mustafa bəyin bağını kim tanımır?

Bu yaxınlarda 1916-cı ildə nəşr olunmuş «Doğru söz» qəzetini nəzərdən keçirirdim. Qəzetin 28 may tarixli nömrəsində Mustafa bəyin imzası ilə dərc olunmuş «Açıq məktub»a rast gəldim. Onunla, əziz oxucular, Siz də tanış olun. Mustafa bəyin necə insaflı, xeyirxah, mərhəmətli ziyalı olduğunu nümayiş etdirən bu sənəd, bizi ibrət götürməyə, bu ənənəni davam etdirməyə səsləyir. Onu da göstərim ki, sonra məlum olur ki, həmyerlimiz Əfruz xanıma və onun Aişə və Səfurə adlı balalarına 200 manatdan artıq ianə yığılmışdır. Bakıda olarkən bütün xərcini Mustafa bəy çəkmiş, sonralar da bu ailəyə xeyli maddi yardım göstərmişdir.

AÇIQ MƏKTUB

Müdiri möhtərəm. İş bu neçə kəlmənin qəzetəniz sütununda dərcini arzu edirəm.

Şubanıda neft quyularında işləyən şəkili Əbdülrəhman İsmayıl oğlu ilə neft quyularını idarə edən pirkeşik arasında pasport tələbi üstündə mübahisə düşüb, nəhayət, pirkeşik fəci (ürək acıdan) bir surətdə Əbdülrəhmanı 3 güllə ilə qətl etmiş: Məfluk (yazıq) fəhlə Əbdülrəhman öz fəhləliyi ilə anası Əfruz Osman qızını və iki yetim bacısını saxlayırdı. Zavallı anası Əfruz bu əhvalatı eşidən kimi zəif və naxoş olduğu halda yetim və bikəs iki nəfər balaca Aişə və Səfurə adlı balalarını evinin bir guşəsinə atıb gözlərindən qan-yaş tökərək Bakıya gəlib cavan oğlunun qəbri üzərində qanlı göz yaşı tökməkdədir. Hal-hazırda bu məzlumə mənimlə Torqovi küçədə 70 nömrəli evdə sakindir. Şəkidə bisahib qalmış zavallı balalarının qaragünlərinə ağlamaqdan başqa bir çarə bilmir. Bu fəqir övrət vətəninə qayıtmağa və orada yetim balalarını saxlamağa, xüsusən Şəkinin bu bahalıq zamanında dolanmağa bir qəpik də olsun gəliri yoxdur. Ona görə də qareini kiramin (hörmətli oxucuların) nəzər-diqqətlərinə bu müsibət halı yetirib, beqədri-qüvvə bu zavallı övrət ilə bu yetim balalara ianə etmələrini arzu edirəm.

Mustafa bəy Əlibəyov
«Doğru söz» qəzeti, 28 may 1916

İSLAMA QARŞI YENİ SİPƏR AXTARIRLAR

«Qərb - Şərq qarşıdurmasını
«Şimal - Cənub qarşıdurması
əvəz edəcəkmi?

«Azadlıq» radiosu sırağagün Rusiya müdafiə naziri P. Qraçovun bir sıra ərəb ölkələrinə nəzərdə tutulmuş səfəri ilə bağlı şərhində son zamanlar çox az təsadüf etdiyimiz açıqlıqla bildirdi ki, Qərb Rusiyanı yenidən islam əleyhinə güclü bir sipərə çevirmək niyyətindədir. Lakin oradaca əlavə etdi ki, Moskva iqtisadi məcburiyyət qarşısında, ölkədəki ağır ictimai-iqtisadi və siyasi-milli böhran nəticəsində bu rolu məhdudlaşdırmaq məcburiyyətində qalmışdır. Yəni, Moskva əsas diqqəti keçmiş SSRİ ərazisində islamın təsirini zəiflətmək, islam birliyinə və həmrəyliyinə mane olmaq işinə yönəltmək fikrindədir. Beynəlxalq siyasətdə isə Qərblə həmrəylik xətti qalacaqdır.

Zəngin ərəb ölkələri ilə iqtisadi-hərbi əməkdaşlığın Rusiyanın karına gələcəyini Moskvada yaxşı başa düşürlər. Buna son vaxtlar xüsusi diqqət yetirilir. Elə Rusiya müdafiə nazirinin, parlament başçısının, ondan əvvəl isə xarici işlər nazirinin Yaxın Şərq ölkələrinə səfərləri də bu məqsədi güdürdü. Rusiya hər şeydən əvvəl, ərəb ölkələrinə silah satmaq fikrindədir. Bu sahədə ABŞ və digər Qərb ölkələri ilə rəqabətə az-çox davam gətirmək olur. Doğrudur ki, müdafiə naziri Qraçov nəzərdə tutulan səfəri başa çatdıra bilmədi. Atası vəfat etdiyindən yalnız Birləşmiş Ərəb Əmirlikləri ilə saziş bağlaya bildi və vətənə döndü.

Moskvanın yenidən islama qarşı sipər rolunu oynamağa təhrik edilməsi və ya bu rolu boynuna götürməsi çox ciddi problemlər yaratmaya bilməz. Çar Rusiyasının neçə əsrlər boyu islam ölkələrinə, onun əsas hamisi və daşıyıcıları olan müsəlman türk xalqlarına qarşı necə sipər rolu oynadığı tarixdən bizə məlumdur. Sovet dövründə bu siyasət formaca dəyişsə də məzmunca daha məkrli səciyyə daşımışdır. Əfqanıstan təcavüzü,

Fələstin və İraq faciəsi, indi isə Yuqoslaviyada müsəlmanlara qarşı çevrilmiş genosid, elə Tacikistandakı qardaş qırğını, çeçen və inquşlar, müsəlman abxazlar əleyhinə yönəldilmiş açıq və gizli təcavüzlər bunu aydın göstərmirmi?

«Azadlıq» radiosu xəbər verir ki, serblərlə birlikdə Yuqoslaviya müsəlmanlarına qarşı vuruşlarda iştirak etmək üçün on minlərlə rus şovinisti könüllü birliklər yaratmaq fikrindədir.

Nəhayət, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Yuxarı Qarabağı qoparıb ermənilərə vermək xülyası bu mənbədən qidalanmırmı?

«Soyuq müharibə» əsasən başa çatmış, kapitalizm-sosializm qarşıdurması birincinin qələbəsi ilə nəticələnmişdir. Dünyanı çalxalayan kommunizm kabusu tarixə qovuşmaq üzrədir. Bəs bu ideoloji boşluğu nə, hansı məfkurə, ideya və siyasi görüş dolduracaqdır. «İzvestiya»nın şərhçisi bu günlərdə yazmışdır ki, «Qərb-Şərq qarşıdurmasını Şimal-Cənub qarşıdurması əvəz edəcəkdir». Burada söhbət yüksək inkişaf etmiş dövlətlərlə kasıb və dilənçi vəziyyətinə düşmüş ölkələr arasındakı ziddiyyətlərdən gedirdi. Bəzi Qərb icmalçıları isə yenidən xristian - islam qarşıdurmasından söhbət açırlar.

Bununla əlaqədar hələ əsrin əvvəllərində mütəfəkkir-publisist Əhməd bəy Ağayevin yazdığı və «Tərəqqi» qəzetində dərc olunmuş «Məşriq və Məğrib», «İslam və xristianlıq» sərlövhəli silsilə məqalələr yada düşür. Çox təəssüf ki, bizim bu zəngin mənəvi irsdən xəbərimiz olmayıb, yoxsa çox mətləbi vaxtında bilib başımıza çarə qıla bilərdik.

Ə.Ağayev Fransada Sarbon Universitetində təhsil aldığı illərdə məşhur fransız yazıçılarından biri ilə mükaliməni xatırlayaraq 1908-ci ildə «Tərəqqi» qəzetində yazırdı: «Məşhur yazıçı xanımlarından birinin evində idik. Söhbət Şərqdən getdi, mən də avropalıların Şərqə nisbət təqib etdikləri məsləkdən şikayət etdim. Xanım əfəndi dedi:

- Mən təəccüb edirəm ki, şərqlilər də siyasi hökumətə, dünyəvi işlərə etina edirlər, görünür ki, Şərq də xarab olmağa üz çöndərmiş! Çünki Allah Məşriqi yaradanda məhz xəyaldan, o

xəyalatdan göyləri, ulduzları, əflaki sirr etmədən ötrü yaratmış! Onlar gərək əsla maddi, dünyəvi işlərə etina etməsinlər! Bugünə işlər avropalıların vəzifəsidir! Çünki Allah Qərbi də maddi məsələlər üçün yaratmış! Yer - qərblilərə, göylər - şərqlilərə, dünya - qərblilərə axirət şərqlilərə! Budur Allahın tövsiyəsi! Və bu təqsimdə ən bəxtiyar tərəf Məşriqdir!

Doğrudan da, yaxşı təqsimdir, fəqət burası var ki, insan nə qədər mələkut (ilahi səltənətdə) və mələkuti sirr etsə də yenə başı və qarnı bu dünyayi-fanidədir, başa Qərb yumruğu dəyəndə və yainki insanın əlində olanı qərblilər qarət edib ac qalanda çar-naçar mələkut və mələkutdan nüzzul edib bu dünyayi-fanini yada salır. Xanım əfəndi bir qədər mükəddər olub dedi: - Görünür ki, sən əsl şərqli deyilsən, əsl şərqli nə yumruğu və nə aclığı düşünməz».

Çoxmu şey dəyişmişdir? Bütün bunları nəzərə almaq, sadəliklə sadəlövhlüyü, siyasətlə siyasətbazlığı ayırd etməyi bacarmaq, belə məsələlərin tarixi mənbələrini bilmək vacibdir. Yaxşı deyiblər ki, indinin kökü keçmişdədir, keçmiş isə gələcəyin eynəsidir.

«Xalq qəzeti», 8 yanvar 1993

LOVĞALIQ VƏ MİLLİ TƏKƏBBÜR NƏYƏ VƏ KİMƏ GƏRƏKDİR?

Münhendəki «Azadlıq» radiosunun Azərbaycan redaksiyası «Azərbaycan və İslam» mövzusunda silsilə verilişlər hazırlayıb. Aparıcı respublikamızın tanınmış və hörmətli din xadimlərindən biridir. Redaksiyanın nə məqsədlə belə bir veriliş hazırladığının qayəsinin nə olduğunu deyə bilmərəm. Veriliş neçə gündür ki, davam edir. Əlbəttə, bir neçə dəqiqəlik iki-üç verilişə əsasən mülahizə söyləmək çətindir. Digər tərəfdən mən bu sahənin mütəxəssisi də deyiləm. Amma qulaq asdığım ilk verilişdə məni narahat edən bir məsələ barəsində fikrimi bildirmək istəyirəm. Hörmətli din xadimimiz bildirdi ki, guya keçmiş sovetlər birliyi ərazisində islamı qəbul edən ilk ölkə Azərbaycan olmuşdur. Həm də Orta Asiya da daxil olmaqla dünyanın bu bölgəsində islam dini Azərbaycan vasitəsilə yayılmışdır. Məni düşündürən budur ki, yaşadığımız çox mürəkkəb, böhranlı bir şəraitdə dünya miqyasında İslam və türk-müsəlman xalqlarına qarşı geniş ideoloji-dini hücum və təxribatın baş alıb getdiyi bir vaxtda bu cür bəyanat və verilişlərin faydası varmı? İndi məgər döşə döymək vaxtıdırmı ki, islamı yayanlardan biri biz olmuşuq və yaxud bizim ərazidən keçilib yayılıb?

Digər narahatçılıq doğuran məsələ türkçülük yarışıdır. Son vaxtlar nə qədər «türk oğlu türkəm» - deyib haray salan, az qala nərə çəkən millət pəhləvanı əmələ gəlmişdir. Aksiomadan tənlik düzəltmək istəyən bu üzdəniraq türkpərəstlər kimə nəyi isbat etməyə çalışırlar? Hətta türk dilinin osmanlı qolu ilə Azərbaycan qolunu süni surətdə dolaşdıran, oxucunu çaş-baş salıb əslində türk birliyi və həmrəyliyi işinə ciddi xələl gətirən bu başabəla «türkçülük» bütün türk dünyasının imtina etdiyi pantürkizmə yuvarlanırmı? Bu yalançı pafos və hissiyyat kimə gərəkdir? Təəccüblüsü budur ki, az qalır Azərbaycanı təkcə türkçülüyün yox, hətta pantürkizmin vətəni kimi də qələmə versinlər. «Molla Nəsrəddin» jurnalı 1907-ci ilin dekabrında yazırdı: «Yazıçılarımızdan bir parası elə yağlı dillər və sözlər ilə camaata yarınır ki, heç mərsiyəxanlar da o sözləri bacarammazlar. Bir para adamlar qələmi əllərinə alan kimi yalandan başlayırlar: «ay mənim yaxşı millətim, qadan alım, ay mənim millətim, nə qədər canım sağdır hazıram sənə canımı fəda edəm, ay mənim gözəl millətim, ay millətlərin padşahı millətim!» İbrətamiz deyilmi?!.

Azərbaycançılıq ideyasının, məfkurəsinin və siyasətinin yaradıcısı və memarı M.Ə.Rəsulzadənin ucaltdığı istiqlal bayrağı altına girənlərə, onun şəklini başları üstündə asanlara məsləhətim budur ki, bu zahiri sədaqət və hörmətlə yanaşı onun ideya və mənəvi irsini də öyrənib hərəkət etsinlər. M.Ə.Rəsulzadə yazırdı: «Millətin mücahidlərinə lazım gələn odur ki, davakar olan millətçiliyi bacardıqca məğlub edib, ümuminsaniyyət və bəşəri amalı və əfkarını camaat arasında möhkəmləndirsinlər».

Yenə M.Ə.Rəsulzadənin təbirincə desək, «bu günlər cəhl ilə əqlin güləşdiyi vaxtda» bunu başa düşmək lazım və vacib deyilmi?!.

O, VƏTƏNİ BÜTÖV GÖRÜRDÜ

Buna görə də o tay-bu tayı gəzir, görür, tanıyır və sevirdi

1914-cü il noyabrın 9-da Tehran yaxınlığındakı Şah Əbdüləzimdə İran inqilabı və Cənubi Azərbaycanda demokratik hərəkatın rəhbərlərindən Səttar xan Hacıhəsən oğlu 47 yaşında dünyasını dəyişmişdi. Bu dəhşətli xəbər, alınanın səhəri günü - noyabrın 10-da Bakıda «İqbal» qəzetəsində öz məzmun və dəyəri ilə tarixi sənəd adlandırıla biləcək «Səttar xan» sərlövhəli, nisbətən iri həcmli bir məqalə dərc olunmuşdu. Müəllifi o taylı, bu taylı Azərbaycanın cəfakeş və qeyrətli oğlu, görkəmli siyasətçi və dövlət xadimi kimi yetişməkdə olan 30 yaşlı Məhəmməd Əmin Rəsulzadə idi.

Nekroloq-xatirə səciyyəli yazını, orada toxunulan çox böyük elmi-nəzəri məsələləri və tarixi hadisələri təhlil edib qiymətləndirmək üçün iri həcmli bir kitab yazmaq lazım gələrdi. Mən isə oxucuların diqqətini bir neçə mühüm cəhətə cəlb etmək istəyirəm.

M.Ə.Rəsulzadə yazının lap əvvəlində qeyd edir ki, «Millətin bətnindən yetişmiş bu qəhrəmanı - Səttar xan ismini Avropa qəzetələri... Qaribaldi ilə bərabər tutuyorlardı». Bu müqayisə təsadüfidirmi? Məncə yox! Əksinə, burada çox böyük məna və məqsəd ifadə edilmişdir. Axı Cüzeppe Qaribaldi də (1807-1882) İtaliyanın xalq qəhrəmanı, ölkənin milli istiqlaliyyəti və birləşdirilməsi uğrunda fəal mübariz və mücahid idi.

Məhəmməd Əmin Səttar xanla 1909-cu ilin mayında Təbrizdəki ilk görüşlərini xatırlayır. Sərdari-milli o vaxt Şimaldakı qardaşlarına öz gileyini bildirərək demişdi: «Təbriz vaqiələri (hadisələri) bütün aləmi maraqlandırıb buraya bir çox əcnəbi qəzetələrinin müxbirini cəlb elədi. Təəssüf olunur ki, ancaq vaqiələr bitdikdən sonra müsəlman qəzetəsinin müxbirini qəbul etmək şərəfinə nail oluyoruz». Bu «tənqidin haqlı olduğunu təsdiq edən» müəllif sonra yazır ki, «Biz» müsahibənin zəminini dəyişdik».

Bunları oxuyanda fikirləşirsən ki, deyəsən tarix zaman-zaman təkrar olunur. Axı biz də son vaxtlar eyni gileydə idik. Digər maraqlı cəhət Səttar xanın «hətta davanın qızğın vaxtında belə mətanətini qeyb etməyərək» dediyi və indi də aktual səslənən sözlərinin xatırlanmasıdır.

Sərdari-milli demişdi:

- Artıq bizim vəzifəmiz bitdi. Bizimki əsgərlik idi. Vəzifəmiz dəxi köhnəni yıxmaq və dağıtmaq idi, bu yolda əlimizdən gəldiyini elədik. Yıxa bildiyimiz qədər yıxdıq. İndi tikmək zamanı gəlmişdir. Bunun üçün başqa qüvvətlər, yəni alimlər və mütəfəkkirlər lazımdır. Böylə ediciləri hər yerdə olsa tapmalı və onların arxasında durmalı və işləyin deməliyiz!

Məhəmməd Əmin yazır ki, «İkinci dəfə Səttar xan Tehrana gələrkən onunla görüşdük. Mərhuma şahanə bir istiqbal hazırlanmışdı. Demək olar ki, bütün Tehran o gün istiqbala çıxmışdı».

Sonra o, üçüncü, axırıncı görüşü xatırlayır:

- «Ax, bu məlunlar başıma nələr gətirdilər? - deyə Səttar xan intriqaçılara lənətlər oxuyurdu».

«Təbriz qəhrəmanının intriqa qurbanı olduğunu» müəllif çox böyük ürəkağrısı ilə yenidən xatırlayır və belə bir nəticəyə gəlirdi ki, Səttar xanın parlaq bir nəticə əldə edə bilməməsində «yetişdiyi mühit və o mühitin giriftar olduğu siyasi və ictimai şərtlər müqəssirdir».

M.Ə.Rəsulzadə Azərbaycanı bütöv və vahid bir Vətən kimi tanıyan, onun tarixinə və mədəniyyətinə, mənəvi və əxlaqi dəyərlərinə yaxından bələd olan, torpağının hər bir guşəsini şəxsən **gəzən, görən, tanıyan, sevən** nadir bir siyasət adamı idi. Azərbaycan ruhunu, azərbaycançılıq ideyasını yalnız və yalnız belə tarixi şəxsiyyətlər yarada və yaşada bilərlər. «Azərbaycan - coğrafi məfhum, yalnız yer adıdır» - deyənlər, başqa sözlə «könülücandan» ayıranlar, bu torpaqdakı kirayənişinlər ola bilər.

M.Ə.Rəsulzadənin anadan olmasının 109-cu ildönümü ərəfəsində onun 1914-cü ilin noyabrında «İqbal» qəzetində dərc olunmuş «Səttar xan» sərlövhəli məqaləsini oxuculara təqdim edirəm.

SƏTTAR XAN

M.Ə.Rəsulzadə

Teleqraf məşhur Səttar xanın vəfatı xəbərini gətirdi.

Son zamanlar Səttar xan unudulmuşdu. Artıq adı dillərdə dastan deyildi. Fəqət bir vaxt vardı ki, bu ism günün mövzuini təşkil ediyordu. Avropa qəzetələri belə Səttar xan ismini Qaribaldi ilə bərabər tutuyorlardı. İştə, bu vaxtilə İran Qaribaldisi olan zat ölmüşdür.

Səttar xan hər nə qədər cismən, indi ölmüşsə də, Təbriz meydani-hürriyyətində qazandığı şöhrətini məal-təəssüf daha 1910-cu ildə Tehranda vaqe Atabəy parkında öldürmüşdü.

Fəqət bu həzin xatirəni çox da qurdalamayayım.

Üzküru mövtəküm bilxeyr (ölümünün yad olunması xeyirli olan) Səttar xanın xeyrindən də bir çox söz söyləmək olar. Əlbəttə, vaxtilə bütün qəlblərdə böyük bir hüsn təvəccöh qazanmış olan bir zatın hüsn xatiratı dörd-beş sənə zərfində unudulamaz.

Millətin bətnindən yetişmiş olan bu qəhrəman hər nə qədər avamlığı cəhətindən onun-bunun intriqalarına qurban oluyordusa da fitrətən bir çox məziyyətlərə malik idi.

Mərhum Səttar xanla bir çox kərə mülaqi oldum. Fəqət müşar ileyhlə (adı çəkilənlə) vaqe olan görüşmələrimdən bir neçəsi heç bir vaxt yadımdan çıxmaz.

Mərhumla ilk dəfə Təbrizdə görüşdük. Biz Təbrizə varid olan gündən bir gün əvvəl Səttar xanla Bağır xan bu Təbriz ixtilalının iki sərkərdələri - rus qoşunlarının şəhərə gəldikləri nəticəsində özlərinin həbs olunmalarından xof edərək, ehtiyat üçün Osmanlı konsulxanasında bəstə oturmuşlardı.

İştə Səttar xanla da ilk dəfə burada görüşdük.

Xan bizi Qafqasiya müsəlman mətbuatının nümayəndəsi olmaq sifətilə qəbul edərkən olduqca iltifat göstərib zimnən müsəlman mətbuatına qarşı haqlı bir tənqiddə bulundu. Dedi ki, Təbriz vaqiələri bütün aləmi maraqlandırıb. Buraya bir çox əcnəbi qəzetələrinin müxabirini cəlb elədi. Təəssüf olunur ki, an-

caq vəqələr bitdikdən sonra müsəlman qəzetəsinin müxbirini qəbul etmək şərəfinə nail oluyoruz.

Mən bu tənqiddən haqlı olduğunu təsdiq etməklə bərabər mövcud olan səbəblərin bəyanı ilə mənsub olduğum mətbuatı müdafiə etdikdən sonra, müsahibəmizin zəminini dəyişdirmişdim.

Müsahibəmiz əsnasında bir çox sözlər söylədik.

Səttar xan sevdiyi xor-xor qəlyanını çəkə-çəkə (diyorlar ki, Səttar xan qəlyanı çox-çox seviyor, hətta davanın qızğın vaxtında belə mətanətini qeyb etməyərək ondan əl çəkməzmiş) bu sözləri bəyan ediyordu.

- Artıq bizim vəzifəmiz bitdi. Bizimki əsgərlik idi. Vəzifəmiz dəxi köhnəni yıxmaq və dağıtmaq idi. Bu yolda əlimizdən gəldiyini elədik. Yıxa bildiyimiz qədər yıxdıq. İndi tikmək zamanı gəlmişdir. Bunun üçün başqa qüvvətlər, yəni alimlər və mütəfəkkirlər lazımdır. Böylə əmar ediciləri (yəni qurucuları) hər yerdə olsa tapmalı və onların arxasında durmalı və işləyin deməliyiz.

Doğrusu, xanın bu sözləri məndə böyük bir təsir oyatmışdı. Bu təəssüratım o zaman «Tərəqqi» sütunlarına da keçmişdi.

İkinci dəfə Səttar xan Tehrana gələrkən onunla görüşdük. Mərhuma şahanə, bir istiqbal hazırlanmışdı. Demək olar ki, bütün Tehran o gün istiqbala çıxmış idi. Şahabada qədər yollarda çadırlar qurulmuş, hər əsnaf və hər təbəqə özünə görə xeymələr, çadırlar dikəltmişdi ki, qəhrəmani-məşrutiyyəti orada istiqbal etsin.

Üçüncü xatiratım olduqca həzindir.

Səttar xanın öz səyi və himmətilə vüruduna çalışmış olduğu məşrutiyyət hökuməti artıq nüfuzunu payidar etmək istəmişdi. Binaən-illeyh (o səbəbə) əllərində silah olaraq küçələri gəzən mücahidlərin tərksilah etdirilməsinə qərar vermişdi. Gözlənilməli idi ki, bu qərarı hər kəsdən əvvəl Səttar xan qəbul elәsin. Heyhat, xan Tehran intriqaçılarının damində (tələsində) idi. Hökumətin bu məşru (qanuni) tələbindən boyun qaçırtdı.

Mücahidlər Atabəyin parkına doldular. Hökumətə qarşı

durdular. Nəticə parkın hücumla alınması və Səttar xanın da ayağından yaralanması kimi fəci (faciəli) bir halda müncər oldu. Yaralandığından sonra özü ilə görüşənlərə Səttar xan özünün bu səhvindən mütəəssir olduğunu söyləyirdi.

- Ax, bu mələnlar başıma nələr gətirdilər? - deyə intriqaçılara lənətlər oxuyurdu. Təbriz qəhrəmanının intriqa qurbanı olduğunu hökumət də qəbul eləmiş, binaən-illeyh onun şikəst olmasına qarşı bəyani-təəssüb izhar elədiyi kimi, yarasının müalicəsini də öz öhdəsinə almışdı.

Park vəqəsindən sonra Səttar xan artıq bir guşeyi-inziva (kənar bir yerə çəkilərək) ixtiyar edib, o surətlə yaşamağa və Təbrizdə çıxardığı böyük ada iktifa edərək (kifayətlənərək), adi bir həyat keçirməyə razı olmuşdu.

Bu kərə gələn teleqraflar artıq bu adi həyatın da bitdiyini bildiriyorlar.

Səttar xan əvvəlki şöhrətilə mütənasib parlaq bir nəticə əldə edib, müvəffəq bilməram olmadısa, bunda biz bilən, özündən ziyadə yetişdiyi mühit və o mühitin giriftar olduğu siyasi və ictimai şərtlər müqəssirdir.

İran məşrutiyyəti arzusuna nail olub, təkamül edə bilmədiyi kimi, onun qəhrəmanları da öylə bir fəci bir xatimə yə məhkum idilər.

Fəqət bu ədəmi-müvəffəqiyyətlər tamamilə ümidsizliyi tovlid etməyib (səbəb olmayıb) vaxtilə bu zavallı qəhrəmanların məhrum olmadıqları alicənabanə xasiyyətlər iranlıların milli ümidlərini az təqviyə (qüvvətləndirmə) etməyəcəkdir.

Bu nöqteyi-nəzərdən Səttar xan İran tarixi-təcəddüdünün unudulmaz bir simasıdır.

Allah rəhmət eyləyə, Amin!

M. Ə. Rəsulzadə.
«İqbal» qəzeti, 10 noyabr 1914.

«Xalq qəzeti» 27 yanvar 1993

İPƏK YOLU NİYƏ OD TUTUB YANIR?

İngiltərənin nüfuzlu «Ekonomist» jurnalında «İpək yolu od tutub yanır» sərlövhəli bir məqalə dərc olunmuşdur. Orta Asiya cümhuriyyətləri və bütünlüklə keçmiş sovetlər birliyinin müstəqillik qazanmış bu regionunda mövcud iqtisadi-siyasi vəziyyətin təhlilinə həsr olunmuş bu yazıda diqqət veriləsi cəhətlər çoxdur. Lakin narahatlıq doğuran buradakı dəhşətli proqnozdur. Elə bil müəllifi və jurnalın arxasında duranları müstəqillik yoluna qədəm qoymuş Türk-İslam Xalqlarının gələcək dirçəlişi çox bərk qorxuzur.

Hamıya məlumdur ki, neçə əsr müstəmləkəçilik zülmünə məruz qalmış bu cümhuriyyətlərin problemləri çoxdur. Onların həlli yolu da asan olmayacaq. Dünyanın və bütövlükdə xalqların əmin-amanlığı qayğısını çəkənlərin insaniyyət borcu budur ki, bu gün bərkə düşənlərə öz kömək əlini uzatsınlar, yardım etsinlər. Yazıda isə məhz bu mühüm məsələyə toxunulmur. Bunun əvəzinə «su çatışmayacaq», «etnik vuruşmalar», «sərhədləri dəyişdirmək hərəkatı başlayacaq», «islam fundamentalizmi güclənəcək», «2010-cu ilədək əhali iki dəfə artacaq» və bu kimi qızışdırıcı inamsızlıq yaradan fikirlərə geniş yer verilir. Əgər son vaxtlar islam dünyasına qarşı çevrilmiş geniş təxribat kampaniyası baxımından yanaşsaq belə yazıların təsadüf nəticəsi olmadığı aydınlaşar. Acı bir həqiqətdir ki, müsəlman dünyasının indiki halı fənadır. Dünyanın siyasi mənzərəsinə və siyasi xəritəsinə baxırsan, statistik məlumatlarla tanış olursan, elə bil hər şey yerindədir. Fikir verin, planetimizin sakinlərindən hər 5 nəfərdən biri müsəlmandır. Yəni müsəlman dininə inanc gətirənlərin sayı bir milyardı keçmişdir. BMT üzvü olan dövlətlərin az qala yarısını müsəlman ölkələri təşkil edir. Dünyanın təbii sərvətlərinin, xüsusilə neft və digər enerji daşıyıcılarının çox böyük bir qismi bu ölkələrin ərazisindədir. Amma əslində geridə qalan, qırılan, soyulan və söyülən, qapazaltı edilən, acından ölənlər müsəlman aləmindədir. Bir baxın, 40 ildən artıqdır ki, Fələstin xalqının böyük qismi doğma yurd-yuvasından didərgin

salınmışdır. BMT-nin neçə-neçə qətnamə və qərarını saya salan yoxdur. Vaxtilə Yaxın Şərqin Avropası adlandırılan Livanın başına nə oyun gətirmədilər? İndi də ölkə parçalanıb. Somalidə xalq acından qırılır. Əfqanıstan yerlə-yeksan edilmişdir, sovet şeytanının üflədiyi ocaq indi də yanmaqdadır. Hindistanda müsəlman məbədlərini dağıdıb, dini-etnik vuruşma törədirlər. İraq ABŞ-ın və onun Qərbi Avropa müttəfiqlərinin, həmçinin Moskvanın razılığı ilə aramsız hücumlara məruz qalır. Ölkəni parçalamaq, onun iqtisadi və hərbi gücünü heçə endirmək istəyirlər. Corc Buş prezident kürsüsünü tərk etdiyi axırıncı günlərdə belə İraqda qan tökməkdən çəkinmədi. Avropanın, necə deyərlər, lap göbəyində Bosniya və Hersoqovinada müsəlmanlara qarşı misli görünməmiş genosid həyata keçirilir. Artıq 200 mindən çox günahsız insan qətlə yetirilmiş, milyonlarcası isə ev-eşiyini qoyub qaçqın və didərgin düşmüşdür. Demokratiya və insan hüquqlarından dəm vuranlar bu fəlakət və faciəni görmürlərmi? Ümumi sözbazlıqla, işə keçməyən qətnamə və müraciətlərlə, humanitar yardımla genosidin qarşısı alınarmı?

Eyni vəziyyəti biz keçmiş SSRİ ərazisində də müşahidə edirik. Gözümçıxdıya salınanlar, təcavüzə məruz qalanlar, qırılan və təqib olunanlar kimlərdir? Tacikistanda törədilmiş qardaş qırğınında ölən və yaralananların sayı 100 mini keçmişdir. Özbəkistanda Mesxet türklərini, Qafqazda abxazları, çeçen və inquşları, nəhayət, elə bizim özümüzü qanlı vuruşlara cəlb edənlər islam düşmənləri deyillərmi?

Bütün bu mənzərə adamda istər-istəməz belə bir təsəvvür yaradır ki, deyəsən, bu əməliyyatlar, bu hiyleyi-şərlər bir mərkəzdən planlaşdırılır və həyata keçirilir. Əvvəlki soyuq müharibə müsəlman dünyası üçün isti müharibə ilə əvəz olunur.

Bu yaxınlarda xarici icmalçılardan biri belə bir mülahizə söylədi ki, hazırkı dünyada siyasi-iqtisadi rəqabət və qarşıdurmanın əsas məsələsi enerji qaynaqlarına nəzarət problemidir. Elmi-texniki inqilab dövrünün gələcəyi bundan asılıdır. Əmək-kapital, kapitalizmlə sosializm rəqabəti arxada qalmışdır. Enerji qaynaqlarının böyük qismi isə müsəlman ölkələrindədir.

«Parçala və hökm et!» siyasəti deyəsən, gündəlikdə qalmaqdadır.

Müsəlman dünyası sözün geniş mənasında ayılmır ki, ayılmır. Onlar bir-birinin üstünə salınır, var-yoxları müxtəlif yollarla talan edilir. Cəmisi 600 min əhalisi olan Küveyt yaxın 10 ildə silahlanmaya 18 milyard dollar vəsait sərf etməyi planlaşdırır. Səudiyyə Ərəbistanı silah almağa az qala 20-30 milyard xərcləmək məcburiyyəti qarşısında qalmışdır. Dünyanın yeganə ən iri və güclü dövləti statusuna yiyələnmiş ABŞ indi dünya silah alverinin 56 faizini əlində cəmləşdirib. Halbuki bir neçə il bundan əvvəl bu 38 faiz idi. Neft və xammal daşıyıb əvəzinə silah vermək, daha doğrusu, nefti silaha dəyişmək böyük bir bəlaya çevrilmişdir.

«Ekonomist» yazır ki, «İpək yolu od tutub yanır». Məncə, bu fikri tamamlamaq vacibdir. Deməlidirlər ki, «Müsəlman aləminə od vurub yandırırıq».

Vaxtilə «Molla Nəsrəddin» jurnalı «müasirləşmək» şüarını «qərbləşmək, qərbi təqlid» kimi başa düşənləri nəzərdə tutaraq yazırdı ki, «müsəlmanların bir parası günün çıxmağını günbatan tərəfdən istəməkdədirlər». Gəlin, dünyagörmüş Molla Nəsrəddinin bu uzaqgörən fikrini də yaddan çıxarmayaq, inkişaf və tərəqqinin milli-təbii yolunu axtaraq. Bu təcrid olunmaq, faydalanmamaq deyil. Əksinə, tarixi-milli zəmində boy atmaq, yüksəlməkdir. Yaponiya və Asiyanın bir sıra ölkələrinin təcrübəsi yaxşı nümunə deyilmi?

«Xalq qəzeti» 22 yanvar 1993

DOSTA TƏŞƏKKÜR, ZİNDANDAN QAÇIŞ

M.Ə.Rəsulzadə və İ.V.Stalin

70 il bundan əvvəl - 1923-cü ilin yanvarında İstanbulda Azərbaycan dilində vətəndən baş götürüb qaçmağa məcbur olmuş milli istiqlal mücahidlərinin nəşr etdikləri «Yeni Qafqazya» məcmuəsinin 5-ci nömrəsində Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcısı və tanınmış lideri M.Ə.Rəsulzadənin «Stalinə məktub»u dərc olunmuşdur. Məktub rusca yazılmış, Moskvaya göndərilmiş və həmin vaxtda da adı çəkilən məcmuədə açıqlanmışdı.

Böyük tarixi əhəmiyyət kəsb edən, müəllifin uzaqgörənliyinə şahidlik edən bu qiymətli yadigarı oxuculara təqdim edirəm.

Dəqiq və səhih müəyyən edilmişdir ki, İ.V.Stalin Bakıya ilk dəfə 1904-cü ilin iyununda gəlmişdir. Bu vaxt onun 25 yaşı vardı, gürcü sosial-demokrat hərəkatının üzdə olan nümayəndələrindən biri idi. 20 yaşlı M.Ə.Rəsulzadə isə bu vaxt müsəlmanlar arasında maarifçilik, sosial ədalət və milli dirçəliş fikirləri yayan və bu sahədə ilk əməli-təşkilatı iş görən qabaqcıl gənclərdən idi. RSDFP Bakı təşkilatı onu və həmməsləklərini öz tərəflərinə çəkmək üçün bu gənclər arasına sızmağa çalışırdı.

M.Ə.Rəsulzadənin öz sözləri ilə desək, onları «öz hesablarına qazanmaq istəyirdilər». Məhəmməd Əmin yazır ki, «elə bu vaxtlarda çarlıq əleyhdarı bəzi şəxslərdən Bakıda bolşevik fraksiyasını idarə edən Koba adında enerjili birisinin olduğunu eşitmişdim». Sonra: «Bakı civarında olan Balaxanı petrol ocaqları məhəllində bir fabrikanın işçilərinə məxsus evlərdən birində çox bəsit bir otaqda qarşımıza zəif, üzgün və ortadan bir az uzun boylu birisi çıxdı. Bəsit qiyafəli olan bu zatın çiçək pozuğu ilə çopurlanmış üzünə diqqət etdim, ciddi bir tövrlə gülümsündü. Bizi təbii və sərbəst bir əda ilə qarşıladı. Gürcü aksenti qüvvətlə hiss olunan bir rusca danışırdı. Adi xoş-beşdən sonra söz siyasi və sosial məsələlərə keçdi».

M.Ə.Rəsulzadə 1954-cü ildə «Dünya» qəzetəsində dərc olunmuş «Stalinlə ixtilal xatirələri»ndə qeyd edir ki, «Kobanı

çox seyrək olaraq arada-sırada görürdüm. Dürlü konspirasiya şərtləri daxilində nadir təsadüflər bizi qarşılaşdırırdı». M.Ə.Rəsulzadə Stalinlə sonrakı görüşünü belə xatırladır: «Günün birində Bakı civarında neftayırma zavodlarının bulunduğu Qaraşəhər deyilən bir məhəllədə idik. Gecənin gec saatlarında bir dülgər atelyesində çarlıq əleyhdarı müxtəlif inqilab təşkilatlarına mənsub delegelərdən ibarət bir konfransda idik. Günün taktikasına aid olan müştərək məsələlər müzakirə edilməkdə idi... Bolşevik görüşünü Koba, yəni Stalin, menşevik görüşünü isə indi Sovetlərin millətlərarası sözçülüyünü yapan Andrey Vışinski müdafiə edirdi.

O zaman azərbaycanca intişar edən çarlıq əleyhdarı milli müxalifət orqanı «Təkamül» qəzetəsini bu toplantıda mən təmsil edirdim. Müzakirələr rusca idi. Rus olmayan bir çoxları kimi mənim ruscam da çox mükəmməl sayılmazdı. Üslub və qramer xətası da yapmamış deyildim. Müzakirədə iştirak ilə təmsil etdiyim milli müxalifət cərəyanının anladığı taktika icabı olaraq baltanı çarlığın da kökünə vuran bolşevik görüşünə üstünlük verən bir ifadəm vardı. Bunu həzm etməyən o zamankı menşevik Vışinski yapdığım yanlışlıqlara eyhamla:

- Yoldaş, ədəbi deyil!.. - deyə üslubuma taxıldı (sataşdı). Koba isə dərhal:

- Haydı, yoldaş Vışinski, bir çıxıb türkcə, azərbaycanca danış, baxaq kim daha ədəbi danışır? - deyə ona qarşı çıxdı.

Yeri gəlmişkən oxuculara xatırladım ki, «Təkamül» qəzetinin 1907-ci il 11 fevral tarixli 8-ci nömrəsində M.Ə.Rəsulzadə «Hər yandan» sərlövhəli yazısında II Dövlət dumasının deputatı Z.Zeynalova müraciətlə yazırdı: «Zeynalova biz indidən deyirik ki, baltavi itilə. Necə ki, fikrində var, belə lap dibindən vurub hökumət ağacını yıx! Onu yəqin özün bilirsən ki, bu ağac yıxılsa kimin başına düşəcəkdir...».

Əgər nəzərə alsaq ki, «Təkamül» qəzeti 1906-cı il dekabrın 16-dan 1907-ci il martın 25-nədək nəşr olunub, deməli, M.Ə.Rəsulzadə ilə İ.V.Stalinin söhbət gedən növbəti görüşü bu zaman çərçivəsində olmuşdur. Digər tərəfdən bu görüşlər əsna-

sında Stalin qarşısında Qafqazda çoxluq təşkil edən azərbaycanlılar və bütövlükdə müsəlmanlar içərisindən savadlı, əqidəli və məsləkli bir siyasi partiya xadiminin yetişdiyini görürdü, qiymətləndirirdi.

M. Ə. Rəsulzadə 1908-ci ildə Bakıda İ. V. Stalinlə olan görüşünü isə belə xatırlayır: «1908-ci ildə Türkiyədə gənc türklər inqilabı baş vermişdi. Hürriyyət sevən dərnəklərdə, xüsusən Qafqaz türk və müsəlmanlarının fikir və siyasi hərəkat mərkəzi olan Bakıda bu hadisə günün mövzusu idi. Bir təsadüflə Kobaya rast gəldim.

- Osmanlı inqilabı haqqında bizim dərgiyə bir məqalə yazsanız, - dedi. Məqaləni yazdım. «Qudok» redaksiyasına gətirdim!.. Gizli bir redaksiya heyəti vardı ki, buraya Koba ilə Timofeyev adında partiyalı, bir münəvvər daxil idi. Heyət bir çəkməçi dükanının pərdə ilə ayrılan arxa tərəfində toplanırdı». M.Ə.Rəsulzadə xatırlayır ki, məqalə üstündə Timofeyevlə aramızda fikir müxtəlifliyi oldu. Koba müdaxilə etdi: «Rəsulzadənin məqaləsi yerindədir, orada yürüdülən mühakimə çox haqlıdır, məqalə basılmalıdır.

Nəhayət, məqalə basıldı».

Kobanın (Stalinin) xahişi ilə M.Ə.Rəsulzadənin «Gənc türklərin qələbəsi haqqında» yazdığı məqalə onun «Stalinlə ixtilal xatirələri» əsərində göstərildiyi kimi «Qudok» qəzetində deyil, «Qudok» və «Bakinski raboçi» qəzetlərinin əvəzinə 1909-cu ilin fevralında nəşrə başlayan və cəmisi 2 nömrəsi çıxan «Volia» jurnalının 1-ci nömrəsində dərc olunmuşdur. Məqalə «Ə. N.» (Əmin) imzası ilə çıxmışdır. «Qudok»da bu mövzuda yazı yoxdur.

1908-ci il martın 25-də Stalin Bakıda həbs olunur, Bayıl həbsxanasına salınır. Mart-sentyabr ayında onu qaçırtmaq səyləri, təşəbbüsləri baş tutmur. Sentyabrın axırlarında Stalini Voloqda quberniyasının Solviçeqodsk şəhərinə sürgün etmək qərara alınır. Bu vaxt partiya kassasında soyuq Sibirə göndəriləcək Stalinə isti paltar almaq, yol xərcliyi vermək və qaçırmaq üçün pul yox idi. Dustaqların göndərilməsinə iki gün qalmışdı.

Bu xəbəri M.Ə.Rəsulzadə də bilir. İnqilabçılar M.Ə.Rəsulzadənin başçılıq etdiyi «Nicat» cəmiyyətinin iştirakı ilə «Nüfuzu olan məşhur xanım və bəylərdən, tanınmış aktyor və aktrisalardan mürəkkəb bir dəstə ilə bağ gəzintisi» düzəldirlər, özü də «Bakının məşhur vali bağçasında». Məhəmməd Əmin yazır ki, «Gəzintinin ilk günü başağrılı oldu. Yaxşı gəlir əldə edildi». «Bizim hissəmizə düşəcək gəlir hesabına yoldaş Kobanın (yəni Stalinin) qaçırılmasını finansə etmək üzrə 200 rublə» istəmişdilər. Gəzintinin üçüncü günü pulu apararkən faytonların qabağını əvvəlcədən hazırlanmış silahlı adamlar kəsirlər. Pulu alıb aparırlar. Nəhayət, M.Ə.Rəsulzadə ilə İ.V.Stalin arasında növbəti şəxsi görüş 1920-ci ilin noyabrın əvvəllərində Bakıda olmuşdur.

Bu vaxt hər iki siyasi xadim dünyagörüşləri, siyasi əqidələri və tutduqları mövqe etibarilə qəti düşmən cəbhələrdə dururdular. Stalin hakim kommunist partiyasının tanınmış xadimlərindən biri, Xalq Millətlər komissarı idi. M.Ə.Rəsulzadə artıq devrilmiş Azərbaycan Xalq Cümhuriyyətinin və «Müsavat» partiyasının lideri, həbsxana dustağı idi, onu ölüm gözləyirdi.

1920-ci il noyabrın 6-da Stalin Bakı Sovetinin təntənəli iclasında çıxış etdi. O vaxt respublika hökumətinə başçılıq edən N.Nərimanov M.Ə.Rəsulzadənin həbs edildiyini Stalinə xəbər vermişdi. Stalin həbsxanaya getmiş, Məhəmməd Əminlə görüşmüş və onu özü ilə bərabər Moskvaya aparmışdı.

M.Ə.Rəsulzadə xatirələrində İ.V.Stalini «keçmiş dost» adlandırır, dostluğu unutmayaraq, onu Bakı zindanından çıxardığını minnətdarlıq hissi ilə yada salır, 1920-1922-ci illərdə Moskvada olduğu iki il ərzində bu dostluqdan faydalandığını qeyd edir və bu yaxşılıqları heç zaman unutmayacağını bildirir.

M.Ə.Rəsulzadə və İ.V.Stalin arasındakı münasibətləri dərin şəkildə bilmək üçün M.Ə.Rəsulzadənin «Stalinə məktub»unu oxuculara təqdim edirəm.

STALİNƏ MƏKTUB

«Möhtərəm Stalin,

Qurtuluşum dostlarım üzərində xoş bir heyrət təsiri buraxmışdır. Onlar, təbii ki, haqlıdırlar. Fəhlələrdən bir çoxu müsavatçı olduqları üçün güllələnmədilərmi? Bu saatlar daxilində adı çəkilən partiyanın rəisi olmaq hesabı ilə mənim qurtuluşum bir növ möcüzə imiş. Vaqiənin tərifi, bu təbirə layiqdirsə, insaf tələb edir. Qeyd edim ki, bu möcüzənin səbəbi-kəraməti Sizsiniz. Çünki keçmiş dostluğu unutmayaraq məni Bakı zindanından çıxarmağı lüzum gördünüz.

Moskvada olduğum iki il əsnasında dostluğumuzdan faydalandım. Bəzi məhrumiyyətlərə məruz qaldımsa da bunlar hər kəsin, ümumiyyətlə, yükləndiyi məhrumiyyətlərdən ibarət olub, mənə aid bir xüsusiyyətə malik deyildir. Əksinə, bəzən elə olurdu ki, bir sıra imtiyazlardan belə faydalanırdım. Bunun üçün Sizə təşəkkür edirəm.

Moskvadan ayrılarkən Sizinlə görüşə bilmədim. Çünki Rusiyanı gizlincə tərk etməyə qərar vermişdim. Bu hərəkətimdə Sizə qarşı hörmətsizlik görməyəcəyinizə ümid edirəm. Səfər üçün icazə istəmədim. İşin mənfi tərəfini mülahizə etdim. Bəlkə siz icazə verməzdiniz, o zaman hər nə cür olsa da Rusiyanı tərk etmək haqqındakı qərarımdan tamamilə vaz keçmək lazım gəlirdi. Halbuki bu, mənim üçün mümkün olan iş deyildi. Çünki bu özümü rədd etmək və əbədi olaraq tam bir fəaliyyətsizliyə məhkum etmək demək idi. Eyni zamanda bu, Rusiyada cərəyan edən hadisələrin və hüsulə gəlməkdə olan halın dilsiz bir müşahidi qalmaq olardı.

Hazırda Rusiyada hüsulə gələn hadisələr isə bundan yüz il əvvəl cərəyan edən hadisələrdən başqa bir şey deyildir. Yüz il əvvəl olduğu kimi, indi də Rusiya müstəmləkələri bir yerə toplanmaqdadır.

Taleyin hökmü ilə hakimiyyəti ələ keçirmiş kommunist firqəsi ideologiyanın bütün cəbhələrində geri çəkilə-çəkilə keçmiş rus imperiyasının bərpası fikrinə dayandı. Bu fikir isə firqənin

ideoloji şüarlarından ziyadə hakim olduğu mühitin cahangiranə təmayüllərindən doğmuş bir sıra mənafe və hədəfə malikdir. Bir hökumətin rəsmi ideologiyası zadəgan şovinizmindən fəhlə kosmopolitizminə təbəddül edərsə (dəyişərsə), bundan məsələ çox da dəyişməz və ən sonunda geridə qalmış və az inkişaf etmiş millətlərin milliyyətlərindən məhrum olmasına (demasionalizə olması), digər bir milliyyətə təmsilləri (assimilizə olmaları) kimi bir nəticəyə səbəb olur. Yerli fəhlə (proletariat) sinfinə istinad iddiası ilə əldə silah Qafqaz və Türküstan kimi ucqar vilayətlərdə əmələ gəlmiş olan demokratik siyasi təşəkkülləri işğal etdiyiniz zaman ümumiyyətlə, sabiq imperiyanın çarizm siyasətilə ruslaşdırılmış müstəmləkə şəhərlərindən rus fəhləsindən ibarət ən kiçik azlığın arzusuna uyğun olaraq böyük bir çoxluq təşkil edən yerli əhalinin ən qanuni bir haqqını kobud bir surətdə çeynəmiş olursunuz. Fəhlənin Azərbaycan və ya Türküstanda diktatura elan etməsinin Moskva diktaturasından başqa bir şey olmadığı günəş kimi aşkardır.

Əski Petroqrad dövrünün siyasəti də bundan başqa bir şey deyildir. Ucqar vilayətlərin muxtariyyət şəklindəki zahiri görünüşü də ciddi bir şey ifadə etməz. Azərbaycan xanlıqlarının ilk Qafqaz «namesnikləri» (canişinləri) zamanındakı istiqlalları indiki Qafqaz cümhuriyyətlərinin «Zakkraykom» baş katibləri zamanındakı istiqlallarından heç də az deyildi. Ortadakı fərq olsa-olsa, indiki cümhuriyyətlərin dağılması prosesi o zamankı xanlıqların dağılma prosesindən daha artıq olmasından ibarətdir.

Bolşevik partiyasının mərkəziyyətçi olduğunu bildiyimdən bu partiyanın növü özünəməxsus bir imperialist olduğunu sezmiş və zəruri bir dəyişikliyə keçə biləcəyini daha əvvəl söyləmişdim. Qeyri-ixtiyari müşahidəçi durumunda olduğumdan bu dəyişmə gözlərimin önündə baş verirdi. Moskvada olduğum iki il ərzində mən Şərq millətlərinin və xüsusilə türk ellərinin nicatının yalnız özlərində, özünü bir millət kimi tanımalarından ibarət olduğuna qəti surətdə inandım. Bunun üçün sisteminizdə millətin özünə bəslədiyi bu inamın kökündən yox edildiyini və

milli anlamının milli inqilab anlamına təbdil edildiyinə soyuqqanlı baxa bilmirdim.

Sizin istədiyiniz bu mübadilə baş tuta bilməz. Şərq millətləri kommunist həyatı ilə deyil, öz milli həyatları ilə yaşamaq istəyirlər.

Bu məqsədlə də onlar özlərini əsir edən qüvvələrə qarşı mübarizə aparırlar və bu mübarizələrində onlara yardım edə biləcək müttəfiqlər axtarırlar. Bir zaman onlar Vilsonun prinsiplərinə inandılar. Sizin şüarlarınız isə onlara daha cəlbedici göründü. Fəqət, heyhat, Vilson prinsipləri Versal, Trianon*(Trianon-Versal parkında saray - 1920-ci ildə bu sarayda sülh müqaviləsi bağlanmışdı) və Sevr**(Sevr - Fransada şəhər) müqavilələrinə müncər oldusa, Sizin şüarlarınız da Ukrayna, Türküstan və Qafqazın yenidən istilası ilə nəticələndi. Buna görə də vətənim Azərbaycanın Sizin işğal və əsarətinizə qarşı mübarizəyə qəhrəman Türkiyənin Antantaya qarşı yürütdüyü mücadilə qədər bir haqqı vardır.

Öz siyasi əqidəmə sadiq qalmaqla bərabər, mən eyni zamanda Sizin də xeyirxahınız qalır, şəxsinizə qarşı ehtiram hissi bəsləyirəm. Nəticədə də mənə qarşı göstərdiyiniz əlaqəni heç bir zaman unutmayacağıma inanmanızı xahiş ilə Sizə yaxşı bir xidmət göstərmək fürsətini cani-dildən təmənni etdiyimi ərz edirəm.

Ehtirami-tamla:

Rəsulzadə Məhəmməd Əmin

«Ülfət» qəz. 5 mart 1993

İ. V. STALİN. DƏFN MƏRASİMİNDƏN KİÇİK BİR XATİRƏ

1953-cü il martın 5-də Stalin öldü. 40 il əvvəl bugünkü gün yer üzünün üçdə biri donub qalmışdı. Bu, axırıncı mogikan idimi?

1953-cü il martın ilk günlərində Stalinin xəstəliyi xəbəri ildırım sürətilə bütün planetə yayıldı. Moskva radiosu müntəzəm olaraq tanınmış həkimlərin imzası ilə tibb bülletenləri elan edirdi. Bu vaxt mən Moskva Dövlət Universitetinin jurnalistika fakültəsində aspirant idim. Universitet və fakültənin yerləşdiyi bina Kremllə üz-üzə, qabaq-qabağa idi. Martın 5-də günortadan sonra Stalinin ölümü xəbəri elan edildi. 4 mindən artıq tələbə və aspirantın yaşadığı Yauza çayının kənarında Stromınka küçəsində yerləşən qədim dördmərtəbəli əsgər kazarmasında sakitlik, matəm ab-havası hökm sürürdü. Qeyd edim ki, bu yataqxanada 100 nəfərə yaxın azərbaycanlı tələbə və aspirant, həmçinin 4-5 nəfər doktorant həmyerlimiz də yaşayırdı. Sovet tələbələri ilə yataqxanadakı xarici tələbələrin hadisəyə münasibəti əlbəttə ki, eyni səviyyədə deyildi. Onların özlərinin də stalinləri var idi.

Martın 7-də səhər aspirant, filosof həmyerlilərimiz Məmməd Qəniyev və Eldar Mikayılovla (rəhmətə gedib) Universitetə yollandıq. Yolüstü qızıl meydana dəydik, orda qızğın iş gedirdi. Sözləşdik ki, İttifaqlar Evinin qabağında görüşək. Saat birdə elə Moskva mehmanxanasının qabağına çatmışdıq ki, gördük əsgərlər hər tərəfdən gəliş-gedişi kəsməyə başlayırlar. Cəld hərəkət edib özümüzü İttifaqlar evinin arxa qapısının qabağına yetirdik. Qısa müddətdə çox böyük bir izdiham küçə boyu toplaşmağa başladı. Azı 4 saat ayaq üstə durduq. Tabutu gətirdilər. Bütün Moskva bu binaya axışırdı. Əvvəlcə rəsmi adamları, diplomatik nümayəndələri, generalları içəri buraxdılar, rəiyyətlə içəri buraxılan ilk dəstədə biz də vardıq. Pilləkənlərdən tutmuş ta çıxış qapılarına qədər hər iki tərəfdən bir neçə sıra zabit cərgəsi durmuşdu. Tabut 5-6 sıra ilə keçən camaatdan 4-5 metr

aralı idi. Biz keçəndə fəxri qaravulda Malenkov, Beriya, Xruşşov, Molotov, Bulqanin və başqaları durmuşdular. Tabutun qarşısına çatanda adamların bir qismi dizi üstə yerə çöküb hönkürtü ilə ağlaya-ağlaya sürünürdülər. Zabitlər onları qollarından qaldırıb zor ilə aparırdılar. Adamlara elə gəlirdi ki, həyat qurtarır, günəş sönür. Axşam və səhəri Moskvanın mərkəzi və onun geniş əhatəsində hərəkət etmək mümkün deyildi. Həyat dayanmışdı. Biz yalnız ikinci gün axşam yataqxanaya qayıda bildik. Sonralar məlum oldu ki, İttifaqlar Evinə düşmək, rəhbərlə vidalaşmaq istəyənlərdən 100-dən çox adam sıxılıb və ayaqlar altında qalıb məhv olmuşdu. Bu fanatizm və şəxsiyyətə pərəstişin son könüllü qurbanları idi.

Tarix bir hökmü ilahidir - demişlər. Onu yalnız ehtiyat və elmi əsaslarla arayıb-araşdırmaq, müəmmalı həqiqət və hadisələri bu yolla gün işığına çıxartmaq olar. Tarixdən öyrənmək, ibrət dərsi götürmək olar. Amma tarixi imtahana çəkmək, ondan riyakar siyasi məqsədlər üçün istifadə etmək, hətta tarix üzərində mühakimə qurmaq yolverilməzdir.

Başa çatmaqda olan XX əsr bəşəri kəşfləri, elmi-texniki nailiyyətləri, əsrarəngiz möcüzələri, ümumbəşəri dəhşətli faciələri, fenomen şəxsiyyətləri ilə tarixə qovuşmaq üzrədir. Onun müəyyən hissəsi bizim nəslin tarixidir, gözümüzün önündə cərəyan edən hadisələrdir, keçən ömrümüzdür. Yaxşı da olsa, pis də olsa belədir. Stalin fenomeni tariximizin bir hissəsidir. 40 il bundan əvvəl, 1953-cü il martın 9-da Stalinin dəfn mərasimi ilə əlaqədar dərc olunmuş nekroloqlardan birində deyilirdi: «Fantastik adamın fantastik karyerası bitdi; 73 il əvvəl Qoridə fağır bir pinəçi ailəsində doğulmuş oğlan Kremldə dünyanın ən böyük imperatorluğunun böyük diktatoru olaraq öldü».

İ.V.Stalini şəxsən tanıyan, onun köməyi ilə ölümün pəncəsindən xilas olmuş M.Ə.Rəsulzadə bu münasibətlə yazmışdı: «Dövrümüzün tarixinin bu ən böyük müstəbidi haqqında cürbəcür hökmlər verəcək, onun allahlaşdırılan şəxsiyyətini müxtəlif mövqelərdən təhlil edəcəklər, 30 ilə yaxın bir müddətdə Sovet imperatorluğundakı 200 milyon insanın müqəddəratına hökm

edən, yer kürəsinin üçdə birini nəzarət altına almış, bütün dinləri inkar edən, kommunist dininin bir peyğəmbəri sayılan, totalitarlar totalitarı bir rejimin ən böyük nümayəndəsi Stalini, onun necə bir demaqoq, bir diplomat, bir marşal, bir generallissimus, fironlara, neronlara, çingizlərə rəhmət oxutduran bir tiran, bir qızıl çar olduğunu azad millətlər cəmiyyətində bilməyən yoxdur».

«Aydınlıq» qəz. 5 mart 1993

1875

«ƏKİNÇİ» - ALLAH GÖSTƏRMƏSİN!

Dünyada xəlq olunan millətlər öz lisanlarına (dillərinə) ana lisanı deyib ol lisan ilə xudavəndi-aləmə ibadət edib insanlıq edirlər. Bunun üçün bir lisan bir millətin olanda və lisanın dəxi əsası millət olduğundan (hər) bir kişiyə vacibdir ki, daima onun irəli getməsinə canını fəda etsin və millətin xidmətində bulunmayan kişiyə heç kəs yaxşı deməyəcəkdir.

Əgər xalq içində eşidilə ki, filan kişi öz anasını yaxşı saxlamayıb, ona çörək və libas vermir, ol vaxtda hər kəs ol kişiyə yaman sözlər deyib yoldan keçərkən rastına gəlsə, bu - anasını xoşnud (xoşhal) eləməyən kişidir - deyibən Allahın salamını dəxi ona verməkliyi çox görəcəkdir.

Bir millət ki, bu qədər övladlar dünyaya gətirmişdir, neçə-neçə cəhətlərcə onlardan borclar istəyəcəkdir. Və hər kəs münkər olmayıb (rədd etməyib) mədyundur (borcludur) öz xidmətini əda (ifa) eləməyə.

Qədim tarixlərdən məlumdur ki, çox millətlər həmişə irəli getməkdə idilər. Amma şimdi hamıdan geridə qalıblar. Və ol millətlər ki, geridə idilər, şimdi qabaqda gedən və getməkdə olandırlar. Əcəba bunun səbəbi nədir? Özgə bir səbəb yoxdur, ancaq qədim zamanda əfkar sahibi kişilər həmişə millətin irəli getməyi üçün ağıl tökür idilər. Kəndi əhzanına (öz kədərlərinə) dəxi öz əfkarından bəxş edirdilər, amma şimdi zikr olunan əfka-

rı*(Transliterasiyada yəqin ki, mətbəə xətası olaraq «əfkar» - inkar kimi getmişdir. «Əkinçi», 1979, s. 90) yaddan çıxarıb ancaq pul qazanmağa, zəngin olmayan yaxşı geyməyə və yeməyə çalışırlar. Və özləri elm və ədəb kəsb etmədiklərindən başqa övladlarını dəxi bu lütfi-rəbbanidən (Allah kərəmindən) geri buraxırlar. Və bir kişi ona yaxşılıq olmaq əfkarı ilə söyləsə ki, övladınızı nə üçün məktəbxanaya göndərmirsiniz, cavab verir ki, oğlum çox oxuyub mollamı olacaqdır? Öz çulunu sudan çıxarmağı bilir, şimdi varsın pul qazansın.

Şimdi bir sual: Əgər bir kişi elm, ədəb, tərbiyə ilə mədəniyyəti bərtərəf edib pul qazanmaqlığı ondan yaxşı tutursa, ol kişidən millətpərvərlik məlum olurmu? Haşa (Allah göstərməsin).

«Əkinçi»,
№ 10, 2 dekabr 1875.

1993

DEYƏSƏN ZAMAN GÖSTƏRƏCƏK!

Hörmətli oxucu! Milli fikir xəzinəmiz və ilk kollektiv düşüncə yaddaşımız «Əkinçi»dən daha bir yazını sizə təqdim edirəm. 118 il keçməsinə baxmayaraq söhbət gedən məsələ və problem bizim məşəqqətli və böhranlı günlərimizdə də öz böyük dəyərini saxlamaqdadır.

«Əkinçi» yazırdı ki, dünya ta qədimdən ayrı-ayrı tayfa, qövm və millətlərin, ölkələr isə ayrı-ayrı zümrə, qrup və fərdlərin yaxşı həyat, xoş güzəran uğrunda daimi yarış və vuruş meydanı olmuşdur. Əvvəllər «Çox millətlər irəli getməkdə idilər. Amma şimdi geridə qalıblar. Və ol millətlər ki, geridə idilər, indi qabaqda gedən və getməkdə olandırlar. Əcəba bunun səbəbi nədir?».

«Əkinçi» bu sualın cavabını özü verib. Bircə məsələ qalır, görəsən, bu sual-cavabdan indi siyasət meydanında sağına-soluna at çapanların xəbəri var, ya yoxdur. Bax buna cavab verə

bilmərəm. «Əkinçi»də oxuyuruq: «Qədim zamanda əfkar sahibi kişilər həmişə millətin irəli getməyi üçün ağıl tökür idilər»; başqa deyimlə «milləti ağıl, elm və ədəb kəsb edənlər» irəli aparırdılar. Bəs indiki iqtidar başçıları, vəzifə sahiblərinin istifadə etdikləri vasitələr hansılardır? Bircə bunu deyə bilərəm ki, qədim və tarixin sınağından çıxmış vasitələr, onların daşıyıcıları olmadığına görə indi işə keçmir. Bu səbəbdən şüarçılıq, sərişləsizlik, hay-küy, yağlı vədlər, hədə-qorxu, «yumruq», yeri düşəndə şapalaq və s. işə düşməkdədir. Millətin bu yolla hara aparıla biləcəyini isə «Əkinçi» görmüş və yazmışdı ki, «hədyanat və cəfəngiyyat söyləməyə vərdiş» edənlər, «ağıldan və elmdən bixəbər kəslər» anlamalıdırlar ki, elm kəsb edib bizim ilə «zindəganlıq cəngi edən millətlərin bərabərində durmasaq» «dövlət və xoşgüzəranlıq onların əlinə keçəcəkdir və bizlər mürur ilə zindəganlıq cəngində məğlub olub tələf olacayıq».

Çox ciddi xəbərdarlıqdır. Pul qazanmağı, çalıb-çapmağı özünə əsas peşə edənlərin milləti nə gözlədiyindən, deyəsən, xəbərləri yoxdur. Əgər neçə əsrlərdir bizi fiziki cəhətdən məhv, torpaqlarımızı zəbt etməyi qarşısına məqsəd qoymuş əsri düşmənlərimizin açıq təcavüzünü də göz önünə gətirsək, bizi gözləyən fəlakətin miqyası aydınlaşar. Ayılmaq, milləti irəli apara biləcək «əfkar sahibi olan kişilərə» meydan vermək vaxtı deyilmi?!

«Xalq qəzeti» 2 aprel 1993

DEMOKRATİYA ŞÜARI VƏ REAL HƏQİQƏT

Rusiya Federasiyasının prezidenti Yeltsinlə ABŞ prezidenti Klintonun Kanada görüşü, əldə olunmuş razılaşmalar, kömək və s. haqqında geniş söhbət getməkdədir. Rusiya hadisələrini dünyanın hər yerində diqqətlə izləyirlər. Regional problemlər, təcavüz və qırğınlar, insan hüquqlarının vəhşicəsinə pozulması, deyəsən arxa plana çəkilməkdədir. Elə bil dünya yiyəsiz qalıb. BMT yenə əvvəlki kimi böyük dövlətlərin çaldığı havaya uyğun hərəkət etməkdədir. Dünya tarixinin əzəli prinsipi öz yerini tutur: hərə öz başının çarəsinə özü qalmalıdır. Vaxtı fövtə verib, yatıb-yuxulayıb, dostu-düşməni tanımayıb döyüləndə haray salanların səsi çox da uzağa getmir. Möhkəm hamiləri; güclü lobbiləri olanlara baxıb onlara olan münasibəti tələb etmək və yaxud nəhəng gəlir mənbəyi olan regionlarda meydan oxuyub güc göstərənləri haraylamaq sadəlövhlükdür. Yüz ölçüb bir biçmək zamanıdır, yüz gün həyan danışıb döyülüb çığırmaq vaxtı keçib.

Rusiyadakı hadisələrin təhlili və gələcək perspektivləri haqqında da geniş söhbət getməkdədir. Xarici köməyin faydası olacaqmı? Yeltsin və onun komandası doğrudanmı ölkədə demokratik qüvvələri təmsil edir? Bu və ya buna bənzər suallara çox müxtəlif cavablar verilir. Əlbəttə, əsil hökmü zaman özü verəcək, yaxın aylarda çox şey aydınlaşmalıdır.

Rusiya hadisələri ilə əlaqələr «Azadlıq» radiosunun müxbirləri, xüsusilə rus redaksiyası tanınmış siyasətçi sovetoloqların, şərhçilərin, mütəxəssislərin rəyini soruşur, ümumi fikir mənzərəsi yaratmağa səy göstərirlər. Bu günlərdə Moskva müxbiri, sosioloq professor İvan Şarapovla müsahibə verdi. Rusiyada demokratlarla mühafizəkarların keçmiş tərəfdarlarının hakimiyyət davasına necə baxırsınız? - sualına Şarapov cavab verərək dedi ki, hər iki tərəf əslində bir-birindən mahiyyətcə əsaslı surətdə fərqlənmir. Hər iki cəbhədə duranlar dövlət mülkiyyətinə sahib çıxanlar, onun hesabına yaşamaq və varlanmaq istəyənlər, bu

taktika və strategiya baxımından hərəkət etmək istəyənlərdir. Hadisələri mürəkkəbləşdirən böhranın və dağılma prosesinin əhatə həcmi və dərinliyidir. İmperiya siyasəti və dövlət sistemi, iqtisadiyyat, hərb maşını, ideoloji, mənəvi və əxlaqi dəyərlər milli və millətlərarası münasnbətlər və s. eyni vaxtda yararsız hala düşmüşdür. Odur ki, hər iki tərəf öz həqiqi məqsədlərini modda olan demokratiya şüarı və bayrağı altında görmək istəyir. Deməli, söhbət demokratiya, ya diktaturanın qələbəsindən yox, mülayim və sərt siyasət tərəfdarlarının bu ilkin mərhələdə hakimiyyət davasından gedir.

Demokratiya isə hələlik sözün geniş mənasından çox-çox uzaq üfüqdədir. Qərbi qorxuzan və həyəcana gətirən, dünyanın altıda birində baş verə biləcək sosial fırtına, ümumi siyasi atmosferi sarsıda biləcək tufandır. Bunun ilk simptomları artıq görünməkdədir. Hadisələrin necə cərəyan edəcəyini isə heç kəs əvvəlcədən söyləyə bilməz. Deyiləsi odur ki, Rusiya və neçə əsrlər boyu onun himayəsində olan xalqlar öz başçılarının kəramətindən asılı olaraq tarixlərinin növbəti faciəli və ya işıqlı günlərini və illərini yaşayırlar.

«Aydınlıq» qəz. 9 aprel 1993

EŞİDƏN QULAQ, NƏCABƏT, DƏRİN DÜŞÜNCƏ GƏRƏK

Şimallı-Cənublu Azərbaycanın cəfakeş və müdrik oğlu M.Ə.Rəsulzadə 1905-ci ildən bəri İranı çalxalayan hadisələri və qüvvələri öz gözü ilə görmək, istibdad və cəhalətlə çarpışan mücahidlərlə şəxsən görüşmək və yardım əlini uzatmaq üçün Bakıda nəşr olunan gündəlik, demokratik «Tərəqqi» qəzetinin xüsusi müxbiri kimi 1909-cu ilin fevralında İrana səfərə çıxmışdı. Oxucular onun 6 ay ərzində, yəni 1909-cu ilin mart-avqust aylarında «Tərəqqi» qəzetində dərc olunmuş «İran məktubları» ilə tanış ola bilərlər. M.Ə.Rəsulzadənin bu yaxınlarda Azərnəşr tərəfindən buraxılmış əsərlərinin 1-ci cildinə onlar da daxil edilmişdir.

1909-cu il avqustun 23-də Tehranda M.Ə.Rəsulzadənin baş redaktorluğu ilə «İrani-nov» (Yeni İran) adlı Avropa tipli ilk gündəlik qəzet təsis edilmiş və nəşrə başlamışdı. Bu qəzetdə M.Ə.Rəsulzadənin imzalı və imzasız 200-ə yaxın müxtəlif janrlı yazısını müəyyən etmişik. Onlar müəllifin əsərlərinin 2-ci cildinə daxil olacaqdır.

M.Ə.Rəsulzadə İranda, xüsusilə, Tehranda azadlıq mücahidləri və vətənpərvərlərlə əl-ələ verib müstəqil, demokratik İran uğrunda mübarizə apararkən, bu hərəkatın çətinliklərini, irtica qüvvələrinin hiylələrini, inqilaba rəhbərlikdəki səbatsızlığı, satqınlığı da görür, məğlubiyyətə aparan ictimai xəstəlikləri atəşə tuturdu. Bu münasibətlə satirik ədəbiyyatın gücündən də məharətlə istifadə edirdi. Bu mövzuda qəzetdə dərc olunmuş və siyasi mahiyyət daşıyan yazılar içərisində Krılovun məşhur «Sazandalar» təmsilini nəql edən «Heyvanların konserti» sərlövhəli məqalə diqqəti cəlb edir. M.Ə.Rəsulzadənin qələmindən çıxan bu yazını oxuculara təqdim edirəm.

Məqaləni farscadan
M.Ərcəvan və M.Müsəddiq tərcümə etmişdir.

HEYVANLARIN KONSERTİ

Ədəbiyyatın bir qismi var ki, onu yazanlara əfsanəvislər (təmsilçilər) deyirlər. Qüdrətli yazıçılar ali fikirlərini bu üslubda yazırlar. Onlar bir çox siyasi və əxlaqi məsələləri quşlar və heyvanların adı altında yazıb insanları tərbiyələndirməyə çalışırlar. Bu cür ədəbi nümunələrə fars, ərəb, türk kitablarında rast gəlirik. Bir vaxt məhəlli qəzetlərin biri belə mövzunu bəyənməyib «İrani-nov»un verdiyi bəzi əfsanələri tənqid etmişdir. Özlüyündə belə təsəvvür etmişdir ki, biz İranı guya vəhşixana hesab etmişik. Amma belə deyil. «İrani-nov» qəzeti həqiqət naminə öz haqqında deyilənləri rədd edir və göstərir ki, belə əsərlər - «Kəlilə və Dimnə», «İbn Müqəffa», «Ənvari-suheyl», «Məntiqül-himar», «Mərzibannameyi-vəravini», İbn Ərəb Şahın «Müfakahətüz-Zürəfa», Übeyd Zakaninin «Muş və qurbe», Məhəmməd-bağır Xalxalinin «Sələbiyyə» və qeyriləri məşhurdur.

Bu üslubda ədəbiyyat Avropada da mövcuddur. Onu da əfsanəvisi adlandırırlar. O şəxslərin ki, bu sahədə güclü məharətləri var, onlar əfsanə yazıçısı kimi tanınmışlar. Məsələn, qədim ədiblərdən yunanlı Ezop bu sahənin görkəmli nümayəndələrindəndir. Ondan sonra fransız yazıçısı Müsyo Fabil Lafonten bu cür ədəbiyyatda ustalıq göstərib məşhurlaşandır. Lafontendən sonra tanınmış rus yazıçısı Krılov bu sahədə məharətini nümayiş etdirib şöhrət qazandı. Biz bu qərara gəlmişik ki, Avropanın əfsanə (təmsil) yazanları ilə yeri gəldikcə Krılov və Lafontendən tərcümələri öz möhtəşəm oxucularımıza təqdim edək. İndi isə «İrani-nov» qəzetinin bu sayında Krılovun təmsillərindən «heyvanların konserti»ni çap edirik:

Ayı, eşşək, keçi və meymun bir yerə toplaşıb qərara gəldilər ki, əllərinə hərəsi bir musiqi aləti alıb konsert versinlər. Alətləri götürüb sıraya durdular. Başladılar çalmağa, qat-qarışıq səslər yarandı, ha əlləşdilər bir şey çıxmadı. Belə bir vəziyyəti görən eşşək dedi:

- Dostlar, mən ki, belə oturmuşam yaxşı deyil. Gərək yerlərimizi dəyişək. Ayı, dur gəl sən mənimlə yerimizi dəyişək, keçi ilə

də meymun üzbəüz olsunlar.

Belə oturub konsertə başladılar. Yenə ahəng alınmadı. Bu dəfə ayının təklifi ilə dövrə vurub oturdular. Bunun da faydası olmadı.

Meymunun təklifi ilə musiqi alətlərini bir-birilə dəyişdilər. Kamanı eşşək götürüb, tarı meymuna verdilər. Ayı və keçi ney ilə santuru bir-birilə dəyişdilər. Bütün qüvvətlə işə başladılar. Ancaq nəticə hasil olmadı.

Yenə də öz xəyallarında başqa cür oturmağın fikrində idilər ki, ağacda oturmuş bülbül qəhqəhə çəkib güldü ki, bu ağılsız vəhşi heyvanlar nə edirlər? Budaqdan aşağı enib onlara dedi:

- Ey mənim əziz dostlarım, siz nə qədər zəhmət çəksəniz də bu işi bacarmayacaqsınız, konsert verə bilməyəcəksiniz. Bu səbəbə görə ki, sizin konsert vermək üçün eşidən qulağınız, nəcabət, məlumat və musiqi çalmağa və konsert verməyə dərin düşüncəniz və musiqi çalmağa öz alətləriniz yoxdur. Konsert üçün bunlar lazımdır.

M.Ə.Rəsulzadə.
«İrani-nov» qəzeti, № 213, 15 may 1910

«Aydınlıq» qəz. 9 aprel 1993

İRAN - AZƏRBAYCAN ƏLAQƏLƏRİ TARİXİNDƏN SƏHİFƏ

İran - Azərbaycan mövzusu və problemi minillikləri əhatə edir. Bu barədə yazanlar və yazılanlar çox olsa da indiki nəslin əlində yığcam, sanballı bir əsər yox kimidir. Eyni sözləri bizimlə həmsərhəd və qonşu olan digər ölkələrlə, xalqlarla tarixi əlaqə və münasibətlər barəsində də demək olar. Halbuki millətin, onun hər bir şüurlu vətəndaşının siyasi mədəniyyəti, təfəkkür tərzi, uzaqgörənlik bacarığı və vərdişi, tərəqqinin yolunu düzgün müəyyənləşdirmək səyləri həm də bundan asılıdır. Qonşularını tanımayan millət özünü də dərk edib tanıya bilməz. Və ya əksinə.

Azərbaycan ziyalılarının neçə-neçə uzaqgörən nəsli bu ümumi bəşəri prinsiplər əsasında tərbiyə görmüşdü. XIX və XX əsrin ilk onilliklərində ədəbi-ictimai və siyasi fəaliyyət meydanında iş görən şəxsiyyətlərimizin əsərləri dediklərimizi təsdiq edə bilər. Fars, türk, ərəb, rus, gürcü və digər xalqların ədəbiyyatına, tarixinə bələdliyin milli dirçəliş, tərəqqi yolunu seçməkdə və görməkdə A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabiyə və onlarca digər mədəniyyət xadimlərimizə nə qədər fayda verdiyini ölçmək imkansızdır. Eyni fikri onlardan sonra gələn daha cəsarətli və tədbirli XX əsr mücahidləri haqqında da söyləmək olar. M.Ə.Rəsulzadənin «İran məktubları» dediyimizə tutarlı sübutdur. 1909-cu ilin mart-avqust aylarında yazılmış və «Tərəqqi» qəzetində dərc olunmuş bu əsərlər gənc M.Əminin İran və Azərbaycan tarixinə bələdliyini, böyük məhəbbət və bağlılığını nümayiş etdirən tarixi sənədlərdir. Eyni sözləri onun redaktorluğu ilə Tehranda 1909-cu ilin avqust - 1910-cu ilin iyul aylarında çap olunmuş (bizim əlimizdə olan nömrələr hələlik bu dövrdəkilərdir) «İrani-nov» («Yeni İran») qəzetində dərc olunmuş məqalələri haqqında da demək olar.

Bütövlükdə M.Ə.Rəsulzadə və İran mövzusu da öz tədqiqatçısını gözləyir. Mən isə indi onun 1909-1910-cu illərdə İran-

da Azərbaycan və fars dillərində yazdığı əsərləri toplamaqla məşğulam. «İrani-nov» qəzetinin 1909-cu il avqustun 23-də çıxan birinci nömrəsində «Bizim məramımız» sərlövhəli yazı diqqətimi cəlb etdi. M.Ə.Rəsulzadənin qələmindən çıxan, xalqın və cəmiyyətin həyatında mətbuatın yerini və rolunu müdrikliklə müəyyənləşdirən və bu gün də böyük əhəmiyyət kəsb edən həmin məqalə ilə oxucuları tanış edirəm.

M.Ə.Rəsulzadə

BİZİM MƏRAMIMIZ

Bizim qəzet və mətbuat bütün quvvələrdən yüksəkdədir. Fransada mətbuat və qəzetə verilən qiymət heç bir dövlət idarələrinə verilmir.

Fransada qəzet 7-ci dövlət hesab edilir. Qəzetlərin qüvvəsi qaladağıdan və qranit deşən toplardan çoxdur. Qəzet millətin danışan dilidir. Bir millətin ki, qəzeti yoxdur, elə bil ki, o millətin dili yoxdur. Dili olmayan isə dilənçi və möhtacdır. Biz iranlılar ki, qəzetimiz yoxdur, beynəlxalq aləmdə cənub və şimal qonşulardan informasiya tör-töküntülərini yeyirik. Hər sahədə ehtiyaclı olub, əlimizi ona-buna açırıq. Məgər bu sahədə dilənçi deyilik?

Allaha çox şükür ki, millət və müstəqilliyimiz ölümdən xilas oldu, yenidən yaşamağa başladıq. Fənalıqdan keçib əbədiliyə yatdıq. Necə ki, ətəklərimizi kənara çəkib milləti öldürən mərdiməzar şeytanları və əhrimənləri (divləri) qovduq, azad və təmiz halda təzə nəfəs aldıq.

Baxmayaraq ki, böyük qüvvə və zorla böyük şeytan və divin dağıdıcı bombasını kənar etdik, amma o divlərdən hələ çox vardırlar ki, onlara cəza və qulaqburması verməyə ayrı qüvvə lazımdır. Burada top gurultusu və bomba lazım deyil.

Bilirsinizmi, bu şeytanlar son vaxtlar arası kəsilmədən fəaliyyətdədirlər. Onlar hansı qüvvədən qorxurlar? Mətbuatın dünyanı bürüyən qüvvəsindən qorxurlar.

Haman qüvvə mətbuatdır ki, avropalıların diqqət mərkəzindədir.

«İrani-nov» təzə dünyaya qədəm qoyub.

Birinci xidməti mətbuatın inkişafına başçılıq etmək olacaqdır. Vətən dərdlərinə mətbuat dərman olur. Qəzet həmişəlik qaravuldadır, qoymur ki, ölkənin inkişaf yolu bağlansın.

Qəzet xalqın ehtiyacının tərtəmiz parlamana verilməsində dərülşuranın yeganə yardımçısıdır. O, parlamanın qanun və

hökmlərini də millətə çatdırır, vəkillər (seçilənlər) ilə seçənlər arasında əlaqə yaradır.

Qəzet inanılmış bir qoruyucudur ki, hökumətin iş və hərəkətlərini görür, onların səhv və xətalarını açıb göstərir, milləti hökumətin səhv və xəyanətlərindən xəbərdar edir. Əfkari-ümumini ayıq-sayıq və gözüaçıq saxlayır, hökuməti düzgün və dəqiq işləməyə vadar edir.

Qəzet camaata və tək-tək adamlara öz vəzifəsini göstərib başa salır, Vətəni sevməyi onlara öyrədir, lazım olanda parlaman və hökumətə kömək edir.

Qəzet bir çıraqdır ki, həm quyunu, həm də yolu millətə göstərər, sərvət və səhman yoluna hidayət edər.

Xülasə, ruznamə haqq danışan dildir ki, bütün etirazlar, etiraflar və xahişlər onun vasitasilə doğru və aydın şərh edilər.

Təəssüf ki, indiyə qədər bizim Vətəndə bu məsələ yoluna düşməmiş və tanınmamışdır. Millətin vəziyyətini necə lazımdır öyrənə bilməmişik. Yəni gündəlikdən xəbərimiz olmayıbdır. Elə buna görədir ki, bizim əziz Vətənimiz son vaxtlar, tab-təvandan, qüdrətdən düşüb sözsüz, danışıqsız qalıbdır, özünü səssiz-sədasız ölüm pəncəsinə tapşırmışdır.

Şükür Allaha, zülm və istibdadın qolunu sındırdıq, fənalıq cəngəlindən xilas olduq, qorxulu uçurumdan salamat keçdik, ölmədik, diri qaldıq.

Dil yaşamağın nişanəsidir, gərək dilimiz olsun, yəni ruznaməmiz olsun, qəzetimiz olsun. İndi Tehranda bir neçə qəzet çap olunur. Təəssüf ki, onların heç biri istənilən qədər geniş deyil, onların çoxu bir vərəq, həcmi az, özü də təkrar məqalələrlə dolu çap olurlar. Mühüm məsələlərdən yazmırlar, bəlkə də yaza bilmirlər. Çünki iki adam bir belə işin öhdəsindən gələ bilməzlər ki, o da bir böyük millətin həmişəlik dili olsun.

Budur ki, bizim Vətənə belə bir qəzet su və hava kimi lazımdır. Onun vasitəsilə hər məclis və yığıncaqlarda xalqın ehtiyacları müzakirə olunsun. Ehtiyaclarımızı aradan qaldırmaq, nöqsanlarımızı düzəltmək xatirinə çalışdıq və qərara gəldik ki, tezliklə həmin ruznaməni «İrani-nov»u təşkil edək. Əgər işimiz

möhtərəm oxucular tərəfindən qəbul olsa özümüzü xoşbəxtlərdən hesab edərik.

«İrani-nov» yuxarıda deyilən məqsəd üçün yaradıldı, heç partiya, ya cəmiyyətə aid deyil, tamamilə azaddır, bütün təbəqələrin eyib və nöqsanlarını diqqətlə tənqid edib xalqa çatdıracaqdır.

«İrani-nov» qəzeti istəyir həqiqəti deyən və millətin tənqidçisi olsun. Elə bu əqidəyə görə də məclisi-şurada, hökumətdə, camaat arasında məclis və ümumi yığıncaqlarda dəqiq, ayıq bir qoruyucu kimi tanınsın.

«İrani-nov» qəzeti arzu edir ki, onun sütunları xalqın fikirlərini əks etdirsin, Vətən övladlarını biganələrin əlindən qurtarıb bəşəriyyətin yeganə məqsədi olan şərəf və sərvətini özünə qaytarmaqda sadiq xidmətçi olsun.

«İrani-nov» qəzeti ümid edir ki, nəcib İran xalqı onu sevinclə qəbul edəcək. Onlar ki, bu barədə pis fikirdədirlər, onlar uzaqgörməyən və yoldan çıxmışlardır.

Bilirik, tarix bizə nişan verir ki, İran neçə dəfə məhv olma dərəcəsindən ötüb çox yüksəkliklərə qalxıb. Məsələn, Dəmirçi Gavələr, Şah Abbaslar və Nadirlər İran tarixinin düzgün həqiqətləridirlər. Xüsusilə son hadisələr bütün dünyaya elan etdi ki, biz İran milləti özümüzü dünyanın diri millətlərindən hesab edə bilərik. O biz idik ki, silahlanıb istibdadçılardan parlamanın intiqamını aldıq. O biz idik ki, öz fitri qabiliyyətimizlə milli hüququmuzu qəsb edənlərə qulaqburması verdik. Əcnəbilərin hüququnu qoruduq ki, onların qeyri-qanuni təcavüzlərinə dözüb öz məqsədlərimizə yaxınlaşaq.

Gizli qalmasın, bizim ölkə inkişaf etsə də bir əkinçi və toxum satan ölkə olaraq qalacaq, çünki bizim ölkənin əksər gəliri əkinçilikdəndir. Hər nə qədər mümkünsə əkinçiliyi çoxaltmalıyıq, kəndçilərə kömək etməliyik. Çadırnişinləri, yarımvəhşi yaşayanları məktəb və təlim-tərbiyə ilə, mədəni yaşayışla tanış edək ki, lazım olan vaxtda çətinlik çəkməyək. Necə ki, görürük, nə qədər biçarələr cəhalət altında paymal oldular və bizə də nə qədər mal və can zərəri vurdular. Bu barədə dövlət yazıları, darülşura-

nın müzakirələri və əhalinin tələbləri daha əhəmiyyətli və diqqəti cəlb edəcəkdir. Bilirik ki, bu nöqtədə xeyirxahlar və bəsirət sahiblərinin yenilik, sərvət və milli mədəniyyət, həmçinin əkinçiliyin himayəsi haqda məqalələrini məmnuniyyətlə qəbul edirik.

Xülasə, bizim məramımız ölkənin istiqlalı və inkişafıdır. Heç vaxt bir dəqiqə də dözə bilmərik ki, övladlarımız xalq arasında yaramaz kimi tanınsınlar. Bizim yeganə arzumuz budur ki, mədəniyyət aləmində ağıllı övlad kimi tanınaq. Ümid və səy ilə məqaləni qurtarıb deyirik: Payəndəbad «İrani-nov»! («İrani-nov» çox yaşasın!).

Budur, «İrani-nov», budur bizim məslək və məqsədimiz.

(Məqaləni farscadan M.Müsəddiq tərcümə etmişdir)
«Xalq qəzeti» *16 aprel 1993*

DEYƏSƏN «SİYASİ GÖMRÜKXANA» DA İŞƏ DÜŞÜR

Son vaxtlar iqtidarın ən yüksək səviyyələrində belə vəzifə kürsüləri və yer dəyişmələrinin yeni turu keçirilir. Məşhur xalq məsəlində deyildiyi kimi, fələyin nərdivanı işə salınıb, kimi eşşəkdən ata mindirilir, kimisi tərsinə. Amma yüksək mənsəbli bəylərdən hələlik rəiyyət səviyyəsinə endirilib yerdə gəzəni azdır. Elələri var ki, heç rəhbər rütbəli bəylərin mindikləri adi «mersedesləri» belə bəyənmir, vaxtında işlərini möhkəm tutub özəlləşdirdikləri zirehli «mersedeslərdə» gəzirlər. Hələ üstəlik kölgə kimi yanlarında hərlənən mühafizəçiləri də var ki, keçmişdə bunlara «qoçular» deyərdilər. Dağ kimi üst-üstə qalanan problemlər, hər tərəfdən milli varlığımızı təhlükədə qoyan hədələr, itirilmiş torpaqlar, az qalır yarım milyonu aşan qaçqın və sərgərdanların faciəsi və s. aydınca göstərir ki, uduzulan müharibə və siyasət köklü surətdə dəyişilməli, yenidən işlənməli, xalqın böyük əksəriyyətini birləşdirə biləcək, milli etibar və etiqada

söykənən və anlaşılan siyasi xətt müəyyənləşməlidir. Çıxış yolunu yalnız «çevir tatı, vur tatı» məsələsinə uyğun kadr dəyişikliklərində aramaq, həm də əsas diqqəti «siyasi etibarlılıq» prinsipinə uyğunlaşdırmaq çətin ki, bir fayda versin. Olsa-olsa yenidən qiymətli vaxt itiriləcək.

Prezidentin təyin etdiyi və Milli Məclisin də razılaşdırdığı yeni baş nazir bu günlərdə müxbirlərlə görüşündə etiraf etdi ki, onu bu vəzifəyə birinci növbədə siyasi mülahizələrə görə məsləhət görüblər.

«Siyasi mülahizə» «siyasi etibarlılıq» - kadr siyasətindəki bu nöqteyi-nəzər az qala qanunauyğun səciyyə daşıyan bu təfəkkür tərzi və xətti-hərəkət Rusiyada və digər bu qəbildən olan ölkələrdə çoxdan həyata keçirilməkdə idi. İşgüzarlıq, səriştəlik, istedad və uzaqgörənlik yox, «siyasi etibarlılıq», başqa deyimlə «kim olur-olsun, biz deyəni desin, biz göstərən yolla getsin» - prinsipi rəhbər tutulurdu.

Göstərək ki, çarizm dövründə nisbətən üstüörtülü görülən bu işi, bədnam və üzdəniraq kadr seçmək qaydasını bolşeviklər partiya və dövlət siyasəti səviyyəsinə qaldırmışdılar. Elə hər iki sistemin süqutunun əsas səbəblərindən biri də məhz bu oldu.

Haqq və haqqaniyyətə, ədalət və xalqın gələcəyinə böyük ümidlə baxan mütəfəkkir mücahid Həsən bəy Zərdabi «siyasi mülahizə» və «siyasi etibarlılığı» «siyasi gömrükxana» adlandırırdı. Hətta ömrünün qürub çağında «Bürokratiya və etibarlılıq» sərlövhəli iri bir məqalə də yazmışdı. «Kaspi» qəzetində dərc olunmuş bu məqalədə millət və xalqa həqiqətən xidmət etməyi müqəddəs borc bilən elmli, istedadlı və bacarıqlı şəxsiyyətləri «siyasi etibarsızlıq» damğası ilə dövlət işlərinə yaxın qoymayan bürokratik üsuli-idarəni ifşa edən Zərdabi yazırdı: «Kim bu qaydanı bilmir. Ziyalılardan kim bu və ya başqa vəzifəyə, məktəbə və i. a, daxil olmaq istərkən «siyasi gömrükxana» «yoxlanışının» gözəlliyini öz üzərində hiss etməyib? Adi etika qaydalarına belə əməl etmədən insan üzərində elə bir əməliyyat aparırlar ki, istər-istəməz adamı diksindirən hisslər əmələ gəlir. Bütün keçmişiniz, sizin adamlara münasibətiniz, intim ailə həyatınız və

əlbəttə, sizin ictimai fəaliyyətiniz böyüdücü zərrəbin vasitəsilə nəzərdən keçirilir. Ləkə axtarırlar. Vay o adamın halına ki, onun adı hökumət nöqteyi-nəzərindən ləkələnmiş olsun. O zaman ictimai xarakterli idarələrin, habelə dövlət idarələrinin qapıları həmişəlik olaraq onun üzünə bağlanır... «Siyasi cəhətdən etibarsızlıq» elan edilmiş adam tam olmasa da bir çox vətəndaşlıq hüquqlarından, ilk növbədə isə bir tikə çörək əldə etmək hüququndan məhrum olur. Adamı etibarsız adlandırmaq, onu maddi cəhətdən fövqəladə dərəcədə çətin, bəzən isə çıxılmaz vəziyyətdə qoymaq onu amansızcasına cəzalandırmaqdır.

Bu cür adamın qarşısında gələcəyin aclıq mənzərəsi canlanır, onun adına biabırçılıq damğası vurulur, onun şəxsiyyəti gizli və açıq nəzarət altına alınır. Küt və qorxaq adamlar arasında təəccüblü bir şəxs kimi qələmə verilir... onunla ünsiyyətdən qaçırlar... Zira onun bütün günahı budur ki, o nə vaxt isə öz fikrini söyləmək cürətinə malik olmuşdur» («Kaspi» 1906, № 221).

Hörmətli oxucular, elə bilməsinlər ki, mən bu məsələnin tarixini və indiki təzahürlərini uzaqdan-uzağa, müşahidəçi kimi bilirəm. Xeyrə öz başıma gələnlər də məni bu qənaətə gətirir. Fakt? Buyurun, «Azadlıq» qəzetinin 1992-ci il sentyabrın 22-də çıxmış nömrəsində «İqtidarın kadr siyasəti, teleradio şirkətinin durumu, demokratiya haqqında jurnalist sözündə qəzetin müxbirinin - «eşitdiyimizə görə, iqtidara yaxın olmayan, müxalif fikirli şəxslər efirdən uzaqlaşdırılır» - barədəki sualına şirkətdə ictimai-siyasi proqramlar studiyasının direktoru Xaliq bəy Bahadır belə cavab vermişdi:

- Bəli, belə faktlar da vardır. Mən Moskvaya gedənə qədər tələb eləmişdilər ki, Ş.Hüseynovu və Q.Hüseynlini siyasi proqramlardan uzaqlaşdırım. Mən bu tələbi yerinə yetirmədim. Moskvadan qayıdanda artıq onların uzaqlaşdırıldıqlarını gördüm».

Yeri gəlmişkən deyim ki, indi deyəsən Xaliq Bahadırın özünü də işdən uzaqlaşdırırlar.

H.Zərdabinin vaxtilə ürəkağrısı və nifrətlə söhbət açdığı «siyasi gömrükxana» müstəqil suveren cümhuriyyətdə yenidən işə

salınmaq üzrədir. Amma tarix hələ ki, bu yolla uzun müddət ömür sürən ictimai-siyasi dövlət sistemi tanımır. Əlbəttə, digər gömrükxanalar kimi siyasi gömrükxanalardan da müvəqqəti qazanc əldə edənlər olacaq, itirən isə milli mənafeyimiz ola bilər ki, buna da yol vermək olmaz.

«Aydınlıq» qəz. 14 may 1993

TARİXİN DƏRSLƏRİ VƏ BUGÜNKÜ HALIMIZ

Nəsillərin əsrlərlə qazandığını və hifz etdiyini itirmək nə qədər əzablı və faciəlidirsə, onu yenidən əldə gətirmək yüz o qədər çətin və məşəqqətlidir.

İtirmək, ən çox millətin, xüsusilə, ona başçılıq etmək məsuliyyətini öhdələrinə götürənlərin görmək, duymaq, qorumaq immunitetini, tərəqqi və inkişaf meyllərini itirməsi sayəsində, ictimai-siyasi anarxiya şəraitində baş verir. İmmuniteti itirmək xəstəliyi də birdən-birə təşəkkül tapıb yaranmır. Onu uzun illər, hətta əsrlərcə millətin canına, qanına, ruhuna zorla, min cür hiyleyi-şərlə sirayət etdirənlər olur.

Qorunmaq üçün ilk növbədə görmək lazımdır, uzaqgörmək. Axı, insan gözü ən azı 18 parametri müəyyənləşdirir. 1884-cü ildə «Novosti» qəzetində Raqozin adlı birisi azərbaycanlıları neft işinə maya qoymaqdan çəkindirmək üçün belə bir xəbər yaymışdı ki, guya Abşeronda neft, yanacaq ehtiyatı tezliklə tükənəcək. «Kəşkül» qəzeti bununla əlaqədar 1884-cü il 9-cu nömrəsində kiçik, lakin tutarlı bir yazı vermişdi: «Novosti» qəzetəsində Raqozin nam bir zat əqlinə zor verib 20 il bundan sonra bizim zülmətdə qalacağımızı xəbər vermişdir. Raqozinin hesabına görə, guya bu halda Qafqazdakı neft mənbələrində ancaq 1.500 milyon pud neft qalmışdır ki, o cümlədən, hər sənə 40 milyon pud istemal təqdirində miqdari-məzkur 1904 sənəyə qədər kifayət edəcək. Qospodin Raqozinə deyilməlidir ki, nə lazım bizə

neft işığı. Bizə nuri-elm lazımdır ki, yerin altını da görüb xuda afəridə (yaratmış) olan neft anbarlarını vəzn edək (ölçək)...».

Bizə nuri-elm lazımdır, hər yerdə yerin altını da, üstünü də, hadisələri əvvəlcədən görmək üçün də elmsiz milli immunitet zəifləyir, itir. İlk milli mücahidlərimiz Həsən bəy Zərdabi, M.Ə.Rəsulzadə və başqaları fanatik savadsız və elmdən bixəbər yarımçıqları, yanlarında Quran gəzdirib xalqı islam adından fəlakətə aparanlara məsləhət görürdülər ki, inanc mənbəyimiz; olan müqəddəs kitabın heç olmazsa «Elmi tələb et beşikdən qəbrə kimi», «Əvvəl elm, sonra əməl», «Əməl elmsiz vəbadır», «Dünya üçün çalış elə bil ki, orada həmişəlik yaşayacaqsan», «Ağıl o şeydir ki, ona Allahın özü də itaət edir», «Allah hər şeyi ağılla görür», «Əql bədən aləminin gülüdür» və bu qəbildən olan ayə və hədislərin diqqətlə oxudub öyrənsinlər və düşünsünlər.

H.Zərdabi 1876-cı il iyunun 25-də «Əkinçi»də yazırdı: «Əgərçi bizlərdə adətdir ki, ümurat əhlini (vəzifə sahiblərini) üzünə tərif edib, dalda qeybət edələr və ümuratdan (vəzifədən) çıxanda ol kəs hamının yadından çıxar, amma Avropa vilayətlərində bu adət yoxdur. Onlar elm sahibləridir və elm yolu ilə hər kəs insandır və insanlığın əvvəlinci şərti insaf, doğruluq və əldən gəldikcə qeyrilərə yaxşılıq eləməkdir. Belə də ümurat əhli yaxşılıq elədiyinə görə onu tərif etmək Avropa qaydasına namüvafiqdir. Lakin Avropa vilayətlərində bir adət var ki, ondan biz bixəbərik. Onlarda bir kəs elm yolu ilə ümuratı dolandırmaqlıq ilə millət işlərinə rövnəq verə və millətin irəli getməyinə bais ola, ol kəs üçün yadigarlıqlar bina edib, onun millət işlərinə elədiyi yaxşılıqları yazıb, məlum edirlər ki, onun ismi tarixlərə düşüb baqi olsun».

Tarixdən xəbərsizlik, köklə mənəvi əlaqənin zəifləməsi hələlik bizə çox baha başa gəlir, tarixi elmdən ayırıb siyasətə qurban verməyin, onu özfəaliyyətə çevirməyin acı nəticələri də göz qabağındadır. «Elm yolu ilə hər kəs insandır», «insaf və doğruluqla», «elm yolu ilə» ümuratı dolandırmaq - bəşəriyyətin yolu belədir. Başqa yol fəlakətə aparır.

«Aydınlıq» qəz. 30 aprel 1993

BAŞ APARIB SÜMÜK QAYTARIRLAR! MƏQSƏD NƏDİR?

Rusiya Federasiyası informasiya orqanlarının yaydıqları məlumata görə, prezident Yeltsin ümumxalq rəy sorğusu ərəfəsində sərəncam vermişdir ki, Hacı Muradın vaxtilə köçilib Peterburqa göndərilmiş başı xalqına qaytarılsın. Bu xəbəri eşidərkən şairin «nələr yaradırsan, tarix, sən nələr, duyub düşündükcə donur bədənim» misraları yadıma düşdü. Hörmətli oxucu, bu hadisəni şərh etməzdən əvvəl 141 il bundan əvvəl - 1852-ci ilin yazında Şəki ilə Qax arasında Biləcikdən aşağıda Dayıkənddə baş vermiş dəhşətli faciəni qısaca xatırladım:

Dağıstan, Çeçenistan və bütünlükdə Qafqaz müsəlman xalqlarının müstəmləkəçilərə və onların satqın yerli əlalılarına qarşı imam Şeyx Şamilin rəhbərliyi ilə apardıqları azadlıq mübarizəsi tariximizə və yaddaşımıza əbədi həkk olunmuşdur. Keçən əsrin dörddə biri qədər davam etmiş bu iman və inanc davasının cəsur və qorxmaz iştirakçı və başçılarından biri də neçə-neçə nəslin min rəhmət oxuduğu və oxuyacağı Hacı Murad olmuşdur. 1851-ci ilin noyabrında intriqa, böhtan və çəkişmələrə məruz qalıb rus hərbçilərinin əlinə keçən Hacı Murad Tiflisə gətirildi. Lakin ibadətlə məşğul olmaq bəhanəsilə Şəkidə yaşamağa icazə aldı. 1852-ci ilin yazında mübarizəni davam etdirmək əzmi ilə qaçmağa təşəbbüs göstərdi. Mərdliklə vuruşdu. Lakin xilas ola bilmədi. Qəhrəman kimi döyüşdə həlak oldu. Azadlıq düşmənləri və qan hərisləri başını kəsib imperiya qılıncını nümayiş etdirmək, milli mücahidləri qorxutmaq üçün zülm ilə abad edilən Peterburqa göndərdilər. Sonralar Hacı Muradın ailəsi də Kazana sürgün edildi. Dayıkənd də xəritəmizdən silindi. Təkcə qəbiristanlığı qaldı. Hacı Muradın dəfn edildiyi qəbiristanlıq.

1914-cü ildə qız nəvəsi Azərbaycana, Şəkiyə gəldi. Yerli camaatın köməyilə babasının qəbrinin yerini müəyyənləşdirdilər, başdaşı qoydular. Mən Şəki - Qax şosse yolunun sağ kənarında yaşıl meşəliyə qərq olmuş bu qəbiristanlığı və Hacı Muradın

qəbrini dəfələrlə ziyarət etmişəm.

İndi məni başqa bir məsələ düşündürür. Görəsən, vaxtilə azadlıq mücahidlərinin namuslu və qeyrətli başlarını kəsib imperiya yaradanlar, indi baş əvəzinə sümük qaytarmaqla nə demək istəyirlər? Onların, xüsusilə Qafqazı qanlı döyüş meydanına çevirən, xalqları bir-birinin üstünə salışdıran fitnə-fəsadçıların bu dəfə qayəsi və məqsədi nədir?

Göstərim ki, imperiya ölümcül böhran keçirdiyi dövrlərdə tarixi, iman və inancı ortaq olan Qafqazın qardaş xalqlarını bir-birinin üstünə salışdırmaq dəfələrlə sınaqdan keçirilmiş bədnam siyasətdir. 1908-ci ildə Bakıda azərbaycanlılarla ləzgilərin arasını vurmaq istəyən rus-daşnak fitnəkarlarını qətiyyətlə ifşa edən M.Ə.Rəsulzadə «Fitnə və provokasiya» sərlövhəli məqaləsində yazırdı:

«Ləzgi qardaşlar!..

Şeyx Şamil həzrətləri sizə nə dərəcə yaxınsa, bizə də o dərəcə yaxındır. Şeyx Şamil əfəndinin fədakarlığı sizdən ötrü nə əndazədə əziz və girami isə, bizdən ötrü də o dərəcədə əziz və giramidir!..».

«Sadədilləri, saf ürəkləri öz şəxsi mənfəətlərindən ötrü əl dəyməmiş bir zəmin hesab edən fitnəkarlara insanın qeyzi, acığı tutub nifrətini artırır... Bu biviedanlar necə qıyırlar ki, böylə bir səmimiyyət və sadəliyə məzhər olan ürəyi öz şəxsi mənfəətlərinə yetişmək üçün ləkələyib şübhəyə salırlar».

Eyni sözləri Hacı Murad haqqında da deyə bilərik.

Ayıq-sayıq olmaq, düşünən namuslu və qeyrətli başları, dostluq və qardaşlıq ənənələrini göz bəbəyi kimi qorumaq vaxtıdır. Hiylə və şərə uymaq vaxtı keçməyibmi?!

«Aydınlıq» qəz. 30 aprel 1993

İSLAMLA VURUŞ
HƏLƏ QABAQDA İMİŞ

Hörmətli oxuculara məsləhət görürəm ki, «Pravda» qəzetinin 15 may tarixli nömrəsində dərc olunmuş xüsusi müxbir Y. Fadayevin Şimali-Şərqi Bosniyadan göndərdiyi reportajı diqqətlə oxusunlar. Bizim üçün də fikirləşməli, düşünüb-daşınmalı məsələlər az deyil.

Müxbir rəhmsiz, gözləri irqçilik və dini fanatizm dumanı ilə örtülmüş, bütövlükdə islam aləminə yeni səlib yürüşü elan etmiş serb xaçpərəstlərinin dedikləri: «biz pravoslaviya və slavyanlıq uğrunda vuruşuruq», «bu hələ müharibə deyil, müharibəyə girişdir, proloqdur», «İslamın Avropaya daxil olmağına qarşı vuruş qabaqdadır» və s. kimi tükürpədici ifadələri xüsusi vurğu ilə nəzərə çatdırır.

Diqqət veriləsi digər cəhət serb fanatiklərinin Rusiyadakı həmkar və həmfikirlərinə güvənmələridir. Yenə müxbir yazır ki, müsəlmanlara qarşı qırğın iştirakçılarından biri vaxtilə birinci dünya müharibəsi dövründə atasının rus əsgərləri ilə əlbir müsəlman-türklərə qarşı birgə vuruşda çar rejimi tərəfindən verilmiş Hərbi medalı döşünə taxmışdır. O deyir ki, serblərin arxası «göydə İsa, yerdə Rusiyadır».

Avropanın və bütün dünyanın gözü qarşısında Bosniyada müsəlmanları kütləvi surətdə qırırlar. Demokratiya və insan hüquqlarından dəm vuranlar hələlik iqtisadi embarqo, etiraz bəyanatları, ümumi hədə-qorxu, humanitar yardım, Bosniya səmasında təyyarə uçuşları, hərbi müşahidəçilər və s. hadisələrin gedişinin qarşısını almağa yetməyən tədbirlərlə kifayətlənirlər. BMT və onun Təhlükəsizlik şurası Küveyt məsələsindəki qətiyyətini nədənsə göstərmir. Sual olunur ki, niyə? Məsələnin mahiyyətini, məğzini tarixən dərk etmək üçün gərək bir keçmişə də baxasan, bu qlobal məsələ ilə qarşı-qarşıya duranların dediklərini, yazdıqlarını da oxuyasan, biləsən.

Mütəfəkkir filosof və Şərq-Qərb tarixinin bilicisi Əli bəy Hüseynzadə 1918-ci ildə yazırdı: «XI əsrin sonlarından XIII əsrin nəhayətinə qədər (1096-1270) Şərq və Qərb arasında baş ve-

rən və ədədi səkkizə varan Səlib müharibələri o növ hadisatdandır ki, əkmiş olduğu nifaq və ziddiyyət toxumlarının izlərini cahanın əsrimizdə belə cərəyan etmiş və etməkdə olan bir çox vəqayeində (hadisələrində) görməmək mümkün deyildir».

Tanınmış mühərrir, elm və fikir adamı Əhməd bəy Ağayev «Məşriq və məğrib» sərlövhəli məqaləsində («Tərəqqi», 10.IX.1908), Fransada təhsil alarkən bir fransız yazıçısı ilə söhbətini xatırlayaraq yazırdı: «Məşhur yazıçı xanımlardan birisinin evində idik. Söhbət məşriqdən (Şərqdən) getdi. Mən də avropalıların Şərqə nisbət təqib etdikləri məsləkdən şikayət etdim. Xanım əfəndi dedi - Mən təəccüb ediyoram ki, məşriqlilər də siyasi hökumətə, dünyəvi işlərə etina ediyorlar, görünüyor ki, məşriq də xarab olmağa üz çöndərmiş. Çünki Allah məşriqi yaradanda məhz xəyaldan, o humamatından göyləri, ulduzları, əflaki sirr etmədən ötrü yaratmış. Onlar gərək əsla maddi, dünyəvi işlərə etina etməsinlər. Bu günə işlər avropalıların vəzifəsidir. Çünki, Allah məğribi də maddi məsələlər üçün yaratmış. Yer - məğriblilərə, göylər məşriqlilərə, dünya məğriblilərə, axirət - məşriqlilərə - budur Allahın təvsiyəsi».

Ə.Ağayevin «bəs başa məğrib yumruğu dəyəndə və yainki insaniyyəti əlindən alınanda, qarət edilib ac qalanda şərqli nə etməlidir?» - sualına fransız yazıçısı «Əsil şərqli nə yumruğu və nə də achığı düşünməz» - demişdi.

Bu tarix. İndi isə Bosniya serblərinin başçısı Qaracic, Lord Ouen və Sayris Vensin hazırladıqları və özünün də bu yaxınlarda imza atdığı planı rədd edib təklif edir ki, qoy keçmiş SSRİ prezidenti Mixail Qorbaçov bu məsələ ilə, yəni Bosniyada sülh yaratmaq işi ilə məşğul olsun.

Bu günlərdə Bosniya serblərinin keçirdikləri rəy sorğusu göstərdi ki, serblər Bosniyada müsəlman çoxluğunun müstəqil dövlət yaratmasına imkan vermək istəmirlər. Qorbaçovu köməyə çağırmaqla onlar nə etdiklərini deyəsən yaxşı bilirlər.

Müsəlman fundamentalizmindən ağız dolusu danışanlar serblərin slavyan və pravoslav fundamentalizmini də görsələr pis olmaz. Çünki hər ikisi bir medalın iki üzüdür.

«Xalq qəzeti» 21 may 1993

TƏRƏQQİ ÜÇÜN AZADLIQ VƏ İSTİQLAL GƏRƏKDİR

Uzun əsrlər boyu müstəqil dövlət həyatını qeyb edib dərəbəylik və totalitar idarə üsulu şəraitində yaşamağa məcbur edilmiş bir məmləkətdə siyasi mədəniyyət və demokratik milli təfəkkürün özünə yol açması fövqəladə dərəcədə çətin, zəhmətli prosesdir. Lakin M.Ə.Rəsulzadənin də qeyd etdiyi kimi, «Avropa mədəniyyətinin atəşin və ildırım kimi şiddətli bir məcra ilə irəliləməsi» türk dünyasının bu qitə ilə bilavasitə qarşı-qarşıya duran hissələrindən olan Azərbaycanda da tarixi inkişaf meyllərini gücləndirmişdir.

Böyük mütəfəkkir filosofumuz Əli bəy Hüseynzadə 1918-ci ildə yazmışdır: «Bu gün bütün cahanı sarsıtmaqda olan və yekdigəri ilə təsadüm (mübahisə) edərək ortalığı hərc-mərc eyləyən üç mühüm cərəyanın, yəni imperializm, nasionalizm və sosializm cərəyanlarının ən faciəli səhneyi-fəaliyyəti Qafqaziyyə və bilxassə Azərbaycan oldu, burası bir cəhənnəmə döndü».

Həqiqi azadlıq və istiqlaliyyət uğrunda çarpışan Azərbaycan, bütövlükdə Qafqaz bu gün də bir növ cəhənnəmi xatırlatmırmı? Elə bil tarix təkrar olunur.

Qafqazda müstəqil və güclü bir türk dövlətinin mövcudiyyətini gözü götürməyənlər, necə olursa-olsun bu tarixi reallığın qarşısını almağa çalışanlar əvvəllər də olmuş və yenə də vardır.

Belə bir mürəkkəb ölüm-dirim savaşı şəraitində xalqın və torpağın taleyinin kimlərin əlində olması adicə bir iqtidar və hakimiyyət məsələsi çərçivəsindən çıxır, keçmiş, hal-hazır və gələcək nəsillər qarşısında məsuliyyət probleminə çevrilir. Həmin həqiqətə bu torpağın hər bir vətəndaşını inandırmaq ümummilli birliyi və səfərbərliyi yarada biləcək mənəvi-ictimai-siyasi etibardan, etiqaddan çox asılıdır. Gündəlik əməli işlərlə, bəzən də xırdavatçılıqla məşğul olanların siyasi şüarçılıqla, gəlişi gözəl ifadələrlə, bəzən də boş vədlərlə bu əsas milli ideal məfkurəsindən çəkinmələri təəssüf doğurmaya bilməz. Halbuki 1917-1918-ci illərin istiqlal mübarizəsi dövründə hərəkata başçılıq edənlər

bu cəhətə çox böyük əhəmiyyət verirdilər. Məhz bunun nəticəsi idi ki, «Müsavat» partiyasının ən qatı düşmənləri belə etiraf edirdilər ki, əvvəllər kiçik bir qrupdan ibarət olan bu partiya qısa müddətdə Zaqafqaziyada güclü siyasi təşkilata, milli istiqlal hərəkatının hərəkətverici qüvvəsinə və rəhbərinə çevrilmişdi.

Tarixi təcrübə göstərir ki, böyük istedadı, dərin elmi-nəzəri hazırlığı, əhatəli biliyi, əməli iş təcrübəsi xalqına, torpağına müqəddəs inamı olan liderlərin başçılıq etdikləri xalq hərəkatı iqballı olur. 1918-ci ilin 28 may fütuhatını, uzun illərin əsirliyindən müstəqilliyə çıxış yolunu göstərən və millətin bu qələbəsini hazırlayanların M.Ə.Rəsulzadə kimi lideri var idi. Qafqaz, Rusiya, İran və Türkiyədə azadlıq, demokratiya, cümhuriyyət uğrunda Şərq və Qərb istibdadına qarşı milli mücadilə hərəkatlarında bilavasitə iştirak edən, onları diqqətlə izləyən, zəngin təcrübə qazanan M.Ə.Rəsulzadə 1917-ci ilin fevralından, Asiya, bəzən hətta Avropanın jandarmı rolunu üstələmiş çar mütləqiyyət rejimi devrildikdən sonra milli istiqlalı həm nəzəri, həm də əməli cəhətdən hazırlamaq işinə girişmişdi. Onun bu dövr fəaliyyətini geniş tədqiq və təbliğ etməyə daha çox ehtiyac duyulur. Bunu nəzərə alaraq 1917-ci ilin avqustunda «İsmailiyyə» binasında «Müsavat» partiyasının təşkil etdiyi bir elmi mübahisə və müzakirə məclisində M.Ə.Rəsulzadənin məruzəsinin xülasəsini əks etdirən, «Açıq söz»də dərc olunmuş yazını oxuculara təqdim edirəm.

«MÜSAVAT»DA MÜSAHİBƏ

Qəzetdə elan etdiyimiz üzrə çaharşənbə günü axşam Türk Ədəmi - Mərkəziyyət (mərkəziyyətsiz) firqəsi «Müsavat» birinci dəfə olaraq «İsmailiyyə» binasında firqə yoldaşlarına məxsus elmi və cari məsələlərə dair bir müsahibə məclisi tərtib etmişdir.

Müsahibə saat 8-də başlamış və yoldaşların çoxu xəbərdar olmadığı üçün ancaq 100-ə qədəri iştirak etdiyi halda keyfiyyət

və məna etibarı ilə müvəffəqiyyətli və təsirati bir surətdə davam edib saat onun yarısında qurtarmışdır. Müsahib yoldaşımız Rəsulzadə Məhəmməd Əmin cənabları idi.

Müsahib yoldaşımız ədəbi və özünəməxsus bir şiveyi-bəyan ilə sözə başladı. Əvvəlcə idealın nə demək olduğunu anlatdı və sonra bütün insanlar üçün ən böyük ideal (məfkurə) səadətli bir dövrə çatmaq və bütün insanların qardaşca yaşamasından ibarət olduğunu söylədi. Bu ideal bu gün sosialistlər tərəfindən tərvic (həyata keçirmə, işə salma) olunur. Fəqət bəşəriyyət heç bir zaman, bu idealdan uzaqda qalmamışdır. Ən qədim məzhəblərdə, xürafə və əfsanələrdə belə bu «səadət» gözlənilmişdir. İranilər Hürmüzdün qələbəsini gözləmişlər. Yəhudilər ərzi-mövud (vəd olunmuş yer) arxasından qoşmuşlar. Köhnə Babildə mövcud olan mani[1] məzhəbinə mənsub bir qövm isə qayət şairanə bir surətdə həlalın zövrəq (qayıq) olduğunu təsəvvür eləmiş ki, bu zövrəq hər ay dünyadakı mühəssənatı (gözəl işləri) toplayır, kəhkəşan dediyimiz mühəssənat anbarına dolduruyormuş. Bir gün gələcək ki, bütün göy üzü haman bir parça nuri-mühəssənat olacaq, o zaman da ədalət və müsavat günləri paydar olacaqdır.

Müsəlman məzhəbləri dəxi bəs bədəl mövt (ölümdən sonra) «səlavət» dövrünə inanıyorlar. Görünür, bəşər böylə bir ümid daşımadan yaşamıyor. Əfsanə və xürafatlardakı xəyal, bugün insanların əql və idrakını işğal etməkdə; get-gedə fənn və elmə müstəmənd (möhtac) bir ideal şəklini almaqdadır. İştə hər zaman və hər məkanda mədəni insanları işğal edən səadəti-bəşər bizim amalımız-bəşəriyyət.

Bəşəriyyətin idealını bu surətlə anlatdıqdan sonra müsahib buna irmənin yollarından bəhs etməyə başladı. Din, milliyyət və müasirliyi anlatdı.

Din insanların mədəni birliklərini, mədəni rabitələrini hasil

---

[1] Mani - qədim İranda Sasanilər dövründə zərdüştlüyə qarşı mübarizə aparan dini-fəlsəfi cərəyanın başçısı idi - Ş. H.

ediyor. Mədəniyyətin bir əsası və əsli vardır ki, bütün qüyud (qeydlər) və şürutun (şərtlərin) xaricində və sırf vicdaniyyət üzərinə bina və inşa olunmuşdur.

Bu da dindir. Dini mədəniyyətdən ayırmaq və ya mədəniyyəti dindən fəkk etmək (qoparmaq) bihudə bir zəhadət, nəticəsiz bir qeyrətdir. İbtidai insanların həyatında ibtidai düşüncələr bir məbudə (ibadət olunan) etiqad, bir sahibi-kainata iman fikrini doğurmuş isə indiki insanlar bunu daha da təkamül və tərəqqi etdirərək elmi və fənni əsaslara görə iman və etiqad işləmişlərdir. Hər bir mədəniyyətin bir tarixi, bir keçmişi olduğu kimi, hər bir etiqadın da eynən böyük bir tarixi mövcuddur. Bu etibarla hər hankı bir din olursa-olsun, tarixi və qüvvətli əsasatı ilə bu əsrdə dəxi mövcudiyyətini mühafizə ediyor. Halbuki milliyyət büsbütün başqa və o sırf elmi və fənni əsasa və amillərə mərbutdur. Milliyyət insanların xüsusi bir hüviyyət (mahiyyətini bildirən) və məziyyətlərindən biri və başlıcasıdır. Hər bir düşüncənin, hər bir etiqadın, hətta hər bir mədəniyyətin, sənaətin (sənətin) bir xüsusiyyəti vardır ki, o da cəmeiyyəti-milliyyədir (millətin cəmi). Bu cameiyyəti-milliyyə xaricində qalan bir mədəniyyət əsla həqiqi və əsaslı ola bilmiyor. Yalnız kor bir təqlid və xasiyyətsiz bir tərəqqi olub qalıyor. Bu bütün Avropa millətlərinin ayrı millət, xristianlıqdan maəda (başqa) ayrı bir irq və qövmiyyə mənsub olduqlarını aydınca göstəriyor. Şu xasiyyət isə o millətlərin bir xəllaqiyyət və icad qüvvələrinə sahib olduqlarını göstərir. İştə bu əhval o millətlərin cameiyyəti-milliyyəyə malik olduqlarını isbat etdiyi kimi millətlərin zaman və əsrə görə silahlandıqlarını da rəna (gözəl, parlaq) bir surətdə izah ediyor. Milliyyətə ki, müasirlik eyni zamanda amali-bəşəri birləşdirmək üçün də bir vasitə olduğu kimi millətlərin mövcudiyyətləri üçün dəxi möhkəm bir istinadgahdır. Müasirliyi dəxi biz şu məna ilə qəbul etməliyiz.

Hal-hazır Avropa mədəniyyəti atəşin və ildırım kimi şiddətli bir məcra ilə irəliliyor, bu mədəniyyətin önündə siniflərin həyatı daimi təhlükədə və milli bir xəllaqiyyəti-mədəniyyədən məhrum millətlərin mövcudiyyət və bəqaları (varlığı) həmişə təhdid və

təzyiq altındadır. Müasirləşmək üçün biz müsəlmanlar və türklər başqa millətlərin keçirdiyi sərgüzəştlərdən uzaqlaşmış olaraq bir cərəyan tapa biləriz. O cərəyanı isə bir sözlə xülasə etmək lazım gəlsə öküz arabası əvəzinə avtomobilə minib yola qoyulmaqdan ibarətdir. Avtomobil bizi həm milli, həm siyasi, həm də bəşəri amal və məfkurələrə irişmək üçün müasir bir vasitə olacaqdır. Fəqət diqqət edəlim ki, bu vasitə ilə özlüyümüzdən, milliyyətimizdən də bir şeyi əlavə edəlim. Amali-bəşər parlaq və kəhkəşanlı bir istiqamətlə yolçuluğunda davam edərkən hərəsindən müstəsna bir xasiyyət və məziyyət aranılacaqdır. Biz 60 milyonluq türk aləmi də bu sifəti-milliyyəsi ilə, türklüyü ilə bəşəriyyət hüzurunda ayrı bir mövqe tutacaqdır. Bu məziyyət və mühəssənat isə məşhur bir Şərq mənqəbəsini (ləyaqətini) xəyalımız önündə təcəssüm etdirir. Onlarda kəhkəşani-mühəssənat və məzayanın (məziyyətlərin) ilahəsi ədd edilmişdir. Kəhkəşanın şüaları nə qədər artırsa dünya üzündəki zülmət və insanlardakı qəbayeh o qədər kəsiləcəkdir. Kəhkəşan şüasının təzayüd (artması) və tənaqüsü (azalması) bəşəriyyətin mühəssənat və məzayası (məziyyətləri) ilə məbsutən (yayılması) və məhkumən (tabeçiliyi ilə) mütənasibdir.

İştə türk aləmi üçün hamımız bu dilək və istiqaməti təqib edəcəyiz. Eyni zamanda, bizimlə həmdin millətlər ilə dəxi bir beynəlmiləliyyət hüsula gətirdiyi üçün şahrah amalımızda onlarla bərabər yürüyəcəyiz.

İslamiyyətin mütədəyyinlər (dindarlar) arasında bir beynəlmiləliyyət icad etdiyini heç şübhəsiz qəbul etməliyiz. Etiqad birliyi mədəni bir rabitəni ortaya atır. Bu mədəni rabitə mədəni bir beynəlmiləliyyət hüsula gətirdiyi kimi islam millətləri arasında siyasi heç bir ixtilaf mövcud olmadığı üçün siyasi və hüquqi bir beynəlmiləliyyəti dəxi doğuruyor.

Demək ki, islam millətlərinin tərəqqi amilləri bu surətlə anlaşıldıqdan sonra idari və siyasi həyatlarına nəqli-kəlam edə biləriz. Hər bir tərəqqi üçün ən müəssir və lazım olan bir amil hüquqi-bəşəri təmin, yəni hürriyyətdir. Hürriyyətin mənası dəxi şu surətlə anlaşılmalıdır ki, hər millət öz mövcudiyyəti, öz mədə-

niyyəti daxilində idari və siyasi bir ixtiyara malik olmalıdır. Muxtar bir millət tərəqqi və təkamül üçün böyük bir vasitə əldə etmiş deməkdir. Muxtariyyəti-milli amillərin mühüm bir cəhəti olduğu kimi sinfi mübarizələrə də qayət lazım bir rükndür (dayaqdır).

Türk ədəmi - Mərkəziyyət firqəsi «Müsavat» da məramnaməsi ilə bütün millətdaşlarını bu məqsədin istehsalına dəvət etmişdir. Şübhəsiz ki, firqə bütün Rusiya islam və türklərinin bir mümkün amalı olaraq idameyi-mövcudiyyət edəcəkdir.

Müsahib Rəsulzadə cənabları sürəkli və səmimi alqışlarla salamlandı. Hər tərəfdən məmnuniyyətlə qarşılandı.

Müsavatçı
«Açıq söz» *qəzeti, 20 avqust 1917-ci il*
«Xalq qəzeti» 22 may 1993

28 MAY VƏ İSTİQLAL TƏZADLARI

1933-cü ildə Azərbaycan Xalq Cümhuriyyətinin 15 illik yubileyi günündə İstanbulda istiqlal mücahidlərimizin nəşr etdikləri «Azərbaycan yurd bilgisi» jurnalında Müsavat partiyasının görkəmli xadimlərindən, 1918-ci il mayın 28-də «İstiqlal bəyannaməsi»ni imzalayanlardan biri, Azərbaycan Xalq Cümhuriyyəti dövründə daxili işlər və ədliyyə naziri olmuş Xəlil bəy Xasməmmədlinin «28 mayın böyük qurbanı» sərlövhəli yazısı dərc olunmuşdur. Həcmcə çox da böyük olmayan, lakin ideya-fikir tutumu, təsiri və inandırıcılıq gücü ilə oxucunu əfsunlayan və uzun müddət öz orbitindən buraxmayan, ürək qanı və yanğısı ilə qələmə alınmış bu yazıda nə qədər böyük, tarixi problem və məsələlərə toxunulmuşdur!

28 may - milli zülm və əsarətə qarşı canla, qanla mücadilə aparanlar üçün müqəddəs gün, istiqlal məfkurəsi isə ülvi bir ideal idi. Xəlil bəy yazırdı: «15 il bundan əvvəl, o müqəddəs 28 may günündə Rusiyanın keçirdiyi böhran və inqilabdan istifadə edən Azəri türkləri öz milli varlıqlarını əldə etmiş və bir əsrlik əsarət pəncəsindən milli türk Azərbaycanını xilas etmişdilər... Bundan dolayıdır ki, 28 may hər bir Azərbaycan türkünün milli bayramıdır».

Xəlil bəy bayram günlərində sevinc və iftixar hissi ilə yanaşı, istiqlal mücahidlərinin və şəhidlərinin əziz xatirələrini yad etməyin, onların həyat verdikləri müstəqil Azərbaycan dövlətçiliyi ideyasını yaşatmağın və davam etdirməyin zəruriyyətinə diqqəti cəlb edirdi.

Azərbaycan cümhuriyyətinin işğalı və mənhus istiladan sonra başlanan xalqın «ən qanlı və sağlam övladlarının canına qıymağa başlandığı» və bu qırğının ilk şahidi kimi ilk müstəqil Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoylunun adını çəkirdi. Əslində məqalə bütövlükdə onun xatirəsi və əməllərinə həsr olunmuşdur.

Xəlil bəyin «Azərbaycan istiqlalının düşmənləri, Azərbaycan

məfkurəsinin zərərli qatilləri qanlı əllərini istiqlal mücahidlərinə uzatdılar» fikri vaxtilə arxivdə araşdırma apararkən rastlaşdığım bir sənədi yadıma saldı. 1920-ci il mayın 17-də, müstəqil Azərbaycan işğal edildikdən iki həftə sonra Azərbaycanda konslager (ölüm-həbs düşərgəsi) yaradılması barədə yerli kommunist partiyasının təşkilat bürosu xüsusi qərar çıxarmışdı. Həmin büronun sonrakı protokollarında hər dəfə 40-60 günahsız istiqlal mücahidi və müstəqillik tərəfdarının siyahı ilə ölümə məhkum edilməsi barədə sənədlər saxlanılmaqdadır. İstiqlal günlərində bu şəhidləri də anmaq mənəvi-əxlaqi və tarixi yaddaş borcumuzdur.

Bayram günü xatırladılacaq daha bir məsələ. Məlumdur ki, 1918-1920-ci illərin faciəli və sevincli, başqa deyimlə, təzadlı günlərindən sonra xalqımız, torpağımız «yağışdan çıxıb, yağmura düşdü». «Sapı özümüzdən olan baltalar» daşnaklara Azərbaycan ziyalılarına - yenicə yetişməkdə olan siyasi, hərbi, mədəniyyət və maarif xadimlərinə divan tutmaq imkanı yaratdılar. Cümhuriyyətin görkəmli rəhbər xadimlərinin bir qismi daşnak terrorçularının qətliamına məruz qaldı (Fətəli xan Xoylu, Nəsib bəy Yusifbəyli və b.).

Xəlil bəy Xasməmmədli 60 il bundan əvvəl yazmışdır. «Şübhəsiz, bir gün gələcək, Azəri türkləri də milli cümhuriyyətin bu fətrət (keçid) dövründən qurtulmuş olacaqdır. İştə o zaman hür (azad) məmləkətimizin mədyun (borclu) və əsl övladları, qürbət ellərin mətruk (tərk olunmuş) məzarıstanında istirahət edən mərhum Fətəli xanın baqiyələrini (qəbrini), onun qəlbimizdə yaşayan əziz ruhu ilə bərabər milli yurda, çox görmüş və keçirmiş zavallı ölkəmizə nəql edəcək (gətirəcək) və şairin dediyi kimi, ona kimsənin irişəməyəcəyi (çata bilməyəcəyi) iftixarlı bir abidə dikəldəcəkdir.

Bunu bizim həm vicdanımız və həm də milli qürurumuz tələb etməkdədir».

Gələcəyə böyük ümidlə baxan qeyrətli və namuslu ata-babalarımıza, min rəhmətə və hər gün anılmağa layiq millət mücahidlərinə, o cümlədən Xəlil bəyə bu vəsiyyəti ilə əlaqədar bu gün nə deyə bilərik? Dilim gəlmir, qələm işləmir!

Gəlin istiqlalımızın 75-ci ilində Azərbaycan dövlətini yenidən yaradan, Şərqdə ilk demokratik cümhuriyyəti quran, qeyrət, namus, cəsarət və iftixar rəmzi olan milli mücahid və şəhidlərimizi bir daha sevinc və kədərlə yad edək, bu yolun həqiqi yolçularına dayaq duraq, əcdadlarımızın əmanətinə xəyanət etməyək!

«Təzadlar» qəz. 28 may 1993

İKİNCİ TƏCRÜBƏNİ QORUYA BİLƏCƏYİKMİ?

1925-ci ildə İstanbulda Azərbaycan mühacir gəncliyi qarşısındakı çıxışını M.Ə.Rəsulzadə «İstiqlal məfkurəsi və gənclik» adlandırmışdı. Sonralar Milli Azərbaycan nəşriyyatı tərəfindən ayrıca kitabça şəklində buraxılmış eyni adlı kitaba bir sərlövhə də verilmişdi, «Uğursuzluğumuzun səbəbləri haqqında bir araşdırma».

1918-ci il mayın 28-də Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti elan olunana qədər istiqlal mücadiləsinin, 23 aylıq müstəqil dövlət həyatının tarixini alim, filosof, sosioloq, dövlət və siyasət adamı kimi hərtərəfli tədqiq edib araşdıran M.Ə.Rəsulzadə onun öz təbirincə desək «qazanc» və «uğursuzluqları» mahir bir sərraf kimi millət və zaman tərəzisinə qoymuş və nəhayətdə belə bir nəticəyə gəlmişdi ki, «*Biz əlimizə keçən istiqlalı qoruya bilmədik*».

Niyə qoruya bilmədik? Müəllif bu suala belə cavab verir: «Bu bir təcrübə idi. Bu böyük təcrübədəki uğursuzluğumuzun xüsusi və ümumi bir çox səbəbi vardır. Bu səbəbləri bir-bir təsnif və onların təsir əlaqəsini ayrı-ayrılıqda təhlil eləmək başlı-başına bir mövzudur. Bu mövzuya başqa bir vaxt həsr etmək lazımdır».

Göstərək ki, istiqlal mücadiləsinin əsas təşkilatçısı və tanınmış lideri M.Ə.Rəsulzadə müstəqil dövlətçiliyin əsas təməlini təşkil edən milli istiqlal məfkurəsinin təhlili və tədqiqinə geniş yer verir və yenə belə nəticəyə gəlirdi ki, «fikrən də qazanılmamış, milli şüurda sabit yer tutmamış məfkurə maddətən də qazanılmadı. İlk təcrübə uğursuzluqla bitdi». Bu kəskin nəticə ilə bərabər onu da qeyd edirəm ki, «İstiqlal məfkurəsi maddətən deyilsə də, fikrən qazanılmışdır».

Bu çox dərin və böyük elmi-nəzəri müddəalardan bizim günlərimizdə də öyrənilib nəticə çıxarılacaq və əməlin fəaliyyətdə istifadə ediləcək cəhətlər çoxdur. Əlbəttə, ən vacibi istiqlal və vəzifə eyforiyasından baş açıb bu zəngin irslə tanışlıq, ona yiyələnmək ön plana çıxmalıdır.

M.Ə.Rəsulzadə inanırdı ki, gənclər, gələcək nəsil istiqlal mücadiləsi tarixinin nəzəri və əməli təcrübəsindən bəhrələnəcək,

onun uğursuzluqlarından nəticə çıxaracaq.

Gələcəyə çox böyük ümidlə baxan M.Ə.Rəsulzadə 68 il bundan əvvəl gənclər qarşısında çıxışında deyirdi:

«Qafqaziya cümhuriyyətlərinin bugünkü vəziyyəti Finlandiyanın müharibədən əvvəlki vəziyyətindən fəna deyildir». Quru göstərişdən və qeyri-milli mənadan ibarət bir şəkildə olsa belə, mövcud olan cümhuriyyət ünvanları özü-özlüyündə bir qazancdır. İndiki halda Azərbaycan məhdud, çox ağır təzyiq və əsarət altında, bolşevik sistemilə olsa belə bir hökumət həyatı yaşayır.

Azərbaycan fikri mövcuddur. III İnternasional bu fikri hər nə qədər keçici bir «ruh xəstəliyi» kimi qələmə vermək istəyirsə də həyat öz sözünü deyir. İnqilabın təsiri ilə bu və ya başqa surətdə olsun, siyasi və ictimai həyata dəvət olunan xalq kütlələri, xüsusən kəndli kütləsi istər-istəməz hərəkətə gəlir, təşəkkül edir, milli mənliyini duyur. Mənafe və ruhuma zidd olan bir sistemi təmsil edən və əksəri rusiyalı yabançılardan ibarət olan şəhərli «fəhlə diktatorlarına» qarşı duyduğu hiss və icra elədiyi mübarizə sayəsində yekvücud və fəal bir siyasi qüvvət halına gəlir. Bu, bir qazancdır. Fəqət bizim burada qeyd etdiyimiz «qazanc» əlbəttə, bu deyildir. Məsələmizin beynəlmiləl bir mahiyyət aldığı, fikrimizin üç boyalı müqəddəs bir rəmzə malik olduğu kimi qazanclar da az deyildir.

Azərbaycan həyatına alıcı bir gözlə baxılır, oradan gələn gurultular sezən bir qulaqla dinlənilsə, bolşevizm ifratı və qızıl rus zülmü içində sovet idarəsinin qanlı papağı altında millətin mənliyini arayan, xalqın qürur və izzəti-nəfsini oxşayan hansı və mədəni bir hərəkatın, siyasi və milli bir cərəyanın gündən-günə kökləşdiyini görməmək qabil deyildir. Üsulunu başqa mütərəqqi millətlərin elmi və ədəbi hərəkatlarından, ənənəsini Mirzə Fətəlilər, Həsən bəylər, 1905-ci il inqilabı ilə müvəqqəti istiqlal dövrünün milliyyətpərvər mühərrir və ədiblərindən hərarətini əsrin ən qüvvətli və ən həyati məfkurəsini təşkil edən xalqçılıqdan, həyəcanını ən incə tellərə toxunan milliyyət hiss və duyğusundan alan bu cərəyan fədakar bir nəsil və məfkurəçi bir gənclik tərəfinddn təmsil olunur.

İndi xalqdakı türklük ruhunu yüksəldən, ona məfkurə hərarətini verən, azad vətən meyvəsini yetişdirəcək istiqlalçılıq fida-

nını öz məsum qanı ilə suvaran fədakar bir zümrə vücuda gəlmiş və gəlir. Yeni bir nəsil doğmuş, böyüyür. İştə, bu canfəda əməlpərvər və istiqlalçı gənc nəslin yetişdiyi və böyüdüyüdür ki, biz ona çox böyük məna verir, əsl qazanc olaraq, onu əhəmiyyətli sayırıq.

1918-1919-cu illərini dərk edən nəsil və siyasi həyatını istiqlal günlərinin təcrübəsi ilə başlayan sizlərsiniz ki, həqiqi inqilab səhifədarini yazacaqsınız. M.Ə.Rəsulzadənin böyük inam və inancla dediyi dövr və zaman gəlib çatmışdır. Azərbaycan neçə-neçə nəslin «xəyallarında həsrət çəkdikləri», uğrunda «can və qan verdikləri» müstəqillik yoluna qədəm qoymuşdur. İndi də ilk cümhuriyyət dövründə olduğu kimi həqiqi milli mücahidlərlə yanaşı, «istiqlaliyyət fikri gercəkləşəndə çaşbaş qalanlar da» «hökumət başında duracaqlarını ağıllarına belə gətirməyənlər də», «müsəlmanlıq varkən bu türk nerədən çıxdı?», deyənlər də, «istiqlal meyvəsindən zəhmətsiz bəhrələnməyə can atan bişərəflər də», «Türkiyə qüvvətli olursa, İran yaşarsa bizim də yaşayacağımız öz-özünə təmin olunacaq» deyib milli mənafedən çox şəxsi mənafeni güdən alverçilər də, «nəzərlərini Şimaldan çəkməyən bürokratlar da» mövcuddur. Bütün varlığını vətəninin istiqlalı yoluna və işinə həsr etmiş M.Ə.Rəsulzadə Azərbaycan istiqlalının son qələbəsinə ömrünün sonuna qədər inanırdı. O, ümid edirdi ki, yeni nəsil «ikinci fürsəti qaçırmayacaq», düşmən tanınacaq, milli intibah yüksələcək.

Yaşadığımız günlərdə tarix və millət qarşısında, əcdadlarımızın ruhu qarşısında imtahan veririk: Birinci cümhuriyyətin təcrübəsindən nəticə çıxarmaq lazımdır. Amma fikirləşirəm ki, bu məsuliyyəti dərk edənlərin sırası azalır, ya çoxalır? Mən bu suala cavab verməkdə acizəm. Amma onu bilirəm ki, «fikrən qazanılan istiqlal məfkurəsi» yenə də «şüurlarda sabit yer tutub, maddətən qazanılmasa» ikinci təcrübənin taleyi də ümidverici ola bilməyəcək. Axırıncı hökmü isə zaman verəcək. Arzumuz budur ki, M.Ə.Rəsulzadənin və bizim hamımızın qəlbən bağlı olduğumuz müqəddəs qayə çin olsun, ikinci təcrübədən müzəffər çıxaq.

«Aydınlıq» qəz. 28 may 1993

«AZƏRBAYCAN İSTİQLALI DRAMI...

Məşhur hüquqşünas və tarixçi, vətənpərvər mücahid Hüseyn Baykara İstanbulda nəşr olunmuş «Azərbaycan istiqlal mücadiləsi tarixi» kitabının fəsillərindən birini məhz belə adlandırmışdı. İllər keçir, mərhum eloğlumuzun vaxtilə söz açdığı «Azərbaycan istiqlalı üçün oynanan dramlar» kəlamı yenə öz yerini tutmaqdadır. Özü də məkrli, daha faciəli bir şəkildə.

Əgər milli oyanış və istiqlal mücadiləsi tariximiz sistemli şəkildə diqqətlə araşdırılsaydı, bu dramların ssenaristləri, əsas ifaçı və iştirakçıları, onların güddüyü riyakar qayə və məqsədlər müəyyən qədər gün işığına çıxarıla bilərdi. Millətin isə keçmişdən xəbəri olardı, nəticə çıxarılardı, vaxtında lazımlı tədbirlər görülərdi. Ancaq nə edəsən ki...

I

Azərbaycan «dramı»nın ilk erməni-rus mərhələsi 1905-1906-cı illərdə oynanmağa başlanmışdı. Bütün Qafqazı bürüyən milli qırğınla əlaqədar 1906-cı ilin fevralında Tiflisdə keçirilən və 8 gün davam edən «sülh konfransında» Azərbaycan nümayəndə heyəti adından çıxış edən Əhməd bəy Ağayev demişdi: «Daşnaksutyun Rusiyanın böyük ricalının (adamlarının), generallarının və hətta canişini - Qafqaz həzrətlərinin fikir və əqidələrinə qulluq edir. Və 15 ildir ki, tərtib olunub və onun qoşunu, xəzinəsi, soldatları da vardır. Biz müsəlman vəkilləri bunu eşidəndə heyrət barmağımızı dişimizə tutub öz-özümüzə fikir etdik. Şimdi ki, iş belədir şimdi ki, bir müsəlləh firqə 15 ildən bəri tərtib olunub və hökumət adamları bunu bilib də, nəinki əlac etməyir, bəlkə onunla həməqidədirlər, bizim istər hökumətdən, istər ermənilərdən belə firqənin götürülməyini təmənna etməyimiz bi-

hudədir. Bizim ancaq özümüz öz əlacımızı edək. Bizim də gərək mükəmməl və müsəlləh firqələrimiz olsun. Bir hökumət ki, bir tərəfdən belə işlərə mütəhəmmil olur (dözür), gərək o biri tərəfdən də mütəhəmmil ola (dözə). Və illa (yoxsa) işlər hərc-mərc olar».

Fitnə-fəsad siyasətçiləri o vaxt az-çox tanındı, millətin qeyrətli oğulları tərəfindən ilkin tədbirlər də görüldü, «Difai» partiyası daşnaklara lazımi cavabı da verməyə müvəffəq oldu. Lakin ara nisbətən sakitləşən kimi öz fitva verənlərimizin də əli ilə düşünən başlara, milli mücahidlərə qarşı müxtəlif səmtlərdən atəş açılmağa başladı. Əhməd bəy Ağayev başını götürüb Türkiyəyə qaçmağa məcbur oldu. M.Ə.Rəsulzadə İrana yollandı. Ə.Hüseynzadə Azərbaycanı tərk etdi. Qaçırılan, həbs və sürgün edilən ziyalıların sayı 100-ü keçdi.

Göstərim ki, hələ birinci faciə ərəfəsində Əli bəy Hüseynzadə «Türk» qəzetində dərc olunmuş bir məqaləsində açıqca yazırdı ki, «bir millət üçün hər şeydən əqdəm arzu ediləcək şey qüvvətdir. Zəmanəmizdə millətlərin səadətinə yeganə vəsitə budur. Bir millətin kəsbi-qüvvət etməsi nüfusun kəsrətinə (çoxluğuna), əfradın səhhət və afiyyətinə və anasiri-mütəcanisəsi (eyni millət nümayəndələri) arasında mənəvi bağlılığın artmasına bağlıdır».

Bu faciə ilə əlaqədar Azərbaycanın milli müqəddəratı və xalqın gələcək taleyi məsələsi üzərində düşünülməyə başlandı. Gəncə millət vəkili İsmayılxan Ziyadxanov, 1906-cı ildə I Dövlət duması tribunasından ilk dəfə bu barədə açıq və cəsarətli çıxış edib, necə deyərlər, yüksək səviyyədə itaətkarlıq və yarınmaq buzunu sındırdı: «Zaqafqaziya torpaqları 100 il bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir. Bu 100 il içində biz müsəlmanlar həmişə əsir müamiləsi görmüş və bu sifətlə hər təqibata məruz qalaraq hər cür haqq və hüquqdan faydalanmaz kölə vəziyyətinə endirilmişik. Sözün həqiqi mənasında 100 il içində biz gözləri hər şeyi görən hökumətin şiddətli əleyhimizə mənfi düzəltmələri altında yaşadılmışıq. Siyasi, sosial və iqtisadi sahə-

nin hansı sahəsi ələ alınarsa-alınsın, hər birində bizim haqqımızda haqsızlığın hökm sürdüyünü görmüş olacaqsınız. Ölkəmiz istila edilər-edilməz dərhal milli varlığımıza təcavüzə qalxışıldı. Dinimizə və müqəddəslərimizə təcavüzə qalxışıldı». Bu millətin ilk açıq harayı, bir növ həyəcan təbili idi.

II

1917-ci il M.Ə.Rəsulzadənin də yazdığı kimi, «böyük müharibə, böyük bir inqilab doğurdu», «məhkum siniflərə hürriyyət, məhkum millətlərə muxtariyyət» vəd edildi. Bu vaxt Azərbaycan muxtariyyəti dəxi bir şüar olaraq ortaya atıldı. «Azərbaycan türkü cahan müharibəsi ilə Rusiya inqilabından öz azadlıq və milli hakimiyyətini təyin edəcək bir nəticə gözləyirdi». Lakin bolşeviklərin hökuməti zorla əldə etmələri ilə Rusiyanın hər tərəfində bir anarxiya başlandı.

M.Ə.Rəsulzadə bu dövr Qafqazda, o cümlədən Azərbaycanda yaranmış vəziyyəti «Azərbaycan cümhuriyyəti» əsərində belə səciyyələndirirdi: «Qafqasiya müsəlmanlarının halı pək müşkül idi».

İstiqlal «dramı»nın ikinci pərdəsi 1918-ci ilin martında oynanıldı. «Rusiyanın türklərə qarşı ənənəvi bir müttəfiqi olan ermənilər» Bakı Sovetinin rus qoşunları ilə birlikdə «müsəlman məhəllələrinin başına od yağdırmağa, cəhənnəm püskürtməyə başladılar». Bəhanə «Müsavat» firqəsi və «Müsəlman milli komitəsi»nin fəaliyyəti idi. Bakını Azərbaycandan ayırıb milli istiqlal yolunu kəsmək - əsas qayə bu idi. Əslində ermənilərin əli ilə müsəlmanları Qafqazdan sıxışdırıb çıxarmaq və məhv etmək siyasəti həyata keçirilirdi. Həmin günlərdə Zaqafqaziya seymi tərəfindən Yerevan hadisələrini təhqiq edən komissiyanın raportunda göstərilirdi ki, «Yerevan vilayətində 211 müsəlman kəndi yerlə-yeksan edilib qaçqınların ədəbi yüz minə varıyor». M.Ə.Rəsulzadə yazırdı: «Şamaxının düçar olduğu təcavüzə

Lənkəran, Salyan, Quba, Nəvahi və Kürdəmir qəza, şəhər və qəsəbələri dəxi məruz qaldı. Bu təcavüzlər əsnasında yıxılan xanimanların, qıyılan irz və namusların, kəsilən qarı, qocaların, yağmağa gedən mal və məvaşin təsviri qeyri-qabili-təsəvvür bir faciə təşkil edir».

Belə bir təhlükə qarşısında milləti müdafiə edəcək yalnız bir Gəncə qalmışdı. Gəncə isə bu ağır vəzifəni təkbaşına davam etdirəmməzdi. Azərbaycan əfkari-ümumiyyəsində təbii olaraq bir iman doğurdu ki, bu müşkül vəziyyətdən milləti qurtaracaq yeganə bir çarə vardır, o da türklərin qardaş köməyi və milli istiqlal idi. 1918-ci ilin 28 mayı bu istəyi reallaşdırdı.

III

Bu gün 75 illiyini qeyd etdiyimiz «aləmi-islamda təşəkkül edən ilk cümhuriyyət» - Azərbaycan xalq cümhuriyyəti milli tariximizin iftixar səhifəsi Azərbaycan dövlətçiliyinin bərpası və yeniləşməsi yolunda atılan tarixi addım və hadisədir. Son illər cümhuriyyət və onun yaradıcıları barədə xeyirli və faydalı əsərlər çox yazılıb. O cümlədən, M.Ə.Rəsulzadənin bir sıra əsərləri çap olunub. Bunlar lazımlı və faydalıdır. Lakin öyrənilməsi, nəticə çıxarılası, bu gün də istifadə ediləsi məsələ və problemlər az deyil. Bunların içərisində M.Ə.Rəsulzadənin «İstiqlal məfkurəsi və gənclik» əsəri xüsusi dəyər kəsb edir. 1925-ci ildə İstanbulda «İstiqlalçı Azərbaycan gəncləri ittifaqı»nın konfransında etdiyi bu çıxış həmin il ayrıca kitabça şəklində də buraxılmışdır. Müəllif kitabçaya ikinci bir yarımsərlövhə də vermişdir: «Əsbabi-həzimətimizə aid bir mütaliə (uğursuzluğumuzun səbəbləri haqqında bir araşdırma)».

Əvvəlcədən deyim ki, təkcə nailiyyətlərin, qazanılmışların deyil, uğursuzluqların səbəblərini də araşdırmaq əsl böyük dövlət və siyasət adamlarına xas olan keyfiyyətdir.

M.Ə.Rəsulzadə 23 ay ömür sürmüş müstəqil Azərbaycan

cümhuriyyətinin uğursuzluğunu, süqutunun səbəblərini nədə görürdü? Kitabçadan göründüyü kimi, o, məsələni tarixən, kompleks şəkildə dünyada, Rusiya və Qafqazda, Yaxın Şərqdə baş verən və cərəyan edən obyektiv tarixi problemlər işığında təhlil edir və lap başlanğıcdan qeyd edirdi ki, «Azərbaycanımızda milli fikrin həyatı nisbətən əski olsa da, sözün aydın mənası ilə istiqlalçılıq fikri çox yenidir», «bəzi yaşlı-başlı arkadaşlarımızın belə istiqlalçılıqları Azərbaycan istiqlalından da gəncdir. Yəni onlar 1918-ci ildə elan olunan Azərbaycan istiqlalını özlərinin gözlədikləri xoşbəxt bir hadisə, xəyallarında həsrət çəkdikləri bir fikrin nəhayət, gerçəkləşmiş bir məhsulu deyil, gözlənilməyən bir hadisə kimi qiymətləndirmişlər».

«Milli istiqlal məfkurəsi milli mənliyini dərk eləmiş, mədəniyyətcə inkişaf etmiş millətlərdə doğar» - M.Əminin gəldiyi ikinci nəticə belədir. O yazırdı ki, Azərbaycan mühiti ictimai və siyasi təşəkkül və inkişaf hesabı və qonşularından daha az irəliləmiş olmasına baxmayaraq, «Qafqasiyada muxtariyyət şüarını konqre halında ilk dəfə elan edən azərbaycanlılar olmuşdur». Əgər gürcü dövlət xadimləri ilə Azərbaycan xadimləri üçün Zaqafqaziyanın, sonra isə Gürcüstan və Azərbaycanın Rusiyadan ayrılması və istiqlalını elan etməsi tarixi zərurətdən irəli gəlirdisə «ermənilər üçün bu, çarəsi olmayan bir «bəla» kimi idi».

Azərbaycan Cümhuriyyətinin varlığını, 28 may futuhatını həddsiz dərəcədə yüksək qiymətləndirən müəllif yazırdı ki, «Azərbaycan dövri istiqlalına bolşeviklər «müsavat dövrü» deyirlər. Fəqət xalq bu dövrə Azərbaycan dövrü deyir... Xalqın düşüncəsində Azərbaycan məfhumu çoğrafi bir mənadan ziyadə fikir və əməl şəklində təcəssüm ediyor. İstiqlal xaricində onun üçün Azərbaycan yoxdur»...

M.Ə.Rəsulzadə yada salırdı ki, yaşlılar ən çox keçmişlə, cavanlar gələcəklə nəfəs alırlar. Odur ki, gənc azəri istiqlalçılarının diqqətini ən çox inam və inanc, milli istiqlal məfkurəsinin şüurlarda və əməllərdə möhkəm yer tutub maddi bir qüvvəyə

çevrilməsi məsələsinə cəlb edirdi. Məsələn, o etiraf edirdi ki, «biz əlimizə keçən istiqlalı qoruya bilmədik». Nə üçün? Ona görə ki, «fikrən də qazanılmamış, milli şüurda sabit bir yer tutmamış məfkurə maddətən də qazanılmadı. İlk təcrübə uğursuzluqla bitdi». Elə buradaca M.Əmin «uğursuzluq» təbirinin daimi olmadığına diqqəti cəlb edir, gəncliyi istiqlal savaşının yeni, mütləq baş verəcək günlərinə hazırlaşmağa çağırırdı. «Azərbaycan həyatına alıcı bir gözlə baxılır. Oradan gələn gurultular sezən bir qulaqda dinlənilsə... sovet idarəsinin qanlı papağı altında millətin mənliyini arayan, xalqın qürur və izzəti-nəfsini oxşayan hansı və mədəni bir hərəkatın» siyasi və milli bir cərəyanın gündən-günə köklәşdiyini görməmək qabil deyildir».

Azərbaycan istiqlalının memarı, «canfəda» əməlpərvər və istiqlalçı gənc nəslinə yetişəcəyinə ümidlə baxır, «ona çox böyük məna verir, əsl qazanc olaraq onu əhəmiyyətli» sayırdı.

IV

Azərbaycan istiqlalının növbəti «dramı» bizim günlərimizdə, artıq az-çox dünyanın gözü qarşısında cərəyan edir. İfaçılar, iştirakçılar yeni, siyasət, qayə və məqsədlər köhnədir, əskidir. Yenə də ölüm təhlükəsindən çıxmağı, fəlakəti dəf etməyi millətin öz potensial imkan və gücündə deyil, kənarda axtaranlar vardır. Bunun ən əsas səbəbi M.Ə.Rəsulzadənin vaxtilə müdrikcəsinə gördüyü və xəbərdarlıq etdiyi milli istiqlal məfkurəsinin, kütləvi iman və inancın, etibar və etiqadın çatışmamasıdır. Əgər istiqlal rəmzləri və institutları; əksəriyyət tərəfindən bəyənilən və həyati önəm daşıyan. ideya-mənəvi və siyasi-əxlaqi milli təfəkkür tərzi, milli istiqlal məfkurəsi ilə Ə.Hüseynzadənin vaxtilə dediyi mənəvi bağlarla möhkəmləndirilməsə, bizi müşayiət edən istiqlal «dram»larından yaxa qurtara bilməyəcəyik.

70 il bundan əvvəl 1923-cü ildə Azərbaycan istiqlalının 5-ci ildönümü münasibətilə Bakıda istiqlal komitəsi heyəti mərkəziyyəsi tərəfindən nəşr olunmuş bir bəyannamədə deyilirdi: «28 Mayda Azərbaycan türk xalqı istiqlalını elan etməklə öz doğma, sevimli və şəfqətli anasının qaynunda azad bir türk mədəniyyəti qurmaq, azad bir türk sənəti, türk ədəbiyyatı, türk həyatı yaratmaq istəyirdi. Buna mane olan Rusiyanın yeni üsullu çar hökumətidir. Azəri türkləri gözəlcəsinə bilirlər ki, rus bayrağını qırmızı rəngə boyayan türk xalqının günahsız qanıdır...

Azərbaycan türk xalqının məsumanə axan qanından firlayan milli intibah rus ağalarının son qəbir daşı olacaqdır.

Ey türk xalqı! Səni azad edəcək, xoşbəxt yaşadacaq qanlı mübarizəyə bütün qüvvətinlə hazırlan! Səni bu mübarizə xilas edəcəkdir! Azərbaycan istiqlalını bir dəfə qurdun, bir daha qurmaq bacarığına maliksən! Düşmənini tanı, milli intibahını yüksəlt, haqq sənindir!».

M.Ə.Rəsulzadə «Azərbaycan cümhuriyyəti» kitabının titul səhifəsində öz adından əvvəl məşhur türk istiqlalçı şairi Tofiq Fikrətin aşağıdakı məşhur beytini vermişdi.

Millət yoludur, haqq yoludur, tutduğumuz yol,
Ey haqq, yaşa, ey sevgili millət, yaşa, var ol!

«Xalq qəzeti» 28 may 1993

İÇİMİZİ, ÇÖLÜMÜZÜ DÜZƏLDƏK!

Bu sözləri sabah anadan olmasının 108-ci ildönümünü qeyd etdiyimiz Üzeyir bəy Hacıbəyov 77 il bundan qabaq - 1916-cı ildə ürək ağrısı, ciddi həyəcan, milli sarsıntılar və faciələr şəraitində yazmışdır. Adətən xalqına, onun varlığına və gələcəyinə çox böyük ümidlə baxan, onun tərəqqisi və dirçəlişi yolunda tükənməz zəhmət və fədakarlıq göstərən Üzeyir bəy dünya müharibəsi və Qafqaz cəbhəsində türklərin və müsəlmanların başına gətirilən müsibətlərdən, millətin qeyrətini çəkməli olan və özlərini kişi adlandıranların «qeydsizliyi, hakimiyyətsizliyi və tənbəlliyin»dən qeyzə gələrək silsilə məqalələr yazaraq ürəyini boşaltmışdı. Üzeyir bəy həyəcan təbili çalaraq yazırdı ki, millətimizin yaşamaq enerjisi, ümid işığı, bu işığın dairəsi deyəsən «ildən ilə daralıb sönməkdədir və bu sayaq ilə qalarsa, bir gün dəxi sönəcəyi aşkardır».

Bu sözlər yaşadığımız günlərdə də eyni tərzdə, eyni ağrı və həyəcanla səslənmirmi? Bizim bir xalq kimi əsrlərin «cəhalət qaranlığından» necə çıxa biləcəyimiz, yaxud açıqca məhvə doğru gedəcəyimiz dardüşüncəli şəxsi mənafe və avantürist ambisiya çərçivəsindən uzağı görməyənlərin anlamadıqları adi gündəlik məsələ deyil, tarixi və taleyin qarşımıza qoyduğu qlobal olum və ya ölüm dilemmasıdır. Bu dilemmanı yalnız və yalnız ölüm-dirim savaşında xalqın və Tanrının qədəri ilə siyasət səhnəsinə çıxan əsl böyük istedad, ağıl, təcrübə, bilik və real düşüncə sahibi olan şəxsiyyətlər müsbət həll edə bilərlər, yalnız belə olduqda xalqın gələcəyə olan ümid işığı sönməz. Böyük siyasət, düşüncə ustası və vətəndaşlıq qeyrəti sahibi Ömər Faiq dostu və məsləkdaşı Üzeyir bəyin həyəcanına məhz bu tərzdə cavab verirdi. Ömər Faiq, zənnimcə, diqqətlə oxuyacağınız «İşığımız sönməyəcəkdir» məqaləsini gələcəyə - «milyonlarca nəvələrə ümid hissi, müraciətlə qurtarır və əmin olduğunu bildirirdi ki, «onlar özlərini aləmə saydıracaq böyük bir kütlə surətində vardırlar, onların işıqları da var olub artacaqdır. Buna isə heç bir şəkk yoxdur». Mən isə öz tərəfimdən deyirəm ki, arzun çin olsun, böyük ustad, işığımız qoy heç vaxt sönməsin. Amma bu işığı qorumaq, onu sönməyə qoymamaq böyük səfərbərlik, cəsarət, qeyrət və namus tələb edir, bunu da yadda saxlamaq vacibdir. Yoxsa...

«MÜFTƏXOR MİLLƏT» ƏHVALATI

Bu yaxınlarda xarici ....alimlərdən biri Qərb-Şərq probleminin yenidən ön plana çıxması ilə əlaqədar bu tarixi prosesin keçmişinə bir nəzər salaraq göstərdi ki, Qərb beş əsrdən çoxdur ki, elmi-texniki inkişaf və tərəqqi sahəsindəki qabaqcıl rolunu mühafizə edib saxlamaqdadır. İctimai tərəqqi və idarəetmənin dini görüşlərdən elmi təməllər üzərinə keçirilməsi işi Qərbdə maarifçilik hərəkatının səylərilə uğurlu yürüşünü davam etdirməkdədir. Lakin bu yeni bəşəri inkişaf meyllərini vaxtında görməyənlər indi də «Müftəxor millətlər» cərgəsində addımlayırlar. «Müftəxor millət» əsasən inkişaf etmiş alimlərin istehsal etdikləri milli-mənəvi məhsullar hesabına baş girləyib bu prosesdə payı olmayanlara deyilir. Təbii sərvətlər isə tanrı və taleyin payı sayılır.

Azərbaycan maarifçiliyinin banisi Həsən bəy Zərdabi hələ keçən əsrin 60-70-ci illərindən həyəcan təbili çalıb «görpü sudan uzaq düşüb», deyə fəryad edirdi. Azərbaycan maarifinə və mədəniyyətinə hədsiz xidmətlər göstərmiş Firudin bəy Köçərli yazırdı ki, maarifsiz millət zülmətdən xilas ola bilməz». M.Ə.Rəsulzadə lap ilk təcrübələrini elmin, maarifin vəsfinə həsr etmişdi. Ömər Faiq isə yazırdı ki, «müəllim məsələsi yalnız bizim deyil, hər millətin ölüm-dirim məsələsidir», «hər millətin tərəqqi dərəcəsi müəllimlərinin dərəcəsi ilə bilinər», «müəllimlər millətlərinin canlı «qradus»larıdır».

Biz indi də dərdlərimizin, naxoşluqlarımızın gizli səbəblərini axtarırıq. Yaponlar müharibədən sonra tərəqqi yoluna təhsil sistemini müasirləşdirmək, müəllim problemini həll etməyə girişməklə başladılar. Bəs bizdə bu mühüm milli məsələyə münasibət necə olub və necədir?

«Xalq qəzeti», 17 iyul 1993

İŞIĞIMIZ SÖNMƏYƏCƏKDİR

Bu son çağlarda milli ehtiyac və diləklərimizdən ötrü yazılmaqda olan məqalələr bizim mətbuatımızda öz yolunda, öz həyatının qeydinə yavaş-yavaş düşmək istədiyini göstərən birən şahidlərdir.

Belə şahidlərdən biri də cənab Üzeyir bəyin bir az qabaq yazdığı «Nəyimizin vaxtıdır?» məqaləsidir.

Üzeyir bəy o uzun məqalələrində düçar olduğumuz azarları, dərdləri bir-bir sayır, bugünkü halımızı, yəni hər işdə tənbəlliyimizi, qeydsizliyimizi, həmiyyətsizliyimizi, bacarıqsızlığımızı çox doğru, çox ətraflı olaraq təsvir edir. Hətta naxoşluğumuzun qorxulu olduğunu da göstərir. Lakin çox heyf ki, səbəblərini və əlacını açıq göstərmir. Ümumi bir sözlə: «içimizi, çölümüzü düzəldək» - deyir.

Amma nə cür düzəldək? Burasını mühərrir cənabları ya bizdən qısqanmış və ya sonraya buraxmış olmalıdır ki, üstünü açmıyor. Açdığı ancaq burasıdır ki, deyir: «İndi bu 10 ilin ərzində bu milli təşəbbüslərimizdən Qafqaz müsəlmanları tərəqqi və təkamül yolunda «bol-bol» mənfəətlər görməli idilər, bu tərəqqi və təkamül mənbələrindən saçılan işıqların dairəsi hər il getdikcə böyüyüb cəhalət qaranlığının ən uzaq guşələrini işıqlandırmağa başlamalı idi; halbuki əksini görürük: İşıq dairəsi ildən-ilə daralıb sönməkdədir və bu sayaq ilə qalarsa, bir gün dəxi sönəcəyi aşkardır».

Xeyr, əzizim, xeyr! İşıq dairəmiz sönməyə mail olsa da arxayın olunuz, sönməyəcəkdir. Bəlkə getdikcə böyüyəcək, o qədər böyüyəcək ki, ta babalarımızın keçmələri üçün çəkilən Çin səddini də keçəcəkdir.

İşığımızın sönəcəyi 1905-ci ilin verdiyi «hüquq» ilə bu 10 il içində bacarmadığımızla isbat edilmək istənilir. Lakin elə sanıram ki, o «hüquq» ilə bu, «on» il içində ancaq bu qədər tərəqqi ola bilər. Çünki, tərəqqi və təkamülün bağlı olduğu iki qüvvət ki, biri mənəvi, digəri siyasidir, bizdə indi-indi vücudlarını hiss etdirməyə başlamışlardır.

İslamın verdiyi mənəvi qüvvət, zatən çoxdan zəifləmiş, siyasi qüvvət isə 1905-ci ildə oktyabrın 17-dən... bu halda hansı «mənbələrdən» saçılan işıq ilə bizim cəhalət qaranlığının, hələ uzaq guşələri qalsın, yaxın guşələri işıqlanmalı idi?

Təkrar edirəm, tərəqqi və təkamül mütləq iki şərtə bağlıdır; ya dini və ya siyasi təbəddülat. Bu təbəddülat və inqilablar hərçənd məmləkətin mühitinə, millətlərin təbiət və əxlaqına görə az-çox müxtəlifdir, amma nəticə cəhətilə hamısı birdir.

Doğrudur, bizdə 1905-ci ildə siyasi təbəddülat oldu. Lakin bu təbəddülat və inqilab tezdən böyük səmərələr verən təbiətdə deyildi. Bəlkə əsl təbəddülatın başlanğıcı birinci tükməsi (düyməsi) ilə, ikinci və üçüncü tükmələr üçün təbiətən dala və geri getmək lazım idi. Amma bu dala getmələr bütün-bütün dala çəkilib yıxılmaq üçün deyil, biləks qabağa getmək fikri ilə rahatlanıb daha zorlu tükmələr vurmaq üçündü.

Bəli, 1905-1906-cı illərin təsiri ilə biz də hamı ilə bərabər «qızışdıq», bir az çalışdıq. Sonra yavaşladıq, sanki yorğunluğumuzu almaq istədik, aldıq. İndi yenə hamı ilə bərabər biz də qızışmaya başlayırıq, çalışmaya üz qoyuruz.

Bu, bizim üçün əskiklik deyil.

Bu, inqilab və təkamülün təbii qanunudur. Hamının başına gələn bizim başımıza da gəlməkdədir.

Burasını da boynumuza alalım ki, 1905-ci ildə bizim payımıza düşən iş ancaq inqilabçıları yamsılamaq oldu. Əsl təbəddülata isə biz hələ təzə hazırlaşırız.

Umulur ki, ətrafımızda keçən vaqiələr, cahanı titrədən dəhşətli inqilablar bizim bu hazırlaşdırmamızı da tələsdirir. Və bir tərəfdən bu kimi xarici səbəblər, digər tərəfdən camaatımızın özündə olan təbii istedad yanmağa başlayan işığımızı «söndürmək» deyil, daha da artıq parladır.

Heç ola bilərmi ki, vaxtı ilə İbn Sinalar, Fərabilər, Cövhərilər, Uluğbəylər, Cəlaləddin Rumilər, Əlişir Nəvailər, Füzulilər və qeyrilər kimi türkoğlu türk alimlər yetişdirən bir millətin işığı asanlıqla sönsün?

Hələ əskilərə, uzaqdakı tazələrə də getmiyəlim. Hər dürlü

hüquqdan məhrum məmləkətimizdə belə ən cahil və həmiyyətsiz vaxtımızda adi mirzələrdən - Fətəli Axundovlar, ən fağır baqqal Məşədi Ələkbərdən - Sabirlər, Şamaxı mühitində əsir qalmış seyidlərdən - Seyid Əzim Şirvanilər kimi ədiblər, şairlər, 12 manata qulluq edən kəndli əmələlərdən Murtuza Muxtarov kimi müqtədir texniklər və qeyrilər yetişdirən bu millət işığının gələcəkdə gözlədiyimiz «haqq və ədalət» altında daha artıq parlayacağı «aşkar» deyilmi?

Doğru, bu gün o işıq sönən kimi görünür, lakin əsla sönməz, çünki o işıq özgə işıqdır, çünki özümüz kimi işığımız da qəribə xasiyyətlidir. Görürsən ki, bu işıq əsrlərdən bəri gah ətrafı qaplamış, bir çox yerlərdə hala baqi qalan böyük mədəni əsərlər vücuda gətirmiş, gah azalıb kiçilmiş, həm də o qədər kiçilmiş ki, indiki kimi sönəcək zənn edilmiş, lakin sönməmiş. Bir az sonra yenə birdən parlamış, qüvvətli məşəllər meydana gətirmiş, böyüdükcə böyümüş, sonra yenə alçalmış, alçalmağın son dərəcəsinə gəlmiş, hər kəs sönəcək zənn etmiş, lakin sönməmiş, yenə parlamağa üz qoymuşdur.

Madam ki, mədəniyyət aləminin fəxr etdiyi Fərabilər və İbn Sinalar parladan əski bir millətin, bu gün milyonlarca nəvələri - torunları var və həm də özlərini aləmə saydıracaq böyük bir kütlə surətində vardırlar, onların işıqları da var olub artacaqdır. Buna isə heç bir şəkk yoxdur.

Ömər Faiq

«Açıq söz», *№ 90, 20 yanvar 1916*

«Aydınlıq» qəz. 9 sentyabr 1993

«BU DÖVLƏTİ RƏSULZADƏ YARADIB»

Şirməmməd Hüseynov: «O, Türk ordusunu Bakıya gətirməsəydi, indi Azərbaycan yox idi»

Tariximizi doğru-dürüst bilməməyimiz, dost-düşmənimizi yaxşı tanımamağımız hər zaman başımıza bəla olub. Elə vaxtaşırı bir ovuc ermənin toruna düşməyimiz həm də yaxın-uzaq keçmişimizdən bixəbərliyimizlə bağlıdır.

Həmsöhbətimiz Azərbaycan Demokratik Cümhuriyyəti dövrünün araşdırıcılarından biri olan professor Şirməmməd Hüseynovu da ən çox təsirləndirən elə tariximizə laqeyd münasibətimizdir.

Müsahibə üçün müraciət etdikdə əvvəlcə razılaşmadı. Ölkənin mövcud durumu, mətbuatın vəziyyəti, problemlərindən qurtulmağın yolları barədə danışmaqdan imtina etdi. Yalnız bir müddət öncə dövlət başçısı İlham Əliyevin «İrəvan şəhərini Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi 1918-ci ildə Ermənistana hədiyyə edibdir. Yumşaq desək, o da böyük bir səhv idi» söyləməsi söhbətimizin baş tutmasında açar rolunu oynadı. Görkəmli alim tarixi faktların olduğu kimi təqdim olunmasını zəruri sayıb gerçəkləri dəlil-sübutlarla qəzetimizə açıqladı:

- 1918-ci il mayın 29-da Tiflisin Canişin sarayında toplaşan Milli Şuranın qəbul etdiyi 3 saylı protokolunda bu barədə tam təfsilatlı ilə göstərilib. Həsənbəy Ağayevin sədrliyi ilə keçirilən iclasda Milli Şuranın 44 üzvündən 28 nəfər iştirak edib. Fətəli xan Xoyski iclasda məruzə ilə çıxış edərək Milli Şuranın nümayəndələri ilə erməni Milli Şurasının təmsilçiləri arasında keçirilən danışıqlar barədə məlumat verib. Deyib ki, Azərbaycan və Ermənistan federasiyaları öz sərhədlərini müəyyənləşdirməyi qərara alıb. Xoyski məruzəsini belə bir məlumatla qurtarır ki, Ermənistan Federasiyasının yaradılması üçün siyasi mərkəz lazımdır. Çünki o vaxtadək ermənilər özləri üçün Aleksandropolu (indiki Gümrü şəhəri - E.P.) mərkəz hesab edirdilər. Amma həmin dövrdən Aleksandropol Türkiyənin nəzarətinə keçdiyi üçün ermənilər mərkəzsiz qalır. Xatırladım ki, 1918-ci

ilin martında Leninlə almanlar arasında Brest Litovski sülh müqaviləsi bağlandı. Bu müqaviləyə əsasən Qars, Ərdahanla birgə Aleksandropol da Türkiyəyə verildi. Buna görə də ermənilər İrəvanın siyasi mərkəz kimi onlara verilməsini xahiş etdilər. Fətəli xan da öz çıxışında İrəvanın ermənilərə güzəştə gedilməsinin zəruriliyini bildirib. Hətta deyib ki, İrəvanın ermənilərə verilməsi qaçılmazdır. Bu mövqeyə etirazlar olsa da, məsələ səsverməyə çıxarılıb və 16 nəfər İrəvanın verilməsinə razılıq verib. Səsvermə zamanı yalnız 1 nəfər əleyhinə, 3 nəfərsə bitərəf qalıb. Ancaq bir fakta xüsusi diqqət yetirinki, burada İrəvanın Ermənistan dövlətinə yox, Ermənistan Federasiyasına siyasi mərkəz olaraq güzəşt edilməsindən söhbət gedir. Elə həmin iclasda ermənilərlə konfederasiya yaratmaq haqqında müzakirə açılıb. Qısa fikir mübadiləsindən sonra Ermənistanla Azərbaycanın konfederasiyada birləşməsi məsələsi yekdilliklə qəbul olunub.

- Dediniz ki, Milli Şurada İrəvanın ermənilərə verilməsinin qaçılmazlığı qeyd olunub. Azərbaycanı buna vadar edən əsas səbəb nəydi?

- Dövlətin taleyi həll olunan yerdə təbii ki, güzəştlər labüddür. Bəzi xəstəliklər zamanı adamın həyatı təhlükə qarşısında qalanda deyir ki, ayağımı, əlimi kəsin, təki salamat qalım. İrəvanın taleyi də həmin dövrdə belə idi. O vaxt dövləti, milləti xilas etmək üçün İrəvan ermənilərə verildi. İndi kim lovğalanırsa, gedib Qarabağı azad eləsin.

- Bu bir faktdır ki, Milli Şuranın nə ordusu, nə əsgəri, nə də topu-topxanası yox idi. Azərbaycanı necə müdafiə edəydilər.

- Sadəcə Azərbaycanı xilas eləmək üçün o addımı atdılar. Bununçün nə Milli Şuranı, nə də onun üzvlərini qınamaq lazım deyil. Hətta Xasməmmədov, həmçinin Milli Şuranın İrəvandan olan bir neçə üzvü bu qərarın əleyhinə çıxsa da, sonradan onları başa saldılar və qərara səs verdilər. İclasda bildirildi ki, məcburiyyət qarşısında qaldığımız üçün İrəvanı ermənilərə veririk. Yəni faciədir, amma bu addıma getməyə məcburuq. Ona görə də bu addımı tarixi zərurət kimi qiymətləndirirlər.

- Məlumdur ki, Məmməd Əmin Rəsulzadə həmin iclasda iştirak etməyib. İrəvanın ermənilərə veriməsi barədə müzakirələrin məhz Rəsulzadənin Tiflisdə olmadığı günə təsadüf etməsi məqsədliydi, yoxsa burda ayrı səbb vardı?

- Bu qərarı bəzən yanlış olaraq Məmməd Əmin Rəsulzadənin adına yazırlar. Ancaq bu, bir tarixi faktdır ki, Məmməd Əmin Rəsulzadə o vaxt iclasda olmayıb. Rəsulzadə o zaman Batumda türklərlə danışıqlar aparırdı. İrəvanın verilməsi ilə bağlı iclasda Rəsulzadə ilə yanaşı, Nəsib bəy Yusifbəyov da iştirak etməyib. Ancaq unutmayın ki, Məmməd Əmin Rəsulzadə bir nəfər idi və bir səsi vardı. İndiki dövr deyil ki, parlament rəhbəri nə desə, o da olsun. Milli Şura da müstəqil partament idi və bir adamın iradəsindən asılı deyildi. Orada çox demokratik ab-hava var idi. Digər tərəfdən, Rəsulzadə hələ mayın ortalarında o vaxtkı Zaqafqaziya Seyminin nümayəndə heyətinin üzvü kimi Batuma türklərlə danışıq aparmağa getmişdi. Bu danışıqlar gedən zaman almanlar tərəfindən müdafiə olunan gürcülər elan etdilər ki, biz Seymdən çıxıb müstəqil dövlət oluruq. İngilislər və ruslar tərəfindən himayə olunan ermənilərsə, Aleksandropolu paytaxt elan etməkdən məhrum olduqlarını bildirəndə onlara «siz də hökumətinizi İrəvanda qurun» dedilər. Yəni faktiki İrəvan artıq əldən getmişdi.

- Məmməd Əmin Rəsulzadənin qatıldığı danışıqların önəmi nə oldu?

- Bu zaman Bakı bolşeviklərin əlində idi. Rəsulzadə başa düşdü ki, türk ordusu gəlməsə, Bakını bolşeviklərdən xilas etmək mümkün olmayacaq. Tiflisdə 44 nəfər yığışaraq «biz müstəqil dövlətik» deməsi ilə nə olacaqdı ki? Bir tərəfdən Gürcüstan da Milli Şuraya deyirdi ki, mən müstəqil dövlətəm, ona görə də Tiflisdən çıxın. Buna görə də Rəsulzadə 1918-ci il iyunun 4-də Batumda türklərlə müqavilə imzaladı. O müqavilə əsasında Aleksandropol türklərə keçdi. İyunun 16-da isə milli hökumət Tiflisi tərk edib Gəncəyə köçdü. Bu zaman gördülər ki, Nuru Paşanın rəhbərliyi ilə türk ordusu artıq Təbrizdən və Culfadan keçərək Gəncəyə gəlib. 1910-cu ildə Türkiyəyə gedən Əhmədbəy Ağayev, Əli Bəy Hüseynzadə də Nuru Paşanın

yanında idi. Nuru Paşa vəziyyəti görəndə Rəsulzadəyə deyib ki, bu nə müstəqillikdir, sizin heç nəyiniz yoxdur. Üstəlik Ağayev və Hüseynzadə Rəsulzadəyə təklif etdilər ki, Milli Şuranı buraxın, Azərbaycan Türkiyəyə birləşsin. Rəsulzadə isə onlara dedi ki, Azərbaycanı, Bakını azad edək, ondan sonrakı taleyimizin necə olacağına baxarıq, Nuru Paşanın münasibətini görən Məmməd Əmin bundan sonra İstanbula gedib sultanla, Ənvər Paşa ilə danışıqlar apardı. Bunun ardınca Gəncəyə gəlmiş 300 nəfərlik türk qoşunu əvvəl 4 minə, sonra 8 minə çatdırıldı. Bakıya hücum edəndə isə türk qoşununun sayı 10 min idi. Bakıda təkcə ermənilərin 4 minlik qoşunu vardı. Hələ ruslardan danışmıram. Özü də ermənilərin hamısı Qafqaz cəbhəsindən gələnlər idi. Bizim heç nəyimiz yox idi. Müsəlmanları orduya çağırmamışdılar axı. Rəsulzadə o zaman bir əjdahalıq elədi. Gedib sultanla danışanda dedi ki, 300 əsgərlə bolşevikləri Bakıdan çıxarmaq olmaz. Hətta o vaxt bolşeviklər Gəncəyə, Yevlaxa doğru irəliləyirdilər. Məmməd Əminin İstanbulda apardığı danışıqlardan sonra türk qoşunu artdı və 3 ay yarımlıq hazırlıqdan sonra, 1918-ci ilin 15 sentyabrında Bakı azad olundu.

- Zaman-zaman Rəsulzadənin rolunun kiçildilməsinə yönəlik fikirlər səslənir, iddialar eşidilir. Bu iddialara cavabınız nə olardı?

- Rəsulzadə bu dövləti sözün həqiqi mənasında yaradıb. Əgər o, Türkiyəyə getməsəydi, onlarla müqavilə bağlayıb türk ordusunu çağırmasaydı, torpaqlarımızı birləşdirməsəydi, Azərbaycan Şaumyanın başçılığı ilə Rusiyanın tərkibinə keçiriləcəkdi. Necə ki, Dərbənd Rusiyanın əsarətinə keçirilmişdi. Qazax bölgəsinin Gürcüstana, Gəncə tərəfin də Ermənistana verilməsi planı var idi. Sonradan ermənilər ingilislərin, rusların əli ilə Aleksandropolu da türklərdən geri aldılar. Azərbaycanın bir dövlət olaraq mövcudluğu müzakirə mövzusu deyildi. Demokratik Cümhuriyyət 3 ay ərzində türk silahı ilə 15 minlik qoşun yaratdı. Hələ əvvəllər Şəmkir stansiyasında eşalonları saxlayıb silahları alırdılar. 23 ayda artıq ADR-in 30 minlik qoşunu, 8 piyada, 3 süvari alayı, 2 zirehli qatarı vardı. Həmçinin bir neçə zirehli avtomobilə, aeroplana malik idi. Bunların əksəriyyətini türklərdən almışdılar. Bu faktları bilmək və qiymətləndirmək

lazımdır. Cümhuriyyət qurucuları bunları ağılla, məntiqlə, siyasətlə yaradıblar.

Milli Şuranın bayram münasibətilə keçirilən iclasında da ilk olaraq Rəsulzadə çıxış edib. Çünki cümhuriyyətin yaradıcısı o idi və hamı Məmməd Əmini qəbul edirdi. Amma bu insan özü olduqca təvazökar olub. Hətta təklif edirmişlər ki, Azərbaycan prezident respublikası elan olunsun. O isə deyib ki, biz min illərdir padşahların, sultanların, diktatorların əsarəti altında yaşadığımızdan diktaturaya meylliliyimiz var. Yəni kimi prezident qoysan özünü sultan kimi aparacaq. Ona görə də parlamentli respublika daha yaxşıdır. Elə 23 aya 4 hökumətin dəyişməsi ciddi hadisədir. Deputatlar mövcud hökumətə etimadsızlıq məsələsini qaldıran kimi, məsələ müzakirəyə çıxarılırdı. AXC hökuməti ən demokratik hökumət olub. Bunlar belə kişilər idi. Həmin hadisələr indi baş verə bilərmi?

2002-ci ildə Rusiyanın «Voprosı istorii» jurnalı Məmməd Əmin Rəsulzadənin 21 səhifəlik «Azərbaycanda milli hərəkat» məqaləsini çap edib. Özü də bu, Rusiya Elmlər Akademiyasının Tarix institutunun təşəbbüsü ilə dərc olunub. Jurnalda birinci məqalə məhz budur. Kazan şəhərində Rəsulzadə haqqında kitablar çap olunur. Təəssüf ki, bizdə buna hələ diqqət verən yoxdur.

- Şirməmməd bəy, 2008-ci ilin «Cümhuriyyət ili» elan olunması barədə təşəbbüsləri nəzərə almasaq, AXC-nin 90 illiyinin qeyd olunmasına yönəlik dövlət səviyyəsində hansısa hazırlıqları müşahidə etmirik. Bununla bağlı nə deyə bilərsiniz?

- Bu bayram həm iqtidarın, həm müxalifətindir. Bütövlükdə millətin bayramıdır. Yanvarın 20-də həm müxalifət, həm də iqtidar Şəhidlər Xiyabanını ziyarət etdi. Əgər faciəni birlikdə qeyd ediriksə, bəs o bayramı niyə birgə qeyd etməyək? Bu yubiley yüksək səviyyədə keçirilməlidir.

- Rəsulzadəyə abidə qoyulması planlaşdırılan yerdə sonradan fantan quraşdırılması...

- (Sualı yanmçıq kəsir) Mən elə şeylərə əhəmiyyət vermirəm. Stalinin, Leninin nə qədər heykəlləri vardı. İndi hamı o heykəllər? Gərək heykəli xalqın qəlbində, taleyində qoyasan.

Rəsulzadə də buna nail olub.

- Sonda yenidən İravan mövzusuna qayıtmaq istərdim. Bəzi fikirlərə görə, Azərbaycan rəhbərliyi İrəvanın ermənilərə verilməsini xatırlatmaqla Dağlıq Qarabağın təsliminə zəmin hazırlamaq istəyir. Sizcə, tarix təkrar oluna, bu dəfə də Qarabağ ermənilərinə verilə bilərmi?

- Bir məsələni deyim ki, ötən əsrdə İrəvan güzəşt edilsə də, Demokratik Cümhuriyyət Qarabağı ermənilərə vermədi. O vaxt da ermənilər Qarabağda üsyan qaldırmışdı. Üzeyir bəy yazır ki, ingilis generalı Tomsona dedilər ki, biz Qarabağa 30 minlik qoşun göndərib torpaqlarımızı azad edəcəyik. Tomson etiraz edəndə onu başa saldılar ki, Qarabağda ermənilər qanuni hökumətə qarşı qiyam qaldırıb. Ondan soruşdular, İngiltərədə bir dəstə dövlətə qarşı qiyam qaldırsa, nə edərsiniz? Tomson bildirib ki, qiyamı yatırarıq. Ona dedilər ki, icazə verin biz də gedib qiyamı yatıraq, torpaqları azad edək. Bundan sonra Tomson deyib, gedin, azad edin. Demokratik Cümhuriyyət Andronikin, Dronun qoşununu dağıdıb onları Qarabağdan çıxartdı, torpaqların azadlığına nail oldu. Ancaq təəssüf ki, 1920-ci ilin aprelində bolşeviklər Azərbaycanı işğal etdilər və noyabrda Zəngəzuru Ermənistana verdilər.

Digər tərəfdən, tarix heç vaxt təkrar olunmur, hadisələr təkrarlanır. Allah hər bir milləti yaradıb və millətlər torpaqlara sahib çıxıblar. Qoruya bilsən torpaq sənindir, qoruya bilməsən özgənin. «Torpaq, əgər uğrunda ölən varsa, vətəndir». Əlibəy Hüseynzadə 1905-ci ildə yazırdı ki, millətin taleyi onun qüvvəsindədir. Əgər varsa, o, hakimdir. Yoxdursa, torpağı da, qeyrəti də əldən gedəcək. Bü gün hakimiyyət bütün diqqətini Azərbaycanın torpaqlarını birləşdirməyə yönəltməlidir. Bununçünsə, gərək bütün millətin birləşməsinə nail olsun.

Elşad Paşasoy

«Yeni Müsavat»
23 yanvar 2808

MİLLİ QƏTLİAM

VƏTƏNI BIR MATƏM GÜNÜ

1919-cu il martın 29-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti dövlət orqanlarına belə bir telefonoqram vermişdi: «Hökumət İşləri İdarəsi Rəisi-Vükəlaının qərardadına görə elan edir ki, mart ayının 31-də mart hadisatı münasibətilə heç bir dövləti müəssisələrdə iş olmayacaqdır».

Bundan əvvəl siyasi partiyalar, həmkarlar təşkilatları, fəhlə kollektivləri martın 31-ni Azərbaycanda «Vətəni bir matəm», «milli bir qital, bir qətliam» günü kimi qeyd etmək haqqında təşəbbüsdə bulunmuşlardı. 1918-ci il martın 18-21-də (köhnə təqvimlə) türk-müsəlman xalqlarına qarşı Bakıda başlanmış, sonra bütün Azərbaycan və Zaqafqaziyanı əhatə etmiş genosidin şahidlərinin, bu faciəni bilavasitə yaşayanların belə bir ümumi milli həmrəylik və yekdilliklə çıxışını, müraciətini Azərbaycan hökuməti və parlamenti də müdafiə etdi.

Qeyd edək ki, xalqın, ictimaiyyətin martın 31-ni vətəni bir matəm və qətliam günü kimi qeyd etmək tələbi, düşüncəsi həm də Xalq Cümhuriyyəti hökumətinin və parlamentinin təşkil etdikləri Zaqafqaziyanın müsəlman əhalisinə qarşı həyata keçirilən cəbr və zorakılığı təhqiq edən fövqəladə komissiyanın zaman-zaman elan etdiyi konkret faktlara, şahidlərin ifadələrinə, bu genosidi gerçəkləşdirən qatı millətçi-irqçi Daşnaksütyun Partiyasının və onun havadarlarının «fəaliyyətini» əks etdirən inkaredilməz sənədlərə əsaslanırdı. Komissiyanın tərkibində tanınmış hüquqşünaslar, dövtət və siyasət adamları vardı.

1919-cu il martın 28-də Türk Ədəm Mərkəziyyət Müsavat Partiyasının mərkəzi bürosunun binasında 300-dən artıq fəhlə nümayəndələrinin iştirakı ilə mart hadisələrinə həsr edilmiş bir konfrans keçirilmişdi. Konfransı giriş sözü ilə açan M.Ə.Rəsulzadə demişdi: «Mart hadiseyi-əliməsini xatırlamalıyız. O gün bizim həyatımızda əbədiyyən unudulmaz bir gündür. Bir millət şadlıq günlərini yadında saxladığı kimi matəm günlərini də

unutmamalıdır. O gün, o qital, o öldürüş, bizə, biz türklərə bağlanmış idi», «biz müsəlmanlara elani-hərb eləmişlərdi», «martda kəsilən minlərlə qurbanlar, fəda edilən şəhidlər həm də Azərbaycan fikri-hürriyyət və istiqlalının qurban və şəhidləridir».

«Biz onları martın 31-də xatırlamalı, o günü həyatı durdurараq matəmə girməli, ruhlarına fatihə oxumaqla qanımız bahasına alınan hürriyyətimizi, qanımızı tökməklə olsa da mühafizə edəcəyik deməliyiz!»

89 il əvvəl deyilmiş bu sözlər bu gün də öz böyük əhəmiyyət və qiymətini saxlayır. İndi isə 1919-cu il martın 31-də - milli matəm günündə böyük öndərimiz M.Ə.Rəsulzadənin yazdığı və həmin gün «Azərbaycan» qəzetində baş məqalə kimi dərc olunmuş «Unudulmaz faciə» sərlövhəli məqaləni oxuculara təqdim edirəm.

UNUDULMAZ FACİƏ

Martın 31-i bizə Azərbaycan tarix siyasətində unudulmaz üç günü xatırlatıyor. Günlər var ki, sevincinin böyüklüyü ilə, günlər də var ki, fəlakət və qüssəsinin əzəməti ilə unudulmaz.

31 mart ikinci günlərdən idi. Bu gün tarixin qeyd ede bildiyi «Aşura», «Varfolomey gecesi»[1] kimi xainanə bir surətdə hazırlanmış siyasi faciələrdən birisi idi.

Bizə deyə bilərlər ki, hərbi-ümumi səfahəti (səhifələri) arasında mart hadiseyi-əliməsini dəfələrlə ötən əsəfli (təəssüf ediləcək) hadisələr vaqe olmuşdur. Bunun üçün dəxi mart

[1] Varfolomey gecəsi - 1572-ci il avqustun 24-nə keçən gecə müqəddəs Varfolomey bayramı günü Fransa kralı və katolik ruhanilər hugenotların kütləvi qırğınına başlamışdılar. 3 gündə Parisdə neçə min nəfər öldürülmüş, sonra bütün Fransada hugenotları qırmağa başlamışdılar. Bu hadisə tarixə qətliam, genosid günləri kimi daxil olub.

günlərində Bakı sokaklarında icra olunan məzalim və qitali Ərəbistanın qızğın çöllərində və yaxud Firəngistanın inqilabla qaynar şəhərlərində hadisə olan uzaq misalları ilə müqayisə etməyə nə hacət!

Əvət, doğrudur, doğrudur ki, Belçikada, Serbiyada, Türkiyədə, Acarıstanda, nəhayət, Kars, Muş, Van və sair yerlərdə, hətta hərbi-ümumidən rəsmən xaricdə qalan İranda, Urmi, Səlmas və Xoyda şəklən Bakı hadisəsinə bənzər və bəlkə də bundan daha fəci hadisələr vaqe olmuşdur.

Bunlar doğrudur.

Biz Bakıdakı mart hadisələrini yada salarkən yenə o günlərdə icra olunan vəhşətə, zülmə, yaxılan xanimanlara, parçalanıb da divarlara mıxlanan yavrulara, hətk olunan (parçalanan), irz və namuslara dəxi ətfi-nəzər ediyor - insanın bir anda dönüb canavardan da bədtər hala düşmək ləyaqətində dəxi olduğunu böyük bir hissi-infial (xəcalətçəkmə) və şərməndəlikdə görüyoruz.

Fəqət mart günlərinin əsl faciəsi təkcə bu cəhətində deyildir. Martda söylədiklərimizdən və söyləmədiklərimizdən daha böyük, daha şəni (çirkin), daha mərdud (hüquqa zidd), daha iyrənc bir hadisə vaqe olmuşdu. İctimai bir inqilab nami və pərdəsilə ortaya çıxıb milli bir ədavət icra edilmişdi. Burjuaziyaya elani-hərb edilib əmələ (fəhlə) və kasibə qırılmışdı.

«Müsavat»a xitabən elani-hərb edilib, nəticədə sosialist, bolşevik və müsavat - heç birisinə fərq qoyulmadan kəsilmək və atılmaq üçün müsəlman olmaq kafi gəlmişdi.

Bu nöqteyi-nəzərdən şaumyanların Bakıda çıxartdıqları hadisə leninlərin Petroqrad və Moskvadakı hərəkətlərinə qətiyyən bənzəməzdi. Orada sinfi bir hərb, burada isə sinfi hərb nami altında milli bir qəttal, birqətliam icra olunurdu. Daşnaklar intiqam alırdı. Bu intiqam hər növ qonşuluq, inqilabdaşlıq, vətəndaşlıq hissini korlatıyor, yan-yana sülh və müsalimət ilə yaşayan millətləri sənələrlə bir-birindən ayırıyordu.

***

Bolşeviklər «sizə muxtariyyət deyil, xarabalar verəcəyiz», - deyirlərdi, müttəfiqləri daşnaklar da indi izah ediyorlar ki, Bakını sahiblərinin əlindən çıxarmaları ilə onlar erməniliyi mühafizə ediyormuşlar.

Həqiqətdir ki, martın 18-dən 21-nə qədər (köhnə təqvimlə) Bakı türk demokratiyasının qafasında partladılan toplar müsəlmanların haqqında rəva görülən məzalim Azərbaycan fikrini daşıyan, müxalifət və istiqlal əqidəsi ilə pərvərdə olan vücudları məhv etmək üçün idi. Fikir öldürülmək istənilirdi. Millət kəsilirdi. Fəqət kəndiləri (özləri) «inqilabçı» ikən inqilabın böyük düsturunu unudurlardı: «Məşəli əfkari-əhraranə sönməz xunilə!» («Azadlıq fikrinin məşəli qanla sönməz!»)

Martda tökülən qanlar türklərdəki milliyyət və hürriyyət fikrini, Azərbaycan atəşi-müqəddəsini söndürə bilmədi!

Bakı küçələrində tökülən nahaq qanlar bir «pisuz», yaxılan «İsmailiyyə» isə bir «iplik» işini görərək ürəklərdə söndürülmək istənilən hürriyyət məşəlini daha ziyadə tutuşdurdu. Qanlar içində boğdurulmaq istənilən Azərbaycan fikri bu kərə müstəqil bir hökumət şəkli ilə təcəlli etdi! Bakı bir qan və bir fitnə ocağı deyil, paytaxtımız oldu!

* * *

Bu gün mart hadisələri kimi böyük bir riyazət nəticəsində kəndi haqqını istirdad etmiş (geri almış) olan paytaxtımızda 31 mart şühədasının ruhi-məzlumuna fatihələr oxuyarkən bir şeyi xatırlatmaq istərəm. Mart hadisəsindəki müvəffəqiyyətsizliyin ən böyük səbəbi bunu artıq hər kəs təsdiq ediyor ki, cəmaətimizin başsızlığı, o vaxta qədər bildiyi camaat xadimlərinə və siyasi firqə rəislərinə deyil, qeyri-məsul adamlara, ağlından ziyadə hissiyyatına tabe şəxslərə uyduğu olmuşdur. Lə əlhəmd (şükürlər olsun), bu gün o vəziyyətdə deyiliz. Millətin

müqəddəratından məsul hökumətə, parlamana malikiz.

Hökumət və parlamanımızın bütün nöqsanı ilə bərabər bir məziyyəti var ki, böhranlı və məsuliyyətli dəqiqələrdə millətə başçılıq edər, onu hər hissiyyata qapılmış ötən «mücahid»lərin şərindən saxlaya bilər. Bunun üçün lazımdır ki, biz bütün hərəkatımızda etidaldan (mötədillikdən) uzaqlaşmayıb sükun və intizamı pozmayalım.

Tətil heyəti bizi bu gün matəmə dəvət ediyor. Bu dəvətə icabət edərək bütün həyatı durduraraq mart şühədasının ruhi-məzlumi qarşısında diz çökəlim, çökəlim də deyəlim ki: «Siz məzlum oldunuz, biz sizin məzlumiyyətinizi təlafi etdirmək (əvəzini çıxmaq) üçün qanınız bahasına aldığımız hürriyyət və istiqlalı bərk saxlayacağız!»

M.Ə.RƏSULZADƏ
«Azərbaycan», 31 mart 1919

NÜMUNEYI-IMTISAL BIR GÜN

«Müsavat» firqəsinin təşəbbüsü ilə çağırılan müsəlman əmələ (fəhlə) konfransı martın 31-ni vətəni bir matəm olmaq üzrə elan və o günü ümumi tətil ilə keçirməyə qərar vermişdir.

Müsəlman əmələsinin bu qərarına Bakının bütün məhəllələri (yaşayış məntəqələri) kəza (həmçinin) tabe olub matəmi-tətil komitəsi cənbində (yanında) məhəllə məscidlərinin nümayəndələrindən ibarət bir şəhər şöbəsi təşkil etdilər.

Bu günə məxsus qəzetlər nəşr olundu. Azərbaycan qəzetləri ilə müsavat vasiteyi-nəşri-əfkarları olan qəzetələr matəm nömrələri çıxardılar. Matəm səhər saat 8-dən axşam saat 6-ya qədər təyin olunmuşdu. Tətilə müsəlman olmayan əmələ təşkilatı nasıl baxacaq? Tətil müntəzəm və mütəşəkkil bir surətdə gedəcəkmi?

İştə Azərbaycan paytaxtını düşündürən bir məsələ!

Kəndilərini (özlərini) bilməm hansı haqlara görə bütün Bakı füqərayi-kasibəsinin nümayəndəsi adlandıran «Raboçi konfrans» heyət idarəsi ilə keçmişdəki tətilləri idarə edən «Staçeçni komitet» ağızlarına su almışlardı. 26 bolşevik komissarlarından ötrü ümumi tətil etdirmək istəyən və əllərində qara bayraqlar və Şaumyanın fotoqrafi olaraq nümayişlər yapan «Fəhlə nümayəndələri» on minlərlə şəhid düşən bigünah mart qurbanlarını xatırlamaq üçün çox da tələsmək istəmirlərdi.

Nəhayət, müsəlman əmələlərinin qəti qərarları təsirindən olmalıdır ki, «Raboçi konfrans» idarəsi ayın 31-ni deyil, 30-nu matəm günü və bu münasibət ilə mitinqlər tərtibini elan elədi. Fəqət nə mitinqlərə gələn oldu, nə də mitinqi çağıranlar özləri gəldilər.

Onlar bildikləri kimi mart faciəsinə gözəyarı baxa bilərlərdi. «Raboçi konfrans» idarəsində bardaş quran bolşevik biçarə «rəislər» mart gününü «matəm» - deyil, bacarsalardı «bayram» edərlərdi. Onun üçün də onlar matəmin rövnəqlə keçməsinə çox əhəmiyyət verməmişlərdi.

Fəqət türk demokratiyası kəndi qərarında sabitqədəm idi. Onun macərapərəst politikanlarla işi yox idi. O, martın 31-də kəndi qüvvətini göstərəcək, mart şühədasının matəmi ilə müvəffəqiyyətsiz mitinqlər yapmaq surətilə oynamaq mümkün olmadığını isbat edəcəkdi.

O bu gün bütün həyatı durduracaq, bununla kəndisinin nə kimi xatiri sayılan bir qüvvət olduğunu bildirməklə bərabər martda tökülən nahaq və məsum qanların dəxi ağız sürütdürmə bir «matəm»lə yad olunacaq «əhəmiyyətsiz» bir vaqeə olmadığını bütün cahana qarşı elan edəcəkdi.

Martın 31-i yaxınlaşırdı. «Raboçi konfrans» rəisləri içlərində mövcud olan az-çox mətləb anlayanların «sözünə baxaraq» martın 30-da matəm mitinqləri elan etmiş ikən bir də 31-ni matəm günü və eyni zamanda da tətil elan etdilər. Fəqət tamamilə «Müsavat»a tabe olmamaq üçün tətilə saat 8-dən deyil, 12-dən etibarən qərar verdilər. Fəqət gecə saat 1-də çap olunan bu elan batəbii (təbii ki) rayonlara da saat 12-dən sonra

catacaq, əmələlərin əksəri tərəfindən bir türlü anlaşılmayacaqdır. Çünki bir gün əvvəl nəşr olunan müfəssəl vərəqələrində tətildən bir kəlmə olsa da bəhs olunmamış, bilaəks (əksinə olaraq) məsələdən tamamilə başqa bir ruhla danışılmışdı.

Matəm günü gəldi. Səhər saat 6-dan bütün əmələ rayonları «xəbərdar borusunu» çalaraq mədənlər dayandı. Şəhərdə bir dənə olsa da açıq dükan yox, fayton, araba, hambal tapılmaz. Gəmilər matəm əlaməti olaraq bayraqlarını yarıya endirmiş, şəhərdə və mədənlərdə böyük bir sükut.

Məscidlərdə pəs məzar məclisləri. Saat iki radələrində Tazəpir məscidinin həyəti cəmi fəğir ilə dolmuş, yasin, fatihə, nitqlər, matəm tətil komitəsinin bəyani-təziyəti!..

Bilafərq millət və məzhəb şəhərlə mədənlərin bütün sakinəsi matəm halında.

Zabastovka tarixi ilə aşna olanlar söyləyirlər ki, Bakı bu vaxta qədər belə bir tətil görməmiş!.. Aşura günü belə bu dərəcədə keçməmişdir. Hər zabastovkada az olsun, çox olsun işə şəltə qatanlar daima görülmüşdür. Fəqət bu dəfə bilaixtilaf hər kəs vaqe olan dəvətə ləbbey demiş, işindən əl çəkmişdir.

Aşura yalnız müsəlmanlara məxsus ikən bu günə Azərbaycanın Vətəni bir matəmi olduğundan bütün azərbaycanlılar matəm saxlamışlardı. Bu günə mən matəm deyil, birlik günü deyəcəyəm.

Türk demokratiyası bu gün kəndi idarəsinin nə dərəcədə nafiz (nüfuzlu) və kəndi təşkilatının nə qədər müəssir (iş görən) olduğunu təcrübə edirdi. Təcrübə əli-yülələ dərəcədə müvəffəqiyyətli çıxdı.

Görüldü ki, türk demokratiyası istər ittihadla bir məqsədə əzm edirsə, digər kəndisi ilə həmkar olan demokratiya dəxi onunla bərabər olur. Ayağının altını boş görən «Raboçi konfrans» son saatda əqlə gəldisə, rus əmələlərindən (fəhlələrindən) bir çoxu rayonlarında daha iki gün əvvəl müsəlman yoldaşlarının yanına gələrək onlarla bərabər tətil edəcəklərini bildirmişlərdi.

Tətil yalnız əzəməti, istisnasızlığı ilə deyil, intizam və

asayışpərvərliyi ilə də təmayiz ediyordu. Zabastovka texnikasını bilənlər belə bir tətil keçirmək nadirətən mümkün olur deyirlərdi. Bütün gün kimsəyə təərrüz edilməmiş, cüzi də olsa bir hadisə çıxmamışdır!..

Tətil ideal bir şəkildə icra edilmişdir. Tətilin idrak və intizam üzərinə icra edildiyini körpü hamballarının əsəri-həmiyyətləri kimi parlaq vaqeələrlə isbat edilmişdir.

Müstəcil (təcili) bir yükün paraxoddan çıxarılması üçün körpülərdən birinin hamballarına 6 min rublə təklif olunduğu halda onlar təklifi rədd eləmiş, matəmi tətil heyətinə müraciət etmələrini cavabən bildirmişlərdir.

Bugünkü tətil türk demokratiyasının, müsəlman cəmaətinin nə dərəcədə təşkilat və intizam qabiliyyətinə malik olduğunu aşkar etmişdir. Bu qabiliyyəti tərbiyə edən, onu doğru və salim bir yola salan həqiqi millət mənfəəti ilə çalışan siyasi firqələrimiz fəaliyyət və təşəbbüslərini artırar və hərəkətlərində ciddi olurlarsa, o zaman Azərbaycan paytaxtında, füqərayi-kasibə naminə işləyib də hərəkətlərində Azərbaycan ruh və məqsədi ilə uyuşa bilməyən təşkilat əhəmiyyət və mənasını qayib edər.

1919 sənəsi mart matəmində xalqımızda görülən təşkilat istedadını hüsn istifadə etmək, heç şübhəsiz ki, 1918 sənəsi mart şühədasının (şahidlərinin) ruhi-məzlumini razı salacaq ən böyük mükafat, ən gözəl ehsandır!

Buna çalışalım!

1919-cu il martın 31-i bizə birlik və ittihad üçün bir nümuneyi-imtisal təşkil eləsin!

M.Ə.RƏSULZADƏ
«Azərbaycan» qəzeti,
2 aprel 1919, N148

«Yeni Müsavat»
N 77 (3699) 29 mart 2008

RAMIZ RÖVŞƏNƏ AÇIQ MƏKTUB

Düşünən və düşündürən istedadlı şairimiz Ramiz bəy! Sizin «525-ci qəzet»in 2008-ci il martın 15-i tarixli nömrəsində dərc olunmuş və xalq yazıçısı Anara ünvanlanmış təbrik məktubunuzu diqqətlə oxudum. Yubilyara dair fikir və arzularınıza mən də qoşuluram. Mənim Sizə açıq məktubla müraciət etməyimə səbəb bu çox dəyərli məktubdakı məni xüsusilə həyəcanlandıran aşağıdakı sözləriniz, fikriniz oldu. Siz ürəkağrısı ilə yaşadığınız dövrə aid çox ciddi bir həyəcan təbili çalaraq yazırsınız: «Mənə elə gəlir ki, bu gün təkcə Bakı yox, bütün Azərbaycan qəribə bir mənəvi-əxlaqi duman içindədi. Bu millətin ruhunda, şüurunda, hissiyyatındakı bütün işıqlı nöqtələr yavaş-yavaş bu dumanda əriyib yox olmaqdadı».

Hörmətli Ramiz bəy! Zaman-zaman Sizdən əvvəl də xalqımızın düşdüyü çətin anlarda belə həyəcan təbili çalan böyük sənətkarlarımız, milli qeyrət və namus rəmzi olan mütəfəkkirlərimiz olmuşdur. Məsələn, elə keçən əsrin ikinci onilliyində - Birinci Dünya müharibəsi gedişində Qafqaz cəbhəsində, Azərbaycanda xalqımızın başına gətirilən müsibətlərdən, millətin qeyrətini çəkməli olan kişilərdəki «qeydsizlik, həmiyyətsizlik və tənbəllikdən» qeyzə gələn Üzeyir bəy Hacıbəyli «Yeni İqbal» qəzetində «Nəyimizin vaxtıdır?» sərlövhəli silsilə məqalələr çap etdirmişdi. 1915-ci il dekabrın 17, 18 və 20-də qəzetdə dərc olunmuş yazıların əsas qayəsini Üzeyir bəy beləcə aydın ifadə edərək yazırdı: «1905 və 1906-cı illərdə Rusiyanın «təzələnməsi» gurultularından mütəəssir qala bilməyib, biz də bir əsəri - həyat göstərmək arzusu ilə ictimai və milli işlərə mübaşir olduq. ... Biz «qızışmış» vaxtımızda çox işlər gördük». Bəs sonra, Üzeyir bəy göstərir ki, biz «qızışıb», tez də «söndük», «soyuduq»: «İndi bu 10 ilin ərzində bu milli təşəbbüslərimizdən Qafqaz müsəlmanları tərəqqi və təkamül yolunda bol-bol mənfəətlər görməli idilər. Bu tərəqqi və təkamül mənbələrindən saçılan işıqların dairəsi hər il getdikcə böyüyüb cəhalət qaranlığının ən uzaq güşələrini də

işıqlandırmağa başlamalı idi. Halbuki, əksini görürük: işıq dairəsi ildən-ilə daralıb sönməyə maildir və bu sayaq ilə qalarsa bir gün dəxi sönəcəyi aşkardır».

Göstərim ki, Üzeyir bəyin vətəninə, xalqına böyük məhəbbət və onun gələcəyinə ciddi narahatçılıq hissilə qələmə alınmış sətrləri elə-belə yazılmamışdı. Onun hədəfi çox yaxşı qərarlar, təkliflər, planlar irəli sürüb onun həyata keçirilməsinə səy göstərməyənlər, yəni sözdən işə keçməyənlər idi. Üzeyir bəy yazırdı: «Başbilənlərin bir yerə yığılıb danışması, ehtiyaclarımıza baxılması, yolların aranması lazım və vacibdir. İndiyə qədər vaqe olmuş ümummüsəlman ictimalarının gözə görünən və işə yaradılan nəticələri olmuyubdursa da, mənəvi əhəmiyyəti olubdur. ... Lakin ictimadakı qövlün-felə (sözün - işə) qoyulub da gözə görünən və icrası əmələ gələn nəticələri olacaqdırmı? - deyə suala, zənnimcə, heç kəs qəti surətdə «hə» deyə bilməz.

Böylə olan surətdə təkrarən deyilmiş ehtiyaclarımızı bir də təkrar edib də ağızda çeynəməkdənsə və ictima qurab yenə təzədən ehtiyaclara kağız üzərində yazıb dağıtmaqdansa, bu milli ehtiyaclarımızın və milli məsələlərimizin bundan belə deyil bir quru danışmaq, bəlkə felən (işdə) rəf və dəfini və həllini təmin edə biləcək yollar xüsusunda danışıb və ictimalar qurmağımız daha münasib deyilmi? Və bundan sonra məhz bu yolların aranmasının vaxtı deyilmi?»

Üzeyir bəy yazırdı ki, «... biz heç bir yerdə bir-birimizə uyğun gəlmirik. Hərəmizin fikri başqa, hərəmizin amal və arzusu varsa başqa, tərzi-hərəkətimiz başqa-başqa. Bu səbəbdəndir ki, ümumi camaat və dövlət işlərindəki əməllərimiz dəxi pərişanlıq üzündən calibi-diqqət deyildir. İçimizdəki pərişanlıq bir dərəcəyə çatıbdır ki, hətta əlimizdə olan hüquq və ixtiyaratdan dəxi layiqlə istifadə etməyə həvəsimiz olmayıb, bu üzdən hətta bəzi vaxt elə olur ki, o hüquq və ixtiyaratdan mənfəət almaq əvəzinə özümüzə zərər də vururuq. Və bu da bizi heç acındırmayır da! Çünki, ruhsuz, həvəssiz, laqeyd, Avropa təbirilə «apatiçni» olmuşuq. İctimai və siyasi işlərə qarşı göstərməkdə olduğumuz bu «apatiya» və qeydsizlik bizim hər

bir sinfimizdə mövcuddur. Xass (seçilmişlər), avam, oxumuş, oxumamış, ümumiyyətlə hamısı bu «apatiya» dərdinə mübtəladır. Doğrudur, bəzi vaxt olur ki, qaranlıq içində bir balaca işıq zühuru görünən kimi bizim içimizdə dəxi milli və ictimai işlərə qarşı bəzilərimizdə bir həvəs əlaməti görünür, zühur edib də tez sönən kimi, bizim bu həvəsimiz dəxi tez yatıb, yenə qeydsizlik zülməti içində yox olur».

M.Ə.Rəsulzadənin redaktor olduğu «Açıq söz» qəzetində Üzeyir bəyin bu çoxdəyərli, elmi-nəzəri və əməli cəhətdən faydalı və həm də cəsarətli çıxışı ilə əlaqədar dərc olunmuş «İşığımız sönməyəcəkdir» (20.1.1916) sərlövhəli məqalədə oxuyuruq: «Üzeyir bəy öz məqalələrində düçar olduğumuz azarları, dərdləri bir-bir sayır, bu günkü halımızı, yəni hər işdə tənbəlliyimizi, qeydsizliyimizi, həmiyyətsizliyimizi, bacarıqsızlığımızı çox doğru, çox aydın olaraq təsvir edir. Hətta naxoşluğumuzun qorxulu olduğunu da göstərir».

Yeri gəlmişkən, «Üzeyir bəyin üzərində israrla durduğu problem, məsələ «İctimai və milli işlərimizə» münasibətə aid idi. Məqalədə oxuyuruq: «Əlbəttə, öz şəxsi işlərimizə və şəxsi mənafelərimizə aid işlərə həvəsimiz çoxdur, öz dolanacağımızı və güzəranımızı yaxşı keçirmək üçün çalışırıq və bunu da mən töhmət və məzəmmət yolu ilə demirəm. Çünki hər kəsin öz şəxsi rifah halı üçün çalışması təbiidir. Lakin bunda da bizim ancaq o cürə işlərə meyl və həvəsimiz olur ki, şəxsi mənafeimizə doğrudan-doğruya dəxli və əlaqəsi vardır. Dərd burasıdır ki, ümumi və ictimai və milli işlərin də hər birimizin xüsusi mənafeimizə kənar yol ilə dəxli və əlaqəsi olduğunu başa düşə bilməyirik və ona görə də o işlərə meyl və həvəs etməyirik və laqeydanə baxırıq».

«Azıq söz» yaranmış vəziyyəti qısaca təhlil edərək yazırdı ki, «1905-ci ildə bizim payımıza düşən iş ancaq inqilabçıları yamsılamaq oldu. Əsl təbəddülata isə biz hələ təzə hazırlaşırız». «İndi hamı ilə bərabər biz də qızışmaya başlayırıq, çalışmaya üz qoyuruz. Umulur ki, ətrafımızda keçən vaqiələr, cahanı titrədən dəhşətli inqilablar bizim bu hazırlaşdırmamızı da tələsdirir».

«doğrudur bu gün işıq sönən kimi görünür, lakin əsla sönməz, çünki o işıq özgə işıqdır, çünki özümüz kimi işığımız da qəribə xasiyyətlidir. Görürsən ki, bu işıq əsrlərdən bəri gah ətrafı qaplamış, bir çox yerlərdə hala baqı qalan böyük mədəni əsərlər vücuda gətirmiş, gah azalıb kiçilmiş, həm də o qədər kiçilmiş ki, indiki kimi sönəcək zənn edilmiş, lakin sönməmiş. Bir az sonra yenə birdən parlamış, qüvvətli məşəllər meydana gətirmiş, böyüdükcə böyümüş, sonra yenə alçalmış, alçalmağın son dərəcəsinə gəlmiş, hər kəs sonəcək zənn etmiş, lakin sönməmiş, yenə parlamağa uz qöymuşdur».

Çox böyük inam hissilə yazılmış bu sozlərin doğruluğunu tarix isbat etdi. Çox keçmədi türk və islam dünyasının ilk həqiqi demokratik dövləti məhz Azərbaycanda bərqərar oldu. İndi biz onun - Azərbaycan Xalq Cümhuriyyətinin 90 illiyini bayram etməyə hazırlaşırıq. M.Ə.Rəsulzadənin başçılıq etdiyi vətənpərvərlər ordusunun, Üzeyir bəy kimi milli mücahid ziyalıların fədakarlıq ənənələri yaşadıqca, ona sahib çıxanların sıraları çoxaldıqca heç bir duman işığımızı söndürə bilməyəcək! Bunun üçün isə Üzeyir bəy demişkən, gərək içimizi və çölümüzü düzəldək!»

Hörmətlə, Şirməmməd Hüseynov

«525-ci qəzet» 2 aprel 2008

CÜMHURİYYƏTİN 90 İLLİYİNƏ CƏMİ 1 AY QALIB

Şirməmməd Hüseynov: «Başa düşmürəm, nəyi gözləyirlər»

2008-ci il bir çox önəmli tarixi hadisələrin ildönümü ilə yadda qalacaq. Qarşıdan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illiyi gəlir. Bundan əlavə, Azərbaycan ordusunun və parlamentinin də yaranmasının 90 ili tamam olacaq.

Artıq bir müddət əvvəl prezident İlham Əliyev AXC-nin 90 illik yubileyinin yüksək səviyyədə keçirilməsi ilə bağlı fərman imzalayıb. Bundan başqa 26 iyun tarixində ordunun yaradılması ilə bağlı möhtəşəm hərbi paradın keçirilməsi də qərarlaşdırılıb. Bir sözlə dövlət başçısı yubileylərin yüksək səviyyədə keçirilməsi üçün lazımi addımları atıb və atmaqdadır. Əslində isə özünü azərbaycanlı sayan hər bir vətəndaş AXC-nin 90 illik yubileyinə təmtəraqla hazırlaşmalı və bir vətəndaş olaraq əlindən nə gəlirsə, onu əsirğəməməyə həvəsli olmalıdır. Amma çox təəssüf ki, bəzi məmurlar, bir çox ziyalılar, ümumilikdə isə cəmiyyət bu tarixi hadisəni bayram olaraq ən yüksək səviyyədə keçirməyə lazımi səy göstərmirlər. Elə tanınmış ziyalı, professor Şirməmməd Hüseynovu da bu narahat edir.

«Xalq Cümhuriyyəti hökumətinin Bakıda hansı binada yerləşdiyini bilən var, yoxsa yox?»

«Prezidentin AXC-nin 90 illik yubileyinin keçirilməsi barədə sərəncamı mənim qarşımdadır. Bu sərəncama baxanda görürsən ki, prezident məsələ ilə bağlı bütün tapşırıqları verib. Sərəncamda yazılır ki, «AXC-nin yaranmasının 90 illiyi respublikada geniş qeyd edilsin». Mən bu sətri ona görə yada saldım ki, orda «geniş» sözü xüsusi vurğulanıb. Prezident bundan artıq nə etməlidir? Nə lazımdır onu edib və lazımi sərəncamı verib. İndi iş düşür əlaqədar qurumların, ictimai-siyasi təşkilatların, bütövlükdə vətəndaşların üzərinə. Başa düşə bilmirəm, onlar nəyi gözləyirlər? Prezident deyib bayram geniş qeyd edilsin. Deməyib ki, bayrama bir gün qalmış qəzetlər hərəsi bir yazı yazsın,

televiziyalar verilişlər hazırlasın, bununla da iş bitmiş olsun. Sərəncamın ikinci maddəsində yazılır ki, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Milli Elmlər Akademiyası birlikdə AXC-nin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin. Hanı o tədbirlər planı? Kimsə bilirmi ki, hansı tədbirlər planlaşdırılıb? Əlaqədar qurumlar ictimaiyyətə heç bir hesabat vermirlər. Yubileyə cəmi bir ay qalıb. Bəlkə düşünürlər ki, şənlik etməklə, hoppanıb düşməklə bayram keçirilir. Qardaş, 90 illik yubiley deyiriksə, gərək indidən bütün KİV-də, rayonlarda, ali məktəblərdə, hətta bağçalarda bu hiss olunsun. Və geniş hazırlıq işləri görülsün. İndi mən sizə 1919-cu ildə «Azərbaycan» qəzetinin 1 uyun tarixli sayından bəhs edim. Görün o zaman Cümhuriyyətin bir illiyini necə qeyd ediblər. Bütün Bakının küçələrini bayraqlar bürüyüb, Ala qapılar düzəldiblər, məktəblərdə gecələr keçiriblər, yığıncaqlar təşkil ediblər, hərbi hissələrdə ordu rəsmi parada hazırlıq görüb, qəzetlərdə məqalələr çap olunub. Özü də bunlar bayrama qədər olanlardır. Demək olar, birilliyə ayyarım vaxt sərf ediblər. Bundan başqa Cümhuriyyətə qarşı yönələn mart soyqırımının materiallarını qezetlərdə çap ediblər. Amma indi bu prosesdən 90 il keçir və zaman da, maliyyə də, şərait də, texnika da o vaxtdan müsbət mənada xeyli fərqlidir. O zaman adi ziyalı imkanı və ya potensialı belə olmayıb, olan da çox az olub. Ozamankı ziyalıları barmaqla sayıblar. Əhalinin 10 faizi savadlı, 90 faizi isə savadsız olub. Gərək indi keçirəcəyimiz 90 illik yubiley xalqda milli vətənpərvərlik ruhunu canlandırsın. Məlum ki, buna indiki zamanda bizim böyük ehtiyacimız var. Bunun üçün Cümhuriyyəti yaradanların xatirəsi əbədiləşdirilməlidir. 17 ildir ki, müstəqil dövlətik. Bir dənə də olsun Cümhuriyyət abidəsi varmı? Yaxud Cümhuriyyət yaradanların hansının heykəli, yaxud muzeyi mövcuddur? Bu, bir yana, AXC hökumətinin Bakıda hansı binada yerləşdiyini bilən var, yoxsa yox? Azərbaycan hökumətinin hansı binada yerləşməyi bir yana, hökumət başçılarının harada yaşadığını bilən varmı? Necə olur ki, yazıçıların hərəsinin bir ev muzeyi

var, amma dövləti yaradanların yoxdur? Həmişə belə olub. Bizim cəmiyyət həmişə dirinin nökəri, ölünün qənimi olub».

AMEA, Təhsil Nazirliyi nəylə məşğuldur?

Şirməmməd Hüseynovun fikrincə, hərə öz üzərinə düşən vəzifəni yerinə yetirsə, məsələlər avtomatik həll ola bilər. «Məyər bu dövlət göydən yerə düşüb? Axı bu dövləti yaradanlar var. İndi hər şeyi bir şəxsdən, yəni prezidentdən gözləmək düzgün deyil. Prezident sərəncam və göstəriş verib. A kişilər, bu sərəncamdan doğan məsələləri yerinə yetirin də. Bu millətin özündə, onun ziyalısında məsuliyyət yoxdur. Hərə özü üçün yaşayır. AMEA, Təhsil Nazirliyi nəylə məşğuldur? İndi siz gedin məktəblərə və görün Cümhuriyyətin bayramına nə hazırlayırlar. Heç nə. Çünki məktəb direktorları öyrənib ki, yuxarıdan göstəriş versinlər və bunlar da ondan sonra icra etsinlər. Parlamentin 90 illik yubileyi ilə bağlı tədbirlər keçirməyi də planlaşdırırlar. Çox yaxşıdır ki, dünyanın bir çox parlamentlərindən nümayəndələr həmin tədbirlərə qatılacaqlar. Amma bir məsələ də var. Gələn qonaqlar soruşsalar ki, sizdə parlament muzeyi var, onda biz nə deyəcəyik? Soruşsalar ki, Azərbaycan parlamentinin ilk binası hansı olub, o zaman Əlyazmalar İnstitutunu göstərəcəklər. Bəs soruşsalar ki, hökumətin binası, yaxud, filan nazirliyin qərargahı hansı olub, o zaman nə deyəcəyik? Bundan başqa parlamentdə təmsil olunan partiyaların binasının yerini bilən varmı? Hansı ki, parlamentdə 7-8 partiya olub. Bundan başqa Cümhuriyyət dövründəki xarici səfirliklərin binalarının yerini bilən yoxdur. Ona görə ki, bununla məşğul olan yoxdur».

Şirməmməd Hüseynovun sözlərinə görə, 26 mayı gürcülər ən böyük milli bayram kimi qeyd edirlər. «Axı bizim nəyimiz gürcülərdən əskikdir? İndi 26 iyunda hərbi parad keçirilməsinə qərar verilib. Bu, çox yaxşı qərardır. Çünki hərbi parad istənilən halda çox yaxşı addımdır. Hərbi parad dövlətin qüdrətini göstərir, onun əzəmətini nümayiş etdirir. Ona görə də mən hərbi parad keçirilməsini alqışlayıram. Amma istəyərdim ki, hərbi parad iyunun 26-da deyil, mayın 28-də keçirilsin. Yadınıza

gəlirsə, həmişə oktyabr inqilabına görə hərbi parad keçirilirdi. Yəni əvvəl hərbi parad, ardınca isə nümayiş məhz noyabrın 7-də olurdu. Bu, yaxşı ənənə idi və hesab edirəm ki, indi də davam etdirilməlidir. Camaat küçələrə çıxıb hərbi parada baxmasa və bununla dövlətlə birliyini nümayiş etdirməsə, o zaman vətənpərvərliyi gücləndirmək olmaz. Televiziya ilə vətənpərvərlik aşılamaq nəticə verməz. Çünki televiziya həm vətənpərvərliyi təbliğ edir, həm də ardınca milli-mənəvi dəyərlərə uyğun gəlməyən verilişlər sərgiləyir». Şirməmməd Hüseynovun sözlərinə görə, xalq dövlətlə, dövlət isə xalqla olduğunu hər zaman hiss etməlidir və bunun üçün hərbi parad, nümayiş və bu kimi vasitələr lazımdır ki, vətənpərvərlik ruhu daim ayaqda qalsın.

Teymur Turan
«Şərq» qəzeti, 25 aprel 2008

27 APREL, 1920. ÖYRƏDƏN BİR MÜSİBƏT!

Məmməd Əmin Rəsulzadənin 1929-cu il aprelin 27-də İstanbulda nəşr olunan «Milli Azərbaycan fikriyyatını» təmsil edən aylıq «Odlu Yurd» məcmuəsində dərc olunmuş baş məqaləsi belə adlanır. Göstərək ki, Azərbaycan mühacirəti bütün varlığı ərzində harada, nə şəraitdə yaşamasından və fəaliyyət göstərməsindən asılı olmayaraq tariximizin möhtəşəm 28 May istiqlal gününü və 27 aprel işğalını - bu qara ildönümünü qeyd etmişdir. 28 May türk və İslam dünyasında ilk dəfə olaraq bir cümhuriyyət - Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündür. Bu cümhuriyyətin yaradıcısı M.Ə.Rəsulzadənin sözləri ilə desək, «Azərbaycan Xalq Cümhuriyyəti bu cahan tarixində şübhəsiz, pək böyük bir dövr təşkil edəcək hərbdən sonra milli Şərq demokratiyası cərəyanının bəlli-başlı bir hadisəsi, bu cərəyanın maddətən üç kəlmədə xülasə edilmiş rəmzi bir ifadəsidir».

27 aprel millətimizin tarixdən silinməyəcək qara bir günüdür. Azadlığımıza, müstəqil həyatımıza nəhayət verilən, milli varlıq, milli hürriyyət və milli hakimiyyətimizin timsalı olan üçrəngli sevimli bayrağımızın işğalı rus-bolşevik qüvvələri tərəfindən endirildiyi bir gündür.

27 aprel aldatması və işğalı «Azərbaycan xalqını ta qəlbindən vurmuş, təsəvvürü qabil olmayan bir təsirlə dağdar etmişdir» (M.Ə.Rəsulzadə).

Bu il cümhuriyyətimizin elan edilməsinin 90 ili tamam olur. Biz 17 ildir ki, bu günü yenidən müstəqil Azərbaycanımızda bayram edirik. Bu il həmçinin 27 aprel işğalından 88 il keçir. Onu da yaddan çıxarmağa haqqımız yoxdur. Bu münasibətlə də M.Ə.Rəsulzadənin yuxarıda adını çəkdiyimiz məqaləsini oxuculara təqdim edirəm.

ÖYRƏDƏN BİR MÜSİBƏT!..

MİN ÖYÜDDƏN BİR MÜSİBƏT BƏS EDİR!..

Xalqın sınanmış təcrübələri nəticəsində söylədiyi məsələlərdən biri də budur! Bu məsələdəki böyük həqiqəti biz azərbaycanlılardan dərk etməyənlər var idisə, böyük insan müsibətindən sonra onun ifadə etdiyi hikməti anlamayan qalmadı, zənnindəyiz.

Bundan 9 sənə əvvəl 27 nisana (aprelə) təsadüf edən bir gündə Azərbaycan xalqı müsibətlərin ən böyüyünə və faciələrin ən fəciinə məruz qaldı.

Istiqlalını qeyb etdi. Sənələrdən bəri gözləyərək hənuz qovuşduğu hürriyyət və hakimiyyətinə həsrət qaldı.

İstiqlalını qeyb etmək, hürriyyət və hakimiyyətinə həsrət qalmaq bundan da böyük bir müsibət olarmı?!...

Sözdən anlayanlara bu müsibətin Azərbaycana verdiyi maddi və mənəvi təxribatı uzun-uzadıya saymağa ehtiyac yoxdur. Hələ 4 gün bundan qabaq qurtuluş gününü qeyd etməklə məsud olmalarına rəğmən istila nə olduğunu unutmamış Türkiyə vətəndaşlarına bu xüsusda fəzlə təfsilat verməyə lüzum belə yox!...

Sevr müqaviləsini doğuran müsibət, bir az sonra Türkiyəyə müəyyən şərait nəticəsində 23 nisan (aprel) zəfərini gətirdi. Sevr müqaviləsinin Türkiyə Cümhuriyyətinin təsisində oynadığı rolu 27 aprel hadisəsi Azərbaycan Cümhuriyyətinin qurtuluşunda görə biləcəkmiyiz?

Bu suala cavab verə bilmək üçün istila sənələrinin Azərbaycan cəmiyyəti üzərində icra etdiyi təsirlərlə bunların inkişafındakı hərəkət və istiqaməti seyr etmək lazım!

Bu seyr bizə nə göstərir? Onu tədqiq edəlim:

Bu dəfədəki rus istilası, - məlum olduğu üzrə - əlahəttə bir istila deyildir. Kommunizm prinsiplərini tətbiq şüarı ilə bir qüvvət eyni zamanda bir ixtilal qüvvəti idi. Bu qüvvət özünəməxsus bir surətlə Azərbaycandakı ictimai münasibəti alt-

üst etdi. Həddi-zatində (təbiətində) hərəkətdə ağır bulunan və əlavə olaraq onu hərəkətə gətirmək üçün çar idarəsi tərəfindən heç bir şey görünməyən Azərbaycan kəndlisi istər-istəməz hərəkətə gətirildi. Bu hərəkat istila qüvvətinin yabançı olması etibarilə bir kommunist olması etibarilə də iki dəfə yağmaçı bir qüvvə olduğunu kəndliyə göstərdi. Kommunistlərin öz təbirincə «Kəndli Azərbaycan», «proletar» (oxu: rus) Bakıya qarşı «qafa tutmağa» başladı. Öylə bir tutuş ki, təfsilatı keçən nömrələrimizdə göstərdiyimiz xüsusi bir şəkildə qeyd edilmişdir.

Azərbaycan kəndlisi artıq yalana inanmır: o, mülkiyyət, azadlıq, milliyyət və istiqlal vəd edənləri və onları dəstəkləyənləri axtarır. Yabançı və yalaçı kimi tanıdığı bolşeviklərə könüllü surətdə ərzaq satmamaq və vergi verməmək müqavimətini göstərir. Bu müqavimət passiv iqtisadi sahədən çıxaraq indi fəal siyasi bir mərhələyə girmişdir. Belə ki, sovet seçkiləri əsnasında kəndlinin bu fəaliyyəti zəbt olunan komisyonlar, dağıdılan kolxozlar, öldürülən kommunistlər şəklində görünür.

Xalqın əsl kütləsini təşkil edən kəndlinin bu - «xırda burjua» təbəqəsi adlandırılanların bu ruhu, bu əhvalı şəhər kütlələrinə də təsir göstərir, milli ruhlu bir təbəqə yaradır. Azərbaycan gəncliyi işğalçı idarənin müdhiş təqibinə baxmayaraq mücadilə sıralarına yeni-yeni qəhrəmanlar verir. Belə ki, keçənki kommunist qurultayında məlum rus uşağı Ə.Qarayev Azərbaycanın kommunist gəncləri arasında «Müsavat» təşkilatının fəaliyyət göstərdiyini çox acı bir dillə etiraf etmək məcburiyyətində qalmışdı.

Kəndlilər öz əkdiklərinə bilavasitə sahib olmaq istəyirlər, onların öz əkinləri üzərində istiqlal istəmələrinə rəğmən qabaqcıl gənclər sadə əkin yerini deyil, bütün vətənin azadlıq və istiqlaliyyətini tələb edirlər.

Qarayev kəndlilərin bu müxalifliyinə qarşı onların kommunist fraksiyasından «təmizlənmələrini» tələb etdiyi kimi Mirzoyan da komsomolları 40 faiz müsavatçı olduqları üçün «təmizləmişdir».

Azərbaycan cəmiyyətinin ictimai əsasında işğalın 9-cu ilində

görülən bu müqavimət o cəmiyyətin ruhi durumunu göstərməkdədir. Artıq 27 aprel işğalının təsirindən gözlərində yaşlara yol verən passivlər deyil, mübariz Azərbaycan nəslinin ruhiyyatına hökm edən təbəqə göz yaşlarını toplayaraq bunu günün birində dəhşətli bir təriq ilə partladacaq, milli xilas halına qoymaq istəyən idealist, fəal təbəqədir!

27 aprel müsibətinin Azərbaycana qazandırdığı bir şey varsa, o da bu fədakar zümrəyə sahib çıxmasıdır.

Kommunist rejiminin və qızıl rus işğalının hər birimizcə məlum olan bu böhranlı günlərdə biz milliyyətpərvərlərə düşən vəzifə bu zümrə ətrafında birləşmək, onun qüvvətləndirmək, onun zəfər və qələbəsini təmin etməkdir.

Bunu görmək iqtidarında olanlar tarixi müsibətdən dərs ala bilmiş olanlardır! Bir müsibəti daha yaşamaq istəmiriksə, 27 aprel müsibətlərinin verdiyi dərsi yaxşıca xatırlamalıdır!..

M.Ə.RƏSULZADƏ

«Odlu Yurd», *№3, 27 aprel, 1929*

«Yeni Müsavat», №106(3728) 27 aprel 2008

28 MAY 1919-CU İLDƏ BAKIDA NECƏ BAYRAM EDİLMİŞDİ?

Uzun əsrlərin həsrətindən sonra müstəqil milli dövlətini yenidən bərpa etmiş istiqlalçı nəsil Cümhuriyyətin bu yaşını hansı hiss-həyəcan və qürur hissilə, necə qeyd etmişdir? 71 illik fasilədən sonra, hətta 17 illik müstəqillik illərində də bir sual məni həmişə düşündürmüşdü. Yaxşı ki, bu dövrün mətbuat orqanları mühafizə edilib pis-yaxşı bizim günlərə qədər saxlanılmışdır.

«Azərbaycan» qəzeti bələdçimizdir. Qəzetin 1919-cu il 1 iyun tarixli 192-ci sayında bu mövzuda dərc olunmuş müasir reportajları və canlı hesabatları xatırladan yazı qarşımdadır, o, **«İstiqlal bayramı»** adlanır. Mən yazını böyük zövqlə oxudum və özümüzə yazığım gəldi ki, ümumxalq sevinci, bu tarixi günü onlar kimi qeyd etmək bacarığı və qabiliyyəti bizdə niyə yoxdur. Bu ayrı bir mövzudur. **«İstiqlal bayramı»**nı siz də oxuyun, əziz oxucular, zənnimcə, oxumağa və düşünməyə dəyər.

İSTİQLAL BAYRAMI

Mayın 27-də daha şəhər bayraqlar ilə müzəyyən edilmişdi *(bəzənmişdi)*. Hər kəsdə bir təlaş görülməkdə idi. Paytaxtımızın yuxarı hissələrində belə alaqapılar qayrılıyor idi. Küçələr boyu məftillər çəkilərək əlvan fanuslar *(fənərlər)*, rəngbərəng bayraqlar asılırdı. Türk ətfalı *(uşaqları)* da işbu bayramın əzəmətini, hörmətini iyicə düşündigindəndir ki, bir gün əvvəl rəsmi keçidə hazırlanır. Kağız papaqlar, taxta silahlar hazırlanır, dalanlarda təlimat yapılırdı.

Gözlənilən 28 May günəşi tulu etdi. Artıq paytaxtın bəzəyi on qat artmışdı. Sokak boyu aşağı-yuxarı baxacaq oluyorduq: üçrəngli, hilali, yıldız nişanlı bayraqların yellənməsi insanın qəlbində fərəh oyadıyordu. Yaşıllıqlar ilə müzəyyən balkonlardan asılmış qiymətli xalılar, ipək örtüklər, «Yaşasın istiqlal!», «Ya-

şasın Azərbaycan!» yazılı bayraqlar millətdə ruhu, vətən və millət məhəbbətini layiqincə göstəriyordu. Şamaxı küçəsində bütün ibtidai və başqa şəhər məktəblərinin mütəəllimini təcəmmö ediyordu.

Marşrut qərarı üzrə məkatib cocuqları buradan Məclisi-Məbusan qarşısına getməlidi. Bazar ipək parçalar, xalılar və rəngbərəng bayraq ilə müzəyyən edilmişdi.

Məclisi-Məbusan bir gün əvvəldən istiqlal libasına müləbbəs olmuşdu *(geyindirilmişdi)*. Damında elektrikdən «Yaşasın istiqlal!» şüarı yazılmış, böyük qapısı üstündə məşhur türk nəqqaşı *(rəssamı)* Əzim Əzimzadə tərəfindən yazılmış istiqlal embleması elektrik lampaları ilə bəzənmişdi. İşbu rəsm olduqca mənalı və calibi-diqqət idi. Bir gün əvvəl belə buradan keçənlər biixtiyar durub rəsmə bakıyor, gözəlliyini və mənidar olduğunu tanımadığı başqa bir tamaşaçıya söylüyordu.

Rəsmdə bütün Azərbaycan tarixi nümunələri mahiranə bir surətdə təcəmmö etmişdi (toplanmışdı). Qız qalası üzərində üçrəngli Azərbaycan bayrağı, Suraxanıdakı tarixi Atəşgədə sentyabr müharibəsində xüsumiyyət almış (ziyan çəkmiş) Yanar Dağ.

Digər tərəfdə minarələrində ay-ulduz rikz edilmiş (sancılmış) Xan məscidlərini tülul etmiş istiqlal günəşi işıqlatıyor, zənbaq kibi istiqlal səmasında Vətən, İstiqlaliyyət və məhəbbət nişanı (simvolu) mülk bütün Azərbaycan üzərində üç rəngli hilal ulduzlu «Yaşasın istiqlal!» şüarlı bayrağı tutmuş.

Həqiqətən iş bu rəsmi-şayan-təhsin idi. Bələdiyyə idarəsi bayraqlar içində idi. Üzərində bayraqlar, ətrafında bayraqlar, içərisində bayraqlar, bir söz, bayraqlar, bayraqlar! Yaşıl ot, əlvan parçalardan alaqapılar bəzənmişdi. Sokağa çıxan balkon elektrik ilə çırağban edilmişdi. Şəhər bağı və bulvarda da Bələdiyyə idarəsi tərəfindən alaqapılar bəzənib hesabsız milli bayraqlar asılmışdı.

İçərişəhərdəki bütün məscidlərin minarələri başında milli bayraqlar rikz edilərək *(sancılaraq)* elektrik ilə çırağban edilmişdi. Xan sarayları üzərində də milli bayraqlar asılmış, məşhur

Qız qalası çırağban edilmiş isə də üzərində iki böyük bayraq rikz edilmişdi.

Təzəpir camei çırağban edilmiş, bayraqlar asılmış idi. Bütün paytaxtdakı minarələr elektrik ilə tənvir, milli bayraqlar ilə təzyin edilmişdi.

Dövtət dairəsi, nəzarətlər, xüsusən Daxiliyyə nəzarəti olduqca qəşəng bəzənmişdi. Bulvardan Daxiliyyə nəzarətinə baxdıqda ay-ulduza bürünmüş işıqlı, bəzəkli bir qala kibi gözə çarpırdı. Bulvar qarşısındakı hesabsız bayraqlar ilə müzəyyən (bəzəkli) qayıqlar tərpənərək paytaxtı salamlayaraq böyük bayram ilə təbrik ediyordular.

Saat 9 radələrində Məclisi-Məbusan qarşısında izdiham, qələbəlik bir dərəcədə idi ki, artıq keçməyə yol tapmaq namümkün idi. Bütün o dairədəki evlərin damları, pəncərə və balkonları tamaşaçılar ilə dolmuşdu. Damda «qoşa zurna» çalınır. Qarşıdakı balkonda məşhur tarzən Şirin, məşhur xanəndə Cabbar Qaryağdıoğlu çalıb-oxuyurdu.

Saat 10 radələrində mədən dəvairindən «Müsavat» və «Hümmət» firqələri tərəfindən təşkil edilmiş fəhlələr bayraq və musiqi ilə gəldilər: «Hümmət firqəsinin bir çox al və milli bayraqları ilə bərabər emblеması, «Müsavatın bir çox bayraq və emblеması aralığı təzyin ediyordu.

Bir az keçmədən minlərlə məkatib şagirdanı havada kiçicik Milli bayraqları yelləyərək «Yaşasın!» sədaları ilə dairəyə gəldilər.

Ətfalın *(uşaqların)* səsləri asimanə büləndə oluyordu. Izdiham da cocuqların sədalarından cünbişə gələrək «Yaşasın!» deyə onlara qoşuldular. Tam 15 dəqiqə iş bu kütleyi-əzim «Yaşasın!» sədaları, əl şaqqıltıları bütün ətrafı gümburdatdı. Bələdiyyə idarəsi qarşısından tutmuş Məclisi-Məbusan dairəsi, Parapet bulvarı, dövlət dairəsi tamaşaçılar ilə xıncaxınc idi.

Dəstə-dəstə mini-mini həm-həqlə «əntiqə» *(oynayan)* cocuqlar antik qalpaqlarda taxta silahlar ilə ağır «topxanaları» ilə tam bir əsgər kimi marş oxuyaraq aralığı gəziyordular. Birinci realni məktəbinin şagirdanı üzərində ay-yıldız Çingiz Xanın oxu

ipək ilə işlənmiş qiymətli bir bayraq ilə müsəlləh olaraq dairəyə gəldilər. Bunlar həqiqətən şayani-təhsin və təqdir idi. Bunlarda artıq coçuqluq görünmüyordu. Qara gündə əsgər kibi meydanlara çıxacaqlarını bayraqları andırıyordu.

Bir az keçmədən «Müsavatın» bəzəkli avtomobili, türk mürəttiblərinin avtomobili dairəyə gəldi, türk mürəttibləri doğrudan da «əntiqə» bəzəmişdilər. İçərisində iki hürufat kassası qoyulmuş, iki nəfər mürəttib iş əlbisəsində (paltarında) cümlə yığır, digərisi bağlayır, digərisi üzünü rəngliyor. Daha digərisi çap edərək ətrafa atırdı.

Bu sırada «*Yaşasın!*» sədaları əl şaqqıltılarına qarışaraq yenə ətrafı tutdu. Rəisi-Vükəla həzrətləri, Məhəmməd Əmin Rəsulzadə əfəndi ilə avtomobildə təşrif gətirdilər. Xəlq bunları salamlıyor, alqışlıyordu.

Bir az keçdikdən sonra Məclisi-Məbusan qarşısında Məhəmməd Əmin Rəsulzadə cənabları kürsü xitabinə *(xitabət kürsüsünə)* çıxaraq xalqın alqışları altında bir nitq irad edərək camaatı milli böyük bayram və bəxtiyarlıq ilə təbrik etdi: «Bizim düşmənlərimiz, azadlıq və istiqlaliyyətimizi gözləri götürməyən rəqiblərimiz deyirlər ki, Azərbaycan istiqlaliyyətini xanlar, bəylər elan etmişlər, xalq onu istəmir. İştə camaət! Bu günkü izdiham, bugünkü bəşaşət istiqlaliyyətin xanlar deyil, bəylər deyil, xalq tərəfindən elan edildiyini düşmənlərimiz artıq görsünlər».

Xalqın alqışı altında nitqinə xitam verdi. Ondan sonra başqa natiqlər də nitq etdilər.

Mühərririn tərəfindən Xəlil İbrahim cənabları gözəl bir nitq irad edərək bayramın əzəməti, tarixi bir vaxtda olduğu üçün Azərbaycan tarixi səhifələrində xüsusi bir yer tutacağını qeydlə xəlqi təbrik etdi.

Realni məktəbin qarşısında qoyulmuş digər bir kürsüdə Əbilov cənabları fəhlə və kəndçilərə müraciətlə nitq irad edərək istiqlalımız düşmənləri əleyhinə var qüvvə ilə getməyi təbliğdən sonra təbrik etdi. Sonra Süleyman Nuri Ağazadə və bir çox fəhlə nümayəndələri nitq irad etdilər.

Bu sırada Hacıbəyli müdiriyyəti türk aktyorları ittifaqı tərəfindən təşkil edilmiş əski türk tarixi müməssil edər bir heyət xəlqin şiddətli alqışları arasında Məcüsi-Məbusan dairəsi qarşısında əxzi-mövqe etdilər.

Ən qarşıda türklərin ulu sələfi *(komandanı)* Çingiz Xan, sonra Teymurləng, İran şahlarından Şah Abbas, Al Qacardan birinci Bakuyi fəth etmiş Ağaməhəmməd Şah Qacar, Bakı, Şəki, Gəncə, Quba, Şirvan xanları və qeyrə atlar üzərində tarixi əlbəsə və qrım ilə isbati-vücud ediyordular. Bəzənmiş bir avtomobildə Azərbaycandakı qadın qiyafələrində aktrisalar xoru, digər bir avtomobildə aktyorlar xoru, vaxtilə Qafqasiyayı istila etmiş əski ərəb qiyafələrində müsəlləh atlılar və qeyrə.

İş bu simalar miyanında ən calibi-diqqət bir sima daha görülüyordu. Bu sima bütün qafqasiyalıların qəlblərini qanla dolduruyor; maziyi bütün varlığı ilə mücəssəm ediyor, qadınları ağlatıyor, gənclərin ruhlarını yüksəltiyor, onlarda arslanlıq, qəhrəmanlıq oyadıyordu.

Bu sima Qafqasiyanın hürr səmasının işıqlı yıldızı məğrur mütəkəbbir qalalarının gen qanadlı tərlanı Şeyx Şamil həzrətləri idi. Guya iş bu simayi-müəzzəm üzünü Azərbaycan Məclisi-Məbusanına, daha doğrusu, istiqlaliyyətini bayram edən ulu türk millətinə çevirərək kəmali-hüzn ilə Dağıstanın qana boyanmasını, Çeçenistanın haydutlar cəngəlində çabalamasını, Bolqarıstanın hürr evlərinin yalovlar altında qalmasını göstərərək qara geymiş ailəsi yasa batmış Kazbeki tamaşaçılar qarşısında mücəssəm ediyordu. İş bu simayi-müəzzəm ulutürk millətini qan dəryası içində çabalayan çərkəz balalarını, üryan xəncərlər ilə sinəsini qaragüruhlar qurşunlarına arslan kibi qalxan etmiş inquş qəhrəmanlarını xəlqə göstərərək qardaş müavinəti diliyordu, guya zəbani-hal ilə diyordu: «Ey Çingiz Timurun şərəfli övladı, ey Cavad xanların qəhrəman nəsli, ey Yıldırımlar, qazilər, bəyazidlər, Sultan Süleymanlar, fatehlərin arslan əhvadi (nəvələri), Dağıstanın qarşınızda təməvvüc edən (dalğalanan) yeddi yıldızlı bayrağı qana batmış, müavinət ediniz ulu türk milləti!»

Artistlər tərəfindən Hüseynqulu Sarabski cənabları nitq irad edərək canla-başla artistlərin vətən və istiqlaliyyəti mühafizə edəcəyini alqışlar altında söylədi. Sonra Teymurləngi təmsil edən Abbas Mirzə Şərifov cənabları müasir bir şer oxuyaraq xəlqin şiddətli alqışına nail oldu. Digər bir avtomobildən məşhur dərviş Ağadadaş, xüsusi dərviş libasında boynunda kəşkül, əlində tirzən (ox atan) olduğu halda millət qəsidələri tərənnüm ediyordu.

Məclis tərəfindən Həsənbəy Ağayev həzrətləri balkondan şiddətü alqışlar altında xəlqi təbrik etdi.

Bundan sonra musiqi və alqışlar altında Məclisi-Məbusanın təntənəli İclası Həsənbəy Ağayev həzrətləri tərəfindən güşad edilərək müəssər (təsirü) bir nitqdən sonra təbrik teleqramları oxundu. Sədr həzrətlərinin təklifinə görə istiqlaliyyət yadigarı olaraq şəhərin,ən mütənnən (gözəl) yerində bir abidə rikzi təhti qərara alındı. Bundan sonra təbriklər istima edildi.

İclasdan sonra başda Heyəti-Rüəsa və hökumət rəisi olmaq üzrə Məclisi-Məbusan əzasi (üzvləri) Hürriyyət meydanına rəsmi keçid mərasiminə hərəkət etdilər.

Daha əvvəldən Hürriyyət meydanında ordunun müfərrəz qitəmati-müntəzəmə (piyada qitəmati, Məclisi-Məbusan qoruyucu bölüyündən müfərrəz qitə, hökuməti mühafizə qitəsi, milisiya təşkilatından bir qitə) duruyordu.

Ətraf tamaşaçılar ilə xınca-xınc idi. Məbusan avtomobilləri yaxlaşdığı sırada müfərrizə komandanı yüzbaşı Xoyski cənabları əsgəri silah başına dəvət etdi. Azərbaycan istiqlaliyyəti təşkilatını təmsil edən gənc Azərbaycan ordusunun gənc əqsamı dərhal gənclərə məxsus çeviklik və fəaliyyətlə və kəmali-intizamla silah başına edib ümumiyyətlə əxzi-mövqe edildi. Bilaxirə hökumət ərkanilə və Məclisi-Məbusan əzalarını bəzi-zəvat bərayi təftiş qitələri arasına gələrək qılıq və qiyafətə nəzarətlə hər cür və tam qarşısında əsgərə xitabən salam verib və yüksək səslərincə salamlarına müqavilə ediyor idilər.

Bilaxirə bu məsələ xitam edilincə əvəzi Məclisi-Məbusan rəisi Həsənbəy Ağayev həzrətləri qısa və fəqət müfid bir nitq ilə

yövmi-istiqlalın əhəmiyyət və azərbaycanlılar üçün böyüklüyündən bəhs ilə cümlə əsgəri təbrik etdilər. Mütaqibən Rəisi-Vükəla həzrətləri kəza (həmçinin) eyni halda qısa bir nitq ilə Azərbaycan istiqlalisinin təmini-bəqası orduya bağlı olduğundan bəhs edərək ordunun yövmi-istiqlaliyyətini təbrik etdilər.

Bilaxirə ordu naminə general Yusifov qayət qısa və fəqət yenə bir nitq irad ilə hökumət və millətin orduya qarşı bəyani-etimadından dolayı «Yaşasın hökumətimiz!» deyə böyük səslə hökumət və millətə bəyani-təşəkkürdə bulundular. Gənc ordumuzun həqiqətən şayani-təhsin olduğunu bu gün etiraf etməyən bir adam qalmadı.

Azəri türkləri balalarını yadlarından fəramuş etmədikləri gün kibi aşkar idi.

Gənc əskərlərin hərəkəti bir elektrik qüvvəsi kibi idi. Bir komanda verilirsə bir tən vahid kibi qitaət komandayı qəbul ediyordu. Həqiqətən ordudakı nizam türk xəlqini sevindirdi. Bir çoxları şadlıqlarından ağlıyordular. «Yaşasın qəhrəmanlarımız» sədaları asimana yüksəlirdi. Bundan sonra rəsmi keçid mərasiminə başlandı. Əskəri musiqi qarşısında taqımlar kəmalinəzm və nizamla keçərək Rəisi-Vükəlanın «Mərhəba əskər!» müraciətinə qitəmat bir səslə «Yaşasın» deyə cavabda bulunaraq qəhrəmananə bir surətdə keçirdi.

Əskərləri xəlq qişlalara qədər təşyi etdi. Bundan sonra küçələrdə çalğı və mahnılar ilə dəstə-dəstə xəlq dolaşaraq birbirlərini təbrik ediyordular.

Axşam şəhər xüsusi bir şəkil almışdı. Nərəyə baxırsan çıraqban edilmiş, çalğı çalınıyordu. Bulvarda musiqi tərənnüm ediyor.

Dövləti teatrda Hacıbəyli qardaşlarının müdiriyyəti tərəfindən «Leyli-Məcnun» opera tamaşası verildi. Tamaşadan əvvəl Piri Mürsəlzadə cənabları nitq irad edərək Füzuli həzrətlərinin əsərini təsfirlə vətən və millətə olan məhəbbəti söylədi.

Fəhlə klubunda «Hümmət» firqəsi tərəfindən mitinq-konsert tərtib verilmiş idi. Burada bir çox natiqlər nitqlər irad edərək fəhlələri müəzzəm bayramla təbrik etdilər. Gecə sabaha

kimi küçələrdən çalğı, «Yaşasın!» kəsilmiyordu.

Camaatlarda füqəraya ehsan veriliyordu, nitqlər irad edilərək xütbələr oxunuyordu.

Bugünki bayramla bu gün yüz sənədən ziyadə başına qara örtmüş Şirvan xanlarının paytaxtı Bakı qarayı gömürərək al duvaq örtdü.

Mayıs ayının 28-də Mirzəağa Şükürovun sədarətilə və Yusif Quluyevin katibliyilə posta və teleqraf xidmətçilərinin ittifaqında Azərbaycan hökumətinin sənəyi-dövriyyəsi münasibətilə vaqe olan iclasda kəsrəti (çoxluq) ara ilə qət olundu ki, bir ücrətsiz teleqraf göndərilsin:

«Bakı, Rəisi-Vukəlayə, surətləri poçt və teleqraf nazirliyinə və Parlaman rəisinə:

Bu gün Azərbaycanın sənəyi-dövriyyəsi yovm səadəti münasibətilə biz posta və teleqraf xidmətçiləri cənabınızı bayram olmaq üzrə bütün dindaşları təbrik etməklə bərabər lüzum gəldiyi zaman kəndi vəzifəmizin ifasından maəda əldə silah olaraq hər bir Denikinlərin və hökumətimizin başqa düşmənlərinin önünü almağa bir qətrə qanımız qalanadək hazır olmağımızı bəyan ediriz».

Haman iclasda qət olunur ki, yuxarıdakı teleqrafdan maəda sabiq posta və teleqraf naziri Aslanbəy Səfikürdlü cənablarına bir təbrik teleqrafı çəkilsin. Teleqrafın məzmunu böylə idi:

«İş bu tariximizdə qayət qiymətli və mütəntən gün münasibəti ilə zati-alilərinizi təbrik etməklə bərabər cənablarınızın posta və teleqraf nazirlik vəzifəsini ifa etdikləri zaman məzkur nəzarətdə millət uğrunda göstərdiyimiz fəaliyyətlərdən naşı biz posta və teleqraf xidmətçiləri zati-alilərinizə səmimiyyət izhar edir və həzrəti həqqdən cavan Cümhuriyyətimizin başqa nəzarətlərində Sizin kibilərin misalının çox bulunmağını istirham edəriz.

Azərbaycan Posta və Teleqraf Müsəlman Xidmətçiləri İttifaqı».

«Azərbaycan» qəzeti, *№192, 1 iyun 1919*

«Yeni Müsavat» №117, 118. 8, 9 may 2008

28 MAY İSTİQLAL BAYRAMLARI

«Milli istiqlal davası mədəni millətlər ailəsi miyanında özünə məxsus bir evə, bir yuvaya malik olmaq davası deməkdir»
M.Ə.Rəsulzadə

89 ildir ki, milli qeyrətli azərbaycanlılar 28 May istiqlal gününü əziz bayram kimi qeyd edirlər. «Bina yanar, dağılar, fəqət millət, istiqlal fikri, milli ruh ölməz, öldürülməz». Cümhuriyyətimizin yaradıcısı Məmməd Əmin Rəsulzadənin 90 il bundan öncə söylədiyi bu kəlamını tarix təsdiq edir.

Bolşevik rus kommunistləri və onların yerli əlaltıları 23 aydan sonra milli, həqiqi demokratik Cümhuriyyətimizin varlığına son qoyub, istiqlal mücahidlərinin bir qismini cismən məhv edib, mühüm bir qismini mühacir etdilər. Lakin onlar heç zaman hürriyyət, istiqlal fikrindən ayrılmayaraq daim bu uğurda çalışıb mübarizələrini böyük və müqəddəs bir inamla davam etdirdilər. Azərbaycan mühacir mətbuatı bu barədə çox qiymətli tarixi yaddaş mənbəyidir.

Cümhuriyyətimizin 90 illik yubileyi ərəfəsində vətən həsrətli istiqlal mücahidlərimizin 28 May İstiqlal bayramını necə böyük məhəbbət və gələcəyə inam hissilə qeyd etdiklərinə dair mətbuat səhifələrində çox maraqlı yazılar var. Məsələn, M.Ə.Rəsulzadənin baş redaktorluğu ilə İstanbulda nəşr olunan «Odlu Yurd» məcmuəsi 1929-cu ilin 4-cü nömrəsini bütünlüklə 28 May istiqlal gününə həsr edib. Nömrəyə əvvəlcə «28 May 1918. Azərbaycan İstiqlal Bəyannaməsi», sonra M.Ə.Rəsulzadənin «Bu günün ilhamı», M.B.Məmmədzadənin «İstiqlal mücadiləsi», «H.Baykaranın «Türküstanda milliyyətçilik hərəkatından bir səhifə». Ə.Yusifin «28 May və gənclik», həmçinin «İstiqlalımızın iqtisadi təməli» (M.B.). «Azərbaycanda vəziyyət», «Azərbaycan həyat və mətbuatından» və digər maraqlı yazılar dərc olunub.

«Odlu Yurd» isə iyunda çıxan 5-ci nömrəsində 28 Mayın 11 illik yubileyinin dünyanın müxtəlif ölkələrində mühacirlər tərəfindən necə böyük sevinclə bayram edilməsinə dair yazılar verib. Jurnalın adı çəkilən nömrələrində dərc olunmuş maraqlı və tarixi səciyyəli yazılardan bəzi nümunələri oxuculara təqdim edirəm. Bəlkə heç olmasa onları da 90 illik yubiley günlərində yada salaq!

BU GÜNÜN İLHAMI

28 MAY!.. İştə idealist Azərbaycan nəslinə ilham verən bir gün!.. Hürriyyət və istiqlal günü!

Əsrin ən qiymətli şüarını təşkil edən milliyyət prinsipi və milli istiqlal haqqında bilistifadə bundan 11 il əvvəl kəndi (öz) istiqlalın elan edən Azərbaycan xalqı 28 May Bəyannaməsilə bir milliyyət olaraq əsrlərdən bəri təəzzüv edən (danışılan) və sənələrdən bəri genişlənərək nəhayət, siyasi şüur və milli ehtiyac halına gələn davasını təsbit ilə mədəni millətlər ailəsi içində bir millət olaraq yaşamaq əzmində olduğunu bütün cahana elan etdi.

Bu gündən etibarən 28 May Azərbaycan xalqının həyatında siyasi ən mühüm bir amil oldu.

Hər hansı bir müəssisədə olduğu kimi, fikir müəssisələrinin də sənəlik blançe (hesabat) günləri var. 11 sənədən bəri milli Azərbaycan fikri yaşadığı həyat blançosunu 28 Mayda yoxlar və kəndi (öz) ilhamını bu tarixi gündən alır.

28 May, müasir Azərbaycan cəmiyyətinin dahi Mirzə Fətəlilə başlayan milli tərəqiyyat və harsi (mədəni) inkişaf seyrini icmal edərək, ona yaşadığımız milli istiqlal məfkurəsilə məşbu (doymuş) böyük dövr ilə mütənasib birşəkil və istiqamət vermişdir;

Bu şəklin hansı ümidlərə istinad etdiyilə bu istiqamətin hansı hədəflərə doğru getdiyini bilmək istəyənlər ilk səhifəmizdəki Bəyannaməni oxusunlar. Bu Bəyannamə milliyyət, cümhuriyyət, demokratik və müasirlik kimi dörd böyük rükün (təməlin) üzərinə qaim (dayanan) bir fikir mənzuməsindən mülhəmdir (ilhamlanmışdır).

Öylə bir ilham ki, bu gün ən Uzaq Şərqdəki Çindən tutmuş, Qərbin ən son nöqtəsindəki İrlandiya, cənubdakı Hindistandan tutmuş şimaldakı fin kaymalarına qədər dünyanın hər tərəfindən böyük hərəkətlər yaradır, insan kütlələrini xətir və xəyala gəlməyən bir enerji ilə tərəqqi və inkişaf yoluna sövq edir.

18-ci əsrin sonları və 19-cu əsrin əvvəllərindən etibarən mədəniyyət dünyası tarixində ən böyük rol oynayan bu ilham verən fikir, milliyyət ümdəsi, 20-ci əsrin hülulu (girməsi) ilə daha ziyadə qüvvət almış, Avropa və Amerika hüdudunu aşaraq, Yaxın və Uzaq Şərq məmləkətlərini dəxi kəndi (öz) təsirilə sarmışdır.

Cahanı içindən gəmirən təzadların zəruri çarpazlaşma- sından vücuda gələn böyük müharibə əsasında bu böyük qüvvətin icra etdiyi təsiri gördük. Cahan hərbi kəndisini (özünü) doğuran böyük təzadları tamamilə həll edəmədi. Bu, tamamilə həll edilməyən məsələlər miyanında milliyyət məsələsi də var. Fəqət bu məsələ tamamilə həll edilməmişsə də, qismən həll olunmuş, qismən də həlli önünə keçilməz bir inad və israrla vəz edilmişdir. Bu üzərində israr edilən məsələlərdən biri də 28 Mayda vəz olunan Azərbaycan məsələsidir.

İslam dünyasında ilk dəfə olaraq təəssüs edən bir türk cümhuriyyətinin istiqlalını təsbit etmiş 28 May Bəyannaməsi, Böyük Millət Məclisinin Türkiyə Cümhuriyyətinin hürriyyət və istiqlalını təzəmmün (əhatə) edən «Misaqi milli» növündən bir vəsiqədir. Bu vəsiqə, böyük Fransız ixtilalı, böyük Amerika istiqlal hərbi, böyük Almaniya istixlası (xilası), böyük İtalyan ittihadı kibi hürriyyət və milliyyət hərəkatlarında əsas təşkil edən və nəhayət, Vilsonun 14 maddəsində yer bulan və Millətlər Cəmiyyəti fikrinin əsasını təşkil edən böyük fikir müqtəziyatının (tələbinin) Azərbaycan xüsusiyyətilə imtizac etdiyini (birləşdiyini) göstərən bir vəsiqədir.

Milli istiqlal davası mədəni millətlər ailəsi miyanında kəndinə (özünə) məxsus bir evə, bir yuvaya malik olmaq davası deməkdir. Cahan millətlərindən mühüm bir qismi bu sərih (doğru) haqqına malik deyildir. Bunlardan bir qismi bu haqqını qazanmaq, bir qismi də onu idarə etməklə məşğuldur. Azərbaycan xalqı ikinci növə daxildir.

Əvət, 11 sənə əvvəl biz bu haqqımızı iqtisab etmiş (mənimsəmiş), kəndi (öz) yuvamızı qurmuş, kəndi həyatımızı kəndimiz idarəyə başlamışdıq. Bizim böylə bir haqqa malik olduğumuzu və özümüz-özümüzü idarəyə layiq olduğumuzu mədəniyyət dünyası da qəbul eyləmiş, Azərbaycan Cümhuriyyətinin istiqlalı böyük dövlətlər tərəfindən dəxi tanınmışdı.

Fəqət, sözdə millətlərin kəndi (öz) müqəddəratlarını bizzat

(özlərinin) hələ haqlı olduqlarını qəbul edən bolşeviklər, işdə təvarüs etdikləri (varisi olduqları) rus imperializminin ənənəsinə sadiq qalaraq, o zamankı siyasi vəziyyətdən istifadə edərək böyük bir qüvvə ilə Azərbaycan hüdudunu keçərək hürriyyət və istiqlalımıza təcavüz etdilər, milliyyət, cümhuriyyət və demokrasi ümidlərini təhqir ilə milli müqəddəsatımızı kirli ayaqları altında çeynədilər.

Onlar bu ani zərbə ilə həyatı durdurmaq, tarixi çevirmək istədilər. Fəqət bihudə!..

Tətbiq olunan bütün məzalimə, təcrübə olunan şeytani sistemlərə rəğmən, Azərbaycan həyati-müstəvili (düzəni) bolşevizmin deyil, xilaskar millətçiliyin hədəfi üzərində inkişaf etməkdədir. Kommunizm ixtilalının ixfal (gizli, örtülü) şüarları ilə aldadılaraq mücadilə həyatına cəlb etdiyi xalq kütlələri həqiqi əsasdan ari (xəbərdar) olub, xəyallar üzərində qurulan sistemin iflası nisbətində tarixin təbii yolundan getməyi bolşeviklərə rəğmən öyrənir, milli müqavimət gündən-günə qüvvətlənir. Qismi məxsusumuzda təsbit edildiyi kimi, millət, başına çökən bu kabusa müsəlləh (silahlı) qiyamlar, siyasi mücadilələr və harsi (mədəni) müqavimətlərlə qarşı gəlir.

Belə ki, müqəddəs cidalın 11-ci ildönümünə aid blançonu (hesabatı) yaparkən bax nələri qeyd edə biliyoruz:

Köylülər (kəndlilər) əkin sahələrini azaldır, hökumətə ərzaq satmaq istəmirlər; sovet seçkiləri bolşeviziyada hökmfərma olan o müdhiş terrora rəğmən, sovet əleyhində bir nümayiş şəklinə girir. Kommunistləri öldürürlər, komisiyonları basırlar, köylü (kəndçi) kommunistlərin verdiyi vərəqdəkiləri deyil, öz adamlarını seçdirmək istəyir.

Gənclər milliyyət ruhu ilə mütəhəssisdir. Bu ehtisas gəncliyə qarşı tətbiq olunan təqibat sistemilə məkusən (tərs) mütənasib olaraq artır. Komsomollar belə milliyyətçi olurlar. Nə sürgünlər, nə həbslər, nə də qətllər bu gəncliyi milli məfkurəyə məcburiyyətdən qopara bilmir. Böyük qafilə şəklində Şimali Rusiyaya sürülən mücahidlər «Yaşasın Azərbaycan!» - deyə vaqonlara atılır və arxasınca ağlayan gəlinə «türk qızı ağlamaz!» bağırırlar!..

İstiqlal qüvvəsi gün keçdikcə sistemin həyatın canlı qüvvətlərilə mücadilədə olduğunu görür və öz istinad etdiyi qüvvələrdən də şübhələnməyə başlayır. Nəticədə biz qızıl ordu nəfərləri arasında dəxi həbslər, sürgünlər və qətllər icra edildiyini xəbər alırıq. Duyuruq ki, kommunistlər hələ silahlarından təcrid olunurlar.

Əvət, zaman milli istiqlal fikrinin lehinə işləyir. Qəlblərini bu qayəyə bağlayan və cəhdlərini bu uğurda sərf edən azərbaycanlılar hər sənə 28 Mayda keçdikləri cidal yolunu seyr edir, hədəfə varacaq məsafəni tədqiq edirlər. Hərəkatın aktiv və passivini ölçərək illik blançonu yapdıqdan sonra yeni bir qüvvət və ilham ilə mücadiləyi davam etdirirlər!

Bu gün bizə nə ilham ediyor? On bir illik mücadilə nəticəsində nə görürük?

Mücadilə əzm və iradəsi mətinləşən bir millət görürük ki, hər dürlü maneələrə rəğmən, bir dəfə təsbit olunan böyük hədəfə doğru durmadan yürüyür. Cahan tarixinin təcrübəsindən, milliyyət fikrinin qüvvətindən və türkün əzəli qabiliyyətindən ilhamlanan bu yürüş mütləqa zəfərə nail olacaq, bu gün «Çeka»nın qapalı zirzəmilərində, Sibiriyanın günəş görməyən tunduralarında, mühacirətin səfalət və məhrumiyyətə dolu şəraiti daxilində hürriyyət, istiqlal və vətən eşqi və həsrətilə döyünən həzin qəlblər, çox çəkməz vətənin ağuşunda yerləşər, istiqlal və hürriyyət bayramını müzəffər bir surətdə qeyd edərlər!

Hər 28 Mayı dərk etdikcə biz arzuladığımız günə bir az daha yaxınlaşdığımızı hiss edir, bu böyük gündə çarpan qəlblərin müştərək duyğusundan qüvvət və ilham alaraq yeni həmlələrlə yolumuza davam edəriz!

Bəli, vətəndaşlar, yürüyəlim, durmadan, yorulmadan, sarsılmadan daim yürüyəlim, məqsədə çatacağımız gün yaxınlaşır!..

İşdə bu günün ilhamı, onu həqiqətə çevirəlim!

«Odlu Yurd» *№ 4, 28 may 1929*

«Yeni Müsavat» qəz. №130 (3752) 21 may 2008

BÖYÜK TARİXLƏ GÖRÜŞ

«Cümhuriyyət generalları sübut elədilər ki, Azərbaycanda həm kişi var, həm vətəndaş»

«Vətəndaş cəmiyyəti olmayan yerdə ən yaxşı söz də göyə atılan güllə kimidir»

Şirməmməd müəllimi Azərbaycan Xalq Cümhuriyyətinin canlı tarixçilərindən saymaq olar. Elə buna görə də Cümhuriyyətin 90 illiyi qarşısında onunla görüşüb söhbət eləmək istəyində bulunduq. AXC-nin tarixi ilə bağlı bu günə qədər Şirməmməd Hüseynovdan çox şeylər öyrənmişik. Son söhbətimiz də istisna olmadı.

- Bu gün Azərbaycanda ictimai bir durğunluq görünməkdədir. Bununla bağlı siz nə düşünürsünüz?

M.A.Şahtaxtlı 1901-ci ildə Parisdə «Türkiyəni necə xilas etməli?» adlı əsər nəşr etdirmişdi. Bu əsəri akademik İsa Həbibbəyli onun seçilmiş əsərlərində verib. Şahtaxtlı yazırdı ki, «İslam Şərqində və Türkiyədə kişi var, amma təəssüf ki, vətəndaş yoxdur!»

- Nə demək istəyirsiniz?

- Demək istəyirəm ki, bunu 1901-ci ildə yazıb, amma 20 ilin içərisində «yox»u var elədilər. Zərdabi, Axundov, Bakıxanov, Topçubaşov, Ağayev, Əli bəy Hüseynzadə, Üzeyir bəy, Məmməd Əmin, Ömər Faiq Nemanzadə - bir dəstə ziyalı sübut elədilər ki, Azərbaycanda həm kişi, həm də vətəndaş var.

Üzeyir Hacıbəyov 19-cu ildə qeyd eləyirdi ki, I Rus İnqilabı dövrü Rusiya ilə bərabər biz də oyandıq, əməlli-başlı işlər gördük. Çox təəssüf ki, bərk qızdıq, tez də soyuduq.

90-cı illərin əvvəllərində yaxşı qızdıq, amma sonra soyuduq. İndi bizim soyuyan vaxtımızdır. Bu ondan irəli gəlir ki, bizdə hələ vətəndaş cəmiyyəti, siyasi mədəniyyət istənilən səviyyədə deyil. Yəni, ictimai rəy zəifdir. Vətəndaş cəmiyyəti olmayan yerdə ən yaxşı söz də, göyə atılan güllə kimidir. Xeyri yoxdur, tutmur. Üzeyir bəy yazırdı ki, bizdə bir primitivlik əmələ gəlib,

apatiya var. Əhməd bəy Ağayev 1899-cu ildə «Kaspi» qəzetində 2 məqalə yazmışdı: «Obzor jurnalistiki na Vostoke», «Obzor Vostoçnoy jurnalistiki». Orda yazırdı ki, Şərq ölkələri Avropadan bəzi şeyləri götürürlər - geyim-keçimi, məktəbi, filani. Amma Şərqə ən gec yol tapan şey jurnalistikadır. Ona görə ki, jurnalistika çeviklik, cəldlik, obyektivlik, axtarış, ayıqlıq tələb edir. Əhməd bəy yazır ki, bu, Şərqin mürgüləyən təbiəti ilə bir yerə sığmır. Molla Nəsrəddin görür ki, camaat yatıb, göydən günəşin şüası düşəndə də bəziləri gərnəşir. Bax biz hələ o dövrü keçirik. Birdən-birə biz proseslərə Amerika, Fransa, İngiltərə ictimaiyyəti kimi reaksiya verə bilmərik. Biz hələ onu yaratmamışıq.

Tarixdə elə ölkələr var ki, əvvəl millət formalaşır, sonra o millət dövləti yaradır. Onda dövlət təbii olaraq onu yaradan millətə qulluq edir. Amma ölkə var ki, əvvəl dövlət yaranır, millət isə hələ də yaranmayıb. Odur ki, orda millət dövlətə qulluq edir.

«60-70 ziyalı milləti arxasınca aparırdı»

- Mən 20-ci yüz ilin başlanğıcında əlimə diktafon götürüb kiminləsə söhbət eləyəsi olsaydım, çox böyük seçim qarşısında qalardım. Bilməzdim kimin üstünə gedim - Əli bəy Hüseynzadə, Ömər Faiq Nemanzadə, Mirzə Cəlil, Üzeyir Hacıbəyli vardı, siyasət alanında da Məmməd Əmin Rəsulzadə, Yusifbəyli vardı. İndi belə adamlar tapmaq çox çətindir...

- Mən hesablamışdım ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanda təxminən 100-ə yaxın ali təhsilli adam olub. Onun da üçdə biri bolşevik, sosial demokrat idi - Nərimanov kimi. Deməli, 60-70 belə ziyalı vardı. Amma onlar milləti arxalarınca aparırdılar. Çünki hərəsi bir general idi, xalqda onların sözünə inam vardı. İndi Azərbaycanda 350 min ali təhsilli, diplomu olan adam var. Qarabağı müdafiə eləyə bildik? Yox. Yəni indi amorf kütlə var. Hələ bunlar üçün millət öz yerlisi, öz ailə üzvləridir. Vətən də öz oturduqları yerdir. Yerdə qalan onlar üçün Vətən, müqəddəs yer deyil. Çox ciddi məsələdir. Amma bu, birdən-birə yaranmayıb. Fransada indi

beşinci respublikadır. 1789-cu ildən indiyə qədər Fransada 5 respublika yaranıb. Niyə? Çünki təkmilləşdiribiər. Birinci respublika yarandı və Napaleon hakimiyyətə gəlib özünü imperator elan etdi. Əgər Avropanı götürsək, Avropa 250-300 ilə bu yolu keçib. Demokratiya yolunu.

- Sizcə, bu nəylə bağlıdır - obyektiv, yoxsa subyektiv şərtlərlə?

- Türk tarixçisi Mustafa Yazıçının 90-cı ildə bir kitabı çıxıb. Orda yazılıb ki, eradan əvvəl başlayaraq 1990-cı ilə qədər tarixdə 128 türk dövləti, 318 dövlət başçısı olub.

128 dövlət yaratmışıq biz. Onun 6-nı azərbaycanlılar yaradıb. Azərbaycan Xalq Cümhuriyyəti tarixdə 114-cü türk dövlətidir. Amma Türk İslam dünyasında birinci respublikadır.

«Gərək bir neçə nəsil keçə»

- Bu, bizim seçkinliyimiz deməkdir də...

- Burda bir şey var. Hamı bunu bilir, amma Məmməd Əmin Rəsulzadə, Mirzə Bala bir şeyi də qeyd edirlər ki, xalqın böyük əksəriyyətini arxasınca apara biləcək siyasi partiya olmasa qələbə olmaz. Dövlət siyasətdir. Hakimiyyətə gəlmək üçün gərək siyasi ordun, siyasi qüvvən ola. Yazırlar ki, Müsavat Partiyası bütün İslam Şərqində ilk həqiqi demokratik partiya olub. Biz deyirik ki, Xalq Cümhuriyyəti Türk İslam aləmində birinci respublikadır. Gərək deyək ki, ilk siyasi partiya da Müsavat Partiyasıdır. Demokratik olub ki, ö cür demokratik bir dövlət yaradıb. Şaumyanın Leninə məktubu var. Deyir 1917-ci ilin fevralına qədər Müsavat Partiyasını heç sayan yox idi. Qısa bir müddətdə bu Zaqafqaziyanın ən güclü siyasi partiyasına çevrildi. Bünu kimlər çevirdi? Birləşdilər...

Bu partiyanın bütün rayonlarda şöbələri yarandı. Yazırlar ki, dünyada 3700-ə yaxın xalq, millət, tayfa var. Amma bunların cəmi 230-nun müstəqil dövləti var. BMT-nin 192 üzvü var, amma dünyada 3700-ə yaxın xalq, millət, tayfa var.

Biz onlardan biriyik. Kim yaratdı bu dövləti bizim üçün? Demək, bu xalqın dövlət yaratmaq, torpağını qorumaq sərişləsi olub.

70 illik sovet dövründə hər şey milli zəmindən qoparıldı,

vətənpərvərlik, millətçilik, Vətən anlayışı itdi. Sovet xalqı deyilən bir xalq toplusu əmələ gəldi, guya. Odur ki, indiki nəslin günahı yoxdur. Gərək, bir neçə nəsil keçə.

- Aşındırıblar da, deməli?

- Aşındırdılar... Kobud bir misal çəkəcəm. Atı, eşşəyi, dəvəni - bu böyüklükdə heyvanları niyə insan min illər ərzində əhəlləşdirib sürür? Çünki, müqavimət göstərmir. Gör, adam onun başına nə oyun gətirib. Millət də belədir. Elə millət var ki, o günə salıblar onu heyvan kimi minirlər. Amma bax gör, balaca pişiyi istədiyin kimi özünə tabe etdirə bilirsən? Xeyr, o səni özünə tabe etdirir.

- Bacarmırsan...

- Bəli, bacarmırsan. Deyir pələng meşədə pişiyə rast gəlir və baxır ki, özünə oxşayır. Ondan soruşur ki, sən niyə bu boyda qalmısan? Deyir, vallah bir insan var, məni o bu günə salıb. Deyir, gedək onun atasını yandırım. Gətirir bunu, görür ki, kəndli kotanla cüt sürür. Deyir, mənim qardaşımı niyə bu günə salmısan, bu boyda eləmisən? Deyir, görmürsən mən cüt sürürəm. Gəl səni qoşum mənə kömək elə, sonra danışarıq. Bunu qoşur kotana, ağacla da ilişdirir tapbatap. Səhərə qədər sürür. Heyvan ləhləməkdən az qalır ölə. Pişiyə deyir ki, sən hələ yaxşı qalmısan.

- Demokratik respublikada söz, mətbuat azadlığına münasibət necə olub?

- Məmməd Əmin Rəsulzadə 1909-cu ildə Tehranda fars dilində gündəlik qəzet çıxarırdı. 25 yaşında idi o zaman. «İrani Nov» qəzeti. Mən ordan onun 30 məqaləsini əsərlərinin ikinci cildində vermişəm. Qəzetin 1911-ci ildə 8 nömrəsində onun «Mətbuat azadlığı» adlı məqaləsi çıxıb. Mən mətbuat azadlığının o cür elmi şərhinə nə Qərb, nə rus mətbuatında rast gəlmişəm.

Hakimiyyətə gələndən sonra Tiflisdə bunlar nə qəzet çıxara bilərdilər? Tiflisdə heç nələri yox idi. Nə orduları, nə pulu. İyunun 16-da Gəncəyə gəldilər. İyunun 25-də hökumət qəzetinin yaradılması haqqında qərar verildi. İyulun 3-də daha bir qə-

rar çıxdı. Azərbaycan hökumətinin əxbarını yaratmaq haqda.

Qəzet çıxarmaq uçun Tiflisə mətbəə avadanlığı almaq məqsədilə təcili adam göndərilməli idi. Sentyabrın 15-də «Azərbaycan» qəzetinin birinci nömrəsi çıxdı. İki səhifəsi Azərbaycan, iki səhifəsi rus dilində.

- Gəncədə çıxdı?

- Bəli, sentyabrın 15-də, 19, 22 və 25-də Gəncədə dörd nömrə buraxdılar. Orda xüsusən hökumətin qərarları çap olunurdu, məqalələr də var idi. Sonra Bakı azad oldu, gəldilər Bakıya. Oktyabrın 3-də «Azərbaycan» qəzetinin Bakıda 5-ci nömrəsi çıxdı. Amma bu dəfə qəzetləri ayırdılar. «Azərbaycan» ayrıca, rusca ayrı çıxmağa başladı. Sentyabrda Bakıda Abdulla Şaiq «Açıq söz» qəzetini gizli buraxmışdı.

«Cümhuriyyəti öyrənmək üçün xüsusi institut lazımdır»

- Neçə nüsxə buraxıb bilmirsiz?

- Hərəsindən təxminən 300-400 nüsxə. Gizli buraxıb yayıblar. İşləyiblər e bunlar. 23 ayda Azərbaycan dilində 60 adda qəzet, jurnal çıxıb. Çünki hər bir partiya, eləcə də kim istəyirdi qəzet çıxara bilirdi. 18-ci il noyabrın 9-da hökumət fərman verdi ki, qəzetlər üzərində senzura ləğv olunsım. Qəzet çıxarmaq üçün hökumətə müraciət etmək lazım deyildi. 1919-cu ildə Mətbuat Nizamnaməsi qəbul olundu. Onun birinci maddəsində deyilirdi ki, qəzet, jurnal, dəvətnamə, afişa çıxartmaq üçün heç bir yerdən icazə almaq lazım deyil. Mətbuata nəzarət məhkəmələrə tapşırılmışdı. Kimin mətbuatdan şikayəti varsa, versin məhkəməyə, haqqını müdafiə elәsin. Amma daha dövlət bu işə qarışmır. 60 adda Azərbaycan, 52 adda rus, 17 adda erməni dilində qəzet çıxırdı. Bu da təxminən 130 adda qəzet-jurnal demək idi. Mətbuat azadlığı buna deyilir. «Azərbaycan» qəzeti yazır ki, Nəsib bəy Yusifbəylidən soruşdular ki, Müsavat partiyası birpartiyalı hökumət yarada bilər. Siz niyə çoxpartiyalı yaradırsınız?

Dedi, düz deyirsən. Biz parlamentdə çoxluğuq. Biz çoxpartiyalı yaratmaq istəyirik ki, millətin birliyi pozulmasın.

İkincisi də, belə edirik ki, tənqid eşidib özümüzü düzəldək.

Bizim Cümhuriyyəti, o dövrün mətbuatını, bütün aspektlərini öyrənmək üçün xüsusi institut lazımdır. İstiqlaliyyət elan ediləndən 6 gün sonra Məmməd Əmin Batumda türklərlə müqavilə bağladı. Azərbaycan hökuməti ilə Osmanlı imperiyası arasında müqavilə imzalandı. Müqavilərin 4-cü maddəsində göstərilirdi ki, təhlükə olarsa, Azərbaycan Cümhuriyyəti Osmanlı dövlətinə hərbi yardım üçün müraciət edə bilər. Onun əsasında təcili olaraq göstəriş verdilər, Məmməd Əmin İstanbula getdi. Necə oldu ki, Bakını azad etmək üçün birdən-birə bura 10 min türk əsgəri gəldi?

300 adamla neyləmək olardı? Elə daşnakların 15 min əsgəri var idi. Məmməd Əmin getdi. O vaxt Sultan həm də xəlifə idi. Gedib din xadimləri ilə görüşdülər. Dedilər ki, müsəlmanları qırırlar, türkləri qırırlar. Sultan müsəlmanların başçısıdır, o, müsəlmanları müdafiə etməlidir, ya yox? Baxmayaraq ki, Türkiyənin öz vəziyyəti də ağır idi, amma Sultan Ənvər Paşaya göstəriş verdi ki, qoşun göndər. Özü də adı nə oldu - Qafqaz İslam Ordusu. Türk ordusu yox a, İslam ordusu. Çünki qırılan müsəlmanlar idi. Gərək, nə qədər ağıllı olasan ki, gedib ruhanilərə təsir edə biləsən və qoşun gətirdəsən bura.

- 19-cu il mayın 28-də Demokratik Respublika özünün bir illiyini necə keçirdi?

«Azadlıq» qəz. 27 may 2008

«Məddahlardan ibarət parlament millət dərdi çəkə bilməz»

Şirməmməd Hüseynov: *«Millət ziyalıdan müdafiə yox, yaltaqlıq görür»*

- 1919-cu il mayın 28-də Demokratik Respublika özünün bir illiyini necə keçirdi?

- Demokratik Respublika yox, Azərbaycan Xalq Cümhuriyyəti desək, daha düzgün olar. Həmin günə xeyli əvvəldən hazırlaşmışdılar. Parlamentin xüsusi təntənəli iclası keçirildi. Hökumətin qərarı ilə həmin gün iş günü hesab olunmadı. Amnistiya verildi. O bayrama bütün Azərbaycan bir ay qalmışdan bazırlaşırdı. Şənliklər, tamaşalar, boyük izdiham... Uşağın bir yaşı olanda adam necə sevinə-sevinə hazırlaşır? Eyni şeydir də. Dövlət də millətin övladıdır. Üzeyir bəy 1 yaş məqaləsində yazırdı ki, Azərbaycan doğdu, dövlət dogdu, övladımız oldu. Gərək biz onu qoruyaq və böyüdək. Hərə öz uşagını necə sevirsə, Vətəni ondan artıq sevməlidir. Çünki, o hamının övladıdır.

«Dövləti Demokratik düşüncəli, vətənpərvər adamlar idarə etməlidir»

- Siz Çağdaş Azərbaycan mətbuatının patriarxısınız, biz sizə belə baxırıq. Azərbaycan mətbuatının bugünkü durumu ilə bağlı nə deyə bilərsiniz?

- Hər şeyə obyektiv baxmaq lazımdır. Təbii ki, bu məsələdə də həm obyektiv, həm subyektiv faktorlar var. Bizdə iqtisadiyyat var, amma bazar yoxdur. Demokratiya var, amma sosial istiqamətli deyil. Avropada demokratiya sosial yönümlüdür. Bunun üçün dövləti demokratik düşüncəli, vətənpərvər adamlar idarə etməli, parlamentdə bələləri oturmalıdır. Məddahlardan ibarat parlament millət dərdi çəkə bilməz. Əgər onların qanında, ruhunda bu millətə, bu dövlətə sözün həqiqi mənasında məhəbbət yoxdursa, bələlərindən çox şey gözləmək çətindir.

Hələ yaxşı ki, Allah bizə o nöyütü verib. Yoxsa, biz bir-birimizi yeyərdik.

- Bəlkə elə o neftə görə bir-birimizi yeyirik?

Soljenitsin deyir ki, təbiətin, dünyanın əntiqə bir haqq-hesabı var - harda müsəlman var, orda torpağın altında nöyüt var. Amma bir şey var ki, yaponlarda yerin altında heç nə yoxdur, Allah onlara dövləti başda, ağılda verib. Bizə də yerin altında.

- Şirməmməd müəllim, mətbuatın bugünkü durumu sizi qane eləyir?

- Mənim heç kimdən şikayətlənməyə haqqım yoxdur. Şəkidə bir Əbdülcabbar vardı. Ona Şəkinin Molla Nəsrəddini deyirdilər. Sovet hökuməti təzə gələn illərdə onu zaksın müdiri qoymuşdular. İçki düşkünü idi. Bir gün görürlər ki, Əbdülcabbar dıvardan tuta-tuta gəlir. Adamların yanından keçəndə Şəkinin axunduna deyirlər, ay axund, görürsən də, bunu. Bunun kəsdiyi kəbindən nə olacaq. Əbdülcabbar bunu eşidir. Gəlib deyir, axund əmi sən kəsən kəbindən mən olmuşam. İndiki jurnalistləri biz yetişdirmişik də. Nədən şikayət eləyək? Yetişdirəydik də yaxşısını.

«Tələbə gözünü açıb rüşvət, oğurluq görürsə, yüz dənə Şirməmməd Hüseynov da olsa, fərq etməyəcək»

- Axı bu problem yalnız sizlik deyil...

- Yox, heç kim yaxasını qırağa çəkməməlidir. Misir Mərdanovdan soruşanda ki, təmiz, rüşvət olmayan ali məktəb varmı? Dedi, «Xəzər», «Qafqaz» universitetləri, bir də Dövlət Universitetinin jurnalistika fakültəsi. Bizim fakültədə rüşvət deyilən şey yoxdur. Mən olan yerdə rüşvət ola bilməz. Bunu tələbələr də bilir. Biz tələbəyə dərs keçirik. Amma tələbəni təkcə biz tərbiyə etmirik axı. Əgər, tələbə gözünü açıb oğurluq, rüşvət, yalan görürsə, yüz dənə Şirməmməd Hüseynov da olsa, fərq etməyəcək. Tutalım, adamın tərbiyə aldığı ailə də yaxşıdır. Bəs cəmiyyət. Adam görmür ki, cəmiyyət nə gündədir? Tələbələr də mənim övladımdır. İçərisində ağıllıları, savadlıları çoxdur. Ona da fikir vermək lazımdır ki, kim evdə öz övladını necə tərbiyə

eləyir. Mənim iki qızım var - biri elmlər doktorudur, bu yaxınlarda müdafiə elədi. Konservatoriyaya qoymuşam onu. Mən gördüm ki, Konservatoriyada musiqişünasların əksəriyyəti azərbaycanlı deyil. Varsa belə, onlar da rus təhsillidir. Ana dilində təhsil alanlar yoxdur. Apardım uşaqların ikisini də ora qoydum. İndi biri nazirlikdə incəsənət şöbəsinin müdiridir, o birisi Bəstəkarlar İttifaqında məsul katibdir. Namuslu, qeyrətli balalar yetişdirmişəm. Bu, mənim millətə xidmətimdir. Birinci, gərək öz evində namuslu insan yetişdirəsən. Kimdənsə ummaq böyük xəstəlikdir. Gərək hər kəs vətəndaş ola. Dövlətdən tələb eləyəndə gərək birinci özün nə isə edəsən, sonra tələb edəsən.

- Sizin bugünkü gəncliyə sözünüz...

- Bugünkü gəncliyə demək istədiyimi 90 il bundan əvvəl Cümhuriyyətin qurucuları deyiblər. Görün, onların gənc nəslə müraciətində nə deyilir - «Azərbaycan gənci! Gəl, yoldaş, bu məhsullu əkinlər, sərin sulu yaylaqlar, həşəmətli ormanlar, qarlı dağlar, meyvəli bağlar, bağçalar, qara altun verən zəngin mədənlər həpsi sənindir, sənin Vətənindir! Min illərcə bəşəriyyətin nisfinin Kəbəsi, Beytül-Müqəddəs sayılan Bakı atəşgədələrindən, hənuz keçirdiyi tarixi, vəlvəli günləri unutmamış».

Görürsən nə yazır? Deyir ki, bu, sənin Vətənindir.

- Yəni sən yiyə durmalısan ona...

- Bəs onu deyir de. «Gəl, vətəndaş! Bu gün sənin birinci intibahının timsalı olan «İsmayiliyyə»nin xarabəsi qarşısına çıxmalı, əlini qəlbinin üzərinə qoyaraq gözlərini Parlaman binası üzərində ruzigarlarla qəhrəmancasına çarpışan bayrağına tikməli, bir daha onun enməyəcəyinə əhd etməlisən və and içməlisən ki, bu gün qazandığın istiqlala təcavüzanə əl uzadan ancaq sənin cəsədin üzərindən keçə bilər».

Bax bunu oxumaq lazımdır gənclərə.

90 il bir insan ömrüdür, amma tarix üçün, dövlət üçün elə böyük zaman kəsiyi deyil. Təsəvvür edin ki, yəhudilər öz dövlətlərini yaratmaq üçün 2 min il gözləmişdilər. 60 illiyini bu yaxınlarda qeyd elədilər. Biz isə 90 illiyi qeyd edirik. Yəhudi kimi əjdahalar 60, biz 90.

«Milləti yalançılar, lotular, fırıldaqçılar pis günə salıblar»

- Deməli, biz daha böyük əjdahayıq?

- Bəli, biz daha böyük əjdahayıq. Çünki Türk milləti böyük əjdahadır. Hansı yəhudi, hansı alman, hansı ingilis tarixdə 10 dənə də olsa dövlət yaradıb. Amma türklər yaradıblar. Bu elə şeydir ki, gərək, dərs kimi keçəsən. Bilinsin ki, sən kimsən. Bu dünyaya nəyə görə gəlmisən və nə qoyub gedirsən.

İki gözünü yumanda biləsən ki, mən bu Vətən üçün, millət üçün nəsə elədim. Abbas Səhət Sabirin «Hophopnamə»sinə belə bir giriş yazıb. Deyib, Mirzə Ələkbər Sabirin 5 ildə gördüyünü, bəlkə yüz illərlə heç kim görə bilməzdi.

Amma deyir o, heç kəsdən heç nə ummadı, heç nə gözləmədi. Çünki o öz əməyinin mükafatını öz vicdanından alırdı.

Hərə gərək öz əməyinin mükafatını dövlətdən, ondan-bundan istəməsin. Öz vicdanından alsın. Bu millət qədirbiləndir. Amma milləti yalançılar, lotular, fırıldaqçılar pis günə salıblar. Millət ziyalıya olan münasibətini itirib.

Çünki ziyalıdan müdafiə görmür. Yaltaqlıq, məddahlıq görür. Halbuki, gərək xidmət görə.

«Televiziyalar yüngül şou ilə gün keçirirlər»

- Bunlar böyük məsələlər, böyük problemlərdir...

- Məsələn, bizim elektron informasiya vasitələri yalnız yüngül şou ilə gün keçirirlər. Tək-tək verilişlər olur, amma onlar da... İctimai Televiziyada Nəsib Yusifbəyli haqqında veriliş hazırlamışdılar. Sağ olsunlar, hazırlayıblar. Amma verilişdə nə desələr yaxşıdır - bir nəfəri çıxarıblar, guya, Nəsib bəyin qohumudur. Deyir, nənəm deyirdi ki, Nəsib bəy bir məktub yazdı verdi Nağı Şıxzamanova. O da getdi İstanbula türk qoşunlarını Azərbaycana gətirdi. Buna inanmaq üçün millət gərək ağılsız ola da. Nəsib bəyin bir məktubu ilə dövlət qoşun göndərər? Ayıb deyil? Bu milləti nə yerinə qoymusunuz? Yaxud da Cəlil Məmmədquluzadə haqqında veriliş var idi «Dahilərin divanı». Deyir ki, Cəlil Məmmədquluzadə sovet dövründə

hamamda çek satırdı. Və ya Üzeyir bəydən danışırlar ki, Üzeyir bəy Parisə getdi... Üzeyir bəy nə vaxt gedib Parisə? Belə bir fakt olmayıb axı. Niyə böhtan atıb onu millətin gözündən salırsan. Və yaxud «Azərbaycan» qəzeti 5-6 il bundan əvvəl yazmışdı ki, «Əbülfəz Elçibəy, sən də baban Məmməd Əmin Rəsulzadəyə oxşayırsan ki, respublikanın qızıllarını götürdü qaçdı Türkiyəyə». Ay yaramaz, Stalinin vaqonunda qızıl aparmaq olardı? Ondan ikinci Nəriman Nərimanov düzəltmək istəyirdilər. O da başa düşdü, qaçdı.

Dəhşətdir, bu qədər nadanlıq, səviyyəsizlik olmaz. Mənə deyirlər ki, Şirməmməd müəllim, gəl çıxış elə. Deyirəm, kim aparacaq verilişi? Aparıcının savadı yoxdur axı...

Söhbətləşdi: **Xaliq Bahadır**
«Azadlıq», 28-29 may 2008

SABİRƏ AİD BİR XATİRƏ

M.Ə.Sabir haqqında maraqlı bir xatirə

Mayın 30-da böyük vətənpərvər şairimiz M.Ə.Sabirin anadan olmasının -146-cı ili tamam oldu. Amma nədənsə, yada düşmədi. Görünür, baş bərk qarışıqdır. Hərə ona sərfə olan işlə məşğuldur. Yəqin fikirləşirlər ki, hələ 2012-ci ildə - şairin anadan olmasının 150 illiyinə də çox qalıb. Amma nahaq. Qeyd edim ki, hətta, Azərbaycan mühacirləri Sabirin doğum gününü həmişə qeyd etmişlər. Məsələn, M.Ə.Rəsulzadənin baş redaktorluğu ilə «Odlu Yürd» özünün 1929-cu il 5-ci sayında M.Ə.Sabir haqqında çox maraqlı bir xatirə dərc etmişdir. Tədqiqatçıların nəzərindən yayınan bu xatirəni oxuculara təqdim edirəm.

Ələkbər «Sabir» Şamaxı şəhərinin «Qalabazar» məhəlləsində ikiotaqlı, kiçik bağçalı, adi bir evdə yaşayır və evindən əlli addımlıq aralı küçə başında kiçik bir dükanında sabun bişirib satmaqla keçirirdi. 1906-cı ilə qədər Sabirin şairliyini kimsə bilməz, lakin şəhərdə «növhəçi» olaraq tanıyırlardı. Həqiqətən o vaxta qədər Sabir çox dindar kimi görünər, namaz vaxtları məscidə gedə bilməsə də, dükanının qarşısında topaqara saqqalı ilə ucadan dualar oxuyaraq dəstəmaz alar və dükanında namazını qılardı; bəzən də Quran oxuyarkən görünürdü. Məhərrəm – səfər ayının onuna qədər qırx gün müddətində dükanını bağlayar, gündüzləri məscidlərdə, gecələri məhəllələrdə həzin səslə mərsiyə oxuyardı. Mən Sabiri məhz belə gecələrdə məhəllə ortalarında növhə oxuyarkən görür, fəqət özü ilə danışmırdım. Onunla tanışlığım 1905-ci ildə oldu. Həmin ildə Tiflis və Bakıda türk dilində qəzetlər çıxmağa və o qəzetlərlə türkcə intibahımıza dair mənzum yazılar, şeirlər yazılmağa başlamışdı. Ehtimal ki, bunları gördüyü və onlar kimi yazmaq həvəsinə düşdüyü üçün bir gün Sabir dükanının qabağında məni saxlayıb, məndən türk dilində sərf və nəhv kitabını istəmişdi. İstanbuldan dəvət edilmiş müəllimlərlə (Şeyxzadə Hafiz Mehmət və sonuncu Nemanzadə Ömər Faiq əfəndilər) bir neçə il idi ki, Şamaxıda «üsuli-cədid»

üzrə bir məktəb açılmış və mən də o məktəbdə oxuduqdan sonra elə o məktəbdə müəllim olmuş və İstanbuldan qəzet və kitablar gətirtməyə başlamışdım.

İşlə, bunu bildiyindəndir ki, Sabir o günü İstanbul kitabları istəyirdi. Əslində biz Sabir ilə qonşu idik. Çünki onun dükanı bizim evin yanında idi. Odur ki, bundan sonra Sabir bizim evə və məktəbə, mən də onun dükanına getməyə başlamışdıq. Sabir həqiqi bir həmsöhbət və hazırcavab idi, onu odlayıb danışdırmaq mənə xoş gəlirdi. Hələ cocuqluğunda məşhur şair Şirvanlı Seyid Əzimin ibtidai məktəbində oxumuş və ondan dərs almış, şairliyə istedadı olduğunu Seyid Əzim təsdiq etmiş, fəqət Sabirin şairliyi o dövrdə daha mərsiyə yazmaqdan o yana getməmişdi. Məhərrəm aylarında oxuduğu mərsiyələrin bir qismi Təbrizli Zakirin olduğu kibi çoxu Sabirin öz yazdıqları olurdu...

Sabir təbiətcə dindar olmaqla bərabər, hədsiz dinpərəst də deyildi. Lakin belə görünmək məcburiyyətinə idi. Buna onu məcbur edən də ailəsi və bilavasitə böyük qardaşı ilə həyat yoldaşı idi. Sonraları o özü danışırdı... Gecələri bəzən bir şeylər yazmaq istərkən arvadı hirslənib çığırardı, onun üçün daima yanında Quranı açıq qoyardı və arvadı baxdıqca gözünü Qurana dikərək, guya Quran oxuyurmuş kimi dodaqlarını tərpədərmiş. Evdə arvadının belə bir şey oxumaq istəməməsini təsvir edən bir mənzuməsi «Hophopnamə»sində vardır. Sabiri belə mütəəssib (dindar) keçinməyə məcbur edən səbəblərin ən böyüyü şübhəsiz yaşmaq bəlası idi. Mətbu tərcümeyi-hallarında da qeyd olunduğu kimi Sabir qəssablardan quyruq toplayıb onlarla sabun bişirər və onları da dükançılara satırdı. Digər qəssab və digər sabun satan dükançılar qatı dindar adamlardı.

Sabirin şöhrəti və xalq şairi olması, yuxarıda qeyd etdiyim kimi, 1906-cı il, yəni Tiflisdə «Molla Nəsrəddin» məcmuəsinin nəşrindən sonra başlamışdı. Sabirin o məcmuəni oxuması və ona yazı göndərməsinə səbəb də o vaxtlar Tehrandan Şamaxıya dönmüş olan Mirzə Abbasqulu Səhhətin şəxsiyyəti ilə əlaqədar idi. Zira Sabiri mərsiyə yazmaq və oxumaqdan qurtarıb şair edən Səhhət olmuşdur. Sabirdə şeir yazmaq istedadı olduğunu

kəşf etdikdən sonra ondan əl çəkməyib ona mövzular verən, onu sabunçuluqdan qurtaran Səhhət olmuşdur. Səhhət Şamaxıda Molla Cəfərqulu adlı bir məhəllə mollasının oğlu olduğu üçün babası onu da təhsil almaq üçün Xorasana göndərmişdi. Lakin o, orada qalmayıb Tehranda fransızlar tərəfindən Beyrutdakı tibbiyyə məktəbinə oxşar bir həkim məktəbi açıldığından xəbər tutar-tutmaz gedib fransızlara müraciət etmiş, fransızlar da onda olan zəka və oxumaq arzusunu görüb məktəblərinə qəbul etdikləri kimi, pulsuz da pasionatlarında yer verirlər. Beləliklə, on bir ilə qədər orada qalıb fransızcanı öyrənən Səhhət məmləkətinə dönmüş və həqiqətən o zaman üçün bir nur mənbəyi olmuşdu. İstanbul ləhcəsini və rus dilini özü öyrənmiş və bu türkcəni çox sevdiyindən şeirlərini elə bu dildə yazmışdır. Rus şairləri Qogol, Puşkin, Lermontovdan gözəl tərcümələri vardır.

Səhhətin rəsmən və açıq olaraq həkimlik etməsinə hökumətcə icazə verilməmişdisə də, Şamaxı kimi kiçik və kənar bir yerdə çox əla həkimlik edir və bununla da dolanırdı. Səhhət Qafqazın məşhur ədib və şairlərilə məktublaşır, Qafqaziya türk tarixi və ədəbiyyatı üçün materiallar toplayırdı. Təəssüf ki, toplanan əsərlər 1918-də Şamaxının bolşevik ermənilər tərəfindən işğalı zamanı məhv edilmişdir. Səhhət Şamaxıya gəldikdən sonra o vaxta qədər görüşmədiyi gəncləri toplayıb kiçik bir yerdə adət üzrə bir bilik və ədəbiyyat ocağı meydana gətirmişdi.

Ağaəli bəy Naseh, Meşədi Məmməd (Tərrah), Ağaməhəmməd Hadi kimi şeir yazanlarla, mən əmzadəm Abdürrəhman Tofiq və müəllim Qafur Rəşad tez-tez toplaşır və söhbətləşirdik. Yayda bu məclisimizdə Rusiyadan tətillərini keçirmək üçün müəllim və darülfünun tələbələri də bizə qoşular və o zaman şəhər kənarındakı bağçalara çəkilərək qəzet və kitablar oxuyar, yazılmış şeirləri müzakirə edər, yeni mövzular axtarar və düşünərdik. Yayda Bakıdan gələn müəllimlərdən Əfəndizadə Məmməd və Əlicabbar bəylər, darülfünun tələbələrindən Canizadə Zəki bəy bu dəstənin fəal arkadaşlarından idilər.

Sabirin sağlığında «Molla Nəsrəddin» məcmuəsində dərc

edilmiş və vəfatından sonra Səhhət tərəfindən toplanaraq «Hophopnamə» adı ilə nəşr edilən kitabdakı şeirlərin əksər mövzuları o yığıncaqlarda danışılan və müzakirə edilənlər idi ki, Sabir də onları ona xas olan səlistlik və rəvanlıqla nəzmə çəkmişdi. Sabirin büsbütün yeni olan məlum tərzdəki, yəni söyləmək istədiyi mövzunu tərsinə çevirmək kimi üslubunun formalaşmasında Əli bəy Hüseynzadənin rolu da az olmamışdır. Əli bəy İstanhuldan Bakıya gəldikdən sonra Şamaxıdan olan səfər yoldaşlarını ziyarət üçün Şamaxıya gəlmişdi. Sabir ilə mən Əli bəyi, xalasıgildə Mirzə Mehdinin evində ziyarət etdik. Əlibəy bu vaxt yuxarıda qeyd etdiyimiz üslubu Sabirə anlatdı və rus şairlərindən birisini də buna misal göstərdi. Bu söhbətdən sonra Sabir məşhur

«Millət necə tarac olur-olsun
nə işim var,
Düşmənlərə möhtac olur-olsun
nə işim var...»

mənzuməsini yazıb «Molla Nəsrəddin» məcmuəsinə göndərmək istərkən və necə imza atacağını düşünərkən Səhhət dükanına gəlmiş və «Hophop» ismini o bulmuşdur. Sabirin bu yeni ismi də məlum olduqdan sonra bir neçə dəfə imzasını dəyişdirmiş, fəqət yenə dindar axundların hücumlarından qurtarmamışdı. Bütün bunlara rəğmən Sabir bu yeni tərzdəki mənzumələrdə müvəffəq olub özü şöhrət qazandığı kimi Azərbaycan ədəbiyyatı da yeni bir yola girmişdi. Bu yeni üslubu Sabirdən sonra Səhhət və başqaları da təcrübə etdilər, fəqət müvəffəq olmadılar. Səhhət, ələlxüsus ideal və yüksək məfkurəli yazılara müvəffəq olurdu. Recaizadə Əkrəm bəyin «Adət» ünvanlı məşhur şeiri Sabirə müəllimlərinin plov və dolma yeyişlərini xatırladırkən:

«Vaxta ki, keçər bu leyli zülmətvə
İşrak edər axtəri həqiqət.
Qalmaz bu təəssübü cəhalət

Ey dərk edən ol gözəl zamani
Yad et bəni qəmli-qəmli yad et» —

- deyə düşünür və yazırdı. Və mənim bildiyimə görə, o vaxt üçün ilk dəfə olaraq Qafqasiya türkcəsini Azərbaycan türkcəsi deyə adlandırıb bunu böylə yazan Səhhət olmuşdur. Şamaxıda o vaxta qədər rusca olaraq şəhər məktəbi deyilən rüşdiyyə məktəbindən başqa orta dərəcəli bir məktəb olmadığından, Səhhətin təşəbbüsü ilə ərizələr yazılıb şəhər naminə çalışılaraq realni adındakı orta məktəb açılmış və Səhhət də o məktəbdə türkcə müəllimi olub şagirdlərin yaxşı surətlə yetişmələrinə çox xidmət etmişdi. Yalnız bu sıralarda Səhhətin bir ehtiyatsızlığı gərək özünün və gərəksə arkadaşlarının mövqelərini sarsıtdığından, nəhayət, Sabirin Bakıya getməsinə səbəb olmuşdu. Əhali nəzdində babi oldukları bir yana və eyni zamanda ədəbiyyat maraqlısı tacir Səmədovlarla Səhhət görüşməyə başladığından, Səhhətə də babilik ləqəbi verilmiş bu dəfə onunla gəzənlərə də yaxşı nəzərlə baxılmamağa başlanmışdı və bundan dolayı da Sabirin vəziyyəti müşkülləşmişdi, Səhhətdən ayrılmaq istəmirdi, fəqət onunla danışmasını ailəsi istəmirdi. Zatən bir-iki ildən bəri məscidlərdə mərsiyə və növhə oxumadığından, ona yaxşı nəzərlə baxılmadığından, bir də babilərlə bir yerdə olması əfv olunmurdu. Vəziyyətdən çıxmaq üçün Sabir hər gün Şamaxının ən nüfuzlu şiə axundlarından Seyid MirMehdinin yanına gedib-gələrək camaatla namaz qılmağa davam edir, fəqət eyni zamanda gecələri, ən çox bizim evdə Səhhətlə görüşməkdə davam da edirdi. Dindar qəssablar Sabirə quyruq satmaqdan imtina etdikləri üçün artıq sabun bişirmədiyindən, dükanı tərk etməyə məcbur qalan Sabir bir ara baqqalık etmiş, o da olmayınca, bir Molla ilə bərabər ibtidai bir məktəb açmışdı.

Fəqət o dindar Molla ilə birlikdə olmasına baxmayaraq, məktəbə çox şagird toplaya bilməmişdi. Nəhayət, Sabir Bakıda ətraf kəndlərdən sayılan Balaxanıda müəllimlik etməyə başlamışdı. Qəribə burasıdır ki, o məktəbdə ona şəriət dərsləri

demək tapşırılmışdı. Zavallı Sabir Bakıya getdikdən az sonra xəstələnmiş və təkrar Şamaxıya dönmüş və nəhayət, 1911-ci ildə vəfat etmişdir.

Şamaxının dindar axundları Sabirin matəm mərasimində belə iştirak etmək istəməmişlərdi. Nəhayət, Səhhət cənazəyə sünni din xadimlərini dəvət etmiş, hətta axundların da gəlməsinə nail olmuşdu. Həqiqəti söyləmək lazımsa, Sabir dostlarının dinsizliklərinə baxmayaraq, dindar qalmış və heç vaxt namazını tərk etməmişdi. Dostları arasında isə dinə qarşı çox hörmətsizlik göstərən Məhəmməd Hadi idi. Belə hallarda Hadi sözə başlarkən Sabir bayıra çıxar və qulaqlarım eşitməsin deyərdi. Hətta dostları israr etdikləri və ona avropasayağı yeni kostyum tikdirdikləri halda Sabirdən köhnə paltarlarını çıxartdıra bilməmişlərdi. 1907-ci ildə bərabər Bakıya getdiyimiz zaman onu zorla fotoqrafxanaya aparmış və şəkilini çəkdirmişdik.

O zaman yenə köhnə - əski paltarda idi, mən orada (uzun ətəkli sürtuku) çıxarıb ona geydirdikdən sonra o paltarlarda bir şəklini çıxardıq ki, hazırda Bakıda mövcud heykəldə bu paltarladır. O gün Sabirin bizimlə qrup halında alınmış digər fotoşəkilləri vardır ki, iştə Sabirin geydiyi paltarları da o idi. Axundlar görməsin deyə zavallı rəsmini belə gizlədirdi. Mənə verdiyi şəklinin arxasında bu qitələri yazmışdır:

«Zahid bizi görcək tüpürür, ar etməz,
Bilməz ki, tüpürcək bizə kar etməz,
Biz bəhri mühit eyləmişiz kəndimizi
Bir qətrə nəcasət bizi murdar etməz».

Bu misralarla o, molla tayfasına nə dərəcədə bir qeyz və nifrət bəslədiyini ifadə edir.

Şamaxı axundlarının babilik ləqəbini taxıb «aforizm» etmələri ancaq şiələrə qarşı olduğundan, mən də hər nə qədər babilikdən qorxmurdumsa da, bizim başımızda da Hacı Məcid əfəndi adında dindar bir şeyx və müəllim vardı ki, o da istədiklərini təkfirlə başında bulunan «Şixseirli» deyilən bir

dəstə baldırı çılpaq itləri üzərlərinə qısqırdardı.

Sabirin yazılarındakı müəllim və şeyxlərdən məqsədi bu Hacı Məcid Əfəndi olduğunu bildiklərindən, bu itlər bəzən Sabir və Səhhətə də hücum edərlərdi.

Sabir satirik şeirdən başqa, digər üslubda şeir yazmaqda çox da müvəffəq olmamışdı. Məlum olduğu kimi, «Molla Nəsrəddin»ə satirik yazılar yazmağa başlamamışdan əvvəl Bakıda «Həyat» qəzetəsinə Məhəmməd Hadi kimi intibahımız barədə bir-iki mənzumə göndərmiş, fəqət qəzetə idarəsindən tənqidlərə məruz qalmışdı. Bunlardan birisinin sonuna Hüseynzadə Əlibəy «şair, pək çox imalə yapıyor imaləçiliyi tərk edərsə daha yaxşı yazacaq» - deyə qeydlərini yazmışdı. Bu söz Sabirə o qədər qəribə gəlmişdi ki, hər vaxt bundan bəhs edərdi. Hətta Bakıya bərabər getdiyimizdə Əli bəy Hüseynzadəni ziyarətə də getmişdik. Əli bəyi tapmayınca qoyduğumuz kartın arxasına Sabir - «İmaləçi Məşti Ələkbər Sabir» sözlərini yazmışdı (Azərbaycan türkcəsində «imaləçi» saitləri uzadıb yüksək avazla oxuyan deməkdir).

Ağaoğlu Əhməd bəy ziyarətimizdə də Əhməd bəy: Sabir sənmisən? - deyincə - Bəli, yoxsa «Banqe dovul şenidən əz dur xoşəst» («Təbilin səsi uzaqdan xoş gəlir») - deyəmi düşündünüz demiş və Əhməd bəyi də güldürmüşdü.

Sabir müəllimlik üçün Bakıya getmədən əvvəl mən İstanbula gəlmiş olduğumdan, bir daha Sabirlə görüşməmişdim. Fəqət vəfatından dörd gün əvvələ qədər mənə məktub yazmaqdan qalmamışdı. Allah rəhmət eləsin.

M.Ş.Əfəndizadə
«Odlu yurd» *jurnalı №5, sentyabr 1929*

«525-ci qəzet» 31 may 2008

«MƏN, TÜRKİYƏNİN PROBLEMLƏRDƏN ÇIXACAĞINA İNANIRAM»

Şirməmməd Hüseynov tarixdən bir neçə sitatlar gətirdi

Türkiyədə hakimiyyətdə olan partiya ilə ona qarşı duran qüvvələr arasında mübarizə get-gedə daha kəskin şəkil almaqdadır. Türkiyənin Azərbaycana dost və qardaş ölkə olmasını, burada baş verən hadisələrin bizə də təsir etməsini nəzərə alaraq bu məsələlərə diqqəti cəlb etdik.

Məsələ ilə bağlı bir qədər daha fərqli fikirləri nəzərə çatdırmaq üçün BDU-nun professoru, vaxtilə siyasi şərhlərlə çıxış edən Şirməmməd Hüseynova müraciət etdik. Ş.Hüseynov bir neçə əsrdir ki, türk-islam dünyasının tənəzzül içində olduğunu vurğulayıb. Tarixdən sitat gətirən Ş.Hüseynov bildirib ki, hələ 1901-ci ildə Məhəmməd Ağa Şahtaxtlının Fransada fransız dilində Türkiyənin durumu barəsində kitabı çap olunub: «Türkiyəni necə xilas etməli?» adlanan kitab hazırda İsa Həbibbəylinin köməkliyilə fransız dilindən bizim dilə tərcümə edilib. Həmin əsəri diqqətlə oxudum ki, görüm 107 il bundan əvvəl yaşamış, Avropanı, Şərqi gəzib görmüş, «Moskovski vedemosti» qəzetinin İstanbul müxbiri olmuş Şahtaxtlı Türkiyə barəsində nə düşünürmüş? O, Türkiyənin xilasının nədə olduğunu görürmüş? Bu kitabdan tək bir cümləni diqqətə çatdırmaq istərdim. O yazırdı ki, islam şərqində - yəni Türkiyədə kişilər çoxdur, amma çox təəssüf ki, vətəndaş yoxdur. Doğrudan da Türkiyədə vətəndaş cəmiyyəti hələ sözün tam mənasında formalaşmayıb. Türkiyədə vətənpərvərlik və dövlətçilik hissi var, amma milli birlik, avropasayağı, dünyanın inkişaf etmiş ölkələrində olan demokratiya burada hələ oturuşmayıb. Bunun isə çoxlu səbəbləri var».

Ş.Hüseynov bu məqamda bir haşiyə çıxaraq 1918-1920-ci illərdə Azərbaycanı xilas etmiş Qafqaz islam Ordusu ilə bağlı xalq şairi Bəxtiyar Vahabzadənin şeirindən sitat gətirib: «O yazırdı ki, 1918-1920-ci illərdə bizi xilas edən türklər XI ordunu

Azərbaycana gətirdilər. B.Vahabzadə deyirdi ki, «məni quyudan xilas edən kəndir sonra boğazıma keçdi».

Professor bəyan edib ki, türk məmləkətlərində zaman-zaman mövcud olmuş mənəm-mənəmlik dövlətin və millətin inkişafında əlavə problemlər yaradıb: «Türk imperiyalarında hakimiyyət uğrunda çox amansız vuruşmalar gedib. Bu ənənənin qalıqları hələ də Türkiyədə öz izlərini saxlayır».

Ş.Hüseynov eyni zamanda diqqətçəkici bir məsələyə də toxunub: «Bir məqamda milləti xilas edən mühafizəkarlıq digər bir məqamda onun inkişafına mane olur. Atatürkçülük Türkiyənin hakim ideologiyasıdır. Bu məsələnin müsbət və mənfi tərəfləri var. Atatürk keçən əsrin 20-30-cu illərində yaşayıb və Türkiyə üçün böyük xidmətlər göstərib. O, Türkiyəni xilas etdi. Birpartiyalı, birməfkurəli dövlət yaratdı. Digər bir partiyaya, əks düşüncəyə imkan vermədi. Bəlkə də o dövr üçün bunu tarixi şərait tələb edirdi. Lakin bunu fanatizmə çevirmək qarşıdurma yarada bilən faktordur. Türkiyədə problem bunun üzərindədir. Bir tərəfdə atatürkçülər, digər tərəfdə isə islamçılardır. Belə bir məqamda Məhəmməd Əmin Rəsulzadənin fikrini xatırlatmaq istərdim. O deyirdi ki, bizə Avropanın elmi, məktəbi, texnikası, Şərqin əxlaqı lazımdır. Qərbin əxlaqının hara getdiyini biz görürük. Kişi kişi ilə, qadın qadınla evlənir. Buna əxlaq demək mümkün deyil. Ona görə də həddindən artıq qərbpərəstlik müsbət nəticə verə bilməz. Hər şeydə Qərbi təqlid etmək, minillik mənəvi-əxlaqi dünyamızı yıxmağa çalışmaq, onu inkar etmək olmaz».

Professorun sözlərinə görə, şəxsiyyətə pərəstiş Şərq ölkələrində daha çox yayılıb və bu da cəmiyyəti sürətli inkişafdan saxlayan amillərdən biridir: «Bir var qanunla işləyəsən, bir də var şəxsiyyətə pərəstiş. Türkiyədə də bunun simptomları görünür. Ona görə də tez-tez belə qarşıdurmalar yaranır. Lakin mən Türkiyə dövlətinin bu problemdən çıxacağına inanıram».

Mübariz

«Şərq» qəz., 10 iyul 2008

BÖYÜK VƏTƏNDAŞ ŞAİRİMİZ ABBAS SƏHHƏT

Böyük vətəndaş şair və publisistimiz Abbas Səhhətin faciəli vəfatından 90 il keçir. Səhhət haqqında az yazılmayıb. A.Şaiq, C.Cəbrayılbəyli, M.Hadi, M.Cəlal, M.Arif, C.Xəndan, A.Zamanov, K.Talıbzadə və başqaları bu görkəmli sənətkar haqqında çox dəyərli xatirələr, tədqiqat əsərləri yazmışlar. 1970-ci illərdə onun əsərlərinin 2 cildliyi nəşr olunmuşdur. Bunlar sovet dövrü tədqiqləridir. İndi də Səhhət məktəb dərsliklərində də tədris olunur. Abbas Səhhətin həyatı, yaradıcılığı və böyük vətəndaş şəxsiyyətilə əlaqədar «525-ci qəzet»in 29 noyabr tarixli sayında çox qüdrətli qələm sahibi, onun kimi vətəndaş qeyrətli Rəfael Hüseynovun Səhhətə həsr olunmuş «Sabirin iki tapşırığı» sərlövhəli maraqlı və irihəcmli bir yazısını oxudum. Ədəbiyyatımızı, sələflərimizi bax belə məharətlə, sevgi və məhhəbətlə, tarixi həqiqətlərə sədaqətlə təbliğ və təqdim etmək lazımdır. Yorulmayasan, Rəfael bəy!

Səhhəti qüdrətli bir şair və tərcüməçi kimi geniş tədqiq etmişlər. Lakin mahir publisist kimi bir o qədər yox. Amma nahaq yerə. Səhhət çox mahir və geniş dünyagörüşlü, sənətkar bir publisist olmuşdur. Mən «Bəsirət» qəzetinin 1914-cü il nömrələrini vərəqlərkən orada Abbas Səhhətin də yazılarına rast gəldim. Onlardan bu günümüz üçün də aktual səslənən «Bizdə milliyyət duyğusu ölür» sərlövhəli həmin yazını oxuculara təqdim edirəm.

BİZDƏ MİLLİYYƏT DUYĞUSU ÖLÜR

Lisan və ədəbiyyat hər millətin mayeyi-nicatıdır. Hər millətin yaşaması ədəbiyyatına bağlı olduğu bədihidir (aksiomadır). Burnumuzun dibində qonşu millətlərin buna nə qədər əhəmiyyət verdikləri gün kimi aşkardır. Milli məktəblərində ana dili və milli ədəbiyyat oxunmaqda nə qədər

fəaliyyət ilə çalışırlar. Uşaqlıqdan balalarının ruhuna, qəlbinə, qanına millətçilik ruhu doldurmağa nə qədər səy edirlər. Nə qədər təəssüb ilə lisanlarına, adablarına, adətlərinə müraat (riayət) edirlər. Onların arasında bir nəfər də olsun öz dilinə, adətinə istixfaf (saymamazlıq) ilə baxan yoxdur.

Lakin bız əsla buna müraat (riayət) etməyirik. Hər şeydə avropalılara təqlidən bütün varlığımızı unutmağa, hürriyyəti-milliyyəmizi qayib etməyə mailik. Məsum balalarımızı hələ göz açmamış xarici mürəbbiələrə təslim ediyoruz. Bədbəxt balalarımızı dünyanı bilməmişdən, tanımamışdan ruhunu zəhərləyib öldürürük. Doğrudur, övladımız zahirdə ölüb qəbrə getməyir, lakin həqiqətdə ruhu ölür, vücudu, canı bir məzar şəklini alır. Çünki insanın həqiqi ruhu dəyanət və milliyyətdir. O zəhərləndikdən sonra, o məhv olduqdan sonra yerdə nə qalıyor? Ruhsuz bir qəlb, cansız bir cəsəd! Biz bununla mədəniləşmirik. Fəqət avropalılara bir nəfər də avropalı qazandırırıq, «biz» isə yox oluruq! Canım! Bu qədər laqeydlik olarmı? Kim ki, iki kəlmə «net» ilə «yesti» bildi, dırnaqların uzadıb, başına altı şahılıq şapka keçirdib daha islamiyyəti, milliyyəti tanımır. Əsla türkcə danışmağa, oxumağa rəğbət etmir. Bu yeni əmələ gələn qospodinlərdən nə qədərin tanıyıram ki, evlərində yüz cildlər ilə Avropa ədiblərinin asarı (əsərləri) bulunduğu halda, bir vərəq də olsun türkcə yazı bulunmaz. Rusca iki kəlmə doğru-düz danışmaq bilməyənlər də yenə yalan-yanlış evdə, bazarda uşaqları ilə, rast gəldiyi əhbabı (dostlar) ilə rusca danışır. Bunlardan başqa hələ bizim o el müəllimlərimiz (narodni uçitel) ciblərindən pul verib almaq dursun, məktəb müxaricinə buraxılmış puldan əqəllən (heç olmazsa) bir-iki türkcə qəzetə almayırlar.

- Əfəndim! Məktəbə türkcə qəzetə nə üçün götürtdürməyirsiniz? - deyə sorduqda:

- Bizim qəzetələrdə məlumat az olur - deyə cavab verir.

- A canım! Əlbəttə sən oxumayanda, o oxumayanda daha qəzetəçi o məlumatı əcinnələr üçün, pərilər üçün yazmayacaqdır ki, hər mətaın (malın) tərəqqisi müştərisinə bağlıdır. Müştəri

olmayanda məta nə ilə rəvac tapar? Hər şeydə Avropa adabını, əxlaqını təqlid edirik, bəs millətpərvərliyi, vətənpərəstliyi nə üçün onlardan görüb-götürməyirik? Görəlim sair qonşu millətlərin də oxumuşları böylədirmi? Xayr, erməni, gürcü ariflərinin kəndi (öz) ədəbiyyatlarına verdikləri rövnəqlərini görəndə əqil heyran olur, kəndi (öz) mətbuatların nə qədər atəşin həvəslə sürmələyib gözlərinə çəkirlər. Bəzi cənablar qəzetədə yazılan ibarələrin çətinliyin bəhanə edirlər. A gözüm! Tutalım sən deyəndır qəzetələrimizin ibarələri sənin idrakından mafovqdur (yuxarıdır), hə «Molla Nəsrəddin» jurnalının dili ki, lap asandır, kor da oxuya bilər. Bəs o nacizi nə üçün alıb oxumursunuz? Keçəlim darülfunun qurtarmışlarımıza, onlar bunlardan da beş çömçə artıqdır. Türkcə oxumağa əsla tənəzzül etməzlər. O, bunlar üçün kəsri-şəndir. Evlərində əcnəbi mürəbbiləri (tərbiyəçiləri) saxlamaq, adab və adəti-milliyyəni unutmaq bunların zənnincə insaniyyətdən sayılır. Ümumin təqdir etdiyi sevgili Sabirimizin kitabının təbi üçün bir doktor, bir injener, bir advakat bir qəpik ianə etdimi? - yox! Axır bircə deyən yox canım! Bu dünyanı biz lisanımız vasitəsilə öyrəndik, dilimiz vasitəsilə tərbiyə tapdıq, onu sevməmək olarmı? Bəs nə səbəbə yabançı nəzər ilə baxırıq? Ziyalılar, ariflər böylə olduğu halda bəs millətimiz nə ilə qayim olar? Onu istiqbala götürəcək, yaşadacaq kim qalır? Milləti kiçik görən insanlar yaşamağa deyil, ölməyə məhkumdurlar.

Heç yaşarmı böylə milliyyət,
olurmu paydar,
Millətin əfradı tədricən
edirkən intihar?!

Abbas SƏHHƏT
«Bəsirət», *№5, 10 may 1914*

«525-ci qəzet» *6 dekabr 2008*

İSTİQLAL MÜCAHİDLƏRİNİN NƏŞRİ-ƏFKARI

May 1918. Dörd ildir bəşəriyyət imkansız müharibə burulğanında çapalayır. Qafqaz və vətənimiz Azərbaycan da od içindədir. Gülüstan və Türkmənçayla ikiyə bölünmüş Azərbaycanın şimalı bu dəfə də ikiyə bölünmüşdür. 1918-ci ilin martında azərbaycanlıları kütləvi surətdə Bakı, Şamaxı, Quba və Zaqafqaziyanın digər şəhər və bölgələrində kütləvi surətdə vəhşicəsinə qıran bolşevik-daşnak güruhu Bakıda hakimiyyəti tam ələ almış və bolşevik-Sovet Rusiyasının köməyi ilə onu ölkənin bütün ərazisinə yaymaq üçün vuruşur. Vətənin tarixi taleyi həll olunur. Düşmənə müqavimət göstərməyə qabil yeganə siyasi qüvvə - bütün gün vətənpərvər qüvvələri ətrafına yığmış Müsavat partiyası idi. Hətta bolşevik liderlər də etiraf edirdilər ki, 1917-ci ilin fevralına qədər fəaliyyəti o qədər də nəzərə çarpmayan Müsavat qısa bir zaman kəsiyində Zaqafqaziyanın ən nüfuzlu güclü bir siyasi qüvvəsinə çevrilmişdi. «Müsavat» millətçiliyi, istiqlalçılığı və cümhuriyyətçiliyi ilə bütün İslam Şərqində ilk təşəkkül edən Avropa tipli bir firqə idi» (M.B.Məmmədzadə).

1918-ci il mayın 28-də Tiflisdə elan edilən Azərbaycan Xalq Cümhuriyyəti, Üzeyir bəyin «Azərbaycan» qəzetində yazdığı kimi, «İstiqlalı qazanmaq yolunda çaylarca qanlar axıdıb, minlərcə xanimanlarımız xaraba qoyulmaqla» qazandığımız bir dövlət idi.

Cümhuriyyət elanından 19 gün sonra Azərbaycan hökumət üzvləri Gəncəyə gəldi. Bu vaxt hələ cümhuriyyət elan edilməmişdən 3 gün əvvəl - yəni mayın 25-də Osmanlı türk-islam ordusunun Nuru paşanın komandanlığı altında ilk 300 nəfərlik silahlı qüvvəsi artıq Gəncədə idi. Onları Osmanlı sultanı - xəlifə müsəlmanları kütləvi surətdə qırılmaqdan xilas etmək üçün Müsavat partiyasının dəvəti ilə Azərbaycana köməyə göndərmişdi.

Azərbaycan hökumətinin çox mürəkkəb, ciddi çətinliklər və

maneələr şəraitində qəbul etdiyi qərarlar içərisində iyunun 25-də «Hökumət qəzetinin nəşri haqqında»kı qərarını da qeyd etməliyik. Bundan 8 gün sonra - iyulun 3-də hökumət «Azərbaycan hökumətinin xəbərləri» məcmuəsinin nəşri barədə də xüsusi qərar qəbul etmişdi. Göstərək ki, mətbuat sahəsindəki bu qərarların icrası o qədər də asan olmadı. «Azərbaycan» qəzetinin ilk nömrəsini yalnız sentyabrın 15-də çıxarmaq mümkün oldu. Maraqlıdır ki, rəsmi hökumət qəzetinin redaktorluğu heç bir siyasi partiyaya mənsub olmayan Ceyhun bəy Hacıbəyliyə və Şəfi bəy Rüstəmbəyliyə tapşırılmışdı.

«Azərbaycan» qəzetinin 4 nömrəsi (15, 19, 22, 25 sentyabr) Gəncədə çıxdı. Qəzetin materialları Azərbaycan və rus dillərində idi. Yazıların böyük qismini hökumətin, ayrı-ayrı nazirliklərin qərar, əmr və sərəncamları təşkil edirdi. Bəzi analitik yazılara da yer verilirdi. Qəzetin 1-ci nömrəsində hətta M.Hadinin məşhur «Türkün nəğməsi» şeri də vardı.

Sentyabrın 15-i həm də Bakının Qafqaz türk-islam ordusu tərəfindən azad edildiyi tarixi bir qələbə günü idi. Bu mühüm hadisə «Azərbaycan» qəzetinin Gəncədə nəşr olunmuş nömrələrində çox geniş işıqlandırılmış, şərh edilmişdir.

Azərbaycan hökuməti Gəncədən öz möhtəşəm paytaxtı Bakıya köçdükdən sonra onun mətbuat orqanları da Bakıya köçürüldü. Bundan əvvəl 1918-ci il sentyabrın 18-də hökumət Bakıda olan dövlətə və ictimaiyyətə məxsus mətbəələrin, həmçinin şəhərdə olan kağız ehtiyatlarının Xalq Maarif Nazirliyinin sərəncamına verilməsi barədə qərar çıxarmışdı. 15 günlük tədbirlərindən sonra 1918-ci il oktyabrın 3-də «Azərbaycan» qəzetinin növbəti 5-ci nömrəsi Bakıda işıq üzü gördü. Bu dəfə qəzet yalnız Azərbaycan dilində çıxmışdı. Rus dilində qəzetin ilk müstəqil nömrəsi oktyabrın 7-də nəşr olundu.

«Azərbaycan» qəzeti redaksiyası qısa bir müddətdə öz ətrafına milli qeyrətli böyük bir ziyalı qüvvəsi, qələm əhli topladı. 1918-ci ilin faciəli mart günlərində doğma şəhəri tərk etmək məcburiyyətində qalmış Üzeyir bəy Hacıbəyli oktyabrın 23-də İranın Ənzəli şəhərindən Bakıya döndü. Böyük bir əzm və

şövq ilə fəaliyyətə başladı. Oktyabrın 29-da onun məşhur «Ordan-burdan» sərlövhəli ilk yazısı «Azərbaycan»ın 25-ci nömrəsini bəzədi. Hər iki qardaş - Ceyhun və Üzeyir bəy «Azərbaycan» qəzetini cümhuriyyət dövrünün mübariz orqanına, canlı salnaməsinə çevirdi. 1918-ci il oktyabrın 29-dan 1920-ci il aprelin 27-dək «Azərbaycan» qəzetində Üzeyir bəyin müxtəlif mövzulu, janrlı 98 yazısı dərc olunmuşdur. «...Qəzetimizin firqə və partiya xaricində bir orqan olduğu hər kəsə məlumdur. Hərgünkü möhtəviyyatından (məndəricəsindən) məlum olduğu üzrə vətən abadlığı, millət səlamətliyi, camaat tərəqqisi, dövlət intizamı ilə bərabər, istiqlal və yenə də istiqlal şüarlarını virdi-zəban (dilinin əzbəri) edib də bunun hüsulində əlindən gələn qədər çalışmaqda olan qəzetəmiz bu dairədə yazılmaqda olan məqalələrə sütunlarını bir ananın balasına qarşı açdığı qucağı kimi, kəmali-meyl və məhəbbətlə açıbdır, - vəssalam!» («Azərbaycan», № 84, 10 yanvar 1919).

Üzeyir bəyin qardaşı Ceyhun bəyin 1919-cu il yanvarın əvvəllərində Azərbaycan Cümhuriyyəti nümayəndə heyətinin tərkibində Paris sülh konfransına gedəndən sonra qəzetin «müvəqqəti müdirliyi»ni öhdəsinə aldığı günlərdə qəzetdə yazdığı bu sətirlər «Azərbaycan» qəzetinin proqramını, fəaliyyətinin mahiyyət və istiqamətini bax beləcə müəyyənləşdirirdi. Qəzetin 17 ay müddətində işıq üzü görmüş 443 nömrəsi məhz bu mahiyyətdədir. Onun səhifələrində qələm çalan M.Ə.Rəsulzadə, X.İbrahim, F.Ağazadə, B.İ.Qasımov, M.A.Şahtaxtlı, A.Ziyadxanov, Ə.Müznib, Ş.Əfəndizadə, Ə.Abid və başqaları məhz bu əqidə və məsləkin sahibləri idilər. Üzeyir bəy qəzet ətrafında böyük bir qüvvə də cəm etmişdi. Qəzetdə Əhməd Cavadın 15, Məhəmməd Hadinin - 16, C.Cabbarlının - 6, Abdulla Şaiqin milli ruhlu 5 şeri, bütövlükdə qəzetdə 120-dən artıq şeir, hekayə, ədəbi-bədii parçalar dərc olunmuşdur. Müəlliflər sırasında Y.V.Çəmənzəminli, N.B.Vəzirov, Ümgülsüm, S.Mümtaz, Əli Yusif, S.Hüseyn, Ə.Həmdi, İ.Şakir, C.Sahir, M.Y.Gəncəli, Ə.Bağırlı və b.-nı görürük.

Şərqin türk-islam dünyasının ilk həqiqi demokratik xalq

cümhuriyyətinin 23 aylıq fəaliyyəti artıq tarixə qovuşmuşdur. Bu istiqlal fütuhatının memarları, onu yaşadan və görənlər artıq dünyamızı tərk etmişlər. Bəzilərinə heç vətən torpağı da qismət olmamışdır. O dövrün ruhunu, hadisələrin axarını özündə hifz edən arxiv sənədləri, ilk əvvəl isə dövrün kollektiv yaddaşı olan mətbuat qalmışdır. Cümhuriyyət dövründə Azərbaycanda və onun hüdudlarından kənarda ana dilində 60-a yaxın mətbuat orqanı dərc olunmuşdur. Bunların içərisində «Azərbaycan» qəzetinə tən gələ biləcək qəzet yoxdur, eləcə də redaktorlar içərisində Üzeyir bəyin özünəməxsus bir yeri vardır və bu böyük vətən övladı, «Azərbaycan» da, müstəqil Azərbaycan dövləti də var olduqca öyrəniləcək və milli qürur mənbəyimiz olacaq.

«Füyuzat»
№5(93), 2008

MÜSTƏQİLLİYİN ÇƏTİN YOLU ŞİRMƏMMƏD HÜSEYNOVUN GÖZÜ İLƏ

Ötən əsrin əvvəllərində cəmi iyirmi üç ay müstəqillik ömrü yaşamış Azərbaycan əsrin sonunda ikinci dəfə öz istiqlaliyyətinə qovuşdu. Bu dəfə sosializmlə daban-dabana zidd olan bir ictimai - siyasi formasiyaya keçid təbii ki, ölkəni ciddi problemlərlə üz-üzə qoydu. Əslində bu problemlər məzmunca elə əsrin əvvəlində yaşadığımız çətinliklərin yetmiş illik zaman kəsiyindən sonra yalnız zahirən yeniləşmiş, formaca dəyişmiş təzahürü idi. Tarix təkrar olunurdu. Yenə də müstəmləkə ruhunun uzun müddət beyinlərə hakim kəsilməsi nəticəsində azad düşüncə tərzinə malik, xalqın ön cərgəsində addımlayaraq hər cür çətin vəziyyətdən çıxış yolunu arayacaq ziyalı kontingentinin «kasıblığı», sosialist istehsal maşının dağılması nəticəsində ölkəni bürümüş iqtisadi böhran və onun doğurduğu sosial problemlər, super dövlətlərin geopolitik maraqlarının toqquşmasının ortaya gətirdiyi çətin siyasi durum, güclü dəstəyə malik Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə başlayan müharibə müstəqillik yolunda qarşılaşdığımız çətinliklərdən idi. Bu sıraya bədxah qonşularımızın dünya ictimaiyyətində Azərbaycan haqqında yaratdıqları yanlış ictimai rəy, düşdüyümüz informasiya blokadası, beynəlxalq arenada üzləşdiyimiz ikili standartlar və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması zərurətini də əlavə etsək, o zaman suverenlik və müstəqillik yolunun nə qədər daşlı-kəsəkli olduğunu göz önünə gətirmək çətin olmaz. Bu yolda ölkənin əksər ziyalılarını belə bir sual narahat edirdi: «Biz hara gedirik?» Zamanın bu aktual sualına biganə qalmayan ziyalılardan biri də jurnalist-publisist Şirməmməd Hüseynov oldu.

Ş.Hüseynovun publisistikasında yuxarıda sadalanan problemlərin hər birinə xüsusi diqqət yetirilir, onun yaranma səbəbləri və mövcud vəziyyətdən çıxış yolları araşdırılır. Müəllif faktlara özəl yanaşma tərzi ilə də seçilir. O, bügünkü Azərbaycanın üzləşdiyi problemləri çözmək yollarını tapmaq

üçün üzünü tarixi keçmişimizə tutur, maraqlı paralellər və müqayisələr aparır, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin qısa-müddətli, amma şərəfli müstəqillik «həyatından», o dövrün ictimai-siyasi xadimlərinin - M.Ə.Rəsulzadənin, Ü.Hacıbəyovun, Ə.Ağaoğlunun, Ö.F. Nemanzadənin və başqalarının mətbuatda çap olunmuş yazılarından günümüzlə səsləşən maraqlı faktları göz önünə gətirməklə tariximizin bu şanlı səhifəsindən bugünümüz və sabahımız üçün öyrənilməsi və ibrət götürülməsi məqamların çox olduğunu vurğulayır, milləti maarifləndirməyə, öz keçmişini öyrənməyə, tanımağa çağırır. Ş.Hüseynovun fikrincə, «Biz öz yolumuzu müəyyənləşdirmək üçün haradan gəldiyimizi və harada olduğumuzu müəyyənləşdirməliyik» (Ş.Hüseynov «Müstəqiliyimizin çətin yolu... Biz hara gedirik?», B. 1996, səh. 20). Bunun üçün yacib olan isə «nəsillər arasında ideya, siyasi, mənəvi, mədəni bağları tapmaq, hər cəhd ilə möhkəmlətmək lazımdır. Faktla, sənədlə, həqiqətlə, elm və məntiqlə».

Bu missiya isə Ş.Hüseynovun «İstiqlal gəmisinin kapitanları» adlandırdığı ziyalıların öhdəsinə düşür. Xalqın mənəvi sağlamlığı, maddi rifahı da hər şeydən əvvəl ziyalılardan asılıdır. Müəllifin fikrincə, «yağışdan çıxıb, yağmura düşdüyümüz dövrdə» müstəqillik yolunda inamla addımlamaq üçün «bizə dövrümüzün Rəsulzadələri lazımdır». Çünki millətin yaşamaq, var olmaq instiktinin, milli psixologiyanın daşıyıcısı məhz ziyalılardır. Cəmiyyətimizi mitinqlər dalğasının çulğaladığı bir zamanda Ş.Hüseynov ziyalıları disskusiya masası arxasına dəvət edir, onları xalqı maarifləndirməyə, cəmiyyətdə siyasi mədəniyyət formalaşdırmağa, yüz illərin sınağından çıxmış, özünü doğrultmuş, xalqlara yüksək həyat şəraiti, əmin-amanlıq, yaşamaq perspektivi vermiş demokratiya yolunu tutmağa səsləyir. Millət üçün siyasi mədəniyyətin vacibliyini sübut etməyə çalışan müəllif dünyamızın bugünkü mənzərəsindən çox maraqlı bir müqayisə gətirir: «Nə üçün Şərqi Avropanın sosialist ölkələrində avtoritar rejimdən demokratik quruluşa keçid çox sürətlə, əsasən ağrısız və tələfatsız keçir,

keçmiş Sovet İttifaqı isə hələ də çalxalanır. Ona görə ki, Rusiyada və sonralar Sovet İttifaqında siyasi mədəniyyət aşağı səviyyədə olub» (Ş.Hüseynov «Müstəqiliyimizin çətin yolu... Biz hara gedirik?», B. 1996, səh. 20).

Ş. Hüseynov ən yeni tariximizin ağrılı səhifəsi olan Qarabağ probleminin də köklərini mətbuat səhifələrində axtarır. «Əkinçi», «Açıq söz», «Hümmət», «Tərəqqi» kimi qəzetlərdə çap olunan və rus havadarlarının yardımı ilə ermənilərin azərbaycanlılara qarşı törətdiyi qanlı əməlləri ifşa edən yazıları oxuculara təqdim etməklə onlara erməni fitnəsinin tarixi köklərini anlamaq və təhlil etmək imkanı yaradır, qondarma «erməni soyqırımı»na dəstək olan dövlətləri, təşkilatları fakt qarşısında qoyur. Məsələn, müəllifin bizlərə təqdim etdiyi «Nə etməliyik?» adlı məqaləyə diqqət yetirək və bugünümüzlə paralellər aparaq. Ö.F.Nemanzadənin 1906-cı ildə «İrşad» qəzetində çap olunan bu məqaləsində qeyd olunur ki, «burasını heç vaxt yaddan çıxarmayaq ki, ermənilər nə cür olsa özləri üçün mütləq bir «Ermənistan» vücudə gətirmək niyyət qəbiləsindədirlər. Və bu niyyətini hüsula gətirmək üçün mütləq bizi İrəvan, Qarabağ və Kars səmtlərindən çıxarmaq məcburiyyətindədirlər (1988-ci ildən başlayaraq azərbaycanlıların Ermənistandan qovulması). Bilməliyik ki, ermənilər bu niyyətlərinə çatmaq üçün hər cür fədakarlığı gözə almışlardır: Müsəlmanları həyəcana gətirib və hücum etdirəcəkdirlər, özləri bilə-bilə qırılacaqlardır, (1988-ci ildə erməni fitnəkarların təhriki ilə baş vermiş Sumqayıt hadisələri) sonra durub Yevropaya öz məzlumiyyətlərini ağlayacaqlardır. (qondarma erməni genosidini təsdiq etdirmək və ermənilərə əzabkeş, azərbaycanlıları isə vəhşi millət kimi təqdim etmək cəhdləri). Öz gücləri ilə bacara bilmədiklərini, bu uğurda cəm etdikləri milyon-milyon pulların, rüşvətlərin zoru ilə rus məmurlarına gördürəcəklərdir». (Ş.Hüseynov «Müstəqiliyimizin çətin yolu... Biz hara gedirik?», B. 1996,səh. 60) Uzun müddət xalqdan gizlədilən bu məqalələrin, fikirlərin heç biri də aktuallığını, dəyərini bizim günlərdə də itirməmişdir.

Tarixin növbəti sınağı qarşısındayıq. Bu imtahandan alnıaçıq çıxıb müstəqil xalq kimi özümüzü təsdiq etməliyik. Ş.Hüseynovun fikrincə, bunun üçün ən dəyərli vasitə insan beynidir. «Müstəqillikdən söhbət düşən kimi, hamı təbii sərvətlərdən danışır. Halbuki təbii sərvətlər tükənmək üzrədir və əvvəl-axır da tükənəcək. Lakin tükənməyən bir şey varsa, o da insan beynidir... Günəş enerjisi və insan beyni bəşəriyyətin gələcək taleyini həll edəcək». (Ş.Hüseynov «Müstəqiliyimizin çətin yolu... Biz hara gedirik?», B. 1996, səh. 23) Deməli, gələcəyimiz öz əlimizdədir.

İlkin QURBANOV

Azərbaycan KİV sisteminin aktual problemləri, BDU nəşriyyatı, 2005

«GƏRƏK MILLƏTIN ÖZ CANINDA OLA»

Şirməmməd Hüseynov: «Heç kəsə demirlər ki, Rəsulzadənin yubileyini keçirmə»

«Biz hər şeyi hökumətdən niyə tələb edirik ki?! Kim qadağan edir ki, Fəlsəfə, İqtisad institutları, universitetlər, alimlər, mətbuat orqanları yubileyi qeyd etməsinlər.»

Bu fikirləri professor Şirməmməd Hüseynov «Şərq»in əməkdaşı ilə söhbətində bildirib. Qeyd edək ki, yanvarın 31-də Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin 125 illik yubileyidir. Lakin yubileyə kifayət qədər önəmin verilmədiyi göz qabağındadır. Doğrudur, Məhəmməd Əmin Rəsulzadə Mərkəzi bununla əlaqədar bir sıra tədbir keçirməyi planlaşdırıb. Amma Azərbaycanın milli məfkurəsinin banisinin yubileyi ilə bağlı onun öz ölkəsində sadalananların keçirilməsi yetərlidirmi? Daha yaxşı tədbirlər ölkədən kənarda keçiriləcək. Bəs nə üçün M.Ə.Rəsulzadənin yubileyi Bakıda yüksək səviyyədə keçirilməsin?

«Təklif irəli sürməyə nə var ki?! Əsas məsələ odur ki, gərək təklifləri həyata keçirən ola» - deyən professor Şirməmməd Hüseynov söyləyib ki, M.Ə.Rəsulzadənin külliyyatının iki cildini çap etdirib: «Buna görə mənə kim bir qəpiklik kömək edib? Heç kəs. Burda söhbət təkcə maddiyyatdan getmir. Gərək Azərbaycan Milli Elmlər Akademiyası və onun institutları bu işi ortaya qoysunlar. Bu saat ayrı-ayrı kəndlərə həsr olunmuş kitablar çıxır. Bizim millətdə hələ millətçilik hissi formalaşmayıb. İçi millətçi xadimlər qarışıq. Gərək yuxarıdan deyələr ki, Məhəmməd Əmin Rəsulzadənin 125 illiyidir? Bununla bağlı hansı qəzet, hansı jurnal bir əsər çap etdirdi və onlara da dedilər ki, olmaz? Belə olmaz axı. Gərək insanların özləri də can atsın. Bilirsiniz, gərək millət özü-özünün dövlət xadimlərinə sahib çıxa. Sahib çıxmayanda da belə olur. Gərək xalq, onun ziyalısı sahib çıxa. Ölkədə nə qədər alim, akademik var, onlar niyə M.Ə.Rəsulzadəyə sahib çıxmırlar? Amma başqa məsələlərdə deyirlər ki, biz ziyalılara qulaq asın. Lakin belə

işlərdə kənara çəkilirlər».

Moskvada M.Ə.Rəsulzadənin həyat və yaradıcılığına həsr olunmuş kitabın çapdan çıxdığını bildirən Şirməmməd Hüseynov əlavə edib ki, o da yubiley ərəfəsində yeni bir kitab hazırlayır və bu ayın 28-nə kimi işıq üzü görəcək:

«Azərbaycanda milli hərəkat»ı Məhəmməd Əmin Rəsulzadə Polşada 1933-cü ilin noyabrında rus dilində yazıb. Polşanın Xarici işlər Nazirliyinə göndərib. Bu əsər Moskvada jurnalda çap olunub. Bu əsərdən heç xəbəri olan da yoxdur. İndi mən onu rus dilindən Azərbaycan dilinə tərcümə etdirmişəm. Özü də bu tərcüməni tərcümə mərkəzində öz hesabıma etdirmişəm. Indi onu həm Azərbaycan, həm də rus dillərində çap etdirirəm. Hətta çap xərcini də özüm verirəm. Mənə prezident təqaüdü verirlər. Mən də bu pul ilə həmin kitabları çap etdirirəm. Demək istəyirəm ki, gərək bu millətin öz canında ola. Baxın M.Ə.Rəsulzadənin 125 illiyini xaricdə qeyd edəcəklər. Moskvada, Türkiyədə, Avropada da yubiley keçirəcəklər. Amma Azərbaycanda rəsmi şəkildə qeyd etməyəcəklər. Lakin heç kəsə də demirlər ki, sən Rəsulzadənin yubileyini keçirmə. Elmlər Akademiyasının Rəyasət Heyəti bir neçə il bundan əvvəl Ət Aganın (Mir Mövsüm ağa - red) anadan olmasının 120 illiyini qeyd etdi. Amma Məhəmməd Əminin yubileyini qeyd etmir. Onlara nə deyək? Yəni bildirmək istəyirəm ki, onların özündən də çox şey asılıdır. Gözləyirlər ki, yuxarıdan bir kəlmə deyilsin, onlar da ortaya düşüb oynasınlar. Özü də ki, daha oynamağın təhəri qalmayıb, elə bil camaat haldan düşüb. Belə şey olmaz axı».

Seymur Qasımbəyli

«Şərq» qəz. 23 yanvar 2009

«TARİXİ HAKİMİYYƏT ÜÇÜN YAZMAZLAR»

Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 125 illiyi ilə bağlı növbəti tədbir yanvarın 27-də Xəzər Universitetində keçirilib. «M.Ə.Rəsulzadə və Azərbaycan istiqlalı» mövzusuna həsr edilən bu elm və sənət məclisi M.Ə.Rəsulzadə irsinin görkəmli tədqiqatçısı, BDU-nun professoru Şirməmməd Hüseynovun tarixi bir çıxışı ilə əlamətdar olub.

Ş.Hüseynov öncə məlumat verib ki, hazırda onun yaxından iştirakı ilə M.Ə.Rəsulzadə ensklopediyası üzərində iş aparılır. Bu nəşrin hazırlanmasına türkiyəli mütəxəssislərin də cəlb olunduğunu bildirən professor bu işə hər bir şəxsin istər mənəvi, istərsə də maddi baxımdan edə biləcəyi yardımın tariximiz üçün böyük töhfə olacağını vurğulayıb. Professor həmçinin qeyd edib ki, onun səyi ilə indiyədək M.Ə.Rəsulzadənin əsərlərindən ibarət ikicildlik nəşr olunub. 1992-ci ildə nəşr olunan birinci cild M.Ə.Rəsulzadə yaradıcılığının 1903-1909-cu illərini, 2001-ci ildə nəşr olunan ikinci cild isə 1909-1914-cü illəri əhatə edir. O, yardım göstəriləcəyi təqdirdə tezliklə 1914-1917 və 1917-1920-ci illəri əhatə edəcək üçüncü və dördüncü cildlər üzərində də işə başlamağın mümkünlüyünü söyləyib.

M.Ə.Rəsulzadə irsinin tədqiqi və əsərlərinin çoxcildliyinin nəşri üçün elmi mərkəzin yaradılmasına ehtiyac olduğunu vurğulayan Ş.Hüseynov əlavə edib ki, bu iş təkcə onun daşıya biləcəyi yük deyil: «Təəssüf ki, bu gün Milli Elmlər Akademiyası və ya Tarix İnstitutu nəinki M.Ə.Rəsulzadənin irsini öyrənmir, heç 125 illiyi ərəfəsində tədbir keçirməyi də düşünmürlər». «Tarixi hakimiyyət üçün yazmazlar» - deyib, sözünə davam edən Ş.Hüseynov vaxtilə məhz bu səbəbdən Xalq Cümhuriyyəti ensklopediyasının redaksiya heyətilə əməkdaşlıqdan imtina etdiyini və həmin şəxslərin əksəriyyətinin M.Ə.Rəsulzadə şəxsiyyətinə qeyri-sağlam münasibət bəslədiyini vurğulayıb: «Mən Məhəmməd Əmin Rəsulzadə irsinin tədqiqi və əsərlərinin nəşri üçün maliyyə probleminin həlli olaraq öz

tərəfimdən bir çıxış yolu tapmışam... Bu işə prezidentin mənə verdiyi təqaüdü sərf edirəm» - deyə Ş.Hüseynov bildirib.

Daha sonra M.Ə.Rəsulzadə şəxsiyyətini hətta Cümhuriyyət qurucuları ilə müqayisədə ikinci plana keçirmək istəyənlərə müraciət edən professor bildirib ki, istər Rəsulzadə, istərsə də onun əqidəşlərinin xarakteristikasını hələ onların sağlığında dahi Üzeyir bəy verib. Tarixi materiallara istinad edən Ş.Hüseynov Üzeyir bəyin öz publisistik yazılarında M.Ə.Rəsulzadə şəxsiyyətinə xüsusilə önəm verdiyini xatırladaraq, ümumiyyətlə, bugünkü ayrıseçkiliyin, bölücülüyün hətta tarixə köçürülməsinin bağışlanmaz səhv olduğunu vurğulayıb. Ş.Hüseynov misal olaraq, onu da nəzərə çatdırıb ki, bu gün iqtidar qəzetlərində Cümhuriyyət qurucularından bəhs edən yazılarda M.Ə.Rəsulzadənin adı ikinci və ya üçüncü sırada çəkilir, şəkli isə ümumiyyətlə dərc olunmur.

«Unutmamalıyıq ki, Məhəmməd Əmin Rəsulzadə Şərqdə nəinki ilk demokratik respublikanın, həm də ilk siyasi partiyanın - Müsavatın banisidir» - deyə, çıxışının sonunda Ş.Hüseynov daha bir maraqlı məlumatı diqqətə çatdırıb. O, söyləyib ki, 1996-cı ildə Ankarada M.Ə.Rəsulzadənin məzarını ziyarət edərkən, qəbrin dəmir qəfəsə alınmasından təəccüblənib. Halbuki, ilk dəfə - 1988-ci ildə bura gələndə həmin mənzərənin şahidi olmayıb. Səbəbini türklərdən soruşduqda isə deyiblər ki, M.Ə.Rəsulzadənin məzarını elə azərbaycanlılardan qorumaq üçün belə ediblər. Demə, o zamanlar Azərbaycandan göndərilmiş bir qrup şəxs M.Ə.Rəsulzadənin məzarını məqsədli şəkildə və davamlı olaraq dağıtmağa cəhd göstərib...

Onu da bildirək ki, tədbirin sonunda M.Ə.Rəsulzadənin əsərlərinin üçüncü və dördüncü cildlərinin nəşrini Xəzər Universitetinin köməkliyi ilə həyata keçirmək barədə razılıq əldə olunub.

Şövkət Məmmədov
«Azadlıq» qəz. 29 yanvar 2009

PROFESSOR ŞİRMƏMMƏD HÜSEYNOVUN HƏSƏNBƏY ZƏRDABİNİN VƏFATININ 100 İLLİYİ İLƏ ƏLAQƏDAR BDU-DA KEÇİRİLMİŞ ELMİ - PRAKTİK KONFRANSDAKI ÇIXIŞI:

«... Siz müəllimlər guya ağzınıza su almısınız, heç bir cavab vermirsiniz. Yazın görək nə oxumaq, necə oxumaq, harda oxumaq. Oxutmaq sizin işinizdir. Bəlkə siz elə fikir edirsiniz ki, məktəblərdə verdiyiniz dərslər bəsdir, artıq lazım deyil. Yox, yox! O vaxtlar keçibdir, damcı-damcı ilə yaramız sağalan deyil, indi sel vaxtıdır, elm gərək sel kimi axsın ki, hər istəyən ondan içib doya bilsin».

Həsənbəy Zərdabi bunu 1906-cı ildə yazıb. H.Zərdabinin ölümü ilə əlaqədar Azərbaycanda nəşr olunan bütün mətbuat orqanlarında, o cümlədən Peterburqda və Tiflisdə çıxan dövri nəşrlərdə çoxlu yazılar dərc olunub. Bu yazıların böyük bir qismi bizim ədəbiyyatda istifadə olunmayıb. Çünki kim idi onları yazanlar? Əhməd bəy Ağayev - xalq düşməni, millətçi! Əli bəy Hüseynzadə - millətçi! Məmməd Əmin Rəsulzadə - millətçi! Qarabəy Qarabəyov -millətçi! Məmməd Sadıq Axundov -millətçi! Ona görə də mən o yazanları qınamıram. Amma Həsənbəy ölən günü onun haqqında ən yaxşı sözləri, obyektiv fikirləri həmin şəxsiyyətlər söyləyib. Həsənbəy noyabrın 28-də səhər saat 11-də vəfat edib. Bir gün saxlayıblar, hərçənd ki, bu müsəlman adəti ilə uyğun gəlmirdi. Noyabrın 30-da -cümə günü dəfn ediblər. Cümə istirahət günü olduğundan, bütün camaatın iştirakı üçün məhz bu gün seçilib. Bu barədə ən yaxşı yazılar və materiallar «İrşad» qəzetindədir. Həsənbəyin tabutunu da dəfnə apararkən «İrşad» qəzetinin binasının qarşısında saxlayıblar. Orada «irşadçılar» çıxış ediblər. Ondan sonra tabutu «Kaspi» qəzetinin binası qabağına aparıblar. Orada mitinq olub, sonra isə «Realni məktəbin» qarşısına aparıblar və burada müəllimlər çıxış ediblər. Sonra Bakı Dumasının qabağına aparıblar, orada Dumanın rəisi Rayevski çıxış edib. Bir sözlə, tabutu şəhərdə

gəzdiriblər. Həsənbəy harada fəaliyyət göstəribsə, orada o, alqışlanıb və zəhmətinə qiymət verilib.

Əlbəttə, «İrşad» qəzeti o vaxt Azərbaycan ziyalılarının qərargahı idi. Fikir, zehin, təfəkkür yeri idi. H.Zərdabinin dəfni ilə əlaqədar çıxışların hamısı «525-ci qəzet»də dərc olunacaqdır. Kim istəsə, o materialların hamısını qəzetdən əldə edəcəkdir. Yeri gəlmişkən, Rəşad müəllimə mən öz təşəkkürümü bildirirəm. Bizim yazılarımızın hamısını o dərc etdirir.

«İrşad» qəzetində kimlər çalışırdı? Redaktoru Əhməd bəy Ağayev, məsul katibi Üzeyir Hacıbəyov, çap olunanlar: M.Ə.Rəsulzadə, N.Nərimanov, Ö.F. Nemanzadə, M.S.Axundov. Onlar növbə ilə çıxış edirdilər. Əgər Qasımbəy məscidindəki mərasimdə Ə.Ağayev, Q.Qarabəyov, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə çıxış edirsə, «İrşad» qəzeti redaksiyasının qarşısında M.S.Axundov çıxış edir. Mən qəzetdə dərc olunan o çıxışın bir hissəsini oxumaq istəyirəm:

«Dünyada ömür keçirmək iki cür olur. Bir vaxt olur ki, şəxs dünyada uzun-uzun ömürlər keçirib axırda bu dünyadan köçür. Köçdükdə onun vəfatından bir az zaman keçəcək bu şəxsin dünyaya gəlib illərcə zindəganlıq edib, əhli - əyal sahibi olub camaat arasında bir nəfər hesab olunduğu bilmərrə fikirdən, nəzərdən gedib böylə bir şəxsin heç dünyaya gəlməsindən bir nişanə qalmayacaq».

Yeri gəlmişkən qeyd edim ki, XIX əsrdə təxminən Azərbaycan əhalisinin üç nəsli dəyişib, təxminən 3,5 milyon adam bu dünyaya gəlib və gedib. Bunların içərisindən bizə qalan kimdir? A.Bakıxanov, Cavad xan, M.F.Axundov, Mirzə Kazım bəy, H.Zərdabi, S.Ə.Şirvani - yəni üç milyon yarım adamın arasından 10 nəfərin adını zorla çəkirik.

M.S.Axundov daha sonra belə davam edir: «Bunun əksinə olaraq böylə şəxslər də olmuşdur ki, dünyaya gəlib bir az ömür keçirib, tez zamanda fövt olub (yəni ölüb -Ş.H) gedər isə də onun ömürü həqiqi nəzərdə min illərlədir. Böylə bir işə bu anda buraya təşyi cənazəyə yığılan adamlar şahid ola bilərlər.

Bu vaxta kimi bizim şəhərdə nə qədər qocalar, dövlətlilər,

əyanlar, rəislər ölüblərsə də, bunların heç birinə böylə bir mərhəmət olmamışdır. Çünki o gedənlər dünyaya gəlib gediblərsə də, bunların ömürləri fəqət qəsdsiz bir səyahət olub, nəticəsiz ömür olmuşdur. Lakin bu gün qabağımızda olan mərhum atamız Həsənbəy ölübsədə, amma xeyir Həsənbəy ölməmişdir!

Həsənbəyin adı illərcə aramızda qalıb, həmişə sağ olacaqdır.

İştə bu Həsənbəy Məlikovun burada duran bihiss meyiti bizim ürəfamıza, vükəlamıza (yəni vəkillərimizə - Ş.H), əyanlarımıza ibrət olmalıdır».

«İrşad» qəzeti «İdarədən» sərlövhəli kiçik bir yazı verib. Orada çox maraqlı bir fikir var. Mən belə güman edirəm ki, bu yazının müəllifi Üzeyir Hacıbəyovdur. Yazır ki, «Həsənbəy ilə bütöv bir aləm, tamam bir dövrə, tam bir əsr aradan gedir». Siz verilən qiymətə baxın! Həsənbəy ilə bütöv bir aləm, tamam bir dövrə, tam bir əsr aradan gedir. Mən sizə deyim ki, mən hələ oxuduğum yerlərdə heç bir şəxs haqqında bu cür qiymətə rast gəlməmişəm ki, bir əsr, bir aləm, bir dünya dəyişir.

İndi gəlin belə bir suala cavab verək ki, Həsənbəy kim idi? Əlbəttə, digər məruzəçilər də bu barədə danışacaqlar. Amma mən diqqəti əsəsən bir məsələyə çəkmək istəyirəm. Söylənilən nitqlərdə əsas qabardılan cəhət bu idi: «Maarif və ürfanımızın, hissi -milliyyəmizin təxtinin baş və sərkərdəsi. Və şimdi bivəfa millətimizin yadından çıxıb» -fikir verin ifadələrə -«bivəfa millətimizin yadından çıxıb əziyyətli bir azardan sonra ehtiyac içində mərhum olan azadə bir millətpərəst, həmiyyətpərvər Həsənbəy Məlikovun vəfatı o dərəcədə bizi qəm və ələmə düçar etmişdir ki, bu gün bu mərhumun barəsində daha bir artıq şey yazacaq halətimiz yoxdur».

Xəcalət çəkiblər ki, bu cür bir adam həm də bunların yadından çıxıb. Yəni, millət xəcalət çəkməsə, bu o deməkdir ki, o millətin qeyrəti yoxdur. Siz təsəvvür edin ki, Hadi Qarabağlı H.Zərdabiyə həcv yazmışdır. Həsənbəy «Əkinçi» qəzetinin 1877-ci il 8-ci nömrəsində həmin həcvi dərc etdirib. Mən çox təəssüf edirəm ki, 1979-cu ildə «Əkinçi»nin transliterasiyası zamanı - kiril əlifbası ilə tam mətni çap olunarkən 8-ci nömrədən hə-

min yazını çıxarıblar. Ona görə də Abel müəllim, Siz bizə burada şərait yaradın, mən indi göstərdim, bizim tariximizə dair nə qədər təhriflər yazılıb! Hətta əlifbadan əlifbaya köçürməyi bilməyiblər. Məsələn, qəzetdə yazılıb ki, «İsəvi və qeyri -isəvi millətlər var», transliterasiya edən şəxs «İsəvi» sözünü oxuya bilməyib və yazıb ki, «eyni və qeyri - eyni millətlər». Bunlar kitablarda çıxıb. Və yaxud elə məqalələr var ki, mən orada 30-40 səhvə rast gəlirəm. Siz təsəvvür edin ki, Üzeyir bəyi redaktə ediblər. Sən Üzeyir bəyin nəyini redaktə edirsən?!

Yəni elə məsələlər var ki, universitetin onların hamısına reaksiya verməsinə və düzəltməsinə çox böyük ehtiyac var. Məqsədimiz təkcə tənqid deyil, buraxılmış səhvləri düzəltməkdir. Prezidentin fərmanı olub və klassik ədəbiyyat təzədən çap edilir. Amma indi bu işlə məşğul olanlar ərəb əlifbasını bilmədiklərinə, onu yoxlamadıqlarına və inandıqlarına görə oradan götürüb çap edirlər. Amma gərək onların hamısı oradan çap olunmasın.

İndi mən sizə söhbətigedən nitqlərdən iki -üç məqamı oxumaq istəyirəm.

Əhməd bəy Ağayev: «40 sənədən bəri milliyyət və tərəqqiyyat yolunda çalışan və özü üçün bir şey saxlamayıb qazandığını bütün o yola sərf edən, qeyrətini, həmiyyətini, maddi və mənəvi qüvvətini Vətən uğrunda sərf edən kimdir -Həsənbəy Məlikov».

«Təzə həyat» qəzetinin redaktoru Haşım bəy Vəzirov qəzetin noyabrın 29-dakı nömrəsində Həsənbəy Məlikova həsr etdiyi nekroloq -məqaləsində yazırdı: «Qafqaz qitəsində ən əvvəlinci meydani -maarif və tərəqqiyə qədəm qoyanlardan biri Həsən bəy Məlikovdur. «Əkinçi»nin hər bir kəlməsindən, hər bir səhvindən bir müəllimlik, bir mürəbbilik ətri hiss olunur. Həsənbəyin mənzuri - məqsədi pul deyildir. Həsənbəy əvvəldən -axıradək pul adamı olmadı, pula etina etmədi. Etsəydi, Həsən bəy indi Bakının əvvəlinci milyonerlərindən biri olmağı asanlıqla mümkün idi.

Bizi düşündürən, bizi ağladan millətimizin içində bu nov ürəyi, dili, işləri, məsləki bir, qorxusuz, ürküsüz sözünü açıq-açığına deyən millət mücahidinin qeyb olmasıdır». Həsənbəy bu idi.

Həsənbəy haqqında Qarabəy Qarabəyov yazırdı: «Həsən bəy bir zat idi ki, onu yaxından tanıyanlar bilir ki, heç bir zaman öz şəxsi işinin fikrində olmamışdır. Bu mərhum öldüyü günə kimi belə millət və cəmaətfikrində olmuşdur».

Əli bəy Hüseynzadə: «Biz Qafqaz türklərinin öhdəsində bu adamın artıq haqqı vardır. Çünki bu şəxs bizim üçün dil yaratmışdır, mətbuat dili yaratmışdır, ədəbiyyata qapı açmışdır, milli mahnılar məcmuəsi belə qayırmışdır ki, bu yolla camaatımız arasında ehsasi -milliyyəni oyatsın».

M.Ə.Rəsulzadə: «İştə bu qoca ədib, bu maarif mücahidi camaatın hər dərdinə dərman olan ürfan toxumlarını səpdi» və i.a

Yəni bu saat elə adamlar ki, sözün həqiqi mənasında bütün varlığı ilə öz xalqına, öz millətinə qulluq edir, bəxtəvər odur.

S.Ə.Şirvani Hadi Qarabağlıya qəzetin 10-cu nömrəsində böyük bir həcv həsr edib. Orada bir cümlə var: «Kişi lazımdır çəkə ümmətinin qeyrətini».

Bizi əhalidən millətə çevirənlər olub. Bir var ümmət - əhali, bir də var millət. H.Zərdabi və onun mənsub olduğu nəsil, eləcə də ondan sonrakı nəsil bizi əhalidən, bilirsiniz də, millətlər var ki, bəzən onu başsızlar millətliyindən çıxarıb, yəni hüquqlarını əlindən alıb - azad danışmağa, azad fikirləşməyə, azad düşüncə tərzinə, rüşvətxorluqla, yalanla, riyakarlıqla milləti millətliyindən çıxarıb sürüyə -əhaliyə çeviriblər. Amma kişilər olub ki, milləti o vəziyyətdən çıxarıb onu millətə, vətəndaşa çeviriblər. Bu böyük məsələdir, bu bir əsrin məsələsi deyil, bu tarix məsələsidir. Niyə Həsənbəyə bu cür qiymət veriblər? O dövrün qəzetləri yazırlar ki, bu cür dəfn mərasiminin keçirilməsi göstərdi ki, Azərbaycan xalqı içərisində qədirbilmək, onun mənafeyi uğrunda çalışan adamlara sahib çıxmaq hissi yaranır. Bu böyük məsələdir. Namuslu, qeyrətli, düz adamı müdafiə etmək xalqın ən birinci vəzifəsidir. Amma biz bunu öləndən sonra edirik. Odur ki, mən Həsənbəyə həsr olunmuş bir məqaləmin sərlövhəsini belə qoymuşam: «Biz kimə yiyəlik edirik: ölülərə, yoxsa dirilərə?» Və sözün həqiqi mənasında namuslu, qeyrətli adamların, millət üçün çalışan adamların gərək millət qədrini bilə. Ona görə Sabir

milləti əhaliyə çevirənlər haqqında yazırdı ki, «Millət necə tarac olur-olsun nə işim var». Bu adamları hakimiyyətə qoymaq olmaz:

Millət necə tarac olur-olsun nə işim var,
Düşmənlərə möhtac olur-olsun nə işim var,
Ta mən tox olum özgələr ilə nədi karim,
Cümleyi-cahan məhv olur -olsun nə işim var!

Bu əqidə ilə yaşamaq milləti sürüyə çevirməkdir. Mən universitetin rektoruna təşəkkür edirəm. Yubileylərin keçirilməsini təşkil edir, bu işləri çox yaxşı başa düşür. Gərək bu hissə malik olasan ki, belə tədbirləri təşkil edəsən. Biz bu zalda «Əkinçi» qəzetinin 125 və 130 illik yubileylərini qeyd etmişik, birinci tədbirdə Əziz Mirəhmədov da bizimlə bir yerdə idi. «İrşad» və «Həyat» qəzetlərinin 100 illik yubileylərini qeyd etmişik. Bu gün isə bu tarixi qeyd edirik.

Bilirsiniz, bu zal çox iclaslar görüb. Mən 50-55 il bu zalda keçirilən tədbirlərdə iştirak etmişəm və dəfələrlə çıxış etmişəm. Amma mən sizə deyim ki, bu cür məclislər hər deyəndə bu zalda olmur. Ona görə də Abel müəllim, çox sağ olun ki, Siz bu işə rəvac verirsiniz və bizə imkan yaradırsınız ki, bu sözləri buradan deyək. Rəşad da sağ olsun ki, yazılarımızı çap etməyə şərait yaradır.

Nəhayət, 1870-ci il noyabrın 28-də Peterburqda, 1907-ci ildə Bakıda olan kimi bir matəm mərasimi keçirilib. Mirzə Kazım bəyin dəfn mərasimini nəzərdə tuturam. Gəlin görək bu haqda nə yazıblar?

«Peterburq qəzetləri alimin ölümü xəbərini öz səhifələrində dərc etdilər. Cənazə qoyulmuş universitet zalı, korridorlar, universitet meydanı alimlərlə, tələbələrlə, alimi yaxından-uzaqdan tanıyanlarla dolu idi. Maarif naziri öz işçiləri ilə (Rusiyanın maarif naziri nəzərdə tutulur - Ş.H), Xarici İşlər Nazirliyinin, qəzet və jurnalların əməkdaşları da burada idilər. Cənazəni xüsusi ayrılmış vaqona qoyub Staroselski dəmir yolundan Karlovskiyə

apardılar. Karlovski qəbiristanlığında matəm mitinqi oldu. Mitinqi maarif naziri Dmitri Tolstoy açdı. Alim haqqında nitq söylədi. Dedi ki, böyük alimin ölümü Rusiya elmi üçün çox ağır itgidir.

Mirzə Kazım bəy haqqında yazırdılar ki, Böyük Britaniya, İrlandiya, Fransa, Almaniya, Hollandiya, Amerika Birləşmiş Ştatları akademiyalarının və elmi cəmiyyətlərinin üzvü, səkkiz dildə sərbəst danışan yeganə alim idi. Kazanda və Peterburqda Şərq dilləri fakültələrinin yaradıcısı idi.

Bir məqamı da nəzərinizə çatdırım ki, 18 il Peterburq Universitetinin şərqşünaslıq fakültəsinin dekan yeri boş olub. 18 il hər gün onun oturduğu masanın üzərinə gül qoyublar. Belə adamlarımız da var bizim. Əslən Dərbənddən olub, azərbaycanlımızdır, Məhəmməd Əlinin və Natəvan xanımın övladıdır. Bu gün noyabrın 28-i olduğu üçün mən istəyirəm Mirzə Kazım bəyin də xatirəsini yad edək. Sağ olun!

HƏSƏNBƏY ZƏRDABİNİN VƏFATINDAN 100 İL KEÇİR

TARİXİ BİR DƏFN MƏRASİMİ

«Noyabrın 28-də Qafqaz müsəlmanlarının Həsənbəy Məlikovu itirdiklərindən beş il keçir. Hər bir müsəlman jurnalisti hər il bu əlamətdar tarixi ictimai şüurun, ictimai ruhun bir növ oyanmasına çağırış kimi qeyd etməyə borcludur». «28 noyabr tarixi bizdən ötrü təkcə itirdiyimiz Həsənbəy Məlikovun matəm günü deyil, bu tarix bizə sanki nəyisə xatırladaraq göstərir ki, bu hadisə bizim zehni duyğularımız, mənəvi vəzifələrimiz üçün həyəcan təbili olmalıdır».

Bu sözlər görkəmli istiqlal mücahidlərimizdən olan Ceyhunbəy Hacıbəyliyə məxsusdur. 1907-ci il noyabrın son günlərində Həsənbəy Zərdabinin Bakıda misli görünməmiş ümumxalq matəminin və dəfn mərasiminin bilavasitə iştirakçısı və şahidi olan C.Hacıbəyli 1912-ci il noyabrın 28-də Həsənbəyin vəfatının beşinci ildönümü münasibətilə «Kaspi» qəzetində dərc olunmuş «Həsənbəy Məlikovun xatirəsinə» sərlövhəli məqaləsində bu tarixi günü hər il qeyd etməyi vacib bilirdi.

Məlumdur ki, o dövrün mətbuatında Həsənbəyə həsr olunmuş çoxqiymətli yazılar dərc olunmuşdur. Məlum səbəblər üzündən onların bir qismi oxucular üçün naməlum qalmışdır. Bunu nəzərə alaraq dövri mətbuatda Həsənbəyin dəfn mərasimi ilə əlaqədar həmin yazıların bir qismini «525-ci qəzet»in oxucularına təqdim edirəm.

* * *

Noyabr ayının 28-ci günündə səhər saat 11-də vəfat edən Həsənbəy Məlikov cənablarının övrəti və uşaqları bu yas barəsində qövm və əqrabaların xəbərdar edirlər.

Starı Paçtovaya küçədə Tağıyevin 61 nömrəli evi. Dəfni isə cümə günü noyabr ayının 30-da səhər saat 10-da olacaqdır.

«Təzə həyat» *qəzetəsi, 29 noyabr 1907, №182.*

* * *

İnnə lilləhi vəinnə ileyhi raciun

VƏFAT

Dünənki gün - çaharşənbə günü cəmaətə üz verən müsibət həqiqətdə də böyük bir müsibətdir! Bunu hər bir əhli-vicdan təsdiq edər. Bu gün Həsənbəy Məlikov öz xanəsində vəfat elədi! Qırx sənədən bəri milliyyət və tərəqqiyyat yolunda çalışan və özü üçün bir şey saxlamayıb qazandığını bütün o yola sərf edən qeyrətini, həmiyyətini, maddi və mənəvi qüvvətini Vətən uğruna bəzl (sərf) edən, əlqərəz - bir Adəm qədər ki, başarar onu vücuda gətirən, bir rəfiqavər üçün, bir yoldaş və müavin bulunmadığı halda işləyib əzimət və niyyəti üzərində səbr və təhəmmül edib hər müşkülata hədəf olub davam edən, kimdir? -İştə bu vücud Həsənbəy Məlikovdur! Həsən bəy borcunu əda edib bu gün bu dari -fələkindir - əlçəkdi getdi. Zənn edirəm. Mədəniyyət yolunda onun insaniyyətə bu imkanı təqdir edəcək ürəfaik çoxdur. Sabah cümə günü günorta vaxtı onun dəfni icra ediləcəkdir. Rəhmətüllahi aliyə rəhmeyi vasea.

Müəllim ***Şeyxzadə***

İdarədən. Maarif və ürfanımızın, hissi milliyyəmizin təxtinin baş və sərkərdəsi olan və şimdi bivəfa millətimizin yadından çıxıb əziyyətli bir azardan sonra üsrət (ehtiyac) və fəlakətzədəlik halında mərhum olan azadeyi-dil, millətpərəst, həmiyyətpərvər Həsənbəy Məlikovun vəfatı o dərəcədə bizi qəm və ələmə düçar etmiş ki, bu gün o mərhumi-məğfurun barəsində daha bir artıq şeyi yazacaq halətimiz yoxdur! Fəqət burasını diyəlim ki, bu günlərdə şəhərimizin ürəfa və danişməndləri bir yerə cəm olub qət etmişdilər ki, mərhumun yadigarlığına ümumi Qafqaz dairəsində bir şənlik tərtib olunsun.

Heyfa! Səd heyfa! Ki mərhumun ömürü vəfa etməyib bu

şənliyi görmədi! Həsən bəy ilə bütöv bir aləm, tamam bir dövrə, tam bir əsr aradan gedir! Millətimizə vəfatı ilə dəyən sədəmə qeyri qabili təskindir, Allah ruhuna rəhmət ətə edib ailəsinə və millətimizə bir səbri-cəmil mərhəmət buyursun! Ümidvarız ki, cümə günü ki mərhumun dəfni günüdür. Cümlə əhalimiz və ələlxüsus ürəfa və danişməndlərimiz mərhumun cənazəsinə cəm olub axır dəfə olaraq müşayət edəcəklər.

«İrşad»

Əbuülmühərririn (mühərrirlərin atası) mərhum Həsənbəy Məlikov Zərdabinin müxtəsərən tərcümeyi-halı

Dün Bakıda vəfat edən və cümlə Qafqaz cəmaətinə və Rusiya müsəlmanlarına məşhur və məlum olan Həsənbəy Məlikov 1841-ci ildə Zərdab kəndində təvəllüd etmişdir. Mərhum on beş yaşında ikən atası onu 1856-cı tarixdə Qafqaz canişini Voronsov tərəfindən Şamaxıda açılan məktəbə qoymuşdur. Bu məktəbdə mərhum təhsilə məşğul olub ikmali təhsil etdiyi il, yəni 1859 sənədə Qafqaz məkatib müdiri baron Nikolay Şamaxıya gəlib haman məktəbin imtahanında bulunmuşdur. Mərhum Həsənbəy məkatib müdirinin hüzurunda fövqəladə surətdə imtahan verdiyindən müdir müşarileyhə onu öz xərci ilə Tiflis gimnaziyasında oxutmağı istəmişsə də mərhum Həsənbəyin böyük qardaşları bu işə məmaniət göstəriblər. Amma bir az sonra mərhum Həsənbəyin anasının dayısı general Fərəcbəy Ağayev Tiflisdə sükunət etdiyinə görə böyük qardaşları bunun Tiflisə getməyinə razı olmuşlar. Mərhum Tiflisə gedərkən orada gimnaziyanın 5-ci sinfinə imtahan verib qəbul olunmuşdur. Gimnaziyada ikmali -təhsil edib medal nişanı ilə şəhadətnamə alıb qurtarandan sonra padşahlıq xərci ilə Moskva Darülfünununa qəbul olunmuşdur. Məzkur darülfünunda dəxi (1869) sənədə ikmali-təhsil edib vətəni olan Qafqaza qayıtmışdır. Qafqaza qayıtdıqda altı ay yersiz qalıb Bakı realni məktəbinə müəllim təyin olunmuşdur. 1875-6 tarixdə mərhum dövlətdən izn alıb Rusiyada əvvəlinci müsəlman qəzetəsi olan «Əkinçi» adlı bir qəzetə

nəşr etməyə başlamışdır. Və bu qəzetənin intişarında nə fədakarlıqlar göstərdiyi və nə dərəcədə müşkülata düçar olduğunu gələcəkdə qarelərimizə bəyan edəriz.

E. C-zadə

«İrşad» *qəz., 29 noyabr 1907, №121*

Mərhum ədibimiz Həsənbəy Məlikov həzrətlərinin vəfatı münasibətilə deyilmiş əbyatdır (beytlərdir)

Bu sənmisin ey dahiyə (afət), ey nəcmi -müzəffər! (qalib ulduz)
Almış səni ağuşuna tabuti -mükəddər.
Lahutə (ilahiyyatə) münklərlə sənin uçdu həyatın!
Ey doğru Əkinçi yaşasın əzmi -səbatın!
Açdın vətən övladına əbvabi (qapı) -təkamül
İrşad edərək cövrünə qıldında təhəmmül
Ruhun ola nəşad, ey pədəri milləti -naci! (məşəli)
İştə vətən övladının ey şanlı siraci! (çırağı)
Səbz olmadadır əzmi -səbatındaki gülzar
Mın dürlü çiçək açmada saçdıqların əzhar (güllər)
Aç dideyi -həsrətlərin ey şanlı mücahid
Bax! İştə şu güllər bənim əqvalıma (sözlərimə) şahid
Yordu mülküm! Cismini alami -məşəqqət
Ey dahiyə! Bir dəm uyu ol qəbrdə rahət
Təşbih ediyor səfi mülayin səni iştə
Qəbr içrə səni bəkliyor əfzaci -firiştə

Abdulla Şaiq Talıbzadə

«İrşad» qəz., 2 dekabr 1907, №122

MƏRHUM HƏSƏNBƏYİN DƏFNİ

Srağagün mətbuatımızın banisi, hissi-milliyyəmizin oyanmasına ən ümdə səbəb olan, ürəfa və danişməndlərimizin sərkərdəsi və pişrovu, millət mücahidi Həsən bəy Məlikovun dəfni-keyfiyyəti Bakıda görünməmiş və eşidilməmiş bir təntənə və şəşəə (təmtəraq) ilə icra olundu.

Bu vaqiə qəlbə sükunət verən, ürəyi həsrətlə dolduran və istiqbalımızı təmin etdirən iki şeyi isbata yetirdi. Əvvəlinci, cəmaətimizin oyanmasını, düz, həqiqi xadimlərinin qədrini başlayıb bilməsini, mətbuat aləmində, cəmaət işlərində sədaqət və səfa ilə işləyənləri layiqincə təqdir etməsi; ikinci, ürəfa və danişməndlərin gücünü cəmaət arasında vəqi və heysiyyətini, cəmaətimiz nə qədər əvam, nə qədər geridə qalmış, nə qədər cahil də olsa, ürəfanın sidq və sədaqətini düşünüb də daha şeytanətlərə, vəsvəsələrə uymuyub ürəfanın dəvət və sədasını eşitməyə, onlara pişrov olmağa, onlarla bərabər iş görməyə şüru etmiş.

Bu halәti srağagün müşahidə edən hər bir millətpərəst və tərəqqixah müsəlman Həsən bəy mərhumun vəfatından nə qədər məyus və mükəddar olsaydı da özüyçün bir dərəcəyədək təskinlik, gələcəyə ümidvarlıq hasil edə bilərdi. Görünür ki, mərhumun və mərhumə peyrəvi olanların bu 40 il müddətində səpdiyi toxumlar bisəmərə qalmamışlar. Yavaş-yavaş gülübəlnasta (qədirbilənlərdə - red.) nəşrünüma edib bəhrə veriyorlar.

Mərhumun cənazəsini təşyi etmək üçün Bakıda sakin cümlə ürəfa və danişməndlər, Bakı məktəblərinin cümlə müsəlman şagirdləri, cümlə müsəlman müəllimləri Bakı əhalisindən cəmikəsir (çox) üləma və rüəsa ilə bərabər və qeyri-tayfaların ürəfa və nümayəndələri hazırdılar.

Cənazə başdan ayağa növbənöv cəmiyyətlərdən təqdim olunmuş şallar ilə, hadisəyə münasib yazılar ilə yazılmış lentlər ilə müzəyyən olmuşdu.

Cənazənin qabağında mərhumun böyük şəklini aparırdılar. Şəkil ilə bərabər bir tərəfdən müəllimlər ictimaindən təqdim olunmuş gümüş cildli bir «albom» bəyaz var idi ki, üstündə qızıl

ramkada mərhumun şəkli duruyordu və bir tərəfdən «İrşad» qəzetəsi tərəfindən təqdim olunmuş böyük məcəllə (kitab) və məsnui (süni) güllər ilə zinətlənmiş bir kətibə (lövhə) aparırdılar ki, arasında «Əkinçi» qəzetəsinin əvvəlinci nömrələrindən birisi nəsb olunmuş idi. Bu kitabədən asılan yaşıl və ağ lentlərin birisində «İrşad» adı çap olunmuşdu, o birisində də bu fərz:

«İrşad»dan salam ola əvvəl mərdi «Əkinçi»yə
Kim səpdiyi toxumları ürfan və nurdur».

Bunlar ilə bərabər Bakı müsəlman teatr truppasından təqdim olunan məxmər üstündə gümüşlə nəsb olunmuş sənayei-nəfisənin nişanəsi idi.

Cənazəyə göndərilən pürqiymət (qiymətli) şalları şu cəmiyyətlər təqdim etmişlər: 1) Bakıda müsəlman ürəfası tərəfindən bu şalın lentində müsəlman və rusca bu sözlər yazılmışdı: «Müsəlman ürəfası tərəfindən öz müəllimləri və pişvası olan Həsənbəy Məlikova»; 2) Bakı şəhərinin Duması tərəfindən təqdim olunan pürqiymət bir şal; 3) «Nicat» cəmiyyəti tərəfindən təqdim olunan bir şal. Bu şalda böylə yazılmışdı: «Nicat» maarif cəmiyyəti tərəfindən möhtərəm üzvü qoca ədib Həsənbəy Zərdabiyə»; 4) «Kaspi» qəzetəsi tərəfindən təqdim olunan pürqiymət bir şal; 5) Gimnaziya müəllimləri tərəfindən təqdim olunan şal;

İştə cənazə bu şəşəə və təntənə ilə və cəmi üləmanın, ürəfanın, Bakı müəllimlərinin, mütəəllimlərinin, İran konsulunun, şəhər qlavasının, qlasnıların, rus, erməni, gürcü və yəhudi nümayəndələrinin hüzuru ilə Qasımbəy məscidinə aparıldı.

Bu ali və vəsi (geniş) məscidin içi və sihhəti cəmaətlə dolmaqdan başqa ətrafında olan küçələrdə ləbaləb (ağzınacan) izdəhamla məmlu (dolu) idi.

Aliyi girami ki, ibarət olsun qaziyi şəhər Ağamirməhəmməd Kərim Ağadan, Axund Hacı Mirzə Abuturabdan, Axund Molla Ağadan və Molla Zərif Əfəndidən mərhumun namazını əda etdilər (qıldılar).

Namazdan sonra qabaqca tərtib olunmuş qayda üzrə natiqlər nitq deməyə şüru etdilər. Əvvəlcə müdirimiz Əhməd bəy Ağayev öz nitqini irad etdi, bu zat «İrşad» və «İrşad -Proqress» şirkəti tərəfindən danışıyordu.

ƏHMƏD BƏY AĞAYEVİN NİTQİ

Cəmaət! Biz buraya cəm olmuşuq məşhur və məruf (tanınan - red.) Həsən bəy Məlikovun cənazəsini təşyi (yola salmağa - red.) etməyə.

Baxınız! Göz qabağında nə görürsünüz? Beş gün bundan əqdəm fail (işləyən), muxtar, hərəkət, hiss, fel sahibi olan bir zatdan şimdi bir cansız, hərəkətsiz, heç bir işə, heç bir şeyə qabil olmayan bədən duruyor!

Nə oldu, nə ittifaq düşdü? Bu bədənə dirilik verən, bu bədəni hərəkətə, hissə, felə qabil edən ruh dediyimiz şey ondan ayrıldı! Pəs insanın insanlığı, insanın diriliyi, insanın varlığı ibarətdir onun ruhundan. Lakin ruh özü nədir? Bu məsələni nə əqil, nə elm və nə fənn həll edəməyib. Hətta lisani-Allah olan Qurani - Şərifimizdə bu məsələ barəsində buyrulub: «Əgər səndən sual olunsa ki, ruh nə şeydir, cavab ver ki, bu bir əmrdir (işdir) Allah yanında». Fəqət, əgər ki, ruh özü bizə məlum deyilsə, onun məzhəri (təzahürü), vücudi-zahirisi, səmərələri bizə məlumdur. Günün olduğu günün şüaindən aşkar olduğu kimi, ruhun da varlığı onun səmərələrindən aşikardır. Bu səmərələr hansılardır? Haman insanı halәti-heyvaniyyətdən xilas edib də insanlıq halətinə yetişdirməkdən, yəni elm və fənnə, tərəqqi və təaliyə, həmcinsi olan millətə və ümuminsaniyyətə xidmət etməkdən. Odur ki, yenə lisani - Allah olan Quranımız bugüunə ruhi təbiiyyə malik olanlara əsl insan adı qoyub, qalanlarını kələnam, yəni dördəlayaqlı adlandırıb.

İştə bu nöqteyi-nəzərdən Həsən bəy mərhumun tərcümeyi - halına, ömür və güzərişatına nəzər edəlim, bakalım, nə dərəcədə o mərhumun ruhi-əvalimi (aləmləri) insaniyyəti seyr etmiş və özündən sonra nə əsərlər qoymuş.

Tam 50 il bundan əqdəm, yəni o vaxtlar ki, Qafqaz dairəsində elm və fənn nə olduğuna etina belə olunmuyordu, Həsən bəy mərhum, Moskva şəhərinə gedib orada Darülfünunda təhsil etməyə bəzli-himmət etmiş, sonra Darülfünunun ülumi-riyaziyyə şöbəsini qurtarıb öz vilayəti olan Badkubəyə müraciət etmiş, Badkubəyə qayıdıb da bu mərhum nəyə məşğul olmuş? Yerlər qəsb etməyə? Dövlət qazanmağa? İsmi-rəsm, şöhrət və pul qazanmağa? Xeyr! Xeyr! Müəllimlik edib öz həmcinsi və qövmi olan taifəni düçar olduğu cəhalətdən, zülmətdən xilas etməyə! Əlan (bu gün) Qafqaz dairəsində iş görən bir çox ziyalı, mərifətli elm və ürfan sahibi olan müsəlmanlar var ki, bu mərhumun şagirdləridirlər. Onlardan bəzilərinin saqqalları ağarmış, oğluşaq sahibi olan zəvat (şəxslər) bu məclisdə hazırdırlar! Lakin mərhum bir müəllimliklə iktifa edəməyib, millətinə daha böyük bir dairədə qulluq etmək niyyətiylə 1875-ci ildə haman bu Badkubədə bir «Əkinçi» adında qəzetə nəşr etməyə şüru etmiş! Bu qəzetənin nəşrindən mərhumun məqsədi nə? Öz millətini uyuduğu cəhalətdən, zülmətdən və onların vəxim qorxulu nəticələrindən xəbərdar etmək idi! Bu gecə haman «Əkinçi»nin əvvəlimci nömrələrindən mütaliə edirdim. Onların birisində mərhum yazmış: «Ey müsəlmanlar! Gərək zəmanə ilə saziş etmək! Zəmanənin təqazasına görə iş görmək! Əgər görməsək, zəmanə özüözünə bizsiz iş görüb, fəqət bizi əzər, bizi döyər, keçər». Bu sözlər 1875-ci ildə yazılmış! Müsəlmanlar bu sözləri səmi etibara (eşitmədi) almadı. 1877-ci ildə Qafqazın bir böyük qitəsi əldən getdi. 1882-ci il İranın Bəlücistanı ingilislərin əlinə düşdü; haman ildə firənglər, ingilislər Misirə daxil olub Misiri təsərrüf (işğal) etdilər. Yenə haman illərdə Tunis əldən getdi. Xülasə, aləmi-islam öz dağılmağında davam etdi!

Baxın, bu şəhərin özündə bizim halətimizə: qeyrilər tərəqqi və təali, sərvət və rəfahiyyət fikrində olduqları zaman, biz birbirimizin canına, malına, irzi-namusuna düşüb, bir-birimizi dağıtmaqdayız!

Həsən bəyin sözünə baxmamaq azdır! Həsən bəy bizə haqq söz dedikdə acığımız tutub, ağzına belə döyürdük! Ən əvvəlinci

tən və sərzəniş (danlaq) ki, ona edirdik onun kasıblığı, onun biçizliyi idi! Ağzını açıb danışdıqda biz ona deyirdik: kəs səsüvü! Danışma! Sən kasıbsan! Sən fəqirsən! Yəni biz ona tənə edirdik ki, vaxtını pul qazanmağa sərf etmək əvəzinə, bizə, biz millətə qulluq etməyə sərf edirdi! Lakin bu mücahid, bu millətpərəst bizim heç bir cövri-cəfamızdan geri durmayıb, öz tutduğu yolunda qəribə bir səbat ilə davam edib milləti ayıltmaq işi ilə, taifəsinə xidmət etmək üçün əlindən gələn cümlə-səyi bəzl (əsirgəmədən) edirdi. Əlan Bakıda 11 rus-müsəlman məktəbi var! Bu məktəblər cümləsi o biçarənin səylərinin, zəhmətlərinin nəticəsidir!

Şimdi bu qədər böyük, bu qədər bir ali şəxsin təşyinə gəlib də, biz ona nə deyək! Nə növ onunla vida edək? Əqidəmcə biz gərək o ruhi-paka xitab edib də deyək! «Ey ali ruh! Şimdi sən gedirsən ata-babalarımızın, əcdadımızın hüzuruna! Onlara bizdən salam yetirib də bizim bu şikayətimizi de: Ey əcdad, ey babalar! Bizə nə gün qoydunuz?! Bizə nə növ irs qoydunuz, getdiniz?! Stanlarımız (məmləkətimiz) xərabə, vilayətlərimiz viranə! Cümlə millətlər arasında sərnigün, xar, zəlil, məqhur (qəhr olmuş), məzlum, əhvalımız pozğun! Günü-gündən tənəzzül edib, günü-gündən puç və zay olmaqdayız! Əlan işimiz, sənətimiz oğurluq, quldurluq, bir-birimizin canına, malına, irzi-namusuna qəsd etmək imiş! Ey kaş nə biz olaydıq, nə böylə irs».

Şimdi üzümü bu cavan məktəb uşaqlarına tutub da diyoram: «İştə Həsən bəyin bu bihərəkət, bihiss, natəvan qalmış bədəni sizə ibrət olsun! Dünyadan cümləmiz böyləcə gedəcəyiz! Heç bir şeyi aparmayacayız! Bizdən qalan fəqət o insanlıq, o öz millətimizə, öz taifəmizə və ümuminsaniyyətə qulluq və xidmət qalacaq ki, əlan Həsən bəyin ruhunu bu qədər əziz və möhtərəm ediyor.

Həsən bəyi özünüzə nümunə edin və ələddəvam o ustadi -bihəmtanın (misilsizin) ruhuna rəhmət oxuyun!»

Əhməd bəyin bu nitqi əsnasında çoxları ağlıyorlar. Sonra cənab Qarabəy Qarabəyov rusca bir nitq diyor. Qarabəy Qarabəyov nitqini ümummüsəlman ürəfası tərəfindən deyib Həsənbəy

mərhumun müsəlmanlar üçün nə olduğunu təşyin cənazə üçün cəm olmuş qeyri taifələr nümayəndələrinə bəyan ediyor.

QARABƏY QARABƏYOVUN NİTQİ

Cəmaətdən izn istiyoram ki, nitqi rus dilində deyəcəyəm. Bunun da səbəbi odur ki, bizim təziyədarlığımıza gələn bir çox qeyri taifələr vardır ki, o mərhumun sağlığında onunla bərabər cəmaət işlərində işləmişlər.

O da bir zamanda ki, insanın qəlbi həmin bimisl olan zatın yoxluğu ilə dağdar ola.

Ağalar! Bakı şəhərinin az qədərli müəllimlər əhli-maarifi mənim öhdəmə həvalə etmişlər ki, bu mərhumun tərcümeyi-halını bəyan edəm. Həsən bəy kimi bir mücahidin tərcümeyi-halını bəyan etmək, onun müntəqidi olmaq nəhayətdə çətin bir əmrdir. O da bir zamanda ki, Həsən bəy bir zat idi ki, onu yaxından tanıyanlar bilir ki, heç bir zaman öz şəxsi işinin fikrində olmamışdır.

Bu mərhum öldüyü günə kimi belə millət və cəmaət fikrində olmuşdur. Müsəlmanların arasında olan hər bir əsas mədəniyyətə bu zat ələmdari-əvvəlinci, yəni əvvəlinci müəssis olmuşdu.

Götürək, nəşri -maarif işini: Həsən bəy müəllimlərdər əvvəlinci Avropaca təhsil ikmal etmiş bir müəllim idi ki, özünün mərifətli şagirdlərini saymaqla qurtarmaz. Cəmaət mərifəti yolunda ondan mücahidə fikrini əvvəlinci dəfə verən və onu felən görən Həsən bəy oldu. Həsən bəyin əli ilə bina olunan məktəblər indi çox kəndlərdə və şəhərlərdə durur. Götürün, qəzet işini: Həsən bəy 35 il bundan əqdəm «Əkinçi» adında bir qəzetə çıxarırdı. Bu qəzetəni məzkur özünün kəm maliyyəsi ilə aldığı müəllimlik məvacibi ilə nəşr ediyordu. Haman o qəzetənin nömrəsini budur o lövhədə diri olan «İrşad» idarəsi yadigarlıq rəsmi ilə götürmüşdür.

Bu işin də əsas və binası bütün-bütünə ona mütəəlliqdir. Bu gün aramızda olan drama heyətləri də bu zatın himməti sayəsində əmələ gəlmişlərdir.

Həsən bəy əvvəlinci dəfə olaraq 35 il bundan qabaq Bakıda

həvəskarlar yığıb teatro oyunları vermişdir. Həsən bəy biçiz (kasıb) mütəəllimlərə kömək etmək üçün əvvəlinci şəxsdir ki, ianə heyətləri təşkilinə çalışmış ki, o səyin nəticəsi olaraq indi bizim Bakı şəhərində belə neçə-neçə cəmiyyəti -xeyriyyələr vardır.

Müsəlman cəmaət işinin hər tərəfinə baxarsaq, biz Həsən bəyi orada zəhmət çəkən görüyoruz. Həsən bəy ünas maarifinə ciddiyyət ilə xidmət etmişdir.

İştə, Nikolayevsk küçədə o dərəcə bir cəlal ilə duran ünas məktəbi haman bu mərhumun məhsuli -fikridir ki, Hacı Zeynalabdin Tağıyevin pulu ilə bina edilmişdi. Həsən bəy Bakı dumasında çox zəhmətlər çəkmişdir. 30 il tamam dumada qlasnı olub. Bir mətanəti -fövqəladə ilə öz doğru sözünü bibaklə (qorxusuz) bir surətdə hər bir şəhər əmlakına xəyanət edənlərin üzlərinə demiş və bu cəhətdən özünə bir çox düşmənlər qazanmışdır. Həsən bəy tək bircə qlasnı idi ki, hamı müsəlman qlasnılarının yerinə şikayət etməyərək işləyib, fəqət dövrəsində olan qlasnı adını daşıyanlardan bunu rica ediyordu ki, işlərinə doğruluq və həqiqət ilə əlaqə etsinlər. Xülasə, Həsən bəy cəmaət işinin hər bir tərəfində, səmimi bir surətdə işləyərək özünün xüsusi mənafeyini bilmərrə fəramuş etmişdi. Həsən bəyin Bakıda qəzetə çıxardığı zamanlar öylə bir vaxt idi ki, onda yerin sacınını üç qəpiyə almaq mümkün idi. Neft yerləri, demək olar ki, müftə paylanırdı. Həsən bəy istəsəydi, indi Bakının kapitalistlərindən ola bilərdi. Lakin o zat bunu eləmədi. Dünya malına göz dikmədi. Ancaq cəmaət dərdinə qaldı. Axırda da quru taxta üstə vəfat edib, öz əhli -əyalına heç bir şey tərk etmədi. Onun nöqsanı bu idi. Amma bizlər üçün, onun şagirdləri və məsləkini təqib edənlər üçün bu böyük bir fəxr və mübahatdır! Biz Allaha heç bir şəkva (şikayət) etmiyoruq ki, o bizim qoca ədibimizi əlimizdən aldı. Çünki onun vaxtı çatmış idi. Bizi onun fəqirlik içində vəfat etməsi də mükəddər etmiyor. Bizi mükəddər edən o hal və o zaddır ki, bu Həsən bəyin naxoşluğu cəhətinə cəmaət işinin səhnəsindən düşdüyü zamanda, bizim xatirəmizdən çıxmışdır. Heç birimiz onun görüşünə belə getməmişdik. Həmçinin bizim şəhə-

rimizin nümayəndələri də onu saymırdılar. Bu qızıl və dövlət adamları onun hər bir haqq sözünün müqabilində diyordular ki, sən danışma -pulun yoxdur! Sən danışma -kasıbsan!

Ağalar, hər kəsə ki, haqq və həqiqət xoş gəlmiyordu, onlar Həsən bəyi sıxırdılar. Hətta seçki vaxtında qutusunu oğurlamaq dərəcəsinə gəliyordular. Bu şəhərin fəsad və cinayətlərinin mühərrikləri olan şəhər nümayəndələri təbii ki, Həsən bəyi xoşlamırdılar. Biz ürəfa müsəlmanlar mübahat ediyoruz ki, sən, Həsən bəy, özünə belə dostlar saxlamadın. Biz fəxr ediriz ki, sənin düşmənlərin bu kimi adamlar oldu! Biz ancaq bundan utanırıq ki, bu adamın cənazəsi üstündə məcbur oluruq ki, onun nə dərəcədə hümmətli bir zat olduğunu cəmaətimizə bildirək. Çünki cəmaətimiz hələ çox cahildir ki özləri bunu özü-özünə bilsinlər. Biz ilə bərabər bir az bundan irəli gürcü qonşularımız öz şöhrətli şairləri knyaz Çavçavadzeni dəfn etdilər.

Onların hörmətləri nə dərəcədə böyük idi! Nə dərəcədə onların hissi-milliyyələri öz şairlərinə nisbətən böyükdü.

Biz müsəlmanlar Çavçavadzenin etdiyi xidmətlərini bilə bilməyərək gürcü millətinin o dərəcədə qəmə aludə olduqlarını görüb, bu zatın yadigarını saxlamağı gördük. Bizim bu qabağımızda yatan mərhum Həsən bəyin gördüyü işlər müsəlmanlardan ötrü Çavçavadzenin gürcülərdən ötrü gördüyü işlərdən az deyildir. Yox, Həsən bəy! Siz indi bir qüvvəsiniz ki, əl çatmayanların əlində olub, onlar səni bizə qaytarmazlarsa da, millətimizin cavanları sənə lazım olan qədr və qiyməti verərlər. Sən yoxsan da, sənin işlərin payidardır! Sənin o işlərin həmişə səni yadda saxlatdıracaqlar!

Möhtərəm Həsən bəy! Sənin məmatın, həyatın kimi bizə deyir ki, özünüzü yadımızdan çıxardın, gedin cəmaətinizi işıqlandırmağa, öz peyğəmbərimizin böyük vəsiyyətlərini əmələ gətirin ki, islamın iqtidari -əzəmətindən ibarətdir.

Biz sənin qulağımıza oxuduğun nəğmələri dərguş edib, sən hazırladığın yol ilə gedəcəyik!

Allah sənə rəhmət eləsin! -AMİN!

* * *

Ondan sonra müəllimlər tərəfindən Məhəmməd Həsən Əfəndiyev cənabları bir nitq deyib mərhumun Bakı şəhərində cümlə ibtidai rus -müsəlman məktəbinin banisi olması barəsində və bu işdən ötəri də cümlə Qafqazı gəzib füqəralardan ötrü bir təavun (yardım) cəmiyyəti təşkil etməyini və bu yolda növbənöv zəhmətlərini bəyan edib bu kimi zatın dünyadan getməsinin cümlə məktəb balalarına böyük bir bədbəxtlik olmasını izhar etdi.

Bədə şəhər rəisi danışıb dedi ki, mən bu zatı şəxsən tanımıyoramsa da, amma, Dumanın köhnə protokollarını oxuduqda onun düz əqidəli bir mücahid olduğunu anlamışam.

Qlavanın sırası ilə üləmalar tərəfindən cənab Axund Molla Ağa Qazızadə mərhumun nə dərəcədə millətpərəst və vətənpərəst olduğunu sabiq natiqlər misalında təkrar edib nitqini böylə tamam etdi ki, bu mərhumun nə dərəcədə millətpərəstliyini bu təsdiq edir ki, mərhum yalnız diri deyil, bəlkə ölülərin də qöfrasını çəkirdi. Belə ki, neçə dəfələr ilə mərhum mənə diyor idi ki, bu şəhərin içində olan qəbristanlardan ölülərimizin sümüklərini yığmaq gərək. Lakin heyfa ki, mən bu sözlərə əməl etmədim. Axund cənabları öz nitqini mərhumun ruhuna səlavat ilə tamam etdi.

Sonra «Füyuzat» müdiri ədibi -məşhurumuz Əlibəy Hüseynzadə cənabları böylə bir maəsər nitq söylədi.

ƏLİBƏYİN NİTQİ

Mərhum Həsənbəyin gördüyü işlər barəsində, millət yolunda çəkdiyi zəhmətlər xüsusunda məlumat verildi. Mən bunu demək istiyoram, keçmişdə aləmi-islam bir qaranlıq içində qaldığı zaman bu adam əlinə məşəl alıb qaranlığı işıqlandırmağa çalışıyordu, o məşəl nə idi? Əvvəlinci mətbu kəlam idi. Həsənbəy əvvəlinci şəxsdir ki, Qafqaz, bəlkə Rusiya, demək olar ki, bütün dünyada müsəlmanlar içində əvvəlinci türk müsəlman qəzetəsi nəşr etmişdir.

Biz Qafqaz türklərinin öhdəsində bu adamın artıq haqqı vardır. Çünki bu şəxs bizim üçün dil yaratmışdır. Ədəbiyyata qapı açmışdır. Həsənbəyin belə xidmətləri olmuşdur. Milli mahnılar məcmuəsi belə qayırmışdır ki, o yol ilə cəmaətimiz arasında ehsasi -milliyyəni oyatsın və təbi -şairlə, iğaz etsin. Xülasə Həsənbəy xədəmatı çoxdur. Bu barədə danışıldı.

İndi keçəlim bu zatın gördükləri xidmətlər əvəzində bizim göstərdiyimiz mükafata. İddə (nəticədə) nə görüyoruz? Burada şairi -əzəm Firdovsinin vəfatında edilən hərəkəti müşahidə ediyoruz. O böyük şair, o ədibi -ziqiymət sağlığında çoxlu məşəqqətlər çəkdi, fəlakətlə ruzigar apardı. Axır zamanlarda isə onun həməsri olan Sultan Mahmud onun qədrini, hörmətini düşündü. Bir karvan cavahirat cəmləyib ona yadigar və bəxşiş göndərməli oldu. Cövhərat karvanı Tus şəhərinin məşriq qapısından daxil olanda Firdovsi əleyhirrəhmənin cənazəsi şəhərin məğrib qapısından çıxıyordu.

İştə Həsənbəy də meydani - mühib həyatın məğrib qapısından çıxır. Əcəba məşriqdən gələn nədir? Bu məşriqdən gələn cövhərat karvanı deyildir, ziyayi -mədəniyyətdir gəlir. İştə Həsənbəyin qəlbpərvərdəsi olan mədəniyyət ziyası bizim həyatımıza budur daxil oluyor!!

Əlibəyin bu şairanə nitqindən cəmaət artıq mütəəssir olub bir çoxlarında ağlamaq müşahidə olundu.

Bu nitqdən sonra Hacı Əbülhəsən danışıyor (Bu nitq üçün atidəki məqaləyə baxmalı).

Sonra qəzetəmizin mühərrirlərindən «Nicat» cəmiyyətinin sədri Məhəmməd Əmin Rəsulzadə «Nicat» maarif cəmiyyəti tərəfindən zildə yazılan nitqi söylədi:

MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN NİTQİ

Həzarat! İndicə keçən natiq Əbülhəsən gördünüz ki, nə ürəkdən, ürəyinin ən dərin guşəsindən bugünkü hali -övzamızdan, şəhrimizin bir zülmi -mücəssəm və qədri -dəhşətnakə giriftar olmasından şikayət etdi.

Bu bəlayi-əzimdən qurtarmaq, bu dəhşətli zülm və qəddarlar əlindən xilas olmaq üçün o təklif ediyordu ki, rəislərimizə yalvaraq, yaxaraq, taki onlar bizə rəhm edib yazıqlansınlar, bizim halımıza yanıb əhvalımıza çarəsaz olsunlar.

Heyhat! Möhtərəm natiq səhvdədir. Bizdə rəis yoxdur. Bizim rəislərimiz cəmaətimizin başına cəlladlar olmuşlar. Biçarə cəmaəti bu cəlladların əlindən qurtarmalıdır. Bu xilaslıq da cəmaətin öz əli ilə gərək olsun. Başqa bir yol yoxdur. Cəmaət özü-öz azadlığına gərək çalışsın. Rəislərə yalvarmaq, onlardan mərhəmət istəməklə onun halına heç bir fayda olamaz. Çünki həmişə qoyun nə qədər xırıldasa, nə qədər nalə və iltica etsə də qəssab onun bu naləsinə baxmaz. Ancaq öz işinə məşğul olar: başın kəsib dərisin soymağa, ətin çəkib taraş etməyə çalışar.

İştə cəmaəti bu dərəcəyə çatdırmaq, öz həqqini alacaq mərtəbəyə yetirmək üçün onun gözlərini açmaq, həqqi və batili ona bildirmək lazımdır. Dəyər ki, cəmaət öz həqq və ixtiyarını, öz bacarıq və gücünü bilsin, o zaman heç kəs onu sıxıntı altında saxlaya bilməz.

Cəmaəti ayıltmaq, onu dərrakəli etmək üçün nə lazımdır? - maarif, maarif, maarif! Ancaq elm və bilik ilə cəmaət özünün nə olduğunu və nə edə biləcəyini qana bilər.

İştə bu yolda da təşyiinə yığışdığımız bu mərhum işləyib ömrünü keçirmişdir. İştə bu qoca ədib də haman cəmaətin hər dərdinə dərman olan ürfan toxumlarını səpmişdir ki, bu barələrdə çox danışıldı və vaxt müsaidət etmədiyindən nitqimi uzun etməyib qurtarıram.

Həmin bu maarif mücahidi olan piri -rövşənzəmirə xitabən cəmaətin maarifmənd və mütərəqqi olduğunu özünə məslək tutan «Nicat» maarif cəmiyyəti tərəfindən deyirəm ki, yat Allah sənə rəhmət eyləsin!!

Bədə gürcülər tərəfindən cənab Nasidze gürcücə danışır. Axırda nəşri maarif tərəfindən İsgəndər bəy Məlikov cənabları izhari -təəssüf edib elan ediyor ki, nəşri -maarif cəmiyyəti Həsənbəyin naminə olaraq 3 şagird oxutduracaqdır.

Bu vaxt həzərat meyiti götürüb Bazarni küçə ilə gedib mər-

humun neçə illər mühərrirlik etdiyi «Kaspi» qəzetəsinin idarəsinin qabağında cənazəni saxlayıb əvvəlcə «Kaspi» mühərrirləri tərəfindən cənab Olenski və «Kaspi» mürəttibləri tərəfindən bir fəhlə bu neçə illərdə onlar ilə bir yerdə işləyib heç bir an onların bu mərhumdan insaniyyət və maarif yolunda işlədiyindən başqa bir qeyri iş görməmələrini bəyan edib ondan axırıncı dəfə razılıqlarını bəyan etdilər. Ondan sonra Bakıda Duma təşkil olunduğundan bu günə kimi qlasnı olduğu şəhər Dumasının qabağında saxlandı. Dumanın qlasnıları tərəfindən İsabəy Aşurbəyov şəhər idarəsi tərəfindən danışıb həmişə doğru söz danışmaq üstündə cürbəcür nalayiq sözlərə, hərəkətlərə düçar olaraq heç bir vaxt öz yolundan, təriqindən bir an da belə geri qalmayan möhtərəm qlasnı mərhum Həsənbəydən razılıq edib «Allah sənə rəhmət etsin!» kəlamı ilə nitqini tamam etdi. Bundan sonra realnı məktəbin mütəəllimləri tərəfindən mütəəllim Vəzirov cənabları özlərinin ruhani ataları olan Həsənbəyin bunlara göstərdiyi yardımları bir -bir bəyan edib sonra məlum etdiyi bu məktəbin mütəəllimləri böylə bir əziz vücudun yadigarını həmişə nəzərdə tutmaq qəsdilə mütəəllimlər öz tərəflərindən mərhumun adına 2 nəfər kasıb mütəllimə xərc verməyi vədə verdilər.

Ondan sonra «İrşad» mühərrirlərindən Məhəmməd Sadıq Axundov böylə bir nitq söylədi:

«Dünyada ömür keçirmək iki cür olur. Bir vaxt olur ki, şəxs dünyada uzun -uzun ömürlər keçirib axırda bu dünyadan köçür. Köçdükdə onun vəfatından bir az zaman keçəcək bu şəxsin dünyaya gəlib illərcə zindəganlıq edib əhli -əyal sahibi olub cəmaət arasında bir nəfər hesab olunduğu bilmərrə fikirdən, nəzərdən gedib böylə bir şəxsin heç dünyaya gəlməsindən bir nişanə qalmır.

Bunun bərəksi olaraq böylə də şəxslər olmuşdur ki, dünyaya gəlib bir az ömür keçirib tez zamanda fövt olub gedər isə də onun ömürü həqiqi nəzərdə min illərlədir.

Böylə bir işə bu anda buraya təşyii -cənazəyə yığılan ictimai şahid ola bilər.

Bu vaxta kimi bizim şəhərdə nə qədər qocalar, dövlətlilər,

əyanlar, rəislər ölüblərsə də bunların heç birinə böylə bir mərhəmət olmamışdır. Çünki o gedənlər dünyaya gəlib gediblərsə də, bunların ömürləri fəqət qəsdsiz bir səyahət olub, nəticəsiz ömür olmuşdur. Lakin bu gün qabağımızda olan mərhum atamız Həsənbəy ölübsə də, amma xeyr, Həsənbəy ölməmişdir!

Həsənbəyin adı illərcə aramızda qalıb, həmişə sağ olacaqdır.

İştə bu Həsənbəy Məlikovun burada duran bihiss meyiti bizim ürəfamıza, vükəlamıza, əyanlarımıza ibrət olmalıdır!

Mərhum atamızın millət və vətən yolunda çəkdiyi zəhmətləri, onun əhəmiyyətini sabiq natiqlər söylədiklərindən ona ehtiyac olmadığından nitqimi mərhumun əziz ruhuna səlavat ilə tamam ediyorum».

Ondan sonra bir nəfər müsəlman fəhləsi Bibiheybət, Balaxanı mədənlərində işləyən fəhlələr tərəfindən vəkil olaraq bir müxtəsərcə nitq söyləyib, sonra «Kaspi» mühərrirlərindən Dconeridze rusca illərcə onunla bir yerdə işləyib həmə vəqt onun əvvəlinci fikri millət tərəqqisi olmağını bəyan edib ağlaya -ağlaya nitqini tamam etdi. Natiqlər qurtardıqdan sonra cəmaət meyiti dərya kənarınadək aparıb orada Əhmədbəy Ağayev ürəfa tərəfindən və mərhumun külfəti tərəfindən rizaməndlik edib, sonra müəllim İsmayıl Əliyev yetim mütəəllimlər tərəfindən təsirli bir nitq irad edib cəmaət kəsir ilə (çoxluqla) nəşi Bibiheybətə apardılar.

«İrşad» qəz., 2 dekabr 1907, №122

MƏRHUM HƏSƏNBƏYİN VƏFATINA DAİR

Peterburqdan idarəmizə Həsənbəy mərhumun vəfatı xüsusunda gələn teleqraf Peterburqda sakin müsəlman cəmaəti bu gün müsəlman cəmiyyəti -xeyriyyəsinin mənzilinə cəm olub millət mücahidi Həsənbəy mərhumun ruhuna dualar etdilər. Axırda İsaxanov və padşahlıq Duma vəkili olan cənab Xasməmmədov və Tuqayev Həsənbəyin müsəlmanlara nə qədər xidmətlər etdiyini bəyan etdilər. Həsənbəyin zövceyi -möhtərəməsi olan

Hənifə xanıma yaddan çıxılmayan Həsənbəy mərhumun vəfatı münasibətilə öz qəlbi və səmimi hüzn ələmimizi izhar ediyoruz. Həsənbəyin vəfatı ümummüsəlmanlar üçün böyük və əvəzsiz bir itlaf (itgi)dır. Haman bu hüzn və qəmimizi Əlimərdan bəy Topçubaşova təxminən ərz etdik.

Peterburq müsəlmanlarının tərəfindən professor Abdinov, Duma vəkilləri Xasməmmədov və Tuqayev, injinar Sultanov və Əlimirzə Maqsudov.

* * *

Padşahlıq Dumadan mərhum Həsənbəy Məlikovun ailəsinə gələn teleqrafın surəti

Bakı, Hənifə xanım Məlikova

Məşhur müsəlman mücahidi Sizin zövci -möhtərəminiz Həsənbəy Məlikovun vəfatı xəbəri bizi əla dərəcədə məğmum (qəmli) etdi. Cümlə müsəlmanlar ilə bərabər Sizin bu qəm və dərdinizə iştirak ediriz. Ən səmimi qəlbdən öz yasımızı sizə izhar ediriz!

Dumada müsəlman şöbəsinin üzvləri: Xasməmmədov, Sirtlanov, Təvəkkülov, Tuqayev, Bayurin, Minkiev, Maqsudov, Müftizadə, Mahmudov.

«İrşad» qəzeti, 4 dekabr 1907, №123

* * *

Həsənbəy Məlikov mərhumun vəfatına dair idarəmizə gələn teleqraflar

I

Gəncə - İdarə «İrşad»

Təvəqqe ediriz ki, biz Gəncə cavanları tərəfindən mətbuatımızın banisi olan mərhum Həsənbəyin zövceyi -möhtərəməsindən bizim tərəfimizdən izhari -yəs və sükuvarlıq (kədər) edəsiniz.

Gəncə cavanları

II

* * *

Gəncə - İdarə «İrşad»

Təvəqqe ediriz ki, mərhum, məğfur Həsənbəyin zövceyi - möhtərəməsi hüzurunda bizim yəsi -ələmimizin mütərcimi olasınız.

Gəncə mədrəseyi -ruhaniyyəsi
«İrşad», 8 dekabr 1907, №125

TƏRCİBƏND

Həsənbəy Məlikovun vəfatı münasibətilə söylənmişdir

Ələlsabah yığılmışdı fövc-fövc insan
Ki hər biri mütəəssim məlal idi giryan
Nədir nə var? -deyə sordum, Həsən bəy ölmüş ah,
Yıxıldı beynimə guya ki, asiman o zaman
Həsənbəy öldü!... Demək bir cahan əzimü səbat
Yıxıldı söndü bir əsri mücəssəm ürfan
Həqiqətin o fədakari -zisəbati idi
O yolda etdi Həsənbəy fədayicani -cəhan
Onu məzara buraxdıq, həyata gömdük biz
Əvət həyatə, bütün kainatə küsdük biz.

* * *

Əvət yığıldı cəmaət -rəmidə həsrət
Səmayə doğru uzanmışdı əbdi hörmət
Bu əllərin üzərində driğ!... Bir tabut
Səmayə rifətə hər fərd eyləyir qeyrət
O rütbə yüksələməzdi Həsənbəyin nəşi
Nə rütbə itsə bəşər bəzl hümməti -qüdrət
Bu həqqi həq çəkiyordu səma məhrəminə

Ki yüksəlirdi bu tabut balisühulə! Əvət
Səmada həqqə, zəmində bu həqq idi raqib!
Həsənbəy öldü onunçün səmaru rahət!
Onu məzara buraxdıq həyatə küsdük biz
Əvət həyatə bütün kainatə küsdük biz!

* * *

Səfid lihyə (Ağsaqqal), uzun boy siyahi -rəng nəzər!...
Həsənbəy işdə budur! Həqq də böylə şəklə gərər.
Həsənbəyin saqqalından ziyadə ağdı üzü
Boyu cahani -cəfai səbatə təəllüq zəfər
Siyah nəzərəsi bir məşriqi -hidayət idi:
O şəbdən oldu nümayan bugünkü mehri hünər
Toxundun ah Həsənbəy qərib könlümə sən
Sənin o axiri -ömründən etdim əxzi -əbr!
Bir az da sən bəni dinlə səri -məzarında
Ki rəhlətin bəni etdi şikəstə ruhi kədər!
Səni məzarə buraxdıq, həyatə küsdük biz
Əvət həyatə, bütün kainata küsdük biz!

* * *

Gəlir şu ərseyi həyatiyyə adəmavarə
Neçün gəlir o da bilməz bu dəhri dəvarə
Nə qılsa cərm sayılır neyləsə məsul
Nə kəsb edər bu qədər qeyddən o biçarə?
Sonu ölüm dediğin əthayi -məqbərdir
Bu hayü -huylar urur məhv olur o dubarə
Təvazən olmaq üçün varidati -xilqətdə
Ölüm nizam etmiş ah etidali -idarə
Nizamını pozamazmış təbiəti -məfrur
Həzar təənə bu məmuni nizam qədarinə
Onu məzarə buraxdıq həyatə küsdük biz
Əvət həyatə, bütün kainata küsdük biz.

* * *

Ədəm degil bizə mübdaki axır olsun ədəm!
Fəqət bu yolda ki varlıqda varmıdır bilməm?...
Nə inqilab ki bir qətrədə olur zahir
Böyuyor dəqiqə -dəqiqə o qətreyi mübhəm?
Nəticəsi bu qədər virzişəkk olur idrak
Ona sərayir həsti və nisti məhrəm.
Tolar dimağ bütün ğəmzati xilqətlə
Olur cahan şüunat bir kiçik adəm!
Əldə ən sonu bir mikrobun qalır aciz
Qəribdir ki olur bir dəqiqədə bir qəm!...
Onu məzarə buraxdıq həyatə küsdük biz
Əvət həyatə, bütün kainata küsdük biz!...

* * *

Təbiətin nəzərində bənimlə bir murun
Təfavütü yox isə gər bu əqli -məfrurun
Bənimçün etdiyi bu necə vəzifələr icad
Nədir? Kimə sorayım bən bu əmri -məsturun.
Bənim önümdə olan kimdir ah məsuli
Kı yox təfavüti -inadında matəm və surun?
Sənin də olmadı heyfa! Sən də ay hikmət!
Hüzurbəxş, təqazacavab məfturun!
Başımda ay bəni bin isimlə əzən cəbbar
Sənin qırılmayacaqmı o pənceyi -zorun?...
Onu məzarə buraxdıq, həyatə küsdük biz
Əvət həyatə, bütün kainata küsdük biz!...

* * *

Nəaməl böyüyorkən edərsən təkamülə xidmət
Məmatə doğru da etsən o vəchlə ricət
Azar -azar gedərək qüvveyi həyatə

Edəydi mübdəyə doğru yavaş -yavaş övdət!
Bu xatirat, bu bihəddi -əvalimi -idrak
Nəzərdən eyləyərək ta əzəleyi -rəvayət
Olaydı hali -tüfuliyyətə bəşər vasil
Varmayaydı ah bu surətlə ömrünə ğayib!
Və ya ki cazibəyi -ərzdən olub münfiq
Edəydi bir kərə digərə bəşər rəhlət!...
Fəqət məzarə buraxdıq, həyatə küsdük biz
Əvət həyatə, bütün kainata küsdük biz!...

Əhməd Kamal
«İrşad» qəzeti, 8 dekabr 1907, №125

HƏSƏNBƏY MƏRHUMUN VƏFATINA DAİR

Böyük bir ədibi-şəhirimizin vəfatı münasibətilə aləmi -islamı qaplayan qara xəbər, bizə dəxi saiqeyi-bəla kibi nazil oldu. Könlümüz viran, gözlərimizdən sərşəkki həsrət rəvandır. Mütəvəffi (vəfat etmiş) 32 sənə müqəddəm Qafqazda ilk dəfə olaraq min dürlü fəlakət və məşəqqətlərə müqabilə edib və cühəlanın təərrüzatına (təcavüzünə) davam edib də səbati-nam ilə zərrəcə kəndi (öz) məsləki -müqəddəslərindən münhərif (dəyişən) olmayaraq, qeyrilər sərvət toplamağa tələş etdiyi vaxtda, şu mərhum fəqət bizim üzümüzə səadət qapılarını açmağa təşəbbüs edib ibrazi-həmiyyət etmişdir.

Amma heyfa ki, çəkdiyi əziyyətlər və zəhmətlər sayəsində bəslədiyi bir arzuya, bəslədiyi bir ümidə yaxlaşan sırada əcəl caminin zəhr alud (bulaşıq) badəsini nuş edib pirulərini (mürşidlərini) məyus və dağdar buraxaraq darül -bəqayə (əbədiyyət evinə) rəhlət etdilər.

Böylə bir ədibi -fazilin və həqiqi maarif «Əkinçi»sinin ədəbiyyat məzrələrinə (tarlalarına) ən möhtac bulunduğumuz za-

manda qaibliyini, mülahizə etdikcə hüzn və ələmimiz bir qat daha artmışdır!...

Lakin nə etməliyiz? Əhkami-qəzayə rizadən başqa çarə varmıdır? Binaənileyh bizdə mərhumun təziyeyi-cangüdazinə iştirak edib səmimi məhzunluğumuzu izhar edərək ümumiyyətlə vicdanında millət dərdi hiss edən və islam qeydkeşi olan zəvatikəramə və xüsusilə mütəvəffa Həsənbəy Məlikov həzrətlərinin zövceyi-möhtərəmələrinə olaraq xitab ediriz ki, bu bəlayi-əzimə qarşı fəqət hikməti-ileyhiyi təhəmmül ilə atəşqəlblərinə təsliyət paş olsunlar. Bu adəmabadda kim həyatə məğrur ola bilir. Hər gedən növbətini savar.

İştə şu cənabın təziyəsinə təsadüf edib bədbəxtanə bir surətdə alami-kədərə uğraşanlar dəxi bu aləmi-fanini vida eləməyəcəklərmi? Amma nasıl vida eyləməli, əlbəttə bu suala cavab olaraq hər bir sahibi-insaf şəxs deyəcəkdir. Həsənbəy və əmsəlları kibi.

Həsənbəy mərhum bu bivəfa dünyayi tərk edibsə də, fəqət ismi şərifləri etdiyi emali-hissinə və göstərdiyi əfali müstəhsənə (xoşagələn işləri) sayəsində ələddəvam zindədir. Ey ədibi-kamal, ey müqəddəs ruh! Allah sizi qəriqi-rəhmət eləsin, sizə və sizin kibilərə olmamışsınız desək xəta edəmməriz, Sizin ruhunuz Allah indində (yanında) diri olduğu kibi, pak və parlaq niyətləriniz səbəbinə ism şəriflərıniz dəxi insanlar arasında həmişəliklə fəramuş olunamayıb təzkar (yad) olunacağında əmin olunuz, rahət olunuz...

Və yenə təkrarən ruhi -pürfütuhunuza (elmli ruhunuza) rəhmət oxumaqla xətmi -kəlam edəriz!

Hüseyn Ağaməhəmmədbəyzadə,
Əsədullah Talıbov, Sadıq Məhəmmədov,
Balabəy Şəfibəyov, Nəcəf Tağıyev

«İrşad» qəz., 18 dekabr 1907, №129

DİVAR TƏQVİMİ
MÜSƏLMANİ VƏ RUSİ

Tiflisdə «Qeyrət» mətbəəsində 1908-ci ilə məxsus divar təqvimi çap olunur.

Təqvimin kənarlarında: Məşrutiyyə qurbanı mərhum Sultan Muradın, Dağıstan istiqlalı mücahidlərindən Şeyx Şamilin, «Həblül-mətin» müdiri Şeyx Cəlaləddinin, İran fədakarı məşhur Mirzə Mülküm xanın, mücahidi-həqiqi Seyid Həsən Tağızadənin, Həsən bəy Məlikovun, şəhidi-mərhum Abbas ağanın, ədibə və şairə Nigar xanımın şəkilləri gözəl bir surətdə çəkilmişdir.

«Molla Nəsrəddin», *16 dekabr 1907, №47*

MƏRHUM HƏSƏNBƏYİN
AİLƏSİ TƏRƏFİNDƏN

Bakı üləma, ürəfa və əhalisinin və ümumcəmaətin bizə Həsən bəyin vəfatı münasibətilə üz verən müsibət və ələmə şərik olmaları, hər şəhərdən, hər qəsəbədən, hər bir cəmiyyətlərdən və hər bir sinif əhalidən gələn sükuvarlıq teleqrafları bildirdi. Həsənbəy ömrünün axırınadək çox-çox müşkülata və müzlümlərə baxmayaraq özünü, öz ailəsini yaddan çıxarıb ələddəvam cümlə vaxt zorunu millətə xidmət etməsi bizə bir böyük fəxr və mübahatdan başqa ümuməhalimizin də Həsənbəyi təqdir edib, bizim yas və qəmimizə şərik olması bizə böyük bir təskinlikdir. Hər bir şəhrə, cəmiyyətlərə, tək-tək əşxasa ayrı-ayrı təşəkkürnamə göndərmək mümkün olmadığından «İrşad» vasitəsilə izhari-imtinan (minnətdarlıq) və təşəkkür edib də xudavandi -baridən arzu və dua eləriz ki, Həsənbəyin əkdiyi toxumlar getdikcə böyük-böyük səmərələr verib cəmaətimizə bir nicat və xilas yolu açılsın. Amin Yarəbəlmöminin,

Həsənbəyin zövcəsi Hənifə xanım Məlikova,
Həsənbəyin böyük oğlu Midhət bəy Məlikov

«İrşad», *8 dekabr 1907, №125*

YADİGAR

Möhtərəm Molla Nəsrəddin əfəndi!

Acizanə xahiş edirəm ki, bu neçə kəlməyə jurnalınızda yer verəsiniz.

Mərhum Həsənbəyin vəfatı münasibətincə lazım idi ki, bütün Qafqazda olan şəhərlərdən biz şamaxılıların üstümüzə sər - səlaməti teleqramları çəkiləydi...

Çünki o mərhum bizim öz şamaxılımız idi, o bizim öz adamımız idi, daha doğrusu, o bizim mənəvi atamız idi.

Amma Qafqaz əhli bu barədə səhv etdilər. Götürüb Bakıya teleqram ələdilər, nə bilim «İrşad»a yazdılar...

Bainhəmə biz genə öz vəzifəmizi ifa etməkdə qüsurluq etmədik, o mərhumu yadımızdan çıxarmadıq, demək, onun bizdə olan haqqını ədа etdik.

Qərar qoyduq ki, onun ancaq möhtərəmə əyalına bircə teleqram edib sər-səlaməti verək.

Hətta bu xüsusda çox danışdıq da, hələ də danışırıq, genə də danışacağıq, çünki o mərhumu yadımızdan çıxarda bilmərik!! Şərt teleqram vurmaqda deyil, hər mətləbin üstündə gərək danışıq olsun, danışılar, danışılar, axırda iş bir yerdə qərar tutar, necə ki, elə belə də oldu, yəni teleqramı mövquf edib mərhumun yadigarına şəhərimizdə olan uşkolların birində tək bircə nəfər yetim uşaq oxutmaq fikrinə düşdük, demək ki, müsadimeyi -əfkardan bariqeyi -həqiqət parlatdıq!! Afərin bizə! Mərhəba bizə!

O idi ki, bu xüsusda götür -qoy elədik, götürdük -qoyduq, qoyduq -götürdük, qoyduq -götürdük, götürdük -qoyduq, bircə xırda qalmışdı ki, iş lap düzəlsin, nagah vaxtsız xoruz kimi bir şoqərib tək səbir buyandan bannadı, səbrin səsinə diksinib, yuxudan ayıldım, bir bu tərəfə, bir o tərəfə nəzər saldım, gördüm hamı xorhaxornan yatıb, tez kağız qələmi götürüb və neçə kəlməni sizə yazıb dübarə başımı atdım yasdığa və getdim yuxuya. Hərçənd ev isti, yorğan-döşək qalın, yuxu şirin, heç bir də oyanmağa ümidim yoxdur, amma genə vəsiyyət yüngüllükdür: budur sənə deyirəm, aşna! Əhyana, oyandım, mabədin də yazaram, yox əgər oyana bilmədim, nə bir eybi varmış: yar baqi, söhbət baqi, o dünyada görüşüb zəbani-ərz edərəm.

Müxlisiniz Malxulyaçı (Mirzə Ələkbər Sabir)
«Molla Nəsrəddin», 13 yanvar 1908, №2

ƏDİBİ - ŞƏHİR HƏSƏN BƏYİN RUHUNA İTHAF

Bu gündə qədrşünasan qəriqi -möhnətdir,
Bu gündə çeşmi-ədəb əşkrizi -həsrətdir.

Bu gündə qırxı tamam oldu ol ədibin kim,
Demək olurdu ona qəhrəmani -hümmətdir.

Bu xabgahi -əbəddə yatan vücudi -əziz
Qəriqi -lücceyi-qüfran, qərini -rəhmətdir.

İtirdik, ah, əcəb bir vücudi -fəyyazi!
Demək olurdu mücəssəm o bir həmiyyətdir.

«Həsən, Həsən!» -deyə dillər bu gündə növhəsəra.
Həsən! O piri -müqəddəs, ədibi -ümmətdir.

Fərağı -xatir ilə yat məzari -pakində,
İlələbəd sənə millət rəhini -minnətdir.

Bu gün vətəndə nümüvv eyləyən nihali -kəmal,
Sən əkdiyin o gözəl daneyi -həqiqətdir.

Cahanda məzrəələr danəpərvər olduqca,
Cahaniyanə adın mayeyi -şərafətdir.

Əbdülsəlimzadə Məhəmməd Hadi Şirvani

«Tazə həyat» *qəzeti, 10 yanvar 1908, №8*

HƏSƏN BƏY MƏLİKOV

Əmallahu və ənə ileyhi racium

Dünən saat on ikiyə yaxın Qafqaz qitəsində ən əvvəlinci meydani -maarif və tərəqqiyə qədəm qoyanlardan və indiki müsəlman tayfasında müşahidə olunan tərəqqi və təməddün cünbüşünün əvvəlinci silsilə cünbanlarından biri Həsən bəy Məlikov rəhmət etdi.

Həsən bəy Məlikov Bakı quberniyası Zərdab qəryəsində 1837-ci ildə təvəllüd edib, atası praporşik Səlim bəyin səyi və hümməti sayəsində qabaqca Şamaxıda şəhər məktəbin tamam edib, sonra Tiflisdə gimnaziyanı tamam etməyə 1861-ci ildə müvəffəq olur. Haman il Moskva universitetinə daxil olub, bu ali məktəbin hikməti-təbiiyyə şöbəsində ikimal təhsil edib 1865-ci ildə oranı da tamam eyləyir. 1866-cı ildə Həsən bəy Məlikov Bakı realni və gimnaziyasında tarix və xülqsə elmlərinin sayağında bir neçə il xidmət edib sonra mecovoy palata tərəfindən haman palatanın üzvü xidmətində bir az müddət dəxi xidmət edir. Ondan sonra Qubernski pravleniyada , sonra mirovoy sudda sekretarlıqda qalır, ondan sonra genə tazədən Bakı realnı məktəbinə hikməti -təbiiyyə müəllimi təyin olunub 1878-ci ilədək dövlət xidmətində bulunur.

Mərhumun xidmət halında uşaqlar tərəfindən nə qədər hüsn təvəccöh və məhəbbət qazanıb onlara ata dərəcəsindən də artıq bir dərəcə kəsb etməyindən əvvəl ömründən ta axır nəfəsinədək cəmi fikir, xəyalın, əfal və ətvarın fəqət millətinin, müsəlmanların pişrəftinə, tərəqqi təməddünə calanmasına sərf etməgindən də hələ nəinki müsəlmanların, bəlkə rusların belə ağlına gəlməyən bir vaxtda 1872-ci ildə oxuyan uşaqlara bir ianə cəmiyyəti təşkil etməgindən də hamısından artıq bir xidmət mərhum Həsən bəyin tərəfindən əvvəlinci olaraq türk dilində «Əkinçi» ismində bir qəzetə vermək xidmətin hesab edirik.

Qafqaz müsəlmanlarının ən cahil, ən vəhşi bir vaxtında verilən bu qəzetənin köhnə nüsxələrin mütaliə edənlər bu mərhum o vaxtda, indi onun əks-sədası olan sözlərin hamısın çığırıb camaata deyirdi. Qəzetənin hər bir kəlməsindən, hər bir sətrindən bir müəllimlik, bir mürəbbilik ətri istişam olunur. 1876-cı illərdə mətbuat meydanına qədəm qoyan «Əkinçi» əzqəza ermənilərdə də birinci olaraq meydana qoyulan «Mşaq» qəzetəsi ilə müasir düşdü. Lakin müsəlmanlarımızın o vaxtki cəhalətindən naşi «Əkinçi» «Mşaq» ilə rəqabət edə bilmədi. «Mşaq»ın hər gün neçə minlərlə nömrələri intişar tapdığı halda, «Əkinçi» ancaq iki-üç yüz nömrədə çıxıb o da bir müəllimin bir el zəhmətkeşinin ağır məşəqqətləri ilə qazandığı pulu ilə verilirdi. Beş -üç pullu müştəri tapıldığı halda qalan oxuculara qəzetə pulsuz, müftə göndərilirdi. Həsən bəyin mənzuri pul degildi. Həsən bəy əvvəldən axıradək pul adamı olmadı, pula etina etmədi. Etsəydi, Həsən bəy indi Bakının əvvəlinci milyonerlərindən biri olmağı asanlıqla mümkün idi.

Özünü öz müqəddəs təriqəsi və məsləki yolunda Həsən bəy Məlikov nə qədər etirazatə, nə qədər əziyyət və azara mübtəla oldığını yazsaq qəzetəmizdə yer tapılmaz.

Ancaq bu bir gözəl lətifəni deyə billik: «Əkinçi» uğrunda Həsən bəyin zəhmətlərinin əvəzində o vaxtın qədir bilməzlərindən sel bəla kimi Həsən bəyin üstünə tökülən məsxərafat və həcviyyatdan birinin müqabilindəki Qarabağdan gəlmişdi zavallı Həsən bəy bu cavabı yazdı: «Həcviniz o qədər namülayimdir ki, onu qəzetdə dərc etmək olmaz. Lakin onu bir daşın üstə həkk edib Zərdab ilə Qarabağ arasında qoymağı təəhhüd edirəm ki, gələcək övladi-vətən görsün onun tərəqqi və təalisi yolunda nə bəlalara düçar olmuşam».

«Əkinçi» qəzetəsi osmanlıya tərəfdardır zənnilə dövlət onun müqabilində bir para şiddətli tədbirlər binasın qoydu. Bir yandan da camaatın endiyinə bənzər kəmetinalığı Həsən bəy kimi bir müəllimin elə özün dolandıran qəyyurun sərvət cəhətincə naçar qalması «Əkinçi»nin bağlanmasına bais oldu.

Bunlardan əlavə ömrünün bir çox hissəsini də Həsən bəy Bakı şəhərinə qulluq etməyə sərf etdi. Dumanın ən birinci qlasnılarından olan Həsən bəydən, cəmi xidmətlərinin ərz müddətində bir kəs yalan, təzvir, hiylə sözü eşitmədi, hər nə dedisə

doğru, hər nə danışdısa açıq və qorxusuz.

Müddəti -mütəmadi Həsən bəy «Kaspi» qəzetəsinin müdirlik vəzifəsin ifa etdi, genə həmişəki məsləkincə öz təriqəsində sabit qaldı.

Bizi Həsən bəyin ölümü bir o qədər düşündürmür, yetmiş sinnə çatan, bir böylə zəhmət və bəlalara səbr edən kişi axırı gərək öleydi. Bizi düşündürən, bizi ağladan millətimiz içində bu nov ürəgi, dili, əfalə, məsləki bir, qorxusuz, ürküsüz sözün açıq-açığına deyən millət mücahidinin qaib olmasıdır. Çoxdurmu böylə iş görənlərimiz? Çoxdurmu böylə saf, sadiq, biqərəz iş dalınca gedənlərimiz?! Əfsus, həzər əfsus, çox azdır, çox bəlkə yox hesabındadır. Lakin genə «əsər təsirsiz və mütəəsirsiz qalmaz» qaidəyi-külliyyəsinə mütəsəli olub bu mərhumə xudavənd aləmindən tələbi məğfərət edirik.

Və ümidvarıq ki, Bakı cəmaəti, xüsusən üləma və ürəfamız öz qədirşünaslıqların büruz etmək niyyətilə bu mərhumun cənazəsidə cümə günü saat 10-da hazır olub bu millət düşgünü, bu millət mücahidi boyunlarına qoyduğu axırıncı borcu əda edəcəklər...

H.VƏZİROV

«Tazə həyat», *29 noyabr 1907, №182*

«525-ci qəzet» 23 noyabr, 1, 8, 15, 22 dekabr 2007-ci il

PROFESSOR MƏTBUAT GÜNÜ ƏRƏFƏSİNDƏ «ŞƏRQ»ÇİLƏRƏ DƏRS KEÇDİ

Onu öz nəslinin sonuncu mogikanı saymaq olar. Çoxumuz onun dərslərindən keçib mətbuata qədəm qoymuşuq. Milli mətbuatımızın yaranmasının 132-ci ildönümündə biz yenə də ona üz tutduq. Professor Şirməmməd Hüseynova. Dərs almağa. Ən azından milli ideologiya daşıyıcısı, özü demiş, böyük kişilərin araşdırıcısı, həm yaşı 80-ni haqlasa da, nə millətə xidmət etmək sevdasından, nə də ləyaqətli və prinsipial ömür payından vaz keçməyən vətəndaş kimi, həm də çağdaş jurnalistikamızın sonuncu mogi-kanı kimi. Şirməmməd müəllim bizə çox şeylərdən danışdı, milli ideologiyamızı yaradanlardan tutmuş, həbsdə olan jurnalistlərimizə qədər. Jurnalist bolluğundan tutmuş, mövzu seçiminə qədər. Gəlin onun dərslərini bir daha dinləyək. Yaxşı jurnalist və yaxşı vətəndaş olmaq üçün...

«Qonşumuzun bir ağacı var idi, gavalı ağacı. Bir budağı bizim həyətə düşürdü. Mənim anam, böyüklər onu dərməyə, hətta yerə düşən meyvəsini belə yeməyə icazə vermirdi, haramdır, deyirdilər. Biz bu cür tərbiyə almışıq. Ruslar Qafqaza gələndə azərbaycanlılar haqqında yazırdılar ki, çox maraqlıdır ki, bu millətdə qıfıl yoxdur. Qapı, pəncərə bağlamaq bu millətə yaddır. Şəkidə məscidə gedəndə yadımdadır ki, dükançılar dükanlarının qapısına qıfıl vurmazdılar, elə pərdəni çəkib gedərdilər, bir adam da oradan bir şey götürməzdi. Çünki biz oğru millət olmamışıq...

Bu qədər yaşamışam, dərs demişəm, işləmişəm, hələ bir adam deyə bilməz ki, Şirməmməd müəllim rüşvət alıb. Əgər müəllim rüşvət alırsa, xahişə baxırsa, onun sözünə kim inanar? Bu gün jurnalistikanı öyrədən müəllim azdır. Bir də ki, nümunə olmalıdır. Ərəb ölkələrindən cavan oğlanlar təyyarəyə minib özlərini amerikalıların binasına vurur, özlərini də məhv edir, onları da. Yəni Amerika, mən də səni cəzalandıra bilərəm. Onları ora nə aparır? Məsləк. Düzdür, bu da fanatizmdir.

Amma bu da lazımdır. İnsanın əqidəsi, məsləki ailədən və müəllimlərindən gəlir. Çingiz Aytmatovun bir sözü var. Keçmiş sovet ölkələrində təfəkkürün dəyişməsi üçün gərək ən azı 6-7 nəsil dəyişə. Biz müstəqilliyi elan eləmişik, amma müstəqil təfəkkür tərzi formalaşdırmaq, bu çox çətindir...

* * *

Məni ilk dəfə məqalə üstündə Şəkidə rayon rəhbərliyinə çağırıblar. O zaman «Şəki fəhləsi»ndə ədəbi işçi işləyirdim. 45-ci ildə cəbhəçi ailələrinə talonla un verirdilər. Hər uşağa 4 kq. Mən də getdim növbəyə dayandım. Gördüm ki, çoxuşaqlı kişilərdən birinin əlində talon, soruşdum neçə uşağınız var, dedi 7, sonra məlum oldu ki, ona 6 uşağın payını veriblər. Hər adamdan birinin talonunu saxlayırdılar. Zəng elədim «pomprokuror»a. Pomprokuror da İlhamə Quliyevanın atası Məzahir Quliyev idi. Gəldilər yoxladılar, 126 dənə əlavə talon çıxdı. Səhəri gün «Şəki fəhləsi»ndə belə başlıqla bir məqalə verdim: «Alçaqlar cəzalandırılmalıdır». Təsəvvür edin ki, nə bomba düşdü. Məni çağırdılar büroya. Üçüncü katib dedi ki, Şirməmməd, Şirməmməd deyirlər, nə düşmüsən ortaya, belə tənqidi yazılar yazırsan. Get redaktora de, səni işdən azad eləsin, müəllimliyini elə. Redaktorum da cəbhəçi idi, döşü orden-medalla dolu. Götürdü zəng elədi Mərkəzi Komitənin mətbuatla bağlı şöbəsinə, rayona bir haray düşdü ki, gəl görəsən. Amma mən məqsədimə nail oldum.

* * *

1948-ci ildə tələbəyəm, həm də universitet qəzetində redaktor müaviniyəm. Dövlət imtahanı prosesi gedir. Feyzullah Qasımzadə də sədrdir. Baxdım ki, uşaqlara «şparqalka» daşıyırlar. İmtahan axşam olduğundan, «şparqalka»ları keçirmək üçün işıqları söndürdülər, «şparqalka»ları yerləşdirəndən sonra yenidən yandırdılar. Pənah Xəlilovgilin, Qasım Qasımzadəgilin qrupu idi. Raifə Həsənova da o vaxt həmin kursda oxuyurdu, həm də universitetin komsomol komitəsinin katibi idi. Mən bunu Feyzullah Qasımzadəyə dedim, durdu uşaqların hamısını auditoriyadan qovub çıxardı, «şparqalka»ları da yığdı. R. Həsənova məni çölə çağırdı. Dedi ki, uşaqları satma. Mən bu barədə məqalə yazdım. «Molodyoj Azerbaydjana» qəzetində mənim bu yazım çıxdı. «Vrednaya pomoş». Karikatura ilə vermişdilər. At şəklində «şparqalka»dır, tələbələr bu atı miniblər, Raifə Həsənova da onu dartır. Universitetdə bir top atıldı ki, komsomolu biabır ediblər, məsələ MK-ya gedib çatıbdı. Məsələmi partiya iclasına çıxardılar. O zaman da «soyuq müharibə» vaxtı idi. Hər yerdə «şpion» axtarırdılar. Bizim bir partiya tarixi kafedrasının müdiri var idi, Səlimov. Bizim də müəllimimiz idi. Dedi ki, bəlkə onu öyrədən var. Dedim bəli, məni öyrədən var. Dərhal ortada bir sakitlik yarandı. Dedim, məni bax bu Məmməd müəllim öyrədib. Dedilər necə yəni? Dedim, o mənə partiya tarixindən dərs deyəndə öyrədib ki, düz danışın, oğurluğa qarşı mübarizə aparın. Mən də aparıram. Sinifdə ayrı şeylər öyrədir, indi isə tamam başqa şeylər danışır. Beləliklə də, vəziyyətdən çıxdım. Rektor da məni müdafiə elədi, kafedra da.

* * *

Məni hələ ömrümdə heç kəs məhkəməyə verməyib. Çünki mən heç kəsi təhqir eləməmişəm. 1954-cü ildə Moskvada aspiranturanı qurtarıb gəlmişəm, indi mənə mənzil lazım idi ki, oturub işləyim. Az qala 10 dəfə o vaxt Mərkəzi Komitənin birinci katibi olan İmam Mustafayevə teleqram vurdum, cavab gəlmədi. Sonuncu teleqramımda yazdım ki, «MK-nın katibi cənab İmam Mustafayevə. Mən sizə cənab deyə müraciət edirəm. Çünki belə kommunist yoldaşlığı olmaz. Siz yoldaş deyilsiz, cənabsız, ağasız». Məni çağırdılar Büroya ki, bəs sən təhqirə yol vermisən. Dedim ki, bilirsiniz nə var, mən sizə on teleqram vurmuşam, onlarca məktub yazmışam, bir dənə cavab

vermirsiz. Amma görürsünüz bir dənə «cənab» yazmışam, məni bura çağırmısız. Elə mən də bunu istəyirdim ey. Yolunu tapmışam buraya necə girmək lazımdır. İndi «cənab» sözünü deyirsiniz, ona görə üzr istəyirəm, amma mənim ev məsələmi həll eləyin. İmam Mustafayev götürdü «Baksovet»in sədrinə zəng vurdu ki, bu cavanlar gediblər, Moskvada oxuyub gəliblər, müdafiə eləyiblər, bunlara bir otaq vermirsən, bunlar da bizi təhqir edirlər. Biri mənim yanımdadır, göndərirəm, onun məsələsini qısa bir müddətdə həll elə. Bir həftə keçməmiş bax mənə bu evi verdilər. Necə deyərlər, bu evi «cənab» deyib almışam.

Bilirsiniz, gərək adamın müdafiəçiləri ola. Mən o «cənab» sözünü yazanda universitetin rektoru Məmmədəliyev idi, o məni müdafiə elədi. Demişdilər onun partiya məsələsini müzakirə eləyin. Gətirdilər fakültədə mənim partiya məsələmi qoydular. Bir adam mənim əleyhimə çıxmadı. Gərək nüfuzun ola. Müdafiəçisi olmayan adam meydana girməz, onu bil. Kim cəsarətli yazmaq istəyirsə, o gərək nəyəsə arxayın ola. Özünü müdafiə eləməyi bacara. Digər tərəfdən də təhqirə keçmək olmaz. Bu qədər tənqidlər yazmışam, məni bir dəfə də olsun məhkəməyə verməyiblər. Gərək məsələnin kökünü biləsən. Problemi əxlaqi, mənəvi, hüquqi cəhətdən elə işləyəsən ki, tutmağa yer qoymayasan.

* * *

Mən həmişə bizim jurnalistika tarixini araşdırmışam. Kişilər var ki, bunun əsasını qoyublar. Bunları dəqiq bilməyəndə, ənənə qana daxil olmayanda vəziyyət çətin olur. Millətə xidmətin yolunu bilmək lazımdır. Millət tarixini bilməsə, millət kimi formalaşa bilməz. Kim desə ki, çətin oldu, mən millətə qulluq eləyə bilmədim, səhv eləyir. Gərək hər dövrdə onun yolunu tapasan. Mənim son dövrlər jurnalistika tariximizlə bağlı iki kitabım çıxıb, indi isə bir yeni kitabım çıxır. Mənim əlimdən bu gəlir. Mən bu kitabları əsasən satmıram, kitab qədri

bilənlərə müftə verirəm. Bir var nərd oynayasan, təsbeh çevirəsən, bir də var işləyəsən. Rəhmətlik Qulam Məmmədli mənimlə dost idi. 94 yaşında mənə müsahibə verdi. «Molla Nəsrəddin» haqqında elə şeylər danışdı ki... Baxın, nələr yazıblar bu böyük kişilər. Əhməd bəy Ağayev: «Qafqazı bəlaya salanlar kimlərdir?» «Kaspi» qəzeti, 1905-ci il. Bu böyük kişinin öz vətənində bir kitabı belə dərc olunmayıb. Türkiyədə 17 kitabı çıxıb. A kişi, bunu niyə çap eləmirsiniz? Hər polis rəisi bir kitab buraxır. Dediyim odu ki, gərək tarixi mənalandırmağı bacarasan. Milli mənafe baxımından məsələnin qoyuluşunu biləsən.

* * *

Mən qəzet redaktoru deyəndə xatırlayıram Həsən bəy Zərdabini, Şahtaxtinskini; 8 dil bilirdi, Baxıram Əhməd bəy Ağayevə, «İrşad» qəzetini buraxırdı, «Sarbonno» universitetini bitirmişdi. Yeddi dil bilirdi, əjdaha idi. Baxıram Əli bəy Hüseynzadəyə, 19 yaşlı Məmməd Əmin Rəsulzadəyə, 20 yaşlı Üzeyir Hacıbəyova. «Bir xanım əfəndinin bizlərə hüsnü təvəccöhü» yazısını oxuyanda adam öz-özünə xəcalət çəkir ki, məndə niyə belə bir qələm yoxdur. Bu gün bizdə belə polemika istedadı, qabiliyyəti olan azdır. Cümhuriyyət dövründə Azərbaycanda 1 milyon 800 min adam yaşayırdı. Cəmi 100 adamın ali təhsili var idi, onlardan yalnız 62-si Müsavatı dəstəkləyirdi. Lakin bu 62 ziyalı dövlət yaratdı. Hər bir ziyalının xalq içində böyük hörməti var idi. İndi Azərbaycanda 350 min nəfər ali təhsili olan adam var. 1500-ü elmlər doktoru, 8 mini elmlər namizədidir. Qarabağı qoruya bilmədik. Amma o 62 nəfər ermənin atasını yandırdılar, Qarabağı aldılar.

* * *

Jurnalistin siyasi mədəniyyəti hər deyən yazıçıda ola bilməz. Jurnalistlər günün tarixini yaradanlardır, tarixçilər ilin.

Uşaq yatanda böyüyür, jurnalist ayıq olanda.

* * *

Bizi irəli getməyə qoymayan düşmənçilik hissidir. Kim kimin əleyhinə tənqid deyirsə, onu qan düşməni hesab edirlər. Biz tənqidə öyrəşməmişik. Lakin tərifi sevirik. Kim yaşadığı cəmiyyəti yaxşı tanımırsa, ondan jurnalist olmaz. Gərək yaşadığın cəmiyyəti yaxşı tanıyasan, hansı qruplar var, hansı meyllər var, bizdə hələ bizi birləşdirən milli ideologiya yoxdur. Sement olmasa, binalar necə tikilə bilər, daş daşın üstündə necə dayana bilər? Sement milli ideologiyadır. Bu ideologiyanı yaratmaq üçün gərək jurnalistlərimiz də çalışsınlar.

* * *

Bu qədər hakimiyyətin ünvanına tənqidi şeylər yazmışam. Elə şeylər yazmışam ki... Heydər Əliyev oxuyurdu. Mənə prezident təqaüdü veriləndə Əflatun (Əflatun Amaşov - red), Cahangir (Cahangir Məmmədli - red), Qulu (Qulu Məhərrəmli - red) prezidentə yaxınlaşıblar. Təşəkkür ediblər ki, sağ olun, bizim müəllimimizə belə təqaüd vermisiniz. Deyib ki, mən onu sizdən də qabaq tanıyıram, verilişlərinə də qulaq asmışam, yazdıqlarını da oxuyuram. Gərək ləyaqətini və təmsil etdiyin qəzetin ləyaqətini saxlayasan. Heç kəsin ləyaqətinə toxunmaq olmaz. İkincisi də, gərək bildiyin işə girişəsən də.

* * *

Mətbuat Şurası təzə yaranıb. Biz adətən təzə yaranan uşaqdan müdriklik istəyirik. Bunun hələlik nə məzhəbi məlumdur, nə də ümumi xətti. Elə fikirləşməyin ki. orada mən olsam, bunlar məlum olacaq, xeyr. Şura təzə yaranıb. Bunun formalaşması üçün gərək hamımız kömək eləyək. Bir Amaşova, ya beş-altı adama deyəsən ki, Avropa tipli Mətbuat Şurası yarat, ölkədə bu vəziyyət yoxdu axı. MŞ-nin mətbuatın 130 illiyində gördüyü işləri demək lazımdır. Birdən-birə 35 adama «Əməkdar

jurnalist», 35 nəfərə «Əməkdar mədəniyyət işçisi» adı verdilər. 30 qəzetin hər birinə 10 milyon manat pul ayırdılar.

* * *

Adamın təbiətində gərək xeyirxahlıq ola. Jurnalistin ki təbiətində sancmaq oldu, o redaksiya batdı. Hara getdi dava çıxarıb gələcək. Nə yazsa, altından su çıxacaq. Çünki təbiətində sancmaq var. Jurnalist gərək xeyirxah ola, yaxşını görməyi bacara. Yeniliyi görməyi bacara. Bu dünyada yeniliyi görməkdən çətin şey yoxdur.

* * *

Siz qəzet çıxarırsınız, amma bu qəzetlərin əksəriyyəti ölkə qəzetləri deyil, ancaq Bakı qəzetləridir. Ölkənin həyatı o qəzetlərdə yoxdur. Elə şeylər yazmaq lazımdır ki, onlar sadə camaatı maraqlandırsın, onların dərdlərini desin. Mən Şəkidə olanda bizdə bir Vay-Vay kəndi var. Axşam maşına minib getdim bu kəndə. Bilirəm ki, kənd yerlərində axşam saat 7-dən sonra xörək yeyirlər. Öyrəndim ki, bu 27 evdən yalnız 4-də ət xörəyi var, amma hər evdə 3-4 uşaq var. Bir var deyəsən ümumi vəziyyət belədir, elədir, amma bir də var deyəsən ki, 27 qapı döydüm, cəmi 4 evdə ət xörəyi var idi. Şəkidə vaxtilə hər məhlənin hamamı var idi. İndi Şəki kimi bir ra-yonda cəmi bir hamam var. Sən get məktəbdə uşaqların başını həkim müayinəsindən keçir, gör nə qədər bit tapılır. Aylarla yox ey, ildə bir dəfə - iki dəfə yay olur, çimirlər, ya çimmirlər. Niyə bu problemi qoymurlar, problemdir ey, millətin təmizliyi problemi. Hər uşaq qoltuğunda bir odun parçası aparır məktəbə, çünki istilik sistemi yoxdur. Mövzu budur ey. Biz hər şeydən danışırıq. Amma millətin əsl problemlərini yazmaq lazımdır. Bunları yazmağa vətəndaş qeyrəti lazımdır.

Kəmalə Quliyeva, Mübariz Aşırlı
«Şərq» *qəzeti, 14 iyul 2007-ci il*

MÜƏLLIMLƏRIN MÜƏLLIMI

Təmizlik məktəbinin binasını kimlər uçurtdu? Azərbaycan mətbuatında yazılmamış qanunlar, dəyişilməz streotiplər var. Bayramlarda, peşə bayramlarında, yubileylərdə, anım günlərində növbətçi yazılar yazılır. Sırağagün də belə oldu; mətbuat işçilərinin bayramıydı, qəzetlər bu mövzuya geniş yer ayırmışdılar. Bizsiz keçən tədbirlərdən, mükafatlandırılmalardan, qəbullardan hazırlanan informasiyalar, portret yazılar, xatırlamalar, təbriklər bolluğuydu.

Rəsmi mətbuat YAP-ın və Milli Məclisin mətbuat xidmətinin keçirdiyi tədbirləri işıqlandırmaqla yetərləndi - olanlara Azərtacın gözüylə baxdı. Qalanlar yada düşmədi. Bir də iki rəsmi qəzet görməmişlik edib öz müxbirlərinin «Zərdabi» mükafatı aldığını yazdı, o biri mükafatçıları saya salmadılar. Əslində ən azından etika xatirinə bütün mükafatçılar təqdim olunmalıydı. Oxucular az-çox gərəkən informasiyanı müxalifət mətbuatından ala bildilər. İrili-xırdalı, iqtidarlı-müxalifətli yazıların arasında «Respublika» qəzetində dərc olunmuş iki yazı ürəyimə yatdı, yəni sevindirdi (təbii, bu mənim subyektiv fikrimdir). Müəllimlərimiz - SEVİMLİ Şirməmməd Hüseynov haqda Cahangir Məmmədli, HÖRMƏTLİ Tofiq Rüstəmov barədə Ələsgər Cabbarov sanballı yazı yazmışdı. Yazının sanballı əslində qəhrəmanların özündə - tutumlu, qos-qoca adsanlarında, təmizlik çəkisinin ağır-batmanlığındaydı.

Hörmətli Tofiq müəllimi 50 ildən çox müəllimlik stajı olan Şirməmməd müəllimlə tam bir sırada görməsəm də, hər ikisi ildə bir yol - Milli Mətbuat günü yox, daha tez-tez xatırlanmağa haqqı çatan, nəsillərə örnək ola biləcək adamlardır. Tofiq müəllim dünyasını dəyişib, min rəhmət! Son zamanlar Şirməmməd müəllim mətbuata az-az çıxır, efirdə görünmür, nahaq. Əslində müəllimlərimizin hər ikisi ikiyə bölünmüş qəzet səhifəsinə yox, bütöv səhifəyə layiqdilər. Sovet jurnalistikasının dəst-xətti aydınca bilinən hər iki yazı müəllifinə mənim də müəllimlərim olmuş bu ləyaqətli insanları heç olmasa peşə

bayramlarında yada saldıqları üçün təşəkkür edirəm. Ələsgər müəllimlə şəxsi tanışlığım yoxdur, yazdıqlarıyla yaşadıqları, həyat tərzi, baxışları uzlaşır-uzlaşmır, üst-üstə düşür-düşmür bilmirəm. Amma Cahangir müəllimin yazısında razılaşmadığım məqamlar var, açıqlanmalıdır.

Bu gün BDU-nun jurnalistika fakültəsində dərs deyən müəllimlərin adını çəkən müəllif yazır: «Şirməmməd müəllimin himayədarlığı ilə fakültədə yer tutmuşuq». «Yer tutmuşuq» ifadəsini özüm düşündüyüm anlamda qəbul edib, fikri doğru saymıram. Şirməmməd müəllim tələbələri «alıcı quş dimdiyindən bəllidir» prinsipi ilə dəyərləndirən, milli düşüncəyə, ləyaqətə, doğruluğa, savada, istedada önəm verən, ikiüzlüyə nifrət edən insanlardandır. Adam sərrafıdır, uzaqgörəndir, kadr seçimində səhv edə bilməzdi. Onun uzaqgörənliyi yazıda da təsdiqini tapır: «Sosializm yarışını genişləndirib axırda partladacağıq», «26-ların Azərbaycana vurduğu zərbəni», «Bütöv Azərbaycan ideyası» və s. örnəklər gətirilir. Əlli il sonranı görən müəllim otuz il sonranı görməyə, hansı tələbənin gələcəkdə hansı əməllərin yiyəsi olacağını bilməyə bilməzdi. O hər zaman layiq olanlara himayədarlıq edib, heç bir halda vəzifə, maaş, ad, təqaüd üçün çalışanlara dəyər verə bilməzdi. Cahangir müəllim İctimai Televiziya və Radio Yayım Şurasına başçılıq edərkən millətin gerçək İctimai Tv arzusunu necə gözündə qoyduğunu, nələrə göz yumub, nələrə, kimlərə meydan verdiyini unudubsa, biz unutmamışıq. Onu zamanında müəllimləri yaxşı tanıdığı kimi tələbələri də pis tanımayıb.

Şirməmməd müəllim ömrü boyu haqqı müdafiə edib, yaşlaşıb hələ də dəyişməyib. «Müəllim» adı belə insanlarla ucalır, belə insanlar haqqı-nahaqqa dəyişənlərə himayədarlıq edə bilməzlər. Şirməmməd müəllimin o zamankı bəzi gənc müəllimlərdən nə qədər şikayətçi olduğunu yaxşı xatırlayıram. Yersiz doğmalıq, ucuz yaxınlıq, yarınmaq adamı yazmamalı olduğu şeyləri yazmağa məcbur edir. «Şirməmməd müəllim həyatının bütün zamanlarında heç vaxt, heç kimə əyilməyib. Məsləkinə, müəllim adına, insan adına ləkə gətirən addım

atmayıb». Əslində belə yazılmalıydı: «Bizlərdən fərqli olaraq Şirməmməd müəllim...» «....jurnalistika fakültəsində təmizlik məktəbinin binasını qoyub». O binanı kimlər uçürub, Cahangir müəllim, bunu niyə yazmayıbsız? «... vətəndaş obrazı» - haqlı, yerində yazılmış deyimdir. Şirməmməd müəllim o insanlardandır ki, haqqında hansı epiteti işlətsən kimsə şaşırmaz, irad tutmaz, istehza etməz, «... dəqiq, məsuliyyətli, namuslu...» bunları yazmağa da adamın gərək haqqı çatsın. Cahangir müəllimin qələmindən çıxan, hətta Şirməmməd müəllim barədə yazılan yazının sonunda belə İlham Əliyevin adı çəkilməsəydi şaşırardım. Onda yazının müəllifinə qarşı şübhə yaranardı. Başlanğıcda Heydər Əliyevin xatırlanmamasına təəccüblənmişdim, ona görə.

Əgər oxuduqlarımın daxili tələbatdan, tələbə müəllimin müəlliminə sayğısından yarandığına inansaydım, bu yazını yazmazdım. Əks düşüncədə olub susqunluqla yanaşsaydım, özümü Şirməmməd müəllimin tələbəsi adını daşımağa layiq bilməzdim.

«Azadlıq»ın oxucusu:
İ.Sadıqov

«Azadlıq», 24 iyul 2008

AZƏRBAYCAN MƏTBUATININ AĞSAQQALI ŞİRMƏMMƏD HÜSEYNOV

«Yaradıcılıq məktəbi» anlayışı özündə çox dərin elmi, nəzəri, praktik mahiyyət daşıyan, ifadə etdiyi sahənin öz ətrafında davamçılarını yetişdirən yaradıcılıq məzmunu kəsb edir. Tarixdən bizə tanış olan yaradıcılıq məktəbləri ədəbi-bədii, elmi sahədə özünə qədər görünməmiş orijinal keyfiyyətə malik məqamlarla şərtlənir. Məktəb o qədər orijinal, o qədər dəyərli və o qədər praktik olmalıdır ki, onun yüzlərlə, bəlkə minlərlə şagirdi, deməli, davamçısı olsun. Bir də biz həmişə ədəbi məktəb deyəndə onun tarixi sınaqlardan çıxmasını, zamana, epoxaya sinə gərərək sabaha ünvanlandığını da mütləq nəzərə alırıq. Məktəbin yaradıcısı heç vaxt məktəb yaratmaq iddiasında olmur. O, sadəcə, təmsil etdiyi sahənin ən mükəmməl bilicisi, ən istedadlı yaradıcısı kimi taleyin axarı ilə irəliləyərək iddiasız-filansız şəxsiyyət timsalında bütöv bir yaradıcı nəslin önündə getməli olur. Belə şəxsiyyətlər yaradıcı olmaqla, həm də mütləq müəllim missiyası daşıyırlar. Amma bu yerdə «MÜƏLLİM» sözü mütləq böyük hərflərlə yazılmalıdır. Və bu böyük hərflər MÜƏLLİM-in böyüklüyünü ifadə etmək üçün Tanrının verdiyi imkandır.

Titullarını təqdim etməyə ehtiyacı olmayan Şirməmməd Hüseynov belə yaradıcı şəxsiyyətlərdəndir və məhz bu keyfiyyətə malik müəllimlərdəndir.

İndi mən yeni abzası çox basmaqəlib bir cümlə ilə başlayacağam. Ona görə «basmaqəlib» ki, bu cümləni oxucu çox eşidib, çox oxuyub.

Tale Şirməmməd müəllimə çətin, lakin çox şərəfli bir ömür qismət eləyib. Şirməmməd müəllim Şəkidə kasıb bir ailədə doğulub. Şəkinin 2 nömrəli orta məktəbinin VI sinfində oxuyanda onda şeir söyləmək istedadı, elmə, biliyə həvəs oyanır. On yeddi yaşında Şəki Şəhər İkiillik Müəllimlər institutunun fizika-riyaziyyat fakültəsinə daxil olur. Sonralar

tamam başqa istiqamətdə - həyatının mənasını tapdığı jurnalistika sahəsində çalışanda həmin bu «fizika-riyaziyyat» onun çox köməyinə gəlir: riyazi təfəkkür Şirməmməd müəllimə həm öz tədqiqatlarında, həm də sözündə, əməlində riyazi dəqiqlik gətirir.

Ş.Hüseynov bu institutu bitirəndən sonra Şəkidə və Zaqatalada kənd məktəblərində iki il müəllim işləyir.

Tanrı onun alın yazısına böyük bir şəhər yazmışdı: Bakı şəhəri. Bir də Tanrı onun alın yazısına elm və universitet auditoriyası kəlmələrini də əlavə eləmişdi. Bu alın yazılarının gerçəkləşməsi o zamankı Nuxanın «Nuxa fəhləsi» qəzetindən başlayır. Bu fizik və riyaziyyatçı müəllim geniş auditoriyaya ilk sözünü bu qəzetdə işlədiyi günlərdə deyib. Və onun bu günə kimi bağlandığı jurnalistika məhz «Nuxa fəhləsi»ndən başlayır. İkillik Şəki İnstitutu, fizika-riaziyyat... Şirməmməd Hüseynov bu çərçivəyə sığmaq üçün doğulmamışdı. İyirmi yaşlı bu cavan kənd müəlliminin - «Nuxa fəhləsi» qəzeti müxbirinin xalqa deyiləsi sözü vardı. Bu sözü demək üçün rəsmi status də gərək idi. «Nuxa fəhləsi»nin müxbiri Bakıya - Azərbaycan Dövlət Universitetinə gəlir. Filologiya fakültəsində lap yenicə açılan jurnalistika şöbəsinə qəbul olunur. Lap elə ikinci kursdan universitet qəzeti redaktorunun müavini təyin olunur. Jurnalistika şöbəsinin ilk məzunlarından biri olan Ş.Hüseynov 1950-ci ildə Moskva Dövlət Universitetinin Aspiranturasına qəbul olunur.

Moskva Dövlət Universiteti jurnalistika fakültəsində 1962-ci ildən bu günə kimi dekan vəzifəsində işləyən, müasir jurnalistikanın dünyaşöhrətli nəzəriyyəçisi, Amerika ədəbiyyatı mütəxəssisi Y.N.Zasurski öz aspirantura yoldaşı Ş.Hüseynov haqqında belə deyir: «Şirməmməd hələ aspirant illərindən Azərbaycanın böyük patriotudur. O, elmi işində də, həyat qaydalarında da, dünya baxışında da həmişə azərbaycanlıdır. Biz araq içməyə gedəndə, başqa əyləncələrə sərf etdiyimiz vaxtda Şirməmməd yataqxanada daha bir kitabı oxuyub başa çatdırırdı».

1954-cü ildə o, Moskvadan Azərbaycan Dövlət Universitetinə qayıdır. Jurnalistika kafedrasında ilk elmlər namizədi kimi işə başlayır. Əvvəlcə baş müəllim, dosent vəzifəsini tutur. Bir azdan filologiya fakültəsində dekan müavini, 1969-cu ildə yaranan jurnalistika fakültəsinin ilk dekanı, mətbuat tarixi kafedrasının müdiri, bundan sonra həmin kafedranın professoru...

Ş.Hüseynov dəfələrlə Moskvada, Praqada, Türkiyədə, Gürcüstanda, Qazaxıstanda... jurnalistikanın problemlərinə dair elmi konfrans və simpoziumlarda məruzələr etmişdir. İki dəfə «Qızıl qələm» mükafatına, H.Zərdabi, Y.Məmmədəliyev, M.Ə.Rəsulzadə adına mükafatlara layiq görülüb. Respublikanın əməkdar jurnalistidir.

Ömrünün ahıl vaxtına gəlib çıxmış Ş.Hüseynovun bioqrafiyasının bəzi məqamları bunlardır. Əlbəttə, qısa teleqraf sətirləri ilə bütün bunları bir neçə səhifəyə sığışdırmaq o qədər də çətin deyil. Lakin bu yolun mahiyyətini, xarakterini ifadə etmək çox mürəkkəb vəzifədir.

Bu gün Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində çalışan bütün kollektivin, o cümlədən bu sətirlərin müəllifinin bir xoşbəxtliyi də var: biz hamımız Ş.Hüseynovun tələbələriyik. Bütün Azərbaycanda peşəkar jurnalistlərin əksəriyyəti Ş.Hüseynovun tələbəsi olmuşdur. O, hər kəsdən əvvəl müəllimdir – jurnalistlərin müəllimi. Ona görə də onun şəxsiyyətindən bəhs edərkən, ilk növbədə müəllimliyindən danışmaq lazımdır.

Ş.Hüseynovun, yeni və dəbdə olan terminlə desək, müəllimlik imici klassik mahiyyət daşıyır. Ə.Haqverdiyev, A.Şaiq, Y.Məmmədəliyev və bu kimi klassik müəllim keyfiyyəti ona da xasdır. Bu keyfiyyətin başında azərbaycançılıq dayanır. Onun azərbaycançılığı H.Zərdabi, M.F.Axundovdan, Mirzə Cəlildən, Rəsulzadədən, Ü.Hacıbəylidən gəlir. Sovet hakimiyyətinin ən qızğın ideoloji çağında universitet auditoriyasında onun iki məqsədi vardı: tələbəni Azərbaycana məhəbbət ruhunda böyütmək, tələbəni peşəkar jurnalist görmək.

Əlbəttə, hər müəllim istədiyini heç də hamıya təlqin eləyə bilmir. Amma Şirməmməd müəllimin auditoriyasından çıxıb

vətəndaş olmamaq mümkün deyil.

Sovet dövründə «Kollektiv sosializm yarışını genişləndirərək dövlət planını ikiqat yerinə yetirmişdir» tipli dəbdə olan basmaqəlib jurnalist cümləsinə qarşı Şirməmməd müəllim hələ o zaman tez-tez deyirdi: «Bu sosializm yarışını çox genişləndirib, axırda partladacaqlar». Auditoriyada «Sovet adamı» anlayışının absurdluğunu sübut edirdi. Ədəbi ictimaiyyətin, tarixçilərin vəsf etdiyi «26-lar»ın Azərbaycana vurduğu zərbələri üstüörtülü eyhamlarla bizə çatdırırdı. Mətbuat tarixini, mədəniyyət tarixini Təbrizdən başlayırdı, mühacir mətbuatının yaradıcılarından söz açırdı.

Şirməmməd müəllim istedadlı tələbəni aşağı kursdan öz nəzarətində saxlayır və o tələbə mütləq axırda ya aspiranturada, ya da fakültədə qalmalıdır. Mərhum professorlar Qulu Xəlilli, Famil Mehdi kimi ustadlar onun auditoriyadakı tapıntıları idilər.

Bu gün fakültənin dekanı, dosent Y.Əlizadə, beynəlxalq jurnalistika kafedrasının müdiri N.Əhmədli, uzun müddət fakültənin dekanı olmuş dosent A.Rüstəmov, mən - C.Məmmədli Şirməmməd müəllimin himayədarlığı ilə (mən bu yerdə «himayədarlıq» sözünü qürur duyaraq işlədirəm) fakültədə yer tutmuşuq.

Ş.Hüseynov həyatının bütün zamanlarında heç vaxt heç kimə əyilməyib. Çox çətin anlar da yaşayıb, bəzən əlində böyük imkanlar olub, amma məsləkinə, müəllim adına, insan adına ləkə gətirən bir addım atmayıb. Onun təmiz və saf dünyası universitet həyatına sirayət edib və ən azı jurnalistika fakültəsində təmizlik məktəbinin binasını qoyub. Bu böyük müəllimin böyük də dostları var. Zəmanəmizin ən böyük şairi Bəxtiyar Vahabzadə alim-publisistin «Müstəqilliyin çətin yolu... Biz hara gedirik?» kitabına yazdığı ön sözdə belə deyir: «Mən bu kitabda toplanan məqalələrin böyük əksəriyyətini vaxtilə müxtəlif qəzet səhifələrində oxumuşam. İndi toplu halda oxuyanda toxunulan məsələlərlə və bu məsələlərə müəllif münasibətilə tanış olduqca bütün bu yazıların içindən keçən vahid bir xətt görürəm. Bu

xətt bundan yazan müəllifin vahid prinsipi, fikri və əqidəsidir. Bu prinsip, bu baxış və bu əqidə məqalədən-məqaləyə dərinləşir və 50 ilə yaxın bir müddətdə tanıdığım əqidə qardaşım Şirməmməd Hüseynovun vətəndaş obrazını tamamlayır. Şirməmmədi yaxından tanıyan çox yaxşı bilir ki, onu ömrü boyu tutduğu yoldan, tapındığı əqidədən qoparmaq, heç olmasa, bir balaca laxlatmaq belə mümkün deyil. O, inandığına inanır, nifrət etdiyinə sona qədər nifrət edir, sevdiyini isə tərəddüdsüz sevir. Bir sözlə, qələmindən çıxan bütün yazılarının arxasından onun sınmaz, dönməz, əyilməz şəxsiyyəti boylanır».

Ş.Hüseynov tədqiqatçıdır. Sözün həqiqi mənasında tədqiqatçıdır. Riyazi dəqiqliyə və bir də vətəndaş qayəsinə söykənən tədqiqatçı. O, 800-dən çox elmi-publisist məqalənin, 15-dən çox kitab və monoqrafiyanın müəllifidir. Sovet senzurasının ən qatı nəzarət çağında belə o öz tədqiqatlarında Azərbaycan vətəndaşı olduğunu, bu əsərləri gələcək nəsillərə ünvanladığını heç vaxt unutmayıb.

Ayrı-ayrı müəlliflərlə birgə yazdığı kitablarda onun öz üslubu, öz xətti, dəqiqliyi, məsuliyyət hissi həmişə ayrıca hiss olunub. Moskvanın «Mısl» nəşriyyatında iki dəfə (1972, 1975) nəşr olunan «Mnoqonasionalnaya sovetskaya jurnalistika» kitabında onun Azərbaycan mətbuatı tarixinə həsr olunan böyük həcmli məqaləsi xüsusi çəkisi və milliliyə bağlılığı ilə seçilirdi.

Şirməmməd Hüseynovun tələbələri onun seminarlarında ədəbiyyat qıtlığı hiss etmirlər. Onun mətbuat tarixi ilə bağlı monoqrafiyaları, məqalələri kifayət qədər tələbənin köməyinə çatır.

Ş.Hüseynov müəllimlik və tədqiqatçılığı, müəllimlik və publisistliyi öz yaradıcılığında sinxron ifadə edir. Onun öz sözüdür: «Jurnalistikadan dərs deyib publisist olmamaq necə mümkündür? Özün mükəmməl tədqiqatçı olmasan, tələbəni bu işə necə istiqamətləndirə bilərsən?» Şirməmməd müəllim bu sahələrin hər birində nümunədir. O, ömrünün bütün çağlarında fəal olub və o fəallığı səksən yaşında da eyni ehtirasla davam

etdirir. Söz və mətbuat azadlığına qənim kəsilən sovet senzurası şəraitində belə həmişə öz obyektiv elmi, publisistik sözünü deməyi bacarmış Ş.Hüseynovun ən məhsuldar yaradıcılıq çağı Azərbaycanın yeni müstəqilliyi uğrunda mübarizə tarixinə düşür. 1985-ci ilin aprelindən başlayan yenidənqurma, aşkarlıq və demokratiya şüarı nə qədər saxta və kosmetik xarakter daşısa da, Şirməmməd Hüseynov xalqa öz sözünü demək və onu müstəqilliyə səsləmək üçün bu məqamdan maksimum istifadə edənlərdən oldu. O, Türkiyəyə açılan qapıların ilk yolçularındandır. M.Ə.Rəsulzadənin bu ölkədəki siyasi fəaliyyətini, Azərbaycan mühacir mətbuatının Türkiyə səhifələrini ilk açan alimlərdən oldu. Ermənistanın Azərbaycana təcavüzünün ilk çağlarında ermənistanlı soydaşlarımızın vəziyyətilə tanış olmaq üçün birbaşa hadisə yerinə - Ermənistana yollandı. Bu hadisələri siyasi bucaqdan araşdıran Ş.Hüseynov Azərbaycan televiziyasında, radioda, mətbuatla cox böyük publisist işi gördü. Onun müsahibələri, ictimaiyyətlə çoxsaylı görüşləri, erməni xislətini klassik üslubda ifşa edən publisist yazıları o zamanın çox karına gəldi. Bu böyük və işgüzar yaradıcı fəaliyyət publisist alimin 1996-cı ildə nəşr olunan «Müstəqilliyin çətin yolu... Biz hara gedirik?» adlı fundamental elmi-publisist kitabında öz əksini tapmışdır. Bu kitab Ş.Hüseynovun bir alim - vətəndaş, bir publisist - vətəndaş kimi Azərbaycan problemləri ilə bağlı 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərindəki onlarca, yüzlərcə əsərinin yalnız bir hissəsidir. Adından da göründüyü kimi, bu əsər Azərbaycanın müstəqilliyi uğrunda mübarizə illərinin publisist, alim, vətəndaş fədakarlığının faktlarını özündə daşıyır.

Ş.Hüseynov son 25 ildə mətbuat tədqiqatçılığının çox mühüm və maraqlı bir üsulunu yaratmış və inkişaf etdirmişdir. O, Azərbaycan klassik publisistlərinin üzərinə qadağalar qoyulmuş, sovet dövründə yenidən çapına imkan verilməmiş əsərlərini arxivlərin, saralmış qəzet komplektlərinin dərin qatlarından cıxararaq özünün xüsusi və həm də heyrətamiz dərəcədə müasirləşdirilmiş şərhləri ilə yenidən oxucuya təqdim edir.

M.F.Axundovdan başlamış M.Ə.Rəsulzadəyə qədər gedən bir yolun ən gizli publisist anları onun qələmində yenidən dirçəlir və müasirlik, aktuallıq keyfiyyətini üzə çıxarır. Bununla da, tədqiqatçı Ş.Hüseynov publisistikanın yalnız yarandığı zaman üçün yararlılığı kimi bir stereotip müddəanın üstündən xətt çəkir və əsl publisistikanın həmişə aktual olduğunu sübut edir.

Ş.Hüseynov mətbuat tarixinin hər faktını deyil, xalqın həm dünəni, həm də bugünü üçün yararlı olan, nəsillər tərbiyə etmiş və nəsillər tərbiyə etmək gücünə malik əsərləri yenidən dirçəldir. H.Zərdabinin, Ə.Ağaoğlunun, Ə.Hüseynzadənin, C.Məmmədquluzadənin, M.Ə.Rəsulzadənin, Ü.Hacıbəylinin, C.Hacıbəylinin... və digər neçə-neçə publisistin əsərlərinin aktual ruhu onu ilhama gətirən sənət əsəri kimi qiymətləndirilir.

Ş.Hüseynov Azərbaycan müstəqilliyinə pay vermiş hər kəsin vurğunudur. Azərbaycan Xalq Cümhuriyyəti dövrünü və bu dövrün ictimai xadimlərini onun qədər sevən, onların publisistikasını onun qədər ehtirasla və elmi məntiqlə təhlil edən, təqdim edən ikinci bir araşdırıcı tapmaq çətindir. O, Xalq Cümhuriyyətinin ən böyük şəxsiyyəti M.Ə.Rəsulzadənin əsərlərini zərrə-zərrə toplamaq və nəşr etmək işində qəhrəmanlıq qədər böyük iş görmüşdür. Bu böyük öndərin əsərləri toplusunun iki cildi Ş.Hüseynovun təqdimi ilə oxucuların ixtiyarındadır. Qalan cildlər isə onun tərtibatında öz çapını gözləyir.

Ş.Hüseynov özü dəqiq, məsuliyyətli, namuslu tədqiqatçı olduğu üçün mətbuat tarixi ilə bağlı bütün araşdırmalara böyük tələblə yanaşır.

«Molla Nəsrəddin» jurnalının 1988-ci ildə təkrar nəşr olunan 1906-1907-ci illəri əhatə edən birinci cildində Azərbaycan sovet senzorları tərəfindən aparılan «ideoloji cərrahiyyə» əməliyyatına onun elə o zaman necə əsəbləşdiyinin ancaq şahidi olmaq lazım idi. Ü.Hacıbəyovun sovet dövrü nəşrlərində senzura təhriflərindən indi də yana-yana danışır və ədibin əsərlərinin yeni nəşrində onları aradan qaldırmağa kömək etmək zəhmətini də bir vətəndaş qeyrətilə öz üzərinə götürmüşdür.

Ş.Hüseynov yaratdığı, yaşatdığı bir kafedranın - mətbuat ta-

rixi kafedrasının professorudur. Bu kafedra onun sözü və məsləhətləri ilə, onun tədris metodikası və elmi-tədqiqatları ilə fəaliyyət göstərir.

Ölkə ictimaiyyəti, jurnalistika dünyası Şirməmməd müəllimin məhsuldar yaradıcılıq fəaliyyətini yüksək qiymətləndirir. Ş.Hüseynovun jurnalistikadakı elmi, publisistik fəaliyyətini yüksək qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ona şəxsi təqaüd verilməsi barədə sərəncam vermişdir.

Azərbaycan jurnalistikasında müəllimliyi, tədqiqatçılığı və publisistikanı yeni məktəb səviyyəsinə yüksəldən Şirməmməd Hüseynov yaradıcılığı peşəkar jurnalist nəslinin söykəndiyi ən etibarlı mənbə kimi qiymətlidir.

Cahangir MƏMMƏDLİ,
Bakı Dövlət Universiteti jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, filologiya elmləri doktoru.

«Respublika» qəz. 22 iyul 2008

VƏTƏNDƏN KƏNARDA, VƏTƏNHƏSRƏTLİ 28 MAY İSTİQLAL BAYRAMLARI

89 ildir ki, milli qeyrətli azərbaycanlılar 28 May istiqlal gününü əziz bayram kimi qeyd edirlər. «Bina yanar, dağılar, fəqət millət, istiqlaliyyət fikri, milli ruh ölməz, öldürülməz». Cümhuriyyətimizin yaradıcısı M.Ə.Rəsulzadənin 90 il bundan əvvəl söylədiyi bu kəlamını tarix təsdiq edir. Bolşevik rus kommunistləri və onların yerli əlaltıları 23 aydan sonra milli həqiqi demokratik Cümhuriyyətimizin varlığına son qoyub, istiqlal mücahidlərinin bir qismini cismən məhv edib, mühüm bir qismini mühacir etdilər. Lakin onlar heç bir zaman hürriyyət, istiqlal fikrindən ayrılmayaraq daima bu uğurda çalışıb mübarizələrini böyük və müqəddəs bir inamla davam etdirdilər. Azərbaycan mühacir mətbuatı bu barədə çox qiymətli tarixi yaddaş mənbəidir. Cümhuriyyətimizin 90 illik yubileyi ərəfəsində vətənhəsrətli istiqlal mücahidlərimizin 28 May istiqlal bayramını necə böyük məhəbbət və gələcəyə inam hissilə qeyd etdiklərinə dair bu mətbuat səhifələrində çox maraqlı yazılar var. Onlardan birini - 1929-cu ildə İstanbulda M.Ə.Rəsulzadənin baş redaktorluğu ilə nəşr olunan «Odlu yurd» məcmuəsinin 28 Mayın 11 illik yubileyinin dünyanın müxtəlif ölkələrində mühacirlər tərəfindən necə böyük sevinclə bayram edilməsinə dair dərc etdiyi yazıları oxuculara təqdim edirəm.

MİLLİ AZƏRBAYCAN BAYRAMI

28 Mayın Azərbaycan Cümhuriyyəti elani - istiqlalının 11-ci ildönümü olması münasibətilə milliyyətçi azərilər hər tərəfdə bu günü böyük bir ruh yüksəkliyi ilə qeyd etmişlərdir.

İSTANBUL

Keçən sənələrdə olduğu kimi, bu sənədə də İstanbulda yerləşən azərbaycanlılar «Odlu-yurd» idarəxanasında (əvvəlki illərdə «Yeni Kafkasiya» və «Azəri-türk») toplanaraq 28 May gününü

bərabərlikdə qeyd etmişlərdir. Azərilərdən başqa yerli türklərlə Türküstan, qafqasiyalı, ukraynalı dostlarımız da hazır bulunmuşlardır.

Bayram mərasimi yığıncaqdakı gənclərin bir ağızdan Azərbaycan istiqlal marşını oxumaqları ilə başlamış, marşdan sonra Azərbaycan Milli Şurasının rəisi, baş redaktorumuz M.Ə.Rəsulzadə bəy, ənənəvi nitqini irad edərək toplanışda hazır olan millətdaşları bu gün münasibətilə təbrik etdi və qonaqlara yığıncağa gəldikləri üçün təşəkkür etmişdir.

Emin bəy 28 May bayramını vətənhəsrətli qaçqınlarla bərabər istilaçı düşmənlərin müdhiş təqiblərinə baxmayaraq vətəndə qalaraq hər cür vasitələrlə qırmızı rus rejiminə müqavimət göstərən idealist azəri nəsli tərəfindən də qeyd edilməkdə olduğunu qeydlə istiqlal mücadiləsi səhifələri üzərində duraraq, bu mücadilənin müxtəlif xalq təbəqələri arasında görülən şanlı təzahürlərini dinləyicilərin nəzərində canlandırdı.

Bundan sonra natiq beynəlxalq siyasi vəziyyəti təhlil edərək, Rusiya daxilindəki iqtisadi, siyasi və mənəvi böhranı anladaraq, Sovetlər İttifaqında milli ixtilal hərəkatlarının genişlənmək yolunda olduğunu anladaraq Azərbaycan milli hərəkatının ən təbii müttəfiqləri və vuruş dostları olan Qafqaz, Ukrayna və Türküstan millətlərinin məclisdə hazır olan nümayəndələrini olduğu kimi, Şərq istiqlalçılığının böyük rəhbəri olan qardaş Türkiyə Cümhuriyyətini dəxi salamlayaraq dedi ki:

«Qəhrəman Türkiyənin nail olduğu istiqlal şərəfi eyni yoldan gedən bizlərə də müqəddərdir, 28 May bu vəd olunmuş günü bizə bütün vüzuh (aydınlığı) və parlaqlığı ilə xatırladan böyük bir gündür. Bu günün mislində hürr və məsud vətəndə yaşadığımız parlaq istiqlal anlarını nəzərimizdə canlandıraraq ondan aldığımız ilham ilə, hər türlü fədakarlığa hazır olaraq, istiqlala böyük bir əzm və ümidlə yürüyəlim. Yaşasın istiqlal!...» (alqışlar)

Nitqindən sonra Məhəmməd Əmin bəy istiqlal mücadiləsi uğrunda şəhid düşən qəhrəmanların xatirəsini yad etmək üçün

ayağa durmağı təklif edincə bütün məclis bir adam kimi ayağa qalxaraq, bir neçə dəqiqə sükut içində oldu.

Bu açılış nitqindən sonra gənclər tərəfindən hazırlanıb M.Emin bəyə təqdim edilən bayraq mərasimi məclisin təsviri mümkün olmayan çox həyəcanlı bir anını təşkil eyləmişdir. İpəkdən hazırlanmış olan bayrağı köksü üzərində sərili olaraq rəyasət kürsüsünə doğru yürüyən Dilşad xanımı Sürəyya xanım təqib edirdi. Sürəyya xanım bayrağın Emin bəyə təqdiminə bir müqəddəmə olaraq aşağıdakı nitqini çox səlis, həyəcanlı və canlı bir əda ilə söylədi: vəziyyətin xüsusiliyi ilə nitqin səmimiliyi birləşərək bütün salonu həyəcanlandırmışdı. Sürəkli alqış tufanı sakitləşdikdən sonra məclisdə hətta ağlayanlar belə görülmüşdür.

Sürəyya xanımın bu nitqini eynən dərc edirik:

«Möhtərəm Emin bəy!

Bu gün Azərbaycan tarixinin qaranlıq könüllərə istiqlal nurunu səpən, təmiz vicdanlara qurtuluş imanını təlqin edən ən fəyyaz səhifələrindən biridir.

Azəri gənci bu müqəddəs günün yüksəkliyini bütün qəlbi ilə yaşayır. Xain düşmən düz sinəmizdən vurdusa da, istiqlal üçün çarpan ürəklərimizi durdura bilmədi və durdura da bilməz. Bu gün bütün gənclik bir tək iztirablı qəlb kimi çırpınaraq, intiqam bəkliyor. Onun yeganə qayəsi, vətənimizi o qızıl pəncədən qurtarmaq, onu yenidən müstəqil yaşatmaqdır.

Bu gün bayrağımızı - məfkurəmizi təmsil edən, Sizə təqdim edərkən, qəlbimiz imanla doludur.

Əvət, xain düşmən o sevimli bayrağımızı endirməklə ürəyimizi yaraladı. Fəqət Azəri gənci yurdumuzun üzərində sallanan və şərəfsiz bir zəfərin saxta bir timsalı olan, o qanlı düşmən bayrağını endirəcək, üçrəngli sevimli bayrağını yenidən yüksəldəcəkdir.

O zaman biz də bütün cahana hayqıracığız ki:

- Azərbaycan yalnız və yalnız azərilərindir!

Yaşasın müstəqil Azərbaycanımız!...»

Emin bəy nitqdən duyduğu həyəcanla bayrağı Dilşad xanımın əlindən almış, qarşılıqlı söz demək istədiyi halda, bir an durmuş və təəssüratını gizlədilməyən bir qeyrətlə tutulduqdan sonra, şiddətli alqışlar altında bu sözləri söyləmişdir:

«İstiqlalımızla bərabər olaraq yaşadığımız məsud gündə «Bir dəfə yüksələn istiqlal bayrağı bir daha enməz!» - demişdim. İstiqlalımızın uğradığı müvəqqəti məğlubiyyəti əbədi məhv edilmə şəklində görən düşmən bu şüarı saymazlıqla qarşılar. Sürəyya xanımın istiqlalçı Azərbaycan gəncliyi adına bu ruhları tutuşduran müqəddəs həyəcanla gətirdiyi bu bayraq onlara verilmiş ən layiqli bir cavabdır. Əvət vətəndaşlar, əvət ey vətənin idealist gəncliyi, bayrağımız enməmiş, o imanlı Azəri gəncliyinin əlindədir, çox çəkməz o əl onu təkrar Azərbaycan üfüqlərində dalğalandırar. Yaşa şanlı bayrağınla, ey Azərbaycan gəncliyi!...»

Bundan sonra Türküstan nümayəndəsi Osman bəy əfəndi dəyərli bir nitqlə bu gün münasibətilə azərbaycanlı qardaşlarını təbrik eləmiş, bu böyük cidalda Türküstanın da bizimlə bərabər olduğunu bildirmişdir. Osman bəyin nitqi sürətli alqışlarla qarşılanmışdır.

Osman bəydən sonra Şimali Qafqaz adından Sait Şamil bəy əfəndi xitabətdə bulunmuşdur. Çox səlis bir türkcə və yüksək ruhla söylənən nitqini Sait bəy «Azərbaycanın səadəti bizim səadətimiz, onun fəlakəti isə bizim fəlakətimizdir. Yaşasın Azərbaycan!... Yaşasın Qafqasiya konfederasiyası! - sözləri ilə bitirdi və şiddətlə alqışlandı.

Sait bəydən sonra söz alan Ukrayna nümayəndəsinin orjinal nitqi gurultulu alqışlarla qarşılandı. Ukraynalının «türkcə bilmədiyimə təəssüf edirəm, rusca isə söyləmək istəməm» - müqəddiməsi Ukraynaca da olsa da məclisdəkilərlə nisbətən anlaşılmış, candan alqışlarını cəlb etmişdir. Belə bir müqəddimə ilə söylənən nitqin artıq tərcüməyə möhtac olmadığı aşkardır. Məlum idi ki, natiq Ukraynanın salamını Azərbaycana söyləyir və düşmənin müştərək olduğunu qeyd edirdi. Bunun üçün də alqışlanırdı.

Sonda «Odlu-Yurd» mühərriri Mirzə Bala bugün münasibətilə M.Emin bəy və idarəxana adına gələn təbrik teleqraflarını bir-bir oxuyur və hər oxuduqca alqışlanırdı. Teleqraflar aşağıdakı tərtiblə oxunmuşdur:

Parisdən - Nümayəndə heyəti adından Mir Yaqub bəydən;
Varşavadan - Mustafa, İsrafil və Cahangir bəylərdən;
Parisdən - Cəmiyyəti - xeyriyyə adından, rəis Leyla xanımdan·
Berlindən - İstiqlal komitəsindən;
Tehrandan - Milliyyətçi azərilər adından M.Əli bəydən;
Ankaradan - Azərilər adından Baykara bəydən;
Təbrizdən - M.Xulusi bəydən;
Rəştdən - Əlizadədən;
Trabzondan - Azəri mühacirlər adından M.Naki bəydən;
Amasiyadan - Azərilər adından Yasin bəydən;
Əskişəhərdən - H.A.Nuvi bəydən;
Trabzondan - Səməd bəy və Şahbal xanımdan;

Təbrik teleqraflarının oxunmasından sonra Emin bəy məclisdə olanlara təşəkkürlə toplantının rəsmi hissəsinin qurtardığını elan etdi, iştirakçıları mayın 30-na təyin olunan «Milli Azərbaycan gecəsi»nə dəvət etdi...

MİLLİ AZƏRBAYCAN GECƏSİ

Mayın 30-cu gecəsi «Unyon Fransez» salonunda «Odlu-yurd» məcmuəsinin təşəbbüsü və Rəsulzadə Məhəmməd Əmin bəyin sədrliyi ilə təntənəli bir «Milli Azərbaycan gecəsi» keçirildi.

Gecədə 600-ə yaxın dəvətli iştirak edirdi. Gecədə İstanbulda yaşayan bütün azəri ailələrilə bərabər Türkiyə türklərindən bir çox ailələr, professorlar, müəllimlər, tələbələr, mühərrirlər, Xalq Partiyası və Türk ocağı rəhbərlərindən bəziləri və digər şəxslər iştirak edirdi. Bunlardan başqa gecədə İstanbulda yaşayan türküstanlılar, kazanlılar, dağıstanlılar, gürcülər, ukraynalılar, iranlı azərbaycanlılar ailələri ilə, dost və qardaş millətlərə mənsub şəxslər dəxi və b. vardı.

Qonaqları qapıdan salona qədər bir neçə yerdə Azəri gənclərindən ibarət istiqlalçılar qarşılayır, salonun qapısında Azəri qızları qonaqların döşünə göy, qırmızı və yaşıl rəngli Milli Azərbaycan bayrağını taxırdılar, onlar həmçinin qonaqlara gecənin proqramını verirdilər.

Salon ağzına qədər dolmuşdu. Hətta ayaq üstə duranlar da vardı.

Saat 9-da pərdə açıldı və səhnədə yan-yana durmuş Türkiyə və Azərbaycan bayraqlarını görüncə xalq ürəkdən alqışlamağa başladı. Sima xanımın pianoda çaldığı və ayaq üstə dinlənilən «Türk istiqlal marşı» şiddətli alqışlarla qarşılandı, sonra 30 nəfərlik oğlan və qızlardan ibarət heyət «Azərbaycan istiqlal marşı»nı oxudu və eyni səmimiyyət, həyəcan və gurultulu alqışlarla qarşılandı.

Marşlardan sonra pərdə qapandı, təkrar açılanda səhnədə sıra ilə göy, qırmızı və yaşıl rəngli paltar geymiş balaca qızları: Süheyla, Gültəkin və Məlahət xanımları böyük bir məhəbbətlə alqışladılar.

Bundan sonra Mirzə Bala bəyin konfransiyəliyi ilə aşağıdakı tərtib və proqram üzərinə nömrələr göstərildi.

Sürəyya xanım səhnədə oğlanlı - qızlı bir heyət içərisində, Azərbaycan istiqlalı və mücadiləsini təsvir edən alleqorik gözəl bir şeir söylədi və son dərəcə bəyənildi. Xalid bəy Gültəkin bəyin «Anama» şeirini ifadəli oxudu. Gültəkin, Süheyla və Məlahət xanımlar «Bayrağa dua» rəqsini oynadılar. Rəxşəndə xanım «Bayrağım və istiqlalım» şeirini oxudu və alqışlandı. Həsən bəy tarda bir mahnı çaldı. Xor Azərizadənin «Vətən» şeirini söylədi. Bu şeir Dilşad xanım tərəfindən ikinci dəfə təkrar oxundu. Dilşad xanım ilə Fəxriyyə xanımlar «Vətən həsrəti» şeirini bayraqla rəqs edərək söylədilər və məclisdəkilərin çox xoşuna gəldiyi üçün bir daha təkrar etdilər. Xalid bəy «Türkün səsi» şeirini oxudu. Məmməd Fərza bəy segah oxudu. Kiçik Aliyə ilə kiçik Gültəkin «Mustafa Kamal» rəqsini oynadılar. Dilşad xanımın «Buz cəhənnəm»dən bir parça deklamasiyası son dərəcə müvəffəqiyyətli oldu.

Həmzə bəy tütəkdə son dərəcə gözəl bir Azəri havası çaldı, «Dağlar»ı oxudu. Məmməd Fərzalı bəy «Bayatı şiraz» oxudu. Dilşad xanım pioninada «Azərbaycan rəqsini» çaldı... Ondan sonra Azərbaycan rəqsini Gültəkin, Süheyla, Məlahət, Zərifə xanımlarla Əli bəy icra etdilər.. Xor «Qafqaz türküsü»nü söylədi, Həsən bəylə Rəhim bəylər bir yerdə «Şamili rəqsini» ifa etdilər.

Proqram bitdikdən sonra əlavə olaraq Həmzə bəy litsey arkadaşları ilə bərabər milli libasda rəqs etdilər...

Proqramın səhnə qismi bitdikdən sonra, tans, rəqs, tar gecə saat 3-ə qədər davam etdi. Salonda tansı Kamal bəy idarə edirdi. Səhnədə, salonda iştirak edənlərin əksəriyyəti Azərbaycan gəncləri idi. Xüsusilə, Qəmər, Sürəyya, Rəxşəndə, Sima, Ruqiyyə, Zibeydə, Dilşad, Fəxriyyə xanımlarla Məmmədəli, Səlim, Kamal, Həsən, Abbas, Hüseyn, İsmayıl, Süleyman, Kazım, Hamid, Məhəmməd, Rəhim, Əmirxan, Şərif bəylər müsamirənin müvəffəqiyyət və intizamını təmin edirdilər.

O gecə Azərbaycanı yaşadan, xatırladan çox səmimi bir gecə keçirməyə səbəb olan «Odlu Yurd» baş mühərriri Rəsulzadə Məhəmməd Əmin bəyə hər kəs təşəkkür edərək çox məmnun dağılışdılar.

PARİSDƏ

Azərbaycan istiqlal bayramı Azərbaycan nümayəndə heyəti tərəfindən tərtib edilən bir «Resepsiyon» vasitəsilə qeyd edilmişdir. Məclis Parisin məşhur mehmanxanalarından olan «Yutetsiya» salonunda olmuşdur. Parisdəki bütün azərbaycanlılar, Gürcüstan, Türküstan, Ukrayna, Şimali Qafqaz və Ermənistan nümayəndələri, həmçinin Azərbaycan dostu bir para fransızlarla yanaşı diplomatiya aləmini təmsil edən şəxslər də vardı.

Məclis nümayəndə heyəti başçısı tərəfindən oxunan təbrik nitqilə açılmış, sonra gələn təbrik teleqramları oxunmuşdur. Fransız qonaqlardan müsyo Lenay günə dair çox hərarətli bir nitq söyləmişdir.

Sonda Azəri xanımları qonaqlara çox yaxşı xidmət etmişlər.

TEHRANDA

28 May münasibətilə Tehranda məskunlaşan azərbaycanlılar bir məclis təşkil edərək bu günü qeyd etmişlər. Məclis salonu Azərbaycan xəritəsi, milli bayraqlar və simvolları ilə bəzədilmişdi.

Məclisdə 28 May günü münasibətilə nitqlər söylənmiş, Azərbaycan Cümhuriyyəti - istiqlal günləri xatırlanmış, bu yolda şəhid olanların xatirəsi yad edilmişdir.

Məclis iştirakçıları Azərbaycan istiqlalı uğrunda böyük xidmətlər göstərmiş «Musavat» partiyası icra heyəti vasitəsilə bütün partiya üzvlərini, Milli Mərkəz vasitəsilə bütün azərbaycanlıları təbrik etmək barədə qərar vermişlər. Eyni zamanda «Odlu Yurd» məcmuəsini də təbrik etmişlər.

BERLİNDƏ

28 May axşamı keçən il həmin gün sinəmə taxdığım Azərbaycan bayrağını yenidən köksümə taxıb «Almaniyada Azərbaycan İstiqlal Komitəsi»nin təşkil etdiyi mərasimə getdim. Salona girincə gözümün önündə Azərbaycan canlandı. Divarların hamısına istiqlal bayraqları sancılmış, onların rəngləri sanki «Azərbaycan yaşayır» deyirdilər. Masaların üstünə 12 müxtəlif adda Azərbaycan istiqlal nəşrləri qoyulmuşdu. Bunlardan: «İstiqlal mücadiləsi və gənclik», «Azərbaycan tarixi», «Azərbaycan xəritələri», «Yeni Qafqasiya», «Odlu - Yurd» və başqa bu kimi Azərbaycanı bizə tanıdan nəşrlər gözə dəyirdi.

Saat 9-a yaxın salon artıq dolmuşdu. Başda istiqlal komitəsinin rəisi, sağında Gürcüstan, solunda Türküstan nümayəndələri, sonra «Türkiyə Tələbə Cəmiyyəti», ərəb nümayəndəsi, İran Azərbaycanı türkləri və bir sözlə, Altay dağlarından başlayaraq «Cəbelüttarix»ə qədər Türk -Tatar, ərəb nümayəndələri burada təmsil olunmuşdu. Müxtəlif türk ləhcələrinin ahəngi, ərəb, alman dillərinin səsləri sanki divardakı bayraqları dalğalandırırdı. Salon canlı bir türk ölkəsi tablosunu andırırdı.

Saat doqquz tamamda «Almaniya Azərbaycan İstiqlal Komitəsi» rəisi məclisi açıq elan edərək nitqə başladı. Arkadaş bizi bayramla təbrik edərək, uzun və müfəssəl bir surətdə Azərbaycanın siyasi tarixini izah etdi. Rəis nitqinin bir yerində: arkadaşlar, Azərbaycan sadə bir türk Cümhuriyyəti kimi təsis edilmir, Azərbaycan xalis türk qanının axıdılması ilə vücuda gələn, müstəqil və hürr bir türk ölkəsi olmasından dolayı təbrik edilməkdədir. Azərbaycan tarixsiz təsis edilmiş bir ölkə deyildir Burası eyni zamanda digər türk ölkələrindən gələn yardımçı türk qardaşlarının da məzarıdır ki, sizləri bu bayram münasibətilə buraya toplamışdır.

Bu gün bu sevimli məclisdə bir səslə «Yaşasın hürr Azərbaycan!» söyləməklə əmin edəlim ki, Azərbaycanı yaşadacaq və onun hürriyyəti üçün öləcəyiz!

Rəisdən sonra gürcü səfiri Axmeteli sözə başlayaraq gürcücə «Azərbaycansız Gürcüstan təsəvvür edilməz. Bu iki ölkə birbirinə siyasətlə və qardaşlıq hissi ilə bağlıdır. Azərbaycanın varlığı eyni zamanda Gürcüstanın varlığı deməkdir. Bu etibarla qardaş Gürcüstan adından Sizi təbrik edir və səmimi gürcü qəlbindən doğan bir hörmətlə «Yaşa hürr müstəqil Azərbaycan yaşa!» deyirəm».

Sonra Türkiyə Tələbə Cəmiyyəti rəisi söz alaraq Azərbaycanın bayramını təbrik etdi. Sıra ilə Türküstan, Kazan, ərəb, Berlin gürcü və Berlin Azəri koloniyası rəisləri söz alaraq bayramda səmimiyyətlə iştirak etdilər.

Saat 23-də rəis müsafirlərə təşəkkür etdi. Məclis artıq qeyri-rəsmi olmuşdu. Qonaqlara çay, pasta, limonad, şəkərləmələr, dondurmalar təklif edilməyə başladı... Hər kəs şad və bəxtiyar idi. Təkcə azərilərin çöhrəsində bir iztirab duyulurdu ki, bu iztirabda azad vətənlərində müstəqil dövrdə yaşadıqları bayramları xatırlamaqdan irəli gəlirdi.

Qonaqlar ta gec vaxta qədər məclisdən ayrılmayaraq günün mövzuları üzərində müsahibədə bulunurdular.

A.ORAN

İstanbul, «Odlu -Yurd» *məc.№5, iyul 1929*

BDU-DA DAHİ ÜZEYİR BƏY ANILDI

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində mətbuat tarixi kafedrasının təşkilatçılığı ilə dahi bəstəkar, Şərqdə opera sənətinin banisi, publisist Üzeyir Hacıbəylinin vəfatının 60 illiyinə həsr edilmiş elmi konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə açan fakültənin dekanı Yalçın Əlizadənin təklifi ilə görkəmli ədibin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra Y.Əlizadə qeyd etdi ki, Azərbaycan, rus və dünya klassik ədəbiyyatı və incəsənətinin mütərəqqi ənənələrini dərindən mənimsəyən Ü.Hacıbəyli ömrünün 45 ilini doğma xalqımızın mədəniyyətinin yüksəldilməsinə, ölkə musiqisini inkişaf etdirərək, yeni keyfiyyətlədə zənginləşdirərək dünyada tanınmasına və sevilməsinə sərf etmişdir. Eyni zamanda, böyük ədib satirik felyetonları, dərin məzmunlu məqalələri ilə Azərbaycan mətbuatını yeni pilləyə qaldırmışdır. Onun yazıları gənc jurnalistlər nəsli üçün bir örnəkdir.

Sonra professor Şirməmməd Hüseynov «Üzeyir Hacıbəyli və Azərbaycan mətbuatı» mövzusunda məruzə edərək faktlar əsasında onun publisistik fəaliyyətinə işıq saldı. Professor Ü.Hacıbəylinin 1945-ci ildə universitetdə tələbələrlə görüşü, 1948-ci ildə vəfatı, dəfn mərasimində bir qrup tələbə ilə birlikdə iştirakı, Mircəfər Bağırovun matəm mərasiminə gəlməsi, Bülbülün «Sənsiz»i oxuması haqqında xatirələrini danışdı. Nəzərə çatdırdı ki, ilk dəfə Üzeyirin istedadını üzə çıxarıb onu Qori seminariyasına aparan Firudin bəy Köçərli olmuşdur. Üzeyir bəy 1905-1920-ci illərdə jurnalistlik fəaliyyətilə məşğul olmuş, «Həyat», «İrşad», «Tərəqqi», «Həqiqət», «Molla Nəsrəddin», «İqbal», «Yeni iqbal», «Açıq söz» və digər mətbu orqanlarında ən aktual mövzularda çıxışlar etmiş, «Azərbaycan» qəzetinin ilk redaktorlarından biri olmuşdur.

Ü.Hacıbəylinin komediyalarındakı mütərəqqi, demokratik fikirlər, köhnə həyatın və geriliyin tənqidi, zülmkar təbəqələrin nümayəndələrinə qarşı satirik gülüş öz başlanğıcını publisistikadan almışdır. O, publisistik yazılarında mütərəqqi ictimai-siyasi

fikirləri müdafiə etmişdir. Yazıçının publisistik yazıları öz tematik genişliyi, ədəbi mənbələrdən, xüsusilə Şərq ədəbiyyatından gətirdiyi misallarla hər kəsi heyran qoymuşdur. Ü.Hacıbəyli «Molla Nəsrəddin»in yolunu davam etdirərək hər şeydən yazmış və cəmiyyətdəki eybəcərlikləri qamçılamaqla yanaşı, onlardan qurtuluş yollarını da göstərmişdir.

Şirməmməd Hüseynov sözünə davam edərək bildirmişdir ki, Üzeyir bəy publisistik yazıları ilə humanizmin, haqq-ədalətin azadlığın böyük müdafiəçisi kimi çıxış etmişdir. O, şəxsiyyət azadlığının, fikir azadlığının qızğın tərəfdarı olmuşdur. Ü.Hacıbəyli «Azərbaycan» qəzetində 98 məqalə dərc etdirmişdir. Natiq xüsusi vurğulamışdır ki, ədibin əsərlərinin 10 cildliyinin çap edilməsi barədə sərəncam verilməsinə baxmayaraq, yalnız 4 cildi - 1915-ci ilin oktyabrınadək olan məqalələri kobud redaktə ilə çap edilmişdir. Bu gün ədibin əsərlərinin 10 cildliyinin akademik nəşrinə böyük ehtiyac var. Üzeyir bəy Azərbaycan xalqı üçün çox böyük mənəvi irs qoyub getmişdir. Onun irsi tədqiqatçılar tərəfindən dərindən araşdırılmalı və xalqın ixtiyarına verilməlidir. Bu günlərdə ölkə Prezidentinin sərəncamı ilə Bakı Müsiqi Akademiyasına yenidən Üzeyir Hacıbəylinin adının verilməsi əlamətdar hadisə kimi dəyərləndirilməlidir. 63 il şərəflə yaşayan, 1948-ci il noyabrın 23-də dünyasını dəyişən dahi ədəbin xatirəsi daim ehtiramla yad olunur.

Sonra fakültənin professorları Şamil Vəliyev «Azərbaycan» qəzetinin materialları əsasında «Azərbaycan publisistikasında Üzeyir Hacıbəyli məktəbi», Cahangir Məmmədli «Üzeyir Hacıbəyli irsinin müasirliyi» mövzularında çıxışlar edərək görkəmli ədibin bu sahələrdəki fəaliyyətini yüksək dəyərləndirdilər. Professor Aydın Dadaşov və Ü.Hacıbəyli ev muzeyinin direktoru Sərdar Fərəcov ədibin publisistik fəaliyyətinin ayrı-ayrı məqamlarına ayna tutdular.

Sonda mərasim iştirakçıları Ü.Hacıbəylinin həyat və yaradıcılığına həsr edilmiş «Kitab şərgisinə» tamaşa etdilər.

Adilə QOCAYEVA,
«Azərbaycan» qəz. *23.XI.08*

MÜNDƏRİCAT

1. Öz gözü ilə görüb öz ağlı ilə düşünmək 3
2. Azərbaycan mətbuatında Novruz 7
3. Müstəqil Azərbaycan Demokratik Respublikası olmasaydı 15
4. Müstəqilliyin yolu 24
5. Dərd həmin dərddir 32
6. İstiqlal bütün xalqın əsəridir 44
7. Azərbaycan istiqlalının elanı 45
8. Xalqın ruhundan doğan hadisə 51
9. Milli cümhuriyyətimizin ikinci paytaxtı 56
10. Tariximizin iftixar səhifələri 1884 - 31 yanvar-1991 59
11. Bir kəfə yüksələn bayraq... 65
12. Tarixin ibrət səhifələri 71
13. İslam dini və ana dili 76
14. Müstəqillik çətin yoldur 83
15. Şeyx Şamilə hörmət və məhəbbət 85
16. Yetmiş üç il sonra 89
17. Dövlət quruluşumuzun milli dirçəliş günündə düşüncələr 103
18. Şəki inqilabdan əvvəlki mətbuat səhifələrində 105
19. «Qəzet gərək xalqın aynası olsun» 108
20. «Əkinçi»dən öyrənək 110
21. Şəki inqilabdan əvvəlki mətbuat səhifələrində 113
22. Şəxsiyyət və milli dəyərlər: Tarix nə deyir? 117
23. Sağ əliniz başımıza! 119
24. «Kavkazski kalendar»da yazılmışdır 121
25. Federasiya öldü, sonra? 123
26. Yeni avazla köhnə bayatılar kimə gərəkdir? 125
27. Sağlam birlikdən quvvət doğar 128
28. Milli müqəddəsimiz 131
29. Amerikaya, yoxsa Türkiyəyə çatmaq? 132
30. Niyə «mübarizəsiz» və «düşmənsiz» keçinmək olmur? 133
31. Ayılmaq, iş görmək vaxtı deyilmi? 135
32. Bədbəxtliyə niyə ortaq olmalıyıq? 139
33. Torpaq kəndlinin, bəs məhsulu?.. 142
34. Gedirdilər və yenə də gedirlər 144
35. Siyahıda yerlər dəyişir: Allah sonrasından saxlasın! 147
36. Özününkü və özgə 149

37. İmperiya dağılır, ruhu qalır 150
38. Türkiyəyə çatmaq asandırmı? 152
39. Kim kimi soyur? 153
40. Açılıb-bağlanan pəncərələr, qapılar 156
41. Sahiblik yox, maya yalan, məhsul zay 158
42. Hansı qorxuludur: İslam ya kommunizm? 160
43. Bordan çox danışılır, alacaqdan yox. Niyə? 161
44. Bu işlərin axırı necə olacaq? 163
45. Əcəb bərabərlik, əcəb ittifaq imiş 165
46. Ölkə irəliləyir, amma hara? 168
47. «İpəkçi»ni maraqlı və oxunaqlı edən nədir? 170
48. Kiminə matəm, kiminə bayram 171
49. Tora salırlar, ya duşurük? 174
50. Rüşvətxorluq bəlası bizə haradan gəlib? 176
51. Millət sizə minnətdardır! 179
52. Hədə-qorxu, yoxsa real təhlükə? 182
53. «Oyun» nə qədər çəkəcək? 186
54. Biz hara gedirik? 190
55. Vertolyot qəzaya uğrayıb, yoxsa vurulub? 195
56. Qətiyyət və cəsarət vaxtıdır 198
57. Hökmü zaman verir, Moskva və Tehran yox! 200
58. Ümidimiz, şərəfimiz, namusumuz - ordumuz! 204
59. İttifaq dövlətinin fatihəsi verildi. Sonra? 207
60. İlan vuran ala çatıdan qorxar 210
61. Şeytan karxanası işləyir 214
62. Ömrü tarixə çevirək 215
63. Əməkdaşlıq, soymaq və soyulmaq 216
64. Siyasi rejissorluq asan iş deyil 220
65. Təki yağışdan çıxıb, yağmura düşməyək 221
66. Keçmişimiz, gələcəyimiz... 224
67. Məhəmməd Əmin Rəsulzadə 227
68. Zaman keçsə də bəla elə haman bəladır 233
69. Böhran çox dərindir, ondan asanlıqla çıxmaq olmayaçaq 237
70. İnsaf dinin yarısıdır 240
71. İstiqlaliyyət havası və məsuliyyəti hiss olunurmu? 245
72. Ordunun taleyi necə olacaq? 248
73. Yelena qan-qan deyir 250
74. Şərəfli, məşəqqətli istiqlal yolu 252

75. Tərəqqi, yoxsa fitnə-fəsad 255
76. Fəda ol -qədr gör! 258
77. Cürük zəmində birlik olmaz 263
78. Nə qədər dözmək olar? 265
79. Kimə sahiblik edirik: diriyə, yoxsa ölüyə? 267
80. Milli qeyrət və milli tərəqqi diyarı Şəki 275
81. Dövran yeni, bəlalar köhnə... 280
82. Diktaturadan demokratiya yarana bilməz 282
83. Ermənilər indi də Türkiyəni çalxalamaq istəyirlər 288
84. Yenə də islam fundamentalizmi və saman çöpü haqqında 289
85. Tariximizin ibrətamiz səhifələri 290
86. Zamanın sınağından çıxdı «Müsavat» 293
87. Oktyabrın 17-si 295
88. Şəkili Hacıbala bəyin vəsiyyəti 299
89. 1906: Yenə də müsibətmi? 301
90. 1992: Bəli, yenə də müsibət! 303
91. Əsrin əvvəlindən bu günümüz görünür 305
92. Türk birliyi reallaşacaqmı? 309
93. Körpü sudan yenə də uzaqdır 314
94. Vətənin iki mücahid övladının ilk görüşü 315
95. Yanğılı ürəyin fəryadı 320
96. Mustafa bəy və Əfruz xanımın faciəsi 325
97. İslama qarşı yeni sipər axtarırlar 327
98. Lovğalıq və milli təkəbbür nəyə və kimə gərəkdir? 330
99. O, vətəni bütöv görürdü 332
100. İpək yolu niyə od tutub yanır? 337
101. Dosta təşəkkür, zindandan qaçış. M.Ə.Rəsulzadə və İ.V.Stalin .. 340
102. V. Stalin. Dəfn mərasimindən kiçik bir xatirə 347
103. Deyəsən zaman göstərəcək 350
104. Demokratiya şüarı və real həqiqət 352
105. Eşidən qulaq, nəcabət, dərin düşüncə gərək 354
106. İran-Azərbaycan əlaqələri tarixindən səhifə 357
107. Deyəsən «siyasi gömrükxana» da işə düşür 362
108. Tarixin dərsləri və bugünkü halımız 365
109. Baş aparıb, sümük qaytarırlar: məqsəd nədir? 367
110. İslamla vuruş hələ qabaqda imiş 369
111. Tərəqqi üçün azadlıq və istiqlal gərəkdir 371
112. «Müsavat»da müsahibə 372

113. 28 may və istiqlal təzadları 377
114. İkinci təcrübəni qoruya biləcəyikmi? 380
115. Azərbaycan istiqlalı dramı 383
116. İçimizi, çölümüzü düzəldək! 390
117. İşığımız sönməyəcəkdir 392
118. «Bu dövləti Rəsulzadə yaradıb» 395
119. Milli qətliam 401
120. Ramiz Rövşənə açıq məktub 409
121. Cümhuriyyətin 90 illiyinə cəmi 1 il qalıb 413
122. Öyrədən bir müsibət 417
123. İstiqlal bayramı 421
124. Böyük tarixlə görüş 434
125. AXC-90 440
126. Sabirə aid bir xatirə 445
127. Mən, Türkiyənin problemlərdən çıxacağına inanıram 452
128. Böyük vətəndaş şairimiz Abbas Səhhət 454
129. Bizdə milliyyət duyğusu ölür 454
130. İstiqlal mücahidlərinin nəşri-əfkarı 457
131. Müstəqilliyin çətin yolu Şirməmməd Hüseynovun gözü ilə ... 461
132. Gərək millətin öz canında ola 465
133. Tarixi hakimiyyət üçün yazmazlar 467
134. Prof.Ş.Hüseynovun H.Zərdabinin vəf.100 illiyi ilə əlaqədar .. 469
135. Azərbaycan mətbuatının ağsaqqalı Ş.Hüseynov 515
136. Vətəndən kənarda, vətənhəsrətli 28 may istiqlal bayramları .. 523

Ş.Hüseynov

Müstəqilliyin çətin yolu...
Reallıqlar, düşüncələr

Bakı - «Elm» - 2009

«Elm» Redaksiya-Nəşriyyat və Poliqrafiya Mərkəzi

Direktor: Ş.Alışanlı
Baş redaktor: T.Kərimli
Mətbəənin müdiri: Ə.Məmmədov
Kompüter tərtibi: Ə.Kərimov
Texniki redaktor: T.Ağayev

Formatı 60x84 1/16.
Həcmi 33,75 ç.v.
Tirajı 200. Sifariş №33.
Qiyməti müqavilə ilə.

"Elm" RNPM-nin mətbəəsində çap edilmişdir.
(Bakı, İstiqlaliyyət, 8)

73(2A)
H 98

